AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR
NAZİRLİYİNİN POLIS AKADEMİYASI

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

**ƏLİYEV E.Ə.,**
**hüquq üzrə elmlər doktoru**

# POLİS HÜQUQU

## DƏRSLİK

***Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr***

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının Elmi Şurası tərəfindən təsdiq edilmişdir (protokol № 2, 19 dekabr 2016-cı il).*

**BAKI - 2019**

*Əsər Bakı Dövlət Universiteti «Hüquq» Fakültəsi Elmi Şurasının qərarı əsasında (protokol № 05, 19 mart 2012-ci il) çapa tövsiyə olunmuşdur.*

Ə –1957

**Əliyev Etibar Əli oğlu. "Polis hüququ". Dərslik. Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 552 səh.**

Dərslikdə müəllif tərəfindən elmi dövriyyəyə daxil edilən «polis hüququ» anlayışı, onun təşəkkül tapması və inkişaf tarixi, polis hüququnun predmeti, metodu, sistemi, subyektləri və mənbələri, habelə polis-hüquq normaları, polis hüququnda nəzarət və məsuliyyət kimi aktual məsələlərə toxunulur, onların mahiyyəti açıqlanır.

Dərslikdə «polis hüququ» konstruksiyasının milli hüquq sistemində mövqeyi inzibati hüquq kontekstində onun yarımsahəsi kimi elmi cəhətdən araşdırılır, əsas institutların mahiyyətinə aydınlıq gətirilir. Əsər Azərbaycan milli hüquq elminə daxil edilən yenilik kimi hüquq sistemində mövcud olan boşluqların doldurulmasına, hüquqi nihilizm təzahürlərinin və alqoritmlərin aradan qaldırılmasına xidmət edir.

Kitabdan ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, polis əməkdaşları, hüquq elmi sahəsində çalışan mütəxəssislər və praktik işçilər faydalana bilərlər.

İSBN

**© E.Ə.Əliyev, 2019**

*Elmi redaktor:*

**Əliyev Ə.İ.,** Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti «Hüquq» Fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor.

*Məsul redaktor:*

**Nəcəfquliyev R.İ.,** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası «Daxili işlər orqanlarının inzibati fəaliyyəti» Kafedrasının rəisi, hüquq üzrə fəlsəfə doktoru, dosent, polis polkovnik-leytenantı.

*Rəyçilər:*

**Mustafayeva A.İ.,** Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq üzrə elmlər doktoru, professor;

**Əliyev S.F.,** Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti «Konstitusiya hüququ» Kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru;

**Nağıyev F.T.,** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası «Hüquq» Kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent;

**Əliyev F.Ə.,** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası Tədris-metodiki Şöbəsinin rəisi, polis polkovniki.

*Redaksiya qrupu:*

**baş redaktor:** **Hüseynova F.E.,** BDU «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» Kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru;

**texniki redaktor:** **Pənalıyeva Z.T.,** «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnalın texniki redaktoru;

**redaktorlar:** **Hüseynov M.H.,** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin şöbə rəisi, hüquqşünas, polis polkovnik-leytenantı;

**Əliyev E.E.,** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Bakı şəhər BPİ Binəqədi RPİ 46-cı PB-nin əməkdaşı, hüquqşünas, polis kapitanı.

**Ələsgərova S.Q.** «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnalı Redaksiya Heyətinin üzvü, operator.

**«Polis peşəsi ağır peşədir... O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir».**

***Heydər Əliyev,***
***Ümummilli lider***

**«Polis işçiləri xalqla birbaşa təmasda olan insanlardır. Ona görə bu, mənim əsas tələbimdir: həm qətiyyət olmalıdır, çox böyük peşəkarlıq olmalıdır, həm də polis işçiləri özlərini çox mədəni şəkildə aparmalıdırlar».**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# ÖN SÖZ

Qədim yunan filosofu Aristotel tərəfindən vaxtilə irəli sürülən və sivilizasiyanın tanıdığı «hüquqi dövlət» ideyası öz müstəqilliyini bərpa etmiş suveren Azərbaycan Respublikasının əsas qanunu sayılan Konstitusiyanın fundamental əsaslarından biridir. Bildiyimiz kimi, ölkə qanunvericiliyinin normativ-hüquqi bazası hesab edilən, həmçinin qanunlar sırasında ali hüquqi qüvvəyə malik olan həmin sənəd ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü, bilavasitə iştirakı və rəhbərliyi altında 1995-ci il noyabrın 12-də referendum – ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir. Konstitusiyanın 7-ci maddəsinin 1-ci hissəsi Azərbaycan dövlətini demokratik, dünyəvi, unitar, o cümlədən hüquqi dövlət qismində xarakterizə edərək, hakimiyyət bölgüsü prinsipini onun əsas və başlıca xarakterik əlaməti kimi müəyyənləşdirir. Həmin prinsipə görə, Azərbaycan Respublikasında dövlət hakimiyyəti Konstitusiyanın müddəalarına əsaslanan, bir-biri ilə qarşılıqlı fəaliyyət göstərən, öz səlahiyyətləri çərçivəsində müstəqil olan qanunvericilik, icra, həm də məhkəmə hakimiyyəti tərəfindən həyata keçirilir və realizə olunur.

Dövlət hakimiyyətinin müstəqil sahələrindən (qollarından) biri sayılan icra hakimiyyətinin rolu və əhəmiyyəti onun bilavasitə dövlətin praktiki idarəçilik fəaliyyətini həyata keçirməsi ilə bağlıdır. Praktiki idarəçilik fəaliyyəti realizə olunmadan isə, təbii ki, dövlətin öz funksiyalarını yerinə yetirməsi mümkünsüzdür. Qanunlar əsasında konkret funksiyaları yerinə yetirən və onları realizə edən icra hakimiyyəti orqanları təhsil, daxili işlər, səhiyyə, sosial-təminat, müdafiə və digər sahələrdə praktiki idarəçilik fəaliyyətini həyata keçirirlər.

Davamlı və stabil inkişafın əsası olan ictimai-siyasi sabitliyin təmin olunmasında müstəsna rolu olan və dövlətin praktiki idarəçilik fəaliyyətinin həyata keçirilməsinin əsas dayaqlarından biri də polis orqanlarıdır.

Azərbaycan Respublikasının polis orqanları dövlət icra hakimiyyəti orqanları sistemində əhəmiyyətli rol oynayaraq xüsusi yer tutur. Bu onunla izah edilir ki, cəmiyyət, şəxsiyyət və dövlətin mövcudluğu üçün polis orqanlarının fəaliyyəti mühüm əhəmiyyətə, mübaliğəsiz deyə bilərik ki, prioritet rola malikdir. Polis orqanlarının çoxşaxəli və müxtəlif spektrli fəaliyyəti sülh və bəşəriyyətin təhlükəsizliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının, mülkiyyətin, iqtisadi fəaliyyətin, ictimai qaydanın və ictimai təhlükəsizliyin, ətraf mühitin, ölkənin konstitusion quruluşunun hüquqazidd əməllərdən qorunmasına yönəlmişdir.

Dünya birliyinin tamhüquqlu üzvü olan Azərbaycan Respublikası öz üzərinə düşən vəzifələri icra etmək və qarşıya qoyulan məqsədə nail olmaq üçün nəinki iqtisadi, sosial, mədəni-tərbiyəvi və ekoloji, həmçinin hüquq-mühafizə funksiyasını da yerinə yetirir. Dövlətin ölkədə hüquq qaydasının qorunmasına və vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə yönələn hüquq-mühafizə fəaliyyəti insan hüquqlarının realizəsi məqsədinə istiqamətlənmişdir.

Azərbaycan dövləti göstərilən funksiyanı hüquq-mühafizə orqanları vasitəsi ilə həyata keçirir ki, polis orqanları onlar arasında fəaliyyət istiqamətinə və səlahiyyət dairəsinə görə seçilirlər. Polis orqanlarının fəaliyyəti, əsasən, ölkədə təhlükəsizliyin təmin olunmasına, hüquq qaydasının mühafizə edilməsinə, vətəndaşların həyat, sağlamlıq və mülkiyyətinin qorunmasına, eləcə də şəxsiyyət, cəmiyyət və dövlət üçün vacib əhəmiyyəti olan digər obyektlərin mühafizə olunmasına yönəlmişdir. Hətta bəzi xarici ölkələrdə dövlətin mühüm funksiyaları polis tərəfindən həyata keçirilir. Elə bu baxımdan, ABŞ, Böyük Britaniya, Fransa və Almaniya «polis dövləti» (polizeistaat) he-

sab edilir. Bu kimi ölkələr bir tərəfdən demokratik və hüquqi, digər tərəfdən isə polis dövləti kimi xarakterizə olunur. Nəzərə almalıyıq ki, göstərilən dövlətlərdə, ümumiyyətlə istənilən dövlətdə polis funksiyası, adətən, hüquq-mühafizə funksiyası ilə əhatə olunur.

Banisi ümummilli liderimiz Heydər Əliyev olduğu müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında, qorunmasında və möhkəmləndirilməsində dövlətin əsas sütunlarından sayılan Azərbaycan polisinin müstəsna xidmətləri vardır. Belə ki, çağdaş tariximizin ən yeni mərhələsində (1991–1993-cü illərdə) Azərbaycanın qazandığı müstəqillik sırf formal xarakter daşımaqla, dövlət idarəçiliyində və cəmiyyətdəki ictimai xaos, tənəzzül, daxili işlər orqanlarındakı qeyri-sağlam mühit, çəkişmələr və digər amillərin təsiri nəticəsində ölkədə kriminogen durum tam olaraq nəzarətdən çıxmışdı, ümumilikdə isə ölkənin ictimai-siyasi həyatında qeyri-sabitlik hökm sürürdü, hərcmərclik, qarşıdurma və vətəndaş müharibəsi vəziyyəti yaranmışdı.

Belə bir şəraitdə 1993-cü il iyunun 15-də xalqın israrlı tələbi ilə siyasi rəhbərliyə qayıdan ulu öndər Heydər Əliyev qanunçuluq və dövlətçilik prinsiplərini rəhbər tutaraq, hökm sürən özbaşınalığa son qoymuş, ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas edərək, ictimai-siyasi sabitliyin təmin edilməsinə, Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasına və demokratik hüquqi dövlətin möhkəm əsaslarla qurulmasına nail olmuşdur. 1994-cü ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi təşkilati qaydada möhkəmlən-dirildikdən sonra, məhz həmin dövrdən etibarən ulu öndərin rəhbərliyi altında Azərbaycan polisinin fəaliyyətində və təkmilləşdirilməsində yeni inkişaf mərhələsi – əsl milli quruculuq və dövlətçilik ənənələrinə sadiqlik ruhunda funksional və struktur islahatlar həyata keçirilməyə başlandı, polis-hüquq münasibətlərini tənzimləyən silsilə normativ hüquqi aktlar qəbul edildi.

Ulu öndərin elmi əsaslara söykənən siyasi-iqtisadi kursunu dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirərək uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Cənab Prezidentin dediyi kimi, «hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir». Bu gün Azərbaycan polisi inkişaf və yeniləşmə mərhələsini yaşayır. O, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, hüquq pozuntularının qarşısının alınması, həm də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi kimi vacib istiqamətlərdə fəaliyyət göstərir.

Polis cəmiyyətdə daxili sabitliyi, ictimai təhlükəsizliyi qoruyan və cinayətkarlıqla mübarizə aparan dövlət icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanıdır. Şübhəsiz, əsas təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qorumaqdan ibarət olan polis qarşısına qoyduğu məqsədə nail olmaq və üzərinə düşən vəzifələri lazımınca yerinə yetirmək üçün kifayət qədər zəngin normativ hüquqi bazaya söykənməlidir. Polis fəaliyyətinin hüquqi cəhətdən tənzimlənməsi isə müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir ki, həmin normaların sistemi polis hüququnun məzmununu təşkil edir. Polis hüququnun məzmununu təşkil edən müxtəlif hüquq normaları «Polis haqqında» (1999-cu il), «Əməliyyat-axtarış fəaliyyəti haqqında» (1999-cu il), «Yol hərəkəti haqqında» (1998-ci il) və s. qanunlarda, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında cəmlənmişdir. Polis hüququnun əsas funksiyası polis fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləməkdən, hüquq qaydasını, vətəndaşların həyatını, sağlamlığını və mülkiyyətini qorumaqdan, habelə ölkədə təhlükəsizliyi təmin etməkdən ibarətdir.

Heç də sirr deyil ki, planetimizin siyasi-inzibati xəritəsində müstəqil dövlət kimi tanınan və beynəlxalq birliyə inteqrasiya olunan Azərbaycan Respublikası sosial-iqtisadi proseslərin qloballaşması dövründə, III minilliyin başlanğıcında sivil, mütərəqqi və inkişaf etmiş ölkələr sırasına doğru inamlı addımlarla irəliləyir. Beynəlxalq aləmdə və xarici iqtisadi praktikada məşhur «Əsrin müqaviləsi»nin reallaşması, Tarixi İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, daha sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin fəaliyyətə başlaması və digər irimiqyaslı qlobal ticarət layihələrinin reallaşdırılması böyük strateji uğur və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolunda həlledici amil oldu. Ölkəmizdə bazar təsərrüfatı modelinə əsaslanan bazar iqtisadiyyatı formalaşmış, onun əsas hərəkətverici qüvvəsi olan azad ticarət və sahibkarlıq fəaliyyəti geniş vüsət almışdır. Ölkə iqtisadiyyatında vacib əhəmiyyətə malik olan bu işlərin layiqincə və uğurla yerinə yetirilməsi üçün, şübhəsiz, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, sosial əmin-amanlığın yaradılması, habelə Azərbaycan Respublikasının konstitusiya quruluşunun cinayətkar qəsdlərdən qorunması tələb edilir.

Sevindirici haldır ki, Heydər Əliyevin dövlətçilik fəlsəfəsinə, idarəetmə məktəbinə dərindən bələd olan, onu yeni dövrün tələbləri baxımından daha da zənginləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəllifi olduğu müstəqil dövlətimizin gələcək inkişaf strategiyasını öz möhtəşəm fəaliyyəti ilə uğurla həyata keçirir və bunun da sayəsində ölkəmiz regionun qüdrətli lider dövlətinə çevrilmişdir. Ölkə başçısının uzaqgörən siyasi lider qətiyyəti ilə söylədiyi kimi, «Azərbaycanın artan iqtisadi potensialı bizə istənilən məsələnin həllinə imkan yaradır. İqtisadi potensialın artması da, öz növbəsində, Azərbaycanda bərqərar olmuş sabitliyin nəticəsidir. Bu, başlıca şərtdir. Sabitlik olmayan ölkələrdə, ictimai təhlükəsizlik olmayan bir ölkədə heç vaxt, heç bir inkişafdan, nə siyasi, nə də iqtisadi inkişafdan söhbət gedə bil-

məz». Təkzibedilməz və sübuta ehtiyacı olmayan həqiqət bundan ibarətdir ki, aktual sayılan və prioritet əhəmiyyətə malik olan belə məsələlərin həllində polis fəaliyyəti, eləcə də bu fəaliyyəti hüquqi cəhətdən tənzimləyən və nizama salan polis hüququ vacib rol oynayır.

Oxucu auditoriyasına və hüquq ictimaiyyətinə təqdim olunan bu əsər məhz polis hüququnun vacib məsələlərinə həsr edilmişdir; bu, ölkənin milli hüquq təcrübəsində və tarixində polis hüququna dair ilk dərslikdir. Əsərdə müəllif tərəfindən Azərbaycan Respublikasında ilk dəfə elmi dövriyyəyə daxil edilən «polis hüququ» anlayışı, onun yaranması və tarixi inkişafı, polis hüququnun definisiyası, nizamasalma predmeti və sistemi, polis hüququnun subyektləri, institutları və mənbələri, polis-hüquq normaları, polis hüququnda nəzarət və məsuliyyət kimi aktual məsələlərə toxunulur, onların mahiyyəti açıqlanır.

Əsəri fərqləndirən xüsusiyyətlərdən biri odur ki, o, polis hüququnun ümumi müddəalarını və xüsusi hissəsini ehtiva etməklə, kifayət qədər aktual məsələləri əhatə edir və onlar xüsusi elmi metod və yanaşmalar tətbiq edilməklə tədqiq olunur.

Digər təqdirəlayiq məqam ondan ibarətdir ki, polis hüququ milli hüquq sistemində ilk dəfə olaraq, inzibati hüquq kontekstində onun yarımsahəsi kimi elmi cəhətdən hərtərəfli şəkildə araşdırılır, əsas polis-hüquq institutlarının mahiyyətinə aydınlıq gətirilir.

Polis haqqında müasir qanunvericilik aktları, ən yeni normativ hüquqi sənədlər, çoxsaylı elmi mənbələr və emprik təcrübə əsasında hazırlanmış bu əsər Azərbaycanın milli hüquq elminə gətirilən yenilik kimi hüquq sistemində mövcud olan boşluqların doldurulmasına, hüquqi nihilizm təzahürlərinin və alqoritmlərin aradan qaldırılmasına xidmət edir.

Ümüd edirik ki, polis fəaliyyətinin həyata keçirilməsi ilə bağlı aktual məsələləri elmi cəhətdən işıqlandırdığına görə

dərslik hüquq ictimaiyyəti tərəfindən maraqla qarşılanacaqdır.

Kitabdan ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, polis əməkdaşları, hüquq elmi sahəsində çalışan mütəxəssislər və praktik işçilər faydalana bilərlər.


**ƏLİYEV N.T.,**

**DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq üzrə elmlər doktoru, dosent.**

# *I BÖLMƏ.*
# ÜMUMİ HİSSƏ.
# POLİS HÜQUQU HAQQINDA ÜMUMİ MÜDDƏALAR

## I FƏSİL. AZƏRBAYCANDA POLİS HÜQUQUNUN YARANMASI VƏ TARİXİ İNKİŞAFI

### 1.1. Azərbaycanda polis hüququnun yaranması və onun tarixi inkişaf mərhələləri

Cəmiyyətdə ictimai asayişin qorunması, ictimai təhlükəsizliyin təmin edil-məsi və cinayətkarlığa qarşı mübarizə aparılması sahəsində polis[1] vahid mərkəz-ləşdirilmiş hüquq-mühafizə orqanı kimi əhəmiyyətli rol oynayır. Polis fəaliyyəti idarəetmə fəaliyyətinin növlərindən biridir. Dövlət özünün daxili işlər orqanları (DİO) və onun tərkib hissəsi olan polis orqanları tərəfindən bu vəzifələrin yerinə yetirilməsində müəyyən hüquqlardan alət və vasitə kimi istifadə edir. Bu cür fəaliyyət müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir ki, onların sistem şəklində məcmusunu «polis hüququ» adlandırmaq olar.

Məlum məsələdir ki, hüquq ictimai münasibətlərin dövlət tənzimləyicisi kimi yaranmışdır. Deməli, dövlətin yaranma prosesi, eyni zamanda, hüququn təşəkkül tapması prosesi ilə paralel olmuşdur. Dövlət və hüquq bir-birilə sıx surətdə bağlı olan sosial (ictimai) hadisələrdir. Onların hər ikisi cəmiyyətin

---

[1]Terminoloji lüğətlərdə göstərildiyi kimi, «polis» ifadəsi yunanca «politeia», almanca «polizei» sözündən əmələ gəlmişdir və mənası dövlət işlərini idarəetmə deməkdir; polis cəmiyyətdə daxili sabitliyi, ictimai təhlükəsizliyi qoruyan və cinayətkarlıqla mübarizə aparan icraedici dövlət hakimiyyət (hüquq-mühafizə) orqanıdır.

müəyyən inkişaf mərhələsində təşəkkül tapmış və ictimai inkişafın məhsuludur.

Dövlət və hüquq qarşılıqlı əlaqə şəklində bir-birinə təsir göstərir və belə təsir, faktiki olaraq, **iki aspektdə** təzahür edir:

– dövlətin hüquqa göstərdiyi təsir;

– hüququn dövlətə göstərdiyi təsir.

**Birinci aspekt** baxımından qeyd etmək olar ki, dövlət öz funksiyalarını həyata keçirmək üçün hüquqdan alət, vasitə kimi istifadə edir. Hüquq dövlət siyasətinin həyata keçirilməsi formasıdır. Başqa sözlə desək, dövlət siyasəti məhz hüquq vasitəsi ilə öz məqsədinə çatır. Obyektiv cəhətdən dövlətin hüquqa göstərdiyi təsir ən çox hüquq yaradıcılığı sahəsində reallaşır və bu, bir qayda olaraq, onun hüquqyaratma fəaliyyəti ilə bağlıdır. Belə ki, cəmiyyətdə hüququn yaranmasında və formalaşmasında dövlət daim və labüd olaraq iştirak edir. Bu baxımdan, dövlət hüququn yaradıcısı kimi çıxış edir.

Hüququn əmələ gəlməsi sahəsində dövlətin hüquqyaratma fəaliyyəti ondan ibarətdir ki, o, Parlamentin qanunlar qəbul etməsi, Prezidentin fərmanlar verməsi, Hökumətin qərarlar qəbul etməsi və s. formalarda hüququn yaradıcısı rolunu yerinə yetirir. Məhz bu formalarda cəmiyyətdə ümumi məcburi davranış qaydaları ifadə olunur. Deməli, dövlət hüququ müəyyən edir, onu yaradır və buna görə də, hüquq dövlətin hüquqyaratma fəaliyyətinin nəticəsi hesab olunur.

Dövlətin hüquqa göstərdiyi təsir forması həm də hüququn həyata keçirilməsi prosesində baş verir. Ümumiyyətlə, hüququn dövlətdən kənar həyata keçirilməsi qeyri-mümkündür. Cəmiyyətdə hüququn reallaşmasını, onun pozuntu hallarından qorunmasını dövlət özünün məcburetmə qüvvəsi vasitəsi ilə təmin edir, yəni dövlət hüququn, necə deyərlər, himayəçisi, qarantı kimi çıxış edir.

**İkinci aspekt** – hüququn dövlətə göstərdiyi təsir ondan ibarətdir ki, birinci, hüquq özünü dövlətin daxilən təşkil olunması sahəsində göstərir. Məhz bu sahədə dövlətin hüquqdan

asılılığı nəzərə çarpır. Belə ki, hüquq dövlətin siyasi təşkilat kimi formasını və quruluşunu, dövlət aparatının strukturunu, dövlət orqanlarının və vəzifəli şəxslərin səlahiyyətlərini müəyyən edir, dövlət mexanizmində qarşı-lıqlı münasibətləri tənzimləyir. Eyni zamanda, hüquq dövlət hakimiyyətinin təşki-li əsaslarını müəyyənləşdirir, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyət bölgüsü aparır. Bir sözlə, hüquq dövlət idarəetməsinin zəruri aləti kimi çıxış edir.

Hüququn dövlətə göstərdiyi təsir daha sonra özünü dövlətin fəaliyyəti sahəsində büruzə verir. Hüquq dövlət fəaliyyətinin vacib tərəfi, mühüm aspekti və zəruri cəhətidir. Cəmiyyətdə dövlətlə əhali arasındakı qarşılıqlı münasibətlər hüququn köməyi ilə qurulur. Dövlət cəmiyyət üzvlərinə məhz hüquq vasitəsi ilə və hüquqda ifadə olunan göstərişlər çərçivəsində təsir edir. Cəmiyyət üzvləri də, öz növbəsində, hüququn köməyi və vasitəsi ilə dövlətə təsir göstərir. Dövlətin müəyyən etdiyi davranış və təhlükəsizlik qaydaları hüquq vasitəsi ilə həll olunur. Hüquq dövlətlə ölkə əhalisi arasında ünsiyyət vasitəsi deməkdir. Dövlət hüquqdan ayrı, hüquq da dövlətdən ayrı mövcud ola və fəaliyyət göstərə bilməz.[1]

Deyilənlərdən belə bir məntiqi nəticə çıxarmaq mümkündür ki, cəmiyyətdə mövcud olan digər hüquqlar kimi, polis hüququnun da təşəkkül tapması və inkişafı ictimai-siyasi qurum olan dövlətin yaranması və fəaliyyət göstərməsi, onun hüquq-mühafizə təyinatı ilə bağlıdır.

Dövlət və hüquq fenomeninin elmi cəhətdən araşdırılmasına, onun tarixinə, o cümlədən müasir cəmiyyətdə hüququn inkişaf məsələlərinə xeyli əsərlər həsr olunmuşdur.[2]

---

[1] *Bu barədə daha ətraflı bax:* Allahverdiyev S.S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik (yenidən işlənmiş və əlavə olunmuş 6-cı nəşr). Bakı, 2009, s. 116-148.

[2] *Bax: məsələn,* Məlikova M.F., Nəbiyev E.Q. Xarici ölkələrin dövlət və hüquq tarixi. Dərslik. Bakı, 1997; Məlikova M.F., Nəbiyev E.Q. Müasir dövlət və hüquq tarixi. Dərslik. Bakı, 2003; Cəfərli N.H., Xəlilov N.Q., Nəsirov B.R. Xarici ölkələrin dövlət və hüquq tarixi. Dərs vəsaiti. Bakı, 2004 və b.

Tarix elmində qəbul olunmuş dövrləşməyə uyğun olaraq, əsasən, **dörd dövr** fərqləndirilir ki, dövlət və hüququn yaranmasını, inkişaf mərhələlərini bu quruluş üzrə aşağıdakı kimi **qruplaşdırmaq** olar:

– qədim dövrün dövlət və hüququ;

– orta əsrlər dövrünün dövlət və hüququ;

– yeni dövrün dövlət və hüququ,

– ən yeni (müasir) dövrün dövlət və hüququ.

Azərbaycanın **qədim dövr** dövlət və hüquq tarixi antik dövrdən eramızın III əsrinə qədər olan mərhələni əhatə edir və quldarlıq dövrü ictimai-hüquqi münasibətlər də bu mərhələyə daxildir. Manna, Atropatena, Albaniya kimi qədim dövlətlər o dövrdə tədricən formalaşmışdı. Azərbaycan ərazisində təxminən IV əsrdən başlayaraq XVIII əsrin sonlarına qədər davam etmiş **orta əsrlərin** feodal dövlət və hüquq münasibətləri Azərbaycan dövlətçiliyinin və hüququnun özünəməxsus inkişaf mərhələsini əhatə edir. Məhz bu dövrdə Azərbaycanda qüdrətli Şirvanşahlar, Atabəylər, Səfəvilər və digər güclü dövlətlər, həmçinin bu dövlətlərdə ictimai münasibətləri tənzimləyən təkmilləşmiş feodal idarəçilik təsisatları və hüquq institutları mövcud idi (onlar siyasi, inzibati, fiksal, polis və qismən də məhkəmə hakimiyyətinə malik olmuşdular). Azərbaycanda **yeni dövrün** dövlət və hüquq mərhələsi XIX – XX əsrləri, **müasir dövrün (ən yeni dövrün)** dövlət və hüquq mərhələsi isə XX əsrdən başlayaraq XXI əsrin hal-hazırkı illərinədək olan dövrü özündə birləşdirir.

Beləliklə, Azərbaycanda dövlət və hüququn yaranması və tarixi inkişaf mərhələlərini aşağıdakı kimi göstərə bilərik:

– Azərbaycanda qədim dövrün dövlət və hüququ (antik dövr – b.e. III əsrini əhatə edir);

– Azərbaycanda orta əsrlər dövrünün dövlət və hüququ (IV–XVIII əsrləri əhatə edir);

– Azərbaycanda yeni dövrün dövlət və hüquqi (XIX–XX əsrləri əhatə edir);

– Azərbaycanda ən yeni (müasir) dövrün dövlət və hüququ (XX–XXI əsrin hal-hazırkı illərinədək olan dövr).

Göstərilən dövrlərdə Azərbaycan ərazisində dövlət və hüququn əmələ gəlməsi, onların tarixi inkişaf mərhələləri və digər məsələlər elmi mənbələrdə əsaslı şəkildə işıqlandırılmışdır.[1] Biz, bu kitabda Azərbaycanda yalnız yeni dövrün və ən yeni (müasir) dövrün dövlət və hüququna aid məsələləri əhatə etməklə, polis hüququnun yaranması, formalaşması və onun tarixi inkişaf mərhələlərinə toxunacağıq.

Elmi dövriyyədə Azərbaycanda müasir dövrdə daxili işlər orqanlarının və polisin təşəkkül tapması, inkişaf mərhələləri, həmçinin tarixi barədə məsələlərin şərh olunmasından bəhs edən kifayət qədər sanballı əsərlər mövcuddur.[2] Elmi mənbələrdə göstərildiyi kimi, Azərbaycanda ilk polis orqanlarının yaranması yeni tarixi dövrə, yəni XIX əsrin ortalarına təsadüf edir.[3] Azərbaycan ərazisində polis sisteminin təşəkkül tapması və təkamül dövrünü, şərti olaraq, XIX əsrdən etibarən **dörd əsas mərhələyə** bölmək olar:

---

[1] *Məsələn, bax:* Rahib Əkbərov. Azərbaycanın dövlət və hüquq tarixi (qədim, orta əsrlər və müasir dövrdə). Dərs vəsaiti. Bakı, 2009, 604 s.

[2] *Bax: məsələn,* Azərbaycan polisinin tarixi. I hissə. 1900-1930-cu illər (sənədlər, rəqəmlər, faktlar) / R.Usubovun redaktəsi ilə. Bakı, 1999; Şanlı tarix, qəhrəmanlıq salnaməsi. Azərbaycan polisi – 90 / Baş məsləhətçi – Ramil Usubov, buraxılışa məsul – Sadiq Gözəlov. Bakı, 2008; Всегда на страже. Страницы истории Азербайджанской милиции / Под ред. Велиева Дж.Дж. Баку, 1980; Əliyarlı İ.M., Behbudov T.R.Azərbaycan daxili işlər orqanlarının tarixi. I kitab. Bakı, 2003; Əliyarlı İ.M., Behbudov T.R. Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər). Bakı, 1998; Azərbaycan polisinin yubileyi / Tərtibçi-redaktor: Abdulla Qurbani. Bakı, 2008; Əzim Piriyev. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005; «Azərbaycan Polisi» jurnalı. Bakı, 2007-2011; Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi. Məlumat Bülleteni. Bakı, 2008-2015 və s.

[3] *Məsələn, bax:* История Азербайджанской полиции. I часть / Под ред. Р.Усубова. Баку, 1999, с.7-22; Məmmədov E.Ş. Azərbaycan polisi. I kitab. Bakı, 1997, s.3 və b.

– I mərhələ (1840-1918-ci illər);

– II mərhələ (1918-1920-ci illər);

– III mərhələ (1920-1991-ci illər);

– IV mərhələ (1991-ci ildən hal-hazıradək olan dövr).

Düzdür, Azərbaycanda baş verən ictimai-siyasi, sosial-iqtisadi və digər cərəyanları nəzərə almaqla, yuxarıda göstərdiyimiz mərhələləri daha konkret yarımmərhələlər kimi də fərqləndirmək mümkündür. Lakin Azərbaycanın siyasi tarixi fonunda ümumi dövrləşmələrin belə müəyyənləşdirilməsi daha məqbul hesab oluna bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, ötən dövr ərzində müstəqil Azərbaycan polisinin də öz yeri olmuşdur.

## 1.2. Azərbaycan ərazisində polis orqanlarının təşəkkül tapmasının ilkin mərhələsi

Yeni dövrün tarixi mənbələri sübut edir ki, Azərbaycan ərazisində ilk polis orqanlarının yaranması və fəaliyyət göstərməsinin I mərhələsi (1840-1918-ci illər) hələ Rus çarizminin hökmranlığı dövründə mövcud olmuşdur. Məlum Türkmənçay Müqaviləsi[1] əsasında 1828-ci ildə Rusiya imperiyasının qəsbkarlıq siyasəti nəticəsində Şimali Azərbaycanı (Naxçıvan xanlığı da daxil olmaqla) zorla özünə birləşdirməsinə baxmayaraq, Azərbaycanda inzibati islahatlar 1840-cı ildən həyata keçirilməyə başlanmışdır. Ləğv edilmiş **«xanlıq» rejimi** əvəzinə **«komendant üsul-idarəsi» rejimi** tətbiq olundu. Azərbaycan

---

[1] Məlumat üçün qeyd edək ki, Azərbaycan torpaqlarının ilhaq edilməsinə hələ 12.10.1813-cü ildə Rusiya və İran arasında bağlanmış Gülüstan Müqaviləsi ilə başlanılmışdı. Sonradan bu müqavilə qüvvədən düşdü və onun əvəzinə 10.02.1828-ci il tarixdə Rusiya və İran arasında Türkmənçay Müqaviləsi bağlanıldı. Beləliklə, Türkmənçay Müqaviləsi Azərbaycan torpaqlarının bölüşdürülməsi ilə nəticələndi. *Bu barədə daha ətraflı bax:* Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Bakı, 2009, s.429-443, 489-503.

ərazisi çar zabitlərindən ibarət olan komendantların başçılıq etdiyi əyalətlərə bölündü. Onlar hərbi-idarə rəislərinə, həmin rəislər isə Qafqazdakı baş komendanta tabe idilər.[1]

Sonradan «Zaqafqaziyada inzibati, məhkəmə islahatlarının keçirilməsi haqqında» çar I Nikolayın imzaladığı qanuna (10.04.1840-cı il) müvafiq olaraq, hərbi komendant üsul-idarəsi ləğv edilərək quberniya, qəza və sahə **ərazi-inzibati bölgüsü** yaradılmışdır. «Zaqafqaziya diyarının idarə olunması üçün» Ali Təsdiqnamə və «Şəhər polisləri haqqında» Əsasnamə qəbul edildikdən sonra (10.04.1840-cı il) məhkəmə-inzibati sistem yenidən qurulmağa başlandı. Bu Əsasnamə, faktiki olaraq, Azərbaycan ərazisində **ilk polis aparatının** yaranmasına dair hüquqi sənəd idi. Sənəddə polis orqanlarının hüquqi əsasları və funksiyaları müəyyənləşdirildi. Lakin həmin sənəddə yerli əhalinin milli xüsusiyyətləri, mentalitet, adət-ənənə və digər amillər, demək olar ki, nəzərə alınmamışdı.

Adıçəkilən Əsasnamənin 3-cü bölməsinə müvafiq olaraq, Azərbaycan ərazisində polis orqanları əhalisi çox olan şəhərlərdə polismeysterdən, istintaq, xüsusi pristavlar və şəhər zümrələrindən seçilmiş deputatlardan, əhalisi az olan şəhərlərdə isə qalabəyi (şəhər rəisi), xüsusi pristavlar və deputatlardan, məhəllə nəzarətçiləri və deputatlardan ibarət olaraq təşkil edilirdi. İctimai asayişi qorumaq və ali hakimiyyətin qərarlarını icra etmək məqsədilə Yelizavetpol (indiki Gəncə), Şamaxı, Naxçıvan, Şuşa, Nuxa (indiki Şəki), Lənkəran, Bakı, Quba, Ordubad, Zaqatala, Salyan şəhər polis idarələri, habelə Yelizavetpol, Qarabağ, Quba, Naxçıvan, Talış və Şirvan qəzalarında **ilk nizami polis orqanları** yaradıldı. Şəhər polis idarələri bilavasitə quberniya (vilayət) rəisinə, eyni zamanda, idarə mənsubiyyəti üzrə **Rusiya Daxili İşlər Nazirliyinə** tabe idilər.

O dövrdə **polisin əsas vəzifələrinə** keşik xidməti aparmaq, gecə gəzintiləri keçirmək, ibtidai istintaqı həyata keçirmək,

---

[1] *Bu barədə daha ətraflı bax:* Əzim Piriyev. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.336-337 və s.

islahedici cəzanı təyin və icra etmək, habelə şəhər təsərrüfatına sərəncamlıq etmək, şəhərlilərdən pul vəsaitinin vaxtında toplanılmasının və sakinlər tərəfindən müxtəlif şəhər mükəlləfiyyətlərinin yerinə yetirilməsinin təmin olunması, küçə və bazarların sanitar vəziyyətinə nəzarət, epidemiyaların yayılmasının qarşısını almaq üzrə tədbirlər, ticarətə nəzarət və s. tədbirlər aid idi. Polis orqanları həm də xırda cinayətlərə və xətalara (dələduzluq, xırda oğurluq və s. əməllərə) görə məhkəmə funksiyalarını yerinə yetirirdi. Göründüyü kimi, çar hökumətinin və Rusiya imperiyasının Azərbaycan ərazisində mənafelərinin qorunmasında polis orqanları, əslində, məhdudiyyət qoyulmayan səlahiyyətlərə malik idi.

1842-ci ilədək qəza rəisi vəzifələrini **mülki şəxslər** tuturdular. «Qəza rəisləri vəzifələrinə nizami ştabs-zabitlərin təyin edilməsi haqqında» Rusiyanın hərbi naziri tərəfindən müvafiq əmr imzalandıqdan sonra (1842-ci il) həmin vəzifələrə artıq mülki şəxslər deyil, **nizami ştabs-zabitlər** təyin edildi. Bununla da, qəza rəislərinə öz istəklərinə uyğun olaraq, bütün inzibati vəzifələrə təyinat məsələlərini müstəqil həll etmək hüququ verildi və **polisin məhkəmə funksiyaları** daha da genişləndi (məsələn, qəza rəisləri 100 rubladək olan çəkişmə işlərini həll etmək hüququna malik idilər).

Çarizm öz mövqeyini möhkəmləndirmək məqsədi ilə 1844-cü ildə iqamətgahı Tiflisdə yerləşən **Qafqaz Canişinliyini** təsis etdi və Zaqafqaziyadakı bütün qubernatorlar və qəza polis idarələri həmin Canişinliyə tabe oldular.

1846-cı ildə Nuxada qəza polis orqanı yaradıldı, Qarabağ qəza polisi Şuşa, Talış qəza polisi Lənkəran, Şirvan qəza polisi isə Şamaxı qəza polisi adlandırıldı və Azərbaycanda ilk cəzaçəkmə müəssisəsi olan Şuşa həbsxanası tikildi. Sonralar Bakıda (Bayıl həbsxanası, 1888-ci il), Qazax və Zəngəzurda (1900-cu il) həbsxanalar tikilərək istifadəyə verildi.

1862-ci ildə quberniya və şəhərlərdə postlarda qarovul çəkmək və yolları qorumaq üçün polisin köməyinə **zemstvo** (məhdud hüquqlu yerli seçkili özünüidarə orqanı) mühafizəçisi

verildi və həmin ilin dekabr ayında «Qəza və şəhərlərdə polis quruculuğu haqqında» Müvəqqəti Qaydalar qəbul edildi.

Zaqafqaziyada inzibati-məhkəmə islahatlarının həyata keçirilməsindən sonra 1864-cü ildə **məhkəmə funksiyaları polisdən alındı**, 1867-ci ildə Bakı Quberniya Jandarm İdarəsi yaradıldı, 1868-ci ildə (12-19 fevral) Bakı, Nuxa, Quba, Şuşa, Naxçıvan, Lənkəran qəza polis orqanları qəza polis idarələrinə çevrildi (yalnız Yelizavetpol və Ordubad şəhərlərində əlahiddə şəhər polisi saxlanıldı). Bütün bu orqanlar birbaşa İmperatorun Qafqaz Canişinliyinin Dəftərxanasına tabe idi.

Daha sonra 1868-ci ilin mart ayında Qazax, Zəngəzur, Ərəş, Cəbrayıl, Cavanşir (indiki Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan əraziləri) qəzaları və həmin qəzaların polis idarələri yaradılmış, sahə polis idarələri pristavlıqlarla əvəz olunmuş, «Şəhərlər haqqında» Əsasnamə qəbul edilmiş və polisə mülki qulluqçuların qəbulu başlanmışdı.[1] Azərbaycan ərazisində **polis-jandarm sistemi** (jandarmeriya[2]), demək olar ki, 1870-ci ildə qəti təşəkkül tapmışdı.

Azərbaycan ərazisində hələ 1863-cü ildən başlanmış zemski, şəhər, məhkəmə, inzibati-polis, hərbi, senzura və s. islahatların aparılması prosesinin davamı kimi, 1874-cü ildə Bakı şəhərində Vladiqafqaz (Şimali Osetiya) Dəmir Yolları Jandarm İdarəsinin Xəzər bölməsi təşkil edilmişdi. Elə həmin ildə Bakı Quberniya Jandarm İdarəsinin rəis köməkçisinin Dəftərxanası yaradılmış və onun üzərinə Bakı quberniyasının hüdudlarında siyasi işlər üzrə təhqiqat aparmaq vəzifəsi qoyulmuşdu. Həmçinin Yelizavetpol (indiki Gəncə) şəhərində Tiflis Quberniya Jandarm İdarəsi rəisinin Yelizavetpol quberniyası üzrə köməkçisinin Dəftərxanası yaradılmış və Yelizavetpol qu-

---

[1] *Bu barədə daha ətraflı bax:* Əliyarlı İ.M., Behbudov T.R. Azərbaycan daxili işlər orqanlarının tarixi. I kitab. Bakı, 2003, s. 7-21.

[2] «Jandarmeriya» fransız sözüdür; çar Rusiyasında və Avropanın burjua ölkələrində siyasi mühafizə və inqilabi hərəkata qarşı mübarizə aparılması məqsədi ilə yaradılmış xüsusi polis qoşunları deməkdir; siyasi polis adlanır.

berniyasında inqilabi çıxışlarla mübarizə aparmaq vəzifəsi ona tapşırılmışdı.

Azərbaycanda **polis strukturu** genişləndirilərək 1876-cı ildə mərkəzi Baş Noraşendə (indiki Şərur) yerləşən Şərur-Dərələyəz Qəza Polis İdarəsi, 1877-ci ildə Bakı quberniyasının Zaqafqaziya Polis Mühafizə İnspeksiyası, 1879-cu ildə isə Yelizavetpol Quberniya Jandarm İdarəsi yaradılmışdı.

O dövrlərdə polisin və onun ayrı-ayrı xidmət sahələrinin fəaliyyətinin tənzimlənməsinə aidiyyəti olan «Dövlət təhlükəsizliyi qaydalarının və ictimai sabitliyin qorunması üzrə Ali Bölüşdürücü Komissiyanın yaradılması haqqında» çar II Aleksandr fərman vermiş (12.02.1880-ci il), Əlahəzrət İmperator yanında Dəftərxananın III şöbəsi və jandarm korpusu Rusiya Daxili İşlər Nazirliyinin tabeliyinə keçirilmişdi. Rusiya imperiyası tərəfindən «Dövlət qaydalarının və ictimai sakitliyin mühafizə edilməsi tədbirləri haqqında» Əsasnamə təsdiq edilmiş (1881-ci il) və «Dövlət təhlükəsizliyinin və ictimai sabitliyin mühafizə edilməsi tədbirləri haqqında» Rusiya Daxili İşlər Nazirliyinin Əsasnaməsi qəbul olunmuşdu (14.08.1881-ci il); həmin Əsasnamə, məlum məsələdir ki, Azərbaycan ərazisinə də şamil olunmaqla 36 il, yəni 1917-ci ilin fevral-burjua inqilabınadək qüvvədə qalmışdı.

1882-ci ildə Rusiya Daxili İşlər Nazirliyi tərəfindən şübhəli və siyasi cəhətdən səbatsız şəxslərə qarşı mübarizə aparılması məqsədi ilə «Dövlət departament polisi və orqanlarının yaradılması haqqında» və «Duma polis nəzarətinin yeni qaydaları haqqında» **müvafiq əmrlər** imzalanmışdı. Yeni bölgüyə əsasən, Bakı qubernatorunun qərarı ilə Bakı şəhər polisi 2 hissəyə və 6 sahə polisinə ayrıldı (31.12.1882-ci il), Bakı şəhər Duması «Yanğına qarşı təhlükəsizlik tədbirlərinin mütləq Qaydaları»nı təsdiq edərək yanğın komandasını yaratdı (06.03.1884-cü il), 1885-ci ildə isə **Bakı Qəza Polis İdarəsi** yaradıldı.

«Zaqafqaziya quberniyalarında qəza polisində bəzi dəyişikliklər haqqında» Rusiya Dövlət Şurası tərəfindən qəbul

edilmiş qərara müvafiq olaraq (10.05.1888-ci il), Azərbaycan ərazisi 50 polis sahəsinə bölündü və Bakı qəzasının Maştağa Polis İdarəsi yaradıldı. 1897-ci ildə isə 6 sahə polis pristavlığından ibarət olan Balaxanı-Sabunçu polismeysterliyi təşkil edildi. 1905-ci ildə Rusiya Daxili İşlər Nazirliyinin tabeçiliyində **Bakı general-qubernatorluğu** vəzifəsi təsis olundu və Bakı polismeysterliyinin polis kadrları hazırlayan ehtiyat polis məktəbi yaradıldı, 1881-ci ildə ləğv olunmuş Qafqaz Canişinliyi yenidən bərpa edildi.

1906-cı il avqustun 24-də Rusiya Hökumət Senatı tərəfinndən «Qafqaz polis müdirliyi vəzifəsinin ləğv edilməsi haqqında» qərar verildi və həmin ilin oktyabr ayının 28-də Rusiya İmperatorunun fərmanı ilə inqilabi çıxışlarla mübarizəni gücləndirmək məqsədilə Abşeron yarımadası, Nargin və Jiloy (Böyük Zirə, Çilov) adlarını da əhatə edən **«Bakı qradonaçalnikliyi»**[1] yaradılaraq, Bakı və Balaxanı-Sabunçu polismeysterlikləri onun tabeçiliyinə keçirildi.[2] Həmin fərmana uyğun olaraq, Bakı şəhər Polis İdarəsi Bakı Polismeyster İdarəsi adlandırıldı. Onun tərkibinə 10 ərazi polis pristavlığı, 1 ərazi liman polisi və polismeysterliyin ehtiyat qüvvəsi daxil idi. Eyni zamanda, Bakı şəhər polismeysterliyinin tərkibində sayı müəyyənləşməyən, zəruri olduqca qəbul edilən polis nəzarətçilərindən ibarət **axtarış hissəsi** təşkil olundu. Onun üzərinə ümumi cinayət əməlləri (qarətlər, daimi oğurluq, pulqırmalar, düşmənçilik, cinayətkar qrupların təşkili, intiqam zəminində terror aktları və s.) barədə təhqiqatın aparılması ilə yanaşı, inqilabı hərəkatla mübarizə və çar mütləqiyyətinə qarşı çıxışlarda iştirak edən şəxslərin axtarışı vəzifəsi də qoyulmuşdu. 1907-ci ilin yanvar ayında həmin axtarış hissəsi axtarış polisinə çevrildi. **Axtarış polisi** ştat üzrə rəisdən, onun köməkçisindən, kar-

[1] Qradonaçalnik – rus sözüdür; çar Rusiyası dövründə xüsusi əhəmiyyəti olan polis rəisi, daxili işlər nazirinə tabe olan şəhər rəisi deməkdir.

[2] «Bakı qradonaçalnikliyinin təsdiqi haqqında», «Bakı qradonaçalnikliyinin Bakı və Balaxanı-Sabunçu polismeysterliklərinin müvəqqəti ştatları haqqında» və onların əsasnamələrinin təsdiqinə aid qərarlar 02.11.1906-cı il tarixdə Rusiya Nazirlər Şurası tərəfindən qəbul edilmişdi.

güzardan və 4 nəfər polis nəzarətçisindən ibarət idi; bu qurumun fəaliyyətində cinayətkar ünsürlərin qeydiyyatı mühüm yer tuturdu; onun fəaliyyətini tənzimləyən müvafiq təlimat 1908-ci il fevralın 21-də təsdiq edilmişdi; Bakı axtarış polisinin nəzdində ölçmə (antropometrik) və daktiloskopik büro yaradıldı (1911-ci il).

1908-ci il iyulun 6-da «Xəfiyyə hissəsinin təşkili haqqında» müvafiq qanun qəbul edilərək Bakı cinayət polisinin xəfiyyə hissəsi, habelə Canişin Dəftərxanasının polis hissəsi üzrə partiyalara nəzarət şöbəsi yaradıldı.

Bakı şəhər polisində 1910-cu ilin ortalarından başlayaraq **yenidənqurma işləri** həyata keçirilərək, Berlin və Paris şəhər polislərinin qabaqcıl təcrübəsi əsasında yeni bayır xidməti sistemi tətbiq olundu. Lakin iri sənaye mərkəzi olan Bakı şəhərinin artan problemləri ucbatından polis ən müxtəlif vəzifələrin yerinə yetirilməsində müəyyən çətinliklərlə üzləşirdi. Ona görə də, polis xidməti müəyyən **kateqoriyalara** bölündü: bayır xidməti, məhkəmə-axtarış xidməti, inzibati xidmət. Elə həmin ildə «Bakı polismeysterliyinin xəfiyyə şöbəsi məmurlarının» Təlimatı nəşr edildi (09.08.1910-cu il); «Ünvan masasının şəhər özünüidarəçiliyindən alınıb polisin tabeçiliyinə verilməsi haqqında» Bakı Duması tərəfindən qərar qəbul edildi və Mərkəzi Ünvan Masası yanında Axtarış Bölməsi fəaliyyətə başladı (02.12.1910-cu il)[1]; Bakı şəhər polismeysterliyinin Siyasi Mühafizə Şöbəsi yaradıldı.

Bakı quberniyasında və Dağıstan vilayətində inqilabi hərəkatın çox geniş vüsət alması ilə əlaqədar yaradılmış Bakı Quberniya Jandarm İdarəsi tamamilə genişlənməkdə olan inqilabi hərəkata qarşı mübarizə məsələləri, sosial-demokratik

---

[1] Bakı polismeysterliyinin «Mərkəzi Ünvan Masası nəzdində Axtarış Bölməsi haqqında» Əsasnamə 1913-cü ilin noyabr ayında təsdiq edilmişdi; Bakı Ünvan Masasının tamamilə Bakı polismeysterliyinin tabeliyinə verilməsi haqqında müvafiq qərar Bakı şəhər Duması tərəfindən 14.02.1914-cü il tarixdə çıxarılmışdı; Bakı polismeysterliyinin axtarış polisi nəzdində Qeydiyyat Şöbəsi 1916-cı ildə yaradılmışdı.

təşkilatların fəal üzvlərinin (təbliğatçı, təşviqatçı və s.) aşkar edilib təcrid olunması, gizli mətbəələrin neft mədənləri fəhlələri arasında yayılan bolşevik ədəbiyyatının axtarışı ilə məşğul idi. Lakin Rusiyada məlum fevral-burjua inqilabının qələbəsindən sonra əvvəlki polis və jandarmeriya orqanları ləğv edildi.

Rusiyada baş vermiş **burjua-demokratik inqilabı** nəticəsində (27.02.1917-ci il) çar mütləqiyyəti devrilərək **ikihakimiyyətlilik** yarandı: Rəsmən müvəqqəti burjua hökuməti və Sovetlərin inqilabi hakimiyyəti. Bununla əlaqədar olaraq, Rusiyada olduğu kimi, Zaqafqaziyada, o cümlədən Azərbaycan ərazisində islahatlar həyata keçirildi. Müvəqqəti burjua hökumətinin qərarı ilə jandarm korpusu ləğv edildi, Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı, Polis departamentinin ləğv edilməsi və ictimai polisin işləri üzrə Müvəqqəti İdarə təsis olundu, «Milis haqqında», «Zemski və şəhər milis idarələri haqqında» əsasnamələr təsdiq edildi və s.

1917-ci il martın 7-də Bakı Fəhlə Deputatları Sovetinin İcraiyyə Komitəsi-nə tabe olan Bakı şəhər milisi, Balaxanı-Sabunçu və Ramana mədən-zavod fəhlə milisi yaradıldı. Daha sonra Xüsusi Zaqafqaziya Komitəsinə tabe olan qəza burjua **«xalq» milisi**[1] **və polisi**, həm də inqilabçı Sovetlərə tabe edilən **proletar, fəhlə milisi** təşkil edildi; Bakı şəhər müvəqqəti hərbi milisi, həmçinin Zəngəzur qəza milisi və Qarabağ İcraiyyə Komitəsinə tabe olan Şuşa qəza milisi yaradıldı; Bakı və Balaxanı-Sabunçu mülki milis qulluqçularının ittifaqı təşkil olundu.

1917-ci ilin mayında ləğv olunmuş Bakı axtarış polisinin əvəzinə məhkəmə-axtarış milisi yaradıldı.[2] Onun funksiyalarına axtarış və təhqiqat aparmaq, Bakı şəhər rəisliyi hüdudla-

---

[1] Milis – latınca «militia» sözündən olub, mənası qoşun, daimi olmayan ordu, silahlı xalq deməkdir; keçmiş Sovetlər İttifaqında, bir sıra sosialist ölkələrində, Rusiya Federasiyasında fəaliyyət göstərən icraedici inzibati, hüquq-mühafizə orqanlarından biridir. Rusiyada 2011-ci ildən «milis» adı «polis» adı ilə əvəz edilmişdir.

[2] Məhkəmə-axtarış milisinin ştatları İctimai Təşkilatların İcraiyyə Komitəsinin 08.06.1917-ci il tarixli qərarı ilə təsdiq edilmişdi.

rında cinayətkarları və cinayət əməllərini təqib etmək və s. aid idi. Həmin ilin iyun ayında siyasi mühafizə orqanları ləğv edildikdən sonra, onların bəzi funksiyaları Rusiya Daxili İşlər Nazirliyinin Milis İşləri Baş İdarəsində cəmləşdirildi.

«Fəhlə milisi haqqında» Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Soveti və Xalq Daxili İşlər Komissarlığının 28.10 / (10.11).1917-ci il tarixli qərarına əsasən **sovet fəhlə-kəndli milis orqanlarının** təşkilinə başlanmışdı.

Bakıda sovet hakimiyyəti elan olunduqdan sonra bütün Bakı quberniyasında, o cümlədən Lənkəran, Şamaxı, Quba, Cavad qəzalarında, habelə Dağıstan vilayətində və Göyçay qəzasının bir hissəsində sovet hakimiyyəti qurulmuş, eyni zamanda, bəzi ərazilərdə **fəhlə milisi və qırmızı qvardiya**[1] dəstələrinin təşkil edilməsinə başlanılmışdı (02.11.1917-ci il). Bunun ardınca Bakıda burjua milis orqanları buraxılaraq, əvəzində sovet milisinin təşkil edilməsi barədə Bakı Soveti tərəfindən müvafiq qərar qəbul olundu (13.11.1917-ci il).

1917-ci il dekabrın 15-də «İnqilabi qaydaları və ictimai təhlükəsizliyi sayıqlıqla qorumaq haqqında» Bakı Hərbi İnqilab Komitəsi tərəfindən milis orqanlarına əmr verildi; sonra Yelizavetpol qəzasının Qırıqlı, Xılxana, Bayan kəndlərində, Naxçıvanın Şahtaxtı kəndində, Şuşa qəzasının bir sıra kəndlərində fəhlə-kəndli milisi təşkil olundu (dekabr 1917-ci il); inqilabi qaydaları qorumaq məqsədilə Şamaxı və Lənkəran qəzasının kəndlərində milis dəstələri yaradıldı (yanvar-fevral 1918-ci il).

Bakıda milisin və qırmızı qvardiyanın yenidən yaradılması və komissarların təyin edilməsi işinə 1918-ci ilin yanvar ayında aktiv şəkildə başlanıldı. Bakı Soveti yanında vəzifəsi cinayətkar ünsürlərlə mübarizə olan asayişin mühafizəsi üzrə xüsusi komissiya yaradıldı (01.01.1918-ci il); Bakı Soveti İcraiyyə Komitəsinin qərarı ilə rəsmən Dumaya tabe olan şəhər milisi Bakı Sovetinin sərəncamına keçirildi (07.03.1918-ci il);

---

[1] Qvardiya – fransız sözüdür, ən yaxşı seçmə qoşun hissəsi deməkdir.

həmin il aprelin 25-də Bakı Xalq Komissarları Soveti yarandı, eyni zamanda, Bakı Xalq Daxili İşlər Komissarlığı təşkil edildi; sonra Bakı şəhərində qradonaçalniklik və ona tabe olan milisin bütün şəxsi heyəti buraxılış və milisə yeni qəbul qaydaları haqqında Bakı Xalq Komissarları Sovetinin **dekreti** verilmişdir (01.05.1918-ci il); bu dekret üzrə yaradılan Xalq Daxili İşlər Komissarlığının milis və banditizmlə mübarizə şöbələri ilə yanaşı, Bakı Soveti İcraiyyə Komitəsi yanında milis şöbəsi də təşkil olunmuş, sonra bunlar vahid inzibati şöbədə birləşmişdilər; Bakıda xüsusi əlahiddə atlı milis dəstəsi təşkil edilmişdi.

1918-ci il fevralın 23-də paytaxtı Tiflisdə yerləşən yeni suveren Zaqafqaziya Federativ Respublikasının (Azərbaycan da onun tərkibinə daxil idi, bu qurum «Zaqafqaziya Seymi» də adlanırdı) yaradıldığı elan olunsa da, bu respublikanın «ömrü» çox uzun çəkmədi; müxtəlif fraksiyalar arasında getdikcə dərinləşən daxili ziddiyyətlər, xüsusilə də ərazi məsələləri və xarici meyillər tezliklə, yəni həmin il mayın 26-da onun süqutuna gətirib çıxardı.

Yuxarıda şərh olunanlardan göründüyü kimi, Azərbaycan ərazisində polis sisteminin təşəkkül tapması və inkişaf dövrünün **ilkin mərhələsində** nə müstəqil milli dövlət, nə də onun milli hüquq sistemi, o cümlədən milli polis hüququ mövcud olmuşdur. Lakin həmin mərhələ Rus çarizminin hökmranlığı və sonrakı məlum fevral burjua-demokratik inqilabı dövrü ilə xarakterizə edilsə də, empirik əhəmiyyətə malik olmaqla, Azərbaycanda polis orqanlarının yaranma tarixinin ətraflı öyrənilməsi baxımından fərqləndirilməlidir.

### 1.3. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli polis orqanlarının yaranması və inkişaf mərhələsi

XX əsrin ikinci onilliyinin sonlarında Zaqafqaziya Seymi buraxıldıqdan sonra, 1918-ci il mayın 28-də Tiflisdə Milli Şura tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını

elan edən «İstiqlal Bəyannaməsi» qəbul olundu. Məhz bu tarixi hadisədən sonrakı dövrdə Azərbaycanda daxili işlər orqanlarının fəaliyyətinin xalqın və dövlətçiliyin mənafeyinə xidmət etməsi istiqamətində **əsaslı dəyişikliklər** baş vermişdir.

İlk milli hökumət yaradılarkən onun tərkibində **Daxili İşlər Nazirliyi** də təsis edilmiş və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski, eyni zamanda, ilk daxili işlər naziri vəzifəsini daşımışdır.

Rəsmən bir müstəqil nazirlik kimi, 1918-ci il mayın 28-də təsis edilən Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi də ertəsi gün, yəni mayın 29-da digər nazirliklər kimi fəaliyyətə başlamış, onun ilkin strukturları və aparatları təşkil edilmiş, habelə vəzifələri müəyyənləşmişdir.[1]

Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin ilk və başlıca **vəzifələri** aşağıdakılardan ibarət idi:

– ölkədə daxili sabitliyi və hüquq normalarına riayət olunmasını təmin etmək;
– milliyyətindən və dinindən asılı olmayaraq, bütün vətəndaşların həyatını, əmlakını və hüquqlarını qorumaq;
– cinayətkarlıqla mübarizə aparmaq, habelə milli ordu, təhlükəsizlik qüvvələri ilə yanaşı, ərazi bütövlüyü və suverenliyə qəsd etməyə cəsarət göstərə biləcək hər hansı təcavüzkar qüvvələrə qarşı mübarizə aparmaq və s.

Pasport, viza və qeydiyyat işləri, əcnəbi vətəndaşların və tələbələrin qeydiyyatı, yoxlanması, VVAQ və nikah məsələləri, hərbi təlim görmüş adamlardan kadr ehtiyatı hazırlamaq, ordu sıralarına yeni çağırışçıların toplanması, hərbi çağırışdan boyun qaçıranlar və fərariliklə mübarizə, torpaqları qoruyacaq sərhəd qüvvələrinin yaradılmasında iştirak, siyasi partiyalara, fəhlə partiyalarına, milli komitələrə və ictimai təşkilatlara, mədən-zavod komissiyalarına, həbsxanalara, mətbuata,

---

[1] *Bu barədə daha ətraflı bax:* Əlyarlı İ.M., Behbudov T.R. Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər). Bakı, 1998, s. 10-92.

poçt-teleqrafa, rabitəyə, dəmir yolu və avtomobil nəqliyyatına, neft sənayesinə, yol-tikinti və təsərrüfat, sanitariya və abadlıq işlərinə, ticarət müəssisələrinə nəzarət, dini təşkilatları və cəmiyyətləri qeydə almaq, milli ədavət törədilməsini dəf etmək, həmçinin bütün siyasi, hüquqi normativ aktların və sənədlərin yaradılmasında iştirak etmək və s. həmin Nazirliyin əlavə və dolayı funksiyalarına aid idi.

Lakin elmi dövriyyədə olan mənbələrə istinadən qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində həqiqi, əsl nizami polis orqanlarının əməli olaraq yaradılmasına o zamankı tarixi şəraitə görə Azərbaycan Xalq Cümhuriyyətinin Birinci Hökumət Kabinetinin sadəcə imkanı olmamışdır. Çünki hökumətin qərargahı hələ Tiflisdə idi, Azərbaycanda qeyri-sabitlik hökm sürürdü, hökumət özünə sadiq qüvvələrə rəhbərliyi yalnız vasitəçiliklə həyata keçirirdi. İstər **milli polisin**, istərsə də **nizami milli ordunun** yaradılması və bu haqda ilkin normativ aktlar Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncəyə köçəndən sonra İkinci Hökumət Kabineti zamanı mümkün olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti yarananda rəsmən Bakı quberniyası, Şamaxı, Quba, Lənkəran, Cavad qəzaları, Göyçay qəzasının və Dağıstanın bir hissəsi Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti altında idi. Lakin bu Sovet, faktiki olaraq, yalnız Bakı və onun ətrafına nəzarət edə bilirdi.

Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti altında olan bütün qəzalarda və yerlərdə əvvəlki milis idarələrinin ləğvi və şəxsi heyətin yenidən təşkili haqqında Bakı Xalq Daxili İşlər Komissarlığı və Mərkəzi Qəza Milis İdarəsinin 1918-ci il 29 may/ 1 iyun tarixli 15 saylı əmri verilmiş, Bakı, Lənkəran, Şamaxı, Quba, Cavad qəzalarında, həmçinin Dağıstan vilayətində fəhlə-kəndli milisi təşkil olunmuşdu; Bakı qəza milis komissarlığı 4 yerə – Maştağa, Qala, Saray və Binəqədi sahə milis komissarlıqlarına bölünmüşdü; Göyçay qəzasının bir hissəsində sovet hakimiyyəti qurulmuş və fəhlə-kəndli milisi yaradılmışdı (iyun 1918-ci il).

Qeyd etmək vacibdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik uğrunda apardığı mübarizədə, Bakı Kommunası və digər düşmənlərə qarşı mübarizədə Osmanlı Türkiyəsi ilə bağladığı «Dostluq və əməkdaşlıq haqqında» Müqavilə (04.06.1918-ci il) əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin Birinci Milli Hökuməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçmüş və ertəsi gün, yəni iyunun 17-də İkinci Hökumət Kabineti yaradılmışdır; həmin Kabinetin tərkibində olan Daxili İşlər Nazirliyi iyunun 19-dan əməli fəaliyyətə başlamışdır; mövcud çətinliklərə baxmayaraq, o dövr **müstəqil Azərbaycan polisinin** ilkin orqanlarının təsis edilməsi, möhkəmləndirilməsi və sonrakı inkişafında müstəsna əhəmiyyət kəsb edirdi.

1918-ci ilin ortaları müstəqil Azərbaycan milli polisinin formalaşması və tədrici inkişaf mərhələsi hesab oluna bilər. Çünki yeni yaranmaqda olan **milli polis-hüquq münasibətlərinin** tənzimlənməsində o dövrdə qəbul edilmiş normativ hüquqi aktların xüsusi əhəmiyyəti olmuşdur. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti «Mövcud Rus və Zaqafqaziya qanunlarının müvəqqəti saxlanılması və hökumət tərəfindən bunun müvafiq nəşri haqqında» 23.06.1918-ci il tarixli qərar qəbul etmişdi. Qərarda bütün idarə və məhkəmə sahələri üzrə mövcud qaydaların onlar ləğv edilənə və dəyişdirilənə qədər qüvvədə saxlanıldığı təsbit olunurdu. Digər bir qərarda – «Hökumət müəssisələrinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında» 24.06.1918-ci il tarixli 178 nömrəli qərarda bütün nazirliklərə, o cümlədən Daxili İşlər Nazirliyinə tabeliklərində olan idarələr üzrə hökumət məlumatı hazırlamaq tapşırılır, habelə çarizm və onun devrilməsindən sonrakı dövrlərdə öz vəzifələrini tərk etmiş (lakin işdə sayılan) polis və milis orqanları əməkdaşlarına iyulun 1-dən işə çıxmaq təklif olunur, eyni zamanda, həmin qərar üzrə yeni yaradılacaq polis orqan-

larının tərkibinə azərbaycanlıların daha çox qəbul edilməsi nəzərdə tutulurdu.[1]

Azərbaycan Hökumətinin yuxarıda adı çəkilən 24.06.1918-ci il tarixli qərarına əsasən, Gəncə şəhər milisi şəhər özünüidarəçiliyin sərəncamından çıxarılaraq yerli ümumi inzibati hakimiyyətin tabeçiliyinə keçirilmişdi. Hökumətin başqa bir qərarına görə (25.06.1918-ci il), Azərbaycan ərazisindəki bütün dəmir yolunun mühafizəsi də özünüidarəetmə hakimiyyətindən alınaraq Daxili İşlər Nazirliyinə tabe edilmişdi.

Daha sonra, 30.06.1918-ci il tarixdə «Şəhər özünüidarəçiliyində Daxili İşlər Nazirliyinin və polis səlahiyyətlərinin artırılması haqqında» Azərbaycan Hökumətinin müvafiq sərəncamı verildi; sözügedən 178 nömrəli qərarın bilavasitə icrası məqsədilə **02.07.1918-ci il tarixdə** xüsusi olaraq qəbul edilmiş qərara əsasən, Yelizavetpol (Gəncə)[2] quberniyasında **ilk milli nizami polis orqanları** təsis edilərək, onların yeni ştatları (polis rəisləri, sahə və şəhər polis pristavları, milis nəfərləri və s.), habelə artırılmış əməkhaqları təsdiq olundu.

Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycan Hökumətinin 24.06.1918-ci il tarixli 178 nömrəli qərarı milli polisin yaranmasına, inkişafına və təkmilləşməsinə impulsiv təkan vermişdir. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi həm polis, həm də milis təşkilatı formalarından istifadə etmişdir. Bu da, təbii ki, o dövrün mövcud inzibati orqanlarının təşkili və təcrübə ənənəsi ilə əlaqədar idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sərəncamları üzrə Daxili İşlər Nazirliyi, onun mərkəzi aparatı və yerli

---

[1] Qərarda Gəncə quberniyası və Azərbaycan Xalq Cümhuriyyətinin nəzarətində olan digər ərazilərdəki qulluqçuların əks halda tutduqları vəzifədən azad olunacaqları barədə xəbərdarlıq da edilirdi.

[2] Azərbaycan Hökumətinin 30.08.1918-c i il tarixli qərarı ilə Yelizavetpol adı ləğv edilərək, Gəncənin əvvəlki adı özünə qaytarılmışdı.

strukturları tədricən ölkədə bir **inzibati hakimiyyət** vahidi kimi mövqeyini getdikcə gücləndirirdi. Məsələn, şəhər özünüidarəetmə işində Daxili İşlər Nazirliyinin və polisin səlahiyyətlərinin daha da artırılmasına dair 30.06.1918-ci il tarixli sərəncam, erməni daşnaklarının törətdiyi mart soyqırımını araşdırmaq üçün fövqəladə təhqiqat komissiyasının yaradılması barədə 15.07.1918-ci il tarixli sərəncam, Daxili İşlər Nazirliyinin xüsusi istintaq komissiyasının təsis edilməsi haqqında 31.08.1918-ci il tarixli qərar və s.

Lakin həmin dövrdə Bakı quberniyasında S.Şaumyan başqa olmaqla Xalq Komissarları Soveti[1] (onu «Bakı Kommunası» da adlandırırdılar) fəaliyyət göstərirdi (25.04.1918-ci il), «Sentrokaspi»[2] hökuməti və güc strukturları yaranmışdı (01.08.1918-ci il). Yalnız 1918-ci ilin sentyabr ayında (15-17 sentyabr) Bakı gənc milli ordu və polis hissələri tərəfindən Türk qüvvələrinin köməyi ilə alındı və Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdü. Artıq Bakı Xalq Komissarları Soveti və onun hərbi-inzibati qüvvələri süqut etmiş, o cümlədən Xalq Daxili İşlər Komissarlığının fəaliyyətinə son qoyulmuşdu. Ancaq ictimai-siyasi gərginlik hələ də davam edirdi. Bütün bunlara baxmayaraq, Daxili İşlər Nazirliyinin

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti ilə yanaşı, əvvəldən davam edən mürəkkəb tarixi şəraitdə Bakı Xalq Komissarları Soveti də (Bakı Kommunası) təşkil olunmuşdu. 1918-ci il aprelin 25-də yaranan və cəmi 97 gün mövcud olan (31.07.1918-ci il) Bakı Kommunası sovet hakimiyyətinin Azərbaycanda ilk orqanı idi; yarandığı ilk gündən sosialist dəyişikliklərinin həyata keçirilməsinə başlayan bu təşkilatda 12 komissarlıqdan biri də Xalq Daxili İşlər Komissarlığı idi; təşkilat sovet inzibati orqanlarının, o cümlədən fəhlə-kəndli milisinin təşkili ilə məşğul idi; Azərbaycanın bir hissəsində Bakı Kommunası, digər hissəsində isə Azərbaycan Xalq Cümhuriyyəti hakim idi və bu hakimiyyətlərin qüvvələri arasında ciddi mübarizə gedirdi.

[2] Bakı Kommunası süqut etdikdən sonra 1918-ci il avqustun 1-də onun əvəzinə daşnaq-menşevik və eserlerin «Sentrokaspi və Sovetin müvəqqəti icraiyyə komitəsi rəyasət heyətinin Diktaturası» adlanan hökumət yarandı; əsasən, ingilis hərbi qüvvələrinə arxalanan «Sentrokaspi» cəmi 44 gün yaşadı.

fəaliyyəti və münasibətlər dairəsi əhəmiyyətli dərəcədə genişlənirdi, mərkəzi və yerli daxili işlər orqanlarının təşkilati-struktur inkişafı və təkmilləşdirilməsi üçün Azərbaycan Hökuməti zəruri tədbirlər görürdü.

Azərbaycan Hökumətinin müraciəti əsasında Antanta dövlətlərinin Ali Şurasının qərarı ilə İngiltərə, Fransa və ABŞ müttəfiq dövlətlərin məhdud kontingentdə hərbi missiyası ictimai asayişi bərpa etmək üçün Bakıya gəlmişdi (17.11.1918-ci il). «Hərbi vəziyyətin və mütləq qaydaların tətbiq edilməsi haqqında» Bəyanat verilərək hərbi vəziyyət elan olunmuş, eyni zamanda, Bakı polisi müttəfiq dövlətlərin yaratdığı müvəqqəti **Polis Komissarlığına** tabe edilmişdi. Komissarlığın polis əməkdaşları ilə yerli milli polis arasında Bakıda sabitliyin və təhlükəsizliyin təmin edilməsi, qayda-qanuna riayət olunması, habelə təhlükəli, siyasi və transmilli cinayətlərlə mübarizə sahəsində birgə əməkdaşlıq həyata keçirilmiş və bu əməkdaşlıq 29 mart 1919-cu ilədək davam etdirilmişdi; «Bakını cinayətkarlardan və heç bir məşğuliyyəti olmayan şəxslərdən təmizləmək haqqında» Azərbaycan Hökuməti tərəfindən Daxili İşlər Nazirliyinə müvafiq sərəncam verilmişdi (10.02.1919-cu il).

Azərbaycan Parlamentinin 9 aprel 1919-cu il tarixli iclasında Daxili İşlər Nazirliyinin 14 maddədən ibarət **yeni ştatları** qəbul edildi. Eləcə də həmin ilin aprel ayında Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi nəzdində **«Müvəqqəti xüsusi səlahiyyətli müvəkkillər institutu»** yaradıldı. Bu institutun əsas vəzifəsi respublikanın qəzalarında yerli inzibati hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət etmək, milli təşkilat və komitələrin qarşılıqlı əlaqələrini nizama salmaqdan ibarət idi.

O dövrdə yaranmış mürəkkəb şəraitə baxmayaraq,[1] Azərbaycan Parlamenti 27.07.1919-cu il tarixli iclasında respublikanın sərhədlərini də qorumaq üçün **«Sərhəd mühafizəsinin təşkili haqqında»** müvafiq qərar qəbul etmişdi. Sərhəd ərazilərini qorumaq məqsədilə Zaqatala quberniyası, Gəncə quberniyası, Qarabağ general-qubernatorluğu və Bakı quberniyasında (Lənkəran qəzası istisna olmaqla) 99 əsas post qoyulması (müvafiq gözətçilərlə) nəzərdə tutulmuşdu. Həmçinin İranla sərhəd əraziləri və Cavad (indiki Salyan) qəzasının sərhədlərini qoruyan polis dəstəsi də yaradılmışdı.

Dövlət Müdafiə Komitəsinin[2] qərarı ilə (16.09.1919-cu il) Daxili İşlər Nazirliyinin yanında **«Xüsusi polis müfəttişliyi»**

---

[1] Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bolşeviklər tərəfindən 1919-cu il aprelin 25-də mərkəzi Lənkəran olmaqla yaradılan Muğan Sovet Respublikasının da hərbi və inzibati qüvvələri təsis edilmiş və müstəqil milli hökumətə qarşı mübarizəyə cəlb olunmuşdu; cəmi 93 gün yaşayan bu sovet hakimiyyəti qurumunun artıq inzibati şöbələri, o cümlədən daxili işlər şöbəsi, xalq milisi yaradılmışdı; onun müqaviməti 25.07.1919-cu ildə Cümhuriyyətin silahlı qüvvələri tərəfindən qəti şəkildə qırılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-1919-cu illərdə yaranıb bir neçə ay fəaliyyət göstərmiş Cənub-Qərbi Qafqaz (Kars) Respublikasını və Araz-Türk Respublikasını da tanımış, onları dəstəkləmiş və müdafiə etmişdir; paytaxtı Kars olan Cənub-Qərbi Qafqaz Respublikası Kars, Ərdəhan və Batum vilayətlərində erməni hərbi birləşmələrinin həmin torpaqlara hücumundan müdafiə məqsədi ilə 01.12.1918-ci ildə yaradılmışdı; həmçinin bu məqsədlə paytaxtı Naxçıvan olan Araz-Türk Respublikası 1918-ci il iyulun sonu avqustun əvvəlində yaranmışdı; hərbi qüvvələr, əsasən, silahlı partizan və könüllü xalq milisi dəstələrindən ibarət idi; erməni birləşmələrinə qarşı birgə mübarizə məqsədilə 1918-ci ilin sonlarında həmin respublikalar, fakti olaraq, birləşmişdilər; təəssüf ki, Antanta dövlətləri tərəfindən bu respublikaların çox yaşamalarına imkan verilmədi; Naxçıvan ərazisində daşnaq təcavüzkarlığı ilə əlaqədar xalq milisi formasında yaradılan özünümüdafiə dəstələrinin qeyri-bərabər mübarizəsinə baxmayaraq, Araz-Türk Respublikası süqut etdi; 1919-cu il aprelin 12-dək mövcud olan Cənub-Qərbi Qafqaz Respublikasının da aqibəti eynilə belə oldu.

[2] Dövlət Müdafiə Komitəsi Azərbaycan Parlamenti tərəfindən yaradılmışdı (09.06.1919-cu il). Bu barədə mətbuatda elan iyunun 11-də dərc edilmişdi. Daxili İşlər Nazirliyi vaxtaşırı Dövlət Müdafiə Komitəsi qarşısında hesabat verirdi.

yaradıldı. Onun əsas vəzifəsini öz idarəsinin və bütün mülki inzibati hakimiyyətin hərəkətlərinin qanuniliyinə nəzarətin həyata keçirilməsi təşkil edirdi. Müfəttişlik birbaşa daxili işlər nazirinə tabe idi, öz fəaliyyət istiqaməti və dairəsini müəyyən edən göstərişləri ondan alırdı.

1918-1920-ci illərdə Bakıda Daxili İşlər Nazirliyinə tabe olan polis təşkilatları ilə yanaşı, qəzalarda da Daxili İşlər Nazirliyinə tabe olan və mərkəzləşdirilmiş qaydada xidmət üzrə vaxtaşırı hesabat verən **polis strukturları** mövcud olmuşdur: Bakı quberniyası, Göyçay qəzası, Cavad qəzası, Quba qəzası, Şamaxı qəzası, Lənkəran qəzası, Gəncə quberniyası, Zaqatala quberniyası, Şuşa qəzası, Zəngəzur qəzası, Cəbrayıl qəzası, Cavanşir qəzası və s.

Şimaldan yaxınlaşan XI qırmızı ordu ilə mübarizə aparmaq məqsədilə, Dövlət Müdafiə Komitəsinin qərarı əsasında **Quba qəza xalq milisi** yaradıldı (21.04.1920-ci il). Lakin görülmüş tədbirlərə baxmayaraq, xarici və daxili mənfur qüvvələrin səyi nəticəsində 1920-ci il aprel ayının sonunda Azərbaycanda hökumət böhranı baş vermiş və ictimai-siyasi vəziyyət gərginləşmişdi. 1920-ci il aprelin 28-də Rusiyanın XI qırmızı ordusunun müstəqil Azərbaycan ərazisinə təcavüz edərək, hələ iki gün öncə daxil olmuş hissələri milli ordunun və polis qüvvələrinin ciddi müqaviməti və şiddətli döyüşləri ilə üzləşsələr də, Azərbaycan Xalq Cümhuriyyətinin qanuni hökumətini devirdi. Bununla da Azərbaycan ərazisində geniş miqyaslı sovet hakimiyyəti quruculuğuna başlanıldı.

Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından onun süqutunadək olan **dövr (28.05.1918-ci il – 28.04.1920-ci il)** Azərbaycanda ilk müstəqil dövlətin, deməli, həm də milli polis quruculuğunun və milli polis hüququnun təşəkkül tapması və inkişaf mərhələsi kimi önəmli rol oynamışdır.

Təqdirəlayiq haldır ki, Azərbaycanda milli polisin yaranmasının şanlı tarixi məhz həmin dövrə, konkret olaraq, 2 iyul 1918-ci ilə təsadüf edir.

## 1.4. Azərbaycan polisinin «sovet milis» dövründə fəaliyyəti

Azərbaycanda ictimai sistem dəyişərək sovet hakimiyyəti qurulduqdan sonra tamamilə yeni sovet sosialist dövlət idarəetmə aparatının yaradılması ilə yanaşı, digər sahələrdə olduğu kimi, polis orqanlarında da köklü islahatların həyata keçirilməsinə başlanıldı. Belə ki, Azərbaycan İnqilab Komitəsinin 28 aprel 1920-ci il tarixli dekreti ilə **Azərbaycan Sovet Sosialist Respublikasının Xalq Daxili İşlər Komissarlığı** (XDİK) yaradıldı. Ertəsi gün «Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyəti polisinin buraxılması və fəhlə-kəndli milisinin təşkili haqqında» Azərbaycan İnqilab Komitəsinin dekreti və Bakı İnqilab Komitəsinin 1 saylı qərarı verildi. Bununla da, polis yenidən təşkil edilməklə **«milis»** adlandırıldı. Həmin dekretlə Bakıda və respublikanın qəzalarında sovet milisinin təşkilinə bilavasitə rəhbərlik etmək üçün Xalq Daxili İşlər Komissarlığı yanında Baş Milis İdarəsi yaradılmışdı.

1920-ci il mayın 5–6-da keçirilmiş ÜmumBakı konfransı Bakının qəzala-rında və kəndlərində köhnə polis və sərhəd jandarm orqanlarının əməli ləğvi (tərksilah edilməsi) və fəhlə-kəndli milisinin yaradılması haqqında qətnamə qəbul etdi. Daha sonra ölkənin bütün ərazisində Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər orqanlarını əməli ləğv etmək üçün XDİK tərəfindən 11.05.1920-ci il tarixli xüsusi əmr verildi. Əmrə uyğun olaraq, general-qubernator, qubernator, qradonaçalnik, xüsusi səlahiyyətli orqanlar, şəhər və qəzalarda polis müfəttişliyi, quberniya polismeysterliyi, sahə polis pristavları və digər strukturlar ləğv edildi. Lakin əvvəlki təşkilati strukturlardan və ərazi bölgü prinsiplərindən şəhər və qəza milis orqanları yaradılarkən hələ də istifadə olunurdu. Məsələn, Bakı polis-meysterliyi dövründəki 10 sahə polisi və liman polisinin inzibati sərhəd bölgüsü olduğu kimi saxlanılaraq, yalnız adları dəyişdirilmiş və sahə milis idarələri adlandırılmışdı.

Bakı İnqilab Komitəsinin və şəhər xalq milisi rəisinin 14.05.1920-ci il tarixli əmri ilə Balaxanı-Sabunçu polismeys-

terliyi rəsmən ləğv edilərək, əvəzində Balaxanı-Sabunçu milisi yaradılmışdı; keçmiş xəfiyyə polisi cinayət-axtarış milisi adlandırılmışdı; sahə milis idarələrinin başında kommunistlərdən ibarət komissarlar dururdular.

**Sovet fəhlə-kəndli milis quruculuğu** ölkənin bütün ərazisində sürətlə aparılırdı. «Proletar milisi təşkilinin sürətləndirilməsi haqqında» Xalq Daxili İşlər Komissarlığı qəza inqilab komitələrinə müvafiq təlimat göndərmişdi (16.05.1920-ci il). Artıq 1920-ci ilin aprel-iyun aylarında Kürdəmir, Zaqatala və Nuxa qəza inqilab komitələri yanında milis şöbələri, Ağdaş qəza fəhlə-kəndli milisi, Şamaxı qəza milisi, Quba qəza milisi, Qaryaqin (indiki Füzuli) qəza milisi, Şuşa qəza milisi, Göyçay qəza sovet milisi, Gəncə şəhər-qəza, Qazax, Tovuz, Şamxor (indiki Şəmkir) qəza milis şöbələri və s. təşkil olunmuşdu; Bakı şəhər qəza xalq milisi rəsmən fəhlə-kəndli milisi adlandırılmışdı.

Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycan İnqilab Komitəsi «Xalq Daxili İşlər Komissarlığı haqqında» 09.06.1920-ci il tarixli 34 saylı dekret vermişdi. Həmin dekretlə, faktiki olaraq, XDİK-in **hüquqi statusunu** müəyyən edən Əsasnamə təsdiq edildi. Dekretdə göstərilirdi ki, Xalq Daxili İşlər Komissarlığı respublikanın **ali inzibati orqanıdır** və Azərbaycan İnqilab Komitəsi ölkənin inzibati idarəçiliyini məhz onun vasitəsi ilə həyata keçirir. Göründüyü kimi, XDİK respublikanın daxili idarəetmə strukturunda mərkəzi orqan idi; o, öz fəaliyyətində Sovetlərin Azərbaycan qurultayının, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin, Respublika Xalq Komissarları Sovetinin dekret və qərarlarını rəhbər tuturdu; 1920-ci ildə onun **strukturu** aşağıdakı kimi təsdiq edilmişdi:

I. İdarə Şöbəsi [yarımşöbələrlə: a) inzibati, b) baş milis idarəsi, c) xarici, d) vətəndaş vəziyyəti aktları, e) təxliyyə];

II. Təlimat Şöbəsi [yarımşöbələrlə: a) informasiya, b) statistika];

III. Kommunal Şöbəsi [yarımşöbələrlə: a) bələdiyyə, b) nəqliyyat, c) abad-lıq, d) mühəndis-tikinti].

Milis orqanlarının normal fəaliyyət göstərməsinin təmin olunması məqsədi ilə bir sıra **normativ hüquqi sənədlər** qəbul edildi:

- Azərbaycan İnqilab Komitəsi tərəfindən «Azərbaycan sovet fəhlə-kəndli milisi haqqında» müvafiq Təlimat və XDİK Baş Milis İdarəsinin hazırladığı «Milisin intizam nizamnaməsi» nəşr edildi (10.06.1920-ci il);
- Azərbaycan İnqilab Komitəsi milisin normal fəaliyyətini tənzimləyən dekret verdi (02.08.1920-ci il); su milisinin təşkili 1920-ci il sentyabrın 14-də tam başa çatdı;
- Azərbaycan İnqilab Komitəsi tərəfindən «Respublika milisinin «Qızıl Ordu» vəziyyətinə keçirilməsi haqqında» dekret verildi (15.09.1920-ci il);
- Azərbaycan İnqilab Komitəsi XDİK-in cinayətkarlığa qarşı apardığı mübarizənin səmərəliliyini artıran və onu tənzimləyən «İnqilabi qaydaları qorumaq və cinayətkarlıq hallarına qarşı mübarizəni gücləndirmək haqqında» yeni dekret verdi (29.09.1920-ci il);
- XDİK tərəfindən «Azərbaycan mərkəzi milis məktəbi»nin Əsasnaməsi təsdiq edildi (09.10.1920-ci il);
- «Post milisinin Təlimatı» təsdiq və nəşr olundu (oktyabr 1920-ci il);
- Azərbaycan Sovet Sosialist Respublikası XDİK-in «Baş Milis İdarəsi haqqında» Əsasnamə təsdiq edildi (27.11.1920-ci il);
- Azərbaycan İnqilab Komitəsi «Fəhlə-kəndli sovet milisi haqqında» Əsasnaməni təsdiq etdi (22.12.1920-ci il);
- XDİK-in Kollegiyası tərəfindən Respublika Baş Milis İdarəsi yanında «Mərkəzi Cinayət-Axtarış İdarəsi haqqında» Əsasnamə təsdiq edildi (26.01.1921-ci il); Əsasnamə 8 bölmədən ibarət idi; Azərbaycanda cinayət-

axtarış orqanlarının formalaşması 1921-ci ilin iyun ayında başa çatdı;

– Respublika Hökuməti «Azərbaycan ehtiyat milisinin yaradılması haqqında» müvafiq qərar verdi (04.06.1921-ci il);
– Respublika Baş Milis İdarəsi yanında Siyasi-maarif şöbəsi yaradıldı; bu qurumun yaradılması Rusiya Kommunist (bolşevik) Partiyasının 1921-ci ilin avqustunda partiya təşkilatlarına göndərdiyi «Fəhlə-kəndli milis orqanlarında partiya siyasi-maarif işlərini gücləndirmək tədbirləri haqqında» məktubu ilə əlaqədar idi;
– Azərbaycan Xalq Komissarları Soveti «Sovet fəhlə-kəndli milisi haqqında» Əsasnamə təsdiq etdi (19.10.1921-ci il); Respublikada milisin yenidən təşkilini nəzərdə tutan bu Əsasnamə iki bölmədən ibarət idi: a) «Baş Milis İdarəsi haqqında», b) «Qəza-şəhər milis idarələri haqqında»;
– Azərbaycan Hökuməti «Banditizmlə mübarizə işinin Fövqəladə Komissiya orqanlarından alınıb milisə verilməsi barədə» müvafiq qərar verdi (mart 1922-ci il);
– Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu və Azərbaycan Xalq Komissarları tərəfindən «Fəhlə-kəndil milisi haqqında» yeni Əsasnamə təsdiq edildi (06.04.1922-ci il) və s.

Milisin normal fəaliyyət göstərməsi üçün Azərbaycan İnqilab Komitəsinin 02.08.1920-ci il tarixli dekreti xüsusi əhəmiyyətə malik idi. Dekretə əsasən, XDİK-in sərəncamında olan bütün milis növləri dövlət təminatına qəbul edilmiş, milis saxlama və geyim xərcləri baxımından XDİK-in təsdiq etdiyi ştatlara mütləq riayət etməklə «Qızıl Ordu»nun vəziyyətinə uyğun duruma keçirilmiş, milisdə hərb sənətinə və hərbi intizama məcburi təlim tətbiq edilmişdi.

Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) təşkil edilməsi ilə əlaqədar olaraq (məlum məsələdir ki, Azərbaycan

Sovet Sosialist Respublikası da onun tərkibinə qatılmışdı), **milis orqanlarında yenidən təşkilati-ştat və struktur dəyişiklikləri** baş verdi (30.12.1922-ci il).

Azərbaycan SSR Baş Milis İdarəsinin 30.05.1923-cü il tarixli 126 saylı əmri ilə milis əməkdaşlarının xidmətə qəbulu haqqında yeni təlimat elan edildi. Həmin ilin oktyabr ayında Azərbaycan SSR XDİK-in Baş Milis İdarəsi ləğv edilərək, əvəzinə inzibati milis qurumu yaradıldı, yerlərdə isə Qəza İcraiyyə Komitələri yanında inzibati şöbələr təşkil olundu.

1924-cü ilin mart ayında Azərbaycan Hökumətinin qərarı ilə Respublika milisi bütünlüklə XDİK-in İnzibati Milis İdarəsinə tabe edildi; Bakı Sovetinin Daxili İdarə Şöbəsi və Bakı qəza-şəhər Milis İdarəsi birləşdirilərək Bakı Sovetinin İnzibati Şöbəsi yaradıldı (20.04.1924-cü il); ticarətə ümumi nəzarət və meşə sərvətlərinin mühafizəsi də milis orqanlarına həvalə edildi.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 26.01.1925-ci il tarixli qərarı ilə «Azərbaycan SSR müəssisə milisinin təşkili barədə» və «Müəssisə milisi haqqında» müvafiq əsasnamələr təsdiq edildi; bunlara uyğun olaraq, Respublikanın qəza və şəhərlərində müəssisə milisi orqanlarının əməli təşkili həyata keçirildi. Həmçinin Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə (protokol № 3, 26.12.1925-ci il) «Azərbaycan SSR fəhlə-kəndli qırmızı milisində xidmət haqqında» Əsasnamə və «Fəhlə-kəndli milisinin İntizam Nizamnaməsi» təsdiq olundu; bununla da Respublika milisinin **yeni hüquq və vəzifələri** müəyyənləşdirildi.

1925-ci ilin dekabr ayında XDİK haqqında qəbul edilmiş və 7 bölmədən ibarət olan Əsasnamə onun strukturunu belə müəyyən edirdi: xalq komissarı, onun müavini, xalq komissarı yanında Kollegiya, şöbələr – inzibati, təşkilat-təlimat, həbs yerləri, yerli təsərrüfat, işlər idarəsi.

1926-cı ilin fevral ayında XDİK-in inzibati milis və ictimai asayişi mühafizə şöbələri birləşdirilib vahid İnzibati Şöbəyə çevrildi; Azərbaycan Hökumətinin «Qəza İcraiyyə Komitə-

lərinin inzibati şöbələri haqqında» təsdiq etdiyi Əsasnamə ilə (10.10.1926-cı il) qəza-şəhər inzibati şöbələri və milis işçilərinin hüquq və vəzifələri genişləndirildi.

Respublikada **sovet quruculuğu** ilə bağlı olaraq, XDİK-in iş funksiyaları və təşkilati strukturu dəfələrlə dəyişikliyə məruz qalmışdır. 1927-ci ilin yanvar ayında XDİK-in yeni strukturu təsdiqləndi və Azərbaycan Hökuməti «Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı haqqında» Əsasnamə qəbul etdi (09.10.1927-ci il); XDİK-in yeni strukturu aşağıdakı kimi yaradıldı: Ümumi İdarə, Mərkəzi-İnzibati İdarə, Həbs Yerləri İdarəsi, Kommunal-Təsərrüfat İdarəsi; Respublika milisi XDİK-in Mərkəzi-İnzibati İdarəsinə tabe idi.

1928-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən «Xalq Daxili İşlər Komissarlığı haqqında» Əsasnamə təsdiq edildi (14.01.1928-ci il); Əsasnaməyə görə, XDİK-in nəzdində cinayətkarlığı və cinayətkarların şəxsiyyətini öyrənən kriminalistika kabineti yaradıldı; elə həmin ildə rayon cinayət-axtarış şöbələri müstəqil idarələrə çevrildilər.

1929-cu ilin iyun ayında Bakıda şəxsi heyəti bütünlüklə komsomolçulardan ibarət olan 2-ci rayon milisi təşkil edildi; Azərbaycan Xalq Komissarları Soveti tərəfindən «Sərxoşları və xuliqanları tutan zaman vətəndaşlar tərəfindən milisə yardım göstərmək haqqında» müvafiq qərar verildi (11.08.1929-cu il); bu qərara uyğun olaraq, Bakıda və Respublikanın rayonlarında milisə kömək cəmiyyətlərinin təşkilinə başlanıldı.

Milis orqanlarında baş verən müxtəlif cür dəyişikliklər hələ 1930-cu illərdə də davam edirdi. Bu ondan irəli gəlirdi ki, sovetlər hakimiyyəti ictimai asayişin və qanunçuluğun qorunmasında keçmiş təcrübədən imtina edərək, keyfiyyətcə yeni sistem yaratmağa səy göstərirdi. Sovet hakimiyyətinə qarşı baş verən üsyanların və çıxışların [məsələn, Şahbuz rayonunda, Əbrəqunis (indiki Culfa) rayonunda, Şəkidə, Zaqatalada, Şəmkirdə, Qarabağda, Goranboyda, Xızıda, Saatlıda, Yevlaxda və digər yerlərdə] yatırılmasında, tikinti-quruculuq işlərində [məsələn, İliç (indiki Bayıl) buxtasının, S.Razin (indiki Ba-

kıxanov) qəsəbəsinin, Bakı maşınqayırma (indiki Səttərxan adına) zavodunun və s. obyektlərin tikintisində] milis qüvvələrindən istifadə edilirdi; Azərbaycan milis orqanları ölkədə keçirilən «müdafiə dekadası»na qoşulmuşdu; Azərbaycanla digər Zaqafqaziya respublikalarının milis və cinayət-axtarış orqanları arasında sosializm yarışı başlanmışdı; ölkənin milis orqanlarında «Lenin guşələri» və «Qırmızı stollar» haqqında əsasnamələr qüvvəyə minərək tətbiq olunurdu.

Azərbaycan Hökuməti tərəfindən «Respublika milis orqanlarının Dövlət Siyasi İdarəsinin tabeçiliyinə keçirilməsi haqqında» müvafiq qərar verildi (10.02.1930-cu il); həmin qərara əsasən, XDİK yanında Mərkəzi İnzibati İdarə yenidən Dövlət Siyasi İdarəsi nəzdində Baş Milis İdarəsi adlandırılmış, eyni zamanda, xüsusi inspeksiyalar yaradılmışdı; Azərbaycan milisinin hərbiləşdirilməsi ideyası 1930-cu ildə XDİK-in ləğvi ilə Baş Milis İdarəsinin və cinayət-axtarış orqanlarının Dövlət Siyasi İdarəsinin tərkibinə keçirilməsi nəticəsində yaranmışdı; burada əsas məqsəd hərbi nizamnamə və əsasnamələr üzrə yaşayan, təlim görən və tərbiyə olunan hərbi milis orqanlarının yaradılması idi.

1930-cu ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti tərəfindən «Müttəfiq və muxtar respublikaların Xalq Daxili İşlər Komissar-lıqlarının ləğv edilməsi haqqında» qərar qəbul edildi (15.12.1930-cu il); bu qərara əsasən, müttəfiq respublikaların Xalq Komissarları Soveti yanında Baş Milis İdarəsi və Cinayət-Axtarış İdarəsi yaradıldı; vilayət, şəhər və rayon icraiyyə komitələri yanında yenidən milis idarələri təşkil olundu; müvafiq struktur dəyişiklikləri Azərbaycanda da həyata keçirildi; ölkədə bütün milis və cinayət-axtarış orqanları ümumi əsaslarla, müvafiq olaraq, Xalq Komissarları Sovetinə, vilayət icraiyyə komitəsinə, rayon icraiyyə komitələrinə və şəhər sovetlərinə tabe edildi; Baş İdarə öz fəaliyyətini Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin Kollegiyasının, yerli milis və cinayət-axtarış strukturları isə, uyğun

olaraq, Dövlət Siyasi İdarəsinin yerli orqanlarının rəhbərliyi altında qururdu.

Beləliklə, həyata keçirilmiş **təşkilati dəyişikliklər** nəticəsində Azərbaycan milisi Respublika Xalq Komissarları Sovetinin, yerlərdə icraiyyə komitələrinin, yuxarı milis orqanlarının, Dövlət Siyasi İdarəsinin və onun yerli orqanlarının **tabeliyinə** düşdü.

Lakin o dövrün təcrübəsi göstərdi ki, milis orqanlarının belə formada tabeçiliyi özünü heç də doğrultmadı. Azərbaycan milisinin tərkibində yeni struktur dəyişikliklərinin aparılması işi davam edirdi. 1931-ci il fevralın 5-də Respublikanın mərkəzi milis aparatları Dövlət Siyasi İdarəsinin sərəncamından çıxarılıb, bilavasitə Xalq Komissarları Soveti yanında ona tabe olan və bütün milis orqanlarına rəhbərlik edən müstəqil Fəhlə-Kəndli Baş Milis və Cinayət-Axtarış İdarəsinə tabe edildi; SSRİ Xalq Komissarları Soveti tərəfindən təsdiq edilmiş (25.05.1931-ci il) və 30 il qüvvədə qalmış **«Fəhlə-kəndli milisi haqqında» Əsasnamə** ölkə milisi üçün əsas qanunvericilik aktı idi; buna müvafiq olaraq, Respublika Hökuməti «Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Fəhlə-Kəndli Baş Milis İdarəsi haqqında» Əsasnamə də qəbul etmişdi (14.09.1931-ci il), habelə «Azərbaycan SSR yerli fəhlə-kəndli milis orqanları haqqında» ayrıca Əsasnamə təsdiqləmişdi (15.01.1933-cü il) və s.

1934-cü ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi «Ümumittifaq Xalq Daxili İşlər Komissarlığının yaradılması haqqında» və «Yerlərdə XDİK orqanlarının təşkili haqqında» qərarlar qəbul etdi; Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının XDİK qurumu yaradıldı (17.07.1934-cü il) və onun filialı – Azərbaycan SSR XDİK, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının XDİK və Dağlıq Qarabağ Muxtar Vilayətinin XDİK orqanları təsis olundu; yeni yaranmış XDİK-in strukturu belə idi: dövlət təhlükəsizlik, fəhlə-kəndli baş milis, islah-əmək müəssisələri, yanğından mühafizə idarələri, vətən-

daşlıq vəziyyəti aktlarının qeydiyyatı və inzibati - təsərrüfat şöbələri.

1935-ci ilin sonlarında ləğv edilmiş xarici stolların və yerli sovetlərdəki stolların əvəzinə viza və qeydiyyat strukturları yaradılaraq, pasport rejiminin saxlanmasında milis orqanlarının səlahiyyətləri xeyli genişlənmişdi; küçə hərəkətinin nizamlanması, yerli nəqliyyatda baş verən qəza və hadisələrin uçotunun aparılması milis orqanlarının vəzifələrinə aid edilmişdi; SSRİ Xalq Komissarları Sovetinin təsdiq etdiyi «Baş Fəhlə-Kəndli Milis İdarəsinin Dövlət Avtomobil Müfəttişliyi haqqında» Əsasnaməyə (03.07.1936-cı il) uyğun olaraq, Azərbaycanda da Dövlət Avtomobil Müfəttişliyi orqanı yaradıldı; icazə sistemi qaydalarına milis nəzarəti ictimai asaiyişin qorunmasında əhəmiyyətli idi; ölkə ərazisində bütün növ silah və döyüş sursatının, partlayıcı maddələrin istehsalı, satışı, saxlanması, istifadəsi, uçotu və daşınmasına nəzarət milis orqanlarına həvalə olunmuşdu.

SSRİ Konstitusiyasının (05.12.1936-cı il) və Azərbaycan SSR Konstitusiyasının (14.03.1937-ci il) qəbul edilməsi ilə əlaqədar olaraq, milis orqanlarının yeni hüquq və vəzifələri müəyyənləşdirildi, **milis sistemində mühüm dəyişikliklər** baş verdi.[1] XDİK-də sosialist əmlakını dağıdanlarla və möhtəkirliklə mübarizə orqanları, inzibati-təsərrüfat şöbələri, xətti dəmir yol milisi və onun istintaq qrupları, siyasi şöbə aparatları təsis edildi, milisdə uşaq evləri təşkil olundu, habelə banditizmə qarşı mübarizə şöbələri yaradıldı.

1941-ci ildə Azərbaycan SSR Ali Soveti tərəfindən «Azərbaycan Xalq Daxili İşlər Komissarlığının müstəqil komissarlıqlara bölünməsi haqqında» müvafiq qərar verildi (06.03.1941-ci il); qərara əsasən, müstəqil Xalq Daxili İşlər Komissarlığı və Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı yaradıldı; Respublikanın milis orqanları XDİK-in tabeliyində sax-

---

[1] Ədalət naminə, təəssüflə qeyd etmək lazımdır ki, 1930-1940-cı illər Azərbaycan milisinin tarixində repressiya, həbs, güllələnmə və s. aktlarla daha çox yadda qalmışdır.

lanmışdı. Lakin Böyük Vətən Müharibəsinin başlanması ilə əlaqədar SSRİ Ali Sovetinin Rəyasət Heyəti «Hərbi vəziyyət haqqında» müvafiq fərman verir və 20.07.1941-ci il tarixli qərarla adı çəkilən dövlət təhlükəsizliyi və daxili işlər komissarlıqları vahid Xalq Daxili İşlər Komissarlığında birləşdirilir. O dövrdə milis orqanlarının səlahiyyətləri xeyli genişləndirilmişdi: fərarilik və təxribatçılıqla mübarizə aparmaq, şəhərləri və müdafiə-təsərrüfat məntəqələrini cinayətkar ünsürlərdən təmizləmək, əhalinin təxliyyə olunmasını təmin etmək, hərbi vəziyyətlə bağlı digər vəzifələri yerinə yetirmək və s. Eyni zamanda, qeyd olunmalıdır ki, milis əməkdaşları 1941-1945-ci illərdə alman faşimi ilə mübarizədə fəal iştirak etmişdir;[1] XDİK aparatının təkmilləşdirilməsi işi davam etdirilərək, 1943-cü ildə milis sistemində yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə üzrə orqanlar yaradılmışdı.

**Böyük Vətən Müharibəsi** qələbə ilə başa çatdıqdan sonra milis orqanlarında yenidən dəyişikliklər baş verdi. 1946-cı ildə SSRİ Xalq Daxili İşlər Komissarlığı ləğv edilərək **Daxili İşlər Nazirliyinə** çevrildi; milisdə inzibati şöbələr ləğv olunaraq, onların funksiyaları pasport şöbələrinə verildi; mərkəzi aparatda cinayət-axtarış xidməti əvəzinə fəaliyyətini ərazi prinsipi üzrə quran cinayət-axtarış idarəsi təşkil edildi, hərbi səfərbərlik şöbəsi yaradıldı; 1947-ci ildə sosialist əmlakını dağıdanlarla və möhtəkirliklə mübarizə aparatlarında aparılmış struktur dəyişiklikləri nəticəsində inspektor heyətinin və digər xidmətlərin fəaliyyəti xətt-sahə prinsipi üzrə quruldu; 1948-ci ildə daxili işlər idarələrinin istintaq orqanları yaradıldı; 1949-cu ildə milis Dövlət Təhlükəsizliyi Nazirliyinin tabeçiliyinə keçirildi, idarələrdə uçot-qeydiyyat şöbələri, elmi-texniki bölmələr yaradıldı; 1952-ci ildə müəssisədənkənar mühafizə milisi təşkil olundu; 1953-cü ildə daxili işlər orqanları ilə dövlət təhlükəsizlik or-

---

[1] Böyük Vətən Müharibəsində Azərbaycan SSR daxili işlər orqanlarının 797 əməkdaşı iştirak etmiş, bir çoxu qəhrəmanlıq nümunələri göstərmiş və 4 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. *Bu barədə bax:* Əliyarlı İ.M., Behbudov T.R. Azərbaycan daxili işlər orqanlarının tarixi. I kitab. Bakı, 2003, s.75-76.

qanları birləşdirilərək Daxili İşlər Nazirliyi yaradılmış, lakin çox çəkmədən 1954-cü ildə nazirlik bölünmüş və yenidən Daxili İşlər Nazirliyi (milis orqanları da onun tabeliyinə verilməklə) və Dövlət Təhlükəsizlik Nazirliyi təşkil olunmuşdu; 1956-cı ildə milis strukturu yerli şəhər (rayon) zəhmətkeşləri sovetlərinin milis orqanlarına çevrilmiş və beləliklə, yenə də əvvəllər mövcud olan milisin **ikili tabeçilik prinsipi** (yerli sovetlərə və Daxili İşlər Nazirliyinə) bərpa edilmişdi.

Daha sonra SSRİ Nazirlər Soveti «SSRİ DİN-in ləğv edilməsi və onun funksiyalarının müttəfiq respublikaların daxili işlər nazirliklərinə verilməsi haqqında» qərar qəbul etdi (01.01.1960-cı il); sonradan Daxili İşlər Nazirliyi yenidən təşkil olunaraq İctimai Asayişi Mühafizə Nazirliyinə çevrildi; «Sovet milisi haqqında» Əsasnamə qəbul edildi; 1963-cü ildə ictimai asayişi mühafizə orqanlarına ibtidai istintaq aparmaq səlahiyyətləri verildi; 1968-ci ildə İctimai Asayişi Mühafizə Nazirliyi təkrarən Daxili İşlər Nazirliyi adlandırıldı; 1972-ci ildə «Azərbaycan SSR Daxili İşlər Nazirliyinin» Əsasnaməsi təsdiq edildi.

Həmin illərdən başlayaraq sonrakı dövrədək **milis orqanlarının fəaliyyəti**, əsasən, xüsusilə qəbul edilmiş aşağıda göstərilən sənədlərlə tənzimlənirdi:

- «İctimai asayişin mühafizəsi və cinayətkarlıqla mübarizədə sovet milisinin əsas vəzifələri və hüquqları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı (08.06.1973-cü il);
- «Sovet milisinin fəaliyyətinin hüquqi cəhətdən tənzimlənməsi və təkmilləşdirilməsi haqqında» SSRİ Nazirlər Sovetinin qərarı (08.06.1973-cü il);
- SSRİ Nazirlər Soveti tərəfindən təsdiq edilmiş «Sovet milisi haqqında» Əsasnamə (iyun 1973-cü il);
- «Azərbaycan SSR-də hərəkətin təhlükəsizliyinin gücləndirilməsi tədbirləri haqqında» Azərbaycan Kommu-

nist Partiyası Mərkəzi Komitəsinin qərarı (13.03.1973-cü il);

- «Hüquq qaydalarının mühafizəsi və hüquqpozmalar ilə mübarizə işinin gücləndirilməsi haqqında» Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi-nin qərarı (26.09.1979-cu il);
- Respublikanın müxtəlif şəhər və rayonlarında cinayətkarlıqla mübarizənin gücləndirilməsi tədbirləri barədə məsələnin müzakirəsi üzrə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qəbul etdiyi qərarlar;[1]
- «SSRİ DİN sistemində siyasi orqanlar haqqında» Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu tərəfindən təsdiq edilmiş Əsasnamə (31.03.1988-ci il);
- «Sovet milisi haqqında» SSRİ Ali Sovetinin Qanunu (07.06.1990-cı il) və s.

1990-cı ildə Azərbaycan SSR Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı milis dəstəsi yaradılmış və ilk dövrdə torpaqlarımızın erməni təcavüzkarlarından müdafiə olunmasında müstəsna fəaliyyət göstərmişdir. Lakin sonradan dövlətçilik əleyhinə çıxış cəhdləri ucbatından bu qurum ləğv edilmişdir (14.03.1995-ci il).

1991-ci il oktyabrın 18-də Azərbaycan SSR Ali Sovetinin «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktı qəbul olunduqdan sonra Azərbaycan öz tarixi müstəqilliyini bərpa edərək SSRİ-nin tərkibindən çıxdı;

---

[1] Burada xüsusilə qeyd etmək lazımdır ki, 1982-ci ilin oktyabrında keçirilmiş Azərbaycan Komminist Partiyası Mərkəzi Komitəsinin Plenumunda Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev Respublikanın hüquq-mühafizə orqanlarının işində mövcud olan nöqsanları göstərmiş və onların qarşısında yeni tələblər qoymuşdu; bu tələblər sovetlər hakimiyyətinin son dövrünədək hüquq-mühafizə orqanlarının fəaliyyətində tezis kimi rəhbər tutulurdu.

həmin ilin sonunda SSRİ dövləti və onun hakimiyyət orqanları süqut etdi.

Beləliklə, qeyd etmək olar ki, Azərbaycan polisi sovet hakimiyyəti dövründə **(28.04.1920–17.10.1991-ci illər)** «sovet milisi»nin tərkibində mövcud olmuş və müəyyən tarixi inkişaf mərhələsi keçmişdir. Onun fəaliyyətində sovet inzibati-amirlik rejiminin prinsipləri, partiya, sovet və siyasi orqanlar başlıca və mərkəzi yer tutmuşlar. Lakin Sovet İttifaqına xas olan bütün bu ümumi meyillərə baxmayaraq, Azərbaycan polisinin fəhlə-kəndli asayiş keşikçilərinin təşkili dövründən başlanmış sovet milisi mərhələsindəki fəaliyyəti, inkişafı və təkmilləşməsi prosesləri ictimai-siyasi, fəlsəfi-hüquqi, məntiqi-idrak və müqayisəli təhlil metodları baxımından, tarixi təcrübənin dərindən öyrənilməsində və müasir cəmiyyətdə milli polisin rolunun aktuallığı kontekstində mühüm əhəmiyyət kəsb edir.

### 1.5. Müstəqil Azərbaycan polisinin müasir inkişaf dövrü

SSRİ dövlətinin dağılması ərəfəsində, digər postsovet ölkələri kimi, Azərbaycan Respublikası da **öz tarixi müstəqilliyini qazanmış** (18.10.1991-ci il) və ölkədə milli quruculuq işlərinə başlanılmışdır. Lakin, dərhal qeyd edirik ki, bu işlər cəmiyyətdə o dövrlərdə getdikcə dərinləşən ictimai-siyasi, sosial-iqtisadi böhranla əlaqədar nisbi və xaotik xarakter daşıyırdı.

Azərbaycanın Dağlıq Qarabağ hissəsində baş verən məlum hadisələrlə bağlı olaraq, 1991-ci il dekabrın 25-də Qarabağ bölgəsi üzrə daxili işlər orqanı təsis edildi, 1992-ci ildə Ağdərə Rayon Polis Şöbəsi, Xocavənd Rayon Polis Şöbəsi və s. qurumlar yaradıldı. Respublikanın daxili işlər orqanlarının əmək-daşları Dablıq Qarabağ münaqişəsi başlandıqdan sonra erməni təcavüzünün dəf edilməsində ön sıralarda vuruşmuş, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşlərdə 932 şəhid verərək bu qanlı savaşda igidlik və şücayət göstərmişdir.

Azərbaycanda ilk dəfə olaraq, 1991-ci il dekabrın 31-də DİN-in tərkibində Daxili Qoşunların Baş İdarəsi yaradılmışdır. Nazirlər Sovetinin 08.01.1992-ci il tarixli sərəncamı ilə Bakı şəhərində «bələdiyyə polisi» yaradılmış, lakin onun fəaliyyəti çox uzun sürməmiş və elə həmin ildə də ləğv edilmişdir. 1992-ci ildə DİN-in Narkomaniya və Narkobiznesə Qarşı Mübarizə İdarəsi yaradılmış,[1] Novruz Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbinin bazasında Azərbaycan Polis Akademiyası təsis olunmuşdur.[2]

«Azərbaycan Respublikası daxili işlər orqanlarının strukturunun təkmilləşdirilməsi və daxili işlər orqanlarının tərkibində olan milisin polis adlandırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 05.06.1992-ci il tarixli Fərmanına uyğun olaraq, DİO sistemində fəaliyyət göstərən milis mövcud hüquqi statusunu saxlamaqla **«polis»** adlandırılmışdır.

DİO sistemində islahatlar davam etdirilərək, DİN-in strukturunda sosialist əmlakını dağıdanlarla və möhtəkirliklə mübarizə orqanları ləğv olunmuş, DİN-in Şəxsi Heyətlə İş Üzrə Xüsusi İdarəsi, Tibb Şöbəsinin bazası əsasında DİN-in Tibb İdarəsi, Bakı şəhər Baş Polis İdarəsinin narkomaniya və narkobiznesə qarşı mübarizə orqanı, DİN-in Əsaslı Tikinti İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi və s. strukturlar yaradılmış, Karantin tədbirlərinin mühafizəsini təmin edən əlahiddə taborun Ağstafada 2 saylı tağımı təşkil olunmuşdur.

Daha sonra DİN-in islah əmək müəssisələri, habelə islah işləri strukturu Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinə çevrilərək Ədliyyə Nazirliyinin tabeliyinə keçirilmişdir (01.01.1993-cü il); həmçinin daxili qoşunların tərkibində olan

---

[1] Azərbaycan Respublikası «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» BMT Konvensiyasına 28.10.1992-ci il tarixdə qoşulmuşdur.

[2] *Bax:* Azərbaycan Respublikası Prezidentinin 23.05.1992-ci il tarixli 782 nömrəli Fərmanı // AR ASM, 1992, №10, maddə 356. Sonradan Azərbaycan Respublikası Prezidentinin 14.07.2010-cu il tarixli Fərmanı ilə bu xüsusi təyinatlı təhsil müəssisəsi «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası» adlandırılmışdır.

«N» saylı hərbi hissə – Əlahiddə Mühafizə Alayı Ədliyyə Nazirliyinin adı çəkilən Baş İdarəsinin Hərbi Polis Alayı kimi fəaliyyətini davam etdirməyə başlamışdır (09.01.1993-cü il); hal-hazırda bu struktur «penitensiar xidmət» orqanları adlanır.

İnterpolun[1] Baş Assambleyasının Dakar şəhərində keçirilmiş 61-ci sessiya-sında Azərbaycan Respublikası həmin təşkilata tam hüquqlu üzv kimi qəbul olunduqdan sonra DİN yanında İnterpolun Milli Mərkəzi Bürosu yaradılmışdır (23.11.1992-ci il); onun Əsasnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin (NK) 09.02.1993-cü il tarixli 72 saylı qərarı ilə təsdiq edilmişdir.

Lakin həyata keçirilmiş bu struktur dəyişiklikləri DİO əməkdaşlarının qarşısında duran vəzifələrin kifayət dərəcədə yerinə yetirilməsinə effektiv hüquqi təminat yaratmamışdı. Belə ki, 1991-1993-cü illərdə Azərbaycanın qazandığı müstəqillik sırf formal xarakter daşımaqla, dövlət idarəçiliyində və cəmiyyətdəki ictimai xaos, daxili işlər orqanlarındakı qeyri-sağlam ab-hava, çəkişmələr və digər amillərin təsiri nəticəsində ölkədə kriminogen durum tam olaraq nəzarətdən çıxmış, ümumilikdə isə respublikanın ictimai-siyasi həyatında qeyri-sabitlik hökm sürürdü, hərc-mərclik, qarşıdurma və vətəndaş müharibəsi vəziyyəti yaranmışdı.[2]

Belə bir şəraitdə 1993-cü il iyunun 15-də xalqın israrlı tələbi ilə siyasi rəhbərliyə qayıdan **ümummilli lider Heydər Əliyev** qanunçuluq və dövlətçilik prinsiplərini rəhbər tutaraq, hökm sürən özbaşınalığa son qoymuş, ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas edərək, ictimai-siyasi sabitliyin təmin edilməsinə, Azərbaycan dövlətçiliyinin qorunub saxlan-

---

[1] «İnterpol» – 1923-cü ildən Beynəlxalq Kriminal Komissiyası kimi fəaliyyətə başlayan Beynəlxalq Cinayət Polis Təşkilatıdır.

[2] *Bu barədə daha ətraflı bax:* Ramil Usubov. Ən böyük azərbaycanlı // Azərbaycan polisinin yubileyi. Bakı, 2008, s.6-15.

masına və demokratik hüquqi dövlətin möhkəm əsaslarla qurulmasına nail olmuşdur.[1]

1994-cü il aprelin 29-da Prezident Aparatında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə DİN-in rəhbər işçilərinin geniş müşavirəsi keçirilərkən ölkə prezidentinin fərmanı ilə Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilmişdir.[2] DİN-in rəhbərliyi təşkilati qaydada möhkəmləndikdən sonra, məhz həmin dövrdən etibarən ulu öndərin rəhbərliyi altında Azərbaycan polisinin fəaliyyətində və təkmilləşdirilməsində yeni inkişaf mərhələsi – əsl milli quruculuq və xidməti katarsis[3] işləri başlandı.

Elə həmin ildən başlayaraq, daxili işlər orqanlarının fəaliyyətini və polis-hüquq münasibətlərini tənzimləyən **silsilə normativ hüquqi aktlar** qəbul edilmişdir:

– «Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu (08.02.1994-cü il);
– «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (14.06.1994-cü il);
– «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilmə-

---

[1] İlham Əliyev. Azərbaycan Respublikası daxili işlər orqanlarının şəxsi heyətinə // Azərbaycan polisinin yubileyi. Bakı, 2008, s.21.

[2] Cənab Ramil Usubov əvvəlcə 1993-cü ilin iyul ayında Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, 1994-cü ilin aprel ayında isə Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilmişdir və hal-hazıradək bu vəzifəni şərəf və ləyaqətlə yerinə yetirir, general-polkovnik hərbi rütbəsinə malikdir.

[3] Katarsis – bu anlayış qədim yunan filosofu Aristotel tərəfindən elmə daxil edilmişdir; Azərbaycan dilinə çox vaxt «təmizlənmə» kimi tərcümə olunur *(bax:* A.Şirinov. Fərdi və ictimai katarsis // «Xalq» qəzeti, 2010, 13.01., s.5).

si tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (09.08.1994-cü il);[1]

– «Azərbaycan Respublikasını erməni təcavüzkarlarından müdafiə edərək əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (26.08.1994-cü il);[2]
– «Daxili İşlər Nazirliyinin Polis Akademiyasının əyani şöbəsinə qəbul edilən müddətli hərbi xidmət keçməmiş şəxslərin sayının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (03.09.1994-cü il) və s.

Eyni zamanda, həmin dövrdə DİN tərəfindən «Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik Xidməti haqqında» Əsasnamə, «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti haqqında» Əsasnamə, «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Karantin tədbirlərinin mühafizəsini təmin edən Xüsusi Batalyonu haqqında» Əsasnamə, «Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin» Əsasnaməsi və digər normativ sənədlər təsdiq edilmiş, Bakı şəhər Baş Polis İdarəsində Cevik Polis Alayı, həmçinin mütəşəkkil cinayətkarlığa qarşı mübarizə orqanı yaradılmış, DİN-in xüsusi təyinatlı polis dəstəsi ləğv edilmiş, Azərbaycan Respublikasının Moskvada MDB iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Bürosuna daimi nümayəndə təyin edilmişdir.

---

[1] Bu Fərmana uyğun olaraq, DİN sistemində mütəşəkkil cinayətkarlığa, terrorizm və banditizmə qarşı mübarizə üzrə struktur yaradılmışdır; həmçinin cinayətkarlıqla mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədi ilə xüsusi fond təsis edilmişdir.

[2] Həmin Fərmana görə, DİN tərəfindən Qarabağ əlillərinin və yaralılarının sosial reablitasiyası istiqamətində əhəmiyyətli işlər görülmüş, 180-dən çox polis əməkdaşı, daxili qoşun və milli ordunun əsgərləri xarici ölkələrdə müalicə almışlar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və referendum yolu ilə qəbul edilmiş **Azərbaycan Respublikasının Konstitusiyası** – Əsas Qanunu (12.11.1995-ci il) qüvvəyə mindikdən sonra DİO-nun yeni hüquq və vəzifələri müəyyənləşmişdir.

1996-cı il fevralın 21-də «Azərbaycan Respublikasının Prezidenti yanında hüquqi islahat komissiyasının yaradılması haqqında», həmçinin 10.04.1997-ci il tarixdə «Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının yaradılması haqqında» Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq fərmanlar imzalanmış və daxili işlər naziri də həmin komissiyanın və şuranın tərkibinə daxil edilmişdir.

«İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin Fərmanına (17.06.1996-cı il) görə, DİO-nun iqtisadi cinayətkarlıqla mübarizə qurumları ləğv olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin başqa bir Fərmanı ilə «Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» sənəd imzalanmış (26.08.1996-cı il) və 27.01.1997-ci il tarixli Fərmanla müvafiq Dövlət Komissiyası haqqında Əsasnamə təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 10.10.1999-cu il tarixli Fərmanı ilə təkmilləşmə və struktur dəyişiklikləri məqsədilə DİN-in istintaq təcridxanaları Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir.

Daha sonra yeni yaradılmış demokratik hüquqi cəmiyyətdə Azərbaycan polisinin normal fəaliyyət göstərməsi, müvafiq hüquqi rejimin yaradılması, normativ hüquqi bazanın təkmilləşdirilməsi və polis-hüquq münasibətlərinin daha sivil qaydada tənzimlənməsi məqsədi ilə bir sıra **qanunvericilik aktları** təsdiqlənmişdir; məsələn, nümunə kimi aşağıdakıları göstərə bilərik:

– «İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (22.02.1998-ci il);
– «Azərbaycan polisi gününün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (24.05.1998-ci il);
– «Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu (06.09.1999-cu il);
– «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu (28.10.1999-cu il);
– «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu (28.10.1999-cu il);
– «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu (29.06.2001-ci il);
– «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin Fərmanı (30.06.2001-ci il);
– «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu (03.07.1998-ci il);
– «Azərbaycan Respublikası daxili işlər orqanlarının maddi-texniki və sosial bazasının möhkəmləndirilməsi Fondunun yaradılması haqqında» və həmin Fondun Əsasnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (29.06.2002-ci il);
– «Azərbaycan Respublikasının polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi normaları barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (30.07.2001-ci il) və s.

İctimai təhlükəsizliyin təmin olunması və cinayətkarlığa qarşı mübarizə aparılması sahəsində polis-hüquq münasibət-

ləri spektrinin inkişaf templəri nəzərə alınmaqla DİO sistemində islahatlar davam etdirilmiş, yeni strukturlar təşkil olunmuşdur. DİN-in tərkibində «Həyat əhəmiyyətli obyektlərin mühafizəsi üzrə» Polis Alayı yaradılmış (15.02.1996-cı il), Beynəlxalq Əlaqələr Şöbəsi təsis edilmiş (26.02.1996-cı il), DİN-in inzibati binasının qulluq və mühafizə xidməti (hazırda Komendant Xidməti) yaradılmış (03.03.1996-cı il), Dövlət Teleradio Verilişləri Şirkəti üzrə Mühafizə Şöbəsi təşkil edilmiş (27.02.1999-cu il), Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə polis qurumu yaradılmış (09.11.2001-ci il), narkotiklərlə mübarizə üzrə regional strukturlar təsis olunmuş, əksər xidmət sahələri üzrə qurumlara Baş İdarə statusu verilmiş (2001-ci il) və digər islahatlar həyata keçirilərək, yeni polis-hüquq normaları təsbit edən müəyyən nizamnamə, əsasnamə, reqlament və təlimatlar təsdiq olunmuşdur.

Müstəqil Azərbaycanın **beynəlxalq təşkilatlarda** tam hüquqlu üzv kimi təmsil olunması, Avropaya inteqrasiyası və digər amillər daxili işlər orqanları sahəsində də bu proseslərin həyata keçirilməsinə təkan vermişdir. Demokratik, hüquqi dövlət quruculuğu yolu ilə irəliləyən Azərbaycan Respublikasının polis orqanları dünya standartları səviyyəsində təkmilləşir, onların beynəlxalq əlaqələri və əməkdaşlığı da genişlənir. Bu məqsədlə DİN-in bir neçə mötəbər beynəlxalq universal və regional təşkilatlarla (BMT, Avropa Şurası, ATƏT, MDB, QİƏT, GUAM və s.), habelə bir sıra xarici dövlətlə (ABŞ, Türkiyə, Rusiya Federasiyası, Almaniya, Belarus, Ukrayna, Gürcüstan, İran və s.) səmərəli əməkdaşlığı və tərəfdaşlığı intensiv xarakter almışdır.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər Nazirlikləri arasında əməkdaşlıq haqqında imzalanmış Saziş (19.04.1996-cı il), həmçinin narkotik və psixotrop maddələrin qaçaqmalçılığına qarşı mübarizə tədbirləri haqqında İran İslam Respublikasının Daxili İşlər Nazirliyi ilə əməkdaşlıq Protokolu (12.08.1996-cı il), terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında, ha-

belə Bakı-Tbilisi-Ceyhan strateji neft kəmərinin mühafizəsi ilə əlaqədar Gürcüstan və Türkiyə Respublikası ilə imzalanmış birgə sazişlər (29-30.04.2002-ci il), MDB üzvü olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının iclasında əməkdaşlıq və cinayətkarlığın ən mütəşəkkil növləri ilə qarşılıqlı mübarizəyə dair imzalanmış sazişlər (6-7.09.2002-ci il) və s. müqavilələr bu qəbildən olan normativ hüquqi aktlara aiddir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində keçirilən **beynəlxalq regional tədbirlərdə** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin iştirakı da xüsusilə əhəmiyyətlidir. Məsələn, Türkiyənin İstanbul şəhərində keçirilmiş QİƏT ölkələri Daxili İşlər Nazirlikləri nümayəndələrinin toplantısı (21-23.10.1997-ci il), Bakıda Avropa Şurası ilə Azərbaycan Respublikası arasında hüquqi əməkdaşlıq çərçivəsində «Keçid dövründə olan cəmiyyətdə polis» mövzusunda keçirilmiş seminar (16-17.12.1997-ci il), Vyanada keçirilmiş BMT-nin «Cinayətkarların qarşısını alma və cinayətkarlarla rəftar edilməsi məsələləri üzrə» X Konqres (12-19.04.2000-ci il), Yesentuki şəhərində «Borjomi dördlüyü»nə daxil olan ölkələrin – Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistanın daxili işlər nazirlərinin müxtəlif cinayətkarlıqla mübarizə qurumlarının iclası (7-8.08.2001-ci il), Xarkov şəhərində MDB dövlətləri Daxili İşlər Nazirliklərinin Ali Təhsil Müəssisələri Assosiasiyasının təsis konfransı (29-30.11.2001-ci il), Bakıda ATƏT-in himayəsi altında ictimai asayişin təmini sahəsində çalışan polis nəfərləri üçün «Polis və qeyri-hökumət təşkilatları üçün vətəndaş təlimi» layihəsi çərçivəsində keçirilmiş seminar-tredinq (9-16.12.2001-ci il) və s.

Azərbaycan polisinin **ən yeni (müasir) sürətli inkişaf tarixi** XXI əsrin əvvəllərinə təsadüf edir. Belə ki, köklü ictimai-siyasi və sosial-iqtisadi dəyişikliklər dövrünü yaşamış müstəqil Azərbaycanda daxili işlər orqanlarının fəaliyyətinin yenidən qurulması və təkmilləşdirilməsi sahəsində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş islahatlar konsepsiyası və inkişaf strategiyası **Azərbaycan Respublikasının Prezidenti**

**cənab İlham Əliyev** tərəfindən məqsədyönlü istiqamətlə ən yüksək səviyyədə uğurla davam etdirilir. Diqqətəlayiq hal kimi qeyd etməliyik ki, bu, ulu öndərin əbədiyaşar irsinin təntənəsidir.

Dövlət Başçısının təşəbbüsü ilə 2004-cü ildə qəbul edilmiş «Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair» Dövlət Proqramı müasir dövrün tələblərinə uyğun islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Proqram əsasında həyata keçirilən tədbirlər çərçivəsində nazirliyin strukturunda daxili təhlükəsizlik, insan alverinə qarşı mübarizə, miqrasiya, korrupsiya cinayətləri üzrə əməliyyat-axtarış tədbirləri sahəsində müvafiq qurumlar təsis olunmuşdur. Vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, eləcə də ictimaiyyətlə əlaqələrin daha effektli təşkili məqsədilə «102 xidməti – zəng mərkəzi», «Təhlükəsiz şəhər» avtomatlaşdırılmış idarəetmə sistemi, «Qaynar xətt», internet saytı, elektron poçt ünvanı və s. yaradılmışdır. Əməliyyat-xidməti fəaliyyətdə, təlimdə və təhsildə böyük əhəmiyyət kəsb edən xüsusi texnika, avadanlıq və vasitələr alınmış, yeni informasiya-kommunikasiya texnologiyaları sistemlərinin tətbiqinə başlanılmışdır. Yüksək ixtisaslı hüquqşünas kadrlar hazırlamaq məqsədilə Polis Akademiyasında beynəlxalq tələblər səviyyəsində hərtərəfli islahatlar aparılmış, nəzəriyyə və təcrübənin uzlaşdırılması işinə diqqət artırılmışdır. Eyni zamanda, tədris olunan fənlərin mükəmməl öyrənilməsi üçün müasir elmi-metodik kabinetlər, laboratoriyalar, kriminalistik təlim otaqları və s. yaradılmışdır.[1] Polis Akademiyasının Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 04.08.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.[2]

---

[1] Ramil Usubov. Azərbaycan polisinin xalqa və dövlətçiliyə sədaqəti sarsılmazdır // Azərbaycan polisinin yubileyi. Bakı, 2008, s.39.
[2] AR QT. Bakı, 2016, № 8 // www.azerbaijan-news.az

Azərbaycan Respublikası Prezidentinin 25.02.2011-ci il tarixli 1358 nömrəli sərəncamına əsasən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi yaradılmışdır. O, ali və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı ali hərbi təhsil müəssisəsidir. Adıçəkilən məktəbdə təhsil əyani təhsilalma formasında, ali təhsil pilləsinin bakalavriat səviyyəsində həyata keçirilir və onun hüquqi statusunu müəyyənləşdirən nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 09.07.2012-ci il tarixli 680 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.[1]

Müasir dövrdə yeni növ təhlükəli cinayət meyillərinə qarşı mübarizə sahəsində beynəlxalq və regional əməkdaşlığın daha da inkişaf etdirilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, habelə müvafiq dövlət strukturlarının, o cümlədən polis orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədi ilə bir sıra qanunvericilik aktları **ratifikasiya** olunmuşdur. Bu sırada, məsələn, aşağıdakıları göstərmək mümkündür:

- «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün Əməkdaşlıq Proqramı haqqında» Qərar (Minsk, 28.11.2006-cı il);[2]
- «Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Rusiya Federasiyası, Tacikistan Respublikası, Türkmənistan və Özbəkistan Respublikası arasında «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin yaradılması haqqında» Saziş (Astana, 24.06.2006-cı il);[3]

---

[1] *Bax:* AR QT. Bakı, 2012, № 7, maddə 689.

[2] Qərar Azərbaycan Respublikasının 30.12.2008-ci il tarixli 749-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

[3] Saziş Azərbaycan Respublikasının 30.12.2008-ci il tarixli 750-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

– «Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)»;[1]
– «Kibercinayətkarlıq haqqında» Konvensiya (Budapeşt, 23.11.2001-ci il);[2]
– «Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM-ın iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında» 2002-ci il 20 iyul tarixli Sazişə dair Protokol (Helsinki, 04.12.2008-ci il);[3]
– Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında» Konvensiya (Strasburq, 28.01.1981-ci il);[4]
– «Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Buxarest, 28.09.2009-cu il)[5];
– «Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (13.05.2010-cu il);
– «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında» Saziş (12.11.2013-cü il) və s.

---

[1] Milli Fəaliyyət Planı Azərbaycan Respublikası Prezidentinin 06.02.2009-cu il tarixli 133 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
[2] Konvensiya Azərbaycan Respublikasının 30.09.2009-cu il tarixli 874-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
[3] Protokol Azərbaycan Respublikasının 30.09.2009-cu il tarixli 878-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
[4] Konvensiya Azərbaycan Respublikasının 30.09.2008-ci il tarixli 879-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
[5] Saziş Azərbaycan Respublikasının 26.11.2009-cu il tarixli 916-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

Son illər ölkədə aparılan **demoratik-hüquqi islahatlar** çərçivəsində bir çox qanunvericilik aktlarında, eləcə də DİN-in strukturunda dəyişikliklər edilməsi baxımından, polis fəaliyyətinin müxtəlif istiqamətlərini reqlamentləşdirən normativ aktlar yenidən işlənmiş və bu proses intensiv şəkildə davam etdirilir. Beynəlxalq standartlara uyğun həyata keçirilən müvafiq tədbirlər formatında polis-hüquq münasibətlərinin normativ əsaslarının, idarəçilik və təşkilatçılıq işinin təkmilləşdirilməsi sahəsində DİN tərəfindən bir sıra **hüquqi-tənzimləyici akt** qəbul edilmişdir. Aktual əhəmiyyət kəsb edən belə aktlardan, məsələn, aşağıdakıları nümunə çəkmək olar:

- «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri haqqında» Əsasnamə;[1]
- «İnzibati sahə haqqında» Əsasnamə;[2]
- «Hüquq qaydasının təmini üzrə İctimai Şura haqqında» Əsasnamə;[3]
- «Polis sahə məntəqəsi haqqında» Təlimat;[4]
- «Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında» Əsasnamə, «Şəhər, rayon, nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında» Təlimat, «Şəhər, rayon, nəqliyyatda polis orqanlarının rəhbərliyi arasında» Nümunəvi Vəzifə Bölgüsü[5] və s.

---

[1] Əsasnamə DİN-in 13.02.2009-cu il tarixli 79 nömrəli əmri ilə təsdiq edilmişdir.
[2] Əsasnamə DİN-in 25.06.2009-cu il tarixli 356 nömrəli əmri ilə təsdiq edilmişdir.
[3] Əsasnamə DİN-in 25.06.2009-cu il tarixli 357 nömrəli əmri ilə təsdiq edilmişdir.
[4] Təlimat DİN-in 25.06.2009-cu il tarixli 358 nömrəli əmri ilə təsdiq edilmişdir.
[5] Sözügedən normativ aktlar – Əsasnamə, Təlimat və Nümunəvi Vəzifə Bölgüsü DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir.

Göründüyü kimi, müasir dövrdə polis orqanı dinamik inkişaf və yeniləşmə mərhələsini yaşayır. Onun sosial funksiyalarının effektli şəkildə yerinə yetirilməsi məqsədi ilə dünya təcrübəsinə əsaslanan qabaqcıl iş metod və üsullarının tətbiq edilməsinə, polis-hüquq münasibətlərində institusional islahatların dərinləşməsinə və normativ-hüquqi bazanın mükəmməlləşməsinə daim dövlət qayğısı göstərilir.

Beləliklə, qeyd etmək lazımdır ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Azərbaycan polisi çətin və şərəfli tarixi yol keçmiş və zamanın sınaqlarından ləyaqətlə çıxaraq, əsas prioritetləri cəmiyyətdə ictimai asayişin təmin edilməsi, cinayətkarlıqla qətiyyətli mübarizə aparılması, insanların hüquq və azadlıqlarının qorunması olan zəruri dövlət qurumuna çevrilmişdir.

Yuxarıda şərh olunanları nəzərə alaraq, milli Azərbaycan polisinin **ən müasir inkişaf dövrünü** müstəqil dövlətimizin ən yeni müasir tarixi inkişaf fonu kontekstində aşağıdakı kimi fərqləndirmək mümkündür:

- 1991-1993-cü illər (formal xarakterli polis quruculuq illəri);
- 1993-2000-ci illər (polis-hüquq münasibətlərinin yeni inkişaf mərhələsi);
- 2001-ci ildən hal-hazıradək olan dövr (polisin ən müasir inkişaf mərhələsi).

# I FƏSİL ÜZRƏ SXEM



# II FƏSİL. POLİS HÜQUQU ANLAYIŞI, ONUN PREDMETİ, SİSTEMİ, PRİNSİPLƏRİ VƏ HÜQUQ SİSTEMİNDƏ YERİ

## 2.1. Polis hüququ anlayışı və onun predmeti

### 2.1.1. Polis hüququ anlayışı

Müasir dövrdə hüquq doktrinasında **«polis hüququ»** terminindən istifadə olunmağa başlanmışdır. Bu terminin nisbətən «cavan» olmasına baxmayaraq, elmi ədəbiyyat səhifələrində də onun işlədilməsinə rast gəlinir.[1] Bəs polis hüququ dedikdə nə başa düşülür?

Qeyd etmək lazımdır ki, cəmiyyətdə ictimai asayişin və daxili sabitliyin qorunmasında, ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə aparılması işində dövlət-idarəetmə fəaliyyətinin növlərindən biri kimi daxili işlər orqanlarının «polis fəaliyyəti» xüsusi əhəmiyyət kəsb edir. Belə fəaliyyət, təbii ki, müəyyən hüquq normaları vasitəsi ilə nizama salınır[2]; məhz həmin normaların məcmusunu «polis hüququ» adı altında fərqləndirmək mümkündür. Polis hüququnun yaranması və inkişafı üçün əsas kateqoriya kimi **«polis fəaliyyəti»** çıxış edir. Başqa

---

[1] *Bu barədə, məsələn, bax:* Əliyev E.Ə.Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010; Бельский К.С. Полицейское право. Лекционный курс. M., 2004; Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: təşəkkül tapması və təkamül dövrü // DİRÇƏLİŞ-XXI ƏSR. Bakı, 2010, № 149-150, s. 255-259; Əliyev E.Ə.Yol hərəkəti təhlükəsizliyinin təminində Dövlət Yol Polisi qurumlarının hüquqi statusu // AR DİN Məlumat Bülleteni. Bakı, 2012, № 1, s. 76-84 və b.

[2] *Hakimiyyət və hüququn nisbəti barədə bax:* Алексеев С.С. Философия права. M., 1999, с.64-78.

sözlə, «polis fəaliyyəti» inzibati-hüquqi anlayış kimi «polis hüququ»nun əmələgəlmə əlamətidir.

**Polis fəaliyyəti** dedikdə ictimai qaydaların qorunmasına, ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətlərin və digər xətaların qarşısının alınması və açılmasına, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş və dövlət məcburetmə tədbirlərinin tətbiqi ilə əlaqədar olaraq, dövlət-idarəetmə fəaliyyətinin xüsusi növü başa düşülür. Həm də dövlət-idarəetmə fəaliyyəti dövlət hakimiyyətinin üç qolundan biri sayılan «icra hakimiyyəti» qoluna mənsubdur; polis fəaliyyəti olmadan dövlət, praktiki cəhətdən, öz müvafiq funksiyalarını yerinə yetirə və fəaliyyət göstərə bilməz.

Polis fəailiyyətini xarakterizə edən bir sıra **əlamətlər** mövcüddur ki, onlara aşağıdakılar aiddir:

a) bu, ictimai asayişin qorunması və təhlükəsizliyin təmin olunması, cinayətkarlığa qarşı mübarizə aparılması sahəsində xüsusi icra hakimiyyəti strukturlarına rəhbərlik edilməsi, onların işinin təşkil olunması və əlaqələndirilməsi üzrə **fəaliyyətdir**; bu baxımdan, idarəetmə fəaliyyətinin, əsasən, bütün cəhətləri (təşkilati, nəzarət, dövlət-hakimiyyət və fasiləsiz fəaliyyət, səlahiyyətli orqanlar qarşısında cavabdehlik və s.) polis fəaliyyətinə xasdır;

b) polis fəaliyyəti dövlət idarəetməsinin **xüsusi növüdür**; bu əlamət iki məqamla şərtlənir.

Birinci, polis fəaliyyəti sahəsində iştirak edən əsas tərəflərdən (polis orqanları – fiziki və hüquqi şəxslər) birinin digərinə **xidməti tabeçiliyi** yoxdur, yəni onlar bütün horizontal hüquq münasibətlərində bərabər dərəcədə yalnız qanuna tabedirlər; hüquq pozuntusu törətmiş şəxsə qarşı polis orqanı tərəfindən inzibati məcburiyyət tədbiri görüldükdə isə vertikal hüquq münasibətləri fonunda həmin şəxsin polis orqanına tabeçiliyi yaranır.

İkinci, polis fəaliyyətinin xüsusi xarakterə malik olması bu fəaliyyət növü-nün əsasını təşkil edən və onun məzmununa daxil olan «**qoruma**» **(«mühafizə»)** anlayışından irəli gəlir. Belə ki, «qoruma» funksiyasının əsas istiqaməti hüquqa-zidd davranışın qarşısının alınmasına və aradan qaldırılmasına yönəlmişdir; onun başlıca məqsədi subyektlərin pozulmuş hüquqlarını və mənafelərini müdafiə etməkdən ibarətdir.[1] Tanınmış kriminalist M.İ.Kovalyovun fikrincə, «qorumaq» («mühafizə etmək») – mühafizə olunan obyektə hücum edilməsi halında təkcə onun müdafiə olunmasını deyil, həm də qoruma faktının özünü və qəsdetmə əməllərinin aktiv şəkildə qarşısının alınması faktının xəbərdar edilməsini bildirir.[2] Qorumanın ilk elementi kimi mühafizə olunan obyektlər çıxış edir (məsələn, ictimai qaydalar, ictimai təhlükəsizlik, binalar, sənaye obyektləri, fiziki və hüquqi şəxslər və s.). Obyektlərin mühafizəsi zamanı xüsusi üsullardan istifadə olunur ki, həmin üsullar qorumanın vacib elementi sayılır. Geniş spektrli bu üsullara polis fəaliyyətinin **xüsusi metodları** da deyilir;[3] onlara aşağıdakılar aiddir: inzibati nəzarət, inzibati məcburetmə, dövlət qeydiyyatı, lisenziyalaşdırma (xüsusi icazə), polis informasiyasının toplanması və s.

Beləliklə, polis fəaliyyəti dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsi üçün sərəncamında xüsusi aparatı olan icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən vacib əhəmiyyətli **hüquq-mühafizə fəaliyyətidir**. Qeyd etmək lazımdır ki, Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilmiş «Polis haqqında» Bəyannamədə (08.05.1979-cu il) göstərilir: «polis əməkdaşı ayrı-ayrı vətəndaşları və bütün cəmiyyəti

---

[1] *«Qoruma», «dövlət mühafizəsi» anlayışı barədə bax: məsələn,* Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Ümumi və Xüsusi hissə) qısa şərhi. Bakı, 2010, s.5; Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.193; Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild (II nəşr). Bakı, 2008, s.78 və b.

[2] *Bax:* Ковалев М.И. Советское уголовное право. Свердловск, 1971, с.24.

[3] *Bax:* Разгильдыев Б.Т. Задачи уголовного права Российской Федерации и их реализация. Саратов, 1993, с. 55.

cinayətlərdən – oğurluqdan, quldurluqdan, digər cinayətlərdən və zərərli hərəkətlərdən qanunla müəyyən olunmuş qaydada mühafizə etməlidir. Polis əməkdaşının xidməti vəzifələri qanunla tənzimlənir» (bənd 1.).[1] Eyni zamanda, 28.10.1999-cu il tarixdə qəbul edilmiş «Polis haqqında» Azərbaycan Respublikasının Qanununda da (bundan sonra – PQ) polisin təyinatı və əsas vəzifələri öz normativ təsbitini tapmışdır;[2]

c) polis fəaliyyətinin səciyyələndirilməsi üçün inzibati nəzarət və inzibati məcburetmə metodları xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə hər iki metodu ümumiləşdirərək söyləyə bilərik ki, polis fəaliyyəti **nəzarət-məcburetmə fəaliyyətidir**;

d) polis fəaliyyəti öz hüquqi təbiətinə görə **xüsusi peşə fəaliyyətidir**; peşəkarlıq bu fəaliyyət növünün xüsusi əlamətidir. Elə bu baxımdan, ümummilli lider Heydər Əliyevin söylədiyi konseptual aforizm polis orqanlarının fəaliyyətində mühüm əhəmiyyətə malikdir: «Polis peşəsi ağır peşədir... O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir».[3] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, «hüquq-mühafizə orqanları cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar».[4] Polis fəaliyyətini həyata keçirən əməkdaşın (dövlət qulluqçusunun) ümumi hazırlıq, peşə və xidməti hazırlıq keçməsi, habelə digər keyfiyyətlərə malik olması barədə müvafiq göstərişlər «Polis haqqında» Avropa Şurası Parlament Assamble-

---

[1] *Bax:* İnsan hüquqları və polis. Dərs vəsaiti / R.İ.Rəsulovun redaktəsi ilə. Bakı, 2002, s.286; Сборник документов Совета Европы в области защиты прав человека и борьбы с преступностью / Сост.: Т.И.Москалькова и др. М., 1998, с. 77-78 və b.

[2] *Bax:* «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu, maddə 3 // AR QT, Bakı, 1999, № 11.

[3] *Bax:* «Azərbaycan polisi» jurnalı. Bakı, 2008, № 5, s.1.

[4] *Bax:* Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı / Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı, 2009, s.5.

yasının Bəyannaməsində də[1], həmçinin PQ-də də[2] öz əksini tapmışdır. Hüquq-mühafizə orqanlarının o, cümlədən polis orqanlarının bilavasitə insanlarla işlədiyini və gündəlik fəaliyyətlərində insan hüquqları ilə bağlı təminatların gücləndirilməsi zəruriliyi ilə qarşılaşdığını nəzərə alsaq, bu orqanların əməkdaşlarının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bilik və bacarıqlarının artırılması xüsusi əhəmiyyət kəsb edir;[3]

e) polis fəaliyyəti öz xarakterinə görə **aşkardır**, cəmiyyətin və onun hər bir üzvünün qanuni mənafeyinə xidmət edir. PQ-yə görə (maddə 4), polisin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi; cinayətlərin, habelə digər xətaların qarşısının alınması və açılması; yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi. Polis öz fəaliyyəti haqqında qanunvericiliklə müəyyənləşdirilmiş qaydada dövlət orqanlarına və əhaliyə məlumat verir (PQ-nin 6-cı maddəsi);

f) polis fəaliyyəti müəyyən **normativ-hüquqi əsasda**, yəni müvafiq hüquq normaları sistemi əsasında həyata keçirilir. Bu normaları iki yerə bölmək mümkündür: maddi-hüquqi normalar və inzibati-prosessual normalar. Göstərilən normalar sistemi bütövlükdə polis orqanlarının vəzifələrini, hüquqlarını və məsuliyyətini, habelə onların vətəndaşlarla qarşılıqlı münasibətlərini müəyyənləşdirir, inzibati xətaların konkret hallarını, inzibati tənbehləri və onları tətbiq edən səlahiyyətli orqanları ehtiva edir, məcburetmə təsir tədbirlərinin tətbiq qaydasını, həmçinin inzibati xətalar haqqında işlər üzrə icraat qaydasını təfsilatı ilə tənzimləyir və digər münasibətləri nizama salır. Bu

---

[1] *Bax:* Сборник документов Совета Европы в области защиты прав человека и борьбы с преступностью / Сост.: Т.И.Москалькова и др. М., 1998, с. 77-78.

[2] *Bax:* «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu, maddə 3 // AR QT, Bakı, 1999, № 11.

[3] *Bax:* Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı / Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı, 2009, s.6.

hüquqi normalar sistemi məcmu şəklində «polis hüququ»nu formalaşdırır.[1]

Polis fəaliyyətini xarakterizə edən digər **fakultativ əlamətlər** də vardır ki, onların sırasında aşağıdakıları göstərmək olar: məsələn, polis fəaliyyətini «əməliyyat-axtarış fəaliyyəti» kimi səciyyələndirən əlamət, vətəndaşlara müvafiq hallarda polis köməkliyinin göstərilməsi və s.

Beləliklə, doğrudan da polis fəaliyyəti sferasında yaranan ictimai münasibətləri tənzimləyən hüquq normaları sistemi **polis hüququnu** yaradır.

Müasir dövrdə formalaşma mərhələsində olan polis hüququ müxtəlif variantlarda işləndiyinə görə **çoxcəhətli** anlayışdır. Belə ki, o, aşağıda göstərilən dörd əsas mənada işlədilir:

– elmi mənada;

– tədris kursu mənasında;

– qanunvericilik mənasında;

– obyektiv mənada.

**Elmi mənada polis hüququ** dedikdə polis hüququna aid olan məsələlər (polis hüququnun subyektləri, polis-hüquq münasibətləri və digər məsələlər) barədə fikirlərin, ideyaların, nəzəriyyələrin, fərziyyələrin, şərhlərin, konsepsiyaların və s. mülahizələrin məcmusu başa düşülür; o, polis fəaliyyətinə aid olan məsələləri tədqiq edir, öyrənir və bu səbəbdən də polis hüquq elmi adlanır. Elmi mənada polis hüququ inzibati hüquq elminin tərkib hissəsi hesab olunur; ona, adətən, **polis hüquq doktrinası** da deyilir. Lakin polis hüquq elminin konkret olaraq nələri tədqiq etməsi, onun öyrənmə predmetinə hansı məsələlərin daxil olması, ümumiyyətlə, hüquq ədəbiyyatı səhifələrində işıqlandırılmır. Buna görə də polis hüquq elminin öyrənmə (tədqiqetmə) predmetinin müəyyənləşdirilməsi müasir

---

[1] *Bax:* Бельский К.С.Полицейское право. Лекционный курс. М., 2004, с. 113.

dövrdə aktual vəzifələrdən sayılaraq, xüsusi əhəmiyyət kəsb edir.

**Tədris kursu mənasında polis hüququ** dedikdə tələbələrə və oxucu auditoriyasına polis hüququ barədə biliklər və sistemləşdirilmiş informasiya verən tədris fənni başa düşülür. Bu mənada onu **polis hüququ tədris fənni** adlandırmaq olar; o, nə tənzimləyir, nə tədqiq edir, nə də öyrənir, yalnız öyrədir. Buna görə də polis hüququ fənninin özünəxas öyrətmə predmeti vardır; onun əsas vəzifəsi polis-hüquq normalarını, onların məzmununu və tətbiq praktikasını, həmçinin polis hüquq elmini tələbələrə öyrətməkdən ibarətdir. Bununla o, polis fəaliyyəti sahəsində müvafiq hüquqi qabiliyyətə malik olan mütəxəssislər hazırlayır.

**Qanunvericilik mənasında polis hüququ** dedikdə polis fəaliyyəti sahəsində əmələ gələn ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktların – polis haqqında qanunvericilik sənədlərinin məcmusu başa düşülür. PQ-yə görə (maddə 2), polis haqqında qanunvericilik massivinə ölkənin Əsas Qanunu (Konstitusiya), Polis haqqında Qanun, digər normativ hüquqi aktlar və polis fəaliyyəti ilə bağlı müvafiq beynəlxalq müqavilələr daxildir.

**Obyektiv mənada polis hüququ** dedikdə, bir qayda olaraq, polis fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür; onlara polis-hüquq normaları deyilir. Buna görə də obyektiv mənada polis hüququ müvafiq polis-hüquq normalarından ibarətdir. Bu normaların əsas təyinatı və başlıca funksiyası polis-hüquq münasibətlərini tənzimləməkdir.

Obyektiv mənada polis hüququ, qeyd etməliyik ki, milli hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir. Hüquq sisteminin tərkib hissəsi dedikdə isə müstəqil hüquq sahəsi, yarımSAhə və ya hüquq institutu başa düşülür. Obyektiv mənada polis hüququnun «müstəqil sahə» və ya «yarımsahə» kimi hansı statusla tanınması məsələsinə növbəti paraqrafıların birində aydınlıq gətirəcəyik. Məhz bu səbəbdən də, burada polis hüqu-

qunun milli (dövlətdaxili) hüquq sistemində mövqeyinə və tutduğu yerə toxunmuruq.

Obyektiv mənada polis hüququ bundan sonra, sadəcə olaraq, **«polis hüququ»** termini ilə əhatə olunacaqdır. Buna görə də, təbii ki, «obyektiv mənada polis hüququ» və «polis hüququ» ifadələri eynimənalı, sinonim anlayışlar kimi başa düşülməlidir.

Beləliklə, şərh olunanları nəzərə alaraq, polis hüququna aşağıdakı kimi **elmi (doktrinal) anlayış** verə bilərik:

polis hüququ dedikdə dövlət daxilində polis fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olaraq, yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu və sistemi başa düşülür.

### 2.1.2. Polis hüququnun nizamasalma predmeti və metodu

Milli hüquq sisteminin hər bir tərkib hissəsinin özünəməxsus nizamasalma predmeti vardır. Bu sözləri eyni ilə polis hüququ haqqında da söyləmək mümkündür. Belə ki, polis hüququ özünəxas **nizamasalma predmetinə** malikdir; onun nizamasalma predmeti belə bir suala cavab verir: polis hüququ hansı növ ictimai münasibətləri tənzimləyir?

Qeyd etmək lazımdır ki, polis fəaliyyəti sferasında yaranan ictimai münasibətlər inzibati hüquq normaları ilə, daha dəqiq desək, inzibati hüquq sahəsinin tərkibində formalaşmış polis-hüquq normaları vasitəsilə tənzimlənir. Deməli, polis hüququ vasitəsilə hansı qrup ictimai münasibətlər tənzimlənirsə, o münasibətlər də məhz onun nizamasalma predmetini təşkil edir. Bu münasibətləri müəyyənləşdirmək üçün, ilk növbədə, nəzərə almalıyıq ki, polis fəaliyyəti ilə əlaqədar yaranan münasibətlər polis hüququnun predmeti olmaqla, **dövlət-idarəetmə** münasibətlərinin bir növüdür.

Lakin burada bir məqama diqqət yetirmək lazımdır ki, inzibati hüquqla tənzimlənən ictimai münasibətlərin hamısı

bütövlükdə dövlət-idarəetmə münasibətlərinə aid deyldir. Məsələn, inzibati xəta törətmiş şəxsə qarşı inzibati tənbehin tətbiq olunması idarəetmə münasibətləri deyil, hüquqi məsuliyyət münasibətləridir.[1]

Əgər dövlət-idarəetmə münasibətləri dövlət aparatı strukturunda («daxili» hakimiyyət strukturunda) yaranarsa, bu, inzibati hüquq normaları ilə nizama salınır; polis münasibətləri isə, əsasən, xarici (zahiri) mühitdə, yəni ictimai əhəmiyyət kəsb edən məkanda – küçə, meydan, yaşayış binaları, park, vağzal və s. yerlərdə yaranır. İnsanların həyat və sağlamlığının (təhlükəsizliyinin) qorunmasını, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin mühafizəsini, ictimai asayişin təmin olunmasını, hüquqazidd əməllərin qarşısının alınmasını və digər tədbirləri dövlət öz xüsusi orqanları vasitəsilə həyata keçirir; şübhəsiz, bu vəzifələrin yerinə yetirilməsində polis orqanları əhəmiyyətli rol oynayır.

Dövlət-idarəetmə və polis münasibətlərinin müqayisəli təhlili göstərir ki, **idarəetmə əlaməti** hər iki növ münasibətləri inzibati-hüquqi təsir sferasında vahid tam halında birləşdirməklə yanaşı, eyni zamanda, «normativ hüquqi təsir» spesifik cəhət nəzərə alınmaqla fərqləndirir və həmin münasibətlərin ayrı-ayrı müxtəlif «mühitdə» mövcud olmalarını şərtləndirir («daxili» hakimiyyət mühiti – dövlət-idarəetmə münasibətləri, «xarici» mühit – polis münasibətləri).

Dövlət-idarəetmə və polis fəaliyyəti sferasında mövcud olan ictimai münasibətləri fərqləndirən **digər əlamət** onların subyektləri tərəfindən yerinə yetirilən sosial funksiyada da özünü büruzə verir. Belə ki, dövlət-idarəetmə subyektlərinə xidməti əlaqələrdə subordinasiya ilə bağlı «dövlət qulluqçusu» kimi xarakterik cəhət xasdır. Polis fəaliyyəti münasibətlərində isə, xüsusən də «ictimai qaydanın qorunması» kimi geniş

---

[1] *Bax: məsələn,* Шергин А.П. Проблемы административно-деликтного права // Государство и право. 1994, № 8-9, с. 55; Братусь С.Н. Юридическая ответственность и законность. М., 1976, с. 135; Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.675 və b.

sferada tipik subyektlər adi mülki statusa malikdirlər (məsələn, avtonəqliyyat vasitəsinin sürücüsü, piyada, turist və digər şəxslər). Dövlət-idarəetmə və polis fəaliyyəti sferasında subyektləri başqa əlamətlər üzrə də fərqləndirmək mümkündür.

Polis-hüquq normaları ilə tənzimlənən münasibətləri **dörd əsas qrupa** bölmək olar:

I. Təşkilati-polis münasibətləri;

II. Nəzarət-polis münasibətləri;

III. İnzibati-məcburetmə münasibətləri;

IV. Kvazi-polis[1] münasibətləri.

**Təşkilati-polis münasibətləri** polis fəaliyyətinin həyata keçirilməsi üzrə gündəlik işin təşkili ilə sıx surətdə bağlıdır. Bu qrup münasibətlərə aşağıdakılar aiddir:

– ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi işində polis naryadlarının təşkili, təlimatlandırılması və bölüşdürülməsi üzrə münasibətlər;

– yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində Dövlət Yol Polisi (DYP) orqanları arasında qarşılıqlı fəaliyyət tədbirləri üzrə münasibətlər;

– polis fəaliyyətinin həyata keçirilməsi üzrə yaranan digər təşkilati-polis münasibətləri.

Göstərilən ictimai münasibətlərin **subyektləri** qismində, bir qayda olaraq, polis fəaliyyətinin həyata keçirilməsi üçün dövlət-hakimiyyət səlahiyyətləri ilə təmin olunmuş və öz aralarında qarşılıqlı fəaliyyət göstərən icra hakimiyyəti orqanları çıxış edirlər. Belə halda, adətən, subyekt tərkibi «polis orqanı – polis orqanı» kimi yaranır; lakin bu tərkib başqa əlaqə tipində də ola bilər: «polis orqanı – digər orqanlar», çünki PQ-də poli-

---

[1] «Kvazi» ifadəsi latınca «quasi – elə bil, sanki» mənasını bildirir, Roma hüququnda qeyri-kontrakt və qeyri-delikt əsaslarda öhdəlik yaranması mənasında işlədilirdi, müasir dövrdə bəzən «digər əsaslardan yaranan məsuliyyət» kimi ümumi rublika altında işlədilir. *Bu barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.403.

sin vəzifələrinin yerinə yetirilməsində digər dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ayrı-ayrı şəxslərin iştirak etməsi də müəyyənləşdirilmişdir (maddə 10). Bütövlükdə təşkilati-polis münasibətləri polis-hüquq normaları ilə reqlamentləşdirilən digər qrup ictimai münasibətlərdə davam edən ilkin və başlanğıc münasibətlərdir.

**Nəzarət-polis münasibətləri** polis fəaliyyətinin həyata keçirilməsi prosesində vacib əhəmiyyətə malikdir. Bu qrup münasibətlərdə bir tərəfdən – polis orqanları, digər tərəfdən isə – vətəndaşlar və təşkilatlar (fiziki və hüquqi şəxslər) iştirak edir və «polis orqanı – vətəndaş, təşkilat» tipində subyekt tərkibi yaranır. Qeyd etmək lazımdır ki, polis hüququnun predmetini təşkil edən belə münasibətlər ən tipik, geniş yayılmış və ictimai qaydanın qorunmasında mühüm yer tutan münasibətlərdir. Göstərilən nəzarət-polis münasibətləri cəmiyyətdə ictimai təhlükəsizliyin təmin edilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə olunmasına birbaşa toxunur.

Polis-hüquq normaları ilə tənzimlənən münasibətlər qrupunda **inzibati-məcburetmə münasibətləri** mühüm rol oynayır. Söhbət, polis-məcbüretmə münasibətlərindən gedir; onlar iki növə bölünür: ictimai təhlükəsizlik üçün təhdid yaranması ilə əlaqədar münasibətlər, inzibati xəta faktından əmələ gələn münasibətlər.

Aydın məsələdir ki, qarşısıalınmaz fiziki hadisələr (məsələn, sel, zəlzələ, yanğın, uçqun və s. təbiət hadisələri) baş verdikdə və yaxud hüquq qaydalarından kənarlaşma faktları mövcud olduqda ictimai təhlükəsizlik üçün qorxu (təhdid) yaranır. Belə neqativ hüquqi faktlardan əmələ gələn ictimai münasibətlər inzibati-delikt münasibətlərindən fəqli olaraq, bilavasitə məcburetmə tədbirləri formasında **hüquq-mühafizə reaksiyasının** göstərilməsini tələb edir.

İnzibati xəta faktından əmələ gələn münasibətlər isə daha mürəkkəb inzibati-məcburetmə münasibətləridir; onlar inzibati-delikt (günah, təqsir, qəbahət) münasibətləri də adlanır. Belə münasibətlər yarandıqda hüquq-mühafizə reaksiyasının

başqa formada – **inzibati məsuliyyət tədbirləri** formasında göstərilməsi tələb olunur. Məsələn, hüquq normaları ilə müəyyənləşdirilmiş qaydalara görə, inzibati xəta törədilməsi qadağan edilir. Hər hansı şəxs tərəfindən belə qadağaların pozulması, yəni inzibati xəta törədilməsi hallarında həmin şəxsə qarşı inzibati tənbeh tətbiq edilməsinin özünün tənzimlənməsini tələb edən münasibətlər yaranır.

Polis hüququnun predmetinə aid olan **kvazi-polis münasibətləri** ictimai yerlərdə vətəndaşlar arasında yaranır. Bu qrup münasibətlərin insanlar arasında «hakimiyyət-tabeçilik» vertikalında deyil, «inzibati-hüquqi münasibətlər» horizontalında yaranması mümkündür.[1] Polis orqanları cəmiyyətdə yaranan kvazi-polis münasibətlərinə daim nəzarət edir və vətəndaşların qarşılıqlı hüquq və vəzifələrinin reallaşmasına zəmanət (təminat) verir. Deməli, bu münasibətlər, mahiyyətcə, polis münasibətləri qrupuna aiddir; onlar daha çox zəruri müdafiə və ya son zərurət hallarında, yəni bir tərəfin hər hansı digər tərəfin ictimai təhlükəli qəsd əməllərindən müdafiə olunması hallarında yaranır; kvazi-polis münasibətlərinin hüquqi təbiəti, əsasən, bundan ibarətdir.

Beləliklə, qeyd edə bilərik ki, polis-hüquq normaları ilə tənzimlənən yuxarıda göstərdiyimiz dörd əsas qrup münasibətlər – təşkilati-polis, nəzarət-polis, inzibati-məcburetmə və kvazi-polis münasibətləri polis hüququnun **nizamasalma predmetini** təşkil edir.

Hüquq doktrinasına görə, hər hansı hüquqi qurumun (sahə, yarımsahə, institut və s.) özünün ayrıca, yəni özünəxas **hüquqi tənzimetmə metodu** (yunanca «methodes» – üsul) olmalıdır. Düzdür, bu şərt həlledici olmasa da, hüquqi qurumun ayrı-ayrı hüquqi hissələrə (tərkib hissələrə) bölünməsinin əsas meyarlarından və əlamətlərindən biridir.

---

[1] *Ətraflı bax:* Коренев А.П. Кодификация советского административного права. М., 1970, с. 16 və b.

Qeyd etmək lazımdır ki, polis hüququnun nəinki özünəməxsus hüquqi tənzimetmə predmeti, həmçinin xüsusi tənzimetmə metodu vardır. Hüquqi tənzimetmə metodu – cəmiyyətdə insanların davranışına təsir göstərmək metodudur və o, ictimai münasibətlərin hüquqi tənzimlənməsinə dair hüquqi vasitə və üsulların məcmusundan ibarətdir. Başqa sözlə desək, idarəetmənin metodu idarəetmənin məqsəd və vəzifələrinə nail olmaq üçün idarəetmə subyektlərinin idarəetmə obyektinə göstərdiyi təsir üsuludur.[1] Polis hüququnun metodu, şübhəsiz ki, inzibati hüquq metodundan törəmə olsa da, öz təsiretmə hüdudlarında müəyyən spesifik cəhətlərə malikdir.

Polis hüququnun özünəxas metodunun mahiyyəti onun predmeti ilə şərtlənir, ikinci dərəcəli əhəmiyyət kəsb edir, predmetdən asılı olub, ondan törəyir. Hüququn predmeti obyektiv məzmuna malik olmaqla, prinsip etibarilə, qanunvericinin iradəsindən asılı deyildir. Metod isə, predmetdən fərqli olaraq, subyektiv xarakter daşıyır. Belə ki, nizama salınan münasibətlərin xarakteri və təbiəti bu və ya digər metoddan istifadə olunmasına əsas verir. Metod qanunvericinin iradəsindən mühüm dərəcədə asılıdır. Lakin hüquqi tənzimetmənin effektiv olması, qarşıya qoyulan məqsədə nail olunması məhz polis hüququnun metodundan asılıdır. Metod predmetlə sıx surətdə bağlı və qarşılıqlı əlaqədə olmaqla, birlikdə polis hüququnun hüquqi qurum kimi ayrılması üçün əsas rol oynayır, polis hüquq sisteminin qurulmasında və yaranmasında vacib əhəmiyyət kəsb edir.

**Polis hüququnun metodu** dedikdə cəmiyyətdə şəxslərin üzərinə onların aktiv davranışına dair vəzifələrin qoyulması (pozitiv məcburetmə, sərəncamvermə), sərbəst hərəkət etmələrinə aid hüquqların verilməsi (icazəvermə, səlahiyyətvermə) və hüquqazidd əməllərin törədilməsindən çəkinmək öhdəliyinin qoyulması (qadağanetmə) üzrə ictimai münasibətlərin hüquqi

---

[1] *Bax:* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.122.

tənzimlənməsinin hüquqi vasitə və üsullarının məcmusu başa düşülür.

Hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, inzibati hüquq üç hissədən ibarətdir:[1]

– ümumi xarakterli idarəçilik münasibətlərini tənzimləyən, yəni bütün idarəetmə üçün ümumi olan normalar qrupu;
– idarəetmənin bu və ya digər sahəsinin və ya bölməsinin ictimai münasibətlərini tənzimləyən normalar qrupu;
– inzibati-yurisdiksiya fəaliyyəti sahəsində yaranan ictimai münasibətləri tənzimləyən normalar qrupu.

**Polis fəaliyyətinə** münasibətdə, qeyd edə bilərik ki, inzibati hüquq sistemində üç yarımsahə fərqləndirilir: idarəetmə hüququ, polis hüququ və inzibati-yurisdiksiya hüququ. Əgər idarəetmə və inzibati-yurisdiksiya hüququ üçün pozitiv məcburetmə və icazəvermə yolu ilə tənzimləmə üsulları üstünlük təşkil edirsə, polis hüququnda isə göstərdiyimiz bütün hüquqi tənzimetmə üsulları müxtəlif proporsiya və nisbətdə həyata keçirilməklə yanaşı, əsas tənzimləyici funksiyanı qadağanedici normalar yerinə yetirir. Başqa sözlə desək, qadağanedici normalar cəmiyyətdə insanların davranışına təsir göstərmək üsulu kimi polis hüququnda əsas və başlıca yer tutsa da, eyni zamanda, digər təsir üsulları kimi müəyyən dərəcədə mühafizəedici rol da oynayır. Məsələn, avtonəqliyyat vasitəsinin sürücüsü yol hərəkəti qaydalarının qadağanedici normalarını pozmaqla YPX inspektoru ilə hüquq-mühafizə münasibətinə daxil olur; bu zaman fakt üzrə konkret hüquqi əlaqə (rabitə) yaranır: qadağanedici normaları pozan şəxsə (sürücüyə) münasibətdə digər iştirakçı (YPX inspektoru) arasında. Təbii ki, elə bu andan «icazəverici» üsul təsir göstərməyə başlayır. Lakin hüquq pozuntusu faktının özünə polis hüququnun qadağan-

[1] *Bax:* Abduləli Abdullayev. İnzibati hüquq (I-II hissə). Dərs vəsaiti. Bakı, 2005, s.33-34 və b.

edici normalarının (mühafizə olunan normaların) pozulması nəticəsində yaranan hal (inzibati xəta) kimi baxmaq lazımdır.

**Qadağan** – subyektlərin müəyyən əməllərdən çəkinməsini nəzərdə tutan «passiv» hüquqi vəzifədir. İnzibati-hüquqi qadağanlar müəyyən şəxslərin üzərinə hüquq pozuntularının (inzibati xətaların) törədilməsindən çəkinmək vəzifəsi qoyur və buna görə də cəmiyyətdə şəxslərin (fiziki və hüquqi şəxslərin) davranışını tənzimləyir.

**Hüquqi qadağanlar** polis hüququnun predmetini təşkil edən ictimai münasibətlərin reqlamentləşdirilməsində vacib rol oynayır; onlar **ikiistiqamətli** təbiətə malikdir:

– cəmiyyətin inkişafına mane olan hadisələrin (halların) aradan qaldırılması üsulu kimi istifadə edilən hüquqi qadağanlar; ictimai qaydanın qorunmasına, ictimai təhlükəsizliyin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə, dövlətin iqtisadi və maliyyə mənafelərinin müdafiəsinə, sanitar-karantin tədbirlərinin həyata keçirilməsinin təmin olunmasına və s. istiqamətlərə yönəlmiş qadağanedici hüquq normaları, əsasən və başlıca olaraq, İXM, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi, Torpaq Məcəlləsi, Meşə Məcəlləsi, Su Məcəlləsi və digər normativ hüquqi aktlarda ehtiva olunur;

– bütün şəxslər üçün Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqların, azadlıqların və onların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasına istiqamətlənmiş hüquqi qadağanlar; bu qadağanedici normalar polis hüququnun nəzarət-polis və inzibati-məcburetmə tədbirləri vasitəsilə realizə olunur.

Hüquqi qadağanlar, əsasən, «polis orqanı – vətəndaş, təşkilat» polis-hüquq münasibətləri subyektlərinin vəziyyətini (hüquqi statusunu) şərtləndirir və bu da, öz növbəsində, «polis hüququnun metodu» məhfumunun daha aydın başa düşülməsində mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə, polis hüququ-

nun özünəxas metodunun formalaşmasına polis fəaliyyəti subyektlərinin hüquqi statusu önəmli təsir göstərir.

Beləliklə, qeyd etmək lazımdır ki, polis hüququnun özünəməxsus metodunun formalaşmasında mərkəzi yer tutan qadağanedici normalar, daha doğrusu, tənzimləyici-qadağanedici normalar müəyyənedici (sərəncamverici) və icazəverici normalardan təcrid edilmiş halda deyil, onlarla birlikdə fəaliyyət göstərir. Bu hüquqi vasitə və üsulların sistemi və məcmusu bütövlükdə polis hüququnun **özünəxas vahid metodunu** yaradır.

## 2.2. Hüquq sistemində polis hüququnun tutduğu yer

### 2.2.1. Polis hüququ inzibati hüququn yarımsahəsi kimi

Qeyd etməliyik ki, polis hüququ milli hüquq sisteminin formalaşmaqda olan tərkib hissəsidir. Təbii ki, burada belə bir sual meydana çıxır: polis hüququ tərkib hissə kimi milli hüquq sistemində hansı statusa malikdir? Bu suala cavab verməmişdən əvvəl polis hüququnun milli hüquq sisteminin hansı hissəsinə (ümumi, yoxsa xüsusi) aid olmasını müəyyənləşdirməliyik.

Bildiyimiz kimi, hər bir dövlət öz milli hüquq (dövlətdaxili hüquq) sisteminə malikdir. Azərbaycan Respublikası da öz müstəqilliyini bərpa etdikdən sonra milli hüquq sistemini formalaşdırmışdır. Milli hüquq sistemi **iki hissədən** ibarətdir: publik hüquq, xüsusi hüquq.

**Publik hüquq** dövlət hakimiyyəti ilə bağlı olan münasibətləri nizama salan hüquq normalarının məcmusundan ibarətdir. Ümumi hüquqa daxildir: konstitusiya (dövlət) hüququ, inzibati hüquq, cinayət hüququ, ekologiya hüququ və b. **Xüsusi hüquq** isə, əsasən, hakimiyyət səlahiyyətlərinə malik olmayan, azad və bərabərhüquqlu mülkiyyətçi kimi çıxış edən şəxslərin – fiziki və hüquqi şəxslərin mənafeyinə xidmət edərək, onların tələbatını ödəyir və təmin edir; məsələn, mülki hüquq xüsusi hüquqa aiddir.

Beləliklə, qeyd edə bilərik ki, dövlət idarəetmə sistemində yaranan ictimai münasibətlərin əsas qrupunu tənzimləyən inzibati hüquq Azərbaycan Respublikasının milli hüquq sisteminin ümumi hissəsinə aiddir. Ən ümumi formada desək, inzibati hüquq idarəetmə hüququdur.

Dövlət (inzibati) məcburetmə tədbirləri tətbiq edən polis orqanlarının fəaliyyəti onların vəzifə, hüquq və məsuliyyətini dəqiq müəyyənləşdirən hüquq normalarının mövcud olmasını zəruri edir.

Azərbaycan Respublikasında **polisin təyinatı** insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüququazidd əməllərdən qorumaqdan ibarətdir.[1] Belə ki, polis fəaliyyətinin həyata keçirilməsi prosesində müəyyən ictimai münasibətlər əmələ gəlir; spesifik xarakterə malik olan bu münasibətləri tənzimləmək formalaşmaqda olan polis hüququnun başlıca funksiyası sayılır. Polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər isə inzibati münasibətlərin bir hissəsini təşkil edir. Hüquq ədəbiyyatı səhifələrində düzgün olaraq qeyd edilir ki, daxili işlər orqanlarının fəaliyyəti nəticəsində yaranan ictimai münasibətlər inzibati hüquq normaları ilə nizama salınır.[2] Bu spesifik normaların həcminin genişlənməsi, öz növbəsində, inzibati hüquq çərçivəsində polis hüququnun formalaşmasına gətirib çıxarır. Buna görə polis hüququ özünə milli hüquq sisteminin digər sahələrində deyil, məhz inzibati hüquq sahəsində yer tapmalıdır; həm də ona görə ki, dövlətdaxili hüququn digər sahələri polis fəaliyyəti ilə bağlı ictimai münasibətləri tənzimləməyə qadir deyildir. Bu münasibətləri yalnız milli hüquq sisteminin müstəqil sahəsi sayılan inzibati hüquq, daha dəqiq desək, onun tərkibində formalaşmaqda olan polis hüququ nizamlamaq iqtidarındadır.

---

[1] *Bax:* «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu (maddə 3, hissə I).

[2] *Ətraflı bax:* Абдуллаев А., Нагиев Ф. Административное право. Учебник. Баку, 2008, с.337-349 və b.

Buna görə də, hesab edirik ki, polis hüququ **milli hüquq sisteminin «publik hüquq» hissəsində** inzibati hüquq sahəsinə daxildir.

Polis hüququnun milli hüquq sistemində inzibati hüquq sahəsinə aid olmasını təyin etdikdən sonra, onun inzibati hüquq sistemində mövqeyini aydınlaşdırmaq məsələsi ortaya çıxır. Elə buradaca dərhal qeyd etməliyik ki, «milli hüquq sistemi» və «milli hüququn sistemi» kimi iki anlayış zahirən nə qədər bir-birinə oxşasalar da, onlar eynimənalı olmayıb, bir-birindən fərqlənir.

Belə ki, **milli hüquq sistemi** dedikdə bütövlükdə cəmiyyətin hüquqi təşkili, dövlətin daxilində mövcud olan və fəaliyyət göstərən bütün hüquqi vasitə və institutların məcmusu başa düşülür; başqa sözlə ifadə etsək, milli hüquq sistemi – konkret dövlətin müstəqil daxili hüquq sistemi deməkdir. Müstəqil hüquq sahələri bu hüquq sisteminin mərkəzi elementi (tərkib hissəsi) kimi çıxış edir. Daxili (milli) hüquq sisteminə aid olan müstəqil hüquq sahələrindən biri də inzibati hüquqdur. İnzibati hüquq sistemi iki hissəyə – ümumi və xüsusi hissəyə bölünür.

**Milli hüququn sistemi** isə onu ifadə edir ki, dövlətdaxili hüquq hansı struktur elementlərdən ibarətdir və bu elementlər arasında qarşılıqlı əlaqə necə təşkil olunmuşdur. Qeyd etməliyik ki, milli hüququn sistemi cəmiyyətdə mövcud olan obyektiv qanunauyğunluqların təsiri altında formalaşır və buna görə də, o, obyektiv xarakterə malikdir. Bu kontekstdə inzibati hüququn sistemi dedikdə inzibati hüququn daxili strukturu (quruluşu), onun yarımsahələrə, hüquq institutlarına və normalara bölünməsi başa düşülür. Bu anlayış hüquq normalarının hüquq institutları üzrə, hüquq institutlarının yarımsahələr üzrə, yarımsahələrin isə inzibati hüquq sahəsi üzrə müəyyən ardıcıllıqla – nizamla düzülməsini və qruplaşmasını ifadə edir. Buna uyğun olaraq, inzibati hüququn sisteminin bir neçə elementdən ibarət olmasını müəyyənləşdiririk: hüquq normaları, hüquq institutları və yarımsahələr.

Müstəqil sistemə malik olan milli hüquq bir-biri ilə qarşılıqlı dialektik əlaqədə olan ayrı-ayrı elementlərdən – sahələrdən, yarımsahələrdən və institutlardan ibarətdir. İnzibati hüquq milli hüquq sisteminə daxil olan müstəqil sahələrdən biridir.[1] Sual olunur: bəs polis hüququ inzibati hüququn sisteminə (onun struktur tərkibinə) hansı statusla, yəni yarımsahə və ya hüquq institutu kimi daxildir?

Qeyd etməliyik ki, Azərbaycan milli hüquq doktrinasında (elmində) bu məsələ, demək olar ki, ətraflı şəkildə tam araşdırılmayan, tədqiq edilməyən problem kimi qalmaqdadır.

Polis fəaliyyəti sahəsində ictimai münasibətlərin təhlili göstərir ki, həmin münasibətlər üçün, əvvəllərdə qeyd etdiyimiz kimi, **«qoruma» («mühafizə») əlaməti** xarakterikdir; bu əlamət müəyyən inzibati-hüquq normalarının (polis- hüquq normalarının) məcmusunun vahid bütöv bir qurumda birləşərək, real həyatda fəaliyyət göstərməsini zəruri edir. «Qoruma» əlaməti «inzibati məcburetmə» əlaməti ilə nisbətdə (əlaqələndirilmədə) polis-hüquq normalarını inzibati hüququn digər normalarından ayırır və polis hüququnun inzibati hüququn yarımsahəsi kimi hesab olunması üçün **konstruktiv əsas** sayılır. Belə hüquqi modelin (konstruksiyanın) yaradılması, hər şeydən əvvəl, məhz polis fəaliyyəti ilə bağlı ictimai münasibətlər qrupuna xas olan «qoruma» əlaməti ilə əlaqədardır.

Eyni zamanda, qeyd etmək lazımdır ki, belə fikir yürütmək üçün **digər əsaslar** da mövcuddur. Məsələn, müasir dövrdə Azərbaycan Respublikasında polis fəaliyyətinin tənzimlənməsi üçün müvafiq normativ hüquqi baza yaranmışdır. Söhbət, ilk növbədə, PQ (1999-cu il), ƏFQ (1999-cu il), YHQ (1998-ci il), İXM (2016-cı il), «Milli təhlükəsizlik haqqında» Qanun (2004-cü il) və digər normativ hüquqi aktlardan gedir; bu aktlarda ictimai münasibətləri geniş səviyyədə tənzimləyən müvafiq polis-hüquq normaları təsbit olunmuşdur. Göstərilənlər polis hüququnun inzibati hüququn xüsusi hissəsinin tər-

---

[1] *Bax:* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s. 23.

kibində yarımsahə kimi ayrılması və inzibati-hüquq elmində onun tanınması faktını təsdiq etməyə imkan verir.

Zənnimizcə, polis hüququnu inzibati hüququn yarımsahəsi hesab etmək ideyası artıq müasir dövrdə real gerçəklikdir, həqiqətə daha yaxındır və hipotezanın fakta çevrilməsi deməkdir. Belə fikir söyləmək üçün kifayət dərəcədə tutarlı arqumentlər vardır. Belə ki, polis fəaliyyəti sahəsində yaranan müxtəlif ictimai münasibətlər müvafiq inzibati hüquq normaları ilə tənzimlənir; bu ictimai münasibətlər qrupunu nizama salan inzibati hüquq normaları bütöv halda birləşərək inzibati hüquq sahəsinin tərkibində ayrıca hüquqi qurum yaradır ki, həmin qurumu hüquq elmində (doktrinasında) **«polis hüququ»** adlandırmaq mümkündür. Həmin münasibətlər, təbii ki, ayrıca olaraq tənzimlənməyi tələb edir. Digər tərəfdən, polis fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlər cəmiyyətdəki ümumi ictimai münasibətlər spektrinin vacib qrupu olub, böyük əhəmiyyətə malikdir. Həm də bunu qeyd etməliyik ki, Azərbaycan Respublikasında müvafiq ictimai münasibətləri tənzimləyən polis-hüquq normalarının sayı müasir dövrdə kifayət qədər çoxdur. Bu isə, əlbəttə, imkan verir ki, həmin normalar inzibati hüququn tərkibində cəmləşərək polis hüququnu formalaşdırsın.

Göstərdiyimiz tutarlı dəlillər bunu deməyə əsas verir ki, inzibati hüququn sistemində təşəkkül tapmış polis hüququ, şübhəsiz, **yarımsahə statusunda** yer tutur. Bu mövqe, prinsip etibarilə, xarici ölkələrin milli hüquq doktrinası (elmi) tərəfindən də dəstəklənir.[1]

Deyilənlərə həm də bunu əlavə etməyi vacib sayırıq ki, inzibati hüququn sistemində polis hüququnun yarımsahə statusunda tanınması üçün o, hüquq doktrinasında nəzərdə tutulmuş müvafiq **şərtlərə (meyarlara)** cavab verir (özünün nizama-

---

[1] *Məsələn, bax:* Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с. 112-116; Манохин В.М., Конин Н.М. Концепция программы курса административного права // Государство и право, 1993, № 5, с. 53 və b.

salma predmetinə, özünəxas tənzimetmə metoduna, xüsusi özünəməxsus sahədaxili prinsiplərə, ümumi və xüsusi hissələrə malik olması, tənzimlənən ictimai münasibətlərin cəmiyyətdə mühüm əhəmiyyət kəsb etməsi, müvafiq polis-hüquq normalarının kifayət dərəcədə mövcud olması və s.).

Eyni zamanda qeyd etməliyik ki, **inzibati hüquq** dedikdə dövlət idarəetmə işi ilə əlaqədar icra hakimiyyətinin yerinə yetirilməsi prosesində yaranan ictimai münasibətləri nizama salan hüquq normalarının məcmusu başa düşülür.[1] İnzibati hüququn ibarət olduğu hüquq normaları həm də polis-hüquq münasibətlərini **tənzimləmək funksiyasını** yerinə yetirir; belə funksiyanı yerinə yetirən konkret inzibati hüquq normalarının məcmusu polis hüququ adlanır. Bu isə onu göstərir ki, inzibati hüquqla polis hüququ arasında sıx, qırılmaz əlaqə və bağlılıq mövcuddur. Fəlsəfi planda onlar arasındakı münasibət təkcə (xüsusi) və ümumi kateqoriyalar arasındakı əlaqə kimidir. Belə ki, əgər fəlsəfi nöqteyi-nəzərdən inzibati hüquq ümumidirsə, polis hüququ təkcədir, xüsusidir.

**Fəlsəfi baxımından**, inzibati hüquqla polis hüququ arasındakı münasibət «tam» və «hissə» kimi fəlsəfi kateqoriyalar arasındakı əlaqənin eynidir. Belə ki, əgər inzibati hüquq «tam»dırsa, polis hüququ «tam»ın, yəni inzibati hüququn bir «hissə»sidir; hüquqi aspektdən yanaşsaq, polis hüququ, əvvəllərdə qeyd etdiyimiz kimi, inzibati hüququn yarımsahələrindən biridir.

İnzibati hüquqla polis hüququ arasında sıx əlaqənin mövcud olması, hər şeydən əvvəl, bunda ifadə olunur ki, polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər – polis-hüquq münasibətləri **inzibati hüquq normaları** ilə nizamlanır. Məlum olduğu kimi, polis-hüquq münasibətləri isə yalnız inzibati hüquq normaları ilə tənzimlənə bilər.[2]

---

[1] *Bax:* Abduləli Abdullayev, Vüsal Quliyev. Müqayisəli inzibati hüquq. Dərslik. Bakı, 2014, s.13.

[2] Bu məsələyə, dolayı yolla da olsa, toxunulur: *bax, məsələn,* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.39.

İnzibati hüquqla polis hüququ arasında sıx əlaqə, digər tərəfdən, həm də bunda ifadə olunur ki, inzibati hüququn **prinsipləri** polis hüququ üçün vacib əhəmiyyətə malikdir. Belə ki, polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər tənzimlənərkən həmin prinsiplər nəzərə alınır.

İnzibati hüquqla polis hüququ arasında əlaqənin mövcudluğundan danışarkən nəzərə almalıyıq ki, polis hüququ inzibati hüququn **ayrılmaz** tərkib hissəsidir.

Beləliklə, tam əminliklə qeyd edə bilərik ki, polis hüququ yuxarıda göstərilən şərt və meyarlara cavab verdiyi üçün inzibati hüququn sistemində «yarımsahə» statusu ilə ayrılır.

### 2.2.2. İnzibati hüququn digər yarımsahələri ilə polis hüququnun qarşılıqlı əlaqəsi

Qeyd etdik ki, polis hüququ inzibati hüququn yarımsahəsidir. Bu baxımdan, polis hüququnu aşağıdakı kimi səciyyələndirmək olar:

- polis hüququ müvafiq ictimai münasibətlərin tənzimlənməsinin spesifik hüquqi rejimini təmin etməklə, hüquq nəzəriyyəsində «yarımsahə» statusu üçün nəzərdə tutulmuş bütün əlamətlərə malikdir;
- polis hüququ eyni zamanda aid edildiyi hüquq sahəsində müvafiq yer tutmaqla, həmin hüquq sahəsi ilə sistemli əlaqədə olur.

Deməli, polis hüququ inzibati hüququn sistemində müvafiq yer almaqla onun digər tərkib hissələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Milli hüquq sisteminin digər sahələri ilə sıx bağlı olan inzibati hüquq ayrı-ayrı inzibati hüquq normalarının məcmusundan ibarət olmaqla müstəqil sistemə malikdir (məhdud mə-

nada).[1] Bu normalar isə yarımsahə və hüquq institutları qrupu üzrə bölüşdürülərək bütöv normativ qurumu – inzibati hüquq sahəsini təşkil edir; həm də hər bir yarımsahə öz «xidməti» rolunu mücərrəd şəkildə deyil, inzibati hüququn vahid sistemində yerinə yetirir.

Hüquqi tənzimetmə predmetinin meyarları inzibati hüquq normalarını **üç əsas qrupa (yarımsahəyə)** bölür, ayırır: idarəetmə hüququ, polis hüququ, inzibati-yurisdiksiya hüququ.[2] Polis hüququnun göstərilən yarımsahələrlə əlaqədə və onların tərkibində fəaliyyət göstərməsini diqqətə çəkmək lazımdır.

Polis hüququ **idarəetmə hüququnun** bir növü olmaqla, hər şeydən əvvəl, inzibati hüququn həmin yarımsahəsi ilə sıx surətdə bağlıdır. İdarəetmə hüququ cəmiyyətdə iqtisadiyyat, müdafiə, elm, təhsil, sosial təminat və s. istiqamətlərdə dövlət-idarəetmə münasibətlərini müvafiq qanunvericilik aktları əsasında tənzimləyir.

Əgər idarəetmə hüququ ictimai həyatın müxtəlif sahələrində təşkilati və rəhbərlik münasibətlərini tənzimləyirsə, polis hüququ ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində ictimai münasibətlərin təşkili «siyasətini» davam etdirir. Dövlət idarəçiliyində icra hakimiyyəti orqanlarının fəaliyyəti idarəetmə hüququnun müvafiq normaları ilə reqlamentləşdirilir, müəyyən maddi və mənəvi dəyərlərin yaradılmasına istiqamətlənir. «Polis idarəçiliyində» isə icra hakimiyyəti orqanlarının fəaliyyəti müvafiq sosial obyektlərin mühafizəsinə və qorunan obyektlərə ictimai həyatda təhdid (təhlükə) yaradan mənfi hadisələrin aradan qaldırılmasına və qarşısının alınmasına yönəlmişdir.

İdarəetmə hüququ polis hüququ ilə müqayisədə daha üstün hüquqi qüvvəyə malikdir; çünki idarəetmə hüququnun normaları konstitusion normalarla qarşılıqlı əlaqədə fəaliyyət

---

[1] Bax: Abduləli Abdullayev. İnzibati hüquq. Dərs vəsaiti. Bakı, 2005, s. 33.

[2] Bu fikir həm də xarici hüquq ədəbiyyatı səhifələrində ifadə olunur, dəstəklənir – *məsələn, bax:* Бельский К.С. О системе административного права // Государство и право, 1998, № 3, с. 7-11 və b.

göstərir, ayrı-ayrı hallarda isə hətta onlarla (konstitusion normalarla) qovuşaraq birləşir. Deməli, polis hüququ idarəetmə hüququndan törəmədir və məlum dərəcədə, emanasiya baxımından ikincidir. Buna görə də qeyd edə bilərik ki, polis hüququ idarəetmə hüququndan sonra «gəlir» və ondan aşağıda yerləşir.

Polis hüququ həm də inzibati hüququn geniş yarımsahəsi olan **inzibati-yurisdiksiya hüququ** ilə bağlıdır. İnzibati-yurisdiksiya hüququ bir tərəfdən, vətəndaşlar (təşkilatlar) arasında və digər tərəfdən, dövlət-hakimiyyət orqanları arasında yaranan inzibati-hüquqi mübahisələrin məhkəmə qaydasında həllini reqlamentləşdirir. Qanunvericilik aktlarında ehtiva olunan normalar şəxsə onun hüquq və azadlıqlarının dövlət orqanlarının vəzifəli şəxsləri tərəfindən pozulması barədə tabeçilik üzrə yuxarı orqana və (və ya) bilavasitə məhkəməyə şikayətlə müraciət etmək hüququ verir. Məsələn, YHQ-nin 27-ci maddəsinin XIX hissəsində nəzərdə tutulmuşdur ki, nəqliyyat vasitəsinin sahibi nəqliyyat vasitəsinin qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması zamanı süründürməçiliyə yol verilməsindən və yaxud onlardan imtina olunmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər.

İnzibati-yurisdiksiya hüquq normaları hakimiyyət orqanları ilə şəxslər arasında yaranan mübahisə mənşəli idarəetmə və polis münasibətlərini (inzibati hüquq münasibətlərini) tənzimləyir. Bu münasibətlər miqyasca mülki-prosessual münasibətlərə bərabər və xaraktercə onlara oxşar olsa da, müasir dövrdə spesifik cəhətlər nəzərə alınmaqla ictimai münasibətlərin müstəqil qrupu kimi ayrılır. İnzibati-yurisdiksiya normaları həm kəmiyyətcə (həcm baxımından), həm də keyfiyyətcə (tənzimlənən münasibətlərin mühüm və siyasi əhəmiyyət kəsb etməsi baxımından) artıq formalaşmışdır; xüsusilə, inzibati icraatla bağlı Azərbaycan Respublikasının İnzibati Prosessual

Məcəlləsinin (İPM) qəbul edilməsi[1] nəticəsində əmələ gəlmiş normalar inzibati hüququn sözügedən yarımsahəsinin, yarımsisteminin (inzibati-yurisdiksiya hüququnun) yaranmasına təkan vermişdir. Bu yarımsahə inzibati hüququn digər yarımsistemlərinin (yarımsahələrinin), o cümlədən polis hüququnun dəqiq və qanuni fəaliyyət göstərməsinin təmin olunmasına «xidmət» edir.

Bu baxımdan, inzibati-yurisdiksiya hüququ polis hüququna münasibətdə ondan sonra yer tutur və törəmə xarakterə malikdir. Belə ki, inzibati-yurisdiksiya normaları dövlət-idarəetmə və polis fəaliyyətini tənzimləyən bütün inzibati hüquq normalarının ardınca «gəlir». İctimai münasibətlərin reqlamentləşdirilməsi zamanı inzibati-yurisdiksiya normaları sanki polis-hüquq normalarına qoşularaq, onlarla birlikdə inzibati-hüquqi tənzimetmənin vahid mexanizmini yaradır.

İnzibati-yurisdiksiya hüququnun üçüncü dərəcəli xarakterə malik olması fikrini həm də, eyni zamanda, onun hüquq institutlarından biri sayılan «şikayət hüququ» adlı institut ilə əsaslandırmaq mümkündür. Şikayət (və ya inzibati iddia) polis əməkdaşının hüquqazidd hərəkətlərindən, «inzibati yalan»dan yaranaraq, prosessual sənəd kimi ikinci informasiya xarakteri daşıyır; belə halda, təbii ki, polisin hüquqazidd hərəkətləri iddiaçı tərəfindən onun hüquq və qanuni mənafelərini pozan qeyri-qanuni əməl kimi sayılır.[2] Bu məqam konkret normativ aktın, adətən, sonlarında şəxsə müvafiq polis fəaliyyətindən şikayət etmək imkanı verən normanın nəzərdə tutulmasını (yerləşdirilməsini) ehtiva edir. Məsələn, PQ-yə əsasən, polis əməkdaşı özünün hüquqazidd hərəkətlərinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır (maddə 33, V hissə). Bu cəhət məntiqi və hüquqi ardıcıllıq planında onu de-

---

[1] İPM Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 846-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş və 2011-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

[2] *Bax:* Усанов В.Е. Проблемы формирования административной юстиции в Российской Федерации. М., 1992, с.109.

məyə əsas verir ki, inzibati-yurisdiksiya hüququ polis hüququndan sonra yerləşir. Başqa sözlə, inzibati-yurisdiksiya hüququ idarəetmə və polis hüququ yarımsahələrini «sığortalamaqla» inzibati hüququn sistemində onlardan (hər iki yarımsahədən) sonrakı yeri tutur.

Beləliklə, qeyd edə bilərik ki, polis hüququ inzibati hüquqda onun «idarəetmə hüququ» yarımsahəsinin ardınca və «inzibati-yurisdiksiya hüququ» yarımsahəsindən əvvəl yerləşərək, bu iki yarımsahə arasında özünə yer alır. Bu kontekstdə polis hüququ «idarəetmə hüququ» yarımsahəsinin funksional davamı kimi sosial mühitdə (cəmiyyətdə) fəaliyyət göstərir; o, həm də inzibati hüququn sistemində «inzibati-yurisdiksiya hüququ» yarımsahəsindən əvvəl yer tutmaqla, onun «şikayət hüququ» («inzibati iddia») institutu ilə birlikdə və qarşılıqlı əlaqədə daha etibarlı şəkildə və effektli surətdə fəaliyyət göstərir.

Polis hüququnu, necə deyərlər, tanımaqla və öz tərkibində ayırmaqla inzibati hüquq Azərbaycanın milli hüquq sistemində ən tarazlaşdırılmış sahə kimi ehtiva olunur.

İnzibati hüquq özünün «idarəetmə hüququ» yarımsahəsi vasitəsilə **konstitusiya (dövlət) hüququ** ilə sıx surətdə bağlıdır. Belə əlaqə hər iki profil hüquq sahəsindəki qarşılıqlı münasibətlərin həm tarixi, həm də, hər şeydən əvvəl, milli qanunvericilik sistemində Azərbaycan Respublikası Konstitusiyasının əsas qanun kimi xüsusi yer tutması və əhəmiyyət kəsb etməsi amili ilə müəyyənləşdirilir. Belə ki, Konstitusiya (Əsas Qanun) icra hakimiyyəti orqanlarının sistemini, vətəndaşlıq institutunu, həmçinin vətəndaşların hüquq və azadlıqlarını təsbit edir və bunların da çoxu cəmiyyətdə həmin icra hakimiyyəti orqanları vasitəsilə realizə olunur, həyata keçirilir.

Qeyd edilənlərlə yanaşı, dövlət (konstitusiya) hüququnun ayrı-ayrı institutlarının tarixən ondan ayrılaraq inzibati hüququn tərkibinə daxil olması (bu hüquq sahəsini formalaşdırması) faktı onu deməyə əsas verir ki, hər iki hüquq sahəsi ilə tənzimlənən ictimai münasibətlər vaxtilə eynicinsli münasibətlər olmuşdur; məsələn, «dövlət qulluğu» hüquq institutunun ay-

rılması bununla izah oluna bilər. Hər iki hüquq sahəsi ona görə funksional sıx əlaqədədir ki, eyni zamanda, həm konstitusiya, həm də inzibati hüquq normaları mərkəzi icra hakimiyyəti orqanlarının (Azərbaycan Hökuməti, nazirlik, komitə və s. qurumların) strukturunu, səlahiyyətlərini və məsuliyyətini tənzimləyir.

İnzibati hüquq polis-hüquq normalarının sayəsində milli hüquq sisteminin digər sahəsi olan **cinayət hüququ** ilə əlaqədə olur. İnzibati hüquq məhz «polis hüququ» yarımsahəsinin təsbit etdiyi çoxsaylı qadağan və inzibati-hüquqi sanksiyalar vasitəsilə cinayət hüququna sıx və fövqəladə dərəcədə yaxınlaşır. İnzibati və cinayət məsuliyyətinin ümumi müddəaları və prinsipləri haqqında eynitipli normaların İXM-də və CM-də təsbit olunması, bir çox hüquq institutunun (məsələn, təqsir, inzibati və cinayət cəzalarının tətbiqi prinsipləri, anlaqsızlıq, son zərurət, zəruri müdafiə və s.) oxşarlığı inzibati hüquqla cinayət hüququ arasında sıx əlaqənin mövcudluğunu təsdiqləyir.

Polis-hüquq normalarının məzmunu nəzərdən keçirilən yarımsahədə «qoruma» (mühafizə) funksiyasının üstünlüyünü təsdiqləməklə, milli hüquq sistemində müstəqil hüquq sahəsi kimi inzibati hüququn, bir tərəfdən, tənzimləmə blokuna, digər tərəfdən isə, mühafizə blokuna malik olmasını isbat edir; başqa sözlə, inzibati hüquq sahəsi «idarəetmə hüququ» yarımsahəsinin tənzimləmə funksiyası və «polis hüququ» yarımsahəsinin «qoruma» (mühafizə) funksiyası ilə tarazlaşdırılır.

İnzibati hüququn digər yarımsahəsi – «inzibati-yurisdiksiya hüququ» inzibati hüququ **mülki hüquq** və **mülki-prosessual hüquq** sahələri ilə yaxınlaşdırır. Doğrudan da inzibati-yurisdiksiya prosesində mülki prosesə daha çox oxşarlıq vardır. Bir sıra mülki-prosessual normalar inzibati-yurisdiksiya normalarının konstruksiya olunması üçün, mülki proses isə məhkəmədə inzibati icraat üçün hüquqi model kimi istifadə olunur. Əgər mülki proses iddia ərizəsi əsasında yaranırsa, inzibati-yurisdiksiya prosesi isə inzibati iddia əsasında baş tutur, yəni həm dövlət-idarəetmə, həm də polis fəaliyyəti zamanı vəzifəli

şəxsin qeyri-qanuni əməllərinə qarşı irəli sürülən inzibati şikayət əsasında həyata keçirilir. Bu baxımdan, inzibati-yurisdiksiya hüququ digər iki yarımsahənin – «idarəetmə hüququ» və «polis hüququ» yarımsahələrinin eyni dərəcədə davamı kimi, onlar arasında hüquq bərabərliyi yaratmaqla və hüquq sahəsinin bütövlüyünə (vahid olmasına) təsir etməklə fəaliyyət göstərir.

## 2.3. Polis hüququnun sistemi və prinsipləri

### 2.3.1. Polis hüququnun sistemi anlayışı və struktur elementləri

Cəmiyyətdə insanların həyat, sağlamlıq, hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin və mülkiyyətinin hüququazidd əməllərdən qorunması sahəsində polis fəaliyyəti çoxşaxəlidir. Polis fəaliyyət növü ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətlərin və digər xətaların qarşısının alınması və açılmasına, yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmişdir. Bu şərtlər polis-nəzarət prosesinin təşkili və hüquqpozmaların aradan qaldırılmasını əhatə edən mürəkkəb kompleks tədbirlərin həyata keçirilməsi şəraitində formalaşır.

Qeyd etmək lazımdır ki, polis fəaliyyətinin təmin olunması **sistem şəklində**, **sistemli metod** əsasında həyata keçirilir («sistem» ifadəsi yunanca «sistema» – tam, hissələrdən ibarət olan deməkdir).

Məlum olduğu kimi, sistemli yanaşma və yaxud sistemli metod ümumi anlayış və kateqoriya təsnifatına aiddir. Sistemli tədqiqatın ümumi mahiyyəti ondan ibarətdir ki, o, mürəkkəb hadisələrin – tərkib hissələri orqanik vəhdətdə və qarşılıqlı fəaliyyətdə olan sistemlərin hərtərəfli təhlilinə əsaslanır. Deyilənləri eyni zamanda polis fəaliyyətinin həyata keçirilməsi prosesində əmələ gələn ictimai münasibətlərin hüquqi

tənzimlənməsi probleminə də şamil etmək mümkündür. Fəlsəfi nöqteyi-nəzərdən yanaşdıqda, sistem – bir-biri ilə münasibətdə və əlaqədə olan, bütövlük (vahidlik, tamlıq) təşkil edən elementlərin məcmusudur.[1]

Hüququn sistemi (ingiliscə «system of law») dedikdə onun daxili strukturu, quruluşu və təşkili başa düşülür.[2]

Polis hüququ, əvvəllərdə qeyd etdiyimiz kimi, inzibati hüququn yarımsahəsi olduğu üçün ona məhz bu prizmadan yanaşmaq lazımdır. **İnzibati hüququn sistemi** dedikdə hüquq sisteminin digər sahələri ilə sıx bağlı olan ayrı-ayrı inzibati hüquq normalarından, institutlardan və yarımsahələrdən ibarət olan sistem başa düşülür.[3] Məlum olduğu kimi, inzibati hüquq sahəsinin əsas hissələri qismində aşağıdakı hüquqi qurumlar (yarımsahələr) fərqləndirilir: idarəetmə hüququ, polis hüququ və inzibati-yurisdiksiya hüququ. Göstərilən hər bir hissə inzibati hüququn yarımsahəsidir. Bu baxımdan, inzibati hüquq sahəsinin normativ materiallarını söylədiyimiz hissələr (yarımsahələr) üzrə sistemləşdirmək və bölüşdürmək mümkündür. Ona görə də hesab edirik ki, inzibati hüququn sistemi müəyyən komponentlərdən ibarətdir; polis hüququnun sistemi də məhz həmin komponentlərdən biridir. Deməli, polis hüququnun sistemi bütövlükdə inzibati hüququn sisteminin tərkib hissəsidir.

Hüquq nəzəriyyəsində düzgün olaraq qeyd edilir ki, hüquq sahəsinin sisteminin tədqiqinə, hər şeydən əvvəl, nəzərdən keçirilən sistemin struktur elementləri və meyarları haqqında məsələnin həllindən başlamaq lazımdır.[4]

---

[1] *Bax:* Философский энциклопедический словарь. М., 1980, с.435.

[2] *Bax:* Allahverdiyev S.S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik. Bakı, 2018, s.132. *Hüququn sistemi barədə daha ətraflı:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.790-791 və b.

[3] *Bax:* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.21.

[4] *Bu barədə ətraflı bax:* Алексеев С.С. Общая теория права. Том 2. М., 1982.

**Sistemin strukturu** dedikdə sistemin tərkib elementlərinin vahidliyi (bütövlüyü) və qarşılıqlı fəaliyyəti başa düşülür. **Struktur** isə sistemin məqsədyönlü fəaliyyət göstərməsini və dayanıqlığını təmin edən elementlərin həmin sistemdə əlaqə üsulu deməkdir. **Element** dedikdə müəyyən funksiyaların yerinə yetirilməsi məqsədilə təşkil olunmuş sistemin tərkib hissəsi başa düşülür. Belə nəzəri sistemin normal işləməsinin mühüm prinsipial şərti həmin sistemin tərkib hissələrinin əsas parametrlər, zaman, məkan və təsir üsulları üzrə qarşılıqlı, uzlaşdırılmış fəaliyyət göstərməsidir. Tərkib hissələrin bütün parametrlər üzrə qarşılıqlı əlaqələndirilməsi sistemin yüksək dərəcədə işlək olmasını təmin edir.

Belə məntiqi yanaşmanı, təbii ki, hüquq yarımsahəsi sisteminin tədqiqinə də aid etmək olar. Lakin nəzərə almaq lazımdır ki, hüquq yarımsahəsi konkret hüquq sahəsindən törəmə olsa da, müəyyən özünəxas xüsusiyyətlərə malikdir.

Polis hüququnun sistemi milli hüquq elmində (doktrinada) az tədqiq olunan və öyrənilən məsələlərdən biridir. Görünür, bu, polis hüququnun hələ ki, təşəkkültapma mərhələsində olması və hüququn nisbətən «cavan» qurumu hesab edilməsi ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər yalnız polis-hüquq normaları ilə tənzimlənir; bu normalar xaotik və qarışıq şəkildə deyil, onlar arasında daxili qarşılıqlı dialektik əlaqə nəzərə alınmaqla ayrı-ayrı hüquq institutları və hüquqi qurumlar üzrə düzlənirlər ki, bunun da nəticəsində polis hüququnun tamlığı və bütövlüyü təmin olunur. Polis-hüquq normalarının belə düzümünə, başqa sözlə, onların hüquq institutları və digər hüquqi qurumlar (subinstitut, bölmə və s.) üzrə qruplaşdırılmasına (bölüşdürülməsinə) **polis hüququnun sistemi** deyilir. Polis hüququnun sistemi onu ifadə edir ki, müvafiq ictimai münasibətləri tənzimləyən polis-hüquq normaları bir-birinin ardınca müəyyən quruluş üzrə, sistemli şəkildə düzlənir.

Polis hüququnun sistemini təhlil edərkən onun struktur elementlərini **üç səviyyədə** fərqləndirmək, ayırmaq lazımdır:

- polis hüququ bütövlükdə inzibati hüququn yarımsahəsi olmaqla eyni zamanda müstəqil yarımsistemlərə və ya hissələrə (bloklara) bölünür (ayrılır);
- hər bir blok (hissə), öz növbəsində, müvafiq struktur elementlərə – hüquq institutlarına ayrılır;
- ayrı-ayrı hüquq institutlarında konkret hüquqi göstərişlər (hüquq normaları) cəmləşir.

Struktur elementlər polis hüququnun sisteminin quruluşuna, onun ümumi görünüşünə və panoramasına bilavasitə təsir göstərir.

Polis hüququnun sistemi yuxarıda göstərdiyimiz qrup (bloklar və hüquq institutları) üzrə bölünmüş polis-hüquq normalarının elmi təşkil olunmuş məcmusundan ibarətdir. Polis-hüquq normalarının öyrənilməsi, elmi əsaslarla işlənilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edən nəzəri və praktiki məsələdir. Polis hüququnun sistemi müasir dövrdə problem məsələ kimi, həmçinin polis haqqında qanunvericiliyin **kodifikasiyası (sistemə salınması)** ilə sıx surətdə bağlıdır; belə kodifikasiya normativ materialın düzgün sistemləşdirilməsi əsasında həyata keçirilməlidir. Belə ki, ümumi hüquq nəzəriyyəsinə görə, nəzəri, pedaqoji və praktiki səbəblər qüvvədə olan hüququn müəyyən hissələrə bölünməsi zərurətinə gətirib çıxarır.

Polis-hüquq normalarının müvafiq hüquq institutları və daha sonra vahid normativ baza üzrə diferensiasiyası və düzlənməsi müxtəlif **təsnifat meyarları** əsasında mümkün ola bilər. Belə meyarlar qismində predmet meyarı, prosessual meyar və digər meyarları göstərmək olar.[1]

---

[1] *Bax:* Бельский К.С. О системе административного права // Государство и право, 1998, № 3, с. 3-8. Azərbaycan hüquq elmində inzibati hüquq normaları müxtəlif meyarlar (təyinat, məzmun, təsir həddi, hüquqi qüvvə, ümumiləşdirmə və s.) üzrə qruplaşdırılır; həmçinin bu normaların konkret məzmun, xarakter, realizə və s. meyarlar üzrə qruplara bölünməsinə də rast gəlinir: *bax,* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.22-23, 40-41 və b.

Polis hüququnun sisteminin müəyyənləşdirilməsində **predmet meyarı** əsas götürülə bilər. Belə ki, əgər, məlum olduğu kimi, hüquq sahəsinin (və yaxud hüquq yarımsahəsinin) predmeti onun funksiyalarını müəyyən edirsə, onda predmet meyarı polis hüququnun sisteminin **funksional quruluşunu** şərtləndirir və polis-hüquq normalarını üç əsas hissə (qrup) üzrə bölür, ayırır:

- polis mühafizə obyektlərini müəyyənləşdirən polis-hüquq normaları qrupu (hüquq institutları);
- polis fəaliyyəti subyektlərini müəyyənləşdirən hüquq institutları üzrə polis-hüquq normaları;
- polis fəaliyyətinin həyata keçirilməsi üsullarını (metodlarını) təyin edən polis-hüquq normaları (hüquq institutları).

Sözügedən hüquq institutlarını təşkil edən polis-hüquq normalarını konkret hüquq institutunun tərkibində subinstitut və ya yarıminstitutlar üzrə də qruplaşdırmaq olar.

Göstərilən bölgü mütləq deyil, şərti xarakter daşısa da, polis hüququnun sisteminin müəyyən olunmasında institusional element kimi əsas götürülə bilər və onu polis fəaliyyətinə nəzarət sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normaları bloku (institutu) tamamlaya bilər; buraya polis hüquq doqmasından müvafiq qaydaların (polis hüququnun əsas anlayışlarını və kateqoriyalarını, hüquqi standartları, məhfum aparatını və s. müəyyənləşdirən hüquq normalarının) daxil edilməsi mümkündür.

**Prosessual meyar** üzrə polis hüququnun prosessual sistemini formalaşdırmaq mümkündür. Bu meyar əsasında polis fəaliyyəti sahəsində konkret fərdi işlərin həll olunması xarakteri üzrə hüquqi normalar ayrıla, maddi polis-hüquq normaları fərqləndirilə bilər; bu məsələ də prosessual polis hüququ üçün, xüsusilə, əhəmiyyətlidir. Prosessual polis-hüquq normaları polis hüququnun ayrıca bir blokunda (hissəsində) cəmləşir; belə polis hüquq institutlarına aşağıdakıları aid etmək

olar: inzibati xətalar haqqında işlər üzrə icraat, inzibati şikayət və iddia, polis aktlarının (həbs, tutulma və s.) həyata keçirilməsi, digər icraat və prosedur hərəkətlər. Bu institutlar, öz növbəsində, daha xırda hüquqi qurumlara – subinstitutlara (yarıminstitutlara) bölünür.

Polis hüququnun **prosessual sistemi** polis fəaliyyəti sahəsində qanunçuluğun möhkəmləndirilməsinə «xidmət edən» polis-hüquq normalarını geniş prosessual normalar qrupundan ayıraraq sistem şəklinə salır; belə sistem polis-hüquq normalarının düzgün və effektli tətbiq olunmasına, realizə edilməsinə əlverişli imkan yaradır. Lakin polis hüququnun əsas sistemi kimi **«funksional sistem»** daha vacib və əhəmiyyətli rol oynayır; çünki o, inzibati hüququn sözü gedən polis hüququ yarımsahəsində «polis aləmi»nin coğrafi reallıqlarını və polis-hüquq normalarının diferensiasiyasını daha aydın formada təqdim edir.

Beləliklə, şərh olunanları nəzərə alaraq, polis hüququnun sisteminə aşağıdakı kimi doktrinal anlayış formulə edə bilərik:

**polis hüququnun sistemi** dedikdə polis fəaliyyəti sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normalarının öz aralarında qarşılıqlı əlaqə nəzərə alınmaqla, onların predmet meyarı (əlaməti) əsasında institut və subinstitutlar üzrə elmi zəmində qruplaşdırılması (bölüşdürülməsi) başa düşülür.

Polis hüququnun sistemini həm də, eyni zamanda, onu təşkil edən ümumi polis-hüquq normalarının polis fəaliyyəti sferasında konkret **«tətbiqolunma» meyarına** görə fərqləndirmək olar. Bu baxımdan, polis hüququnun sistemi iki hissəyə ayrılır:

– ümumi hissə;

– xüsusi hissə.

Əslində, polis hüququnun sisteminin ümumi və xüsusi hissələrə bölünməsi digər şərt və meyarlarla (nizamasalma predmeti, hüquqi tənzimetmə metodu, kifayət dərəcədə polis-hüquq normalarının mövcudluğu və s.) yanaşı, onun müstəqil

yarımsahə kimi inzibati hüququn tərkibində formalaşmasını şərtləndirir.

### 2.3.2. Polis hüququnun ümumi hissəsi

Polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin eyninövlü olması elə normaların (normalar qrupunun) ayrılmasına imkan verir ki, həmin normaları polis fəaliyyəti sahəsində istənilən münasibəti tənzimləməkdən ötrü tətbiq etmək mümkündür. Belə normaların məcmusu polis hüququnun ümumi hissəsi adlanır.

**Polis hüququnun ümumi hissəsi** dedikdə polis fəaliyyəti sahəsində ümumi məsələləri tənzimləyə bilən, ümumi qaydalar müəyyənləşdirən polis-hüquq normalarının məcmusu başa düşülür.

Polis hüququnun ümumi hissəsinə daxil olan normalar onun xüsusi hissəsi üçün ümumi hüquqi əhəmiyyətə malikdir. Belə ki, xüsusi hissə ilə tənzimlənən ayrı-ayrı, konkret ictimai münasibətlər (məsələn, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin təmin olunması və digər sahələrdə yaranan münasibətlər) hüquqi cəhətdən nizamlanan zaman həmin normalardan istifadə etmək mümkündür. Bu isə, əlbəttə, polis haqqında qanunvericilik massivinin həcmini xeyli dərəcədə azaldır, onun praktiki tətbiqini asanlaşdırır, polis fəaliyyəti sahəsində ictimai münasibətlərin hüquqi cəhətdən eyni cür tənzimlənməsini təmin edir, polis hüququnun ayrı-ayrı struktur bölmələrində hüquq normalarının təkrarlanmasının qarşısını alır. Bunlar onu deməyə əsas verir ki, polis hüququnun sistemində ümumi hissənin vacib əhəmiyyəti vardır.

Ümumi hissədə polis hüququnun predmeti və prinsipləri barədə, polis fəaliyyəti sahəsində hüquqların əmələ gəlməsi, həyata keçirilməsi və müdafiəsi haqqında, polis hüquq subyektləri və obyektləri barədə və ümumi xarakterli digər məsə-

lələrlə bağlı normalarla rastlaşırıq. Polis hüququnun ümumi hissəsinin özü bir neçə hüquq institutundan ibarətdir. Həmin institutlar sırasında aşağıdakıları göstərmək olar:

- ümumi müddəalar institutu (polis hüququnun anlayışı, predmeti, metodu, sistemi və s.);
- polis hüququnun subyektləri hüquq institutu;
- polis hüququnun prinsipləri hüquq institutu;
- polis hüququnun mənbələri hüquq institutu;
- polis fəaliyyətinə nəzarət və məsuliyyət hüquq institutu və s.

Polis hüququnun ümumi hissəsi polis fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Onun həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Polis hüququnun ümumi hissəsi onu ifadə edir ki, bütün polis-hüquq normalarının hüquqi məzmunu ümumi xarakterə malikdir; o, polis hüququ ilə tənzimlənən ictimai münasibətlərin eyninövlü olmasını əks etdirir. Ümumi hissə bütün polis-hüquq normalarını birləşdirən əsas (zəmin, baza) rolunu oynayır. Ümumi hissə, bir qayda olaraq, ondan effektiv istifadə üçün xüsusi yaradılmış hüquqi-texniki aparatdır və onun hüquqtətbiqetmə əhəmiyyəti də vardır. Belə ki, ümumi hissə polis haqqında qanunvericiliyin, praktiki olaraq, rasional tətbiqini asanlaşdırır.

### 2.3.3.Polis hüququnun xüsusi hissəsi

Polis hüququnun nizamasalma predmetinə həm də elə ictimai münasibətlər daxildir ki, həmin münasibətlər özünəxas əlamətlərlə, spesifik cəhətlərlə xarkterizə olunur. Belə münasibətlər bu səbəbdən də ümumi deyil, xüsusi (konkret) xarakterli münasibətlər hesab edilir. Bu baxımdan, polis hüququnun nizamasalma predmetinə ictimai münasibətlərin aşağıdakı növlərini aid etmək olar:

- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlər;
- cinayətlərin və digər xətaların qarşısının alınması və açılması ilə əlaqədar münasibətlər;
- yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində yaranan münasibətlər;[1]
- DİO tərəfindən əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlər[2] və s.

Bu münasibətlərdən hər biri, ayrıca olaraq, konkret polis-hüquq normaları ilə tənzimlənir. Həmin normaların məcmusu polis hüququnun xüsusi hissəsi adlanır.

**Polis hüququnun xüsusi hissəsi** dedikdə onun nizamasalma predmetinə daxil olan konkret növ ictimai münasibətləri tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

Polis hüququnun xüsusi hissəsi onunla tənzimlənən ictimai münasibətlərin konkret növlərinə uyğun olaraq, bir neçə hüquq institutuna, institutlar isə, öz növbəsində, hüquq subinstitutlarına (yarıminstitutlara) bölünür. Həm institutlar, həm də hüquq subinstitutları polis hüququnun xüsusi hissəsinin ayrılmaz tərkibləridir.

**«Polis hüququnun xüsusi hissəsi»** anlayışının məna yükü altında onun institutları başa düşülür. Buna görə də, «xüsusi hissə» öz institutları ilə təmsil olunur. Odur ki, polis hüququnun xüsusi hissəsinin malik olduğu hüquqi qurumları «polis hüququnun xüsusi hissəsinin hüquq institutları» kimi anlayışla ifadə edirik.[1]

Polis hüququnun xüsusi hissəsinin hansı institutlardan ibarət olmasına gəldikdə, qeyd etməliyik ki, bu, milli hüquq,

---

[1] Göstərilən ictimai münasibətlər qrupu polis fəaliyyətinin əsas istiqamətləri üzrə fərqləndirilir (PQ-nin 4-cü maddəsinin II hissəsi).

[2] *Bu münasibətlərlə əlaqədar bax*: ƏFQ-nin 1-ci maddəsinin III hissəsi.

[1] «İnstitut» ifadəsi latınca «institutum» - müəyyənləşdirmə, təsisat deməkdir *(bax:* Словарь иностранных слов / Под ред. А.Г.Спиркина. М., 1985, с.195).

eləcə də inzibati hüquq elmində (doktrinada) ümumiyyətlə tədqiq olunmayan məsələdir.

**Polis hüququnun institutu** (söhbət, təbii ki, polis hüququnun xüsusi hissəsinin institutundan gedir) dedikdə, polis hüquq sisteminin xüsusi hissəsinin elə bir əsas elementi başa düşülür ki, o, özündə məcmu halında polis fəaliyyəti sahəsində eyninövlü (eynicinsli) ictimai münasibətləri tənzim edən polis-hüquq normalarını birləşdirir. Sözügedən hüquq institutu polis hüququnun xüsusi hissəsinin ayrıca bir bloku, dəstəsi, tərkib hissəsi olmaqla, polis fəaliyyətinin ayrı-ayrı konkret sferasını, fraqmentlərini və tərəflərini qaydaya salır. Onun **üç əsas xüsusiyyəti** vardır:

– birinci, konkret polis hüquq institutu onunla xarakterizə olunur ki, bu instituta daxil olan normalar hüquqi cəhətdən vahiddirlər; belə ki, hüquq institutuna aid edilən normalar vahid kompleks yaradır;

– ikinci, hər bir polis hüquq institutu nisbi müstəqilliyə malikdir; belə ki, onlar müstəqil, nisbətən ayrıca (əlahiddə) münasibətlər qrupunu və məsələləri nizama salır;

– üçüncü, polis hüquq institutları normativ mənada da nisbi müstəqilliyə malikdir; bu o deməkdir ki, hüquq institutuna daxil olan normalar konkret qanunun mətnində və ya digər normativ hüquqi aktların ayrı-ayrı fəsillərində, bölmələrində və digər tərkib hissələrində yerləşdirilir, yəni hüquq institutlarından hər birinə ayrıca olaraq qanun, fəsil, bölmə və ya hissə həsr edilir (YHQ, ƏFQ, PQ və s.).

Ümumiyyətlə, polis hüquq institutlarını müxtəlif əsaslara görə ayrı-ayrı növlər üzrə təsnifləşdirmək mümkündür. **Sahəvi aidiyyət** əlamətinə görə onların iki növü fərqləndirilir: yarımsahədaxili hüquq institutu, yarımsahəvi hüquq institutu. Yalnız polis hüququnun konkret sferası üçün, yəni inzibati hüququn tərkib hissəsi kimi polis hüququ yarımsahəsinin daxilində konkret fəaliyyət istiqaməti üçün xarakterik olan instituta **ya-**

**rımsahədaxili polis hüquq institutu** deyilir (məsələn, polis-informasiya hüquq institutu); ona inzibati hüququn digər yarımsahələrində rast gəlinmir; belə institutu **xüsusi polis hüquq institutu** da adlandırmaq olar. İnzibati hüququn polis hüququ yarımsahəsinin iki və daha artıq hüquq sferası üçün xarakterik olan instituta **yarımsahəvi polis hüquq institutu** deyilir (məsələn, ictimai təhlükəsizlik hüquq institutu); bu instituta **qarışıq və ya kompleks polis hüquq institutu** da deyilir.

**Həyata keçirdiyi funksiyaya** görə polis hüquq institutu üç cür olur: **tənzimləyici** polis hüquq institutu, **qoruyucu (mühafizəedici)** polis hüquq institutu, **təminedici** polis hüquq institutu.

**Tərkib hissəsinə (elementinə)** görə polis hüquq institutlarını iki növə bölmək olar: sadə polis hüquq institutu, mürəkkəb polis hüquq institutu. **Sadə polis hüquq institutu** odur ki, o, həcm etibarilə böyük olmayıb, özündə hər hansı bir digər bölmə (hissə) birləşdirmir. **Mürəkkəb polis hüquq institutu** odur ki, o, həcm etibarilə daha böyük olub, öz tərkibində nisbətən müstəqil hissələri birləşdirir.

Mürəkkəb polis hüquq institutunun daha xırda hissələrinə **polis hüquq subinstitutu** deyilir. Deməli, mürəkkəb polis hüquq institutu polis hüquq subinstitutlarından ibarətdir (məsələn, yol hərəkəti təhlükəsizliyi hüquq institutu özündə nəqliyyat vasitələrini idarəetmə hüquq subinstitutunu, yol müfəttişliyi və hərəkətin təşkili hüquq subinstitutunu və s. subinstitutları birləşdirir[1]). Həm polis hüquq institutları, həm də polis hüquq subinstitutları özlərinin ümumi müddəalarına malikdir. Bu, onu sübut edir ki, polis hüquq institutlarına və subinstitutlara daxil olan normalar hüquqi cəhətdən eyninövlüdür.

Eyni zamanda, qeyd etmək lazımdır ki, polis hüquq institutları və polis hüquq subinstitutları polis-hüquq normalarından ibarətdir. Polis-hüquq normaları isə polis hüququ sisteminin ilkin elementidir (tərkib hissəsidir), «polis hüququ» adlı

---

[1] *Belə təsnifləşdirmənin hüquq elmi ictimaiyyətinə ilk dəfə olaraq təqdim edilməsi barədə bax:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.54.

«maddənin bölünməz atomlarıdır», hüquqi materiyanın «canlı hüceyrələridir».[1]

Məhz şərh olunan fikirlərə əsaslanaraq, zənnimizcə, polis hüququnun xüsusi hissəsinin tərkibində aşağıdakı institutların mövcud olmasını müəyyənləşdirmək mümkündür:

– ictimai təhlükəsizlik hüquq institutu;
– istintaq və təhqiqat hüquq institutu;
– yol hərəkəti təhlükəsizliyi hüquq institutu;
– cinayət-axtarış hüquq institutu;
– polis-informasiya hüquq institutu və s.

Nəzəri ədəbiyyatda belə bir fikir söylənilir ki, hüquq yarımsahəsinin institutları müəyyən şərtlərə cavab verməlidir (spesifik nizamasalma predmetinin və hüquqi tənzimetmə metodunun olması, kifayət dərəcədə hüquq normalarının mövcudluğu və s.). Fikrimizcə, yuxarıda sadaladığımız polis hüquq institutları göstərilən şərtlərə cavab verir. Buna görə də onlar polis hüququnun xüsusi hissəsinin institutları kimi tanınırlar. Tərəfimizdən ilk dəfə olaraq irəli sürülən belə yanaşma, zənn edirik ki, həqiqətə uyğun olub, kifayət dərəcədə ağlabatan, həm elmi-nəzəri, həm hüquqi, həm də məntiqi əsaslara malikdir.

Eyni zamanda qeyd olunmalıdır ki, polis hüququnun sistemi və onun ümumi və xüsusi hissələrə bölünməsi barədə yürütdüyümüz konstruktiv model mütləq deyildir. Ona görə ki, cəmiyyətdə ictimai, sosial, iqtisadi və digər münasibətlər dinamik surətdə inkişaf etdikcə, bu sahədə sivil ölkələrin qabaqcıl elmi təcrübə və nailiyyətlərinin üstünlükləri nəzərə alınmaqla, gələcəkdə polis hüququnun sisteminin təkmilləşdirilməsi və inkişafı istisna edilmir. Buna görə də hesab edirik ki, Azərbaycan Respublikasında polis hüququnun sistemini daha ətraflı

---

[1] Hüquq normaları barədə belə analoji fikrə mülki hüquq elmində də rast gəlinir ki, *məsələn, bax:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. Ümumi hissə. II nəşr. Bakı, 2008, s.120 və s.

tədqiq etmək və dərindən öyrənmək müasir dövrdə milli hüquq elminin (doktrinanın) qarşısında duran ən vacib aktual vəzifələrdən biridir.

### 2.3.4. Polis hüququnun prinsipləri

Məlum olduğu kimi «prinsip»[1] termini çoxcəhətli anlayış olmaqla müxtəlif mənalarda işlədilir: fəlsəfi, hüquqi, texniki və s. Biz, «prinsip» anlayışına hüquqi mənada toxunacağıq. Belə ki, əgər prinsip hüquqi cəhətdən təsbit edilərək ifadə olunarsa, ona **«hüquqi prinsip»** deyilir. Hüquqi prinsip isə hüquqi mənada elə prinsipin özü deməkdir. Hüquqi əhəmiyyətə məhz hüquqi mənada prinsip anlayışı malikdir; çünki hüququn mahiyyəti, sosial məqsədi və xarakteri kimi zəruri məsələlər məhz hüququn prinsiplərində ifadə olunur; hüquq məhz həmin prinsiplərə əsaslanaraq fəaliyyt göstərir, öz funksiyasını yerinə yetirir. Hüquqi dövlətin həyata keçirdiyi fəaliyyətin əsasını hüququn prinsipləri təşkil edir.

**Hüquqi mənada prinsiplər**, yəni hüquqi prinsiplər dedikdə hüquqda ifadə olunan və onun məzmununu, mahiyyətini, sosial məqsədini və təyinatını xarakterizə edən rəhbər başlanğıclar, əsas ideyalar və müddəalar başa düşülür.

İstənilən hüquq sistemi üçün, eləcə də onun ibarət olduğu ayrı-ayrı müstəqil hüquq sahələri üçün hüquqi prinsiplər vacib rol oynayır. Hüquqi prinsiplərin həm də inzibati hüquq sahəsi və onun yarımsahələrindən biri olan polis hüququ üçün böyük əhəmiyyəti vardır. Belə ki, hüquqi prinsiplər polis hüququnun tənzimetmə predmetinə daxil olan ictimai münasibətlərin hüquqi cəhətdən nizama salınmasının əsasını təşkil edir.

**Polis hüququnun prinsipləri** dedikdə polis-hüquq münasibətlərini tənzimetmənin polis-hüquq normalarında ifadə olu-

---

[1] «Prinsip» sözü latınca «prinsipium» ifadəsindən olub, mahiyyətcə, «əsas» mənasını bildirir; *bu barədə bax:* Словарь иностранных слов /Под ред. И.В.Лехина, Ф.Н.Петрова. М., 1954, с.563.

nan və ümumi məcburi xarakter kəsb edən əsas ideyaları və rəhbər başlanğıcları başa düşülür. Prinsiplər özlərində polis hüququnun nisbətən daha xarakterik cəhətlərini ehtiva edir, onun hüquqi təbiətini müəyyənləşdirir. Polis hüququnun hər bir subyektinin vəzifəsi və borcudur ki, bu prinsiplərə əməl etsin. Bu prinsiplər konkret hüquqi məsələnin həllində qanunun məcburi tələbi və göstərişi kimi çıxış edir; ona görə ki, polis hüququnun prinsipləri qanunvericilik qaydasında və səviyyəsində təsbit edilmişdir, yəni polis-hüquq normalarında ifadə olunmuşdur. Deməli, həmin prinsiplər **ümummcəburi xarakterə** malikdir. Bu, polis hüququnun prinsiplərini səciyyələndirən əsas xüsusiyyətdir. Məhz bu səbəbdən müvafiq ictimai münasibətlər polis hüququ ilə tənzimlənərkən polis hüququnun prinsipləri əsas kimi götürülür. Sözügedən prinsiplərin əhəmiyyəti həm də ondan ibarətdir ki, polis qanunvericiliyində hüquqi boşluq və alqoritmlər olduğu hallarda **hüququn analogiyası** faktorundan istifadə olunur, yəni polis hüququnun prinsipləri tətbiq edilməklə hüquqi məsələ öz həllini tapır.

Polis hüququnda tətbiq edilən hüquqi prinsipləri **üç qrupa** bölmək olar:

- hüququn ümumi prinsipləri;
- hüququn əsas prinsipləri;
- hüququn xüsusi prinsipləri.

**Hüququn ümumi prinsipləri** dedikdə bütövlükdə hüququn məzmununu xarakterizə edən, onun hüquqi təbiətini əks etdirən və ümumi olan rəhbər başlanğıclar, əsas ideyalar başa düşülür.

Hüququn ümumi prinsiplərinin rolu və əhəmiyyəti böyükdür. Dünyanın, demək olar ki, əsas hüquq sistemlərinə – həm ingilis-amerikan (ümumi hüquq), həm də roman-german (kontinental) hüquq sisteminə daxil olan ölkələrin qanunvericiliyi və formalaşmış hüquqi ənənə (praktika) qanunda konkret hüquqi göstəriş, habelə hüquqi adət və ya presedent olmadığı

hallarda hüquqtətbiqetmə fəaliyyəti prosesində hüququn ümumi prinsiplərinə istinad edilməsinə yol verir.

Hüququn ümumi prinsipləri tarixən vacib göstərişlər kimi Roma hüququnda yaranmış və sonralar inkişaf etmişdir. Belə göstərişlərə aşağıdakılar aiddir:

– «audiatur et altera pars» («qoy, qarşı tərəf də dinlənilsin»);
– «res judicata» («məhkəmə tərəfindən qəti olaraq həll edilən işə həmin məhkəmə yenidən baxa bilməz»);
– «lex prospicit non respicit» («qanunun geriyə qüvvəsi yoxdur»);
– «non bis in idem» («təkrarən məsuliyyətə cəlb olunmaq qadağandır»);
– «nullum crimen sine lege» («qanunsuz cinayət yoxdur») və s.[1]

Əgər rəhbər başlanğıclar və əsas ideyalar milli qanunvericilikdə hüquqi cəhətdən təsbit edilərsə, onda onlar hüququn ümumi prinsipləri kimi tanınır. Azərbaycan Respublikasında hüququn ümumi prinsipləri Azərbaycan Respublikasının Əsas Qanununda – Konstitusiyada və digər normativ hüquqi aktlarda təsbit olunmuşdur.

**Hüququn əsas prinsipləri** odur ki, bu prinsiplər milli hüququn ən mühüm xüsusiyyətlərini, onun məzmununu və əsas cəhətlərini müəyyənləşdirir, habelə milli hüquq sisteminin bütün sahələrinə aid edilir.

Hüququn əsas prinsipləri sırasında aşağıdakıları göstərmək olar: ictimai azadlıq, ictimai ədalət, demokratizm, humanizm, bərabərlik, hüquq və vəzifələrin birliyi, qanunçuluq, təqsirə görə məsuliyyət və s.[2]

---

[1] *Bu barədə ətraflı bax:* Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə / Məsul redaktor: İ.A.İsmayılov. Bakı, 1999.

[2] *Hüququn əsas prinsipləri barədə daha ətraflı bax:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2009, s.127-129.

**İctimai azadlıq** hüququn əsas prinsiplərindən biridir. Sözügedən prinsip onu ifadə edir ki, hər bir şəxs qanunla qadağan edilməyən və başqalarına zərər vurmayan istənilən hərəkəti etmək imkanına malikdir. Bu prinsipin əsasında belə bir müddəa durur: «qanunla qadağan edilməyən hər şeyə icazə verilir».

Hüququn əsas prinsiplərindən digəri **ictimai ədalət** prinsipidir. Konkret hüquqi məsələnin həlli zamanı bu prinsipin, xüsusilə, böyük əhəmiyyəti vardır. Məsələn, inzibati xəta haqqında işə baxarkən müvafiq orqan ədalətli qərar çıxarmalıdır, məsələ ədalət mövqeyindən həll edilməlidir.

**Demokratizm** prinsipi də hüququn əsas prinsipi kimi tanınır. Bu prinsip onu ifadə edir ki, cəmiyyətdə şəxslər üçün demokratik hüquq və azadlıqlar müəyyən edilir, xalq hakimiyyəti tanınır və s.

**Humanizm** prinsipi də hüququn əsas prinsipləri sırasına aiddir. Bu prinsipə görə, cəmiyyətdə hüququn güddüyü məqsədin əsasında insan amili durur, insan haqları (hüquq və azadlıqları) qorunur, real surətdə təmin edilir və onlara hörmətlə yanaşılır. Belə ki, hər kəsin yaşamaq, şəxsi azadlıq, toxunulmazlıq və digər konstitusion hüquqları vardır.

Hüququn əsas prinsiplərindən biri də **bərabərlik** prinsipidir. Bu prinsipə əsasən, bütün vətəndaşlar irqindən, milliyyətindən, dinindən, mənşəyindən, əqidəsindən, qulluq mövqeyindən və digər hallardan asılı olmayaraq, qanun və məhkəmə qarşısında bərabərdir və heç kəsə bu məsələdə üstünlük verilmir, diskriminasiya (ayrı-seçkilik) yolverilməzdir.

**Hüquq və vəzifələrin birliyi** prinsipi də hüququn əsas prinsipləri sırasına aiddir. Bu prinsip onu ifadə edir ki, hüquqla tənzimlənən ictimai münasibətlərdə iştirak edən subyektlərin hüquq və vəzifələri arasında sıx qarşılıqlı əlaqə vardır; həmin prinsipə görə, hər hansı subyektin malik olduğu hüquqlar mütləq və hökmən başqa subyektlər üçün bu hüquqlarla bağlı vəzifələrin yaranmasına əsas olur. Belə ki, vəzifəsiz hüquq, hüquqsuz da vəzifə mövcud ola bilməz.

**Qanunçuluq** prinsipi də hüququn əsas prinsiplərindən biri kimi çıxış edir. Bu prinsip o mənanı bildirir ki, hüquqda ifadə olunan göstərişlərə hamı və hər kəs əməl etməlidir, onlar qanun qarşısında bərabərdirlər; həmin prinsip hüququn həyata keçirilməsini təmin edir.

Hüququn əsas prinsiplərindən biri də **təqsirə görə məsuliyyət** prinsipidir. Bu prinsip onu ifadə edir ki, yalnız hüquq pozuntusu törətməkdə təqsirli bilinən şəxs cinayət, mülki, inzibati və ya intizam məsuliyyətinə cəlb edilə bilər; təqsiri olmayan şəxs isə hüquq məsuliyyətinə cəlb edilə bilməz.

Barəsində söhbət açdığımız hüququn əsas prinsiplərinin polis-hüquq münasibətləri sferasında rolu və əhəmiyyəti şəksizdir. Təqdirəlayiq haldır ki, bu prinsiplər müvafiq polis qanunvericilik aktlarında (PQ, İXM, CM, YHQ və s.) öz normativ ifadəsini tapmış və polis hüququnda effektli şəkildə tətbiq edilir.

**Hüququn xüsusi prinsipləri** dedikdə hüququn ayrı-ayrı sahələrinə aid olan prinsiplər başa düşülür. Buna görə də onlara çox vaxt **hüququn sahəvi prinsipləri** də deyilir. Məsələn, konstitusiya hüququnun sahəvi prinsipləri, inzibati hüququn sahəvi prinsipləri, mülki hüququn sahəvi prinsipləri və s.

İnzibati hüququn nisbətən daha mühüm xüsusiyyətlərini və əsas cəhətlərini, onun spesifikasını müəyyənləşdirən əsas ideyalar və ümumi müddəalar inzibati hüququn sahəvi (xüsusi) prinsipləri adlanır. Bu prinsiplər yalnız, xüsusi olaraq, inzibati hüququn mahiyyətini, hüquqi təbiətini, sosial səmtini və başlıca sahəvi xüsusiyyətlərini ifadə edir. Ona görə də həmin prinsiplərə inzibati hüququn xüsusi (və ya sahəvi) prinsipləri deyilir. Başqa sözlə, inzibati hüququn sahəvi (xüsusi) prinsipləri yalnız inzibati hüquqa aid olub, onun spesifikasını müəyyənləşdirir. Bu prinsiplərin əhatə dairəsi kifayət qədər genişdir.

İnzibati hüquqa dair ədəbiyyat səhifələrində inzibati hüququn prinsiplərinin öz məzmun və məqsədlərinə görə iki qrupa bölünməsi göstərilir:[1]

- konstitusion (ümumi) prinsiplər (qanunçuluq, demokratizm, humanizm, bərabərlik, ədalətlilik, təqsirsizlik prezumpsiyası və s.);
- xüsusi prinsiplər (dövlət qulluğunun keçirilməsi prinsipləri, inzibati məsuliyyət prinsipləri, inzibati xətalar haqqında işlərin icraatı prinsipləri və s.)

Lakin, qeyd etmək lazımdır ki, inzibati hüququn yuxarıda göstərilən əksər konstitusion (ümumi) prinsipləri, bir az əvvəldə şərh etdiyimiz kimi, hüququn əsas prinsipləri sırasına daxildir. Bu səbəbdən də, onlar inzibati hüququn sahəvi prinsipləri deyil, sadəcə olaraq, inzibati hüquq sahəsində tətbiq edilən hüququn əsas prinsipləridir; çünki sözügedən prinsiplər, eyni zamanda, hüququn digər sahələrində də (məsələn, cinayət hüququ, mülki hüquq, əmək hüququ və s.) tətbiq olunur. Zənnimizcə, məsələyə belə yanaşma daha məqsədəuyğundur; həm də qeyd etmək vacibdir ki, inzibati hüququn sahəvi prinsipləri normativ qaydada, qanunvericilik səviyyəsində müəyyənləşdirilmiş, müvafiq hüquq normalarında ifadə olunmuşdur.

Sahəvi prinsiplərlə yanaşı, inzibati hüquqa **sahədaxili prinsiplər** də xasdır ki, bu prinsiplər inzibati hüququn yarımsahələrinin və institutlarının əsas xüsusiyyətlərini əks etdirir. Sahədaxili prinsiplər, əsasən, inzibati hüququn yarımsahələrinin, institutlarının mahiyyətini və hüquqi təbiətini açıqlayır, daha da konkretləşdirir. Məsələn, inzibati hüququn tərkibində özünə yer alan polis hüququ yarımsahəsinin özünəməxsus prinsipləri vardır ki, onları sahədaxili prinsiplər adlandırmaq lazımdır. Deməli, polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin tənzimlənməsində həm hüququn ümumi və əsas prinsipləri, həm də, eyni zamanda, polis

---

[1] *Məsələn, bax:* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.23-25; Abışov V.G., İsmayılov A.V., Eyvazov H.Q. İnzibati hüquq. Dərs vəsaiti. I hissə. Bakı, 2004, s. 52-55 və b.

hüququnun özünəməxsus sahədaxili prinsipləri iştirak edir. Belə ki, polis-hüquq münasibətlərini hüquqi tənzimetmə mexanizminə daxil olan sahədaxili prinsiplər, şübhəsiz, polis hüququnun əsasını təşkil edir.

**Polis hüququnun sahədaxili prinsipləri** dedikdə inzibati hüququn yalnız bu yarımsahəsinə xas olan və polis-hüquq münasibətlərini hüquqi tənzimetmənin spesifik rəhbər başlanğıcları başa düşülür. Polis hüququnun başlıca cəhət və xüsusiyyətləri öz əksini məhz həmin prinsiplərdə tapır; hüququn ümumi və əsas prinsipləri ilə yanaşı, həm də sahədaxili prinsiplərin köməyi və vasitəsilə polis hüququ öz funksiyasını yerinə yetirir.

Polis hüququnun sahədaxili prinsipləri polis haqqında qanunvericilik aktlarında təsbit olunmuşdur. Məsələn, polisin fəaliyyət prinsipləri sırasında hüququn əsas prinsipləri ilə yanaşı, eyni zamanda, sahədaxili prinsiplər konkret olaraq göstərilmişdir: təkbaşçılıq prinsipi (PQ, maddə 4), aşkarlıq prinsipi (PQ, maddə 6), polisin fəaliyyətinə müdaxilənin yolverilməzliyi prinsipi (PQ, maddə 8) və s.[1]

Əməliyyat-axtarış fəaliyyətində sahədaxili prinsiplər kimi konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması (ƏFQ, maddə 3) və s. prinsiplər yer almışdır.

Polis orqanlarında inzibati hüquqpozmalara qarşı fəaliyyət sahəsində sahədaxili prinsip qismində inzibati xətalar qanunvericiliyində ayrıca norma ehtiva olunur – inzibati xətaların qarşısının alınması prinsipi (İXM, maddə 10).[2]

---

[1] Polis fəaliyyətinin prinsipləri barədə toxunulur – *məsələn, bax:* Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.368-371; Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.33-40; Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. М., 2008, с.236-243; Правоохранительные органы России. Учебник/Под ред. В.П.Божьева М., 2010, с.199-223 və b.

[2] *İnzibati icraat sferasında sahədaxili prinsiplər barədə bax:* A.Abdullayev, E.Abdullayev. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı, 2007, s.42-85.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində sahədaxili prinsiplər kimi aşağıdakılar təsbit olunmuşdur: yol hərəkətində iştirak edən insanların həyat və sağlamlığının təsərrüfat fəaliyyətinin iqtisadi nəticələrindən üstünlüyü, dövlətin məsuliyyətinin insanların məsuliyyətindən üstünlüyü, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətə məqsədyönlü və kompleks yanaşma və s. prinsiplər[1] (YHQ, maddə 7).

İndi isə, gəlin, polis hüququnun sahədaxili prinsiplərindən bir neçəsinə toxunaq. Polis hüququnda **təkbaşçılıq** prinsipinin mahiyyəti ondan ibarətdir ki, polis əməkdaşı öz səlahiyyətlərini həyata keçirərkən bilavasitə və birbaşa rəisinə tabedir; o, həmçinin tabelik vertikalı üzrə yuxarı rəisin əmr və göstərişlərini icra etməyə, hər hansı vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə də xidmət üzrə tabeliyi olmayan polisin yuxarı rütbəli şəxsinin əmr və göstərişlərini icra etməyə borcludur. Eyni zamanda, polis əməkdaşı qanuna açıq-aşkar zidd olan əmr və ya göstəriş aldıqda qanunu rəhbər tutmalı, bu cür əmr və göstəriş barədə öz rəhbərliyinə məlumat verməlidir. Polis əməkdaşları öz vəzifələrini həyata keçirən zaman ayrıca əmr və ya göstəriş gözləmədən əməkdaşlıq etməyə, qarşılıqlı fəaliyət göstərməyə və bir-birinə hərtərəfli kömək etməyə borcludurlar.

Polis fəaliyyətində **aşkarlıq** prinsipi dedikdə polisin öz gördüyü işlər barədə dövlət orqanlarına və əhaliyə vaxtaşırı məlumat verməsi başa düşülür. Lakin polis əməkdaşı dövlət, ailə, peşə və kommersiya sirrini, prokurorun, müstəntiqin və ya məhkəmənin müvafiq icazəsi olmadan ibtidai və məhkəmə istintiq materiallarını, habelə insanların şəxsi həyatına, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə toxunan, onların ləyaqətini alçalda bilən məlumatları açıqlaya bilməz; bu, qanunla qadağan olunan haldır. Əgər fiziki və hüquqi şəxslər haqqında polisin yaydığı məlumatların həqiqətə uyğun olma-

[1] *Bu barədə ətraflı bax:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.46.

dığı müəyyənləşdirilərsə, onda polis bir ay müddətində həmin informasiyaları onların yayıldığı formada təkzib etməlidir.

Polisin fəaliyyətinə **müdaxilənin yolverilməzliyi** prinsipinin mahiyyəti ondan ibarətdir ki, qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, hər hansı şəxsin istənilən səbəbdən polisin qanuni fəaliyyətinə məhdudiyyət qoyması, təsir və müdaxilə etməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətə səbəb olur.

Polisin fəaliyyəti nəticəsində **inzibati xətaların qarşısının alınması** prinsipinin məna yükü onu əhatə edir ki, dövlət və ya yerli özünüidarəetmə orqanları (o cümlədən polis orqanları) inzibati xətaların qarşısının alınması, inzibati xətaların törədilməsinə kömək edən səbəblərin və şəraitin aşkar edilməsi və aradan qaldırılması, vətəndaşların hüquqi şüurunun və mədəniyyətinin yüksəldilməsi və qanunlara ciddi əməl etmək ruhunda tərbiyə olunması sahəsində müvafiq tədbirlər hazırlayırlar və həyata keçirirlər.

Beləliklə, şərh olunanları ümumiləşdirərək polis hüququnun özünəməxsus **sahədaxili prinsipləri** sırasında aşağıdakıları göstərmək mümkündür:

- polisin təkbaşçılıq prinsipi;
- polis fəaliyyətində aşkarlıq prinsipi;
- polisin fəaliyyətinə müdaxilənin yolverilməzliyi prinsipi;
- əməliyyat-axtarış fəaliyyətində konspirasiya prinsipi;
- əməliyyat-axtarış fəaliyyətində aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsipi;
- inzibati xətaların qarşısının alınması prinsipi;
- yol hərəkətində iştirak edən insanların həyat və sağlamlığının təsərrüfat fəaliyyətinin iqtisadi nəticələrindən üstünlüyü prinsipi;

– yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə görə dövlətin məsuliyyətinin yol hərəkətində iştirak edən insanların məsuliyyətindən üstünlüyü prinsipi;
– ictimai təhlükəsizliyinin təmin edilməsi zamanı insanların, cəmiyyətin və dövlətin mənafelərinə əməl olunması prinsipi;
– ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı fəaliyyətə məqsədyönlü və kompleks yanaşma prinsipi və s.

Göstərdiyimiz bu və digər sahədaxili prinsiplər sistem halında birləşərək polis hüququ yarımsahəsinin və onun institutlarının hüquqi təbiətini və spesifik cəhətlərini xarakterizə edir. Eyni zamanda, qeyd etmək lazımdır ki, bu sahədaxili prinsiplərin siyahısı qəti deyil, təxminidir. Çünki cəmiyyətdə ictimai-siyasi və sosial-iqtisadi təzahürlər nəzərə alınmaqla müvafiq ictimai münasibətlər (söhbət polis-hüquq münasibətlərindən gedir) inkişaf etdikcə, həmin münasibətləri hüquqi tənzimetmə mexanizminin yeni prinsiplərinin meydana çıxması mümkündür və bu, təbii haldır.

# II FƏSİL ÜZRƏ SXEM



# III FƏSİL. POLİS HÜQUQUNUN SUBYEKTLƏRİ

## 3.1. Polis hüququnun subyektləri anlayışı və ümumi xarakteristikası

İnzibati hüququn yarmsahələrindən biri olan polis hüququnun ümumi hissəsi bir neçə hüquq institutundan ibarətdir; **polis hüququnun subyektləri** həmin institutlardan biridir. Polis fəaliyyətinin həyata keçirilməsində bu institutun böyük əhəmiyyətə malik olması və mühüm rol oynaması şəksizdir. Belə ki, polis hüququnun nizamasalma predmetinə daxil olan və onunla tənzimlənən ictimai münasibətlər məhz polis hüququnun subyektləri arasında əmələ gəlir.

Subyektlər (subyekt tərkibi) polis-hüquq münasibətlərinin yaranmasının, eləcə də onların mövcud olmasının vacib şərti, mütləq və məcburi elementidir. Deməli, polis-hüquq münasibətlərinin subyektləri (latınca – **subjectum**) bu münasibətlərdə çıxış edən iştirakçılardır. Həmin münasibətlər isə ən azı iki subyekt arasında yaranır. Bu subyektlər polis-hüquq normalarına müvafiq olaraq, subyektiv hüquq və vəzifələrin daşıyıcılarıdırlar; onlar eyni zamanda qarşılıqlı hüquq və vəzifələrə malikdirlər.

Polis-hüquq münasibətlərində çıxış edən subyektlərdən birinin **hüquqları** vardır; bu subyektə **səlahiyyətli şəxs** deyilir. Sözügedən münasibətlərdə çıxış edən subyektlərdən digəri **vəzifələr** daşıyır. Bu subyektin üzərinə müəyyən hüquqi-vəzifələr düşür; o, həmin vəzifələri icra etməyə borcludur. Buna görə də həmin subyekt **borclu şəxs** adlanır. Belə münasibətlərdə çıxış edən səlahiyyətli şəxs borclu şəxsə qarşı durur; onların biri olmadan digəri bu münasibətlərdə subyekt kimi iştirak edə bilməz. Əgər subyektlər (söhbət polis fəaliyyətinin müxtəlif subyektlərindən – polis hakimiyyət orqanları, ictimai təşkilatlar,

fərdi müəssisələr, ayrı-ayrı şəxslər və sairədən gedir) olmazsa, onda, təbii ki, polis-hüquq münasibətləri də əmələ gələ bilməz.

Dövlətin icra hakimiyyəti strukturunda polis fəaliyyətini daxili işlər orqanları (polis orqanları) həyata keçirir. İnzibati xətaların və cinayətlərin qarşısının alınması, profilaktikası, müxtəlif inzibati məcburetmə ölçülərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məhz polis fəaliyyətinin reallaşdırılması nəticəsində mümkün olur; belə fəaliyyət olmadan dövlətin özü və onun icra hakimiyyəti hüquqi cəhətdən heç nədir, əhəmiyyətsizdir.

Polis hüququnun subyektləri institutunun özünə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu institut «polis hüququnun subyektləri» ilə bağlı məsələləri tənzimləyir.

**Polis hüququnun subyektləri institutu** dedikdə polis-hüquq münasibətləri iştirakçılarının hüquqi statusunu, onların hüquq və vəzifələrini müəyyənləşdirən hüquq normalarının məcmusu başa düşülür.

Polis hüququnun sözügedən institutu onun ümumi, habelə xüsusi hissəsinin digər institutları ilə sıx surətdə əlaqədədir. Onların hamısı birlikdə polis hüququnu formalaşdırır.

Əgər hər hansı subyekt polis hüququ ilə tənzimlənən ictimai münasibətlərdə iştirak edərsə və bunun üçün lazım olan hüquq və vəzifələrə malik olarsa, o, polis hüququnun subyekti sayılır. Buna görə də polis-hüquq münasibətlərinin müəyyən hüquq və vəzifələrə malik olan iştirakçıları polis hüququnun subyektləri sırasına aid edilir.

**Polis hüququnun subyektləri** dedikdə polis-hüquq münasibətlərinin elə mümkün iştirakçıları başa düşülür ki, bundan ötrü onlar müvafiq hüquq və vəzifələrə malik ola bilirlər.

Hər hansı qurumun (orqan, təşkilat, şəxs və s.) polis hüququnun subyekti kimi tanınması həmin qurumun nə hüquqi status və təbiətindən, nə də onun malik olduğu müvafiq hüquq və vəzifələrin həcmindən asılıdır. Əsas və başlıca şərt ondan

ibarətdir ki, belə qurum polis hüququ ilə bilavasitə tənzimlənən münasibətlərdə iştirak etmək qabiliyyətinə və imkanına malik olmalıdır.

«Polis hüququnun subyektləri» anlayışı «polis-hüquq münasibətlərinin subyektləri» anlayışından fərqlənir. Belə ki, **polis hüququnun subyektləri** dedikdə, bir az əvvəldə qeyd etdiyimiz kimi, elə qurumlar və şəxslər başa düşülür ki, onların polis-hüquq münasibətlərində iştirak etmək qabiliyyəti vardır. **Polis-hüquq münasibətlərinin subyektlərinə** gəldikdə isə, qeyd etmək lazımdır ki, onlar həmin münasibətlərin real iştirakçılarıdır; polis hüququnun subyektləri belə münasibətlərin real deyil, mümkün (potensial) iştirakçılarıdır. Onların arasında mövcud olan münasibət fəlsəfi planda «imkan» və «gerçəklik» kimi kateqoriyalar arasındakı əlaqə kimidir. Əgər «polis hüququnun subyektləri» imkandırsa, «polis-hüquq münasibətlərinin subyektləri» gerçəklikdir, reallıqdır. Bu baxımdan, müəlliflərdən R.O.Xalfina düzgün olaraq qeyd edir ki, «hüquq münasibətinin iştirakçısı» anlayışı artıq «hüququn subyekti» anlayışıdır.[1]

Bu və ya digər qurumun, şəxsin polis hüququnun subyekti kimi tanınması üçün onun **hüquq subyektliyinə** malik olması tələb edilir. Hüquq subyektliyi (o cümlədən polis hüquq subyektliyi) şəxslərin özündən ayrılmaz olub, onların ictimai-hüquqi xüsusiyyətidir.[2]

**Polis hüquq subyektliyi** dedikdə polis-hüquq normaları ilə tənzimlənən ictimai münasibətlərdə, yəni polis-hüquq münasibətlərində subyektlərin iştirak etmək qabiliyyəti (imkanı) başa düşülür. Başqa sözlə, polis hüquq subyektliyi polis hüququnun subyekti olmaq imkanı, müvafiq hüquq və vəzifələr daşımaq, onları həyata keçirmək qabiliyyəti deməkdir.

Polis hüquq subyektliyi **ümumiləşdirilmiş anlayışdır**. Bu o deməkdir ki, onun strukturu ayrı-ayrı elementlərdən ibarətdir.

---

[1] *Bax:* Халфина Р.О. Общее учение о правоотношениях. М., 1974, с.115.
[2] *Bax:* Алексеев С.С. Общая теория права. Том 2. М., 1982, с.139.

Belə ki, polis hüquq subyektliyi özündə üç əsas struktur elementi birləşdirir. Həmin struktur elementlər sırasında aşağıdakıları fərqləndirmək mümkündür:[1]

- polis hüquq qabiliyyəti;
- polis fəaliyyət qabiliyyəti;
- polis delikt qabiliyyəti.

**Polis hüquq qabiliyyəti** dedikdə polis hüquq subyektinin müvafiq hüquqlara malik olmaq və vəzifələr daşımaq qabiliyyəti başa düşülür; əgər polis hüquq subyekti müvafiq hüquq və vəzifələr daşımaq imkanına (burada söhbət hüquqi imkandan gedir) malik olarsa, bu o deməkdir ki, həmin subyekt polis hüquq qabiliyyətlidir. Deməli, «polis hüquq subyekti» anlayışı üçün xarakterik olan əsas əlamətlərdən biri onun müvafiq hüquq və vəzifələr daşıyıcısı olmaq imkanıdır.

**Polis fəaliyyət qabiliyyəti** dedikdə polis hüquq subyektinin öz hərəkətləri ilə müvafiq hüquqlar əldə etmək və həyata keçirmək, müvafiq vəzifələr yaratmaq və icra etmək qabiliyyəti başa düşülür.

Polis hüquq qabiliyyəti özündə **iki elementi** birləşdirir ki, həmin elementlər bunlardan ibarətdir:

- müvafiq hüquqlara malik olmaq qabiliyyəti;
- müvafiq vəzifələr daşımaq qabiliyyəti;

Polis fəaliyyət qabiliyyətinə gəldikdə isə, qeyd etmək lazımdır ki, o, polis hüquq qabiliyyətindən fərqli olaraq, özündə **dörd elementi** birləşdirir:

---

[1] İnzibati hüquq ədəbiyyatında bəzi müəlliflər tərəfindən subyektlərin inzibati-hüquqi statusunun dörd elementi (hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, hüquq və vəzifələr, məsuliyyət) göstərilir *(məsələn, bax:* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.49; Abdullayev E.İ. İnzibati hüquq. Dərslik. Bakı, 2001, s.650). Hesab edirik ki, «hüquq qabiliyyəti» elementi elə, mahiyyətcə, «hüquq və vəzifələr» elementini də əhatə edir; ona görə də sözügedən statusun üç elementdən ibarət olmasını söyləmək daha dəqiq olardı.

- öz hərəkətləri ilə müvafiq hüquqlar əldə etmək qabiliyyəti;
- əldə etdiyi müvafiq hüquqları həyata keçirmək qabiliyyəti;
- öz hərəkətləri ilə özü üçün müvafiq vəzifələr yaratmaq qabiliyyəti;
- özü üçün yaratdığı müvafiq vəzifələri icra etmək qabiliyyəti.

Polis hüquq subyektləri polis-hüquq normaları əsasında öz polis fəaliyyət qabiliyyətini realizə edirlər, yəni müvafiq hüquqlar əldə edir, özləri üçün müvafiq vəzifələr yaradırlar. Buna görə də, polis-hüquq normaları onlar üçün müvafiq hüquqlar əldə etmək və müvafiq vəzifələr yaratmaq baxımından, əsas hüquqi vasitədir; həmin normalara əsasən, bu və ya digər qurum, şəxs polis hüququnun subyekti kimi tanınır. Odur ki, polis-hüquq normaları polis hüquq subyektlərinin fəaliyyətinin məcburi əsasını təşkil edir. Doğrudan da polis-hüquq normaları əsasında bu və ya digər qurumun, şəxsin subyekt kimi tanınma xüsusiyyəti polis hüquq subyektləri üçün xarakterik olan əsas əlamətlərdən biridir. Başqa sözlə, polis fəaliyyət qabiliyyəti polis hüquq subyektlərinin əsas xüsusiyyətlərindən biri sayılır. Əgər subyekt polis-hüquq münasibətlərində iştirak etmək imkanına malik olarsa, deməli, o, polis fəaliyyət qabiliyyətlidir. Buna görə də polis-hüquq münasibətlərində iştirak etmək qabiliyyəti polis fəaliyyət qabiliyyətinin məzmununu təşkil edən başlıca ünsür – tərkib hissədir.

Polis hüquq subyektliyinin üçüncü əsas struktur elementi, yuxarıda qeyd etdiyimiz kimi, polis delikt qabiliyyəti sayılır. **Polis delikt qabiliyyəti** dedikdə polis hüquq subyektlərinin öz törətdikləri müvafiq hüquq pozuntusuna görə hüquqi məsuliyyət daşımaq qabiliyyəti başa düşülür. Belə qabiliyyətə malik olduğu üçün polis hüquq subyektləri başqa subyektlərə vurduğu zərərin əvəzini ödəyirlər.

Əgər bu və ya digər qurum, şəxs göstərdiyimiz hər üç qabiliyyətə malik olarsa, bu onu ifadə edir ki, həmin qurumun (şəxsin) polis hüquq subyektliyi vardır; buna görə də o, polis hüququnun subyekti kimi tanınır.

### 3.2. Polis hüququ subyektlərinin növləri

Polis hüququ subyektlərinin və onların hüquq subyektliyinin struktur elementlərinin mahiyyətinə aydınlıq gətirdikdən sonra, təbii ki, belə bir əsaslı sual ortaya çıxır: bəs hansı qurumlar (şəxslər) konkret olaraq polis hüquq subyektliyinə malikdirlər, polis hüququ subyektlərinin hansı növləri mövcuddur?

Məlum məsələdir ki, bu suala verilən cavabdan asılı olaraq, polis hüquq subyektlərinin dairəsini dəqiq müəyyənləşdirə bilərik; polis hüquq subyektlərinin dairəsini müəyyənləşdirmək isə vacib məsələdir. Belə ki, hüquq nəzəriyyəsində, eləcə də inzibati hüquq doktrinasında (elmində) söylənilən fikrə və onun təhlilinə əsaslanaraq, belə bir hüquqi model formalaşdıra bilərik: polis hüququnun subyektləri yalnız inzibati hüququn subyektlərindən ibarətdir. Başqa sözlə, inzibati hüququn subyektləri həm də, eyni zamanda, polis hüququnun subyektləri kimi (aidiyyəti üzrə) tanınır, çünki polis hüququ, əvvəllərdə qeyd etdiyimiz kimi, inzibati hüququn yarımsahəsidir. Söylənilən bu elmi-nəzəri fikir xüsusilə əhəmiyyətlidir.

Bildiyimiz kimi, polis hüququnun başlıca funksiyası polis-hüquq münasibətlərini tənzimləməkdən ibarətdir. Polis-hüquq münasibətləri isə, məlum məsələdir ki, inzibati (polis) yurisdiksiya çərçivəsində həyata keçirilir; məsələn, inzibati xəta törətmiş şəxslərə qarşı inzibati tənbehlərin tətbiq edilməsi (cərimə, inzibati həbs, xüsusi hüquqların məhdudlaşdırılması və s.) zamanı bu məqam daha aydın görünür.

Hüquq elmində, ənənəvi olaraq, inzibati hüququn subyekti kimi **aşağıdakılar** fərqləndirilir:[1]

– inzibati hüququn fərdi subyektləri;

– icra hakimiyyəti orqanları;

– dövlət qulluğu xidməti və dövlət qulluqçuları;

– inzibati hüququn kollektiv subyektləri.

Buna uyğun olaraq, qeyd edə bilərik ki, inzibati hüququn ümumi hissəsində özünə «institut» statusunda yer alan həmin subyektlər eyni zamanda inzibati hüququn yarımsahəsi olan polis hüququna da şamil olunur və onun subyekti hesab edilir. Odur ki, polis hüququnun subyektləri yuxarıda göstərilən qurum və şəxslərdən ibarətdir.

Beləliklə, qeyd etmək lazımdır ki, polis hüququnun subyektləri kimi **fərdi subyektlər, kollektiv subyektlər, icra hakimiyyəti orqanları, dövlət qulluğu xidməti və dövlət qulluqçuları** tanınır.

Polis hüququnun əsas məsələlərindən biri polis fəaliyyətinin normal həyata keçirilməsinin təmin olunması, belə fəaliyyətin hüquqi cəhətdən nizama salınması və tənzimlənməsindən ibarətdir. Polis fəaliyyəti isə müxtəlif subyektlər (fərdi subyektlər, icra hakimiyyəti orqanları, kollektiv subyektlər və s.) tərəfindən həyata keçirilir. Bu subyektlər bütövlükdə və məcmu şəklində polis fəaliyyəti subyektlərinin müəyyən sistemini təşkil edir ki, həmin sistemdə əsas və müəyyənedici yeri **icra hakimiyyəti orqanına mənsub olan polis orqanları** tutur. Polis hüququnun subyekti kimi icra hakimiyyəti orqanları (polis orqanları) polis fəaliyyətinin təmin olunmasında vacib rol oynayır. Dövlətin icra hakimiyyətində polis funksiyası məhz onun polis orqanları vasitəsilə həyata keçirilir. Polis orqanları, ənənəvi olaraq, icra hakimiyyəti orqanları sistemində xüsusi keşik-nəzarət və məcburetmə funksiyalarını yerinə yetirən or-

---

[1] *Bax: məsələn,* Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, Ümumi hissə, III bölmə, s.49-115 və b.

qanlar (daxili işlər orqanları) qrupu şəklində yaradılır. Polis orqanlarının hüquqi əsasları PQ-də və digər normativ aktlarda öz əksini tapmışdır.

Polis hüququ subyektlərinin digər növü fərdi subyektlərdir. **Polis hüququnun fərdi subyektləri** dedikdə mövcud qanunvericiliyə müvafiq olaraq, polis-hüquq normaları ilə (polis hüququ ilə) nizama salınan ictimai münasibətlərin iştirakçıları ola bilən şəxslər başa düşülür. Vətəndaşların hüquqi statusunun əsasları Azərbaycan Respublikasının Konstitusiyasında və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuşdur.

Polis hüququ subyektlərinin başqa növü kollektiv subyektlər sayılır. **Kollektiv subyektlər**, bir qayda olaraq, digər subyektlərlə münasibətdə tam bir vahid kimi çıxış etmək hüququna malik olan insanların mütəşəkkil, əlahiddə, özünüidarə qruplarıdır; onlar, adətən, müəyyən maraq və ya məqsəd əsasında birləşmiş, funksional baxımdan təbəqələşmiş halda təşkil olunur, qanuni əsaslarla fəaliyyət göstərir, öz idarəetmə mexanizminə malik olur və idarəetmədə hər bir şəxsin konkret rolu müəyyənləşdirilir. Kollektiv subyektlərin təşkilati-hüquqi formaları MM-də və digər qanunvericilik aktlarında təsbit olunmuşdur.

Nəhayət, polis hüququ subyektlərinin daha bir növü kimi dövlət qulluğu xidməti (orqanı) və dövlət qulluqçuları tanınır. **Dövlət qulluğu** müvafiq qanunvericilik aktlarına uyğun olaraq, dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində **dövlət qulluqçularının** öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi deməkdir. Məsələn, polis əməkdaşı – polis orqanlarında müəyyən vəzifə tutan və qanunla müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən şəxs dövlət qulluqçusudur (PQ, maddə 1). Dövlət qulluğunun hüquqi əsasını «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlar təşkil edir.

Polis hüququnun subyektlərini ayrı-ayrı meyarlar baxımından da müxtəlif növlər üzrə fərqləndirmək mümkündür. **Hüquqi təbiət meyarı** üzrə onları iki yerə bölmək olar:

– dövləti xarakterli subyektlər;

– qeyri-dövlət xarakterli subyektlər.

Polis fəaliyyəti sahəsində dövlətin adından çıxış edən və geniş dövlət-hakimiyyət səlahiyyətlərinə malik olan orqanlara polis hüququnun **dövləti xarakterli subyektləri** deyilir. Belə subyektlərə aiddir: polis orqanları, o cümlədən yol patrul xidməti, post patrul xidməti və digər icra hakimiyyəti orqanları. Həmin subyektlərin mühüm fərqləndirici əlaməti bu sahədə çalışan əməkdaşların peşəkarlığıdır; onlar, adətən, xüsusi ali təhsil müəssisələrində müvafiq hazırlıq keçirlər.

Polis hüququnun **qeyri-dövlət xarakterli subyektləri** sırasında aşağıdakıları göstərmək olar: fərdi subyektlər, kollektiv subyektlər; məsələn, ictimai əmək kollektivləri, könüllü xalq drujinaçıları, xüsusi detektiv və mühafizə müəssisələri, habelə ayrı-ayrı vətəndaşlar bu kateqoriyadan olan subyektlərə daxildir. Qeyri-dövlət xarakterli polis hüquq subyektlərinin fəaliyyət göstərməsi müəyyən obyektiv səbəblərlə şərtlənir. Belə ki, dövlət tərəfindən asayişin qorunması, cinayətlərin açılması və s. məqsədlərlə ictimai əhəmiyyətli bütün yerlərin polis naryad və postları ilə təmin edilməsi problem məsələdir. Buna görə də dövlət bu vəzifələrin yerinə yetirilməsində ayrı-ayrı vətəndaşların, ictimai birliklərin və müxtəlif fərdi strukturların köməklik və imkanlarından istifadə edir.

Polis hüququnun subyektlərini **səlahiyyət xarakteri meyarı** üzrə iki növə ayırmaq olar:

– ümumi xarakterli subyektlər;

– ixtisaslaşdırılmış subyektlər.

Polis hüququnun **ümumi xarakterli subyektlərinə** aşağıdakıları aid etmək olar: daxili işlər orqanları və onların polis xidmət sahələri (məsələn, post patrul xidməti, yol patrul xidməti, polis sahə müvəkkilləri və s. xidmətlər). Göstərilən polis strukturlarının fəaliyyəti universallıq, sosial həyatın müxtəlif sferalarına şamil olunma, ilk növbədə, ictimai qaydanın və ictimai

təhlükəsizliyin qorunmasına cəmlənmə kimi əlamətlərlə səciyyələnir.

Polis hüququnun **ixtisaslaşdırılmış subyektlərinə** xüsusi təyinatlı polis strukturları aiddir. Belə subyektlərin fəaliyyəti «sahəvi istiqamət» xarakteri daşıyır və polis fəaliyyəti obyektlərinin spesifikliyi nəzərə alınmaqla, qanunla müəyyənləşdirilmiş sferada həyata keçirilir.

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, polis hüququ subyektlərinin digər meyarlar üzrə də təsnif olunması və ya qruplaşdırılması mümkündür. Bu, zənn edirik ki, gələcəkdə polis hüququ sahəsində elmi tədqiqat işlərinin ayrıca predmeti ola bilər.

### 3.3. Polis orqanları polis hüququnun əsas subyekti kimi

Polis orqanları polis hüququnun əsas və başlıca subyekti kimi polis fəaliyyətinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Polis orqanlarının dairəsi kifayət dərəcədə genişdir və öz tərkibində müxtəlif hakimiyyət strukturlarını ehtiva edir.

**Polis orqanları** dedikdə Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanı başa düşülür. Polis orqanlarının hüquqi statusu polis haqqında qanunvericilik aktları ilə müəyyənləşdirilir.

Polis orqanlarını polis hüququnun subyekti qismində xarakterizə edərkən qeyd olunmalıdır ki, bu orqanlar **icra hakimiyyəti orqanı**[1] olmaqla, ona xas olan bütün əlamətlərə malikdir. Bu baxımdan, göstərə bilərik ki, polis orqanlarının aşağıdakı **əlamətləri** vardır:

---

[1] *İcra hakimiyyəti orqanlarının anlayışı, növləri və hüquqi statusu barədə bax:* Abdullayev A., Hacıyev F. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.57-68.

- polis orqanları icra hakimiyyətinin müvafiq vəzifə və funksiyalarını həyata keçirən (reallaşdıran) dövlət aparatının nisbətən müstəqil (muxtar) hissəsidir;
- polis orqanları dövlət qulluqçularının mütəşəkkil kollektividir, həm də hər bir qulluqçu bu orqanın səlahiyyətlərinin müəyyən hissəsini həyata keçirir;
- polis orqanları müəyyən həcmdə dövlət-hakimiyyət səlahiyyətləri ilə təmin olunmuşdur;
- polis orqanları öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün müvafiq zəruri əmlaka malikdir;
- polis orqanları öz fəaliyyətinin ərazi miqyasına (hüdudlarına) malikdir;
- polis orqanları icra hakimiyyətinə hesabat verən və tabe olan təşkilatdır.

Qeyd olunanlarla yanaşı, polis fəaliyyətini həyata keçirən polis orqanları subyekt kimi bir sıra **xüsusiyyətlə** fərqlənir.

**Birinci,** polis orqanları daha çox xarakterik cəhətlərə malikdir. Belə ki, polis orqanları cəmiyyət və dövlətin təhlükəsizliyi baxımından, xüsusi dəyər və mühüm əhəmiyyət kəsb edən müəyyən obyektləri qoruyan mühafizə orqanıdır. Deməli, bu planda polis orqanları hüquq-mühafizə orqanıdır. Eyni zamanda hüquq-mühafizə orqanlarının hüquqi vəziyyətinin (statusunun) təhlili belə nəticəyə gəlməyə imkan verir ki, polis orqanları müəyyən obyektləri hər hansı qəsdlərdən qorumaq funksiyasını yerinə yetirmək məqsədilə belə hallara reaksiya göstərməyə borcludur. Belə reaksiya isə, aydın məsələdir ki, keşik-nəzarət fəaliyyəti formasında təzahür edir. Bu o deməkdir ki, bütün polis orqanları, mahiyyətcə, hüquq-mühafizə və keşik-nəzarət orqanıdır.

**İkinci xüsusiyyət** ondan ibarətdir ki, polis orqanları spesifik dövlət-hakimiyyət səlahiyyətlərinə malikdir. Belə ki, polis orqanları onlara verilmiş polis hakimiyyəti funksiyasını həm subordinasiya vertikalı üzrə orqanın daxilində, həm də ondan kənarda – təşkilati qayda və qanunlara riayət etməyən sub-

yektlərə (fiziki və hüquqi şəxslərə) şamil etməklə həyata keçirir. Başqa sözlə, polis dövlət-hakimiyyət səlahiyyətləri «fövqəlidarə» xarakterə malikdir. Məsələn, polis orqanlarının öz səlahiyyətlərinə dair qəbul etdiyi qərarların digər idarə (təşkilat) tərəfindən icrasının məcburiliyi, polis orqanlarının öz səlahiyyətləri daxilində bütün obyektlər üzərində keşik-nəzarət hüququna malik olması, polis orqanlarının öz səlahiyyətlərinə aid olan məsələlər üzrə digər müəssisə və təşkilatlardan müvafiq hərəkətlərin polislə razılaşdırılmasını tələb etmək hüququna malik olması və s. hallar göstərdiyimiz «fövqəlidarə» xarakterə bariz nümunədir.

Polis orqanlarının **üçüncü xüsusiyyəti** onlar tərəfindən məcburi təsir tədbirlərinin tətbiq edilməsi hüququna toxunur. Məlum olduğu kimi, polis orqanları inzibati hakimiyyət orqanı qismində «məcburi hakimiyyət» tədbirlərini həyata keçirir. Doğrudan da, hüquq-mühafizə orqanları sistemində polis orqanı məcburi təsir tədbirlərinin görülməsi baxımından, xüsusilə, ayrılır. Məsələn, insan həyatına qəsd olunduqda və məcburi dayandırma vasitələrinin tətbiqi nəticə vermədikdə polis orqanı əməkdaşlarının odlu silahdan istifadə etmək hüququna malik olması (PQ, maddə 26, IV hissə) buna misaldır. Polis orqanının qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiq edilməsi səlahiyyətlərinə malik olması dövlətin hüquq-mühafizə orqanları sistemində onun tamamilə xüsusi yer tutması fikrini söyləməyə imkan verir. Deməli, polis orqanları icra hakimiyyəti sisteminə daxil olan dövlət hüquqməcburetmə orqanıdır.

Polis orqanlarının **dördüncü xüsusiyyəti** onların ümumi vəzifələri və daha çox daimi, fasiləsiz fəaliyyət göstərməsi amili ilə bağlıdır. «Fasiləsiz fəaliyyət göstərmək» əlamətinə görə, icra hakimiyyəti orqanları (söhbət polis orqanlarından gedir) qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarından fərqlənir. Bu, aydın məsələdir. Belə ki, əgər qanunverici orqan vaxtaşırı fəaliyyət göstərərək, sessiyalar müddətində işləyirsə, icra hakimiyyəti orqanları isə daimi fəaliyyət göstərir, onların işi

bir gün də olsa belə dayanmır. Polis orqanları üçün qorunan obyektlərin spesifikası baxımından, «fasiləsiz fəaliyyət göstərmək» prinsipi mütləq əhəmiyyət kəsb edir; bu orqanlar, bir qayda olaraq, gecə-gündüz işləyirlər: məsələn, daxili işlər orqanları, post patrul xidməti, yol patrul xidməti və s. orqanların fasiləsiz fəaliyyəti nəticəsində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi həyata keçirilir.

Polis orqanları subyektini səciyyələndirən daha bir xüsusiyyət, **beşinci xüsusiyyət** ondan ibarətdir ki, polis orqanları öz fəaliyyətini yuxarı təşkilatların (vertikal orqanların) rəhbərliyi altında, həmçinin belə fəaliyyəti horizontal regional və yerli hakimiyyət orqanları ilə razılaşdırmaqla həyata keçirirlər. Polis orqanlarında tabeçilik xüsusi xarakter daşıyır; idarə tabeçiliyi üstünlük təşkil edir. Bununla yanaşı, eyni zamanda Azərbaycan Respublikasının polis orqanları sisteminə yerli administrasiyanın tərkibində ikiqat tabeçilik prinsipi əsasında fəaliyyət göstərmək kimi əlamət də xasdır (məsələn, şəhər/rayon polis orqanlarının fəaliyyəti).

Polis hüququnun subyekti kimi polis orqanları müəyyən dövlət-hakimiyyət səlahiyyətlərinə malikdirlər. Onların malik olduqları **dövlət-hakimiyyət səlahiyyətlərinin həcminə** görə, iki növü fərqləndirilir:

- tam hakimiyyət səlahiyyətli;
- məhdud hakimiyyət səlahiyyətli.

**Tam hakimiyyət səlahiyyətli** polis orqanlarının hüquqi vəziyyəti belə bir xüsusiyyətlə xarakterizə olunur ki, onlar bütün polis səlahiyyətlərinə malikdir, yəni universal polis hüquq subyektliyinə malikdirlər. Məsələn, kəskin polis tədbirləri tətbiq etmək, qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada cinayət və ya digər hüquqpozma törətmiş, yaxud törədilməsində şübhələnilən şəxsləri tutmaq (PQ, maddə 17), fiziki qüvvə, xüsusi vasitə və ya odlu silah tətbiq etmək (PQ, maddə 26) və s. səlahiyyətlərə malik olmaq.

**Məhdud hakimiyyət səlahiyyətli** polis orqanları polis səlahiyyətlərinə məhdud həcmdə malik olurlar, onlara məhdud polis hüquq subyektliyi əlaməti xasdır. Polis fəaliyyətinin belə subyektlərinin, adətən, «kəskin» polis tədbirləri (məsələn, şəxslərin tutulması və s.) tətbiq etmək səlahiyyətləri olmur. Bu orqanlar, bir qayda olaraq, «kəsik» polis səlahiyyətlərinə malikdirlər (məsələn, xüsusi icazə – lisenziya, qeydiyyat və bu qəbildən olan digər fəaliyyət növlərini həyata keçirən polis orqanları).

Polis orqanlarını həm də eyni zamanda onların əməkdaşlarının **subordinasiya xarakteri və intizam məsuliyyəti** növləri üzrə fərqləndirmək olar. Bu meyara görə, polis orqanları iki yerə bölünür:

– mülki, yəni qeyri-hərbi (belə polis orqanlarında mülki şəxslər də xidmət aparırlar; məsələn, pasportçu, uçot üzrə inspektor və s.);
– militarist (bu polis orqanlarında yalnız xüsusi rütbə, geyim forması və digər zahiri atributlara malik olan şəxslər, hərbi şəxslər xidmət aparırlar; məsələn, daxili qoşunlar xidmət sahəsi).

Azərbaycan Respublikasının ərazisində polis orqanlarının fəaliyyətinə ümumi rəhbərliyi «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi» (DİN) həyata keçirir. **DİN** – Azərbaycan Respublikasında ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

DİN-in **hüquqi statusu** Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamə ilə tənzimlənir. Polis hüququnun əsas və başlıca subyektlərindən biri kimi DİN öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Preziden-

tinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, sözügedən Əsasnaməni, habelə Nazirliyin normativ hüquqi aktlarını rəhbər tutur (Əsasnamə, bənd 1.2).

DİN ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyində olan orqanlar vasitəsi ilə həyata keçirir.[1] DİN-in **strukturu** baş vermiş son dəyişikliklər nəzərə alınmaqla aşağıdakılardan ibarətdir:[2]

1. Rəhbərlik;
2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Aparatı;
3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sisteminə daxil olan qurumlar.

DİN-in strukturunda **Rəhbərlik** nazir, nazirin birinci müavini və dörd nazir müavinindən (o cümlədən bir nazir müavini həm də Daxili Qoşunların komandanıdır, digər nazir müavini isə həm də Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisidir) ibarətdir.

DİN-in strukturunda **Aparat** aşağıda göstərilən baş idarə, idarə və şöbədən təşkil olunmuşdur;

– Katiblik (baş idarə səlahiyyətli);

---

[1] *DİN-in funksiyaları, vəzifələri, hüquqları və fəaliyyətinin təşkili barədə ətraflı bax:* «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamə, 2001-ci il.

[2] *Bax:* «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25.06.2011-ci il tarixli 453 nömrəli Fərmanı // AR QT, 2011, № 6, maddə 508 (DİN-in 29.06.2011-ci il tarixli 412 nömrəli əmri ilə respublika daxili işlər orqanlarında elan olunmuşdur); həmçinin 07.05.2013-cü il tarixli 890 nömrəli Fərman (DİN-in 10.05.2013-cü il tarixli Ə345-001-13 nömrəli əmri ilə elan edilmişdir).

– Baş Təşkilat-İnspeksiya İdarəsi;
– Növbətçi Hissələri İdarəetmə Xidməti (idarə səlahiyyətli);
– Baş Cinayət Axtarış İdarəsi;
– Baş İstintaq və Təhqiqat İdarəsi;
– Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi;
– Baş Narkotiklərlə Mübarizə İdarəsi;
– Daxili Təhlükəsizlik İdarəsi;
– Xüsusi Əməliyyat-Axtarış Tədbirləri Baş İdarəsi;
– İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi;
– Kriminalistik Tədqiqatlar İdarəsi;
– Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi;
– Baş İctimai Təhlükəsizlik İdarəsi;
– Daxili Qoşunların Baş İdarəsi;
– Nəqliyyatda Baş Polis İdarəsi;
– Baş Dövlət Yol Polisi İdarəsi;
– Baş Mühafizə İdarəsi;
– Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi;
– Səfərbərlik İşləri və Mülki Müdafiə İdarəsi;
– Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu (baş idarə səlahiyyətli);
– Baş Kadrlar İdarəsi;
– Daxili Təhqiqatlar İdarəsi;
– Şəxsi Heyətlə İş İdarəsi;
– Beynəlxalq Əməkdaşlıq İdarəsi;
– Baş İnformasiya Kommunikasiya İdarəsi;
– Mətbuat Xidməti (idarə səlahiyyətli);
– Maliyyə-Plan İdarəsi;

– Maddi-Texniki Təminat Baş İdarəsi;
– Tibb İdarəsi;
– Komendant Xidməti (idarə səlahiyyətli);
– İdman Cəmiyyəti (idarə səlahiyyətli) və s.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sistemınə daxil olan **qurumlar** dedikdə aşağıdakılar başa düşülür:

– Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi;
– Daxili Qoşunların hərbi hissə və bölmələri;
– Daxili Qoşunların Ali Hərbi Məktəbi;
– Polis Akademiyası (baş idarə səlahiyyətli);
– Sıravi və kiçik rəis heyəti hazırlayan Məktəb;
– Bakı Şəhər Baş Polis İdarəsi;
– Gəncə Şəhər Baş Polis İdarəsi;
– nizami polis hissələri;
– digər ərazi və ixtisaslaşdırılmış polis orqanları və qurumlar.

DİN-in strukturuna aid olan Daxili Qoşunların hüquqi statusu «Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (1994-cü il) tənzimlənir.[1] Azərbaycan Respublikasının Daxili Qoşunları onlara həvalə olunmuş vəzifələri yerinə yetirməklə şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquq və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qoruyur.

DİN-in Aparatının və digər struktur hissələrinin hüquqi statusu Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnaməyə müvafiq olaraq, təsdiq edilmiş norma-

---

[1] Bu Qanun Azərbaycan Respublikasının Prezidenti tərəfindən 08.02.1994-cü il tarixdə imzalanmışdır // ASM, 1994-cü il, № 17, maddə 233.

tiv aktlarla müəyyənləşdirilir. Bu sırada, məsələn, aşağıdakıları göstərmək olar:

- Azərbaycan Respublikasının DİN-in Baş Dövlət Yol Polisi İdarəsi haqqında Əsasnamə (DİN-in 06.12.2001-ci il tarixli 474 nömrəli əmri ilə təsdiq edilmişdir);
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsi haqqında Əsasnamə (DİN-in 01.10.2009-cu il tarixli 564 nömrəli əmri ilə təsdiq edilmişdir);
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsi haqqında Əsasnamə (DİN-in 05.01.2010-cu il tarixli 3 nömrəli əmri ilə təsdiq edilmişdir);
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Təhqiqatlar İdarəsi haqqında Əsasnamə (DİN-in 17.08.2015-ci il tarixli Q25-001-15 nömrəli qərarı ilə təsdiq edilmişdir) və s.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sisteminə daxil olan digər qurumların, məsələn, ərazi polis orqanlarının fəaliyyətinin normativ hüquqi əsasları, idarəçilik və təşkilatçılıq işi DİN tərəfindən təsdiq olunmuş müvafiq əsasnamə və təlimatlarla nizama salınır:

- Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnamə (DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir, əmrə 1 nömrəli əlavə);
- Şəhər, rayon, nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında Təlimat (DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir, əmrə 2 nömrəli əlavə);
- Şəhər, rayon, nəqliyyatda polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə Bölgüsü (DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir, əmrə 3 nömrəli əlavə) və s.

Polis orqanlarının fəaliyyətinin **beynəlxalq standartlara** uyğun təkmilləş-dirilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 29.06.2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondu haqqında» Əsasnamə əhəmiyyətli rol oynayır. Fondun əsas vəzifəsi DİO-nun maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə onların müasir avadanlıq və texnika ilə təchiz olunması, həmçinin əməkdaşların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdən ibarətdir.

Beləliklə, qeyd etmək lazımdır ki, polis orqanları polis hüququnun əsas subyekti kimi çıxış etməklə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən, habelə insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qoruyan, DİN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanıdır.

### 3.4. Polis hüququnun fərdi subyektləri

Polis hüququnun subyekt növlərindən biri də fərdi subyektlərdir. Belə subyektlər qismində qüvvədə olan qanunvericiliyə uyğun olaraq, polis-hüquq normaları ilə tənzimlənən müəyyən ictimai münasibətlər qrupunun iştirakçısı ola bilən fiziki şəxslər çıxış edir. Başqa sözlə, polis hüququnun **fərdi subyektləri** polis-hüquq münasibətlərində subyekt qismində çıxış edən fiziki şəxslərdir.

**Fiziki şəxs** dedikdə hüquq münasibətlərində öz adından iştirak edən insan fərdi başa düşülür (MM-in 24-cü maddəsi). Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir. Fiziki şəxslər **kateqoriyasına** aşağıdakılar aiddir:

– Azərbaycan Respublikasının vətəndaşları;
– xarici ölkə vətəndaşları (əcnəbilər);
– vətəndaşlığı olmayan şəxslər (apatridlər);
– ikiqat vətəndaşlığı olan şəxslər (bipatridlər).

Polis-hüquq münasibətlərində subyekt qismində çıxış edən fiziki şəxslərin mütləq əksəriyyətini **Azərbaycan Respublikasının vətəndaşları** təşkil edir. Vətəndaşlıq isə Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il), habelə «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (1998-ci il) müəyyən edilir.[1]

**Əcnəbilər** dedikdə Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslər (xarici ölkə vətəndaşları) başa düşülür. **Vətəndaşlığı olmayan şəxslər** isə Azərbaycan Respublikasının vətəndaşı olmayan və hər hansı başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslərdir. **İkiqat vətəndaşlığı olan şəxslər** dedikdə bu və ya digər iki dövlətin vətəndaş-lığına mənsub olan şəxslər başa düşülür. Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər, apatridlər və bipatridlər ölkə vətəndaşlarının istifadə etdiyi müəyyən hüquqlardan mövcud qanunvericiliyə uyğun şəkildə yararlanırlar; həmin şəxslər qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq polis-hüquq münasibətlərində iştirak etməklə polis hüququnun subyekti rolunda çıxış edə bilərlər. Belə şəxslərin hüquqi statusu Azərbaycan Respublikasının Konstitusiyası (maddə 69), «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il) və digər normativ hüquqi aktlarla tənzimlənir.

Polis-hüquq fəaliyyətinin həyata keçirilməsində fiziki şəxslərin xüsusi rolu vardır və bu, şəxsin müxtəlif aktivlik də-

---

[1] *Vətəndaşların inzibati-hüquqi statusunun əsasları, fərdi subyektlərin xüsusi hüquqi (inzibati) statusu, vətəndaşların hüquqlarının müdafiə üsulları və s. məsələlər barədə ətraflı bax:* A.Abdullayev, F.Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.49-56.

rəcəsi formasında təzahür edir. Belə ki, ictimai yerdə olan hər bir şəxs istər-istəməz polis-hüquq münasibətlərinin iştirakçısı ola bilər. Fiziki şəxslər «passiv» hüquqauyğun davranış çərçivəsində öz hüquqi vəzifələrini yerinə yetirərək, hüquqi əhəmiyyət kəsb edən bu və ya digər hərəkətlər edirlər ki, belə hərəkətlər də üçüncü şəxslər üçün mühafizəedici əhəmiyyət daşıya bilər; ancaq burada onların aktivlik dərəcəsi hüquqi tələblər səviyyəsini aşmır.

Lakin sosial həyatda polis hüququnun fərdi subyekti kimi fiziki şəxslərin həmçinin «aktiv» hüquqauyğun davranışları da mövcuddur. Məsələn, vətəndaş hüquq pozuntusu törətmiş şəxsin saxlanılaraq, yaxınlıqda yerləşən polis məntəqə-sinə aparılmasında polis əməkdaşına müvafiq köməklik göstərir; digər bir misal-da, vətəndaş cinayət əməllərinin törədilməsi faktlarının aşkarlanması məqsədilə polis orqanları ilə əməkdaşlıq etməyə razılıq verir. Zənn edirik ki, vətəndaşlar tərəfindən polis funksiyalarının aktiv şəkildə yerinə yetirilməsi ideyasının əsası İXM və CM-də qoyulmuşdur. Belə ki, məsələn, son zərurət və zəruri müdafiə vəziyyətində vətəndaşın, mahiyyətcə, polis fəaliyyətini həyata keçirmək hüququ İXM-də (maddə 19 və 20) və CM-də (maddə 36 və 38) nəzərdə tutulmuşdur.

Vətəndaşlar tərəfindən polis funksiyalarının yerinə yetirilməsi ideyası tarixən antik dövrlərə təsadüf etsə də (məsələn, Qədim Roma, Qədim Afina və s.), qeyd olunmalıdır ki, müasir dövrdə də ictimai qaydaların qorunmasında vətəndaşlar arasında polis-hüquq xarakterli münasibətlərin yaradılması dövlət quruluşunun vacib elementi kimi sayılır.

Təqdirəlayiq haldır ki, müasir dövrdə polis qanunvericiliyinə görə, yaşayış yeri üzrə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan sosial problemlərin birgə həlli üçün ayrı-ayrı şəxslər könüllülük əsasında polis orqanları tərəfindən ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edilə bilərlər (PQ, maddə 10, V hissə). İctimai asayişin və təhlükəsizliyin təmin olunmasında könüllü olaraq iştirak edən şəxslərin fəaliyyətinin əlaqələndirilməsi üçün

yerli polis orqanlarının yanında ictimai şuralar yaradıla bilər. Azərbaycan Respublikasının ərazisində belə ictimai şuralar artıq formalaşmışdır və DİN-in müvafiq əmri ilə onların hüquqi əsaslarını, vəzifələrini və funksiyalarını müəyyən edən Əsasnamə də təsdiq olunmuşdur.[1]

İctimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyət aşağıdakı istiqamətlərdə həyata keçirilir:

– hüquqazidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısının alınması məqsədilə maarifləndirmə və təbliğat işlərinin aparılması;
– narkomaniyanın və alkoqolizmin, həmçinin yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası;
– cinayətlərin və digər hüquqpozmaların qarşısının alınmasını və araşdırılmasını təmin etmək məqsədilə məlumatların polis orqanlarına verilməsi.

Beləliklə, qeyd etmək lazımdır ki, polis hüququnun fərdi subyektləri qeyri-dövlət xarakterli subyektlər sırasına daxil olmaqla ictimai qaydaların qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində vacib rol oynayır.

### 3.5. Polis hüququnun kollektiv subyektləri

Polis fəaliyyətinin həyata keçirilməsində polis hüququnun subyekt növlərindən biri kimi kollektiv subyektlər xüsusi əhəmiyyət kəsb edir.

Polis hüququnun **kollektiv subyektləri** dedikdə, əvvəllərdə qeyd etdiyimiz kimi, başqa subyektlərlə münasibətdə tam bir vahid formada çıxış etmək hüququna malik olan insanların mütəşəkkil özünüidarə qrupları başa düşülür.

---

[1] *Bax:* DİN-in 25.06.2009-cu il tarixli 357 nömrəli əmri ilə təsdiq edilmiş «Hüquq qaydasının təmini üzrə İctimai Şura haqqında» Əsasnamə.

Polis-hüquq münasibətlərində kollektiv subyektlər öz adından fəaliyyət göstərir, onların üzərinə müəyyən öhdəliklər qoyulur və müvafiq hüquqlar verilir. Kollektiv subyektin şəxsi heyətində baş verən dəyişikliklər onun hüquqi vəziyyətinə təsir göstərmir; məsələn, polis orqanının şəxsi heyəti bütövlükdə dəyişə bilər, lakin bu, onun səlahiyyətlərinə təsir etməyəcəkdir.

Polis hüququ, aydın məsələdir ki, inzibati hüququn yarımsahəsi olduğu üçün onun kollektiv subyektlərini qruplaşdırarkən inzibati-hüquqi konstruksiya-dan[1] istifadə etmək məqsədəmüvafiqdir.

Təşkilati-hüquqi statusundan, yaranma məqsədlərindən, habelə hüquq və vəzifələrin həcmindən və digər meyarlardan asılı olaraq, polis hüququnun kollektiv subyektlərini təsnifləşdirərək, **dörd qrupa** ayırmaq olar:

– müəssisə və təşkilatlar;
– müəssisə və təşkilatların struktur bölmələri;
– müəssisə və təşkilatların, onların struktur bölmələrinin əmək və digər kollektivləri;
– mürəkkəb təşkilatlar.

Mülkiyyət forması və müəyyən sistemə məxsus olmaq əlaməti üzrə **təşkilatlar** müxtəlif formada ola bilər: məsələn, dövlət, ictimai, dini və digər təşkilatlar. Fəaliyyət məqsədinə və hüquqi statusuna görə, məlum məsələdir ki, dövlət orqanı, idarə, müəssisə və digər təşkilatlar bir-birindən fərqlənir.

Təşkilatın **əsas əlaməti** onun funksional fəaliyyətinin struktur bölmələr üzrə bölüşdürülməsidir. **Struktur bölmə** isə təşkilatın tərkib hissəsi olub, onun fəaliyyətinin müəyyən hissəsini yerinə yetirir. Əmək kollektivində **üzvlük** isə şəxsin təşkilat və ya cəmiyyətə üzv olması ilə yaranır.

**Mürəkkəb təşkilatlar**, qeyd etmək lazımdır ki, öz əsas fəaliyyət növü ilə yanaşı, digər fəaliyyət növlərini də yerinə yeti-

---

[1] *Məsələn, bax:* Abdulәli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.95 və b.

rirlər; məsələn, DİN mürəkkəb təşkilata misaldır, çünki onun tərkibində cinayətkarlıqla mübarizə aparan qurumlarla yanaşı, özünün təhsil, səhiyyə, istirahət, tikinti və s. təşkilatları da mövcuddur.

Kollektiv subyektləri səciyyələndirən **xüsusiyyətlər** kimi aşağıdakıları göstərmək mümkündür:

- kollektiv subyektlər öz mənafe və maraqlarını ifadə edir və qoruyur;
- kollektiv subyektlərdə tabeçilik əlaqələri yoxdur, kollektivin bütün üzvləri bərabərdirlər.

Kollektiv subyektləri onların sosial roluna və digər amillərə görə də fərqləndirilmək mümkündür.

Eyni zamanda polis hüququnun kollektiv subyektlərinə xas olan ümumi bir əlaməti də göstərmək zəruri sayılır. Belə ki, polis hüquq subyektliyinin konstruktiv elementi olan «polis delikt qabiliyyəti» anlayışını diqqətə çəkmək lazımdır, yəni subyekt öz törətdiyi müvafiq hüquq pozuntusuna görə hüquqi məsuliyyət daşımaq qabiliyyətinə malik olmalıdır. Bunu nəzərə alaraq, polis hüququnun kollektiv subyektlərinin «hüquqi şəxs» statusuna malik olmasını vacib şərt sayırıq. Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir (MM, maddə 43).

Polis hüququnun kollektiv subyektlərinin növlərini nəzərdən keçirdikdən sonra, onların hüquqi statusunun məzmununa diqqət yetirək. Kollektiv subyektin hüquqi statusunun **məzmunu**, yəni ümumi hüquq və vəzifələri, əsasən, aşağıdakı amillərdən asılıdır:

- subyekt dövlət idarəetmə mexanizminin tərkib hissəsidir və ya belə idarəetmədən kənardır;

– subyekt tərəfindən həyata keçirilən fəaliyyət növü;
– subyektin təşkilati-hüquqi strukturu.

Polis hüququnun kollektiv subyektlərinin dövlət idarəetmə mexanizminin tərkibində iştirak edib-etməməsi **meyarına** görə, onları iki növə ayırmaq olar: dövlət kollektiv subyektləri, qeyri-dövlət kollektiv subyektləri.

**Dövlət kollektiv subyektlərinin** hüquqi statusunu təşkil edən normalar qrupunu üç əsas yerə bölmək mümkündür:

– məqsədli normalar;
– təşkilati-struktur normalar;
– səlahiyyət müəyyənedici normalar.

Dövlət müəssisə və təşkilatları dövlət kollektiv subyektlərinin əsas formasıdır. Lakin eyni zamanda qeyd etmək lazımdır ki, müəssisə və təşkilatlar icra hakimiyyəti orqanlarından fərqli olaraq, idarəetmə funksiyalarını deyil, dövlətin, cəmiyyətin və vətəndaşların maddi, mənəvi və digər tələbatlarını ödəmək məqsədilə iqtisadi, sosial-mədəni və digər funksiyaları həyata keçirir. Buna görə də onlar hüquqi-hakimiyyət səlahiyyətlərinə malik deyildir və idarəetmə subyekti sayılmırlar. Müəssisə və təşkilatlar öz təyinatlarına görə bir-birindən fərqlənirlər.

**Müəssisə** – mülkiyyət formasından asılı olmayaraq, qanuni əsaslarla yaradılan, ictimai tələbatın ödənilməsi və mənfəət alınması məqsədilə məhsul istehsal edən və satan, iş görən və xidmətlər göstərən hüquqi şəxs statuslu müstəqil təsərrüfat subyektidir. Müəssisələrin təşkilati-hüquqi formaları MM-də təsbit olunmuşdur.

**Təşkilatlar** isə sosial-mədəni və ya inzibati-siyasi funksiyaları yerinə yetirirlər; onlar, əsasən, qeyri-istehsal xarakterli sosial dəyərlər yaradırlar. Təşkilatların təşkilati-hüquqi formaları müxtəlif qanunvericilik və digər hüquqi aktlarda ehtiva olunur.

Təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, müəssisə və təşkilatlar qanunvericiliyə, müəyyənləşdirilmiş hüquqi rejimə, təhlükəsizlik normalarına və di-

gər hüquq qaydalarına riayət etməlidirlər. Təbii ki, səlahiyyətli dövlət orqanları müəssisə və təşkilatlar tərəfindən müvafiq qanunvericiliyə, hüquq qaydalarına riayət olunmasına nəzarət edir, hüquqpozmalara qarşı qanunvericiliklə nəzərdə tutulmuş məcburetmə təsir tədbirləri tətbiq edə bilirlər. Məsələn, İXM-in 352-ci maddəsinə əsasən, hüquqi şəxslər yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətaların subyekti kimi tanına bilərlər. Bu o deməkdir ki, müəssisə və təşkilatlar öz fəaliyyətləri ilə polis-hüquq münasibətlərində iştirak etməklə, polis hüququnun kollektiv subyektləri qismində çıxış edirlər.

**Qeyri-dövlət kollektiv subyektlərin** hüquqi statusu onların daxili nizam-namələrində (əsasnamələrində) öz əksini taparaq, aşağıdakıları müəyyən edir:

- subyektin yaranma hüququnu və qaydasını;
- dövlət tərəfindən subyektin tanınması;
- subyektin ada malik olmaq hüququ;
- dövlət orqanları ilə münasibətlərdə subyektin müstəqil iştirak etmək hüququ.

Azərbaycan Respublikasının Əsas Qanununa görə, hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir (Konstitusiya, maddə 58).

**İctimai birliklər və fondlar** da qeyri-dövlət kollektiv subyektlər qismində polis fəaliyyəti sahəsində müxtəlif hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edirlər. Respublika ərazisində ictimai birliklərin və fondların yaradılması və fəaliyyət göstərməsi ilə bağlı münasibətlər «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının 13.06.2000-ci il tarixli Qanunu ilə tənzimlənir.

Qeyri-hökumət təşkilatı müəyyənləşdirilmiş hüquq qaydalarına zidd olan əməllərə (hərəkət və ya hərəkətsizliyə) yol verdiyi halda mövcud qanunvericiliyə uyğun şəkildə məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin vicdan və dini etiqad azadlığı vardır (maddə 48). Vətəndaşlar dini etiqad hüququndan təkbaşına, həmçinin **dini qurumların** yaradılması yolu ilə istifadə edə bilərlər. Bu sahədə müvafiq münasibətlər «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikasının 20.08.1992-ci il tarixli Qanunu və digər normativ hüquqi aktlarla tənzimlənir. Dini qurumlar tərəfindən cəmiyyətdə hüquq qaydaları pozularsa, onlar mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Deməli, dini qurumlar da öz fəaliyyətləri nəticəsində polis-hüquq münasibətləri sferasına daxil olduqda, polis hüququnun kollektiv subyektləri qismində çıxış edirlər.

Polis hüququnun kollektiv subyektlərinin əsas formaları haqqında danışarkən, belə subyektlərlə **DİO-nun qarşılıqlı münasibətlərinə** də toxunmaq lazımdır.

Belə ki, polis orqanlarının qarşısında duran əsas vəzifələrdən biri ictimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsidir. Vətəndaşların ictimai təhlükəsizliyi isə ictimai qaydanın mahiyyətindən irəli gəlir və bu da, öz növbəsində, bütövlükdə cəmiyyətin, onun hər bir üzvünün maraqlarına uyğun olaraq müəyyən edilir.

İctimai qaydanın mühafizəsində vətəndaşların iştirak etmələrinin **təşkilati formalarını** aşağıdakı kimi fərqləndirmək mümkündür:

– ictimai özfəaliyyət orqanları;
– xüsusi ictimai qurumlar.

**İctimai özfəaliyyət orqanları** (məsələn, məhəllə komitələri, qadın şuraları, valideynlər şurası, əmək veteranları şurası və s.) ictimai qaydanın mühafizəsində, hüquqpozmaların xəbərdar edilməsində və cinayətkarlığa qarşı mübarizə aparılması işində polis orqanlarına böyük köməklik göstərirlər; onların fəaliyyəti qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq olunmuş nizamnamə (əsasnamə) ilə müəyyən edilir.

İctimai qaydanın mühafizəsi və hüquqpozmalara qarşı mübarizə işində **xüsusi ictimai qurumlar** (məsələn, könüllü xalq

drujinaları, yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyalar, yoldaşlıq məhkəmələri və s. orqanlar) əhəmiyyətli rol oynayırlar.

Göstərilən təşkilatlardan hər biri bu və ya digər formada ictimai qaydanın mühafizəsində iştirak edir, cəmiyyətdə hüquqi mədəniyyətin, düşüncə və intizamın formalaşmasına təkan verir, polis orqanlarının üzərinə qoyulmuş funksiyaların həyata keçirilməsi işinə pozitiv təsir göstərir.

Cəmiyyətdə qanunçuluğun və hüquq qaydasının qorunmasında vətəndaşların geniş iştirakının təmin edilməsi, polis orqanlarına ictimai dəstəyin təşviqi, polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi məqsədi ilə «İctimai asayişin qorunmasında vətəndaşların iştirakı Qaydası» qəbul edilmişdir.[1] Polis orqanları tərəfindən vətəndaşların könüllülük əsasında ictimai asayişin təmin olunması işinə cəb edilməsi qaydaları məhz bu sənədlə tənzimlənir.

Beləliklə, ictimai qaydanın mühafizə olunması işində ictimai təşkilatlar, vətəndaşlar və əmək kollektivləri ilə DİO-nun qarşılıqlı əlaqəsinin təşkil edilməsi və onun daim təkmilləşdirilməsi polis orqanlarının prioritet vəzifələrindən biri sayılır.

### 3.6. Dövlət qulluğu xidməti və dövlət qulluqçuları polis hüququnun subyekti qismində

Polis fəaliyyətinin həyata keçirilməsində dövlət qulluğu xidməti və dövlət qulluqçuları polis hüququnun subyekti kimi əhəmiyyətli rola malikdirlər.

Dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətlər və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələlər «Dövlət qulluğu haqqında» Azər-

---

[1] Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 02.03.2016-cı il tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmişdir // AR QT. Bakı, 2016, № 3, maddə 434.

baycan Respublikasının 21.07.2000-ci il tarixli Qanunu və digər normativ hüquqi aktlarla tənzimlənir.

Adıçəkilən Qanunun 2-ci maddəsində göstərildiyi kimi, **dövlət qulluğu** dedikdə Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq, dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi başa düşülür. Bu anlayışın məna yükü icra hakimiyyəti orqanlarında (daxili işlər orqanlarında) dövlət qulluğunda çalışan şəxslərə, dövlət qulluğu keçən qulluqçulara da şamil edilir. Deməli, polis orqanlarında dövlət qulluğu keçmə dövlət qulluğunun növlərindən biridir.

Dövlət qulluğunun **əsas vəzifələri** aşağıdakılardan ibarətdir:[1]

– Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
– dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi və s.

Eyni zamanda qeyd etmək lazımdır ki, dövlət qulluğunun həyata keçirilməsi aşağıdakı **prinsiplərə** əsaslanır:

– qanunçuluq;
– qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi;
– bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması;
– qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluq-

---

[1] *Bax:* «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının 21.07.2000-ci il tarixli Qanununun 3-cü maddəsi.

çusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması və s.

Dövlət qulluğu haqqında **qanunvericilik** Azərbaycan Respublikasının Konstitusiyasından, «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir.[1]

Dövlət qulluğuna dair müvafiq qanunun tətbiqinə nəzarət, dövlət qulluğunun normativ-metodiki təminatı, dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin müəyyən olunması **Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası** tərəfindən həyata keçirilir. Şura dövlət orqanı sayılmır və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla həyata keçirir. Şuranın səlahiyyətləri isə qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən olunur.

**Dövlət qulluqçusu** dedikdə qanunla müəyyən edilmiş qaydada maaşlı dövlət qulluğu vəzifəsini tutan və müvafiq formada and içən Azərbaycan Respublikasının vətəndaşı başa düşülür. Yeri gəlmişkən, qeyd edək ki, PQ-də polis əməkdaşına belə bir definisiya verilmişdir: **polis əməkdaşı** – polis orqanlarında müəyyən vəzifə tutan və «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur.[2]

Dövlət qulluqçusunun **əsas vəzifələri** sırasında aşağıdakıları göstərmək olar:

– qanunvericiliyi və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktları həyata keçirmək;
– dövlət orqanında müəyyən olunmuş qulluq reqlamentinə riayət etmək;

---

[1] *Bax:* «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının 21.07. 2000-ci il tarixli Qanununun 6-cı maddəsi.
[2] *Bax:* PQ-nin 1-ci maddəsi.

- vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmaq və öz səlahiyyətləri hüdudlarında onları qərəzsiz həll etmək;
- qulluq etikası normalarına əməl etmək və s.

Göstərilənlərlə yanaşı, dövlət qulluqçusu müəyyən **hüquqlara** da malikdir; belə hüquqlar sırasında, məsələn, aşağıdakıları göstərmək olar:

- dövlət maaşı almaq;
- vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada lazımi informasiya və materiallar tələb etmək və almaq;
- elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq və s.

Dövlət qulluqçusunun **xidməti davranışı** qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətdir. Dövlət qulluqçuları üçün etik davranış qaydaları, müvafiq prinsiplər və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının 31.05.2007-ci il tarixli Qanunu ilə tənzimlənir.

Yuxarıda dövlət qulluqçusuna verdiyimiz anlayışdan göründüyü kimi, hər bir dövlət qulluqçusu dövlət orqanında müəyyən bir vəzifə tutur. Belə ki, **dövlət orqanı** qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsəd və funksiyalarını həyata keçirən qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumudur. Dövlət orqanları öz səlahiyyətlərinə görə 7 kateqoriya üzrə təsnifata bölünür. **Dövlət qulluğu vəzifəsi** dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir.

Dövlət orqanlarında vəzifələr həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tu-

tulması üsullarından asılı olaraq, **inzibati və yardımçı** vəzifələrə bölünür. İnzibati vəzifələrin 9 təsnifatı, yardımçı vəzifələrin isə 6 təsnifatı müəyyənləşdirilmişdir.

Dövlət qulluqçularının **məsuliyyət** məsələsi «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir (maddə 25). Belə ki, dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və yaxud lazımi şəkildə yerinə yetirilməməsi, həmçinin «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.

Eyni zamanda, dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə və cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Dövlət qulluqçuları onların təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar. Dövlət qulluqçularının qanunauyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda və ona uyğun qəbul edilmiş qanunvericilik aktlarında tənzimlənməyən dövlət qulluğu keçmə ilə bağlı digər məsələlər müvafiq əmək qanunvericiliyi ilə nizama salınır.

Dövlət qulluğu xidməti və dövlət qulluqçuları polis hüququnun subyekti qismində nəzərdən keçirilərkən, bunu da qeyd etməyi vacib sayırıq ki, polis orqanlarında xidmət dövlət xidmətinin bir növüdür; dövlət xidmətinə xas olan əsas prinsip və xüsusiyyətlər polis xidmətinə də məxsusdur. Lakin polis orqanlarında xidmət özünün bir sıra **spesifik xüsusiyyətinə** malikdir ki, bu da polis tərəfindən həyata keçirilən vəzifə və funksiyaların xarakterindən irəli gəlir. Polisdə xidmət ümumi normativ hüquqi aktlarla yanaşı, xüsusi əsasnamə və nizamnamələrlə tənzimlənir.

Polisdə **xidmət keçmənin** əsasları və xüsusiyyətləri PQ-nin IV fəslində öz əksini tapmışdır. Belə ki, polisdə xidmətə könül-

lülük əsasında, şəxsi və iş keyfiyyətlərinə, fiziki hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə polisin üzərinə düşən vəzifələri yerinə yetirməyə qadir olan, hərbi xidmət keçmiş və ya polis təhsil müəssisələrini bitirmiş, Azərbaycan Respublikasının yaşı 20-dən aşağı olmayan vətəndaşları qəbul olunurlar (PQ, maddə 28).

Qanunda həmçinin nəzərdə tutulmuşdur ki, ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyənləşdirilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, əvvəllər işdə ciddi nöqsanlara, polisdə xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olmasına, polisdə xidmətə tam yararsız olmasına, polis əməkdaşının adına ləkə gətirən ləyaqətsiz hərəkətlərə görə polisdən və digər hüquq-mühafizə orqanlarından xaric edilmiş şəxslər **polisdə xidmətə** qəbul edilə bilməzlər.

Polisdə xidmətə qəbul edilmiş şəxslər və polis təhsil müəssisələrinin müdavimləri hərbi mükəlləfiyyət qeydiyyatından çıxarılaraq müvafiq icra hakimiyyəti orqanında (DİN) xüsusi qeydiyyata alınırlar; hər bir polis əməkdaşına xüsusi nümunəli **xidməti vəsiqə** verilir.

Polis əməkdaşı vəzifəsinin icrasına başlamazdan əvvəl təntənəli şəraitdə, şəxsi heyətin yığıncağında Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə **and içir** və həmin vaxtdan onun səlahiyyətləri başlanır (PQ, maddə 29).

Polis əməkdaşlarına qanunvericiliklə müəyyənləşdirilmiş **xüsusi rütbələr** verilir; onlar elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər; polis əməkdaşlarına siyasi fəaliyyətlə məşğul olmaq və siyasi partiyaların üzvü olmaq qadağandır.

Polisdə xidmətə qəbul və xidmət keçmə qaydaları Azərbaycan Respublikasının 29.06.2001-ci il tarixli 168-IIQ nöm-

rəli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamə ilə tənzimlənir.

Xidməti vəzifələrini yerinə yetirmək üçün polis əməkdaşlarına xüsusi **dövlət-hakimiyyət səlahiyyətləri** verilir; onlar inzibati və digər məcburetmə tədbirlərini həyata keçirmək, habelə fiziki qüvvə, xüsusi vasitələr və ya odlu silahın tətbiq edilməsi səlahiyyətlərinə malikdirlər. Lakin, eyni zamanda polis əməkdaşları hüquqazidd hərəkətlərinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar.

Polis əməkdaşlarının attestasiyasının keçirilməsi, polis orqanlarının fəaliyyətinin inzibati-siyasi xarakterə malik olması, polis xidmətinin vahid rəhbərlik əsasında təmsil edilməsi polisdə xidmət keçməni səciyyələndirən digər xüsusiyyətlərdəndir.

# III FƏSİL ÜZRƏ SXEM



# IV FƏSİL. POLİS-HÜQUQ NORMALARI VƏ POLİS-HÜQUQ MÜNASİBƏTLƏRİ

## 4.1. Polis-hüquq normaları

### 4.1.1. Polis-hüquq norması anlayışı və onun əsas cəhətləri

Polis-hüquq norması polis hüququnun başlanğıc və mərkəzi elementi sayılır; o, inzibati hüququn tərkibində sosial qurum kimi polis hüququnun yarımsahə statusunda tanınmasında əsas və mühüm rol oynayır. Polis-hüquq normaları «hüquq norması» blokunda birləşərək hüquq institutlarını yaradır və onlar da məcmu şəkilində polis hüququ yarımsahəsini təşkil edir.

Polis-hüquq normasına onun məzmunu baxımından, aşağıda formulə etdiyimiz kimi anlayış vermək mümkündür:

**polis-hüquq norması** dedikdə polis fəaliyyəti sahəsində subyektlərin davranışını tənzimləyən və polis haqqında qanunvericiliklə müəyyənləşdirilən ümumməcburi qaydalar başa düşülür.

Polis-hüquq norması vətəndaşlara, idarə, müəssisə və təşkilatlara ictimai qaydalara riayət etmək öhdəliyi müəyyənləşdirməklə, onlara sülh və təhlükəsizlik şəraitində öz konstitusion hüquq və azadlıqlarından istifadə etmək imkanı yaradır. Polis orqanlarının da fəaliyyətinin tənzimlənməsində polis-hüquq normaları əsas və başlıca yer tutur. Belə ki, polis-hüquq normaları polis orqanları üçün hüquq pozuntusu törətmiş şəxslərə qarşı inzibati məcburetmə tədbirləri tətbiq etmək, daimi inzibati keşik-nəzarət vasitəsilə şəxsi və ictimai təhlükəsizliyi təmin etmək kimi vəzifələr yaradır və bununla əlaqədar müvafiq hüquqlar müəyyənləşdirir.

Qeyd etmək lazımdır ki, inzibati-hüquq və ümumiyyətlə hüquq normalarına xas olan **əsas cəhətlər** bütövlükdə polis-hü-

quq normalarına da aiddir. Bu baxımdan, göstərə bilərik ki, **birinci**, polis-hüquq norması davranış qaydasıdır (latınca «regula» – qayda), yəni insanların hərəkətlərini və davranışlarını spesifik dövlət idarəetmə sahəsinə – polis fəaliyyəti sferasına istiqamətləndirən əməllərin, qaydaların nümunəsi və miqyasıdır. Başqa sözlə, polis-hüquq norması, əlbəttə, şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış davranış qaydalarını modelləşdirir; o, əgər bir şəxsə ən çox vəzifə yaradırsa, digər şəxsə hüquqlar verir. Polis-hüquq norması bütövlükdə hüquqi tənzimetmənin metod və prinsipləri haqqında, həmçinin hüquqauyğun və hüquqazidd əməllər barədə müvafiq informasiya daşıyır.

**İkinci,** polis-hüquq norması dövlət tərəfindən müəyyənləşdirilən və sanksiyalaşdırılan davranış ölçüsüdür. Bu, sadəcə davranış qaydası deyil, hakimiyyət-sərəncam, hökm (əmr) xarakterli davranış qaydasıdır. Polis-hüquq normasının əsasında dövlət məcburetmə qüvvəsi, gücü və nüfuzu durur. Bu o deməkdir ki, əgər bu və ya digər şəxs tərəfindən cinayət-hüquq, inzibati-hüquq və sairə hüquq normaları könüllü surətdə yerinə yetirilməzsə, onda belə hüquq normalarının tələbləri polis-hüquq normaları əsasında fəaliyyət göstərən polis orqanlarının məcburetmə qüvvəsi sayəsində həyata keçirilir.

Polis-hüquq norması, **üçüncü**, icra hakimiyyəti orqanlarının, bəzi ictimai təşkilatların, hüquqi və fiziki şəxslərin hakimiyyət-polis səlahiyyətlərini «doza»lara bölür və bununla belə polis hüququ subyektlərinin davranışına təsir hədlərinin çevrəsini müəyyənləşdirir. Polis hüququnun fərdi və kollektiv subyektləri polis-hüquq normaları əsasında müəyyən hüquqlara malikdirlər; məsələn, polis orqanlarından, vəzifəli şəxslərdən müəyyən hərəkətlərin yerinə yetirilməsini tələb etmək, onların hərəkət və ya hərəkətsizliyindən şikayət etmək və s. hüquqlar.

Polis-hüquq normalarının **dördüncü** əsas cəhəti ondan ibarətdir ki, onlar formal-aşkar qaydalardır. Belə ki, hüquq normalarını fərqləndirən dəqiqlik, detallaşdırılma, qətilik kimi cəhətlər polis-hüquq normalarına xüsusilə xasdır və bu amillər

polis orqanlarının hüquq və vəzifələrinin müəyyənləşdirilməsində, onlar tərəfindən məcburetmə tədbirlərinin tətbiq olunması hüququnun müəyyən edilməsində özünü daha çox göstərir.

**Beşinci**, polis-hüquq norması digər inzibati-hüquq normaları kimi, nizamnamə və dürüst ifadə edilmə formasından asılı olmayaraq, mahiyyətcə (səlahiyyətverici, qadağanedici, məcburedici və s.), həqiqətən müvafiq ictimai münasibətləri tənzimləyir, eyni zamanda, belə münasibət iştirakçıları üçün müəyyən subyektiv hüquqlar və hüquqi vəzifələr yaradır. Başqa sözlə, polis-hüquq normaları müvafiq ictimai münasibət iştirakçılarının subyektiv hüquq və vəzifələrində reallaşır; subyektiv hüquq və vəzifələr isə insanların davranışı vasitəsilə həyata keçirilir.

### 4.1.2. Polis-hüquq normalarının xüsusiyyətləri

Polis-hüquq normaları idarəetmə normalarının bir növü olmaqla, eyni zamanda, spesifik davranış qaydalarıdır və müəyyən xüsusiyyətlərə malikdir. Belə ki, sözügedən normalar ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin mühafizəsi, vətəndaşların konstitusion hüquq və azadlıqlarının hüquqazidd əməllərdən müdafiəsi və s. tədbirlərlə bağlı polis fəaliyyəti sahəsində ictimai münasibətləri tənzimləyir.

Polis-hüquq normaları tarixən cəmiyyətdə müəyyən sosial dəyərlərin (ictimai qayda, ictimai təhlükəsizlik və s.) qorunmasına istiqamətlənmişdir və bu ənənə müasir polis qanunvericiliyində də öz ifadəsini tapmışdır. Məsələn, PQ-də göstərildiyi kimi (maddə 18, bənd 5), ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşı ictimai yerlərdə sərxoş vəziyyətdə olan və müstəqil hərəkət etmək qabiliyyətini itirən, özünə və ya ətrafdakılara zərər yetirə bilən şəxsi xüsusi tibb müəssisələrinə gətirmək hüququna malikdir.

Beləliklə, polis-hüquq normalarının **birinci xüsusiyyəti** ondan ibarətdir ki, onlar öz təbiətinə görə qoruyucu (mühafizəedici) normalardır və xüsusi tətbiq sferasına malikdirlər. Məlum məsələdir ki, dövlət və cəmiyyətin normal fəaliyyət göstərməsi üçün müəyyən sosial obyektlərin qorunması vacibdir; məhz belə obyektlərin mühafizəsi polis-hüquq normalarının tətbiq sferasına daxildir. Başqa sözlə, polis-hüquq normaları öz hüquqi təbiətinə görə mühafizəedici normalar olmaqla, polis orqanlarının fəaliyyətini ictimai əhəmiyyətli yerlərdə müşahidə aparmaq, belə yerlərdə müxtəlif cür hüquqpozmaların qarşısını almaq, ictimai təhlükəsizliyi təmin etmək kimi mühüm bir işə istiqamətləndirir. Polis-hüquq normaları vətəndaşların davranış qaydalarını müəyyən etməklə onların üzərinə müvafiq vəzifələr qoyur: məsələn, ictimai qaydalara riayət etmək, yol hərəkəti qaydalarına əməl etmək və digər xüsusi inzibati-hüquqi rejimləri yerinə yetirmək. Bu normaların böyük bir hissəsi İXM-də təsbit olunmuşdur. Lakin, qeyd etmək lazımdır ki, polis-hüquq normaları mühafizəedici əlamətə malik olmaqla yanaşı, həm də vətəndaşlar tərəfindən konstitusion hüquq və azadlıqlardan istifadə edilməsinə zəmanət verən hüquq qaydaları rolunu yerinə yetirir (məsələn, park və digər istirahət yerlərində vətəndaşların özünü rahat və azad hiss etməsi, ictimai nəqliyyatdan sərbəst istifadə etməsi, şəxsi təhlükəsizliyinə inamlı olması və s.)

Polis-hüquq normalarının **ikinci xüsusiyyəti** odur ki, polis-hüquq normaları sistemində qadağanedici normalar üstünlük təşkil edir və həlledici rol oynayır. Eyni zamanda qadağanedici normaların belə vacib əhəmiyyətə malik olması cəmiyyət üçün arzuolunmaz hadisələrin sosial həyatdan sıxışdırılıb çıxarılmasını ehtiva edən hüquq-mühafizə (polis) fəaliyyətinin özünün spesifikliyi ilə şərtlənir. Belə inzibati-hüquqi qadağalar müəyyən hüquqazidd əməllərə yol verilməməsinə işarə edir, yəni istisna vasitəsilə həyata keçirilir.

Bu xüsusiyyətin əhəmiyyəti bir də onunla fərqlənir ki, genealogiya tarixi baxımından, polis hüququnda qadağanlar ci-

nayət hüququndan vaxtilə təkamül yolu ilə ayrılmış cinayət-hüquqi qadağaların bir hissəsidir; məsələn, aztəhlükəli hüquq pozuntu tərkiblərini, habelə belə pozuntulara görə daha yüngül cəza təyin edilməsini və cəza tədbirlərinin məhkəmə deyil, elə yerində xüsusi icra hakimiyyəti orqanları – polis orqanları tərəfindən görülməsini müəyyənləşdirən qadağan normaları. Ona görə də, polis-hüquq normaları sistemi tənzimləyici və qoruyucu normalardan ibarət olsa da, mahiyyətcə, hüquq-mühafizə sistemidir, çünki onun müəyyənedici hissəsini qadağan normaları təşkil edir.

Polis-hüquq norması təkcə davranış qaydası kimi deyil, həm də tənzimləyici norma, yəni onu tətbiq edən şəxslər üçün avtoritet norma kimi çıxış edir. Polis-hüquq norması, eyni zamanda, qeyd etmək lazımdır ki, həm norma-menzurka (latınca «mengura» – ölçü), həm də digər şəxslərin davranışını qiymətləndirən meyar kimi çıxış edir. Polis hüququnda norma-menzurka vətəndaşların davranışlarının, onların öz aralarındakı münasibətlərin, xüsusən də ictimai əhəmiyyətli yerlərdəki münasibətlərin tənzimlənməsində olduqca böyük rol oynayır. Belə yerlərdə vətəndaş «ikili» xarakterə malik olan hərəkət edir; məsələn, o, özü polis-hüquq normalarına əməl edərək küçəni svetoforun yaşıl işığında keçir, eyni zamanda, yol hərəkəti qaydalarının qadağanedici normalarını pozan digər hərəkət iştirakçısına qarşı reaksiya verir.[1] Bunun da nəticəsində insanlar arasında cəmiyyətdə əlverişli şəraitdə yaşamaq imkanı verən möhkəm hüquqi (tənzimləyici) əlaqələr yaranır.

Polis-hüquq normalarının «ölçü» (meyar) təyinatı, habelə digər şəxslərin davranışının miqyas göstəricisi olması onun **üçüncü xüsusiyyətini** ifadə edir. Belə ki, hüquqi qiymətləndirmə olmadan vətəndaşlar arasında normal tənzimləyici əlaqə yarana bilməz. Başqa sözlə, hər bir polis-hüquq münasibəti, xüsusən də ictimai əhəmiyyətli yerlərdə ümumtənzimləyici

---

[1] YHQ-nin 36-cı maddəsinin II hissəsində nəzərdə tutulmuşdur ki, yol hərəkəti qaydalarına riayət edən yol hərəkətinin hər bir iştirakçısı digər şəxslərdən həmin qaydaların tələblərini gözləməyi tələb edə bilər.

polis-hüquq münasibəti o zaman mövcud olur ki, polis hüququnun subyektləri polis-hüquq normalarını realizə etməklə yanaşı, eyni zamanda, hüquq normasını «ölçü» (meyar), qiymət miqyası kimi istifadə etməklə bir-birinin davranışını qarşılıqlı qiymətləndirirlər.

Polis-hüquq normasının daha bir fərqləndirici, **dördüncü xüsusiyyəti** kimi göstərmək olar ki, idarə, müəssisə, təşkilat və vətəndaşlar tərəfindən polis-hüquq normalarına riayət olunmasına xüsusi strukturlar – polis orqanları müşahidə-nəzarət həyata keçirirlər. Başqa sözlə, belə normaların həyata keçirilməsi xüsusi icra hakimiyyəti orqanlarının real hərəkətləri ilə daim «sığortalanır»; məsələn, polis orqanları müşahidə (keşik-nəzarət) metodu vasitəsilə ayrı-ayrı vətəndaşlar tərəfindən hüquq qaydalarının pozulması hallarını müəyyən etdikdə, onlar öz hərəkətələrini polis fəaliyyətinin digər metodlarından (inzibati məcburiyyət tədbirinin tətbiqi, inzibati məsuliyyət ölçüsünün götürülməsi və s.) istifadə etməklə tamamlayırlar.

### 4.1.3. Polis-hüquq normalarının növləri

Polis-hüquq normalarının elmi əsaslandırılmış təsnifatı həmin normaların aşağıdakı kimi **fərqləndirilməsinə** imkan verir:

- birinci, polis-hüquq normalarını daha əhəmiyyətli və vacib əlamətlər üzrə qarşılıqlı-əlaqəli qruplara bölmək;
- ikinci, hər bir normalar qrupunun polis hüququnun sistemində yerini və əhəmiyyətini müəyyən etmək;
- üçüncü, ictimai münasibətlərin tənzimlənməsində hər bir normalar qrupunun rolunu müəyyənləşdirmək.

Göstərilənlərlə yanaşı, polis fəaliyyəti sferasında polis-hüquq normalarının növlərini təqdim etdiyimiz **dörd təsnifat** üzrə bölə bilərik:

- tənzimetmə metodu üzrə;

– hüququn funksiyaları üzrə;
– konkret fərdi işlərin həlli üsulu üzrə;
– ictimai münasibətlərin hüquqi tənzimlənmə mexanizmində onların rolu üzrə.

Polis-hüquq normalarının **hüquqi tənzimetmə metodu** üzrə təsnifləşdirilməsi vacib məsələlərdən biridir. Məntiqi baxımdan, polis-hüquq normalarının belə təsnif üzrə ayrılması, ilk növbədə, ictimai münasibətlərin tənzimləyicisi kimi polis hüququnun xüsusiyyətlərinin, habelə subyektlərin davranışına polis-hüquq normalarının təsir göstərməsi xarakterinin tam anlaşılmasına imkan verir. Polis-hüquq normalarının hüquqi tənzimetmə metodu üzrə təsnifi nəticəsində aşağıdakı növ polis-hüquq normaları fərqləndirilir:

– məcburedici polis-hüquq normaları;
– səlahiyyətverici polis-hüquq normaları;
– həvəsləndirici polis-hüquq normaları;
– qadağanedici polis-hüquq normaları.

Polis hüququnda **məcburedici polis-hüquq normaları**, bir qayda olaraq, elə normalar sayılır ki, onlar şəxs üçün müvafiq tam müsbət hərəkətlər etmək vəzifəsi müəyyənləşdirir. Bu normalar üçün «vəzifəsidir», «borcludur» ifadələri xarakterikdir; məsələn, YHQ-də piyadanın vəzifələri kimi göstərilir ki, piyada səki ilə, piyada zolağı ilə, yaxud yol çiyinləri ilə hərəkət etməlidir (YHQ, maddə 40, I hissə). Məcburedici normalar dövlət orqanlarından, onların struktur hissələrindən, vəzifəli şəxslərdən, vətəndaşlardan və polis hüququnun digər subyektlərindən müəyyən hərəkətlərin həyata keçirilməsini tələb edir; belə vəzifələr onlara Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları ilə həvalə olunur.

**Səlahiyyətverici polis-hüquq normaları** dedikdə polis hüququ subyektlərinə bu və ya digər müsbət (pozitiv) hərəkətləri həyata keçirmək hüququnu müəyyən edən normalar başa düşülür. Belə normalar öz mətnində «haqlıdır», «malikdir», «bi-

lər» kimi ifadələri ehtiva edir; məsələn, ƏFQ-də ehtiva olunur ki, şəxs haqqında xüsusi texnikanın köməyi ilə əldə edilmiş məlumat açıqlandıqda həmin şəxs məhkəməyə şikayət edə bilər (ƏFQ, maddə 16, III hissə). Səlahiyyətverici polis-hüquq normaları polis hüququnun subyektlərinə konkret situasiyada ən əlverişli davranış variantı seçmək hüququ (imkanı) verir.

**Həvəsləndirici polis-hüquq normaları** polis hüququnun subyektlərinə öz səlahiyyətlərini yüksək səviyyədə yerinə yetirdiyinə görə həvəsləndirmə tədbirlərinin tətbiq olunmasını ehtiva edir; məsələn, PQ-də belə bir göstəriş ifadə olunmuşdur ki, polis əməkdaşı vəzifələrinin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə edilən yüksək nəticələrə görə həvəsləndirilə bilər (PQ, maddə 31, I hissə). Həvəsləndirmə tədbiri kimi təşəkkür, pul mükafatı, qiymətli hədiyyə ilə mükafatlandırma, fəxri fərman ilə təltif etmə və s. növ həvəsləndirmələr tətbiq edilə bilər.

Qeyd etmək lazımdır ki, polis hüququnda həm məcburedici, həm səlahiyyətverici, həm də həvəsləndirici polis-hüquq normaları hüquqi tənzimetmənin pozitiv məzmununu ifadə edir.

**Qadağanedici polis-hüquq normaları** isə, əsasən, polis hüququnun qoruma (mühafizə) funksiyasını izhar edir. Qadağanedici normalar onlarda göstərilən hərəkət və davranışların həyata keçirilməsini qadağan edir, antisosial fəaliyyətdən, hüquqazidd əməllərdən çəkinməyə məcbur edir. Qadağanedici polis-hüquq normalarında ehtiva olunan inzibati-hüquqi qadağanlar bəzi əməllərin törədilməməsini müəyyənləşdirən dövlət-hakimiyyət buyuruğu (hökmü), «neqativ əmrlər və göstərişlərdir». **İnzibati-hüquqi qadağanlar** (qadağan etmələr) dedikdə ümumməcburi dövlət-hakimiyyət göstərişlərinin sosial zərurətlə şərtlənən forma və ölçüləri başa düşülür. Qadağanedici polis-hüquq normalarında davranışın qadağan variantları «qadağandır», «olmaz», «icazə verilmir» və s. bu kimi sözlərlə ifadə olunur; məsələn, YHQ-də belə bir hüquqi göstəriş mövcuddur ki, mexaniki nəqliyyat vasitəsinin sürücüsünə nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tər-

pətmək və ya onun hərəkəti zamanı qapıları açmaq qadağandır (YHQ, maddə 73, V hissə). Eyni zamanda qeyd etmək lazımdır ki, polis hüququnda qadağanedici normaların əsas baza qrupu İXM-də cəmləşmişdir (məsələn, mülkiyyət əleyhinə olan inzibati xətalar, yol hərəkəti əleyhinə olan inzibati xətalar, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar və s.); qadağanedici normalar, bir qayda olaraq, qadağanın pozulmasına görə sanksiya nəzərdə tutan normalarla birlikdə verilir.

Polis hüququnun mərkəzi etementi kimi çıxış edən qadağanedici polis-hüquq normaları polis fəaliyyəti sahəsində subyektlərin davranışına birbaşa təsir göstərir. Lakin bu normalar digər polis-hüquq normalarından (məcburedici, səlahiyyətverici, həvəsləndirici) təcrid olunmuş şəkildə deyil, onlarla birlikdə vahid formada fəaliyyət göstərirlər. Deməli, qadağanedici polis-hüquq normaları ancaq belə əlaqədə və keyfiyyətdə akkumulyasiya funksiyasını yerinə yetirərək, ictimai qaydanın hüquqazidd əməllərdən qorunmasını həyata keçirir və bununla da bütövlükdə polis hüququ yarımsahəsinə üstəlik olaraq qoruyucu (mühafizəedici) xarakter verir.

Polis-hüquq normaları **hüququn funksiyalarına** görə də təsnif olunaraq müəyyən növlərə bölünür. Lakin bu zaman inzibati hüququn yarımsahəsi kimi polis hüququnun malik olduğu xüsusiyyətləri, habelə milli hüquq sistemində inzibati hüququn müstəqil hüquq sahəsi statusunda yer tutmasını nəzərə almaq lazımdır. Bu kontekstdə polis-hüquq normalarını hüququn funksiyalarına görə aşağıdakı növlər üzrə fərqləndirmək mümkündür:

- tənzimləyici polis-hüquq normaları;
- mühafizəedici polis-hüquq normaları.

Polis hüququnun **tənzimləyici polis-hüquq normaları** subyektlər üçün müvafiq hüquq və vəzifələrlə əlaqədar göstəriş ifadə etməklə, bilavasitə onların davranışının reqlamentləşdirilməsinə istiqamətlənir. Belə normalar hüquqi tənzimlənmənin pozitiv məzmununu əks etdirməklə, özündə məcburedici,

səlahiyyətverici və həvəsləndirici polis-hüquq normalarını ehtiva edir.

Qeyd etmək lazımdır ki, tənzimləyici polis-hüquq normaları ictimai münasibətlərin üç qrup təsir obyektinə malikdir. **Birinci**, bu normalar «polis idarəetmə» obyektində özünü büruzə verir. Burada həmin normalar polis orqanları və onların vəzifəli şəxsləri tərəfindən aparatın fəaliyyətinin koordinasiyası, polis informasiyasının toplanması, sərəncamlılıq və s. üzrə idarəetmə funksiyalarının yerinə yetirilməsi ilə bağlı təşkilati-polis münasibətlərini qaydaya salır.

**İkinci,** polis hüququnun tənzimləyici polis-hüquq normalarının təsir obyekti polis orqanları ilə vətəndaşlar arasında olan ictimai münasibətlərin daha çox mühüm hissəsindən ibarətdir.

**Üçüncü**, polis hüququnun tənzimləyici polis-hüquq normaları vətəndaşlar arasında, ilk növbədə, ictimai əhəmiyyətli yerlərdə yaranan münasibətləri nizama salır.

Tənzimləyici polis-hüquq normaları polis hüququnda normaların, əsas olmasa da, əhəmiyyətli dərəcədə xeyli hissəsini təşkil edir. Bununla yanaşı, qeyd etməliyik ki, polis-hüquq normalarının əsas hissəsini mühafizəedici normalar yaradır. Belə ki, bu normalar inzibati hüququn yarımsahəsi kimi polis hüququnun xüsusiyyətlərini daha tam və qabarıq şəkildə ifadə edir və ümumiyyətlə, inzibati hüququn hüquq-mühafizə funksiyasını bildirir.

Polis hüququnun **mühafizəedici polis-hüquq normaları**, hər şeydən əvvəl, qadağanlar, yəni müəyyən əməllərdən çəkinmək ehtiva edən normalardan və bu qadağanları pozan şəxslərə qarşı tətbiq edilən inzibati məcburetmə tədbirləri müəyyənləşdirən normalardan ibarətdir. Həm də belə normalar bir halda birbaşa məcburetmə tədbiri (xəbərdar etmə, qarşısını alma) kimi, digər halda isə inzibati məsuliyyət tədbiri kimi tətbiq olunurlar.

İnzibati məcburetmə tədbirlərinin xüsusi, həm də diferensial reqlamentləşdirilməsinin zəruriliyi hüquqpozma hallarının

müxtəlif ağırlıq dərəcələri ilə şərtlənir; məsələn, YPX əməkdaşının işi əgər bir halda – yol hərəkəti sahəsində inzibati xəta törədən daha təhlükəli avtoxuliqanladırsa (İXM, maddə 511), digər halda isə – küçəni svetoforun qırmızı (qadağanedici) işığında keçməyə (hüquq qaydalarını cüzi pozmağa) cəhd göstərən adi vətəndaşla əlaqəlidir (İXM, maddə 338). Məlum məsələdir ki, İXM-də göstərilən həmin maddələrin sanksiyaları da müxtəlifdir. Göründüyü kimi, eyni ictimai münasibətlər qrupunda törədilən hüquqpozmalara görə, onların təhlükəlilik dərəcəsindən asılı olaraq, müxtəlif ölçülü inzibati məsuliyyət tədbirləri, yəni mühafizəedici polis-hüquq normaları tətbiq edilir.

Mühafizəedici polis-hüquq normaları cəmiyyətdə yeni «dəyərlər»in yaradılmasına deyil, mövcud qaydaların qorunmasına, mühafizə olunmasına istiqamətlənmişdir; belə normalar müvafiq ictimai münasibətləri qorumaqla yanaşı, eyni zamanda, onları tənzimləyir, nizama salır.

Polis-hüquq normalarını **konkret fərdi işlərin həlli üsulu** üzrə də müəyyən növlərə bölmək mümkündür. Qeyd etmək lazımdır ki, polis hüququ üçün həm də onun (bu yarımsahənin) sistem kimi təqdim olunmasında polis-hüquq normalarının təsnifləşdirilməsi üzrə prosessual normalar vacib əhəmiyyət kəsb edir. Polis-hüquq normalarını konkret fərdi işlərin həlli üsulu meyarı üzrə təsnif etməklə onların iki növünü fərqləndirmək olar:

– maddi polis-hüquq normaları;
– prosessual polis-hüquq normaları.

**Maddi polis-hüquq normaları** polis hüququ subyektlərinin hüquq və vəzifələrini, onların hüquqi vəziyyətini, hüquqi tənzimləmənin hüdudlarını statistik formada müəyyən edir. Başqa sözlə, maddi polis-hüquq normaları polis hüququnun subyektlərinə verilən hüquqları və onlardan tələb edilən vəzifələri göstərir.

**Prosessual polis-hüquq normaları** isə prosedur xarakterli məsələləri tənzimləyir; onlar maddi polis-hüquq normaları ilə

sıx surətdə bağlı olaraq, bu normaların həyata keçirilməsi (realizasiyası) vasitəsi kimi çıxış edirlər. Maddi polis-hüquq normalarına münasibətdə prosessual polis-hüquq normaları törəmə xarakteri daşıyırlar. Belə ki, inzibati məsuliyyət institutu ehtiva edən maddi polis-hüquq normaları inzibati xətalar haqqında işlərin icraatını reqlamentləşdirən prosessual polis-hüquq normalarında reallaşdırılır. Deməli, polis hüququnda prosessual polis-hüquq normaları maddi polis-hüquq normaları olmadan mənasızdır və əksinə, maddi polis-hüquq normaları prosessual polis-hüquq normaları olmadan aciz, yaxud gücsüzdürlər.[1]

Prosessual polis-hüquq normaları polis fəaliyyəti sahəsində böyük əhəmiyyətə malikdir; çünki onların köməyi ilə inzibati-məcburetmə tədbirlərinin tətbiqi prosedurları, qaydaları reqlamentləşdirilir və bu da, təbii ki, polis orqanlarının fəaliyyətində insan hüquq və azadlıqlarının qorunması baxımından kəskin və sərt sosial təsir vasitəsidir. Polis hüququnda xüsusi prosessual institutların (məsələn, inzibati xətalar haqqında işlərin icraatı, vətəndaşın inzibati şikayət hüququ, birbaşa məcburetmə tədbirlərinin tətbiqi və s.) formalaşması da məhz bununla şərtlənir.

Polis-hüquq normaları ictimai münasibətlərin **hüquqi tənzimlənmə mexanizmində onların oynadığı rola** görə də təsnif edilir. Belə ki, ictimai münasibətlərin hüquqi tənzimlənmə mexanizmində polis-hüquq normalarının yerinə yetirdikləri rola görə polis hüququnda müəyyən ixtisaslaşmış normalar qrupunu fərqləndirmək mümkündür. Bu cür normalar növünə aşağıdakılar aiddir:

- deklarativ polis-hüquq normaları;
- definitiv polis-hüquq normaları.

---

[1] *Bax:* Панова И.В. Актуальные проблемы административного процесса в Российской Федерации. Автореферат диссертации на соискание уч.ст. д.ю.н. Екатеринбург, 2000, с.20 // www. law.edu.ru /book/ book.asp?book ID = 93692.

**Deklarativ polis-hüquq normaları** dedikdə polis hüququnun prinsip və vəzifələrini ifadə edən və rəsmi qanunverici göstərişləri təsbit edən hüquq normalarının məcmusu başa düşülür. Məsələn, polis haqqında qanunvericilik aktlarında deyilir ki, polis insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və təkbaşçılıq prinsipləri əsasında fəaliyyət göstərir (PQ, maddə 4); digər normativ hüquqi aktda əməliyyat-axtarış fəaliyyətinin məqsəd və vəzifələri əks olunmuşdur (ƏFQ, maddə 1).

Polis hüququnda **definitiv polis-hüquq normaları** hüquqi kateqoriya və anlayış məhfumunu ehtiva edirlər; onlara dürüstləşdirilmiş normalar da deyilir. Başqa sözlə, polis hüququna aid bu və ya digər məsələnin tərifini formulə edən hüquq norması definitiv hüquq norması adlanır; burada polis fəaliyyəti ilə bağlı anlayışların definisiyası (tərifi) verilir; həmin normaların «definitiv» adlanmasının səbəbi məhz bundan ibarətdir. Məsələn, inzibati xətalar qanunvericiliyində «inzibati xəta» anlayışı verilmişdir: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur (İXM, maddə 12); başqa bir qanunvericilik aktında «yol hərəkətinin təhlükəsizliyi» anlayışı ifadə olunmuşdur: yol hərəkətinin təhlükəsizliyi – yol hərəkəti iştirakçılarının və cəmiyyətin yol-nəqliyyat hadisələrindən və onların nəticələrindən müdafiə olunma dərəcəsini göstərən yol hərəkəti vəziyyətidir (YHQ, maddə 1).

Deklarativ və definitiv polis-hüquq normaları, bir qayda olaraq, müvafiq normativ hüquqi aktın ümumi müddəalar bölməsində yer alır, əks olunur. Polis qanunvericiliyində yüksək yer tutan bu növ polis-hüquq normaları polis fəaliyyəti sahəsində ictimai münasibətlərin hüquqi tənzimlənmə mexanizmində xüsusi rola malikdirlər; onlar polis hüququnun başlanğıc, əsas, təməl normalarıdır.

Qeyd etmək lazımdır ki, bütövlükdə polis-hüquq normaları və onların hər bir növü Azərbaycan Respublikasının Konstitusiyası ilə vətəndaşlara imkan verilən bütün maddi və mənəvi dəyərlərdən istifadəni təmin etməklə onların hüquqi vəziyyətinə əhəmiyyətli təsir göstərir.

### 4.2. Polis-hüquq münasibətləri

#### 4.2.1. Polis-hüquq münasibətləri anlayışı və əlamətləri

Polis-hüquq münasibətləri modeli polis-hüquq normalarında ehtiva olunur. Müvafiq hüquq normasının «işə düşməsi» ilə onun məzmununda olan «hüquqi potensial» iki əsas istiqamətdə fəaliyyət göstərməyə başlayır: bir subyektə vəzifələr həvalə edilir, digər subyektə isə hüquqlar verlir. Bununla da göstərdiyimiz model xüsusi hüquqi konstruksiyaya – fərdi polis-hüquq münasibətlərinə çevrilir, transformasiya olunur.

**Polis-hüquq münasibətləri** dedikdə polis fəaliyyəti sahəsində yaranan, dəyişən, xitam olunan və polis-hüquq normaları ilə nizama salınan ictimai münasibətlər başa düşülür. Məhz polis-hüquq münasibətləri zərurilik, labüdlük və ya vaciblik kimi halın konkret davranış aktına çevrilməsini sübut edir. Fəlsəfi planda yanaşsaq, qeyd edə bilərik ki, polis hüququnun prinsip və qaydaları vətəndaşların davranışında, təşkilatların, dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətində öz real mövcudluğunu polis-hüquq münasibətlərində tapır.

Polis-hüquq münasibətləri inzibati-hüquqi (idarəetmə) münasibətlərinin bir növü olmaqla müəyyən **əlamətlərə** malikdir.

**Birinci,** polis-hüquq münasibətləri elə münasibətlərdir ki, onlar subyektlərin davranışına polis-hüquq normalarının təsiri nəticəsində yaranır. Belə ki, polis-hüquq norması bir subyektə vəzifə müəyyən etməklə digər subyektə hüquq verir və onlar arasında hüquqi əlaqə yaradır, qurur. Doğrudan da polis-hüquq normaları polis-hüquq münasibətləri vasitəsilə real-

laşır, subyektlərin davranışında həyata keçirilir. Məsələn, küçə-yol şəbəkəsində YPX inspektoru ilə avtonəqliyyat vasitəsinin sürücüsü arasında yaranan hüquqi əlaqə (hüquqi münasibət) ona görə mümkün olur ki, bu, YHQ-də təsbit edilmiş polis-hüquq normaları ilə nəzərdə tutulmuşdur.

İnzibati hüququn digər yarımsahələrində, ümumiyyətlə, hüquq sahəsində olduğu kimi, polis hüququnda da belə bir prinsip işləyir: əgər polis-hüquq norması varsa – onda polis-hüquq münasibəti yaranır, yox, əgər polis-hüquq norması mövcud deyilsə – müvafiq hüquq münasibəti də mövcud ola bilməz.

İnzibati hüquq normalarından fərqli olaraq, polis-hüquq normaları daha yüksək təfərrüatı ilə detallaşdırılma, müəyyənlik və qətilik səciyyəsinə malikdirlər; çünki onların realizasiyası birbaşa vətəndaşların hüquq və azadlıqlarına toxunur. Buna görə də, polis-hüquq münasibətləri öz iştirakçılarının davranış qaydalarının daha aydın və qəti müəyyən edilməsi cəhəti ilə xarakterizə olunur.

**İkinci**, polis-hüquq münasibətləri ikitərəfli əlaqə deməkdir. Belə ki, polis-hüquq norması hüquq münasibətinin bir subyektinə müəyyən subyektiv hüquq verirsə, digər subyektə hüquqi vəzifə həvalə edir. Belə hüquqi vəzifə digər subyektin subyektiv hüququna münasib olur və, əksinə, hər bir subyektiv hüquq digər subyektin hüquqi vəzifəsinə uyğun gəlir. Məsələn, polis əməkdaşının öz xidməti vəzifələrinin icrası ilə əlaqədar vətəndaşlardan və vəzifəli şəxslərdən izahat, arayış və ya məlumat almaq hüququ qarşı tərəfin, yəni həmin şəxslərin müvafiq informasiyaları təqdim etmək vəzifəsinə uyğun gəlir.

Digər hüquq münasibətlərində olduğu kimi, polis-hüquq münasibətlərində də səlahiyyətli şəxsə qarşı mükəlləfiyyətli şəxs (vətəndaş, idarə, müəssisə, dövlət orqanı və s.) çıxış edir; belə hüquq və vəzifələr bütövlükdə, vəhdət şəklində polis-hüquq münasibətlərində vahidlik (tamlıq) yaradırlar. Məhz öz aralarında qarşılıqlı əlaqədə olan hakimiyyət səlahiyyətləri və müvafiq vəzifələrin vahidliyi baxımından, onlara (müvafiq hü-

quq və vəzifələrə) malik olan tərəflər (şəxslər) polis-hüquq münasibətlərinin **subyektləri** sayılırlar.

**Üçüncü əlamət** ondan ibarətdir ki, polis-hüquq norması əsasında şəxslər arasında yaranan əlaqə dövlətin məcburetmə qüvvəsi ilə müdafiə olunur, təmin edilir. Məsələn, texniki cəhətdən nasaz nəqliyyat vasitəsinin istismar olunması sürücüyə qadağan edilir (YHQ, maddə 37). Əgər sürücü bu qadağana riayət edirsə, belə halda sürücü ilə yol hərəkətinə keşik nəzarəti həyata keçirən DYP əməkdaşı arasında normal tənzimləyici hüquq münasibəti yaranır; əks halda, yəni sürücü qanunvericiliklə müəyyənləşdirilmiş qadağan normasını pozduqda, DYP əməkdaşı nəqliyyat vasitəsinə texniki baxış keçirərək, onun istismarına yol verməməklə birbaşa inzibati məcburetmə tədbiri tətbiq edə bilər. Başqa sözlə, yol hərəkəti sahəsində polis-hüquq normaları nəqliyyat vasitələri sürücülərinin davranışına təsir göstərməklə yanaşı, üstəlik tənzimlənən münasibətlərə cəmiyyətin maraqlarına uyğun dəqiqlik, formal müəyyənolunma və məcburilik kimi əlavə əlamətlərin xas olmasını ehtiva edir. Belə münasibətlərin hüquqazidd əməllərdən qorunması dövlət müdafiə üsulları vasitəsilə təmin olunur.

**Dördüncü**, polis-hüquq münasibətləri hüquq norması əsasında tərəflər arasında müvafiq əlaqə yaratmaqla bu və ya digər dərəcədə fərdiləşdirilmiş xarakter daşıyır; belə fərdiləşdirilmə müxtəlif cür ola bilər.

Belə ki, bir halda, əgər hüquq münasibətinin subyektləri adbaad müəyyən edilirsə, bu zaman ikitərəfli fərdiləşdirilmiş münasibətlər mövcud olur. Məsələn, nəqliyyat vasitəsi əldə etmiş vətəndaşla onun dövlət qeydiyyatından keçirilməsi barədə ərizəyə baxan və müvafiq qərar qəbul edən DYP orqanı arasında yaranan hüquqi əlaqə buna misaldır.

Digər hallarda isə fərdiləşdirilmə polis-hüquq münasibətlərinin əhəmiyyət kəsb etdiyi sosial rolların adı üzrə həyata keçirilir. Belə hüquq münasibətləri «YPX əməkdaşı – avtonəqliyyat vasitəsinin sürücüsü», «polis əməkdaşı – vətəndaşlar» ti-

pində olur. Fərdiləşdirilmənin bu növü ümumtənzimlənən və ümummühafizəedilən polis münasibətləri üçün səciyyəvidir.

Polis-hüquq münasibətlərinin növbəti, **beşinci əlaməti** odur ki, onlar ümumi-hüquqi münasibətlərdir. Polis-hüquq münasibətlərinin ümumi-hüquqi xarakterə malik olması bir sıra məqamla müəyyənləşdirilir. Belə ki, ilk növbədə, polis fəaliyyətinin subyektləri (polis orqanları) ümumilikdə cəmiyyət və dövlətin maraqları ilə əlaqədar funksiyaları həyata keçirirlər. Onların fəaliyyəti ictimai qaydanın qorunmasına, ictimai təhlükəsizliyin təmin olunmasına, vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsinə istiqamətlənmişdir. Daha sonra, polis-hüquq münasibətlərinin ümumi-hüquqi xarakterə malik olması belə münasibətlər vətəndaşlar arasında yarandıqda özünü daha çox təzahür etdirir, göstərir. Bu münasibətlər çərçivəsində hər bir vətəndaş digər vətəndaşın hüquq və mənafelərinə riayət olunmasına borcludur.

**Altıncı**, polis-hüquq münasibətləri hüquq münasibətlərinin bir növü (obyekti) kimi nəzərlə tutulur, çünki obyekt olmadan hüquq münasibətləri də mövcud ola bilməz. Polis-hüquq münasibətlərinin obyekti dedikdə onların istiqamətləndiyi ictimai qayda, ictimai və şəxsi təhlükəsizlik, vətəndaşların hüquq və azadlıqları və s. bu kimi hədəflər başa düşülür. Polis-hüquq münasibətlərinin obyekti hər hansı davranış deyil, bu davranışın yaranması ilə əlaqədar əmələ gələn bir şeydir. Məsələn, vətəndaş şəxsiyyət vəsiqəsi alan zaman vətəndaşla polis orqanı arasında yaranan polis-hüquq münasibətləri hər iki tərəfin davranışlarına istiqamətlənir. Polis-hüquq münasibətlərinin obyekti polis hüququ nəzəriyyəsi üçün vacib əhəmiyyət kəsb edir. Belə ki, hüquqi münasibətin mövcud olmasını yalnız onun obyekti təsdiq edir.

### 4.2.2. Polis-hüquq münasibətlərinin xüsusiyyətləri

Polis-hüquq münasibətləri digər inzibati-hüquqi münasibətlərə və ümumiyyətlə hüquq münasibətlərinə nə qədər yaxın

və oxşar olsa da, eyni zamanda, onlardan fərqlənərək özünəxas **xüsusiyyətlərə** malikdir.

Məlum olduğu kimi, dövlət-idarəetmə münasibətləri iqtisadi, mədəni, səhiyyə, təhsil, sosial təminat və s. sahələrdə insanlara rəhbərlik etməklə bağlı münasibətlərdir və onlar cəmiyyətdə müsbət halların möhkəmləndirilməsi və inkişaf etdirilməsi məqsədinə yönəlmişdir. Polis-hüquq münasibətləri isə əks dövlət-idarəetmə münasibətləridir.

Polis-hüquq münasibətlərinin **birinci xüsusiyyəti** ondan ibarətdir ki, həmin münasibətlər hüquq-mühafizə münasibətləridir və hüquqpozmaların qarşısının alınmasına, ictimai təhlükəsizlik üçün yaranan təhdidlərin aradan qaldırılmasına, hüquq qaydalarının və qanunçuluğun təmin edilməsinə, vətəndaşların hüquq və azadlıqlarının hüquqazidd əməllərdən müdafiə olunmasına istiqamətlənmişdir. Başqa sözlə, polis-hüquq münasibətləri elə sosial obyektlərin və dəyərlərin mühafizə olunmasına yönəlmişdir ki, onlarsız cəmiyyət və dövlət normal fəaliyyət göstərə bilməz.

Bu planda qeyd etmək lazımdır ki, polis-hüquq münasibətləri sistemində hüquq-mühafizə xarakterinə malik olan qadağanedici polis-hüquq normaları əsasında yaranan hüquq münasibətləri başlıca və müəyyənedici rol oynayır. Qadağan həmişə ictimai münasibətlərin qorunması ilə əlaqəlidir; qadağanedici normaların sanksiyasında ehtiva olunan «təhlükə» məhfumu «qadağan» anlayışının mahiyyətinə xüsusi məcburilik və əhəmiyyət verməklə yanaşı, onlarla birlikdə müvafiq mühafizəedici hüquq münasibətlərinin yaranmasında iştirak edir.

Mühafizəedici hüquq münasibətləri bütövlükdə ikili vəzifə funksiyasını yerinə yetirir. Belə hüquq münasibətləri çərçivəsində xüsusi subyektlər – hüquq-mühafizə orqanları (polis, məhkəmə, prokurorluq və s. orqanlar) fəaliyyət göstərir; onlar qanunun keşiyində durmaqla cəmiyyəti və konkret vətəndaşları potensial hüquqpozan şəxslərin hüquqazidd əməllərindən qoruyur. Bununla yanaşı, sözügedən hüquq münasibətləri çər-

çivəsində fiziki və hüquqi şəxslərin hüquqauyğun hərəkətləri təmin olunur.

Polis-hüquq münasibətlərinin **ikinci xüsusiyyəti** özünü onda göstərir ki, belə münasibətlər polis fəaliyyəti sferasında təşəkkül tapır, əmələ gəlir. Onların subyekti hər hansı hüquqmühafizə orqanı (məhkəmə, notariat, prokurorluq orqanları) deyil, məhz keşik-nəzarət və inzibati məcburetmə fəaliyyəti xas olan və onları həyata keçirən polis orqanıdır. Burada polis-hüquq münasibətləri çərçivəsində fiziki və hüquqi şəxslərə münasibətdə birbaşa inzibati məcburetmə (müdafiə) tədbirlərinin tətbiq edilməsi ilə bağlı hərəkətlər xüsusi rol oynayır. Bu növ inzibati məcburetmə tədbirləri polis orqanları tərəfindən özünün xüsusi aparatının köməyi ilə bilavasitə və təxirəsalınmadan həyata keçirilir; məsələn, DYP orqanı bayram günlərində müvafiq icra hakimiyyəti orqanının sərəncamı əsasında özünün xüsusi vasitələrinin köməyi ilə küçə-yol şəbəkəsində nəqliyyat vasitələrinin hərəkət istiqaməti axınını tənzimləyir.

Birbaşa inzibati məcburetmə tədbirləri (baxış, tutulma, sənədlərin yoxlanılması, sürücünün nəqliyyat vasitəsini idarəetmədən kənarlaşdırılması və s.) müstəsna olaraq polis orqanları tərəfindən tətbiq edilir. Bu işin yerinə yetirilməsində polis orqanları polis haqqında qanunvericiliklə müəyyənləşdirilmiş qaydada fiziki qüvvə və xüsusi vasitələrdən (dəyənək, əl-qolu bağlama vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələr, nəqliyyatı məcburi dayandırma vasitələri və s.), habelə odlu silahdan da istifadə edə bilər. Ona görə də, polis orqanları hüquq pozuntusu törətmiş şəxs tərəfinndən müqavimət (və ya silahlı müqavimət) göstərildikdə polishüquq münasibətləri çərçivəsində xüsusi vasitələrdən və odlu silahdan istifadə edirlər.

Polis-hüquq münasibətlərinin **üçüncü xüsusiyyəti** kimi qeyd etmək lazımdır ki, belə münasibətlər çərçivəsində inzibati (polis) yurisdiksiyası həyata keçirilir, yəni inzibati xəta törətmiş şəxslərə qarşı müvafiq inzibati tənbehlər (cərimə, inzibati qətimkan tədbiri, xüsusi hüquqların məhdudlaşdırılması və s.) tətbiq edilir.

Düzdür, inzibati xətaların müəyyən hissəsi ilə bağlı işlər məhkəmə orqanlarında baxılsa da, onların bir qismi birbaşa polis orqanlarında baxılaraq müvafiq inzibati tənbehlər tətbiq olunur.

Beləliklə, polis-hüquq münasibətlərində bir tərəf – təqsirli şəxsi inzibati məsuliyyətə müstəqil surətdə cəlb etmək hüququna malik olan polis orqanıdırsa, digər tərəf isə törədilmiş hüquqazidd əmələ görə cavab verməyə borclu olan təqsirkar şəxsdir. Bu, polis inzibati-delikt münasibətləri çərçivəsində cəza (tənbeh) tətbiq edilməsində ifadə olunan xüsusi hüquq-mühafizə üsuludur.

Bütövlükdə polis-hüquq münasibətlərində polis fəaliyyətinin bütün xüsusi metodlarının (inzibati nəzarət, inzibati məcburetmə, polis informasiyasının toplanması, xüsusi icazə və s.) tətbiqi reallaşır. Bununla əlaqədar olaraq, polis-hüquq münasibətləri aşağıdakı kimi diferensiallaşdırılır: nəzarət-polis, inzibati-məcburetmə, inzibati-delikt, icazəverici, əməliyyat-axtarış və b.

Nəzərdən keçirilən polis-hüquq münasibətlərinin **dördüncü xüsusiyyəti** qismində göstərə bilərik ki, bu münasibətlər inzibati hüquq münasibətlərinin bir növü olmaqla xüsusi tipli «hakimiyyət münasibətləri»dir. Dövlət-idarəetmə münasibətlərində bir tərəfin digər tərəfə nisbətən hakimiyyət səlahiyyətinə malik olması faktı daimidir və bu, dövlət-xidməti münasibətlərin subordinasiya mahiyyətindən irəli gəlir. Qeyd etməliyik ki, polis-hüquq münasibətləri, bir qayda olaraq, adətən, polis orqanlarının iştirakı ilə yaranır. Məlum məsələdir ki, polis orqanları hakimiyyət funksiyasını həyata keçirir; başqa sözlə, onlar hakimiyyət səlahiyyətlərinə malikdirlər. Bu səbəbdən polis-hüquq münasibətləri öz təbiətinə görə hakimiyyət xarakterli, dövlət hakimiyyəti ilə bağlı olan münasibətlərdir.

Polis-hüquq münasibətləri həm də, qeyd etməliyik ki, «polis orqanı – fiziki şəxs», «polis orqanı – hüquqi şəxs» kontekstində, əsasən, ümumi tənzimlənən-mühafizəolunan münasibətlərdir. Belə münasibətlərdə bir tərəfin digər tərəfə tabeçiliyi yoxdur; burada hərçənd «inzibati amirlik» mövcud olsa

da, bu münasibətlər «hakimiyyət münasibətləri» deyil, tərəflər arasında tabeçilik olmur. Lakin konkret mühafizəedici polis-hüquq münasibətləri yarandığı andan, yəni inzibati xəta törədildiyi, yaxud hüquq qaydaları pozulduğu və ya ictimai təhlükəsizlik üçün təhdid yarandığı andan «hakimiyyət münasibətləri» əmələ gəlir; başqa sözlə, həmin andan inzibati məcburetmə tədbirlərinin polis orqanları tərəfindən birtərəfli qaydada tətbiq edilməsində ifadə olunan xüsusi növ polis-hüquq münasibətləri – «hakimiyyət münasibətləri» yaranır.

Bu münasibətlər «xarici hakimiyyət» məcburetməsidir və «daxili təşkilatı»dan fərqli olaraq, polis orqanlarında xidməti tabeçilikdə olmayan şəxslərə qarşı tətbiq edilən dövlət-idarəetmə münasibətləri üçün xarakterikdir. Beləliklə, dövlət-idarəetmə münasibətləri üçün bir tərəfin digər tərəfə tabeçilik əlaməti atributiv cəhətdir. Polis-hüquq münasibətlərində isə bu əlamət xüsusi qrup hüquqi faktların (inzibati xəta, hüquq qaydalarının pozulması və s.) əmələ gəlməsi ilə yaranır.

Nəhayət, polis-hüquq münasibətlərinin **beşinci xüsusiyyəti** ondan ibarətdir ki, onlar vətəndaşlar arasında ailə və mülki-hüquqi münasibətlər zəminində yarana bilər. Vətəndaşlar arasında yaranan polis-hüquq münasibətləri və yaxud «vətəndaş – vətəndaşa qarşı» formatında hüquq münasibətləri hüquqi sferada ən geniş yayılmış münasibət növüdür. Bu münasibətlər, hər şeydən əvvəl, əxlaqi normalara söykənsə də, insanlar arasında inzibati-hüquqi və cinayət-hüquqi qadağanlara əsaslanır. Məsələn, vətəndaşlar arasında ümumi tənzimedici-mühafizəedici münasibətlər, ilk növbədə, İXM-də və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş inzibati-hüquqi qadağanlara əsaslanır. Belə aktlarda vətəndaşların üzərinə müəyyən ictimaiyyətə zidd olan əməllərdən çəkinmək öhdəliyi qoyulur; təbii ki, müvafiq qadağanedici hüquq normaları pozulduqda təqsirli şəxs inzibati xətanın xarakterindən asılı olaraq, inzibati məsuliyyətə cəlb olunacaqdır.

Vətəndaşlar arasında konkret mühafizəedici münasibətlər də yaranır. Belə münasibətlər çərçivəsində vətəndaşların davranışının **üç variantından** danışmaq mümkündür.

**Birinci**, konkret mühafizəedici münasibətlərdə hər hansı bir vətəndaş digər hüquqpozan şəxsdən hüquqazidd hərəkətlərin dayandırılmasını tələb etmək hüququna malikdir; həmin vətəndaş bu məqamda sanki «polis» kimi çıxış edir, hüquq münasibətinin özü isə «hakimiyyət-mühafizəedici» əlamətlərini, necə deyərlər, əldə edir və «kvazihakimiyyət» münasibətinə çevrilir. Vətəndaşlar arasında konkret mühafizəedici münasibətlərdə bir tərəf digər tərəfə nisbətdə dövlət-hakimiyyət səlahiyyətlərinə malik olmadığı üçün belə münasibətlər dövlət-idarəetmə münasibətləri deyil, sadəcə olaraq, polis-hüquq münasibətləridir; yalnız bir tərəf ictimai qaydaları tənzimləyən hüquq normalarının göstərişlərini pozduğu təqdirdə, digər tərəf hüquqazidd davranışın dayandırılmasını tələb etmək hüququnu əldə edir.

**İkinci**, qeyd etmək lazımdır ki, CM və İXM-də ehtiva olunan normalar vətəndaşları zəruri müdafiə və ictimai qaydanın digər şəxslərin hüquqazidd əməllərindən müdafiə olunması işində daha aktiv davranışlara istiqamətləndirir, yəni müəyyən ekstrimal hallarda vətəndaşlar arasında münasibətləri tənzimləyir. Bu o deməkdir ki, normal şəraitdə vətəndaş polis səlahiyyətlərinə malik olmur; lakin zəruri müdafiə və son zərurət hallarında vətəndaş hüquqazidd əməllərin obyekti olduqda, dövlət ona belə səlahiyyətlərə (polis səlahiyyətlərinə) müəyyən hüdudda malik olmaq imkanı verir.

**Üçüncü,** ictimai yerlərdə vətəndaşlar tərəfindən qarşılıqlı hüquq və vəzifələrin realizasiyası dövlət orqanları, o cümlədən DİO, xüsusən də polis orqanları tərəfindən təmin edilir; bu zaman polis orqanları vətəndaşların hüquq və vəzifələrinin realizasiyasını ümumi tənzimedici-mühafizəedici münasibətlərdə keşik-nəzarət fəaliyyəti üsulu ilə, konkret tənzimedici münasibətlərdə – bilavasitə təsir, köməklik göstərilməsi yolu ilə, konkret mühafizəedici münasibətlərdə isə – hüquqpozan şəxsə qarşı bilavasitə məcburetmə tədbirlərinin tətbiq edilməsi yolu ilə təmin edir.

Qeyd olunanları ümumiləşdirərək söyləyə bilərik ki, dövlət-idarəetmə münasibətləri icra hakimiyyəti orqanının iştirakı

olmadan mümkün deyil, polis-hüquq münasibətləri isə müəyyən hallarda polis orqanının iştirakı olmadan da mümkün ola bilər.

### 4.2.3. Polis-hüquq münasibətlərinin növləri

Hüquqi materiyada mövcud olan polis-hüquq münasibətləri cürbəcür əsaslara görə müxtəlif növlərə bölünür.[1] Belə əsaslar (zəmin) qismində hüququn funksiyası, subyektlərin fərdiləşdirilməsi, əlaqə xarakteri, hüquqi xarakter və s. amillər meyar kimi qəbul oluna bilər.

Göstərdiyimiz əsaslar üzrə polis-hüquq münasibətlərini aşağıdakı növlər üzrə fərqləndirmək mümkündür:

**I. Hüququn funksiyasına görə:**

– tənzimləyici polis-hüquq münasibətləri;

– mühafizəedici polis-hüquq münasibətləri.

**II. Subyektlərin fərdiləşdirilməsi üsuluna görə:**

– ümumi polis-hüquq münasibətləri;

– konkret polis-hüquq münasibətləri.

**III. Əlaqə xarakterinə görə:**

– vertikal polis-hüquq münasibətləri;

– horizontal polis-hüquq münasibətləri.

**IV.Hüquqi xarakterə görə:**

– maddi polis-hüquq münasibətləri;

– prosessual polis-hüquq münasibətləri.

---

[1] DİO-nun fəaliyyəti sahəsində yaranan, dəyişən və xitam olunan inzibati-hüquq münasibətləri barədə ətraflı bax: məsələn, Abışov V.G., İsmayılov A.V., Eyvazov H.Q. İnzibati hüquq. Dərs vəsaiti. 3 hissədə. I hissə. Bakı, 2004, s.110. Burada aşağıdakı növ inzibati-hüquq münasibətləri fərqləndirilir: sistemdaxili münasibətlər, sistemdənkənar münasibətlər, şaquli (hakimiyyət-tabeçilik) münasibətləri, üfüqi (razılaşdırma və koordinasiya) münasibətləri.

Hüququn funksiyası üzrə təsnif etdiyimiz **tənzimləyici polis-hüquq münasibətləri** tənzimləyici polis-hüquq normaları əsasında təşəkkül tapır və müvafiq ictimai münasibət iştirakçılarının subyektiv hüquqlarını və hüquqi vəzifələrini müəyyən edir. Bu hüquq münasibətləri adi, təbii və normal ictimai qaydaların məğzini təşkil edir; onlar tamamilə müvafiq hüquq normaları əsasında yaranan və ictimai yerlərdə vətəndaşlar arasındakı münasibətlərə ciddi surətdə uyğun gələn müsbət münasibətlərdir. Məsələn, xidmət aparılan ərazidə polis sahə inspektoru ilə vətəndaşlar arasında onların qanuni hüquq və mənafelərinin həyata keçirilməsində köməklik göstərilməsi ilə bağlı yaranan münasibətlər bu qəbildəndir. Sözügedən münasibətlər hüquq qaydalarının mahiyyətini ehtiva etməklə kəmiyyət nisbətində polis-hüquq münasibətlərinin əhəmiyyətli hissəsini təşkil edir; təbii ki, cəmiyyət belə münasibətlərin mövcud olmasında və inkişaf etdirilməsində maraqlıdır.

**Mühafizəedici polis-hüquq münasibətləri** də müvafiq hüquq normaları əsasında təşəkkül tapır və subyektlərin hüquqazidd əməlləri nəticəsində belə əməllərə qarşı cəmiyyətin, dövlətin və digər vətəndaşların reaksiyası formasında yaranır. Məsələn, DYP əməkdaşı sürücünü nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırır – belə halda, təbii ki, sürücüdə müvafiq idarəetmə hüququnu təsdiqləyən sürücülük vəsiqəsi olmur, yaxud da sürücü sükan arxasında sərxoş vəziyyətdə olur. Mühafizəedici polis-hüquq münasibətləri cəmiyyət üçün yad olan hadisələrin, təzahürlərin sosial həyatdan sıxışdırılıb çıxarılmasına yönəlmişdir. Belə ki, mühafizəedici polis-hüquq münasibətləri çərçivəsində səlahiyyətli orqanlar inzibati xəta törətmiş və yaxud da hüquq qaydalarından kənarlaşmaya yol vermiş şəxslərə qarşı inzibati məcburetmə tədbirləri tətbiq edirlər; sözügedən münasibətlər hüdudunda təqsirli şəxs öz hərəkətlərinə görə məsuliyyət daşıyır və ona qarşı tətbiq edilmiş inzibati tənbehə məruz qalır. Mühafizəedici polis-hüquq münasibətləri tarixən insan həyatında ilk yaranmış münasibətlərdən biridir.

Subyektlərin fərdiləşdirilməsi üsuluna görə fərqləndirilən **ümumi polis-hüquq münasibətləri** qadağanedici normalar əsasında insanlarla dövlət arasında, onların qadağanedici normalara riayət etmələrinə dair yaranan və mövcud olan münasibətlərdir. Belə ki, dövlət vətəndaşlara (şəxslərə) müəyyən yaş həddindən başlayaraq qadağan olunmuş hərəkətlərin törədilməməsi öhdəliyini (vəzifəsini) həvalə edir. Eyni zamanda, dövlət tərəfindən səlahiyyətli orqanlara və vəzifəli şəxslərə vətəndaşların qanunvericiliklə müəyyənləşdirilmiş qadağanlara riayət etmələrinə nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq hüquqlar verilir. Ona görə də, ümumi polis-hüquq münasibətlərində subyektlər öz aralarında «hər kəs –hər kəsə qarşı» formulu üzrə əlaqədə olurlar. Məsələn, nəqliyyat vasitəsini idarə edən sürücü yol hərəkəti prosesində digər iştirakçılara (piyada, digər sürücülər, DYP əməkdaşı və s.) münasibətdə spesifik hüquqi vəziyyətdə olur; həmin şəxslərdən hər biri ayrılıqda YHQ ilə nəzərdə tutulmuş hüquq və vəzifələrin daşıyıcısı kimi digər şəxslərlə əlaqəli olurlar. Ümumi polis-hüquq münasibətləri qanuna riayət edən şəxslər üçün tənzimləyici, potensial hüquq pozan şəxslər üçün isə mühafizəedici xarakterə malikdir. Deməli, bu münasibətlər, eyni zamanda, tənzimləyici-mühafizəedici münasibətlərdir.

**Konkret polis-hüquq münasibətlərinə** gəldikdə isə, qeyd etməliyik ki, belə münasibətlərin əmələ gəlməsinin başlıca şərti ümumi polis-hüquq münasibətlərinin mövcud olmasıdır. Belə ki, məlum olduğu kimi, konkret tənzimləyici münasibətlər ümumi tənzimləyici münasibətlər əsasında yaranır. Məsələn, DİN-in struktur orqanı tərəfindən konkret şəxsə qanunvericiliklə nəzərdə tutulmuş müvafiq fəaliyyət növü ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi konkret tənzimləyici polis-hüquq münasibətləri əsasında həyata keçirilir; belə halda lisenziya sənədində subyektin adı konkret olaraq göstərilir, yəni subyekt fərdiləşdirilir.

Ümumi mühafizəedici polis-hüquq münasibətlərinin xarakterik cəhəti ondan ibarətdir ki, belə münasibətlər çox vaxt hüquq münasibətləri iştirakçıları tərəfindən dərk edilmir. Belə

«dərk edilməyən» hüquq münasibətləri , bir qayda olaraq, vətəndaşlar tərəfindən hüquqi qadağanlar pozulduğu halda aşkar olur, üzə çıxır; bunun da nəticəsində, yəni hüquqi qadağanın pozulması nəticəsində konkret mühafizəedici polis-hüquq münasibətləri yaranır. Bunların başlıca fərqləndirici cəhəti odur ki, onların çərçivəsində inzibati məcburetmə tədbirləri tətbiq edilir, polis-hüquq normalarının sanksiyaları realizə olunur.

Əlaqə xarakteri üzrə göstərdiyimiz **vertikal polis-hüquq münasibətləri** həm tənzimləyici, həm də mühafizəedici münasibətlər kimi daha geniş yayılmışdır; onlar «hakimiyyət – tabeçilik» prinsipi üzrə qurulur. Məsələn, idarəetmə hüququnda dövlət-idarəetmə münasibətlərini tənzimləyən əsas hüquq münasibətləri vertikal xarakterə malikdir. Polis fəaliyyəti sahəsində mövcud olan təşkilati-polis münasibətləri vertikal polis-hüquq münasibətlərinə bariz nümunədir.

Əlaqə xarakterinə görə **horizontal polis-hüquq münasibətləri** daha tipik xarakterə malikdir; məsələn, polis hüququnun bir-birinə tabeçiliyi olmayan subyektləri, xüsusən də polis orqanları arasında və yaxud polis orqanı ilə vətəndaşlar, həmçinin vətəndaşların öz aralarında yaranan ümumi tənzimləyici-mühafizəedici və konkret tənzimləyici hüquq münasibətləri buna misaldır.

Belə hüquq münasibətləri ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, habelə vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiə olunması üzrə fəaliyyəti həyata keçirən polis orqanlarının vəzifələrindən (subyektiv hüquqlarından) irəli gəlir; həm də bu münasibətlər, mahiyyətcə, horizontal münasibətlər olmaqla ictimai qaydalar sferasında münasibətlərin məğzini, normal məzmununu təşkil edir, yəni hakimiyyət subyekti və tabeçilik obyekti olmayan hüquqi əlaqə formasıdır.

Horizontal polis-hüquq münasibətləri «subyekt – subyektə qarşı» formulu üzrə mövcud olur. Lakin inzibati xəta törətmiş şəxsə qarşı polis orqanı tərəfindən inzibati məcburetmə

tədbirlərinin tətbiq edilməsi anından horizontal polis-hüquq münasibətləri vertikal polis-hüquq münasibətlərinə çevrilərək, artıq «hakimiyyət – tabeçilik» formulu üzrə düzlənirlər.

Polis-hüquq münasibətləri hüquqi xarakterə görə də fərqləndirilir və bir az əvvəl qeyd etdiyimiz kimi, onların iki növü mövcuddur: maddi və prosessual. Polis fəaliyyəti spesifik xassə baxımından ciddi prosedur-prosessual reqlamentləşdirmə tələb edir; həm tənzimləyici, həm də mühafizəedici polis-hüquq münasibətləri bütövlükdə həm maddi, həm də prosessual hüquq münasibətləri ilə sıx surətdə əlaqəlidir.

**Maddi polis-hüquq münasibətləri** maddi-hüquq normaları əsasında yaranır. Polis hüququnun maddi normaları müvafiq hüquq münasibətləri subyektlərinin səlahiyyət və vəzifələrinin məzmununu müəyyən edir. İXM-də xeyli sayda maddi-hüquq normaları ehtiva olunur; məsələn, inzibati xəta törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunaraq tənbeh edilir. Deməli, İXM bu konteksdə müvafiq maddi-hüquq xarakterli polis-hüquq münasibətləri müəyyənləşdirir.

**Prosessual polis-hüquq münasibətləri** isə prosessual normalar bazasında əmələ gəlir və mahiyyətcə, maddi polis-hüquq münasibətlərindən törəmədir. Belə ki, əgər maddi polis-hüquq normaları müvafiq subyektlərin səlahiyyət və vəzifələrinin məzmununu müəyyən edirsə, prosessual polis-hüquq normaları isə göstərilən səlahiyyət və vəzifələrin hansı qaydada realizə olunmasını bildirir. Prosessual polis-hüquq münasibətləri subyektlərin hüquq və vəzifələrinin həyata keçirilməsi prosedurunu, hüquqi məsələnin həlli qaydasını nəzərdə tutur. Məsələn, İXM-in III–V bölmələri inzibati xətalar haqqında işlər üzrə icraat qaydalarını müəyyənləşdirir.

Eyni zamanda qeyd etmək lazımdır ki, törədilmiş inzibati xəta əsasında yaranan maddi polis-hüquq münasibətləri inzibati xəta haqqında işlər üzrə icraat zamanı genişlənərək prosessual polis-hüquq münasibətlərinə çevrilir.

# IV FƏSİL ÜZRƏ SXEM




Polis-hüquq münasibətləri
təsnifat növləri
hüququn funksiyasına görə
subyektlərin fərdiləşdirilməsi üsuluna görə
əlaqə xarakterinə görə
hüquqi xarakterə görə
tənzimləyici polis-hüquq münasibətləri
mühafizə-edici polis-hüquq münasibətləri
ümumi polis-hüquq münasibətləri
konkret polis-hüquq münasibətləri
vertikal polis-hüquq münasibətləri
horizontal polis-hüquq münasibətləri
maddi polis-hüquq münasibətləri
prosessual polis-hüquq münasibətləri

# V FƏSİL. POLİS HÜQUQUNUN MƏNBƏLƏRİ

## 5.1. Polis hüququnun mənbələri anlayışı və əlamətləri

### 5.1.1. Polis hüququnun mənbələri anlayışı

Qeyd etmək lazımdır ki, polis-hüquq normaları cəmiyyətdə insanlara, vəzifəli şəxslərə, dövlət orqanlarına və s. şəxslərə qarşı yönəlmişdir ki, həmin normalar onlar tərəfindən yerinə yetirilir, icra olunur və tətbiq edilir. İnzibati hüququn digər normaları kimi, polis-hüquq normaları da hüququn mənbəyindən kənarda mövcud ola bilməz. Fəlsəfi baxımdan, əgər polis-hüquq normaları «məzmun»dursa, onların cəmiyyətə çatdırılması məqsədilə əks olunduqları aktlar «forma»dır və bu, hüququn mənbəyi adlanır.

Ümumiyyətlə, elmi dövriyyədə göstərildiyi kimi, hüququn mənbələri dövlətin hüquqyaratma sahəsində fəaliyyətinin zahiri təzahür formalarını ifadə edir. Hüququn inkişaf tarixində aşağıdakı növ **hüquq mənbələri** fərqləndirilir:[1]

- hüquqi adət;
- normativ hüquqi akt;
- normativ müqavilə.

Belə ki, **hüquqi adətlər** hüququn mənbə növlərindən biri sayılır. Tarixən dəfələrlə təkrar edilən və dövlətlər tərəfindən ümumməcburi qayda kimi sanksiyalaşdırılan (tanınan və müdafiə olunan) davranış qaydasına hüquqi adətlər deyilir.

Hüququn əsas və mühüm mənbə növü **normativ hüquqi aktlar** hesab edilir. Normativ hüquqi akt dedikdə tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla

---

[1] *Bu barədə daha ətraflı bax:* məsələn, Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı, 1991, s.506-507; Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.126-129 və s.

və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq məqsədilə nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd başa düşülür.[1]

Hüququn mənbə növlərindən digəri **normativ müqavilələrdir**. Bu müqavilələr ümumi xarakterli məcburi davranış qaydası (hüquq norması) müəyyən edir. Normativ müqavilələr dedikdə, hər şeydən əvvəl, beynəlxalq hüquqi aktlar (beynəlxalq müqavilə, konvensiya, saziş və s.) başa düşülür. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlərdən gedir ki, onlar hüququn mənbəyi kimi çıxış edirlər.

Yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, **polis hüququnun mənbələri** dedikdə polis-hüquq normalarının zahirən ifadə edildiyi və mövcud olduğu formalar başa düşülür. Bu, hüquqi (formal) mənada polis hüququnun mənbələrinə verilən anlayışdır. Polis hüququnun mənbələri həm də maddi mənada işlədilir. Belə ki, maddi mənada polis hüququnun mənbələri dedikdə onun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin – polis-hüquq münasibətlərinin özü başa düşülür. Yalnız hüquqi mənada polis hüququnun mənbələri hüquqi kateqoriya hesab edilir və buna görə də, elmi cəhətdən tədqiq olunur, öyrənilir.

Polis hüququnda mənbə növü kimi normativ hüquqi aktlar və inzibati müqavilələr[2] əhəmiyyətli yer tutur. Düzdür, unutmaq olmaz ki, «hüququn mənbəyi» anlayışı **geniş mənada**

---

[1] *Bax:* «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının 21.12.2010-cu il tarixli Konstitusiya Qanunu (maddə 1.0.1.).

[2] İnzibati-hüquqi müqavilə dedikdə inzibati hüquq və vəzifələrin yaranmasına, dəyişməsinə və xitam edilməsinə səbəb olan, idarəçilik münasibətlərinin iştirakçıları üçün məcburi sayılan və inzibati-hüquq normaları müəyyənləşdirən saziş başa düşülür. Bu barədə ətraflı bax: Abışov V.G., İsmayılov A.V., Eyvazov H.Q. İnzibati hüquq. Dərs vəsaiti. 3 hissədə. 1 hissə. Bakı, 2004, s.224-227.

traktovka (izah və ya şərh) edilə bilər; bu baxımdan, onun məna yükü altında dövlətin iradəsi başa düşülür, çünki dövlət olmayan yerdə hüquq da yoxdur; hüquq normaları yalnız dövlət çərçivəsində formalaşır, insanların məcburi davranış qaydalarına çevrilir və dövlətin müstəsna ictimai məhsulu sayılır.

Lakin hüquqşünaslıq elmində «hüququn mənbəyi» anlayışının **məhdud mənada** işlədilməsi qəbul olunmuşdur (yəni dövlətin normativ iradəsinin ifadəolunma forması, yaxud hüquq normaları ehtiva edən sənəd kimi). Bu nöqteyi-nəzərdən, polis-hüquq normaları ehtiva edən sənəd (normativ akt, müqavilə və s.) polis hüququnun mənbəyi kimi başa düşülməlidir; vətəndaşlar, dövlət orqanları və digər şəxslər polis-hüquq normaları haqqında müvafiq informasiyanı məhz bu mənbədən əldə edirlər.

Polis hüququ mənbələrinin **sayı** əhəmiyyətli dərəcədə çoxdur; onlara aşağıdakılar aiddir: yalnız polis-hüquq normaları ehtiva edən normativ hüquqi aktlar (məsələn, PQ, YHQ və s.), polis-hüquq normalarını qismən nəzərdə tutan mənbələr – belə mənbələrdə polis-hüquq normaları ilə yanaşı, digər hüquq sahələrinin (mülki, əmək və s.) normaları da mövcud olur (məsələn, MM, ƏM, Vergi Məcəlləsi və s.) .

### 5.1.2. Polis hüququ mənbələrinin əlamətləri

Polis hüququnun mənbələrini xarakterizə edən bir sıra müəyyən **əlamətlər** mövcuddur. **Birinci** əlamət ondan ibarətdir ki, polis hüququnun mənbəyi dedikdə səlahiyyətli orqanın normativ məzmuna malik olan aktı, yəni müvafiq hüquq normaları ehtiva edən akt başa düşülür. Bu qəbildən olan mənbələr sırasına aiddir: qanunlar, qanunqüvvəli aktlar, Prezidentin fərmanları, Hökumətin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları və polis fəaliyyəti sahəsində ictimai münasibətləri tənzimləyən digər aktlar. Lakin bu aktları həmin orqanların hüquqtətbiqetmə fəaliyyəti prosesində qəbul etdikləri və ya imzaladıqları aktlarla qarışdırmaq olmaz. Belə

ki, məsələn, Dövlət Başçısı tərəfindən «daxili işlər naziri» vəzifəsinə hər hansı şəxsin təyin edilməsi barədə imzalanan fərman polis-hüquq normaları ehtiva etmir və buna görə də, o, hüququn mənbəyi sayıla bilməz. Ancaq Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamə normativ məzmuna malik olduğu üçün polis hüququnun mənbəyi sayılır.

Çoxsaylı hüquq mənbələrinin mövcud olması polis hüququnun mənbələrini səciyyələndirən **ikinci** xarakterik əlamətdir. Polis-hüquq normaları müxtəlif hüquqyaradıcı orqanlar tərəfindən işlənib hazırlanır və bunun da nəticəsində onlar, praktiki olaraq, xeyli sayda normativ aktlar üzrə «səpələnirlər». Belə ki, polis fəaliyyətinin funksiya və metodları, həmçinin inzibati məsuliyyət haqqında müddəalar nəzərdə tutan istənilən hüquqi akt polis hüququnun mənbəyi ola bilər (məsələn, qanunlar, qanunqüvvəli aktlar, bələdiyyə orqanlarının aktları və s.). İnzibati hüququn yarımsahəsi kimi polis hüququnda digər hüquq sahələrindən (məsələn, cinayət, mülki, əmək və s.) fərqli olaraq, bu yarımsahənin bütün başlanğıc müddəalarının cəmləşdirildiyi əsas normativ akt mövcud deyil; polis hüququnun mənbəyi kimi İXM-i də öz məzmun və funksional yönüm planında bu rolda «iddia etmək» qeyri-mümkündür. Lakin polis-hüquq normaları ehtiva edən normativ aktların çoxsaylı və müxtəlif olmasına baxmayaraq, onlar öz aralarında uzlaşaraq vahid normativ sistem yaradırlar və bu sistem əsasında normal polis fəaliyyəti həyata keçirilir.

**Üçüncü** mühüm əlamət odur ki, polis hüququ mənbələrinin sistemi ciddi iyerarxiya xüsusiyyətinə malikdir. Polis hüququ mənbələrinin iyerarxiya əlaməti üzrə düzlənməsi polis aktları qəbul edən hüquqyaratma orqanlarının müxtəlif səviyyəli olması və bunun da nəticəsində polis-hüquq normaları ehtiva edən ayrı-ayrı növ normativ aktların müxtəlif dərəcədə hüquqi qüvvəyə malik olmaları ilə şərtlənir. Ona görə də polis hüququnun hər bir mənbəyi sözügedən sistemin vertikalında

müvafiq yer tutur; həm də bu yer normativ aktın hüquqi qüvvəsindən asılı olaraq törəyir. Belə ki, göstərilən sistemdə ən yüksək yeri Azərbaycan Respublikasının Konstitusiyası tutur; sonra isə bu sistemdə qanunlar, qanunqüvvəli aktlar (bunların da çərçivəsində polis hüququnun mənbələri ciddi iyerarxiya prinsipi üzrə qurulur – Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının aktları və s.), daha sonra isə yerli özünüidarə orqanlarının müvafiq aktları yerləşir.

## 5.2. Polis hüququnun mənbə növləri

### 5.2.1. Polis hüququ mənbələrinin təsnifatı

Polis hüququnun mənbələrini müxtəlif meyarlar üzrə təsnif etmək mümkündür. Hal-hazırda polis hüququnun bütün mənbə növləri yalnız «yazılmış hüquqlar» formasında çıxış edir.

Normativ aktın **hüquqi qüvvəsindən** və həmin aktda təqdim edilən **polis-hüquq normalarının həcmindən** asılı olaraq, polis hüququnun mənbələrini yeddi növ üzrə qruplaşdırmaq olar.

**Birinci**, polis hüququnun əsas mənbə növü **qanunlardır**. Söhbət, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasından (1995-ci il) və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından (1998-ci il) gedir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında – Əsas Qanunda hüquq-mühafizə yönümlü hüquq normaları ehtiva olunur (məsələn, 24, 25, 26, 31, 32 və s. maddələr); həmçinin Naxçıvan Muxtar Respublikasının Konstitusiyası da bu məsələlərə toxunur (məsələn, 7, 24, 39 və s. maddələr).

Məlum olduğu kimi, polis fəaliyyəti hüquq-mühafizə xarakterli olduğuna görə Əsas Qanunun müvafiq müddəaları polis orqanlarının fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın sözügedən normaları, hər şeydən əvvəl, kons-

titusiya hüququnun normaları olmaqla yanaşı, eyni zamanda, onların əsasında polis normativ aktları işlənib hazırlanır.

Polis hüququnun mənbəyi hesab edilən digər qanunlar sırasında aşağıdakıları göstərmək olar: «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il), «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il), «Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu (2004-cü il), «Pasportlar haqqında» Azərbaycan Respublikasının Qanunu (2014-cü il dəyişiklikləri ilə), «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1998-ci il) və s.

Bu qanunların müvafiq müddəaları polis fəaliyyətinin reqlamentləşdirilməsində vacib rol oynayır.

**İkinci,** polis hüququnun mənbə növlərini təhlil edərkən müvafiq **məcəllələr** polis-hüquq münasibətlərinin nizama salınmasında vacib yer tutur. Məcəllə dedikdə ictimai münasibətlərin müəyyən sferasını tənzimləyən hüquq normalarının birləşdirildiyi və sistemləşdirildiyi qanunverici akt başa düşülür. Məcəllə ümumi və xüsusi hissələrə bölünməklə müvafiq bölmə, fəsil və maddələrdən ibarət olur. Polis hüququnun mənbəyinə aidiyyəti olan məcəllələr sırasında MM, CM, İXM, İPM və digər aktları fərqləndirmək mümkündür.

**Üçüncü**, polis hüququnun mənbə növləri sırasında iyerarxiya qaydasında növbəti yeri **qanunqüvvəli** aktlar tutur. Belə aktlara Prezidentin fərmanları, Hökumətin qərarları və digər sahəvi aktlar aiddir. Təbii ki, sözügedən qanunqüvvəli aktlar polis-hüquq normaları ehtiva etdikdə, onlar polis hüququnun mənbəyi kimi çıxış edir və ölkənin bütün ərazisində icra olunmaq üçün məcburi hüquqi qüvvəyə malikdir. Məsələn, «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 23.01.2006-cı il tarixli Fərmanı və s.

**Dördüncü**, polis hüququnun digər mənbə növü müvafiq **əsasnamələr** hesab edilir. Əsasnamə, bir qayda olaraq, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində polis orqanlarının hüquqi statusunun təfsilatı ilə müəyyənləşdirilməsi, habelə qanunvericiliyə uyğun səlahiyyətlərin həyata keçirilməsinin təmin olunması məqsədilə qəbul edilir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamə buna misaldır.

**Beşinci**, normativ aktların daha tipik forması olan **qaydalar** da polis hüququnun mənbə növlərindən biridir. Qaydalar dedikdə geniş polis fəaliyyətinin hər hansı bir sferasında ictimai münasibətləri tənzimləyən normativ akt başa düşülür. Belə aktlar, adətən, Hökumət qərarları ilə təsdiq olunur. Məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27.01.2000-ci il tarixli 10 nömrəli qərarı ilə «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması» Qaydaları təsdiq edilmişdir və s. Ona görə də, Azərbaycan Hökumətinin normativ xarakterli aktları bütövlükdə polis hüququnun mənbəyi kimi müvafiq ictimai münasibətlərin tənzimlənməsində vacib rol oynayır.

Polis-hüquq münasibətlərinin nizama salınmasında, **altıncı**, sahəvi aktlar kimi müvafiq **təlimat və inzibati reqlamentlər** də əhəmiyyətlidir. Təlimat dedikdə polis fəaliyyətinin konkret sahəsində ictimai münasibətləri daha təfsilatı ilə tənzimləmək məqsədilə DİN tərəfindən qəbul edilən spesifik normativ akt başa düşülür. Məsələn, DİN-in 19.01.2012-ci il tarixli Q2-001-12 nömrəli qərarı ilə təsdiq edilmiş «Yol-patrul xidməti haqqında» Təlimat, 25.06.2009-cu il tarixli 358 nömrəli əmri ilə təsdiq edilmiş «Polis sahə məntəqəsi haqqında» Təlimat və s. normativ aktlar. İnzibati reqlament dedikdə polis fəaliyyəti sahəsində elektron xidmətlərin göstərilməsi ilə bağlı ictimai münasibətlərin daha dəqiq formada tənzimlənməsi məqsədilə DİN-in müvafiq qərarları ilə təsdiq edilən spesifik hüquqi akt-

lar başa düşülür. Məsələn, DİN-in Kollegiyasının 30.11.2012-ci il tarixli Q65-001-12 nömrəli qərarı ilə təsdiq edilmiş «Sürücülük vəsiqəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə» İnzibati Reqlament bu qəbildən olan aktlara aiddir. DİN tərəfindən sahəvi normativ akt formasında təsdiq olunmuş müvafiq təlimat və inzibati reqlamentlər polis hüququnun mənbəyi kimi polis-hüquq münasibətlərinin nizama salınmasında xüsusi rola malikdir. Bu tip sənədlər hüquq ədəbiyyatı səhifələrində, bəzən, «daxili normativ akt» kimi də adlandırılır.

**Yeddinci**, digər tipik sahəvi normativ akt qismində müvafiq **nizamnamələr** polis hüququnun mənbə növləri sırasında vacib yer tutur. Nizamnamə dedikdə ictimai münasibətlərin müəyyən sahəsində polis fəaliyyətinin hüquqi statusunu müəyyənləşdirən qaydaların məcmusu başa düşülür; söhbət, təbii ki, polis xidməti sahəsindəki nizamnamələrdən gedir. Polis hüququnun mənbəyi kimi, məsələn, DİN-in 16.06.2009-cu il tarixli 330 nömrəli əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası daxili işlər orqanlarının İntizam Nizamnaməsi» müvafiq polis-hüquq münasibətlərinin qaydaya salınmasında əhəmiyyətli rol oynayır.

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, **lokal normativ aktlar** da (idarə, təşkilat və müəssisələrin nizamnamələri, onların rəhbərlərinin normativ əmrləri, kollektiv müqavilələr və s.) polis hüququnun mənbəyi kimi çıxış edə bilər.

Eyni zamanda polis hüququnun mənbə növlərini digər meyarlar üzrə də təsnifləşdirmək mümkündür. Polis-hüquq normalarının ifadə olunduğu **normativ aktların mənsubiyyət** meyarı üzrə polis hüququnun aşağıdakı mənbə növlərini fərqləndirmək olar:

- milli (dövlətdaxili) qanunvericilik aktları;
- beynəlxalq müqavilələr;
- hüquqi adətlər.

Polis fəaliyyəti sahəsində **milli (dövlətdaxili) qanunvericilik aktları** dedikdə polis-hüquq münasibətlərinin tənzimlənməsi məqsədilə qəbul edilmiş qanunlar, qanunqüvvəli aktlar, DİN tərəfindən təsdiq olunmuş sahəvi normativ aktlar, yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının normativ xarakterli qərarları, habelə idarə, müəssisə və təşkilatların lokal normativ aktları başa düşülür.

Polis fəaliyyətinin təmin olunması sahəsində **beynəlxalq müqavilələr** dedikdə hər hansı xarici dövlət və ya beynəlxalq dövlətlərarası təşkilatlarla yazılı formada bağlanmış, polis-hüquq normaları ehtiva edən beynəlxalq aktlar (saziş, müqavilə, konvensiya, akt, protokol, kontrakt, kommünike və s.) başa düşülür[1]. Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla beynəlxalq müqavilələri Azərbaycan Respublikası adından (dövlətlərarası müqavilələr) və Azərbaycan Respublikasının hökuməti adından (hökumətlərarası müqavilələr) bağlanır. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (DİN) tərəfindən bağlanılan beynəlxalq müqavilələr də hökumətlərarası müqavilələr sayılır.[2] Azərbaycan Respublikasının Konstitusiyasına görə (maddə 148), Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Deməli, polis fəaliyyəti ilə əlaqədar bu sahədə bağlanılmış beynəlxalq müqavilələr polis hüququnun mənbəyi kimi çıxış edir.

Polis fəaliyyətinin həyata keçirilməsində hüquqi adətlərdən də istifadə olunması istisna deyil. **Hüquqi adətlər** dedikdə praktikada tədricən formalaşan, eyni hərəkət və ya hərəkətsizliyin uzun müddət təkrarlanması yolu ilə yaradılan və dövlət tərəfindən sanksiyalaşdırılan, yəni məcburi qüvvəsi olan hü-

---

[1] *«Beynəlxalq müqavilə» anlayışı barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, стр.488.

[2] *Bu barədə bax:* «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» Azərbaycan Respublikasının 13.06.1995-ci il tarixli Qanunu (maddə 2).

quq normaları kimi tanınan davranış qaydaları başa düşülür. Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi hüquqi adətləri mülki hüququn mənbə növlərindən biri hesab edir. Bu o deməkdir ki, milli qanunvericilik hüquqi adətləri hüququn mənbəyi kimi tanıyır və qəbul edir. Düzdür, polis hüququnda hüquqi adətlər hələlik mövcud olmasa da, gələcəkdə belə mənbə növü formalaşa bilər.

Polis-hüquq münasibətlərini nizama salan hüquq normalarının təsbit edildiyi normativ aktların **əsas olması** meyarı üzrə polis hüququnun mənbələrini iki növə bölmək olar:

– əsas mənbə;

– yardımçı mənbə.

Polis hüququnun **əsas mənbəyi** odur ki, bu növ mənbə polis-hüquq münasibətlərinin başlıca tənzimetmə formasıdır. Polis hüququnun tənzimetmə predmetinə daxil olan münasibətlər, ilk növbədə, həmin mənbə növü vasitəsi ilə tənzimlənir. Məsələn, PQ polis hüququnun əsas mənbə növünə aiddir. Eyni zamanda, inzibati hüququn əsas mənbə növləri həm də onun yarımsahəsi olan polis hüququnun əsas mənbələri sayılır.

Polis hüququnun **yardımçı mənbəyi** odur ki, bu mənbə növündən, adətən, lokal xarakterli polis-hüquq münasibətlərinin tənzimlənməsində istifadə edilir; buna görə də, polis hüququnun yardımçı mənbəyi köməkçi xarakter daşıyır. Məsələn, polis fəaliyyətinin tənzimlənməsilə bağlı yerli özünüidarə orqanlarının normativ xarakterli qərarları polis hüququnun yardımçı mənbə növünə aiddir.

Polis-hüquq münasibətlərinin bütün növlərini **tənzimləmək** meyarına görə polis hüququnun iki növü fərqləndirilir:

– universal mənbə;

– xüsusi mənbə.

Polis hüququnun **universal mənbəyi** dedikdə polis-hüquq münasibətlərinin bütün növlərini tənzmləmək üçün istifadə olunan mənbə başa düşülür. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyası polis hüququnun universal mənbə növünə aiddir.

Polis hüququnun **xüsusi mənbəyi** odur ki, bu mənbə növü vasitəsi ilə yalnız ayrı-ayrı, məhdud xarakterli məsələlər tənzimlənir. Məsələn, yol hərəkəti sahəsində polis-hüquq münasibətlərini tənzimləyən YHQ polis hüququnun xüsusi mənbə növünə aiddir.

Polis hüququnun mənbələri **törəmə olub-olmaması** meyarına görə iki növə bölünür:

– ilkin mənbə;

– törəmə mənbə.

Polis hüququnun **ilkin mənbəyi** dedikdə polis fəaliyyəti sahəsində ictimai münasibətlərin nizama salınmasında dövlətin iradəsinin hüquqi ifadə forması başa düşülür. Bu mənbə növündə dövlət tərəfindən polis-hüquq normalarının yaradılması prosesinin nəticəsi ifadə olunur, əks olunur. Məsələn, PQ, ƏFQ polis hüququnun ilkin mənbəyi sayılır.

Polis hüququnun **törəmə mənbəyi** dedikdə ikinci dərəcəli mənbə başa düşülür. Belə mənbə növü hesab edilən aktlar dövlət tərəfindən deyil, polis hüququnun subyekti sayılan orqanlar tərəfindən qəbul olunur. Məsələn, «Azərbaycan Respublikası daxili işlər orqanlarının İntizam Nizamnaməsi»[1] polis hüququnun törəmə mənbə növünə aiddir.

### 5.2.2. Polis qanunvericilik aktları polis hüququnun mənbəyi kimi

Əvvəllərdə qeyd etdiyimiz kimi, milli (dövlətdaxili) polis qanunvericilik aktları polis hüququnun mənbə növlərindən biridir. Mətləbə keçməmişdən əvvəl polis hüququ ilə polis qanunvericiliyi arasındakı münasibətə aydınlıq gətirməyə çalışaq. Belə ki, «**polis hüququ**» və «**polis qanunvericiliyi**» kimi iki anlayış sinonim, eynimənalı anlayışlar hesab edilmir. Onlar ilk

---

[1] İntizam Nizamnaməsi DİN-in 16.06.2009-cu il tarixli 330 nömrəli əmri ilə təsdiq edilmişdir.

baxışdan bir-birinə bənzər olsalar da, məna və mahiyyətcə üst-üstə düşmürlər. Hüquq nəzəriyyəsində və təcrübəsində də bu iki anlayış eynimənalı anlayışlar kimi işlədilmir.

Fəlsəfi baxımdan polis hüququ ilə polis qanunvericiliyi arasındakı münasibət «mahiyyət» və «hadisə» arasında olan əlaqə kimidir. Belə ki, əgər polis hüququ mahiyyətdirsə, polis qanunvericiliyi hadisədir. Hadisə isə mahiyyətin təzahür etdiyi və ifadə olunduğu xarici formadır.[1]

**Polis hüququ** polis fəaliyyəti sahəsində ictimai münasibətləri tənzimləyən müvafiq hüquq normalarından ibarətdir. Bu normalar qanunlarda, qanunqüvvəli aktlarda zahiri şəkildə ifadə olunurlar; onlar bu normaların obyektiv (maddi) forması kimi çıxış edirlər. Beləliklə, həmin normaların zahirən ifadə olunduğu ayrı-ayrı qanunların, qanunqüvvəli aktların və digər normativ hüquqi aktların məcmusu polis qanunvericiliyini əmələ gətirir.

**Polis qanunvericiliyi** dedikdə polis fəaliyyəti ilə bağlı olaraq, əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquq normalarının zahirən ifadə olunduğu ayrı-ayrı qanunların, qanunqüvvəli aktların və digər normativ hüquqi aktların məcmusu başa düşülür. Deməli, polis qanunvericiliyi polis münasibətlərini nizama salan və tənzim edən normativ aktların məcmusu və sistemidir.

Dediklərimizdən belə məlum olur ki, mənaca üst-üstə düşməsələr də, «polis hüququ» və «polis qanunvericiliyi» kimi iki qeyri-identik anlayış bir-birilə sıx surətdə bağlıdır. Belə ki, polis hüququ müvafiq hüquq normalarının məcmusudur; polis-hüquq norması polis hüquq sisteminin ilkin elementi kimi çıxış edir. Polis qanunvericiliyi isə müvafiq normativ hüquqi aktların məcmusudur. Burada polis qanunvericiliyi sisteminin ilkin elementi kimi hüquq norması deyil, normativ akt çıxış edir.

---

[1] *Bax:* Краткий философский словарь/ Под ред. М.Розенталя, П.Юдина. М., 1952, с.508. Eyni zamanda onların arasındakı münasibəti fəlsəfi planda «məzmun» və «forma» kim kateqoriyalarla da fərqləndirmək mümkündür.

Qeyd etdik ki, **polis qanunvericiliyi aktları** polis hüququnun mənbə növlərindən biridir. Bu o deməkdir ki, polis hüququnun mənbələri təkcə polis qanunvericiliyi ilə məhdudlaşmamışdır və yalnız həmin qanunvericilikdən ibarət deyildir. Ona görə ki, «polis qanunvericiliyi» anlayışı ilə polis hüququnun əsas mənbə növü olan normativ hüquqi aktlar əhatə olunur. Deməli, polis hüququnun polis qanunvericiliyindən başqa, digər mənbə növləri də vardır ki, bu da müvafiq beynəlxalq müqavilələrdən və hüquqi adətlərdən ibarətdir. Beləliklə, polis qanunvericiliyi polis hüququnun «normativ hüquqi aktlar» adlı növünü, yəni hissəsini özündə birləşdirir. Bu, polis qanunvericiliyini polis hüququndan fərqləndirməyə imkan verən başlıca cəhətlərdən biridir. Əgər polis hüququ, yuxarıda göstərdiyimiz kimi, hüquq normalarının sistemi və birləşməsidirsə, polis qanunvericiliyi də polis-hüquq normalarının öz rəsmi ifadəsini tapdığı normativ hüquqi aktların məcmusudur. Söylədiklərimiz belə bir nəticəyə gəlməyə imkan verir ki, «polis hüququ» və «polis qanunvericiliyi» kimi iki fenomen identik (eyni-mənalı) və sinonim hadisələr deyildir.

Hər bir hüquqi fenomen kimi polis qanunvericiliyi də müəyyən **funksiya** yerinə yetirir. Onun iki əsas funksiyası vardır:

– tənzimləmə funksiyası;
– qoruma funksiyası.

Polis qanunvericiliyinin **tənzimləmə funksiyasının** mahiyyəti ondan ibarətdir ki, o, polis hüququ subyektlərinin hüquqi vəziyyətini müəyyənləşdirir, polis-hüquq münasibətlərini nizama salır.

Polis qanunvericiliyinin **qoruma funksiyasının** mahiyyəti ondan ibarətdir ki, o, polis hüququ subyektlərinin hüquqlarını və qanunla qorunan mənafelərini müdafiə edir.

Polis qanunvericilik sisteminin **tərkib hissəsi** kimi qanunlar, qanunqüvvəli aktlar və digər normativ hüquqi aktlar polis hüququnun mənbə növü qismində əhəmiyyətli rol oynayırlar. Qanunlar sivil dövlətlərdə əsas və başlıca normativ hüquqi akt

hesab olunur; onlar hüququn əsas mənbə növü kimi çıxış edirlər və dövlətin əsas qanunu Konstitusiya sayılır.

Eyni zamanda, qəbul etmək lazımdır ki, polis qanunvericiliyinin şaquli və üfüqi strukturuna daxil olan aktları öz məzmununa görə **iki qrupa** bölmək olar:

– kompleks-məcəlləşdirilmiş aktlar;

– sadə aktlar.

**Kompleks-məcəlləşdirilmiş aktlar** (kodifikasiya olunmuş, sistemləş-dirilmiş aktlar) eyni növlü deyil, müxtəlif növlü ictimai münasibətləri tənzim edir. Bu cür aktlar özündə eyni vaxtda polis-hüquq normalarından başqa, həm də müxtəlif hüquq sahələrinin (məsələn, mülki, inzibati, cinayət və s. hüquq sahələrinin) normalarını ifadə edir.

**Sadə aktlar**, bir qayda olaraq, müxtəlif növlü deyil, bir-birinə yaxın olan eyni növlü münasibətləri nizama salır. Bu aktlar məcəlləşdirilmiş-kompleks aktları detallaşdırır, konkretləşdirir, tamamlayır və onlara əlavələr edir.

Əsas qanun kimi **Azərbaycan Respublikasının Konstitusiyası** (1995-ci il) polis qanunvericiliyinin hüquqi bazası rolunda çıxış edir. Burada göstərilir ki, Milli Məclis cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi barədə ümumi qaydalar müəyyən edir.[1] Konstitusiya polis qanunvericiliyi sisteminin başında durur; o, ölkənin bütün qanunvericilik sistemində, o cümlədən polis qanunvericiliyi sistemində mühüm və vacib yer tutur. Bu, roman-german (kontinental) hüquq ailəsi ölkələrində formalaşmış ənənəyə uyğundur. Belə ki, həmin ölkələrin iyerarxiya prinsipinə əsaslanan normativ aktlar sistemində Konstitusiya ən yuxarı pillədə durur.[2]

---

[1] *Bax:* Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsi // AR QK. II cild. Bakı, 1997, s.590.

[2] *Bax:* Rene Давид, Камилла Жоффре-Спинози. Основные правовые системы современности. М., 1999, с.78; «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 21.12.2010-cu il (maddə 2).

Konstitusiyadan sonra adi qanunlar polis qanunvericiliyi sistemində mühüm rol oynayır. Adi qanunlar, öz növbəsində, Konstitusiya qanunlarının əsasında və həmin qanunların icrası üçün qəbul edilir, ictimai həyatın müəyyən və məhdud sahələrini tənzimləyir. Bu cür qanunlar cari qanunvericiliyi təşkil edir. Ona görə də, çox vaxt həmin qanunları cari qanunlar da adlandırırlar.

**Adi qanunlar** ölkənin iqtisadi, ictimai, sosial və mədəni həyatının, polis fəaliyyəti işinin müxtəlif sahələrini qaydaya salır. Bu qanunlar Konstitusiya müddəalarını detallaşdırır və konkretləşdirir; onların çoxu xüsusi qanunlar sayılır. Xüsusi qanunlar polis hüququnun predmetinə daxil olan ictimai münasibətləri, eləcə də bu münasibətlərin ayrıca növlərini nizama salır. Məsələn, PQ bu qəbildən olan qanunlara misal çəkilə bilər.

**Üzvi qanunlar** adi (cari) qanunların xüsusi xarakterli yarımnövü hesab edilir; onlara məcəlləşdirilmiş qanunlar da deyilir. Məcəlləşdirilmiş (üzvi) qanunlar hüquqi cəhətdən tam, daxilən uyğun gələn elə qanunlardır ki, onlar ictimai həyatın müəyyən sahəsini kompleks surətdə tənzimləmək məqsədinə xidmət edirlər. Bu qanunlar normativ ümumiləşdirmənin yüksək səviyyəsi ilə fərqlənir; onlara nümunə qismində MM, İXM, CM və digər normativ hüquqi aktları göstərmək olar. Bu qanunlar polis qanunvericiliyi sistemində mühüm rol oynayırlar.

**Azərbaycan Respublikasının Mülki Məcəlləsi** məcəlləşdirilmiş qanun kimi polis qanunvericiliyində xüsusi mövqeyə malikdir.[1] O, öz əhəmiyyətinə görə Konstitusiyadan sonra ikinci qanunvericilik aktıdır, ölkənin iqtisadi konstitusiyasıdır, hamı üçün olan qanundur.[2]

Azərbaycan Respublikasında MM 28.12.1999-cu ildə təsdiq edilmiş və 01.09.2000-ci il tarixdən qüvvəyə minmişdir.

---

[1] Mülki Məcəllənin tam mətni verilmişdir: Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. I xüsusi buraxılış. Bakı, 2000, s.263-412.

[2] *Bax:* Яковлев В.В. Вступительная статья // Гражданский Кодекс Российской Федерации. Часть I .М., 1995, с. XXV–XXVI.

Onun əsas məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir. MM-in əsas vəzifəsi (funksiyası) isə bazar iqtisadiyyatı şəraitində ölkə ərazisində mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləməkdən (tənzimləyici funksiya), onların hüquq və qanuni mənafelərini müdafiə etməkdən, fiziki şəxslərin şərəf və ləyaqətini, işgüzar nüfuzunu qorumaqdan (qoruyucu funksiya) ibarətdir. O, mülki hüququn predmetinə aid olan bütün münasibətlərin, o cümlədən vətəndaş cəmiyyətində polis-hüquq münasibətlərinin tənzimlənməsinə yönələn prinsipial əhəmiyyətli qaydalar nəzərdə tutur.

MM-in tənzimlədiyi ictimai münasibətlər arasında mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəlik münasibətləri mühüm yer tutur. Belə ki, MM-in 9-cu bölməsi (fəsil 59–61) mülki hüquq pozuntuları (deliktlər), fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi və s. hallarla bağlı münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Məsələn, MM-in ayrıca bir norması (maddə 1108.3) müəyyənləşdirir ki, yüksək təhlükə mənbələrinin sahibləri bu mənbələrin qarşılıqlı təsiri (nəqliyyat vasitələrinin toqquşması və i.a.) nəticəsində üçüncü şəxslərə dəymiş zərər üçün birgə məsuliyyət daşıyırlar. Təbii ki, polis-hüquq münasibətlərinin təsir sferasına aid olan yol-nəqliyyat hadisələri ilə bağlı münasibətlərin tənzimlənməsində göstərilən norma xüsusi əhəmiyyət kəsb edir. Deməli, buradan belə bir nəticəyə gəlmək mümkündür ki, MM polis hüququnun mənbəyi kimi böyük rola malikdir.

Polis qanunvericiliyinə daxil olan aktlar arasında **«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu** mühüm rol oynayır. Bu normativ hüquqi akt (PQ) polis fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar münasibətləri nizama salır.

PQ Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli 727-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Prezidentinin 11.11.1999-cu il tarixli 205 nömrəli Fərmanı ilə tətbiq olunmuşdur. O, 6 fəsil və 40 maddədən iba-

rətdir; I fəsildə ümumi müddəalar (əsas anlayışlar, polis haqqında qanunvericilik, polisin təyinatı, əsas vəzifələri, polis fəaliyyətinin prinsipləri və istiqamətləri, polisin tərkib hissələri və tabeliyi, polisin beynəlxalq əlaqələri və s.) yer almış (maddə 1 – 12), II fəsildə polis əməkdaşının səlahiyyətləri (ümumi vəzifələr və hüquqlar) təsbit edilmiş (maddə 13–20), III fəsil şəxsi azadlıq, mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılması, fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşının səlahiyyətlərinə həsr olunmuş (maddə 21–27), IV fəsildə polisdə xidmət keçmənin əsasları müəyyənləşdirilmiş (maddə 28–34), V fəsildə polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı məsələlər (maddə 35–38), VI fəsildə isə polis fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı ilə əlaqədar münasibətlər tənzimlənir (maddə 39–40).

Qeyd etmək lazımdır ki, PQ polis hüququnun mənbəyi kimi polis-hüquq münasibətlərinin tənzimlənməsində başlıca və vacib əhəmiyyət kəsb edir.

Polis qanunvericiliyi sisteminə daxil olan aktlar sırasında **«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununu** xüsusilə fərqləndirmək lazımdır. Sözügedən normativ hüquqi akt (ƏFQ) polis hüququnun mənbəyi kimi çıxış edir.

ƏFQ də PQ ilə eyni vaxtda qəbul olunmuş və ölkə ərazisində tətbiq edilmişdir (11.11.1999-cu il). Onu 3 fəsildən ibarət olan 21 maddə təşkil edir; ƏFQ-nin I fəslində ümumi müddəalar (əməliyyat-axtarış fəaliyyətinin anlayışı, prinsipləri, subyektləri, onların hüquq və vəzifələri və s. məsələlər) müəyyənləşdirilir (maddə 1–9), II fəsil əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi məsələlərinə həsr olunmuşdur (maddə 10–16), III fəsildə isə yekun müddəalar (sosial müdafiə, maliyyə təminatı, nəzarət, məsuliyyət və s. məsələlər) özünə yer almışdır (maddə 17–21).

ƏFQ respublika ərazisində DİN və digər müvafiq mərkəzi icra hakimiyyəti orqanları tərəfindən əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri

tənzimləyir və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir.

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsi** polis qanunvericiliyi sisteminə aid olan məcəllələşdirilmiş aktlardan biridir. Göstərilən normativ hüquqi aktın (CM) əsas vəzifələri insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

CM Azərbaycan Respublikasının 30.12.1999-cu il tarixli müvafiq qanun ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26.05.2000-ci il tarixli qanunu ilə 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmişdir. O, ümumi və xüsusi hissəyə malik olmaqla, 35 fəsil və 353 maddədən ibarətdir.

Polis hüququnun mənbəyi kimi, CM polis fəaliyyətinin əsas istiqamətlərindən biri olan cinayətlərin və digər xətaların qarşısının alınması və açılması sahəsində əhəmiyyətli rol oynayır.

Polis qanunvericiliyi sahəsində məcəllələşdirilmiş aktlardan biri də **Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi** (CPM) sayılır və o, 2000-ci ildə qəbul olunmuşdur. CPM cinayət prosesində iştirak edən prosessual şəxslərin, xüsusən də müstəntiqlərin peşəkar fəaliyyətinin hüquqi əsasını təşkil edir. Burada cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri, şərtləri və digər məsələlər ətraflı şəkildə tənzimlənir.[1] O, polis hüququnun mənbəyi kimi xüsusi əhəmiyyət kəsb edir.

Polis qanunvericilik aktları sistemində əsas məcəllələşdirilmiş aktlardan biri də **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsidir**. Adıçəkilən normativ hüquqi akt (İXM) polis hüququnun mənbəyi kimi vacib əhəmiyyətə malikdir.

---

[1] *Adıçəkilən normativ hüquqi aktın qismən kommentariyası barədə bax:* Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / Tərtibçi: V.İbayev. Bakı, 2004, 770 s.

Azərbaycan Respublikasının 29.12.2015-ci il tarixli 96-VQ nömrəli müvafiq qanunu ilə təsdiq edilmiş və 2016-cı il martın 1-dən qüvvəyə minmiş İXM ümumi və xüsusi hissədən, XL fəsil və 609 maddədən ibarətdir; ümumi hissədə inzibati xətalar qanunvericiliyi, onun vəzifələri və prinsipləri, inzibati xəta və inzibati məsuliyyət, inzibati tənbeh və onun tətbiq edilməsi, inzibati xətalar haqqında işlər üzrə icraat qaydaları və s. münasibətlər nizama salınır (maddə 1– 56), xüsusi hissədə isə ictimai münasibətlərin ayrı-ayrı növləri üzrə inzibati xətalar və belə hüquqpozmalara görə inzibati tənbehlər tənzimlənir (maddə 157–609).

İnzibati qanunvericiliyin əsas vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitar-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını,ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilk qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

Qanunvericiliyə əsasən inzibati akt qəbul etmək səlahiyyəti olan icra hakimiyyəti orqanları (o cümlədən polis orqanları) tərəfindən insan hüquq və azadlıqlarına əməl olunmasını təmin etmək və qanunun aliliyinə nail olmaq məqsədilə qəbul edilmiş **«İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanununu** da polis hüququnun mənbəyi hesab olunur. Bu akt 21.10.2005-ci ildə qəbul edilmiş və 2011-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. O, inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfinndən həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir.[1]

Polis qanunvericilik aktları sistemində **«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu** da xüsusi rola malikdir. Adıçəkilən normativ hüquqi akt (YHQ) 03.07.1998-ci ildə qəbul

---

[1] *Bu barədə daha ətraflı bax:* A.Abdullayev, E.Abdullayev. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı, 2007.

edilmiş və Azərbaycan Respublikası Prezidentinin 22.11.1998-ci il tarixli 23 nömrəli Fərmanı ilə qüvvəyə minmişdir.

YHQ yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təşkil etmək məqsədilə kompleks tədbirlər həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyat və sağlamlığının qorunması, ətraf mühitin, xüsusi, bələdiyyə və dövlət əmlakının mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsaslarını və bu sahədə dövlətin, habelə yol hərəkəti iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir. O, 8 fəsil və 87 maddədən ibarətdir.[1]

Yol hərəkəti sahəsində yaranan polis-hüquq münasibətlərinin tənzimlənməsində və qaydaya salınmasında YHQ polis hüququnun mənbəyi kimi mühüm əhəmiyyət kəsb edir.

PQ-də göstərildiyi kimi, polis əməkdaşı dövlət qulluqçusudur. Bu baxımdan, **«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu** polis hüququnun mənbəyi qismində çıxış edir. O, 21.07.2000-ci il tarixdə qəbul edilmiş və 01.09.2001-ci ildən qüvvəyə minmişdir. Qanun dövlət qulluğunda çalışan şəxslərin, o cümlədən müvafiq polis hüququ subyektlərinin hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir.

Polis hüququnun mənbələri sırasında **«Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikası Qanununun** (21.05.2007-ci il) adını da çəkmək yerinə düşərdi. Bu normativ hüquqi akt dövlət qulluqçuları üçün, deməli, həm də polis əməkdaşları üçün etik davranış qaydalarını və prinsiplərini, habelə onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

Azərbaycan Respublikasının 29.06.2001-ci il tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş **«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamə** polis qanunvericiliyi sistemində vacib yerlərdən birini tutan normativ hüquqi aktdır. Bu Əsasnamə polisdə və müva-

---

[1] *Bu barədə daha ətraflı bax:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010.

fiq icra hakimiyyəti orqanı sisteminə daxil olan digər orqan və hissələrdə (daxili işlər orqanlarında) xidmət keçmənin qaydalarını və şərtlərini, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən edir. DİO-da polis-hüquq münasibətlərinin nizama salınmasında göstərilən Əsasnamə polis hüququnun mənbəyi kimi mühüm qanunvericilik aktıdır.

Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş **«Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamə** də polis qanunvericiliyi sisteminə aid olan aktlardan biridir. Belə ki, DİN ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində müvafiq qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. DİN-in funksiyaları, vəzifələri, hüquqları, fəaliyyətin təşkili və s. məsələlərlə bağlı münasibətlər məhz adıçəkilən Əsasnamə ilə reqlamentləşdirilir. Polis hüququnun mənbələri sırasında sözügedən Əsasnamənin əhəmiyyəti və rolu böyükdür.

Polis hüququnun mənbəyi qismində aşağıda göstərilən digər aidiyyəti **normativ hüquqi aktların** adlarını da çəkə bilərik:

– «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (1994-cü il);[1]
– «Pasportlar haqqında» Azərbaycan Respublikasının Qanunu (2018-ci il dəyişikliklərlə);

[1] Adıçəkilən normativ hüquqi akta Azərbaycan Respublikasının 30.12.2011-ci il tarixli 282-IV QD nömrəli Qanunu ilə dəyişikliklər edilmişdir // www.azerbaijan-news.az; həmçinin Azərbaycan Respublikası Prezidentinin 07.02.2012-ci il tarixli Fərmanı ilə «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin Təsviri», «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin Spesifikasiyası» və «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin Nümunəsi» yeni formatda təsdiq edilmişdir // www.xalqqazeti.com. və s. dəyişikliklər.

– «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il);
– «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu (2005-ci il);
– «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (2005-ci il);
– «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının Qanunu (2010-cu il);
– «Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2014-cü il) və s.

Qeyd edilənlərlə yanaşı, **normativ xarakterli aktları** da polis hüququnun digər mənbələri kimi saymaq olar. Söhbət, hər şeydən əvvəl, Konstitusiya Məhkəməsinin qərarlarından gedir. «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu (2010-cu il) bu qərarları normativ xarakterli aktların dairəsinə aid edir (maddə 4.1.1.).

Normativ xarakterli aktlar da ümumməcburedici göstərişlər ifadə edir, hüquq normalarını dəyişdirir, yaradır və ya ləğv edir. Buna görə də onlar hüququn, o cümlədən polis hüququnun mənbəyi hesab edilir.

Məlum olduğu kimi, **Konstitusiya Məhkəməsi** Konstitusiya və qanunların şərhi barədə qərarlar qəbul edir və bu qərarlar da normativ xarakterli aktlar dairəsinə aiddir. Əgər göstərilən məsələlər barəsində Konstitusiya Məhkəməsinin qərarları polis qanunvericiliyi aktlarına toxunarsa, onda həmin qərarlar polis hüququnun mənbəyi kimi çıxış edir. Məsələn, «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin və «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi nümunəsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş «Şəxsiyyət vəsiqəsinin təsviri»nin

müddəalarının şərh olunması barədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31.01.2003-cü il tarixli qərarı və s.

**Yerli orqanların qərarları** normativ xarakterli akt kateqoriyasına aid edilir. Buna görə də, həmin qərarları polis hüququnun mənbəyi hesab etmək olar. Yerli orqanların qərarları iki cür olur:

– yerli özünüidarə orqanlarının qərarları;

– yerli icra hakimiyyəti orqanlarının qərarları.

Bu qərarlar (söhbət normativ xarakterli qərarlardan gedir) polis hüququnun nizamasalma predmetinə aid olan məsələlərə də toxuna bilər. Həmin qərarlar qanunqüvvəli yerli aktlar hesab olunur və onların yalnız yerli şəxslər üçün məcburi hüquqi qüvvəsi vardır.

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, praktikada mövcud olan presedent hüququ, məhkəmə təcrübəsi, Ali Məhkəmə Plenumunun qərarları, hüquq elmi (doktrina) hüququn, o cümlədən polis hüququnun mənbələri siyahısına daxil edilmir.[1]

**DİN-in normativ xarakterli aktları** polis hüququnun mənbəyi kimi xüsusi əhəmiyyətə malikdir. Söhbət polis-hüquq normaları təsbit edən normativ xarakterli aktlardan (nizamnamə, əsasnamə, təlimat, inzibati reqlament və s.) gedir. DİN-in müvafiq əmr və ya qərarları ilə təsdiq edilmiş və polis hüququnun mənbələrinə aid olan belə aktlar sırasında aşağıdakıları göstərmək mümkündür:

– «Daxili işlər orqanları əməkdaşlarının etik Davranış Kodeksi» (08.04.2005-ci il tarixli 130 nömrəli əmr);

– «Polis sahə məntəqəsi haqqında» Təlimat (25.06.2009-cu il tarixli 358 nömrəli əmr);

---

[1] *Onların hüququn mənbəyi sayılmaması barədə ətraflı şəkildə bax:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s.107-113.

– «DİN-in Təhlükəsiz Şəhər Xidməti tərəfindən yol hərəkətinə videonəzarətin tətbiqi haqqında» Qaydalar (01.05.2009-cu il tarixli 247 nömrəli əmr);
– «Azərbaycan Respublikasının daxili işlər orqanlarında veb saytların işinin təşkili qaydalarına dair» Təlimat (30.12.2009-cu il tarixli 770 nömrəli əmr);
– «Təhqiqat işinin təşkilinə dair» Təlimat (30.08.2011-ci il tarixli 560 nömrəli əmr);
– «Yol hərəkəti qaydaları və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraatın təşkilinə dair» Təlimat (12.01.2012-ci il tarixli Q1-001-12 nömrəli qərar);
– «Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması üçün müraciətin və sənədlərin qəbulu üzrə» İnzibati Reqlament (30.11.2012-ci il tarixli Q63-001-12 nömrəli qərar) və s.

Beləliklə, polis hüququnun mənbəyi qismində milli (dövlətdaxili) qanunvericilik aktlarını aşağıdakı kimi fərqləndirmək mümkündür:

– normativ hüquqi aktlar (polis haqqında qanunvericilik aktları);
– Konstitusiya Məhkəməsinin müvafiq qərarları;
– yerli özünüidarə orqanlarının (bələdiyyələrin) polis fəaliyyətinə toxunan normativ xarakterli qərarları;
– yerli icra hakimiyyəti orqanlarının polis fəaliyyətinə aid normativ xarakterli qərarları.

### 5.2.3. Beynəlxalq müqavilələr polis hüququnun mənbəyi qismində

Azərbaycan Respublikasının Konstitusiyasına görə (maddə 148, II hissə), Azərbaycan Respublikasının tərəfdar çıxdığı

beynəlxalq müqavilələr bizim ölkənin qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.[1] Bu o deməkdir ki, həmin müqavilələr **hüququn mənbəyi** hesab edilir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr həm də polis hüququnun mənbəyi kimi çıxış edir. Bu, polis fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyən normativ hüquqi aktlarda birbaşa nəzərdə tutulmuşdur:

– «Polis haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində;
– «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində;
– «Azərbaycan Respublikası Mülki Məcəlləsi»nin 3-cü maddəsində;
– «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində və s.

Bəzən, polis hüququnun mənbəyi kimi çıxış edən beynəlxalq müqavilələr «normativ müqavilə» anlayışı ilə əhatə olunur; nəzəri ədəbiyyatda da bu anlayışdan istifadə edilməsi halına rast gəlirik.[2]

Polis hüququnun mənbəyi rolunda çıxış edən beynəlxalq müqavilələri «beynəlxalq polis saziş və konvensiyaları» adlandırmaq mümkündür; onlardan polis fəaliyyəti ilə bağlı beynəlxalq əlaqələrin həyata keçirilməsində istifadə edilir. Bu saziş və konvensiyalar eyni zamanda Azərbaycan Respublikası polis hüququnun unifikasiya edilməsində nümunə ola bilər.

Dünyada baş verən qloballaşma prosesləri dövründə Azərbaycan Respublikasının dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması, xarici iqtisadi əlaqələrin sərbəstləşdirilməsi, «açıq qapı» siyasətinin həyata keçirilməsi, ölkə iqtisadiyyatının tədricən dünya iqtisadiyyatının tərkib hissəsinə çev-

[1] *Bax:* AR QK. II cild. Bakı, 1997, s.612.

[2] *Bax:* Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.87-89; Теория государства и права. Курс лекций / Под ред. Н.И.Матузова, А.В.Малько. М., 2000, с.378-379 və b.

rilməsi və s. amillər beynəlxalq saziş və konvensiyaların rolunu və əhəmiyyətini daha da artırmışdır. Cinayətkarlıqla mübarizə sahəsində Azərbaycan Respublikasının digər ölkələrlə əməkdaşlıq etmək niyyəti onun müvafiq beynəlxalq polis müqavilələrinə qoşulmasını şərtləndirir.

**Beynəlxalq polis müqavilələri** dedikdə dövlətlə beynəlxalq hüququn digər subyektləri arasında polis fəaliyyəti sahəsində bağlanan, yazılı formada olan razılaşma başa düşülür; onlara polis müqaviləsi də demək olar. Bu müqavilələr ümumməcburi qaydalar (polis-hüquq normaları) müəyyən edir və onları imzalayan iştirakçı-dövlətlər üçün müəyyən hüquq və vəzifələr əmələ gətirir.

Azərbaycan Respublikasının qoşulduğu və iştirakçısı olduğu dövlətlərarası beynəlxalq polis müqavilələri polis hüququnun tənzimetmə predmetinə aid edilən ictimai münasibətlərə birbaşa tətbiq olunur. Belə ki, polis haqqında qanunvericiliyə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələr polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərə tətbiq edilir (PQ, maddə 2). Bu onunla izah edilir ki, Azərbaycan Respublikasının Konstitusiyası bu cür müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olması barədə prinsipial əhəmiyyətli müddəa nəzərdə tutur; həm də polis hüququnun mənbəyi kimi müvafiq beynəlxalq müqavilələr (polis müqavilələri) polis qanunvericilik aktlarından (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) daha yüksək **hüquqi qüvvəyə** malikdir. Bu o deməkdir ki, əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı və ya imzaladığı polis müqavilələrində müəyyənləşdirilən normalar polis qanunvericiliyində nəzərdə tutulan normalardan fərqlənərsə (onlar arasında ziddiyyət yaranarsa), onda beynəlxalq müqavilələrin normaları tətbiq edilir.[1]

---

[1] Belə fikir Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə («Beynəlxalq aktların hüquqi qüvvəsi») əsasən irəli sürülür.

Bununla belə, bəzi hallarda Azərbaycan Respublikasının imzaladığı, qoşulduğu, yaxud tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələr polis hüququ ilə tənzimlənən ictimai münasibətlərə birbaşa tətbiq edilmir. Belə olduğu təqdirdə beynəlxalq müqavilələrin tətbiq olunması üçün ayrıca dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələb olunur. Bu üsul və formaya **implementasiya**[1] deyilir.

İştirakçı-dövlət tərəfindən ratifikasiya edildikdən sonra məcburi hüquqi qüvvəyə malik olan beynəlxalq polis aktları (müqavilələri) müxtəlif formalarda mövcud ola bilər: pakt, konvensiya, xartiya, bəyannamə, konfrans qərarları, minimal qaydalar, əsas prinsiplər, saziş və s. Belə beynəlxalq aktlar dövlət və ya hökumət təşkilatları tərəfindən də qəbul edilə, həmçinin bilavasitə dövlətlər arasında bağlanıla bilər.

Beynəlxalq polis aktlarının **hüquqi tənzimetmə obyektini** müxtəlif məsələlər təşkil edir; onların vasitəsilə aşağıdakı məsələlər müəyyən edilir:

- ictimai təhlükəsizliyin təmin olunması və cinayətkarlıqla mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq;
- cinayət törədilməsində təqsirləndirilən şəxslərin beynəlxalq axtarışı ilə əlaqədar əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;
- cinayət qəsdinin digər obyektləri ilə bağlı münasibətlər;
- müvafiq informasiya mübadiləsi və s.

Polis-hüquq normalarının ifadə olunduğu beynəlxalq müqavilələr aşağıdakı **subyektlər** tərəfindən qəbul edilə və ya bağlana bilər:

- iki və daha çox dövlət arasında;

[1] İmplementasiya (latınca «implere» – yerinə yetirmək, icra etmək; ingiliscə «implementation») – beynəlxalq hüquq normalarının dövlət tərəfindən öz ərazisində realizasiya olunması deməkdir. *Bu barədə ətraflı bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.359.

– beynəlxalq təşkilatlar (dövlətlərarası və hökumətlərarası təşkilatlar) tərəfindən;
– dövlətlə beynəlxalq təşkilatlar arasında;
– beynəlxalq təşkilatların öz aralarında.

Beynəlxalq polis müqavilələrində elə normalar müəyyənləşdirilir ki, onlar dövlətlər arasında polis fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir, bu sahədə üzv-dövlətlər (iştirakçı-dövlətlər) üçün müvafiq hüquq və vəzifələr müəyyən edir. Odur ki, həmin normalar öz xarakterinə görə **beynəlxalq müqavilə normaları** sayılır. Belə ki, beynəlxalq polis aktları həm forma baxımından, həm də məzmun cəhətdən beynəlxalq müqavilənin əlamətlərinə cavab verir.

Hüquq-mühafizə fəaliyyətinin, o cümlədən polis hüququnun mənbəyi sayılan aktlara, ilk növbədə, dövlətlər arasında müvafiq münasibətləri tənzimləyən **universal xarakterli aktları** – BMT sənədlərini aid etmək lazımdır. Bu sırada aşağıdakıları göstərmək olar:

– BMT Baş Assambleyasının 10.12.1948-ci il tarixli 217 A(III) nömrəli Qətnaməsi ilə qəbul və bəyan edilmiş «İnsan hüquqları haqqında» Ümumi Bəyannamə;
– «Mülki və siyasi hüquqlar haqqında» Beynəlxalq Pakt. Bu sənəd BMT Baş Assambleyasının 2200 A(XXI) saylı 16.12.1966-cı il tarixli Qətnaməsi ilə qəbul edilmişdir və imzalanmaq, təsdiq edilmək və qoşulmaq üçün açıqdır, 23.03.1976-cı ildən qüvvəyə minmişdir;
– «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Pakt. Bu sənəd BMT Baş Assambleyasının 2200 A (XXI) saylı 16.12.1966-cı il tarixli Qətnaməsi ilə qəbul edilmiş, imzalanmaq, təsdiq edilmək və qoşulmaq üçün açıqdır, 03.01.1976-cı ildən qüvvəyə minmişdir;
– «İşgəncələrə və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə» Konvensiya. Bu akt BMT Baş Assambleyasının 39/46

saylı 10.12.1984-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş və imzalanmaq, təsdiq və qoşulmaq üçün açıqdır, 26.06.1987-ci ildən qüvvəyə minmişdir;

- «Hüquq-mühafizə orqanları əməkdaşlarının» Davranış Məcəlləsi (BMT Baş Assambleyasının 17.12.1979-cu il tarixli 34/169 saylı Qətnaməsinə əlavə edilmişdir);
- «Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən gücün və odlu silahın tətbiqinin» Əsas Prinsipləri (Havanada 27 avqust – 7 sentyabr 1990-cı ildə keçirilmiş «Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə BMT-nin 8-ci Konqresində qəbul edilmişdir);
- «BMT-nin yeniyetmələr barədə ədalət mühakiməsinin» Minimal Standart Qaydaları («Pekin Qaydaları»). Bu sənəd BMT Baş Assambleyasının 29.11.1985-ci il tarixli 40/33 saylı Qətnaməsi ilə qəbul edilmişdir və s. aktlar.[1]

Cinayətkarlıqla, o cümlədən transmilli cinayətkarlıqla mübarizə aparılması sahəsində dövlətlər beynəlxalq dövlətlərarası (hökumətlərarası) təşkilatlar çərçivəsində əməkdaşlığı inkişaf etdirirlər; bunun da nəticəsində müvafiq beynəlxalq hüquq normalarının, beynəlxalq qayda və standartların formalaşması və inkişaf etdirilməsi, habelə müvafiq məlumat mübadiləsinin həyata keçirilməsi təmin olunur. Belə **beynəlxalq dövlətlərarası təşkilatlar** sırasında aşağıdakıları göstərmək olar: BMT, BMAT, BDT, BYPNT, MDB, ŞƏT və s. Bu təşkilatların fəaliyyətinin ayrı-ayrı aspektləri, dolayı yolla da olsa, cinayətkarlığa qarşı müxtəlif formada qismən mübarizə aparılması məsələlərinə toxunur. Məsələn, beynəlxalq terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövsiyyəsi, çirkli pulların yuyul-

[1] Sadalanan aktların mətni verilmişdir: Hüquq-mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı/ Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı, 2009, s.7-130; İnsan hüquqları və polis. Dərs vəsaiti / R.İ.Rəsulovun redaktəsi ilə. Bakı, 2002, s.169-269 və b.

ması, korrupsiyaya qarşı mübarizə, kontrabanda, piratlıq, kibercinayətkarlıq və s. hüquqpozmalara qarşı mübarizə aparılması həmin təşkilatların aidiyyəti üzrə fəaliyyət predmetinə qismən daxildir.[1]

Eyni zamanda cinayətkarlığa qarşı mübarizə sahəsində dövlətlərin əməkdaşlığının effektliliyinin yüksəldilməsi məqsədilə yaradılmış **beynəlxalq hökumətlərarası təşkilat** da mövcuddur. Söhbət beynəlxalq universal təşkilat olan «İnterpol»dan gedir; onun fəaliyyəti sözügedən sahəyə birbaşa aiddir; polis-hüquq münasibətlərinin nizama salınmasında bu təşkilatın rolu və əhəmiyyəti böyükdür.

**«İnterpol»** təşkilatı 13.06.1956-cı il tarixdən qüvvəyə minmiş müvafiq nizamnamə (beynəlxalq müqavilə) əsasında fəaliyyət göstərir. Təşkilatın yaranma ideyası 1889-cu ilə təsadüf etsə də, o, müxtəlif tarixi mərhələlər keçərək, sonda «Beynəlxalq Kriminal Polis Komissiyası» adı altında formalaşmış və 1956-cı ildə Beynəlxalq Cinayət Polis Təşkilatına çevrilmişdir («İnterpol» adını almışdır); hal-hazırda təşkilatın Azərbaycan Respublikası da daxil olmaqla 186 üzvü (üzv-dövlətlər) vardır.[2]

«İnterpol» təşkilatının əsas məqsədi üzv-dövlətlərin cinayət polis orqanlarının geniş qarşılıqlı əlaqələrinin milli qanunvericilik çərçivəsində təmin olunmasından və inkişaf etdirilməsindən ibarətdir.[3]

Hüquq-mühafizə orqanlarının, o cümlədən polis orqanlarının fəaliyyətinin tənzimlənməsi **regional səviyyədə** də (məsələn, Avropa regionu, MDB, GUAM və s.) həyata keçirilir.

---

[1] *Bu məsələlər barədə ətraflı bax*: Ромашев Ю.С. Международное правоохранительное право. М., 2010, с.70-265.

[2] *«İnterpol» təşkilatının strukturu və digər məsələlər barədə bax:* Родионов К.С. Интерпол: вчера, сегодня, завтра. М., 1990.

[3] *«İnterpol»un məqsədi, funksiyaları, əsas fəaliyyət istiqamətləri və digər prosedurlar barədə ətraflı bax:* Ромашев Ю.С. Международное правоохранительное право. М., 2010, с.308-314; Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.525-527.

**Avropa regionunda** belə səviyyədə tənzimlənmənin hüquqi əsasları kimi Avropa Şurasının aşağıdakı aktlarının adını çəkmək olar ki, onlar həm də, eyni zamanda, polis hüququnun mənbəyi kimi çıxış edirlər:

– «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası (Roma, 04.11.1950-ci il). Bu akt 11 saylı Protokolun redaksiyasında 01.11.1998-ci il tarixdə qüvvəyə minmişdir;
– «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyaya dair Protokol (Paris, 20.03.1952-ci il). Protokol qeyri-rəsmi olaraq «1 saylı protokol» da adlandırılır, onun mətni 01.11.1998-ci il tarixdən qüvvəyə minmişdir; həmçinin 4 saylı Protokol (Strasburq, 16.09.1963-cü il ), 6 saylı Protokol (Strasburq, 28.04.1983-cü il), 7 saylı Protokol (Strasburq, 22.11.1984-cü il), 12 saylı Protokol (Roma, 04.11.2000-ci il), 13 saylı Protokol (Vilnüs, 03.05.2002-ci il), 14 saylı Protokol (Strasburq, 13.05.2004-cü il), 15 saylı Protokol (Strasburq, 24.06.2013-cü il);
– «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» Konvensiya (Strasburq, 27.01.1999-cu il). Sözügedən akt Azərbaycan Respublikasının 30.12.2003-cü il tarixli 570-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
– «Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında» Konvensiya (Strasburq, 04.11.1999-cu il). Bu akt Azərbaycan Respublikasının 30.12.2003-cü il tarixli 571-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
– «Yol hərəkəti haqqında» Konvensiya (Vyana, 19.09.1949-cu il, 1977-ci ildə qüvvəyə minmiş 1968-ci il redaktəsi ilə). Ölkəmiz bu Konvensiyaya Azərbaycan Respublikasının 29.04.1997-ci il tarixli 287-IQ nömrəli Qanunu ilə qoşulmuşdur;

- «Polis haqqında» Bəyannamə. Bu sənəd 1979-cu ildə Avropa Şurasının Parlament Assambleyası tərəfindən qəbul edilmişdir;
- ATƏT-in «Avropa Təhlükəsizliyi Xartiyası» (İstanbul, 19.11.1999-cu il). Xartiyanın 44 və 45-ci maddələri polis funksiyaları ilə bağlı fəaliyyətə həsr olunmuşdur; o, Azərbaycan Respublikasının 12.12.2000-ci il tarixli 44-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- Avropa Şurasının «İnsan alverinə qarşı mübarizə haqqında» Konvensiyası (Varşava, 16.05.2005-ci il). Bu sənəd Azərbaycan Respublikasının 11.05.2010-cu il tarixli 1002-III Q nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «Kibercinayətkarlıq haqqında» Konvensiya (Budapeşt, 23.11.2001-ci il). Bu sənəd Azərbaycan Respublikasının 30.09.2009-cu il tarixli 874-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında» Konvensiya (Strasburq, 28.01.1981-ci il). Bu sənəd Azərbaycan Respublikasının 30.09.2009-cu il tarixli 879-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- polis-hüquq münasibətlərinə aid digər sənədlər.

Terrorizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər ağır cinayətlərə qarşı mübarizə aparılması və onların qarşısının alınmasında polis əməkdaşlığının regional səviyyədə həyata keçirilməsi məqsədilə Avropa İttifaqı çərçivəsində yaradılmış **Avropa Polis Təşkilatının («Avropol»)** fəaliyyəti diqqətəlayiqdir.

«Avropol»un yaradılması haqqında qərar Avropa Şurasının Maastrixt iclasında (09–10 dekabr 1991-ci il) qəbul edilmiş və sonradan «Avropa Polis Təşkilatının təsis edilməsi haqqında» Konvensiya imzalanmışdır (26.07.1995-ci il). «Avropol» xidməti tam fəaliyyətə 01.07.1999-cu il tarixdən başlamışdır. Onun səlahiyyətlərinə aşağıdakılar aiddir: terrorizm, narko-

tiklərin qanunsuz dövriyyəsi, insan alveri, qeyri-leqal immiqrasiya, radioaktiv maddələrin və nüvə materiallarının qeyri-qanuni dövriyyəsi, avtonəqliyyat vasitələrinin qaçırılması, «Avro»nun saxtalaşdırılması, çirkli pulların yuyulması və digər ağır cinayətlərlə mübarizə aparılması və onların qarşısının alınması.

«Avropol»un təsis müqaviləsində göstərildiyi kimi, onun əsas məqsədi sözügedən sahədə üzv-dövlətlər arasında polis əməkdaşlığının yaxşılaşdırılması və inkişaf etdirilməsidir.[1]

Cinayətkarlığa qarşı regional səviyyədə mübarizə aparılması sahəsində **MDB** çərçivəsində həyata keçirilən tədbirləri də fərqləndirmək lazımdır. MDB-yə üzv-dövlətlərin hüquq-mühafizə (o cümlədən polis) orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi və təkmilləşdirilməsinin hüquqi əsasları kimi aşağıdakı sənədləri göstərmək olar:

- «Müstəqil Dövlətlər Birliyi»nin Nizamnaməsi (Moskva, 22.01.1993-cü il);
- «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında» Müqavilə (Minsk, 04.06.1999-cu il). Bu sənəd Azərbaycan Respublikasının 22.06.2010-cu il tarixli 1050-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» Konvensiya (Kişinyov, 07.10.2002-ci il). Konvensiya Azərbaycan RespublikA-sının 13.01.2004-cü il tarixli 581-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «MDB-nin iştirakçı olan dövlətlərin daxili işlər nazirliklərinin daktiloskopik iz, güllə-giliz və telekommuni-

---

[1] *«Avropol» təşkilatının strukturu, funksiyası və digər məsələlər barədə ətraflı bax:* Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.527-530; Ромашев Ю.С. Международное правоохранительное право. М., 2010, с.314-320 və b.

kasiya rabitə sistemlərinin vahid avtomatlaşdırılmış məlumat bankı haqqında» Əsasnamə (Sankt-Peterburq, 17.09.2010-cu il). Bu sənəd DİN-in 09.10.2010-cu il tarixli 632 nömrəli əmri ilə elan edilmişdir;

– «MDB-nin iştirakçısı olan dövlətlərin daxili işlər nazirliklərinin daktiloskopik iz, güllə-giliz və telekommunikasiya rabitə sistemlərinin avtomatlaşdırılmış məlumat bankları arasında informasiya mübadiləsinin təşkili üzrə» Təlimat (Sankt-Peterburq, 17.09.2010-cu il). Bu sənəd DİN-in 09.10.2010-cu il tarixli 632 nömrəli əmri ilə elan edilmişdir;

– «Şəxslərin dövlətlərarası axtarışı haqqında» Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Müqaviləsi (Moskva, 10.12.2010-cu il). Bu sənəd Azərbaycan Respublikası Prezidentinin 26.10.2011-ci il tarixli 515 nömrəli Fərmanı ilə təsdiq edilmiş və DİN-in 12.11.2011-ci il tarixli 702 nömrəli əmri ilə elan olunmuşdur;

– və digər normativ hüquqi aktlar.

Cinayətkarlığa qarşı mübarizə aparılması işinə regional səviyyədə **GUAM**-a üzv olan dövlətlər tərəfindən də səy göstərilir. Belə fəaliyyətin həyata keçirilməsinin normativ hüquqi bazası kimi aşağıdakı sənədlər çıxış edir:

– «GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın» Nizamnaməsi (Kiyev, 23.05.2006-cı il). Sözügedən qurumun Nizamnaməsi Azərbaycan Respublikasının 29.12.2006-cı il tarixli Qanunu ilə təsdiq edilmişdir;

– «Terrorizm, mütəşşəkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM-ın işti-

rakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında» Saziş (20.07.2002-ci il);[1]

– bu Sazişə dair Protokol (Helsinki, 04.12.2008-ci il). Protokol Azərbaycan Respublikasının 30.09.2009-cu il tarixli 878-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş və DİN-in 23.11.2009-cu il tarixli 688 nömrəli əmri ilə elan olunmuşdur;

– və digər normativ hüququ sənədlər.

**Dövlətlərarası beynəlxalq polis müqavilələri** də (ikitərəfli və ya çoxtərəfli saziş, prtokol və s.) Azərbaycan Respublikasının polis hüququnun mənbəyi kimi mühüm rol oynayır. Belə sənədlərdə, bir qayda olaraq, polis fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar əməkdaşlığın müxtəlif sahələrinə toxunulur, müvafiq polis-hüquq münasibətləri qaydaya salınır, məlumat və təcrübə mübadiləsi aparılır.

Dövlətlərarası polis müqavilələri sırasında aşağıdakıları göstərmək olar:

– «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid» Protokol (Bakı, 31.10.1997-ci il). Bu Protokol Azərbaycan Respublikası Prezidentinin 22.11.1998-ci il tarixli 14 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir;

– «Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Rusiya Federasiyası, Tacikistan Respublikası, Türkmənistan və Özbəkistan Respublikası arasında «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya Regional İnfor-

---

[1] *Bu ittifaqın 1997-ci ildə ilkin olaraq GUAM, sonra 1999-cu ildə GUÖAM, daha sonra isə 2005-ci ildən GUAM kimi adlandırılması barədə bax:* Əliyev E.Ə.Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2013, s.452.

masiya və Əlaqələndirmə Mərkəzinin yaradılması haqqında» Saziş (Astana, 24.06.2006-cı il). Bu Saziş Azərbaycan Respublikasının 30.12.2008-ci il tarixli 750-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;

- «Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan şəxslərin viza tələbindən azad olunması haqqında» Saziş (Bakı, 08.07.2009-cu il). Bu Saziş Azərbaycan RespublikAsının 30.09.2009-cu il tarixli 872-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Buxarest, 28.09.2009-cu il). Saziş Azərbaycan Respublikasının 26.11.2009-cu il tarixli 916-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Bakı, 13.05.2010-cu il). Saziş Azərbaycan Respublikasının 30.09.2010-cu il tarixli 1073-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;
- «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında» Saziş (Bakı, 28.06.2011-ci il). Saziş Azərbaycan Respublikası Prezidentinin 26.10.2011-ci il tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş, DİN-in 12.11.2011-ci il tarixli 701 nömrəli əmri ilə elan olunmuşdur;
- «Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Bakı, 27.04.2012-ci il). Saziş Azərbaycan Respublikasının

29.06.2012-ci il tarixli 396-IVQ nömrəli Qanunu ilə təsdiq edilmişdir;

– «Azərbaycan Respublikası Hökuməti və Koreya Dövləti Höküməti arasında təhlükəsizlik və cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (14.02.2013-cü il);
– «Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Höküməti arasında təhlükəszlik məsələləri üzrə əməkdaşlıq haqqında» Saziş (20.10.2014-cü il) və s.

Zənn edirik ki, polis hüququnun mənbəyi kimi beynəlxalq aktların əhəmiyyəti və polis-hüquq münasibətlərinin nizama salınmasında onların rolu gələcəkdə daha da artacaq, habelə beynəlxalq polis müqavilələrinin coğrafiyası miqyasca genişləkəcəkdir.

# V FƏSİL ÜZRƏ SXEM



# VI FƏSİL. POLİS HÜQUQUNDA NƏZARƏT VƏ MƏSULİYYƏT

## 6.1. Nəzarət və məsuliyyət institutu anlayışı

Polis hüququ, məlum olduğu kimi, polis fəaliyyəti ilə əlaqədar yaranan ictimai münasibətləri hüquqi cəhətdən tənzimləyən müvafiq hüquq normalarının məcmusudur; o, ümumi və xüsusi hissələrdən ibarətdir. Polis hüququnun ümumi hissəsinə bir sıra hüquqi qurum (məsələn, polis hüququnun anlayışı, onun predmeti və sistemi, polis hüququnun subyektləri, polis hüququnun mənbələri, polis hüququnun prinsipləri və s.) daxildir; həmin hüquqi qurumlardan biri də polis hüququnda nəzarət və məsuliyyət institutudur.

Cəmiyyətdə ictimai asayişin qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, cinayətkarlığa qarşı mübarizə və s. məsələlərin reallaşmAsında digər hüquq-mühafizə orqanları kimi, polis orqanlarının da məqsədyönlü və effektli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Belə ki, polis cəmiyyətdə daxili sabitliyi, ictimai təhlükəsizliyi qoruyan və cinayətkarlıqla mübarizə aparan icraedici dövlət hakimiyyəti orqanıdır. Ona görə də polis fəaliyyətinə müvafiq nəzarətin həyata keçirilməsi və aşkar olunmuş müxtəlif xətalara görə ciddi məsuliyyət tədbirlərinin tətbiq edilməsi dövlətin qarşısında duran aktual məslələrdən biridir.

«Nəzarət» və «məsuliyyət» bir-birilə qarşılıqlı əlaqədə olan anlayışlardır. Belə ki, polis hüququnun yaranma əlaməti olan polis fəaliyyəti üzərində nəzarətin həyata keçirilməsi vasitəsilə polis hüququnun subyektləri tərəfindən hüquqi qayda və prinsiplərə riayət olunması, səlahiyyətlərin yerinə yetirilməsi, ümumiyyətlə, xidmət sahəsinin effektlilik səviyyəsi müəyyənləşdirilir və aşkar olunmuş hüquq pozuntularının xarakterinə müvafiq olaraq, müəyyən məsuliyyət tədbirləri tətbiq edilir. Deməli, polis hüququnun subyektləri barədə məsuliyyət təd-

birlərinin görülməsi üçün polis fəaliyyəti üzərində nəzarətin aparılması vacib və zəruridir.

Göstərilən sahədə, yəni polis fəaliyyəti sahəsində nəzarət və məsuliyyət tədbirləri ilə əlaqədar yaranan müəyyən eyninövlü ictimai münasibətlər müvafiq hüquq normaları vasitəsilə nizama salınır ki, onların sistemini «polis hüququnda nəzarət və məsuliyyət institutu» adlandırmaq mümkündür.

Beləliklə, **polis hüququnda nəzarət və məsuliyyət institutu** dedikdə polis fəaliyyəti üzərində müvafiq nəzarətin həyata keçirilməsini, həmçinin törədilmiş hüquq pozuntularına görə məsuliyyət tənbeh tədbirlərinin tətbiq edilməsini tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

Adıçəkilən institutun **nizamasalma predmeti** polis fəaliyyəti üzərində hüquqi nəzarətin həyata keçirilməsi və aşkar olunmuş hüquq pozuntusu hallarına görə polis hüquq subyektlərinə qarşı müvafiq hüquqi məsuliyyət tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar əmələ gələn spesifik ictimai münasibətlərdən ibarətdir.

Bu institut öz nəzarət və məsuliyyət **funksiyalarını** yerinə yetirərkən polis hüququnda istifadə olunan **prinsiplər** tətbiq edilir. Polis hüququnda nəzarət və məsuliyyət institutunun əsas mahiyyəti və sosial təyinatı həmin prinsiplərdə təzahür edir ki, onlar da öz əksini polis haqqında qanunvericilik aktlarında tapmışdır. Polis hüququnun prinsipləri haqqında isə əvvəllər (II fəsildə) geniş söhbət açmışıq.

Elmi dövriyyəyə ilk dəfə daxil etdiyimiz bu hüquqi konstruksiyanı (polis hüququnda nəzarət və məsuliyyət institutunu), orada cəmləşən polis-hüquq normalarının xarakterindən və təyinatından, habelə yerinə yetirdikləri konkret funksiyadan asılı olaraq, **iki hissəyə** (yarıminstituta) bölmək olar:

– polis hüququnda nəzarət yarıminstitutu;

– polis hüququnda məsuliyyət yarıminstitutu.

Polis hüququnda **nəzarət yarıminstitutu** polis fəaliyyəti üzərində həyata keçirilən müvafiq nəzarət prosedur və qayda-

larını nizama salan müəyyən polis-hüquq normalarının məcmusundan ibarətdir. Polis hüququnda **məsuliyyət yarıminstitutu** isə polis fəaliyyəti sahəsində hüquq pozuntusu (və ya hüquqi xəta) törətmiş şəxslərə qarşı hüquqi məsuliyyət tədbirlərinin tətbiq edilməsini qaydaya salan müvafiq polis-hüquq normalarının sistemidir.

Sözügedən bu iki yarıminstitut birləşərək bütövlükdə polis hüququnun ümumi hissəsinə aid olan «nəzarət və məsuliyyət institutunu» təşkil edir. Modelləşdirdiyimiz bu hüquq institutunun tərkib hissələrinin hər birini (yarıminstitutları) ayrılıqda nəzərdən keçirək.

## 6.2. Polis hüququnda nəzarət

### 6.2.1. Polis hüququnda nəzarət anlayışı və onun növləri

Məlum olduğu kimi, «polis orqanları» dövlət-hakimiyyət səlahiyyətinə malik olan təsisatlardan biridir. Hüquqi dövlət quruculuğu şəraitində demokratik cəmiyyətdə insan və vətəndaş hüquq və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi kimi ali məqsədlərə nail olunmasında, ictimai qaydaların və təhlükəsizliyin qorunmasında, cinayətkarlığın qarşısının alınmasında polis orqanlarının fəaliyyəti danılmaz və əvəzedilməzdir. Bu baxımdan, polis orqanlarının çoxşaxəli işinə dövlət nəzarətinin həyata keçirilməsi onların geniş spektrli mühüm fəaliyyət predmeti ilə şərtlənir.

«Nəzarət» anlayışı ümumiləşdirilmiş kateqoriyadır və onun sosial, hüquqi, texniki və s. formaları fərqləndirilir. Biz, «nəzarət» anlayışının mahiyyətinə yalnız hüquqi mənada toxunacağıq. Bu baxımdan, «hüquqi nəzarət» anlayışını iki mənada fərqləndirmək mümkündür:

- dövlət-hakimiyyət nəzarətinin həyata keçirilməsi üzrə hüquqi fəaliyyət (hüquqi nəzarət fəaliyyəti);
- hüquqi nəzarəti tənzimləyən hüquq normalarının məcmusu (hüquqi qurum – polis hüququnda nəzarət yarıminstitutu).

**Hüquqi mənada nəzarət** dedikdə cəmiyyətdə dövlətin qanunçuluq üzərində bütün nəzarət üsul və formalarından istifadə etmək yolu ilə öz funksiyalarını yerinə yetirməsinə dair fəaliyyəti başa düşülür.[1]

Digər hüquq-mühafizə orqanlarında olduğu kimi, polis orqanlarının da fəaliyyətinə dövlət-hakimiyyət orqanlarının müxtəlif qolları (qanunvericilik hakimiyyəti orqanları, icra hakimiyyəti orqanları və məhkəmə hakimiyyəti orqanları) tərəfindən mövcud qanunvericiliyə uyğun şəkildə nəzarət həyata keçirilir və buna **dövlət nəzarəti** deyilir. Dövlət nəzarətinin həyata keçirilməsində **əsas məqsəd** polis hüquq subyektləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, habelə polis hüququnda tətbiq edilən prinsiplərə (məsələn, qanunçuluq, humanistlik və s. prinsiplərə) dəqiq və dürüst əməl edilməsinə nail olmaqdır.

Polis fəaliyyətinə dövlət nəzarətini həyata keçirən orqanların müxtəlifliyi (parlament, icra və məhkəmə hakimiyyəti orqanları), onların hüquqi statusundakı fərqlər Azərbaycan Respublikasının Konstitusiyasına uyğun formalaşmış (V, VI və VII fəsillər) dövlət-hakimiyyət sistemi tərəfindən qabaqcadan qanunvericilik səviyyəsində müəyyən edilir. Belə ki, PQ-yə müvafiq olaraq, həmin qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir (PQ, mad. 12).

Polisin fəaliyyətinə **idarədaxili nəzarəti** mövcud qanunvericilik ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində müvafiq icra hakimiyyəti orqanı (DİN), **idarədənkənar nəzarəti** isə konkret icra hakimiyyəti orqanı – Azərbaycan RespublikAsının Prezidenti həyata keçirir. Bu nəzarət formalarını (idarədaxili və idarədənkənar) həm də **inzibati nəzarət** adlandırmaq olar.

---

[1] *Nəzarət fəaliyyəti barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.438.

Polis orqanlarında qanunların icrasına nəzarəti həmçinin qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində parlament, məhkəmə və prokurorluq orqanları həyata keçirirlər.

Polis haqqında qanunvericilikdə göstərilir ki, polis əməkdaşı dövlət qulluqçusudur (PQ, maddə 1). Ona görə də «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının 31.05.2007-ci il tarixli Qanununun müəyyənləşdirdiyi müddəalar bütövlükdə polis əməkdaşlarına da şamil olunur. Adıçəkilən Qanunun 3-cü fəsli dövlət qulluqçularının etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunmasına həsr edilmişdir. Qanunun 20-ci maddəsində təsbit edilmişdir ki, etik davranış qaydalarına əməl olunmAsına nəzarəti dövlət orqanının rəhbəri – xidməti qaydada, yuxarı orqan – tabeçilik əsasında və müvafiq dövlət nəzarət orqanı qanunvericiliklə müəyyənləşdirilmiş qaydada həyata keçirir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, polis fəaliyyəti üzərində həyata keçirilən dövlət nəzarətinin aşağıdakı ümumiləşdirilmiş formalarını (növlərini) fərqləndirə bilərik: parlament nəzarəti, inzibati nəzarət, məhkəmə nəzarəti, prokuror nəzarəti. Polis hüququnda həyata keçirilən bu nəzarət formalarının hər birinin xüsusi elmi-nəzəri və praktiki əhəmiyyəti vardır.

Beləliklə, sadalanan aspektləri diqqətə çəkərək, **polis hüququnda nəzarət yarıminstitutuna** anlayış formulə edə bilərik:

– polis hüququnda nəzarət yarıminstitutu dedikdə polis fəaliyyəti üzərində dövlət-hakimiyyət orqanları tərəfindən həyata keçirilən parlament, inzibati, məhkəmə və prokuror nəzarət qaydalarını tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

Polis hüququnda nəzarət yarıminstitutunun **predmetini** polis fəaliyyəti üzərində parlament, inzibati, məhkəmə və prokuror nəzarətinin həyata keçirilməsi ilə əlaqədar əmələ gələn spesifik ictimai münasibətlər təşkil edir.

Göstərilən yarıminstitut öz növbəsində polis fəaliyyəti sahəsində dövlət nəzarətinin aparılmasını reqlamentləşdirən po-

lis-hüquq normaları qrupuna görə aşağıdakı **subinstitutlara** bölünür:

- polis hüququnda parlament nəzarəti subinstitutu;
- polis hüququnda inzibati nəzarət subinstitutu;
- polis hüququnda məhkəmə nəzarəti subinstitutu;
- polis hüququnda prokuror nəzarəti subinstitutu.

Bu o deməkdir ki, adıçəkilən subinstitutları təşkil edən polis-hüquq normaları, eyni zamanda, tərkib hissələr üzrə birləşərək polis hüququnda nəzarət yarıminstitutunu yaradırlar, ehtiva edirlər.

Polis fəaliyyəti üzərində dövlət nəzarətinin həyata keçirilməsinin spesifikliyi də məhz nəzarət formalarının müxtəlifliyi ilə səciyyələnir.

### 6.2.2. Polis hüququnda parlament nəzarəti

Qeyd etdik ki, polis hüququnda nəzarət yarıminstitutunun tərkib hissələrindən biri parlament nəzarəti subinstitutudur. Polis fəaliyyəti üzərində parlament nəzarətinin həyata keçirilməsi məhz bu subinstitutda təsbit olunmuş normalar vasitəsilə təmin edilir.

Polis hüququnda parlament nəzarəti dövlət nəzarətinin digər formaları ilə yanaşı, demokratik vətəndaş cəmiyyəti təsisatları tərəfindən polis fəaliyyətinə nəzarətin ən effektli növlərindən biridir. **Müasir parlament** – Azərbaycan Respublikasının Konstitusiyasına görə, dövlət hakimiyyətinin qanunvericilik hakimiyyəti[1] qoludur və o, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir; qanunvericilik, maliy-

---

[1] Parlament – fransızca «parle» (danışmaq) deməkdir. «Azərbyacan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktına əsasən (maddə 13), qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilir. Qanun ölkəmizdə «parlament» terminini ilk dəfə olaraq işlətmişdir.

yə-büdcə, nəzarət və s. əsas funksiyalar Milli Məclisin (parlamentin) həll etdiyi məsələlərə aiddir.[1]

Parlament qanunvericilik hakimiyyətinin ali orqanıdır. **Parlament** dedikdə ölkə əhalisi tərəfindən seçki yolu ilə yaradılan, qanunvericilik hakimiyyətini həyata keçirən ali nümayəndəli dövlət hakimiyyəti orqanı başa düşülür. Azərbaycan Respublikasının parlamenti «Milli Məclis» adlanır və o, daimi fəaliyyət göstərən orqandır; Milli Məclisin üzvləri deputatlardır.

**Deputat** dedikdə xalq tərəfindən seçilən nümayəndə başa düşülür ki, o, qanunvericilik hakimiyyəti funksiyasını və digər funksiyaları yerinə yetirir.

Deputatların **hüquqi statusu** Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il), «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında» Azərbaycan Respublikasının 17.05.1996-cı il tarixli 73-IQ nömrəli Qanunu və digər normativ hüquqi aktlarla müəyyən edilir.

Deputatlar parlamentin və onun orqanlarının iclaslarında iştirak etmək, deputat sorğusu vermək, məlumat almaq və yaymaq, vəzifəli şəxslər tərəfindən təxirə salınmadan qəbul edilmək və s. səlahiyyətlərə malikdirlər (yuxarıda adı çəkilən Qanun, maddə 4). Belə ki, deputat öz səlahiyyətləri çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, onların vəzifəli şəxslərinə sorğu verə bilər. Müvafiq orqanlar və ya vəzifəli şəxslər deputat sorğusuna bir ay müddətində rəsmi surətdə yazılı cavab verməlidirlər (həmin Qanunun 10-cu maddəsi).

Parlamentin **işini** təşkil etmək məqsədilə Azərbaycan Respublikasının 17.05.1996-cı il tarixli 74-IQ nömrəli Qanunu ilə «Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi» təsdiq edilmişdir.[2] Nizamnamə Milli Məclisin işinin təşkili prosedurlarını, onun orqanlarının səlahiyyətlərini reqla-

---

[1] *Bax:* Azərbaycan Respublikası Konstitusiyasının 94, 95 və 96-cı maddələri (V fəsil).

[2] *Bax:* www.məclis.gov.az/?/content/39.

mentləşdirir. Məsələn, Daxili Nizamnamənin 39-cu maddəsində Milli Məclisin daimi komissiyalarının hüquqları təsbit olunmuşdur. Həmçinin «Azərbaycan Respublikası Milli Məclisinin daimi komissiyaları haqqında» Azərbaycan Respublikasının 10.07.1998-ci il tarixli Qanunu qəbul edilmişdir; burada daimi komissiyaların funksiyaları (maddə 2), daimi komissiyaların iclasları (maddə 5), insan hüquqları daimi komisssiyası (maddə 17) və s. məsələlər öz həllini tapmışdır.[1]

Dövlət nəzarət sistemində dövlət idarəetmə orqanlarının, o cümlədən polis orqanlarının fəaliyyəti üzərində nəzarətin həyata keçirilməsində əsas yerlərdən birini məhz parlament nəzarəti tutur.[2] Bu onunla şərtlənir ki, parlament öz qanunvericilik fəaliyyəti ilə polis orqanlarının funksiyalarının bütün aspektlərinə dəqiq və ardıcıl hüquqi forma verir, onların fəaliyyətinin əsas prinsip və istiqamətlərini müəyyənləşdirir, habelə şəxsi, ictimai və dövlət təhlükəsizliyinin təmin olunmasında digər dövlət strukturları ilə qarşılıqlı münasibətlərini müvafiq normativ hüquqi aktlar qəbul etməklə tənzimləyir.

Mövcud qanunvericiliyə görə, Milli Məclis bir sıra səlahiyyətlə yanaşı (qanunlar qəbul etmək, məhkəmə səlahiyyəti, maliyyə səlahiyyəti, ratifikasiya səlahiyyəti və s.), nəzarət səlahiyyətinə də malikdir. Bu səlahiyyət icra hakimiyyəti və digər dövlət orqanlarının fəaliyyətinə parlamentin nəzarət etmək hüququnu ifadə edir. Belə nəzarət «parlament nəzarəti» adlanır. Parlament nəzarəti müxtəlif **formalarda** həyata keçirilir: parlamentin iclasında dövlət orqanlarına və vəzifəli şəxslərə suallar vermək, deputat sorğusu vermək, Nazirlər Kabinetinə

---

[1] *Daimi komissiyalar sonradan müvafiq komitələrə çevrilmişdir. Bu barədə bax:* «Aərbaycan Respublikası Milli Məclisi komitələrinin təşkil edilməsi haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 14.04.2009-cu il tarixli 786-IIIQR nömrəli Qərarı (URL: http//www. e-qanun. az/framework/ 17137); həmçinin bəzi komitələr yenidən təşkil edilmiş və yeni komitələr yaradılmışdır (URL:http//www.azerbaijan-new.az, 25.11.2015-ci il).

[2] *Parlament nəzarəti barədə ətraflı bax:* Коврякова Е.В. Парламентский контроль в зарубежных странах. Автореф. дис. на соискание уч. ст. к.ю.н. М., 2002, с.12 // www.dissercat.com.

etimad məsələsini həll etmək, parlament istintaqı aparmaq və s.

Polis orqanlarının fəaliyyəti üzərində də parlament nəzarəti həyata keçirilir. Polis hüququnda **parlament nəzarəti** dedikdə polis orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti üzərində Milli Məclis tərəfindən müxtəlif istiqamət və formalarda həyata keçirilən nəzarət başa düşülür.

Polis fəaliyyəti üzərində parlament nəzarətinin əsas istiqamətləri, forma və metodları müəyyən edilərkən nəzərə alınmalıdır ki, belə nəzarət (parlament nəzarəti) polis orqanlarına həvalə edilmiş vəzifə və funksiyaların yerinə yetirilməsinə mane olmamalıdır. Bununla yanaşı, parlament nəzarəti dövlət sirri daşıyan informasiyaların, habelə polis xidməti tərəfindən həyata keçirilən xüsusi məxfi tədbirlər haqqında müvafiq məlumatların, onlar ümumiləşdirilib başa çatdırılan məqamadək yayılmaq təhlükəsi yaratmamalıdır.

Eyni zamanda, qeyd etmək lazımdır ki, polis fəaliyyəti üzərində parlament nəzarətinin həyata keçirilməsi cəmiyyətdə ictimai və dövlət təhlükəsizliyinin möhkəmləndirilməsinə **bir sıra istiqamət** üzrə əhəmiyyətli təsir göstərir.

**Birinci,** polis fəaliyyətinə parlament nəzarəti müvafiq strateji, doktrinal və uzunmüddətli proqramların işlənib hazırlanmasına, qəbul edilməsinə və həyata keçirilməsinə müsbət təsir göstərir; belə təsir, nəticə etibarilə, polis fəaliyyəti sferasında vahid dövlət siyasətinin müəyyənləşdirilməsinə, hüquqmühafizə orqanları arasında əlaqələrin lazımi səviyyədə qurulmasına və təmin olunmasına impulsiv təkan verir.

**İkinci,** polis orqanlarının fəaliyyəti üzərində parlament tərəfindən aparılan maliyyə nəzarəti mühüm əhəmiyyət kəsb edir. Parlament tərəfindən maliyyə nəzarəti Milli Məclisin Hesablama Palatası vasitəsilə həyata keçirilir; bunun da nəticəsində dövlət büdcəsinin icrasına, həmçinin polis xidmətinin tələbatının düzgün hesablanmasına və optimal maliyyələşdirilməsinə nəzarət olunur.

Polis orqanlarının fəaliyyəti üzərində parlament nəzarətinin **üçüncü** istiqaməti kadr siyasəti məsələlərini əhatə edir. Bu istiqamətin tərkib hisəssi kimi polis xidmətində dövlət qulluğu haqqında qanunvericiliyin realizasiyasına, insan hüquqlarına (o cümlədən polis əməkdaşlarının hüquqlarına) riayət olunmasına, normativ hüquqi aktların qanunvericiliyə uyğunluğuna nəzarət və s. elementlər çıxış edə bilər.

Yeri gəlmişkən, insan hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili **(ombudsman)** təsisatı yaradılmışdır.[1] Ombudsman hüquqi dövlət quruculuğunda və hüquqi dövlətin mühüm prinsiplərinin qorunması, habelə dövlət orqanları (deməli, həm də polis orqanları) və onların vəzifəli şəxsləri tərəfindən insan hüquq və azadlıqlarının bərpa edilməsi sahəsində geniş səlahiyyətlərə, o cümlədən nəzarət səlahiyyətlərinə malikdir. Sözügedən dövlət-hüquq təsisatının effektliliyi özünü müxtəlif dövlət orqanlarının, o cümlədən hüquq-mühafizə orqanlarının fəaliyyətində insan hüquqlarının müdafiə olunması məsələsində daha çox büruzə verir.[2] Belə ki, hüquq ədəbiyyatında göstərildiyi kimi, ombudsmanın fəaliyyətinin çox böyük siyasi və bərpaedici effekti vardır. Onun dövlət qulluqçularına (deməli, həm də polis orqanları əməkdaşlarına) göstərdiyi təsir gələcəkdə inzibati xətalara yolverilməzliyi təmin edir.[3]

Qeyri-aşkar metod və vasitələrdən **istifadə** üzərində parlament nəzarətinin həyata keçirilməsi polis xidməti tərəfindən qəbul edilən müvafiq normativ hüquqi aktların razılaşdırılmasının zəruriliyini ehtiva edir. Belə ki, müvafiq polis aktlarının tətbiq edilməsi dövlət və vətəndaş təhlükəsizliyi üçün son dərə-

---

[1] *Bax:* «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında» Azərbaycan Respublikasının 28.12.2001-ci il tarixli Konstitusiya Qanunu.

[2] *Ombudsmanın yaranma tarixi, mahiyyəti və cəmiyyətdə rolu barədə ətraflı bax: məsələn,* Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s. 190-206.

[3] *Bax:* Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007, s.193.

cə mənfi nəticələr doğurarsa, bütün faktlar və fövqəladə hallar üzrə parlament tədqiqatı aparıla bilər. Bununla yanaşı, polis xidməti tərəfindən xüsusi vasitə və odlu silahın tətbiq edilməsinin say göstəriciləri də parlament və onun komitələri tərəfindən nəzarət olunur; həmçinin polis xidmətinin analitik-informasiya işi üzərində nəzarət də həyata keçirilir.

Beləliklə, qeyd edə bilərik ki, polis xidmətinin fəaliyyəti üzərində parlament nəzarəti aşağıdakı **formalarda** həyata keçirilir:

- deputat təhqiqat işi;
- parlament dinləmələri;
- icra hakimiyyəti rəhbərlərinin hesabat, məruzə və məlumatlarının dinlənilməsi;
- icra hakimiyyətinin vəzifəli şəxslərinə deputat sorğusu, suallar və s.

Polis fəaliyyəti üzərində göstərilən formalarda parlament nəzarətinin effektli şəkildə həyata keçirilməsi məqsədilə müxtəlif **metodlardan** istifadə olunur; onların arasında vacib yer tutan metod kimi aşağıdakıları fərqləndirmək mümkündür:

- polis xidmətindən zəruri sənədlərin, rəylərin və digər materialların tələb edilməsi;
- polis orqanları rəhbərlərinin baxılan məsələlər üzrə izahat verilməsi üçün parlamentin və onun komitələrinin iclaslarına dəvət olunması;
- polis xidməti əməkdaşlarının sorğu-sual edilməsi;
- polis orqanlarının fəaliyyətinin planauyğun və ya plandankənar yoxlanılması və s.

Polis qanunvericilik aktları sırasına aid olan, məsələn, «Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilir ki (maddə 7), Milli Məclis daxili qoşunların fəaliyyətinin təmin olunması üçün aşağıdakı məsələləri həll edir:

– daxili qoşunların stutusunu, hüquq və vəzifələrini müəyyənləşdirən qanunvericilik aktları qəbul edir;
– daxili qoşunların strukturunu və sayını müvafiq qaydada təsdiq edir;
– daxili qoşunların hərbi qulluqçularının geyim formasını, hərbi rütbələrini, fərqlənmə nişanlarını müəyyənləşdirir, qanunvericilikdə nəzərdə tutulmuş qaydada daxili qoşunların fəaliyyətinə aid digər məsələlər üzrə qərarlar qəbul edir.

Göründüyü kimi, polis fəaliyyəti üzərində parlament nəzarətinin həyata keçirilməsinin müvafiq qaydaları, prosedur, forma və metodları müəyyənləşdirilir və nizama salınır. Belə reqlamentləşməni tənzimləyən polis-hüquq normaları nəzarət hüquq yarıminstitutunun tərkibində ayrılaraq və qruplaşaraq polis hüququnda parlament nəzarəti subinstitutunu yaradır.

Qeyd olunanları nəzərə alaraq, sözügedən subinstituta doktrinal (elmi) definisiya verə bilərik:

– **polis hüququnda parlament nəzarəti subinstitutu** dedikdə polis fəaliyyəti üzərində parlament tərəfindən müvafiq nəzarətin həyata keçirilməsini tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

Polisin əsas fəaliyyət istiqamətlərinin effektli şəkildə təmin edilməsində adıçəkilən subinstitut əhəmiyyətli rol oynayır.

### 6.2.3. Polis hüququnda inzibati nəzarət

Polis fəaliyyəti üzərində nəzarət hüquq yarıminstitutunu təşkil edən hüquqi qurumlardan biri də inzibati nəzarət subinstitutu sayılır. Polis orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsində adıçəkilən subinstitutun vacib əhəmiyyəti vardır.

Polis fəaliyyətinə keçirilən inzibati nəzarət polis hüququnda dövlət nəzarəti formalarından biridir.

Polis hüququnda **inzibati nəzarət** dedikdə, polis orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti üzərində Dövlət Başçısı və müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən nəzarət başa düşülür.

Azərbaycan Respublikasının Konstitutsiyasına görə, Azərbaycan dövlətinin başçısı Prezidentdir. O, dövləti təmsil edir, icra hakimiyyəti ona mənsubdur; Prezident icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə Nazirlər Kabinetini yaradır. DİN isə mərkəzi icra hakimiyyəti orqanı kimi Nazirlər Kabinetinin tərkibinə daxildir.

Azərbaycan Respublikasında polis fəaliyyəti ilə bağlı **icra hakimiyyəti orqanlarının** dairəsi kifayət qədər genişdir və həmin orqanlara aşağıdakılar aiddir:

– Prezident;

– Nazirlər Kabineti;

– Daxili İşlər Nazirliyi;

– yerli icra hakimiyyəti orqanları.

Deməli, polis orqanlarının fəaliyyəti üzərində inzibati nəzarət icra hakimiyyəti orqanlarının bütün səviyyəsində – Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Hökuməti (NK), mərkəzi icra hakimiyyəti orqanı (DİN) və s. qrumlar tərəfindən həyata keçirilir.

Polis qanunvericilik aktlarının müəyyənləşdirdiyi müddəaları (PQ, maddə 12; DİO-da xidmət keçmə haqqında Əsasnamə, bənd 159 və s.) diqqətə çəkərək, qeyd edə bilərik ki, polis hüququnda inzibati nəzarətin **iki növü** fərqləndirilir:

– idarədaxili inzibati nəzarət;

– idarədənkənar inzibati nəzarət.

Polis fəaliyyətinə **idarədaxili inzibati nəzarət** vəzifəli şəxslər və ya nəzarət strukturları tərəfindən idarə daxilində ən ümumi şəkildə həyata keçirilən nəzarət formasını ehtiva edir.

Bu növ nəzarətin xüsusiyyəti ondan ibarətdir ki, o, polis fəaliyyəti üzərində bilavasitə, sistemli şəkildə və peşəkarcasına həyata keçirilir.

Polis haqqında qanunvericiliyə görə, polis fəaliyətinə idarədaxili nəzarəti qanunla müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində DİN həyata keçirir (PQ, maddə 12, I hissə). «Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, daxili qoşunlara rəhbərlik etmək, onlara həvalə olunmuş vəzifələrin icrası zamanı qanunçuluğun gözlənilməsi, normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsini təmin etmək və s. işlər Azərbaycan Respublikası daxili işlər nazirinin səlahiyyətlərinə aiddir (maddə 9). Adıçəkilən Qanuna əsasən (maddə 30), daxili qoşunların fəaliyyətinin qanuniliyinə, qüvvə və vəsaitdən səmərəli istifadə edilməsinə və s. məsələlərin həllinə **idarə nəzarətini** Azərbaycan Respublikasının daxili işlər naziri həyata keçirir.

«Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnaməyə uyğun olaraq, DİN öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir (Əsasnamə, bənd 4):

- ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunvericiliklə müəyyən edilmiş hüquqları həyata keçirmək;
- qanunvericilik aktlarının və beynəlxalq müqavilələrin DİO və daxili qoşunlar tərəfindən icrasına nəzarət etmək;
- müvəqqəti saxlanılma yerlərində xidmətin təşkilinə nəzarət etmək;
- DİO-nun səlahiyyətlərinə aid edilmiş fəaliyyətin həyata keçirilməsinə nəzarət etmək;
- yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirmək;

- xidməti və mülki silahın dövriyyəsinə və döyüş sursatının saxlanılması qaydalarına riayət olunmasına nəzarət etmək;
- maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək;
- öz səlahiyyətləri daxilində özəl mühafizə fəaliyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət etmək və s.

DİN göstərilən bu və digər nəzarət funksiyalarını, hüquq və vəzifələrini, bilavasitə öz aparatı, mərkəzi aparat qurumları (baş idarə, idarə və şöbə) və tabeliyində olan orqanlar (regional, ərazi və s.) vasitəsilə, onların fəaliyyətini əlaqələndirməklə vahid sistem şəklində həyata keçirir.[1]

İdarədaxili inzibati nəzarətin ən tipik, səciyyəvi forması **rəhbər nəzarətidir**. Belə nəzarətin mahiyyəti rəhbər şəxs (məsələn, polis orqanının rəisi) tərəfindən ona tapşırılmış polis orqanının fəaliyyətinə, tabeliyində olan hər bir əməkdaşın işinin keyfiyyət və effektliliyinə, habelə qanunçuluq və polis hüququnun digər prinsiplərinin düzgün və dəqiq yerinə yetirilməsinə nəzarətin təmin olunmasından ibarətdir. Rəhbər nəzarətinin səmərəliliyi göz önündədir: tabeçilikdə olan əməkdaş həmişə rəhbərin müşahidəsi altındadır və bu da xidməti vəzifələrin qanuni icrasına, qüvvə və vasitələrin səfərbərliyinə müsbət təsir göstərir.

Polis fəaliyyətinə idarədaxili inzibati nəzarətin digər növünə **qərargah, nəzarət-təftiş, daxili təhlükəsizlik** və sairə xidmətlər tərəfindən həyata keçirilən nəzarət aiddir.

Polis orqanlarında idarəetmənin təşkili, xidməti fəaliyyətin səmərəliliyinin artırılması və təkmilləşdirilməsi, polis ərazi qurumlarının və nizami hissələrinin fəaliyyətinin yoxlanılması, əməli köməkliklər göstərilməsi, təftişlərin aparılması, onların strukturu və ştat sayı barədə təkliflərin hazırlanması və s.

---

[1] *Bu barədə ətraflı bax:* Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.354-360.

məsələlərin həllində **qərargah nəzarətinin** həyata keçirilməsi əhəmiyyətli rol oynayır.

Polis orqanlarında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində maliyyələşmə, əmək haqqı, mühasibat uçotu, maliyyə vəsaitlərinin alınması və xərclənməsi, maddi-texniki bazanın inkişafı və s. işlərin yerinə yetirilməsində **maliyyə-təftiş nəzarətinin** həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə DİO-da həyata keçirilən idarədaxili nəzarət işinin effektliliyi daha da artırılaraq, DİN-in tərkibində yeni qurum yaradılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 30.06.2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına (2004-2008-ci illər)» müvafiq olaraq, polis fəaliyyətinə idarədaxili nəzarətin həyata keçirilməsi məqsədilə DİN sistemində **Daxili Təhlükəsizlik İdarəsi** (DTİ) təsis olunmuşdur.[1] Sözügedən xidmət sahəsinin hüquqi statusunu müəyyənləşdirən Əsasnamə DİN-in 27.09.2004-cü il tarixli müvafiq əmri ilə təsdiq edilmişdir. Bu qurum DİN-in mərkəzi aparatının müstəqil struktur hissəsidir; o, DİO sistemində daxili təhlükəsizliyin təmin olunması, DİN-in müvafiq struktur hissələrinin fəaliyyəti üzərində metodiki təminat, əlaqələndirmə və nəzarət funksiyalarının həyata keçirilməsi məsələləri üzrə xüsusi əhəmiyyət kəsb edən xidmət sahəsidir.

Polis fəaliyyətinə idarədaxili nəzarətin həyata keçirilməsi işi üzrə DTİ-nin əsas **fəaliyyət istiqamətləri** polis orqanlarında xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğulolma, polis səlahiyyətlərindən sui-istifadə və digər neqativ halların qarşısının alınması, korrupsiya hüquqpozmalarının aradan qalldırılması və s. tədbirlərin görülməsindən ibarətdir.

DTİ-nin əsas **vəzifələri** sırasına aşağıdakı işlərin yerinə yetirilməsi aiddir:

---

[1] DİN-in strukturunda Daxili Təhlükəsizlik İdarəsi Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturunda dəyişikliklər edilməsi haqqında» 30.06.2004-cü il tarixli Fərmanı ilə yaradılmışdır.

– hüquqazidd məqsədlər güdən şəxslərin DİO-da xidmətə qəbul olunmasının qarşısının alınması;
– DİO əməkdaşlarının qanunsuz hərəkətlərinin müəyyən olunması və onların başvermə səbəblərinin aradan qaldırılması;
– DİO-da daxili təhlükəsizliyin təmin edilməsinə təşkilati-metodiki rəhbərliyin həyata keçirilməsi və s.

DTİ-nin əsas daxili nəzarət **funksiyaları** qismində aşağıdakıları göstərmək mümkündür:

– DİO əməkdaşlarının xidməti fəaliyyətlə bağlı həyat və sağlamlığına, habelə əmlakına qarşı qəsd təhlükəsi olduqda lazımi təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinin təşkil edilməsi;
– korrupsiyaya şərait yaradan və korrupsiya hüquqpozmalarına yol verən DİO əməkdaşlarının müəyyən olunması;
– DİO işçiləri tərəfindən cinayət törədilməsi hallarının səbəb və şəraitinin aşkar edilməsi üçün müvafiq tədbirlərin görülməsi və s.

Beləliklə, idarədaxili inzibati nəzarətin **məqsədini** DİO-da faktiki vəziyyətin müqayisəli təhlili, qanunçuluğa riayət olunması və inzibati fəaliyyətin məqsədəuyğunluğu üzrə meyarların yoxlanılması təşkil edir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, idarədaxili inzibati nəzarət polis idarəetmə sisteminin tərkib hissəsidir və o, polis xidmətinin tabe orqanlarına və onların vəzifəli şəxslərinə təsir göstərmək üsullarından biridir.

Polis hüququnda idarədaxili inzibati nəzarətin həyata keçirilməsində **əsas məsələ** kimi qarşıya aşağıdakı vəzifələr qoyulur:

– ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə polisin xidməti fəaliyyətinin effektliliyinin yüksəldilməsi;

– ictimai qaydanın təmin olunması sahəsində faktiki vəziyyətin qiymətləndirilməsi, habelə əməkdaşların peşə hazırlığı səviyyəsinin müəyyənləşdirilməsi, onların iş metod və formalarının təkmilləşdirilməsi;
– xidməti fəaliyyət prosesində qanunçuluğa və intizam qaydalarına riayət olunmasının yoxlanılması, çatışmazlıqların aşkar olunması və təqsirkar şəxslərin hüquqi məsuliyyətə cəlb edilməsi;
– xidməti fəaliyyətdə qabaqcıl təcrübənin aşkar olunması, genişləndirilməsi və yayılması;
– və s. tədbirlərin həyata keçirilməsi.

DİO-da daxili nəzarətin həyata keçirilməsini DİN-in müstəqil struktur hissəsi olan **Daxili Təhqiqatlar İdarəsi** də yerinə yetirir; onun Əsasnaməsi DİN-in 17.08.2015-ci il tarixli Q25-001-15 nömrəli qərarı ilə təsdiq edilmişdir. Adıçəkilən İdarənin əsas funksiyası DİO-da qanunçuluğa, xidməti vəzifənin icrası zamanı əməkdaşlar tərəfindən insan və vətəndaş hüquqlarına riayət edilməsinə nəzarətin həyata keçirilməsi, korrupsiya hallarının aşkarlanması və qarşısının alınması, xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğulolma halları, polis əməkdaşlarının və mülki işçilərin hüquqazidd hərəkətləri barədə müraciət və məlumatlar üzrə daxili təhqiqatın aparılmasını təmin etməkdən və digər zəruri tədbirlərin görülməsindən ibarətdir.

Müasir dövrdə polis orqanlarında demokratik əsaslara söykənən **idarədaxili inzibati nəzarət praktikası** formalaşmış və DİN-in müvafiq hüquqi aktlarında (əsasnamə, təlimat və s.) öz normativ ifadəsini tapmışdır; belə nəzarət formalarına aiddir: məsələn, polis orqanı rəhbərinin gündəlik şəxsi nəzarəti, xidməti və əməliyyat müşavirələrində müvafiq məruzə və hesabatların dinlənilməsi, hesabat və digər sənəd materiallarının öyrənilməsi və təftiş edilməsi, nəzarət və xidməti yoxlamaların həyata keçirilməsi, polis əməkdaşlarının hərəkət və ya hərəkətsizliyi ilə bağlı vətəndaşların ərizə və şikayətlərinə baxılması və s.

Polis orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti üzərində idarədaxili inzibati nəzarətin **üstünlüyü** aşağıdakılardan ibarətdir:

– polis orqanlarının vəzifəli şəxslərinin inzibati fəaliyyəti üzərində daimi və sinxron nəzarətin mümkünlüyü;
– inzibati fəaliyyətdə çatışmazlıqların vaxtında müəyyən edilməsi və aradan qaldırılması nəticəsində artıq kənardan (qıraqdan) inzibati nəzarət qaydasında müdaxiləyə ehtiyac duyulmur;
– idarədaxili inzibati nəzarət instansiyalarının polis orqanlarının struktur və xidməti fəaliyyəti ilə bilavasitə tanış olmaları;
– idarədaxili inzibati nəzarət kompleks formada ola bilər ki, bu da istənilən nəticələrə daha çox əməli şəkildə nail olunmasına imkan verir və s.

Polis fəaliyyəti üzərində **idarədənkənar inzibati nəzarətin** həyata keçirilməsi prioritet məsələ kimi mühüm əhəmiyyət kəsb edir. İdarədənkənar inzibati nəzarətin ən çox effektli növlərindən biri «**prezident nəzarəti»dir**. Polis haqqında qanunvericilikdə birmənalı şəkildə göstərilmişdir ki, polis fəaliyyətinə idarədənkənar nəzarəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir (PQ, maddə 12, II hissə). Belə nəzarət Azərbaycan Respublikasının Prezidenti tərəfindən **üç formada** həyata keçirilir:

– Prezidentin şəxsi nəzarəti;
– Prezidentin Administrasiyası vasitəsilə nəzarət;
– yerli icra hakimiyyəti orqanları vasitəsilə nəzarət.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasına (1995-ci il) müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti müstəqil icra hakimiyyətinin, o cümlədən təhlükəsizlik və daxili işlər sahələrində icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə Nazirlər Kabinetini və onun tərkibində mərkəzi icra hakimiyyəti orqanlarını yaradır, yerli icra hakimiyyətlərinin səlahiyyətlərini müəyyən edir. Bu o deməkdir ki, Prezident (latınca «praesidentis» – «başda oturan»)

icra hakimiyyətinin başçısıdır və o, məhz NK vasitəsilə icra hakimiyyətinin həyata keçirilməsində dolayı yolla iştirak edir; NK da, öz növbəsində, icra hakimiyyətinin həyata keçirilməsini daha aşağı orqanlara və vəzifəli şəxslərə həvalə edir.

Beləliklə, dövlət hakimiyyəti orqanları sistemində Azərbaycan Respublikası Prezidentinin statusu onunla müəyyən edilir ki, o, eyni zamanda həm dövlət, həm də icra hakimiyyəti başçısıdır. Ölkəmizdə «Prezident» postu 1991-ci ildə təsis olunmuşdur.

Dövlətdə ali vəzifəli şəxs kimi Prezident geniş konstitusion səlahiyyətlərə malikdir.[1] O, öz nəzarət funksiyaları səlahiyyətlərini həm bilavasitə, həm də Prezident Administrasiyasının struktur hissələri vasitəsilə həyata keçirir. Dövlət idarəetmə sistemində, həmçinin ölkədə polis xidmətinin fəaliyyəti üzərində dövlət inzibati nəzarət sistemində «prezident nəzarəti» xüsusi yer tutur. Bu tezis Dövlət Başçısının hüquqi statusunndan irəli gəlir. Prezident zəruri hallarda NK-nın iclaslarına sədrlik edir. Bununla əlaqədar olaraq, prezident nəzarəti, faktiki cəhətdən, polis strukturlarının fəaliyyətinin bütün əsas istiqamətlərini əhatə edir.

Azərbaycan Respublikası ərazisində polis xidməti fəaliyyəti üzərində dövlət nəzarətinin həyata keçirilməsi sistemində ölkə Prezidenti xüsusi və strateji mövqeyə malikdir. Prezident nəzarəti prosesində Dövlət Başçısı polis orqanlarında qanunların və digər normativ hüquqi aktların göstərişlərinin yerinə yetirilməsi işinə daim nəzarət edir, mövcud qanunvericiliyin icra vəziyyətini öyrənir və müvafiq tədbirlər görür.

---

[1] *Bu barədə ətraflı bax:* Azərbaycan Respublikasının Konstitusiyası (maddə 109 – Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri, maddə 110 – Qanunların imzalanması, maddə 111 – Hərbi vəziyyət elan edilməsi, maddə 112 – Fövqəladə vəziyyət tətbiq edilməsi və s.); Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2001, s.332-360; Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011, s. 79-84; Əsgərov Z.A. Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı, 2002, s. 367-405 və b.

Həmçinin «Daxili qoşunların statusu haqqında» Qanuna müvafiq olaraq (maddə 7), Azərbaycan Respublikasının Prezidenti Ali baş komandan kimi daxili qoşunların fəaliyyətinin təmin olunması üçün aşağıdakı məsələləri həll edir:

- daxili qoşunların strukturu və sayı haqqında təklifləri Milli Məclisə təqdim edir;
- daxili qoşunların inkişaf, səfərbərlik, yerləşdirmə, tətbiq planlarını və ştatlarını təsdiq edir;
- daxili qoşunları fövqəladə vəziyyətin hüquqi rejiminin təmin olunmasına cəlb etmək haqqında əmr verir;
- daxili qoşunların fəaliyyətinə aid digər məsələləri həll edir və s.

Eyni zamanda, qeyd etmək lazımdır ki, prezident nəzarətinin **məzmunu** polis xidmətində vəzifəli şəxslər tərəfindən qanunvericilik aktlarının müddəalarına riayət olunması, müxtəlif formada hüquqpozmaların və onları yaradan səbəblərin müəyyənləşdirilməsi, öyrənilməsi və belə halların gələcəkdə baş verməməsi üçün zəruri tədbirlərin görülməsindən ibarətdir.

Polis hüququnda inzibati nəzarət hüquq subinstitutunun tərkibində «prezident nəzarəti» qurumunun formalaşması və inkişafı prosesində Azərbaycan Respublikası Prezidentinin 21.06.1995-ci il tarixli 349 nömrəli Fərmanı mühüm rol oynamışdır. Belə ki, sözügedən Fərmanla Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının tərkibində **Dövlət Nəzarəti Şöbəsi** yaradılmışdır; o, Prezident Administrasiyasının müstəqil struktur hissələrindən biridir.[1]

---

[1] *Bax:* «Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının tərkibində Dövlət Nəzarəti Şöbəsinin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 21.06.1995-ci il tarixli 349 nömrəli Fərmanı; sonradan «Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının strukturunun təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 09.06.2005-ci il tarixli 851 nömrəli Sərəncamı ilə yeni struktur təsdiq edilmişdir. «Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə «Prezidentin İcra Aparatı» sözləri «Prezidentin Administrasiyası» sözləri ilə əvəz edilmişdir // www. e-qanun. az.

Adıçəkilən Dövlət Nəzarəti Şöbəsi öz hüquqi statusuna görə, icra hakimiyyətinin bütün vertikalı üzrə fəaliyyətin yoxlanılmasını və nəzarət olunmasını təşkil edir, nəticəsi barədə Prezidentə məruzə edir və o, müvafiq qərar qəbul edərək müəyyən tapşırıqlar verir.

Polis xidməti fəaliyyəti üzərində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət Nəzarəti Şöbəsinin əsas nəzarət formalarına aşağıdakıları aid etmək olar:

- təqsirkar vəzifəli şəxslərin cəzalandırılması barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təkliflər vermək;
- baxılıb ölçü götürülməsi üçün Azərbaycan Hökumətinə müvafiq informasiya göndərmək;
- icra intizamı barədə icra hakimiyyəti orqanlarının rəhbərlərinə müəyyən göstərişlər vermək və s.

Prezident nəzarətini həyata keçirən subyektlərdən biri də **Azərbaycan Respublikasının Nazirlər Kabinetidir** (NK). Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasına görə (maddə 114, II hissə), Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır; NK Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir.

NK-nin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşdirilmişdir. Əsas Qanuna müvafiq olaraq (maddə 119), nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına (deməli, həm də DİN-ə) rəhbərlik etmək Nazirlər Kabinetinin səlahiyyətlərinə aiddir.

Öz səlahiyyətləri çərçivəsində NK qanunların icrasını təşkil edir. O, icra hakimiyyətinin aşağı orqanlarının fəaliyyətinə müntəzəm surətdə nəzarət edir, həmçinin Prezident fərmannlarının (sərəncamlarının) həyata keçirilməsi ilə bağlı bütün məsələləri həll edir.

Azərbaycan Hökuməti öz fəaliyyətini tənzimləmək məqsədilə «Müvəqqəti Reqlament» (1994-cü il) təsdiq etmiş-

dir.[1] Eyni zamanda Əsas Qanuna görə (1995-ci il), NK-nın iş qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir. NK öz vəzifələrinin yerinə yetirilməsini qərarlar qəbul edilməsi, sərəncamlar verilməsi, onların icrasına nəzarət, habelə NK rəhbərliyinin təşkilati-əməli fəaliyyəti yolu ilə təmin edir (Müvəqqəti Reqlament, bənd 3).

Vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılması, NK-nın qərar və sərəncamlarının yerinə yetirilməsinə nəzarət xüsusi qaydada həyata keçirilir (Müvəqqəti Reqlament, VI hissə, bənd 43-44).

«Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanununa görə (maddə 7), Nazirlər Kabineti daxili qoşunların fəaliyyətinin təmin olunması üçün aşağıdakı məsələləri həll edir:

– daxili qoşunları maddi-texniki vasitələrlə, silahla, xüsusi vasitələrlə və döyüş texnikası ilə təmin edir;
– hərbi hissələrin və bölmələrin xüsusi hissələrə və bölmələrə aid edilməsinin əsaslarını müəyyənləşdirir;
– daxili qoşunlar tərəfindən mühafizə edilməli olan mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının və xüsusi yüklərin siyahısını müəyyənləşdirir və s.

Prezident nəzarətini həyata keçirən subyektlərdən digəri **yerli icra hakimiyyəti orqanları** sayılır. Belə ki, Əsas Qanuna görə (maddə 124, III hissə), yerli icra hakimiyyətinin səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

Yerli icra hakimiyyəti orqanlarına **yerli icra hakimiyyətinin başçıları** rəhbərlik edir. Başçı yerlərdə (şəhər və rayonlarda) icra hakimiyyətini həyata keçirir; onu vəzifəyə Prezident təyin edir.

---

[1] *Bax:* «Azərbaycan Respublikası Nazirlər Kabinetinin Müvəqqəti Reqlamentinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.02.1994-cü il tarixli 54 nömrəli Qərarı.

Yeli icra hakimiyyətlərinin statusu Azərbaycan Respublikası Prezidentinin 06.06.2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Yerli icra hakimiyyətləri haqqında Əsasnamə» ilə tənzimlənir.[1]

Yerli icra hakimiyyəti başçısı müəyyən **səlahiyyətlərə** malikdir; ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və polis fəaliyyətinin digər istiqamətlərinin həyata keçirilməsi ilə əlaqədar polisə öz vəzifələrini yerinə yetirməkdə köməklik göstərilməsi onun əsas səlahiyyətlərinə aid olan məsələlərdən biridir (PQ, maddə 10).

Qəsəbə və kəndlərdə icra hakimiyyətinin **nümayəndəliyi** fəaliyyət göstərir; ona icra hakimiyyəti başçısı tərəfindən təyin olunmuş nümayəndə rəhbərlik edir və onun əsas vəzifəsi icra hakimiyyəti başçısının səlahiyyətlərinin həyata keçirilməsinə kömək göstərməkdən, habelə yerli polis orqanları tərəfindən hüquq-mühafizə vəzifələrinin yerinə yetirilməsi işində yaxından iştirak etməkdən ibarətdir.

Şərh olunanları nəzərə alaraq, qeyd edə bilərik ki, polis fəaliyyəti üzərində inzibati nəzarətin həyata keçirilməsi qaydaları, forma və üsulları müvafiq qanunvericilik aktlarının müəyyənləşdirdiyi hüquq normaları əsasında nizama salınır. Sözügedən sferada polis-hüquq normaları qrup şəklində birləşərək polis nəzarət hüquq yarıminstitutunun tərkibində inzibati nəzarət subinstitutunu yaradırlar. Bu kontekstdə həmin subinstituta aşağıdakı formul üzrə doktrinal tərif vermək mümkündür:

**polis hüququnda inzibati nəzarət subinstitutu** dedikdə polis fəaliyyəti üzərində idarədaxili və idarədənkənar inzibati nəzarətin həyata keçirilməsini tənzimləyən müvafiq polis-hüquq normalarının məcmusu başa düşülür.

Polisin müvafiq vəzifə və funksiyalarının effektiv şəkildə yerinə yetirilməsində polis hüququnda inzibati nəzarət subins-

---

[1] Bax: AR QT, 2012, № 6 // www.president.az/articles/5157

titutu vacib rol oynayır və o, polis nəzarət hüquq yarıminstitutunun mühüm tərkib elementlərindən biridir.

### 6.2.4. Polis hüququnda məhkəmə nəzarəti

Polis fəaliyyəti üzərində həyata keçirilən dövlət nəzarəti formalarından biri də məhkəmə nəzarətidir. Polis haqqında qanunvericilik aktlarında müəyyənləşdirildiyi kimi, polis orqanlarında qanunların icrasına nəzarəti öz səlahiyyətləri daxilində məhkəmələr də həyata keçirir (PQ, maddə 12, II hissə); polis orqanlarında əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti[1] CPM ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir (ƏFQ, maddə 19-1).

Dövlət hakimiyyətinin qollarından biri məhkəmə hakimiyyəti adlanır. **Məhkəmə hakimiyyəti** dedikdə dövlət hakimiyyətinin elə bir xüsusi sahəsi (qolu) başa düşülür ki, o, ədalət mühakiməsi yolu ilə həyata keçirilir. Ədalət mühakiməsi isə fiziki şəxslər, dövlət orqanları, hüquqi şəxslər və digər subyektlər arasında yaranan müxtəlif mübahisələrin qanun əsasında həll edilməsi deməkdir.

Məhkəmə hakimiyyətinin həyata keçirdiyi fəaliyyətin əsas istiqaməti vətəndaşların hüquq və mənafelərini qorumaqdan ibarətdir. Bundan əlavə, məhkəmə hakimiyyəti fəaliyyəti nəticəsində ölkənin ictimai və dövlət quruluşu cinayət əməllərindən qorunur, mühafizə edilir. Nəzarət etmək məhkəmə hakimiyyətinin fəaliyyət istiqamətlərindən biridir və onu çox vaxt «məhkəmə nəzarəti» adlandırırlar. Məhkəmə nəzarətinin həyata keçirilməsi sayəsində dövlət orqanlarının qanun çərçivəsində, qanun əsasında fəaliyyət göstərmələri təmin olunur.

---

[1] *Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarətinin həyata keçirilməsi, onun formaları və s. məsələlər barədə bax: məsələn,* Hüseynov Ş.İ., Səlimov K.N., Muradov F.N. Əməliyyat-axtarış fəaliyyəti (mühazirələrin qısa konspekti). Dərs vəsaiti. Bakı, 2007, s.68-69; Hüseynov Ş.İ., Kazımov İ.Ə. Əməliyyat-axtarış fəaliyyəti. 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı, 2004, sö.75-78 və b.

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin **əsasları** Konstitusiya ilə müəyyən edilir. Konstitusiyanın III bölməsinin VII fəslində təsbit olunan normalar bu məsələnin tənzimlənməsinə həsr edilmişdir.

Polis hüququnda **məhkəmə nəzarəti** dedikdə polis orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti üzərində məhkəmə hakimiyyət orqanları tərəfindən həyata keçirilən nəzarət başa düşülür.

Azərbaycan Respublikasında polis fəaliyyəti üzərində məhkəmə nəzarəti məhkəmə hakimiyyətinin həyata keçirilməsi prosesində reallaşır. Azərbaycan Respublikasının Konstitusiyasına görə (maddə 125), ölkədə məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmə hakimiyyəti isə respublika ərazisində konstitusiya, mülki, inzibati və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər üsullarla diferensial qaydada təmin olunur. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasında aşağıdakı **məhkəmələr** fəaliyyət göstərir:[1]

- Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi;
- Azərbaycan Respublikasının Ali Məhkəməsi;
- Azərbaycan Respublikasının apellyasiya məhkəmələri;
- Azərbaycan Respublikasının ümumi məhkəmələri;
- digər ixtisaslaşdırılmış məhkəmələr.

Göstərilən hər bir növ məhkəmə qanunvericilik çərçivəsində xüsusi səlahiyyətlərə malikdir. Mülki, inzibati və xüsusilə də cinayət məhkəmə icraatı zamanı hakimiyyətdən sui-istifadə faktları araşdırılır, eyni zamanda vəzifəli şəxslərin (o cümlədən polis orqanlarında çalışan əməkdaşların) fəaliyyəti üzərində nəzarət həyata keçirilir. Düzdür, belə məhkəmə nəzarəti polis hüququnda dolayı nəzarət xarakteri daşısa da, kifayət

---

[1] *Azərbaycan Respublikasının məhkəmə sistemi, hakimlərin statusu və digər məsələlər barədə ətraflı bax: məsələn,* Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.65-189.

dərəcədə effektli sayılır. Polis orqanlarının xarakterindən və orada çalışan vəzifəli şəxslərin xidməti vəziyyətindən asılı olmayaraq, məhkəmələr onların fəaliyyətinin qanuniliyinə hüquqi qiymət verir, zəruri hallarda xüsusi qətnamə çıxarır, həmçinin hüquq pozuntusunun aradan qaldırılması barədə müvafiq polis orqanı qarşısında məsələ qoyur, polis xidmətinin təqsirkar vəzifəli şəxslərinin müvafiq hüquqi məsuliyyətə cəlb olunması haqqında qərar qəbul edirlər.

Polis hüququnda məhkəmə nəzarətinin həyata keçirilməsi insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə olunması, insan haqlarının qorunması, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin təmin olunması işində mühüm əhəmiyyət kəsb edir. Bu məsələ, xüsusilə, polis orqanlarının vəzifəli şəxsləri ilə vətəndaşlar arasındakı qarşılıqlı münasibətlərə və yaxud da inzibati mübahisələrə toxunduqda daha aktual xarakter alır.

Polis orqanlarının fəaliyyəti üzərində məhkəmə nəzarətinin forması qismində inzibati-yurisdiksiya hüququnda cəmlənmiş və qarşılıqlı əlaqəli fəaliyyət göstərən müvafiq hüquq institutlarının normaları çıxış edir; həmin institutlara aiddir: şikayət (inzibati iddia) hüququ institutu, inzibati şikayətə baxılması institutu, inzibati iddiaya baxılması institutu, vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərə görə vəzifəli şəxslərin məsuliyyəti institutu və s. Bu institutlar isə, məlum olduğu kimi, məcmu şəklində inzibati hüququn sistemində yarımsahə statusuna malik olan inzibati-yurisdiksiya hüququnda cəmləşir; inzibati-yurisdiksiya yarımsahəsi isə inzibati hüququn digər yarımsahələri (idarəetmə hüququ və polis hüququ yarımsahələri) ilə daim qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Belə bir sistemləşmənin sayəsində «inzibati-yurisdiksiya hüququ» fenomeninə daxil olan normalar müvafiq ictimai münasibətlərin kompleks və qarşılıqlı əlaqəli metodlarla tənzimlənməsinə imkan yaradır.

Azərbaycan Respublikasında inzibati məhkəmə icraatı sistemi artıq formalaşmışdır. Belə ki, «İnzibati icraat haq-

qında» Azərbaycan Respublikasının Qanunu (İİQ, 2005-ci il), «Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi» (İPM, 2009-cu il) və digər normativ hüquqi aktlar qəbul edilmiş və inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatı sistemi 01.01.2011-ci il tarixdən fəaliyyətə başlamışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 60) və «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanununda (İİQ, maddə 77) vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı təsbit olunmuşdur. Pozulmuş subyektiv hüquqların və qanunla qorunan maraqların müdafiəsi məqsədilə şəxslərin məhkəməyə müraciət etmək hüququ mülki hüquqların müdafiəsinin əsas formalarındandır.[1]

İİQ, İPM, habelə MPM-in normaları məhkəmə müdafiəsinin əsas formalarından biridir. Belə ki, sözügedən normativ hüquqi aktların müvafiq normaları məhkəmə müdafiəsinin real həyata keçirilməsinə xidmət edir. Bu normalar sırasında inzibati icraat, iddia ərizələrinin verilməsi, iddia ərizələrinin qəbulundan imtina, qarlışılqı iddiaların verilməsi və s. hallar əhatə olunur; hüquq və qanunla qorunan maraqları pozulmuş hər kəs (fiziki və ya hüquqi şəxs) qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququna malikdir.

Bununla da maraqlı şəxs **məhkəmə nəzarəti** altında öz iradəsini reallaşdırır.

Deməli, polis hüququnda məhkəmə nəzarəti, əsasən və başlıca olaraq, inzibati hüququn **«idarəetmə hüququ»** və **«polis hüququ»** yarımsahələri ilə daim qarşılıqlı əlaqədə olan **«inzibati-yurisdiksiya hüququ»** yarımsahəsi vasitəsilə həyata keçirilir. Belə nəzarət eyni zamanda həm də konstitusiya, mülki, inzibati və cinayət məhkəmə icraatı vasitəsilə aparılır.

---

[1] *Bax:* Abdullayev A., Abdullayev E. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı, 2007, s.231.

Mühakimə icraatı qaydasında məhkəmələr müvafiq işlərə baxaraq, polis orqanlarının və onların vəzifəli şəxslərinin əməllərinə, həmçinin onlar tərəfindən çıxarılan qərarlara və yaxud qəbul edilən normativ aktlara hüquqi qiymət verir və bununla da onların fəaliyyətinə müvafiq nəzarət həyata keçirir.

Göründüyü kimi, polis orqanlarında qanunların icrasına nəzarəti qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr də həyata keçirir. Polis hüququnda məhkəmə nəzarəti aşağıda göstərilən **normativ hüquqi aktlar** əsasında reallaşır: Azərbaycan Respublikasının Konstitusiyası (VII fəsil), «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunu (1997-ci il), «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (1997-ci il), «Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il), PQ (1999-cu il), ƏFQ (1999-cu il), YHQ (1998-ci il) və digər normativ hüquqi aktlar.[1]

Beləliklə, şərh olunanları ümumiləşdirərək, qeyd edə bilərik ki, polis hüququnda məhkəmə nəzarəti aşağıda göstərilən **formalarda** həyata keçirilir:

mülki, inzibati və cinayət işlərinə məhkəmələr tərəfindən baxılan zaman polis xidməti fəaliyyətində qanunçuluğun pozulması hallarının müəyyənləşdirilməsi, qanun pozuntusunun və onu yaradan səbəblərin aradan qaldırılması haqqında xüsusi qərardadların çıxarılması;

polis xidmətinin vəzifəli şəxslərinin inzibati qərarlarından vətəndaşların şikayətlərinin məhkəmələr tərəfindən araşdırılması prosesi;

---

[1] *Bu normativ hüquqi aktlar barədə bax: məsələn,* Məhkəmə hakimiyyəti ... Hakim... Qanun.... / Buraxılışa məsul – E.M.Əfəndiyev. Bakı, 2001, 468 s. və b.

inzibati xətalar haqqında işlərə hakimlər tərəfindən bilavasitə baxılması və s.

Yuxarıda göstərilənlərə əsasən, söyləyə bilərik ki, polis fəaliyyəti üzərində məhkəmə nəzarətinin həyata keçirilməsi işi mövcud qanunvericilik aktlarının müəyyən etdiyi normalar (polis-hüquq normaları) vasitəsilə qaydaya salınır. Bu sferada mövcud olan polis-hüquq normalarını ümumiləşdirərək (cəmləşdirərək) polis nəzarət hüquq yarıminstitutunun tərkibində məhkəmə nəzarət subinstitutunu fərqləndirmək mümkündür.

**Polis hüququnda məhkəmə nəzarəti subinstitutu** dedikdə polis fəaliyyəti üzərində məhkəmə nəzarətinin həyata keçirilməsini tənzimləyən müvafiq polis-hüquq normalarının məcmusu başa düşülür.

Polis orqanlarında qanunların icrasına nəzarətin həyata keçirilməsində məhkəmə nəzarəti subinstitutu «polis nəzarət hüquq yarıminstitutu» konstruksiyasında vacib element kimi yer tutaraq, xüsusi əhəmiyyət kəsb edir.

### 6.2.5. Polis hüququnda prokuror nəzarəti

Polis fəaliyyəti üzərində həyata keçirilən dövlət nəzarətinin digər formalarından biri prokuror nəzarətidir.

Polis hüququnda **prokuror nəzarəti** dedikdə polis orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunması işinə dair prokurorluq orqanları tərəfindən həyata keçirilən nəzarət başa düşülür.

Polis haqqında qanunvericilik aktlarında nəzərdə tutulmuşdur ki, polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində prokurorluq orqanları da həyata keçirir (PQ, maddə 12; ƏFQ, maddə 20 və s.). Prokuror nəzarəti polis xidmətinin fəaliyyəti üzərində dövlət nəzarət sisteminin tərkibində mühüm yer tutur və o, prokurorluq orqanları tərəfindən aparılır.

Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq (maddə 133), Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir.

Azərbaycan Respublikasının Prokurorluğu vahid mərkəzləşdirilmiş dövlət orqanıdır. Düzdür, Konstitusiyaya görə, prokurorluq qanunların icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir. Lakin prokurorluq ədalət mühakiməsini həyata keçirmir, yalnız ona kömək edən orqandır. Deməli, prokurorluq icra və məhkəmə hakimiyyəti orqanları arasında aralıq vəziyyəti tutan xüsusi xarakterli dövlət orqanıdır.[1]

Azərbaycan Respublikasının ərazisində prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı münasibətlər «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (1999-cu il) tənzimlənir. Adıçəkilən normativ hüquqi akta əsasən, prokurorluq məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla vahid mərkəzləşdirilmiş orqandır (maddə 2). Prokurorluq sisteminə aşağıdakılar daxildir:

– Azərbaycan Respublikasının Baş Prokurorluğu;
– Azərbaycan Respublikasının Hərbi Prokurorluğu;
– Naxçıvan Muxtar Respublikasının Prokurorluğu;
– Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu;
– rayon (şəhər) prokurorluqları;
– hərbi ixtisaslaşdırılmış prokurorluqlar və s.[2]

---

[1] *Bax*: Allahverdiyev S.S.Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.92.

[2] *Bax:* «Prokurorluq haqqında» Azərbaycan Respublikasının 07.12.1999-cu il tarixli Qanunu (maddə 8).

Prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri də təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin həyata keçirilməsidir. Prokurorluq bu fəaliyyət növünü (funksiyasını) hüquqpozmaların törədilməsi mümkün ola bilən müxtəlif sferalarda realizə edir.

Polis orqanlarının fəaliyyətində qanunların icrasına prokuror nəzarətinin əsas **məqsədi** qanunların eyni cür və dürüst icrasının və tətbiqinin təmin olunmasından ibarətdir. Bunun üçün prokurorluq aşağıdakı nəzarəti həyata keçirir:

- cinayət və digər qanunazidd hərəkətlər barədə təhqiqat orqanlarına daxil olmuş ərizə və məlumatların qeydə alınması, onlara baxılması və müvafiq tədbirlər görülməsinə dair qanunvericiliklə müəyyən olunmuş qaydalara əməl edilməsi;
- təhqiqat orqanları tərəfindən qanunlarda nəzərdə tutulmuş hərəkətlərin yerinə yetirilməsi və bu fəaliyyət prosesində qəbul olunan qərarların qanuniliyi;[1]
- ibditai istintaqa rəhbərlik etmək, bilavasitə istintaq aparmaq, dövlət ittihamını müdafiə etmək və digər prosessual funksiyaları həyata keçirmək fəaliyəti və s.

Prokurorluq əməliyyat-axtarış fəaliyyətinə dair qanunların tələblərinin əməliyyat-axtarış orqanları tərəfindən icrasını təmin etmək məqsədi ilə bu orqanlar tərəfindən yerinə yetirilən müvafiq tədbirlərin reallaşdırılması və onların qəbul etdiyi qərarların qanuniliyi üzərində nəzarəti həyata keçirir.

Əməliyyat-axtarış fəaliyyəti üzərində prokuror nəzarətinin predmetinə aid məsələlər ƏFQ ilə müəyyən edilir.[2] Belə ki,

---

[1] *Bax:* «Prokurorluq haqqında» Azərbaycan Respublikasının 07.12.1999-cu il tarixli Qanunu (maddə 18).

[2] *Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarəti, onun məzmunu və s. məsələlər barədə bax: məsələn,* Hüseynov Ş.İ., Kazımov İ.Ə. Əməliyyat-axtarış fəaliyyəti. 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı, 2004, s.74-75; Hüseynov Ş.İ., Səlimov K.N., Muradov F.N. Əməliyyat-axtarış fəaliyyəti (mühazirələrin qısa konspekti). Dərs vəsaiti. Bakı, 2007, s.74-75 və b.

ƏFQ ilə müəyyənləşdirilmiş normaya görə, əməliyyat-axtarış fəaliyyətinin subyektləri (polis orqanları da həmin subyektlərə aiddir) tərəfindən qanunların icrasına nəzarəti prokurorluq orqanları həyata keçirir (ƏFQ, maddə 20); prokurorluq orqanları onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər. Qeyd etmək lazımdır ki, əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar prokuror nəzarətinin predmetinə daxil deyil.

«Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, daxili qoşunlar tərəfindən qanunların icrasına qanunvericiliklə nəzərdə tutulmuş qaydada prokuror nəzarəti həyata keçirilir (maddə 30).

Həmçinin polis fəaliyyətinə dair prokuror nəzarətinin həyata keçirilməsi barədə inzibati xətalar qanunvericiliyində (İXM, maddə 54), cinayət-prosessual qanunvericilikdə (CPM, maddə 84) və digər normativ hüquqi aktlarda müvafiq müddəalar nəzərdə tutulmuşdur.

Göründüyü kimi, polis fəaliyyəti üzərində prokuror nəzarətinin həyata keçirilməsinin **hüquqi əsasını** Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il), «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il), PQ (maddə 12), ƏFQ (maddə 20), «Daxili qoşunların statusu haqqında» Qanun (maddə 30), CPM (maddə 84), İXM (maddə 54) və digər normativ hüquqi aktlar təşkil edir.

Prokurorluq haqqında qanunvericiliyə əsasən, polis orqanlarında və onların vəzifəli şəxsləri tərəfindən qanunların icra olunmasına müvafiq nəzarətin həyata keçirilməsi üçün prokurorlar kifayət dərəcədə geniş səlahiyyətlərə malikdirlər. Belə ki, qanunlara riayət edilməsi işi üzərində nəzarət prokurorluğun əsas fəaliyyət istiqamətlərindən (əsas funksiyalarından) biridir. Bununla əlaqədar olaraq, polis strukturlarına münasibətdə prokuror yoxlamalarının həyata keçirilməsi mövcud qanunvericiliyin pozulması hallarının aradan qalldırılması üzrə zəruri tədbirlərin vaxtında görülməsi məqsədilə sistemli xarakter daşımalıdır. Prokuror polis orqanlarının

vəzifəli şəxsləri tərəfindən qanun pozuntusuna yol verilməsi hallarını müəyyən etdikdə qanunçuluğun pozulması faktına qanuni formada müvafiq reaksiya göstərməli və münasibət bildirməlidir.

Prokuror nəzarətində müvafiq **reaksiya göstərilməsi formaları** dedikdə prokurorlar tərəfindən polis orqanlarında müəyyən olunmuş qanun pozuntularına, belə pozuntuların və onların törədilməsinə imkan yaradan halların aradan qaldırılmasına, həmçinin qanun pozuntularına yol vermiş təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə reaksiya göstərilməsi prosesində həyata keçirilən tədbirlər başa düşülür; belə tədbir formalarına **prokuror aktları** da deyilir.

«Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanunu prokuror aktlarının müəyyən **növlərini** nəzərdə tutur ki (maddə 21), onlara aşağıdakılar aiddir: xəbərdarlıq, təqdimat, qərar, yazılı göstəriş, iddia ərizəsi (ərizə), məhkəmə qərarlarından protest. Göstərilən aktların müvafiq növlərindən polis orqanlarının əməkdaşları tərəfindən xidməti peşə fəaliyyəti həyata keçirilərkən törədilmiş qanun pozuntularının aradan qaldırılmasına istiqamətlənmiş tədbirlər kimi prokuror nəzarətində effektli şəkildə istifadə olunur.

**Xəbərdarlıq** dedikdə qanun pozuntularından çəkindirmək məqsədi ilə prokuror tərəfindən polis əməkdaşına və ya polis orqanının vəzifəli şəxsinə rəsmi şəkildə edilən xəbərdarlıq başa düşülür.

Polis hüququnda prokuror nəzarətinin digər forması **təqdimatdır**. Prokuror qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirərkən polisin xidməti fəaliyyətində qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qalldırılmasına dair polis orqanlarına, yaxud onların vəzifəli şəxslərinə təqdimat verir. Təqdimata baxılması və görülmüş tədbirlər barədə bir aydan gec olmayaraq prokurora yazılı məlumat verilməlidir.

Polis hüququnda prokuror nəzarətinin mühüm formalarından biri də **qərar** sayılır. Belə ki, prokuror polis fəaliyyətinə

nəzarət prosesində cinayət və inzibati xəta aşkar etdikdə və digər hallarda müvafiq olaraq cinayət işi başlamaq və ya inzibati xətalara dair icraat başlamaq haqqında, yaxud digər əsaslandırılmış qərar çıxarır.

Prokuror aktlarının digər növü **yazılı göstəriş** hesab olunur. Prokuror qanunvericilikdə nəzərdə tutulmuş hallarda təhqiqat və ya ibtidai istintaq orqanlarına yazılı göstəriş vermək hüququna malikdir. Prokurorun təhqiqat və ya ibtidai istintaq məsələlərinə dair yazılı göstərişinin polis orqanları tərəfindən icrası məcburidir.

Polis hüququnda prokuror nəzarəti qaydasında prokuror Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda **iddia ərizəsi (ərizə)** ilə məhkəməyə müraciət edə bilər. Bu, prokuror aktlarının formalarından biridir.

Eyni zamanda qeyd etmək lazımdır ki, prokuror Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda **məhkəmə qərarlarından protest** verir. Bu növ prokuror aktı polis-hüquq münasibətləri ilə bağlı məsələlərə də şamil olunur. Protest prokurorun iştirak etdiyi iş üzrə məhkəmə qərarlarından onun yuxarı məhkəməyə verdiyi şikayətdir və öz hüquqi statusuna, hüquqi nəticələrinə görə digər tərəfin şikayətinə bərabər tutulur.

Polis fəaliyətinin əsas təyinatı insanların həyat və sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qorumaqdan ibarətdir. Polis xidmətinin geniş spektrli və sosial yönümlü təyinatını, habelə onun yerinə yetirdiyi əsas vəzifələri nəzərə alaraq, qeyd edə bilərik ki, bu amillər polis hüququnda prokuror nəzarətinin daim həyata keçirilməsi şərtləndirir.

Polis fəaliyyəti üzərində prokuror nəzarətinin həyata keçirilməsi işi müvafiq qanunvericilik aktlarında təsbit olunmuş hüquq normaları vasitəsilə nizamlanır. Polis hüququnda prokuror nəzarəti funksiyasını reqlamentləşdirən və qaydaya

salan polis-hüquq normaları ayrılaraq prokuror nəzarəti subinstitutunu yaradırlar. **Polis hüququnda prokuror nəzarəti subinstitutu** dedikdə polis fəaliyyəti üzərində prokuror nəzarətinin həyata keçirilməsini tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür. Sözügedən subinstitut polis nəzarət hüquq yarıminstitutunda özünə yer alaraq, onun tərkib hissəsini (elementini) təşkil edir.

Beləliklə, şərh olunanları ümumiləşdirərək qeyd edə bilərik ki, polis fəaliyyəti üzərində hüquqi nəzarətin həyata keçirilməsini tənzimləyən polis-hüquq normaları ayrı-ayrı subinstitutlar (parlament nəzarət subinstitutu, inzibati nəzarət subinstitutu, məhkəmə nəzarət subinstitutu və prokuror nəzarət subinstitutu) üzrə qruplaşaraq yarımsistem şəklində polis nəzarət hüquq yarıminstitutunu yaradırlar. Bu yarıminstitut da, öz növbəsində, polis məsuliyyət hüquq yarıminstitutu ilə birləşərək «polis hüququnda nəzarət və məsuliyyət institutu» konstruksiyasının formalaşmasında əhəmiyyətli rol oynayır.

## 6.3. Polis hüququnda məsuliyyət

### 6.3.1. Polis hüququnda məsuliyyət anlayışı, onun funksiyaları və prinsipləri

Hüquqi və demokratik cəmiyyətdə qanunun aliliyinin təmin olunmasında və hüquq qaydalarına əməl edilməsində hər bir qanun pozuntusu faktına görə məsuliyyətin müəyyənləşdirilməsi vacib əhəmiyyət kəsb edir.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında **məsuliyyət** anlayışına xüsusi bir norma həsr olunmuşdur. Əsas Qanunda təsbit edilmiş müddəaya görə, Konstitusiyasının və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur (maddə 80).

Məsuliyyətin müxtəlif növləri fərqləndirilir: sosial məsuliyyət, mənəvi məsuliyyət, siyasi məsuliyyət və hüquqi məsuliyyət. **Sosial məsuliyyət** daha əhatəli və ümumiləşdirilmiş anlayışdır. Bu məsuliyyət cəmiyyətdəki, ictimai həyatdakı bütün məsuliyyət növlərini özündə birləşdirir. Elə bu baxımdan, qeyd edə bilərik ki, hüquqi məsuliyyət sosial məsuliyyətin bir növü kimi çıxış edir.

Hüquq ədəbiyyatı səhifəsində göstərildiyi kimi,[1] «məsuliyyət» ifadəsi kifayət qədər geniş anlayışdır; o, fəlsəfədə, sosiologiyada, hüquqda və digər sahələrdə işlədilir. Məsuliyyət yalnız qanunla müəyyənləşdirilir, onun əmələ gəlməsinin və tətbiqinin dəqiq əsasları olur.

Biz məsuliyyət anlayışını hüquqi mənada işlədirik və onun iki forması fərqləndirilir:

– hüquqi cəhətdən məsuliyyət hüquq normalarında nəzərdə tutulan tənbeh tədbirləridir;

– məsuliyyət hüquqi qurum kimi tənbeh tədbirlərini müəyyənləşdirən hüquq normalarının sistemidir.

Məsuliyyət **çoxcəhətli** anlayış olmaqla, hər bir şəxsin cəmiyyət qarşısında mənəvi borcu və hüquq normalarına əməl olunması ilə fərqlənən əxlaqi və hüquqi kateqoriyadır.

Məsuliyyət anlayışı geniş mənada – cəmiyyət tərəfindən mühakimə olunan əməllər törətmiş şəxsin üzərinə onun etdiyi əməllərin mənfi nəticələrinə məruz qalmaq öhdəliyinin qoyulması deməkdir. «Məsuliyyət» termini əksər hallarda şəxsin üzərinə qoyulmuş vəzifələrin hazırda və gələcəkdə həyata keçirilməsinə görə müvafiq tədbir mənasında işlədilir. Bu, pozitiv məsuliyyətdir. **Pozitiv məsuliyyət** dövlət və cəmiyyət qarşısında cəmiyyət üzvləri tərəfindən vətəndaşlıq borcu ilə əlaqədar olan faydalı hərəkətlərin həyata keçirilməsindən ibarətdir.

---

[1] *Məsələn, bax:* Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı, 2002; Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2001; Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Bakı, 2010 və s.

Pozitiv məsuliyyətdən fərqli olaraq, hüquqazidd əmələ (hüquq pozuntusuna) görə məsuliyyət **retrospektiv məsuliyyət** adlanır. Burada məsuliyyət anlayışı hüquq pozuntusu anlayışı ilə sıx surətdə bağlıdır. Hüquq pozuntusu şəxsin məsuliyyət ölçüsünün müəyyən olunması üçün əsasdır. Məsuliyyət şəxsin yol verdiyi hüquq pozuntusuna görə cavab vermək vəzifəsidir. Əgər hər hansı cavab vermək vəzifəsi eyni zamanda tələb etmək hüququnu nəzərdə tutarsa, onda məsuliyyət özü elə hüquqi münasibətdir.

Deməli, məsuliyyət, mahiyyətcə, özünün xüsusi orqanları simasında dövlətlə hüquq pozuntusuna görə cavab vermək vəzifəsi daşıyan şəxs arasındakı **hüquqi münasibəti** ifadə edir. Belə halda hüquq pozuntusu bu növ hüquqi münasibətin yaranması üçün hüquqi fakt rolunu oynayır. Deyilənləri bütövlükdə polis fəaliyyəti nəticəsində yaranan polis-hüquq münasibətlərinə də aid etmək olar.

**Hüquq pozuntusu** dedikdə anlaqlı vəziyyətdə olan və müəyyən yaş həddinə çatan şəxsin (subyektin) təqsirli, hüquqazidd elə bir davranışı başa düşülür ki, bu davranış cəmiyyətə, dövlətə və ya ayrı-ayrı şəxslərə zərər vurur və hüquqi məsuliyyətə səbəb olur.[1]

Məsuliyyətin heç də bütün növləri dövlət məcburiyyətinin tətbiq edilməsi ilə əlaqədar deyildir. Dövlətin məcburedici tədbirləri yalnız şəxs öz vəzifəsini yerinə yetirməkdən imtina etdiyi halda tətbiq olunur. Polis-hüquq münasibətlərində məsuliyyət məsələsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, o, şəxsin hüquq pozuntusuna görə təqsirləndiyi vaxtdan etibarən meydana gəlir və dövlətin məcburedici qüvvəsinin tətbiqinə səbəb olur.

Məsuliyyət hər hansı digər ictimai kateqoriya kimi **sosial təyinata** malikdir. Bu, hüquq pozuntusuna görə ədalətli, əsaslı və qanuni cəzalandırma yolu ilə ictimai qaydanı mühafizə etməkdən ibarətdir. Lakin məsuliyyət bu vəzifəni yerinə yetir-

---

[1] *Bax:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.146.

məklə bərabər, eyni zamanda insanları qanuna tabe olmaq və ona hörmət etmək ruhunda tərbiyələndirir, hüquq pozuntusunun qarşısını almaq vasitəsi kimi çıxış edir.

Hüquq pozuntusu törədildikdə, yəni cəmiyyətə, dövlətə və ayrı-ayrı şəxslərə zərər vurulduqda hüquq pozuntusu törədən şəxsə məsuliyyət tədbirləri tətbiq edilir. Hüquq normalarında nəzərdə tutulduğuna görə onlar **hüquq məsuliyyət tədbirləri** adlanır.

İctimai cəhətdən təhlükəli və zərərli olmalarına görə hüquq pozuntularının **iki növü** fərqləndirilir: cinayət və xəta. İctimai cəhətdən ən təhlükəli və zərərli hüquq pozuntusu **cinayət** hesab edilir. İctimai təhlükəli və zərərli olmaq dərəcəsi nisbətən az olan hüquq pozuntusu isə **xəta** (hüquqi xəta) adlanır. Özünün obyektinə vurulan zərərin xarakterinə və müəyyən edilən məsuliyyət tədbirlərinə görə xətaların **üç növü** fərqləndirilir:

– mülki xəta (hüquq pozuntusu);
– inzibati xəta (hüquq pozuntusu);
– intizam xətası (hüquq pozuntusu).

Yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, hüquq pozuntusu (istər cinayət hüquq pozuntusu, inzibati hüquq pozuntusu, mülki hüquq pozuntusu, istərsə də intizam hüquq pozuntusu olsun – fərqi yoxdur) törədildiyi halda hüquqi məsuliyyət məsələsi ortaya çıxır. Hüquqi məsuliyyət isə, qeyd etdiyimiz kimi, sosial məsuliyyətin bir növü olub ictimai həyatın müxtəlif sahələrində yaranır.

**Hüquqi məsuliyyət** dedikdə hüquq normalarında nəzərdə tutulan elə tədbirlər başa düşülür ki, bu tədbirlərin tətbiq edilməsi nəticəsində hüquq pozuntusu törədən şəxs üçün mənfi nəticə yaranır. Mənfi nəticə (əlavə yük) isə özünü hüquq pozuntusu törədən şəxsə əlavə vəzifə həvalə olunmasında və yaxud da həmin şəxsin malik olduğu hüquqdan məhrum edilməsində və ya belə hüququn məhdudlaşdırılmasında biruzə verir. Göründüyü kimi, polis fəaliyyəti sahəsində hüquq pozuntusu törədən şəxsə qarşı tətbiq edilən tənbeh tədbirlərinin xarakteri,

ölçüsü və s. məsələlər müvafiq polis-hüquq normaları vasitəsilə müəyyənləşdirilir.

Polis qanunvericiliyində polis əməkdaşının məsuliyyətini nəzərdə tutan ayrıca norma mövcuddur (PQ, maddə 33). Həmin normaya əsasən, polis əməkdaşı hüquqazidd hərəkətlərinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır. Həmçinin ƏFQ-də təsbit edilmişdir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanunçuluğun pozulmasına görə məsuliyyət yaranır (ƏFQ, maddə 21). YHQ ilə nəzərdə tutulmuş yol hərəkəti qaydalarının pozulmasında təqsirli olan şəxslər qanunvericiliklə müyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar (YHQ, maddə 81). Digər bir normativ hüquqi aktda – «Daxili qoşunların statusu haqqında» Qanunda nəzərdə tutulmuşdur ki, hərbi qulluqçuların öz səlahiyyətlərini aşaraq fiziki qüvvə, xüsusi vasitələr, silah və ya döyüş texnikası tətbiq etməsi qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur (maddə 19), habelə hərbi qulluqçu silahın qanunsuz tətbiq edilməsi üçün qüvvədə olan qanunvericiliyə müvafiq məsuliyyət daşıyır (maddə 23) və s. Belə polis-hüquq normaları sistem şəklində birləşərək polis hüququnda məsuliyyət yarıminstitutunu yaradırlar.

Beləliklə, polis fəaliyyəti sahəsində **hüquqi məsuliyyət yarıminstitutu** anlayışını aşağıdakı kimi formulə etmək olar:

– **polis hüquqi məsuliyyət yarıminstitutu** dedikdə polis fəaliyyəti sahəsində hüquq pozuntusu törətmiş şəxslərə qarşı səlahiyyətli orqan və ya vəzifəli şəxs tərəfindən tənbeh tədbirlərinin tətbiq edilməsini tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

Hüquq pozuntusunun xarakteri hüquq pozuntusu törətmiş şəxs barəsində hüquqi məsuliyyət[1] növünün müəyyən

---

[1] *Hüquqi məsuliyyət (ing.juridical liability / responsibility) anlayışı, onun əsas funksiyaları və növləri barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.949; Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı, 1991, s.512 və b.

olunması üçün zəmin sayılır. Bütünlükdə polis fəaliyyəti sahəsində hüquqi məsuliyyət yarıminstitutu **sahəvi əlamətlərə** (elementlərə) görə aşağıdakı subinstitutular üzrə təsnifləşdirilir:

- cinayət hüquq məsuliyyəti subinstitutu;
- inzibati hüquq məsuliyyəti subinstitutu;
- mülki hüquq məsuliyyəti subinstitutu;
- intizam hüquq məsuliyyəti subinstitutu.

Əgər hüquq pozuntusu cinayət törədilməsi halları ilə bağlıdırsa, onda **cinayət hüquq məsuliyyəti** yaranır. İnzibati xətalara yol verilən hallarda **inzibati hüquq məsuliyyəti,** əmlak, həyat və sağlamlığa zərər vurulduğu hallarda **mülki hüquq məsuliyyəti**, qulluq (xidmət) intizamı pozulduğu hallarda isə **intizam hüquq məsuliyyəti** əmələ gəlir. Göstərilən hər bir hüquqi məsuliyyət növlərini tənzimləyən polis-hüquq normaları ayrı-ayrı qruplar üzrə birləşərək müvafiq hüquqi məsuliyyət subinstitutlarını yaradırlar.

Polis hüququnda məsuliyyət yarıminstitutunun **predmetini** polis fəaliyyəti sahəsində hüquq pozuntusu törətmiş subyektlərə qarşı cinayət-hüquqi, inzibati-hüquqi, mülki-hüquqi və intizam-hüquqi məsuliyyət tədbirlərinin tətbiq edilməsi ilə bağlı yaranan spesifik ictimai münasibətlər təşkil edir.

Polis fəaliyyəti sahəsində hüquqi məsuliyyət yarıminstitutu müəyyən **funksiyalar** yerinə yetirir. Bu funksiyaları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- repressiv funksiya;
- preventiv funksiya;
- bərpaedici funksiya;
- stimullaşdırıcı funksiya;
- siqnalverici funksiya.

**Repressiv funksiya** o deməkdir ki, polis fəaliyyəti sahəsində hüquqi məsuliyyət institutu bu funksiya vasitəsilə təqsirkar şəxsi hüquq pozuntusu törətdiyinə görə tənbeh edir, onu cə-

zalandırır. Repressiv funksiya şəxs üçün arzuolunmaz (əlverişsiz) mənfi nəticə yaratmaqda ifadə olunur. Bu funksiya cərimə və ya cəzaverici funksiya da adlanır.

**Preventiv funksiya** ondan ibarətdir ki, bu funksiya vasitəsi ilə polis fəaliyyəti sahəsində gələcəkdə baş verə biləcək hər hansı hüquq pozuntusunun qarşısı alınsın, yəni polis-hüquq subyektlərinə tərbiyəvi təsir göstərir. Ona görə də bu funksiya bəzən tərbiyləndirici funksiya da adlanır.

Polis hüququnda **bərpaedici funksiyanın** mahiyyəti ondan ibarətdir ki, hüquq pozuntusu nəticəsində zərərçəkən şəxsin düşdüyü ziyanın əvəzinin ödənilməsi, onun pozulmuş hüquq və mənafelərinin bərpa olunması bu funksiya sayəsində təmin edilir. Bu baxımdan, bərpaedici funksiya kompensasiya funksiyası da adlanır.

Polis hüququnda **stimullaşdırıcı funksiyanın** mahiyyəti ondan ibarətdir ki, hüquqi məsuliyyət yarıminstitutu bu funksiya vasitəsilə polis-hüquq münasibətləri iştirakçılarını lazımınca davranmağa meyilləndirir. Bu münasibətlərdə çıxış edən tərəflər başa düşürlər ki, əgər vəzifə lazımi qaydada icra edilməzsə, bunun nəticəsində hüquq pozuntusu (qarşı tərəf üçün mənfi nəticələr) törənə bilər. Ona görə də stimullaşdırıcı funksiya bəzən təkanverici funksiya da adlanır.

Polis hüququnda **siqnalverici funksiya** o deməkdir ki, polis hüquqi məsuliyyət yarıminstitutu bu funksiyanın köməyi sayəsində hüquq pozuntusunun yaranmasına şərait yaradan davranışın qüsurlu olması barədə məlumat verir; əgər bu cür məlumat verilməzsə, onda hüquq pozuntusuna yol verilə bilər. Bu funksiyanı eyni zamanda xəbərdarlıq etmək funksiyası da adlandırmaq mümkündür.

Polis hüquqi məsuliyyət yarıminstitutunun əsas mahiyyəti və sosial istiqaməti onun **prinsiplərində** təzahür edir. Bu prinsiplər, bir qayda olaraq, polis haqqında qanunvericilik aktlarında öz əksini tapmışdır. Polis haqqında qanunvericilik isə, əvvəllərdə qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının Konstitusiyasından, «Polis haqqında» Azərbaycan Respubli-

kasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir (PQ, maddə 2).

Polis hüququnda tətbiq edilən **hüquqi prinsiplər** (yəni hüququn ümumi prinsipləri, hüququn əsas prinsipləri və hüququn xüsusi prinsipləri)[1] bütövlükdə hüquqi məsuliyyət yarıminstitutuna da şamil olunur. Məhz hüququn ümumi, əsas və xüsusi prinsipləri vasitəsilə polis hüquqi məsuliyyət yarıminstitutu öz funksiyalarını yerinə yetirir.

Polis hüquqi məsuliyyət yarıminstitutunda tətbiq edilən prinsiplər sırasında məsuliyyət məsələləri ilə bağlı aşağıda göstərilən **spesifik prinsipləri** xüsusilə fərqləndirmək lazımdır. Onlara aiddir:

– labüdlük prinsipi;
– məsuliyyətin fərdiləşdirilməsi prinsipi;
– zərərin tam həcmdə ödənilməsi prinsipi;
– təqsirə görə məsuliyyət prinsipi və s.

Polis hüququnda **labüdlük prinsipi** dedikdə polis fəaliyyəti sahəsində hər hansı bir hüquq pozuntusu törədən istənilən şəxsin hüquqi məsuliyyətə cəlb edilməsi başa düşülür. Bu prinsipə görə, polis fəaliyyəti sahəsində hüquq pozuntusu törədən şəxs məsuliyyətdən kənarda qala bilməz. Bəzi hallarda labüdlük prinsipinin tətbiqi məhdudlaşır. Məsələn, üzrlü səbəb olmadan iddia müddətinin ötürülməsi labüdlük prinsipinin tətbiqini istisna edir ki, bu halda subyektin pozulmuş hüququ məhkəmə yolu ilə müdafiə olunmur.

Polis hüququnda **məsuliyyətin fərdiləşdirilməsi prinsipi** onu bildirir ki, polis hüquqi məsuliyyət tədbiri törədilmiş hüquq pozuntusunun ictimai təhlükəlilik xarakteri və dərəcəsi, hüquq pozuntusu törədən şəxsin təqsir forması, əməlin zərərlilik dərəcəsi və digər amillər nəzərə alınmaqla tətbiq edilir. Sö-

---
[1] Bu barədə kitabın II fəslində geniş söhbət açılmışdır; *bax:* 2.3.4.Polis hüququnun prinsipləri.

zügedən prinsipə görə, təqsirkar şəxs məsuliyyətə cəlb edilərkən konkret hər bir hal və şərait nəzərə alınır.

Polis hüquqi məsuliyyət yarıminstitutunda tətbiq edilən **zərərin tam həcmdə ödənilməsi prinsipi** onu ifadə edir ki, hüquq pozuntusu törədildikdə zərərvuran subyekt zərərin əvəzini ya natura şəklində ödəyir (eyni keyfiyyətli və eyni növlü əşyanın verilməsi, zay olan və korlanan əşyanı bərpa etmək və s.), ya da kompensasiya edir (kompensasiya real zərərdən və əldən çıxmış faydadan ibarətdir). Göstərilən prinsipə görə, polis fəaliyyətində hüquq pozuntusu törədilməsi nəticəsində zərərçəkənin əmlak vəziyyəti sahəsində yaranan bütün mənfi nəticələr aradan qaldırılır və bununla da onun əmlak vəziyyəti bərpa olunur.

Qanunvenricilikdə nəzərdə tutulan hallarda bu prinsip məhdudlaşır. Məsələn, nəqliyyat vasitəsi sürücüsünün DYP əməkdaşı tərəfindən lazımi qaydada saxlanılmaması nəticəsində ona maddi zərər vurulduqda, nəqliyyat vasitəsinin sahibi qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər (YHQ, maddə 85, 10-cu bənd). Bu zaman zərərin tam dəyəri, yəni nəqliyyat vasitəsinin sahibinə DYP əməkdaşı tərəfindən vurulmuş real zərərin əvəzi ödənilir, əldən çıxmış faydaya görə isə o, məsuliyyət daşımır.

Polis hüquqi məsuliyyət yarıminstitutunda tətbiq edilən prinsiplərdən biri də **təqsirə görə məsuliyyət prinsipidir**. Bu prinsip onu ifadə edir ki, polis fəaliyyəti sferasında hüquq pozuntusu törədən şəxs yalnız təqsiri olduqda, həmin pozuntuya görə məsuliyyət daşıyır; əgər həmin şəxsin təqsiri yoxdursa, o, hüquqi məsuliyyətə cəlb edilə bilməz.[1]

Bəzi hallarda təqsirə görə məsuliyyət prinsipi məhdudlaşır. Bu o deməkdir ki, şəxs təqsirli olub-olmamasından asılı olmayaraq, hüquq pozuntusuna görə məsuliyyət daşıyır. Məsələn, təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası ilə təqsirsizlik prezumpsiyası müəyyənləşdirilmişdir (maddə 63). Belə ki, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır.

orqanlarının vəzifəli şəxslərinin qanunsuz məhkumetmə, cinayət məsuliyyətinə qanunsuz cəlbetmə və s. əməllər nəticəsində fiziki şəxsə vurulmuş zərərin əvəzi onların təqsirindən asılı olmayaraq, tam həcmdə ödənilir (MM, maddə 1101, 1-ci bənd).

Polis hüququnda tətbiq edilən göstərdiyimiz bu və digər sahədaxili prinsiplər sistem halında birləşərək polis hüquqi məsuliyyət yarıminstitutunun hüquqi təbiətini və səciyyəvi cəhətlərini xarakterizə edir.

Qeyd etmək lazımdır ki, hüquq pozuntusunun törədilməsi halları polis fəaliyyətinə hüquqi nəzarətin həyata keçirilməsi prosesində aşkarlanır və bunun da nəticəsində müvafiq məsuliyyət tədbirləri görülür. Deməli, polis fəaliyyətində hüquqi nəzarət və hüquqi məsuliyyət daim bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. Bu kontekstdə «polis nəzarət hüquq yarıminstitutu» «polis məsuliyyət hüquq yarıminstitutu» ilə birləşərək bütövlükdə «polis hüququnda nəzarət və məsuliyyət institutu»nu formalaşdırır.

### 6.3.2. Polis hüququnda məsuliyyətin əsası, şərtləri və özünəməxsus xüsusiyyətləri

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, «polis-hüquq məsuliyyətinin əsasları» və «polis-hüquq məsuliyyətinin şərtləri» kimi iki anlayış sinonim (eyni mənalı) anlayışlar hesab edilmir. Bu iki anlayış bir-birilə nə qədər qarşılıqlı əlaqədə olsa da, onlar məna və məzmunca üst-üstə düşmürlər.

Hüquqi məsuliyyət tədbirlərini (məsələn, cərimə, zərərin əvəzinin ödənilməsi, hüququn məhdudlaşdırılması və s.) pozuntu törədən şəxsə tətbiq etmək üçün həm hüquq məsuliyyətinin əsası, həm də hüquq məsuliyyətinin şərtlərinin olması tələb edilir.

Hüquq doktrinasında irəli sürülən və üstünlük təşkil edən konsepsiyaya görə, subyektiv hüquqların pozulması dedikdə zərər vurulması faktı başa düşülür. Doğrudan da zərər vurul-

ması faktı yoxdursa, onda hüquq məsuliyyəti də yaranmır. Bu o deməkdir ki, zərər vurmaq faktı məsuliyyətin yaranma əsasıdır. Zərər dedikdə cəmiyyətə, dövlətə və ya ayrı-ayrı şəxslərə vurulan həm maddi ziyan, həm də mənəvi (qeyri-maddi) ziyan başa düşülür. Zərər vurulması faktı hüquqi fakt rolunu oynayır, yəni bu faktın nəticəsində məsuliyyət yaranır.[1] Deməli, polis hüququnda **məsuliyyətin əsası** dedikdə, polis fəaliyyəti sahəsində zərərçəkənin subyektiv hüquqlarının pozulmasına (hüquq pozuntusuna) dəlalət edən hüquqi fakt – zərərin mövcudluğu başa düşülür.

Polis hüququnda **zərər** dedikdə hüququ pozulmuş (zərərə məruz qalmış) şəxsin düşdüyü və düçar olduğu elə maddi itki başa düşülür ki, bunun nəticəsində onun əmlakı və ya malik olduğu şəxsi qeyri-maddi nemətləri azalır. Bu o deməkdir ki, hüquq pozuntusu nəticəsində zərərçəkən şəxsin ya əmlakına ziyan dəyir, ya da onun malik olduğu şəxsi qeyri-maddi nemətlərə (həyat və sağlamlığa, şərəf və ləyaqətə, şəxsiyyət və s.) zərər vurulur. O, hüquqi məsuliyyətin məcburi, zəruri və labüd əsasıdır.

Hüquq ədəbiyyatı səhifələrində məsuliyyətin hər bir halda, adətən, üç **əsasının** olması göstərilir:[2]

- faktiki əsas (hüquq pozuntusu);
- hüquqi əsas (pozuntunun tövsif olunduğu hüquqi norma);
- prosessual əsas (bu, bir qayda olaraq, inzibati məsuliyyətdə olur).

Eyni zamanda qeyd etməliyik ki polis hüququnda məsuliyyət polis-hüquq pozuntusunun törədilməsi ilə əlaqədar əmələ gəlir və o, yəni hüquq pozuntusu məsuliyyətin yaranmasına əsas sayılır. Belə ki, polis-hüquq pozuntusu faktı müəyyən tər-

---

[1] *Bax: məsələn,* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s. 148 və b.

[2] *Məsələn, bax:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s. 143 və b.

kib əlamətlərinə malik olmaqla, məsuliyyətin əsası kimi çıxış edir. Bu əlamətlərə hüquq pozuntusunun aşağıdakı **tərkib elementləri** daxildir: obyekt, obyektiv cəhət, subyekt, subyektiv cəhət.

Beləliklə, yalnız polis-hüquq pozuntusu faktının tərkibi, yəni onun bütün tərkib əlamətlərinin məcmusu şəxsin müvafiq məsuliyyətə cəlb edilməsi üçün yeganə əsasdır. Bu əlamətlərin hətta birinin olmaması polis hüququnda məsuliyyəti istisna edir.

Hüquq pozuntusu hüquqazidd davranışın müəyyən növüdür; o, bütün hallarda hüquqazidd davranışdır. Lakin hüquqazidd davranış bütün hallarda hüquq pozuntusu sayılmır; onun hüquq pozuntusu hesab edilməsi üçün müəyyən əlamətlərin mövcud olması zəruridir.

Bu kontekstdə hüquq elmi hüquq pozuntusunun bir neçə əlamətini müəyyənləşdirir. Məhz bu **əlamətlər** hüquq pozuntusunu xarakterizə etməyə imkan verir və onlara aşağıdakılar aiddir:

- ictimai təhlükəli davranış;
- şəxslərin (subyektlərin) təqsirli davranışı;
- hüquqi məsuliyyətə səbəb olmaq;
- hüquq pozuntusu anlaqlı vəziyyətdə olan və ya müəyyən yaş həddinə çatan şəxsin hüquqazidd davranışı olmalıdır və s.

Polis fəaliyyətində hüquqazidd davranışın polis-hüquq pozuntusu kimi sayılması üçün göstərdiyimiz əlamətlər əsas kimi qəbul edilir.

Eyni zamanda qeyd etmək lazımdır ki, polis-hüquq pozuntusuna görə hüquqi məsuliyyətin tətbiq edilməsi üçün həm də qanunda nəzərdə tutulmuş şərtlərin olması zəruridir. Belə ki, qanunda nəzərdə tutulan həmin şərtlər əsasında polis-hüquq pozuntusu faktına hüquqi qiymət verilməsi, yəni bu faktın tövsif edilməsi gərəkdir. Bu cür hüquqi qiymətvermənin əsas məqsədi və təyinatı müvafiq faktı «polis-hüquq po-

zuntusu» kimi tövsif etməkdir. Əgər həmin fakt «polis-hüquq pozuntusu» kimi tövsif olunsa, onda müvafiq hüquqi məsuliyyət tədbiri tətbiq edilir. Bu, bir daha onu göstərir ki, polis-hüquq pozuntusu polis hüququnda hüquqi məsuliyyətin tətbiqedilmə əsasıdır.

Məlum olduğu kimi, polis-hüquq pozuntusu faktına qanunda nəzərdə tutulan şərtlər əsasında hüquqi qiymət verilir. Bu şərtlər vasitəsilə hüquq pozuntusu törədən şəxsə hüquqi məsuliyyət tədbiri formasında müvafiq sanksiya tətbiq edilir; həmin şərtlər polis hüququnda hüquqi məsuliyyətin şərtləri adlanır.

Polis hüququnda **hüquqi məsuliyyətin şərtləri** dedikdə qanunda nəzərdə tutulan elə tələblər başa düşülür ki, bu tələblər əsasında hüquq pozuntusu (zərər vurulması) faktına hüquqi qiymət verilir və məsuliyyət tədbiri tətbiq edilir. Həmin **şərtlər** (tələblər) polis hüququnda hüquqi məsuliyyətin əsasını – hüquq pozuntusu faktını xarakterizə edir və onlara aşağıdakılar aiddir:

1) şəxsin (hüquq pozuntusu törədən şəxsin) hüquqazidd davranışı;
2) həmin şəxsin (hüquq pozuntusu törədən şəxsin) hüquqazidd davranışı ilə vurulmuş zərər faktı (nəticə) arasında səbəbiyyət əlaqəsi;
3) həmin şəxsin (hüquq pozuntusu törədən şəxsin) təqsiri.

Göründüyü kimi, polis-hüquq məsuliyyətinin şərtlərindən biri hüquqazidd davranış (əməl) adlanır. Qeyd etmək lazımdır ki, cəmiyyətdə şəxslərin davranışı iki formada olur: hüquqauyğun davranış, hüquqazidd davranış. Şəxslərin polis-hüquq normalarının göstərişlərinə uyğun olan davranışına **hüquqauyğun** davranış deyilir. Təbii ki, hüquqauyğun davranış polis hüququnda məsuliyyəti istisna edir və o, ictimai cəhətdən lazımi, faydalı olan davranışdır.

Lakin bəzən şəxslər polis-hüquq normalarında ifadə olunan hüquqi göstərişlərə uyğun gəlməyən əməllər törədirlər, müəyyən edilmiş tələbləri pozurlar. Belə halda isə, sözsüz ki, hüquqazidd davranış (əməl) göz önündədir. Şəxslərin polis-hüquq normalarının göstərişlərinə zidd olan və bu göstərişləri pozan əməllərinə **hüquqazidd davranış** deyilir.

Hüquqazidd davranış odur ki, bu cür davranış (əməl) obyektiv hüquq normaları və başqa şəxslərin subyektiv hüquqları ilə ziddiyyət təşkil edir. Deməli, obyektiv xarakterə malik olan əməlin (davranışın) hüquqazidd olmasını müəyyənləşdirmək üçün iki şərtin olması zəruridir:

– davranış (əməl) obyektiv hüquq normasını pozmalıdır;

– davranış (əməl) subyektiv hüququ pozmalıdır.

Polis hüququnda **obyektiv hüquq normasının pozulması** dedikdə hüquqi aktın (polis haqqında qanunvericilik aktının) pozulması başa düşülür. **Subyektiv hüququn pozulması** isə konkret subyektin malik olduğu hüququn pozulması deməkdir.

Bununla bərabər, bəzi hallarda göstərilən ümumi qaydadan **istisnaya** yol verilir. Məsələn, zəruri müdafiə, son zərurət, anlaqsızlıq, peşəkar əmək funksiyasının (yanğınsöndürmə, baytarlıq, səhiyyə xidməti və s.) yerinə yetirilməsi və ya icrası zamanı digər şəxslərin subyektiv hüquqlarının müəyyən hallarda pozulması hüquqazidd əməl sayılmır. Bundan əlavə, subyektin qanunda və ya digər hüquqi aktda nəzərdə tutulan həddə öz hüquqlarını həyata keçirməsi də hüquqazidd əməl hesab olunmur.

Hüquqazidd davranış hüquqauyğun davranışın antipodudur və öz ictimai xarakterinə görə cəmiyyətə ziddir. Hüquqazidd davranışın müəyyən növü, bir az öncə qeyd etdiyimiz kimi, hüquq pozuntusu adlanır.

Hüquqazidd davranış (əməl) iki formada ifadə olunur: hərəkət, hərəkətsizlik. **Hərəkət formasında hüquqazidd davranış** polis qanunvericilik aktlarında təsbit edilmiş hüquqi göstərişlərin aktiv şəkildə pozulmasında ifadə olunur. **Hərəkətsizlik**

**formasında hüquqazidd davranış** isə polis qanunvericilik aktlarında nəzərdə tutulmuş hüquqi göstərişlərin passiv şəkildə yerinə yetirilməməsində ifadə olunur.

Polis-hüquq məsuliyyətinin şərtlərindən digəri **hüquqazidd davranışla baş vermiş nəticə arasındakı səbəbiyyət əlaqəsi** sayılır.

Polis hüququnda **səbəbiyyət əlaqəsi** dedikdə hüquq pozuntusu törədən şəxsin (zərərvuranın) hüquqazidd davranışı ilə baş vermiş nəticə (zərər) arasında bağlılıq başa düşülür. Deməli, hüquq pozuntusu törədən şəxsi hüquqi məsuliyyətə cəlb etmək üçün hüquqi əhəmiyyətə malik olan səbəbiyyət əlaqəsinin mövcudluğunun müəyyənləşdirilməsi zəruridir.

Sivilistika elmində səbəbiyyət əlaqəsi haqqında bir nesə **nəzəriyyə** işlənib hazırlanmışdır ki, onlara aşağıdakılar aiddir:

– birbaşa və dolayı səbəbiyyət əlaqəsi nəzəriyyəsi;
– zəruri şərt nəzəriyyəsi;
– imkan və gerçəklik nəzəriyyəsi;
– zəruri və təsadüfi səbəbiyyət əlaqəsi nəzəriyyəsi.

Qeyd etmək lazımdır ki, göstərilən nəzəriyyələr arasında prinsipial fərqlər yoxdur, onlar bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, biri digərini tamamlayır. Bu nəzəriyyələrdən düzgün istifadə edilməsində **əsas məqsəd** odur ki, polis-hüquq pozuntusu törədən şəxsi hüquqi məsuliyyətə cəlb etmək üçün lazım olan və kifayət edən səbəbiyyət əlaqəsini tapmaq mümkün olsun.

Lakin eyni zamanda qeyd etməliyik ki, «səbəbiyyət əlaqəsi» anlayışı fəlsəfi kateqoriyadır. Səbəbiyyət haqqında ümumi fəlsəfi nəzəriyyə mövcuddur ki, bu, səbəbiyyət nəzəriyyəsi adlanır. Həmin nəzəriyyəyə görə, obyektiv dünyada səbəbsiz nəticə yoxdur, yəni gerçəklikdə cism və hadisələr arasında səbəb-nəticə əlaqəsi mövcuddur: səbəbi olmayan heç bir nəticə və nəticə ilə bağlı olmayan heç bir səbəb yoxdur; onlar dialektik vəhdətdə olub, qarşılıqlı əlaqədədir. Səbəb nəticəni doğurur, eyni zamanda nəticə də passiv deyil, o, öz səbəbinə təsir

göstərir. Belə ki, səbəblə nəticə arasında daxili qanunauyğun əlaqə mövcuddur, hadisələrin səbəbli əlaqəsi obyektiv xarakter daşıyır. Səbəb-nəticə əlaqələrinin fəlsəfi mahiyyəti bundan ibarətdir. Polis-hüquq məsuliyyətinin şərtlərindən biri olan «səbəbiyyət əlaqəsi» anlayışının mahiyyətini məhz «səbəb» və «nəticə» kimi fəlsəfi kateqoriyalar təşkil edir.

Polis-hüquq məsuliyyətinin üçüncü şərti kimi hüquq pozuntusu törədən şəxsin **təqsiri** çıxış edir. Polis hüququnda məsuliyyətin yuxarıda göstərdiyimiz şərtlərindən ikisi (hüquqazidd əməl və səbəbiyyət əlaqəsi) obyektiv xarakterə malikdir; üçüncü şərt olan təqsir isə, bunlardan fərqli olaraq, subyektiv təbiəti ilə seçilir. Belə ki, təqsir məsuliyyətin subyektiv şərti sayılır; təqsir – şəxsin özünün hüquqazidd əməlinə və onun nəticələrinə olan psixi münasibətdir.[1]

Təqsir anlayışı hüquq doktrinasında elmi polemika doğuran məsələlərdən biridir. Təqsir barədə sivilistika nəzəriyyəsində müxtəlif konsepsiyalar irəli sürülür[2] və bu barədə diskussiya bu gün də davam edir. Polis haqqında müasir qanunvericiliyin müəyyənləşdirdiyi tələblər nəzərə alınmaqla, zənn edirik ki, təqsir anlayışını aşağıdakı kimi formulə etmək mümkündür:

**polis hüququnda təqsir** dedikdə hüquq pozuntusu törədən şəxsin ona həvalə edilmiş vəzifənin icrası üçün özündən asılı olan bütün mümkün tədbirləri görməməsi başa düşülür ki, həmin hüquqi pozuntu onun cavabdeh olduğu haldan irəli gəlir.

Burada təqsir prezumpsiyasını da nəzərə almaq lazımdır (latınca «praesumptio» – güman etmək mənasını ifadə edir). **Təqsir prezumpsiyasına** görə, hüququ pozan şəxs özünün təqsirsizliyini sübut edənə kimi onun təqsirli olması güman edilir,

---

1 *Bax:* Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı, 1991, s.430.

2 *Bu barədə ətraflı bax: məsələn,* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. II cild. Xüsusi hissə. II nəşr. Dərslik. Bakı, 2009, s.696-711 və b.

yəni əksi sübut edilənə kimi şəxs polis-hüquq pozuntusu törətməkdə təqsirli sayılır.

Təqsir polis hüququ subyektlərinin daşıdıqları hüquqi məsuliyyətin zəruri şərtidir. Təqsir müxtəlif **formalarda** ola bilər:

- təqsirin qəsd forması;
- təqsirin ehtiyatsızlıq forması.

**Təqsirin qəsd forması** onu ifadə edir ki, şəxs özünün hüquqazidd davranışının xarakterini tam dərk edir, əməlin məqsədyönlüyünü, hüquq pozuntusu törədilməsinə istiqamətləndiyini, mənfi nəticələrini qabaqcadan görür, arzu edir və ya şüurlu surətdə başa düşür; onun iki növü vardır: birbaşa qəsd (şəxs əməlin ictimai təhlükəli olduğunu, onun mənfi nəticələrini əvvəlcədən görür və bunları arzu edir), dolayı qəsd (şəxs mənfi nəticələrin baş verməsinə şüurlu surətdə yol verir).

**Təqsirin ehtiyatsızlıq forması** odur ki, şəxs özünün hüquqazidd davranışının mənfi nəticələr verə biləcəyi imkanını qabaqcadan görür, lakin onların qarşısını alacağına yüngül fikirlə ümid bəsləyir (özünəgüvənmə), yaxud bu nəticələrin baş verəcəyini əvvəlcədən görə bilməli və görməli olduğu halda onları görmür (etinasızlıq). Təqsirin ehtiyatsızlıq formasının iki növü fərqləndirilir: sadə (yüngül) ehtiyatsızlıq, kobud ehtiyatsızlıq.

Qeyd olunanlarla yanaşı, polis hüququnda məsuliyyətin şərti kimi qarışıq təqsir forması da mövcud ola bilər və bu, onu səciyyələndirən xüsusiyyətlərdən biridir. **Qarışıq təqsir** odur ki, hüquq pozuntusu polis-hüquq münasibətində iştirak edən hər iki tərəfin təqsiri üzündən baş verir.

Özünəməxsus xüsusiyyətlərdən digəri ondan ibarətdir ki, polis hüququnda təqsirsiz məsuliyyət halına da rast gəlinir. **Təqsirsiz məsuliyyət** dedikdə şəxsin təqsiri olmadan hüquqi məsuliyyətə cəlb edilməsi başa düşülür. Bu halda təqsir məsuliyyətin zəruri şərti hesab edilmir; məsələn, Azərbaycan Respublikası (dövlət) qanunsuz məhkumetmə, cinayət məsuliyyə-

tinə qanunsuz cəlbetmə, qətimkan tədbiri kimi həbsə almanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində fiziki şəxsə vurulmuş zərərə görə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq məsulliyyət daşıyır (MM, maddə 1101, 1-ci bənd).

Polis hüququnda zərərin **tam həcmdə** ödənilməsi nəzərdə tutulmuşdur ki, bu xüsusiyyət qanunvericiliklə müəyyənləşdirilmişdir. Bu o deməkdir ki, qanunla müəyyən olunmuş hallarda həm də mənəvi zərər ödənilir. Məsələn, «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının 29.12.1998-ci il tarixli Qanununun 5-ci maddəsi tam həcmdə ödənilməli olan zərərin tərkibini müəyyən edir: fiziki şəxsin müsadirə olunmuş, müvafiq orqanlar tərəfindən götürülmüş, üzərinə həbs qoyulmuş əmlakı; məhkəmə məsrəfləri ilə bağlı ondan tutulmuş məbləğlər, həmçinin hüquqi yardımın göstərilməsi ilə əlaqədar ödənilmiş məbləğlər (bunların hamısı birlikdə real zərəri əmələ gətirir); qanunsuz hərəkətlər nəticəsində onun itirdiyi mənfəət və digər gəlirlər (bu isə əldən çıxmış fayda adlanır); mənəvi zərər (qeyri-əmlak zərəri).[1]

Polis hüququnda məsuliyyəti səciyyələndirən digər xüsusiyyət ondan ibarətdir ki, qanunvericilikdə nəzərdə tutulmuş faktlar əsasında şəxs hüquqi məsuliyyətdən azad edilir. Məsuliyyətin tətbiq olunmasını aradan qaldıran həmin hüquqi faktlara **polis-hüquq məsuliyyətindən azad edilmənin əsasları** deyilir. Bu əsaslara aşağıdakılar aiddir:

- təsadüfi hadisə (kazus – subyektiv cəhətdən qarşısıalınmazlıq);

---

[1] *Qanunun mətni barədə bax:* Məhkəmə hakimiyyəti... Hakim… Qanun … / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı, 2001, s. 178-185.

– qarşısıalınmaz qüvvə (fors-major – təbiət hadisələri, ictimai-sosial və hərbi-siyasi hadisələr, qadağanedici tədbirlər və s.);
– qanunvericilikdə nəzərdə tutulmuş digər hallar (zəruri müdafiə, son zərurət, anlaqsızlıq və s.)

Göstərilən əsaslar konkret normativ hüquqi aktla müəyyənləşdirilir. Məsələn, ƏFQ-də nəzərdə tutulmuşdur ki, əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü, tərkibində cinayət əlamətləri olan və ağır nəticələrə səbəb olmayan əməllər törədibsə və vurulmuş zərəri ödəyibsə, qanunvericiliyə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur (ƏFQ, maddə 17, VIII hissə); həmçinin polis əməkdaşı açıq-aşkar qanunsuz əmri və ya göstərişi icra etmədikdə bu hal məsuliyyətə səbəb olmur (PQ, maddə 13, VIII hissə); habelə rəhbər işçinin göstərişini qanunsuz sayan dövlət qulluqçusunun etirazına baxmayaraq, rəhbər işçi öz göstərişini qüvvədə saxlayırsa və ondan yuxarı vəzifəli rəhbər işçi həmin göstərişi ləğv etmirsə, onda dövlət qulluqçusu məsuliyyətdən azad olunur (DQQ, maddə 26).

### 6.3.3. Polis hüququnda cinayət hüquq məsuliyyəti

Polis hüququnun tərkibində hüquqi məsuliyyət yarıminstitutunu yaradan normalar sahəvi əlamətlər üzrə qruplaşaraq, onun struktur elementlərini (hissələrini) təşkil edirlər. Hüquqi məsuliyyəti şərtləndirən hüquqazidd davranış faktının ictimai cəhətdən təhlükəli və zərərli olmaları səviyyəsinə görə hüquq pozuntularının müəyyən qrupu cinayət əməli sayılır.

**Cinayət** dedikdə ölkənin ictimai quruluşuna, onun siyasi və iqtisadi sisteminə, mülkiyyətə, şəxsiyyətə, vətəndaşların siyasi, əmək, mülki və başqa hüquq və azadlıqlarına qəsd edən, cinayət qanununda nəzərdə tutulan ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik) başa düşülür. Cinayət ictimai cə-

hətdən elə təhlükəli və zərərli hüquq pozuntusudur ki, o, cinayət qanunu ilə qadağan edilir.

**Cinayət qanunu** Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən ibarətdir (CM, maddə 1) və onun müəyyən vəzifələri vardır. Həmin vəzifələri həyata keçirmək üçün CM cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət ən təhlükəli və zərərli hüquq pozuntusu hesab edilir. Cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, o, cəmiyyətin özünün mövcudolma şərtlərinə, ölkənin ictimai və dövlət quruluşuna, vətəndaşların əsas hüquqlarına və s. qəsd edir. İctimai və dövlət quruluşu, ölkənin təsərrüfat sistemi, mülkiyyət, şəxsiyyət, vətəndaşların siyasi, əmək, mülki və digər hüquqları cinayət əməlinin **obyektləri** sayılır. Buna görə də cinayətə qarşı daha ciddi məsuliyyət tədbirləri nəzərdə tutulur.

İctimai cəhətdən təhlükəli və zərərli olmaq dərəcəsi cinayətə nisbətən az olan hüquq pozuntusu **xəta** adlanır. Cinayət qanununda birbaşa nəzərdə tutulmayan hüquqazidd əməllər (hərəkət və ya hərəkətsizlik) xəta hesab edilir, yəni xəta cinayət sayılmayan hüquq pozuntusudur.[1]

Göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, cinayət törədildiyi hallarda cinayət hüquq məsuliyyəti, yəni hüquq pozuntusu törədən şəxs üçün mənfi nəticə (əlavə yük) yaranır. Belə nəticə özünü **iki formada** göstərir:

– hüquq pozuntusu törədən şəxsə əlavə vəzifə həvalə etmək (məsələn, cinayət törədən şəxsin üzərinə cərimə vəzifəsi həvalə olunur);

---

[1] *Bax:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.147.

– hüquq pozuntusu törədən şəxsi malik olduğu hüquqdan məhrum etmək (məsələn, cinayət törətmiş şəxs azadlıq hüququndan məhrum edilir).

Cinayət məsuliyyəti hüquqi məsuliyyət növlərindən biri olmaqla, törədilən cinayətin hüquqi nəticəsi kimi cəza formasında məcburiyyət tədbirlərinin tətbiqi ilə təqsirkarın mühakimə edilməsini nəzərdə tutur.[1]

Cinayət hüquq məsuliyyətinin **əsasları** ondan ibarətdir ki, yalnız cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin (obyekt, obyektiv tərəf, subyekt, subyektiv tərəf) mövcud olduğu əməl (hərəkət və ya hərəkətsizlik) törədildikdə cinayət məsuliyyəti yaranır.

Cinayət hüquq məsuliyyətinin **prinsipləri** qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət, humanizm və s. prinsiplərdən ibarətdir.

Qanunvericilikdə cinayət hüquq məsuliyyətini **istisna edən hallar** da müəyyənləşdirilmişdir. Belə ki, cinayət qanununda əməlin cinayət olmasını aradan qaldıran hallar kimi aşağıdakılar göstərilmişdir: zəruri müdafiə (CM, maddə 36), cinayət törətmiş şəxs tutularkən ona zərər vurulması (CM, maddə 37), son zərurət (CM, maddə 38), əsaslı risk (CM, maddə 39) və s.

Cinayət törədilməsində təqsirli hesab edilən şəxsə qarşı tətbiq edilən cinayət-hüquqi xarakterli tədbir **cəza** adlanır. Cəza sosial ədalətin bərpası və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədi ilə tətbiq edilir.[2]

Cinayət hüquq məsuliyyətində **cəza növləri** kimi aşağıdakılar fərqləndirilir: cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, əmlak müsadirəsi, azadlıqdan məhrum etmə və s.

---

[1] *Bu barədə ətraflı bax: məsələn,* Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı, 1991, s.525 və b.

[2] *Bu barədə daha ətraflı bax:* Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (ümumi və xüsusi hissə) qısa şərhi. Bakı, 2010, s.32-50.

Cinayət əməllərinin təsnifi, cinayət məsuliyyətinin ümumi şərtləri, cinayət məsuliyyətindən azadetmə və s. məsələlər Azərbaycan Respublikasının cinayət qanununda ətraflı şəkildə işıqlandırılmışdır.[1]

Cinayətin açılması, təqsirli şəxslərin aşkara çıxarılması, məsuliyyətə cəlb edilməsi, cinayətin törədilməsinə kömək etmiş səbəb və şəraitin aydınlaşdırılması, habelə cinayət nəticəsində vurulan ziyanın ödənilməsini təmin edən tədbirlərin görülməsi üzrə müstəntiq və təhqiqat orqanları tərəfindən müəyyən fəaliyyət həyata keçirilir.[2] Bu fəaliyyət **ibtidai istintaq** adlanır və o, cinayət-prosessual qanunvericiliyi əsasında aparılır.

Cinayət işləri üzrə ibtidai istintaqın aparılması qaydalarına cinayət-prosesual qanunvericilikdə xüsusi norma həsr olunmuşdur (CPM, maddə 215). Belə ki, cinayət işləri üzrə ibtidai istintaq prokurorluq və müvafiq icra hakimiyyəti orqanları[3] tərəfindən aparılır. DİN də, məlum olduğu kimi, bu orqanlar sırasına aiddir və həmin orqanlar (polis orqanları) tərəfindən cinayət qanunvericiliyində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə ibtidai istintaq aparılır: məsələn, Qəsdən sağlamlığa ağır zərər vurma (CM, maddə 126.1 – 126.2), Adam oğurluğu (CM, maddə 144), Oğurluq (CM, maddə 177), Xuliqanlıq (CM, maddə 221), Yol hərəkəti təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər (CM, maddə 263-267), Özbaşınalıq (CM, maddə 322) və s.

---

[1] *Bax:* Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı, 2013, 348 s.

[2] *Bax:* Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.317.

[3] Bu icra hakimiyyəti orqanlarının dairəsi «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 25.08.2000-ci il tarixli Fərmanı ilə müəyyənləşdirilmişdir: DİN, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyi və s. orqanlar.

Qeyd etmək lazımdır ki, cinayət hüquq məsuliyyəti bütövlükdə dövlət məcburetməsi ilə bağlıdır. **Dövlət məcburetməsi** hüquq pozuntusu törədən şəxsin hüquq normalarının tələblərini yerinə yetirməyə məcbur edilməsindən ibarətdir. Dövlət məcburetməsi cinayət törədən şəxsə cinayət cəzasının verilməsi (məsələn, azadlıqdan məhrum edilmə), zərərin əvəzinin ödənilməsi, cərimə alınması və s. formalarda ifadə oluna bilər. Bu cür hallarda müvafiq **hüquqi məsuliyyət münasibəti** yaranır. Belə münasibətin bir tərəfində dövlət (yəni dövləti təmsil edən səlahiyyətli orqan), digər tərəfində isə hüquq pozuntusu törədən təqsirli şəxs durur; hüquqi məsuliyyət münasibətləri də məhz onların arasında yaranır. Bax polis fəaliyyəti sahəsində bu cür hüquqi məsuliyyət münasibətləri müəyyən normalarla nizama salınır ki, onların sistemi, əvvəllərdə qeyd etdiyimiz kimi, polis hüquqi məsuliyyət yarıminstitutu adlanır. Əgər belə münasibətlər cinayət törədilməsi və hüquq pozuntusu törədən təqsirli şəxsin məsuliyyətə cəlb edilməsi ilə bağlı olarsa, onda həmin münasibətləri tənzimləyən spesifik hüquq normaları hüquqi məsuliyyət yarıminstitutunun tərkibində qruplaşaraq cinayət hüquq məsuliyyəti subinstitutunu yaradır.

Polis hüququnun subyektləri tərəfindən cinayət əməli ilə əlaqədar hüquqpozmalar törədildikdə, təbii ki, onlar da Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar (PQ, maddə 33, V hissə). Bu sferada cinayət hüquq məsuliyyəti münasibətlərini tənzimləyən hüquq normalarının məcmusunu **polis hüququnda cinayət hüquq məsuliyyəti subinstitutu** kimi adlandırmaq olar. Bu hüquqi qurum milli hüquq sistemində «cinayət hüququ» sahəsinin məsuliyyət institutu ilə sıx bağlı olsa da, onu eyni zamanda polis hüququnda hüquqi məsuliyyət yarıminstitutunun sahəvi əlamət üzrə tərkib hissəsi kimi fərqləndirmək mümkündür.

Sözügedən subinstitutda cəmlənmiş spesifik hüquq normaları polis haqqında müvafiq qanunvericilik aktlarında təsbit olunmuşdur. Məsələn, Azərbaycan Respublikasının cina-

yət qanununda belə bir müddəa müəyyənləşdirilmişdir ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə (CM, maddə 315), həmçinin cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma (CM, maddə 316) və s. idarəetmə qaydası əleyhinə olan cinayət əməlləridir.

Bu barədə polis qanunvericiliyində də müvafiq normalar yer almışdır: məsələn, polis əməkdaşı öz səlahiyyətlərini yerinə yetirərkən dövlət hakimiyyət nümayəndəsi kimi çıxış edir, polisin qanuni tələblərinin icrası məcburidir, polis əməkdaşının qanuni tələblərinə tabe olmamaq, ona müqavimət göstərmək, zor işlətmək və ya onu təhqir etmək qanunveiciliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur (PQ, maddə 7); polis əməkdaşı hüquqazidd hərəkətlərinə (o cümlədən cinayət məsuliyyəti yaradan əməllərinə) görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır (PQ, maddə 33).

Dövlət qulluğu haqqında qanunvericiliyə görə, dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada cinayət məsuliyyətinə cəlb oluna bilər (DQQ, maddə 25.5).

Digər bir normativ hüquqi akt – «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ehtiva edir ki, əməliyyat-axtarış fəaliyyətinin ƏFQ ilə müəyyən edilmiş məqsədlərə, əsaslara və ya şərtlərə əməl edilmədən təşkili və həyata keçirilməsi, onun keçirilməsi üçün etibar olunmuş və ya iş və xidmətlə əlaqədar belə məlumatlarla tanış olmuş şəxslər onları yaymağa görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada hüquqi məsuliyyət (o cümlədən müvafiq olaraq cinayət məsuliyyəti) daşıyırlar (ƏFQ, maddə 21); həmçinin DİO əməkdaşı cinayət törətdikdə qanunvericiliyə əsasən məsuliyyət daşıyır (DİO-da xidmət keçmə haqqında Əsasnamə, maddə 134) və s.

Beləliklə, **polis hüququnda cinayət hüquq məsuliyyəti subinstitutu** dedikdə polis fəaliyyəti sahəsində törədilən cinayət əməllərinə görə təqsirli hesab edilən şəxsə tətbiq olunan xüsusi cinayət hüquq məsuliyyəti xarakterli dövlət məcburiyyət təd-

birlərini tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

### 6.3.4. Polis hüququnda inzibati hüquq məsuliyyəti

Polis fəaliyyəti ilə əlaqədar hüquqi məsuliyyət yarıminstitutunun tərkib hissələrindən biri də polis hüququnda inzibati hüquq məsuliyyəti subinstitutudur. Bu hüquqi qurumun nizamasalma predmetinə polis fəaliyyəti sahəsində inzibati məsuliyyətlə bağlı yaranan münasibətlər daxildir və onlar, təbii ki, müvafiq hüquq normaları əsasında tənzimlənir. İnzibati məsuliyyət isə inzibati hüquq pozuntusu, yəni inzibati xəta törədildikdə əmələ gəlir və o, hüquqi məsuliyyətin bir növüdür.

Məlum olduğu kimi, **xəta** ictimai həyatın müxtəlif sahələrində baş verir və o, ayrı-ayrı obyektlərə qəsd edir. Elə xətalar vardır ki, onlar özünün obyektinə vurulan zərərin xarakterinə və müəyyən edilən məsuliyyət tədbirlərinə görə inzibati xəta (inzibati hüquq pozuntusu) adlanır.

**İnzibati xətalar** anlayışının məna yükü, əsasən, dövlət orqanlarının icra-sərəncam fəaliyyəti sahəsindəki münasibətlərə (dövlət idarəçilik münasibətlərinə), mülkiyyətə, vətəndaşların hüquq və qanuni mənafelərinə, onların sağlamlığına, ictimai qayda və ictimai təhlükəsizliyə qəsd edən hüquq pozuntularını əhatə edir.

Polis fəaliyyəti ilə əlaqədar yaranan inzibati məsuliyyət polis hüququnun subyektləri tərəfindən törədilən inzibati xətaya görə hüquqi məsuliyyət formasıdır. **Polis hüququnda inzibati məsuliyyət** dedikdə polis fəaliyyətinin həyata keçirilməsi ilə bağlı inzibati hüquq pozuntusu (inzibati xəta) törətdiyinə görə təqsirkar şəxsə (polis hüququnun subyektinə) tətbiq edilən məcburiyyət tədbiri başa düşülür.

İnzibati xətalar qanunvericiliyində müəyyənləşdirilmiş əsaslara görə, yalnız İXM ilə nəzərdə tutulmuş inzibati xətaların törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibi-

nin bütün digər əlamətlərini daşıyan əməli törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur və tənbeh edilir (İXM, maddə 3).

Polis hüququnda da inzibati məsuliyyətin yaranması üçün müəyyən əsasın olması zəruridir. Polis fəaliyyəti ilə əlaqədar törədilən inzibati hüquq pozuntusu (inzibati xəta hadisəsi) məhz belə əsas hesab olunur və ona inzibati məsuliyyətin **faktiki əsası** deyilir. İnzibati xəta, mahiyyətcə, inzibati hüquq pozuntusu deməkdir və o, hüquq pozuntusunun bir növüdür.

Polis hüququnda **inzibati xəta** dedikdə inzibati xətalar qanunvericiliyi ilə qorunan ictimai münasibətlərə polis hüququnun subyektləri tərəfindən qəsd edilən hüquqazidd, təqsirli və inzibati məsuliyyətə səbəb olan əməl başa düşülür.

Polis hüququnda inzibati məsuliyyətin yaranması üçün faktiki əsasla yanaşı, həm də hüquqi əsasın olması vacibdir. **Hüquqi əsas** dedikdə inzibati hüquq pozuntusunun (inzibati xətanın) özünün tərkibi başa düşülür. Deməli, inzibati məsuliyyətin yaranması üçün həm inzibati xətanın özü (faktiki əsas), həm də inzibati xəta tərkibinin (hüquqi əsasın) olması lazımdır.

Polis hüququnda **inzibati xəta tərkibi** anlayışı törədilmiş əməli inzibati xəta kimi səciyyələndirən və inzibati xətalar qanunvericiliyində təsbit edilən əlamətlərin məcmusunu bildirir.

İnzibati xəta tərkibi aşağıda göstərilən **dörd əlamətdən (elementdən)** ibarətdir:

– inzibati xətanın obyekti;
– inzibati xətanın obyektiv tərəfi;
– inzibati xətanın subyekti;
– inzibati xətanın subyektiv tərəfi.

**İnzibati xətanın obyekti** dedikdə polis haqqında qanunvericiliklə nizama salınan və inzibati hüquq normaları ilə qorunan ictimai münasibətlər başa düşülür. Bu qrup ictimai münasibətlər onların, birinci, konkret şəkildə polis fəaliyyəti haq-

qında qanunvericiliklə nizamlanması, ikinci, inzibati tənbehlər vasitəsilə mühafizə olunması xüsusiyyətləri ilə səciyyələnir.

Hüquq elmində inzibati xətanın ümumi, xüsusi, bilavasitə və s. obyektləri fərqləndirilir. Polis fəaliyyəti sahəsində inzibati xətanın **ümumi obyekti** bütövlükdə inzibati hüquq normaları (polis-hüquq normaları) ilə tənzimlənən ictimai münasibətlər sistemi hesab olunur. Polis-hüquq pozuntusuna görə inzibati tənbeh tətbiq edilməsini nəzərdə tutan hüquq normalarının təhlili belə nəticə çıxarmağa imkan verir ki, onlar məhz polis fəaliyyəti sahəsində hüquqi qaydalara ciddi riayət olunmasına, insanların həyat və sağlamlığının, hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin mənafelərinin hüquqazidd əməllərdən qorunmasına istiqamətləndirilmişdir.

Polis fəaliyyəti sahəsində inzibati xətanın **xüsusi obyekti** qismində, əsasən, ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətlərin və digər xətaların qarşısının alınmasına və açılmasına, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə, yəni polisin əsas fəaliyyət istiqamətlərinə yönəlmiş münasibətlər çıxış edir. Xüsusi obyekt ümumi obyekti daha da konkretləşdirir, onu təşkil edən ictimai münasibətlərin bir hissəsidir və bu münasibətlərin yaranma sahəsi ilə eynidir. Polis fəaliyyəti ilə bağlı inzibati xətaların xüsusi obyektləri inzibati xətalar qanunvericiliyində (İXM-in «Xüsusi hissəsi»ndə) ayrıca fəsil şəklində yer almışdır: məsələn, yol hərəkəti qaydalarını təmin edən ictimai münasibətlər (İXM, XXIX fəsil), ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyatı təmin edən münasibətlər (İXM, XXXVIII fəsil), idarəçilik qaydalarını təmin edən ictimai münasibətlər (İXM, XXXIX fəsil) və s.

Polis fəaliyyəti sahəsində inzibati xətanın **bilavasitə obyekti** kimi elə bir ictimai münasibətlər başa düşülür ki, inzibati xətanın törədilməsi nəticəsində həmin münasibətlərə bilavasitə zərər vurulur; onlar İXM-nin «Xüsusi hissəsi»nin konkret maddələrində təsbit olunmuşdur. Məsələn, mülki silahın və ya döyüş sursutanın saxlanılması, daşınması və ya satılması qay-

dalarını bilavasitə təmin edən ictimai münasibətlər (İXM, maddə 590). Bu növ inzibati xətanın bilavasitə obyekti kimi aşağıda göstərilən ictimai münasibətlər ola bilər: a) mülki silahın və döyüş sursatının saxlanılması qaydalarını təmin edən ictimai münasibətlər, b) onların daşınması qaydalarını təmin edən ictimai münasibətlər, c) həmin predmetlərin satılması qaydalarını təmin edən ictimai münasibətlər. Həmçinin inzibati qanunvericilik bəzi hallarda inzibati xətanın bilavasitə obyekti qismində qəsd edilən predmetləri də nəzərdə tutur. Söhbət, məsələn, inzibati hüquq pozuntusunun törədilməsində inzibati xətanın bilavasitə obyekti olmuş nəqliyyat vasitələrindən gedir. Belə predmetlərin (nəqliyyat vasitələrinin) ödənişlə alınması və müsadirəsi İXM-in 26-cı maddəsində nəzərdə tutulmuşdur.

Polis hüququnda **inzibati xətanın obyektiv tərəfi** dedikdə inzibati hüquq pozuntusunun zahiri təzahürlərini səciyyələndirən və inzibati hüquq norması ilə nəzərdə tutulan elementlər sistemi başa düşülür. Həmin elementlər sisteminə aiddir: ictimai təhlükəli və hüquqazidd əməl, bilavasitə səbəbiyyət əlaqəsi, nəticə, yer, vaxt, vasitə, üsul, şərait.

Bu sistemdə ictimai təhlükəli və hüquqazidd əməl (hərəkət və ya hərəkətsizlik) başlıca yer tutur. Obyektiv tərəfin qalan elementləri (cəhətləri) – üsul, vaxt, yer və s. onun ətrafında qruplaşır və fakultativ əlamətlər adlanır.[1]

İnzibati xətanın tərkib elementi olan obyektiv tərəfdə ictimai təhlükəli və hüquqazidd əməl **aktiv (hərəkət)** və yaxud **passiv (hərəkətsizlik)** formada baş verir. Məsələn, nəqliyyat vasitəsinin sürücü tərəfindən sərxoş vəziyyətdə idarə edilməsi, şəxsiyyət vəsiqəsinin qəsdən korlanması və s. hallarda əməl aktiv (hərəkət) formada olur; digər bir misalda, nəqliyyat vasitəsinin sürücüsü DYP əməkdaşının «Dayanın» işarəsinə bilə-bilə məhəl qoymadan hərəkəti davam etdirir, yaxud piyada nizamlayıcının siqnallarına əhəmiyyət verməyərək ona tabe

---

[1] *İnzibati xətanın anlayışı, əlamətləri və tərkib elementləri barədə bax:* Abdullayev A., Nağıyev F. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s. 678-690.

olmur və s. bu kimi hallarda yol hərəkəti qaydalarında nəzərdə tutulmuş vəzifələrin icra edilməməsi passiv (hərəkətsizlik) formada baş verir.[1]

Polis hüquq pozuntuları ilə bağlı inzibati xətanın məhz «obyektiv tərəfi» konstruksiyası ictimai təhlükəli və hüquqazidd əməl törətmiş təqsirkar şəxsin, yəni inzibati xəta subyektinin müəyyənləşdirilməsində vacib rol oynayır.

Polis fəaliyyəti ilə bağlı **inzibati xətanın subyekti** qismində polis hüququnun subyektləri çıxış edir. Biz polis hüququnun subyektləri anlayışı, onların növləri və ümumi xarakteristikası barədə əvvəllər (III fəsildə) söhbət açmışıq. Əlavə olaraq onu qeyd edirik ki, fiziki şəxs yalnız o halda inzibati məsuliyyətə cəlb edilə bilər ki, inzibati xəta törədərkən onun 16 yaşı tamam olsun və o, anlaqlı vəziyyətdə olsun.

Polis hüququnda **inzibati xətanın subyektiv tərəfi** dedikdə şəxsin törətdiyi hüquqazidd əmələ və onun zərərli nəticələrinə psixi münasibətini səciyyələndirən əlamətlərin məcmusu başa düşülür. Onun əsas elementi təqsir, əlavə elementləri isə emosional vəziyyət, motiv və məqsəddir.

**Təqsir** öz növbəsində qəsd (birbaşa qəsd, dolayı qəsd) və ehtiyatsızlıq (hüquqazidd özünəgüvənmə, hüquqazidd etinasızlıq) formasında olmaqla, şəxsin özünün törətdiyi hüquqazidd əmələ və onun zərərli nəticələrinə göstərdiyi daxili psixi reaksiyadır.

Polis hüququnda inzibati xətanın tərkibinin yuxarıda göstərdiyimiz bütün əlamətləri mövcud olduğu təqdirdə təqsirkar şəxsə qarşı inzibati hüquq məsuliyyəti tədbirləri tətbiq edilir.

Polis hüququnda **inzibati tənbeh** anlayışının məna yükü törədilmiş inzibati xətaya görə təqsirkar şəxsə tətbiq edilən dövlət məcburiyyət tədbirlərini əhatə edir və onun iki əsas məqsədi vardır: xüsusi xəbərdaredici məqsəd, ümumi xəbərdaredici məqsəd.

---

[1] *Bax:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.116.

İnzibati tənbehin **xüsusi xəbərdaredici məqsədi** inzibati xəta törədən şəxsi qanunlara əməl etmək ruhunda tərbiyələndirməkdən, habelə onun tərəfindən yeni inzibati hüquq pozuntusu törədilməsinin qarşısını almaqdan ibarətdir.

İnzibati tənbehin **ümumi xəbərdaredici məqsədini** isə bütövlükdə cəmiyyət üzvlərinin yeni inzibati xəta törətmələrinin qarşısını almaq təşkil edir.

İnzibati xətalar qanunvericiliyində (İXM) nəzərdə tutulan inzibati xətanı törətmiş şəxsi cəzalandırmaq üçün tətbiq edilən məsuliyyət tədbirinə **inzibati tənbeh** deyilir.

Polis fəaliyyəti sahəsində törədilmiş inzibati xətalara görə tətbiq edilən müxtəlif növ inzibati tənbehlər inzibati xətalar qanunvericiliyində təsbit olunmuşdur: xəbərdarlıq (İXM, maddə 24), inzibati cərimə (İXM, maddə 25), inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi (İXM, maddə 26), fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması (İXM, maddə 27), inzibati həbs (İXM, maddə 30) və s.

Xəbərdarlıq, inzibati cərimə və ya inzibati həbs **əsas** inzibati tənbeh növləridir, müsadirə və digərləri isə həm əsas, həm də **əlavə** inzibati tənbeh növləri kimi tətbiq edilə bilər.

Adları çəkilən tənbeh növləri bir-biri ilə sıx bağlı olmaqla, vahid inzibati sanksiya **sisteminin** tərkib hissələridir. Hər hansı tənbehin tətbiqi inzibati məsuliyyətin başlandığını bildirir, təqsirli şəxs üçün əlverişsiz hüquqi nəticələrə səbəb olur.

Polis fəaliyyəti ilə bağlı inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin dairəsi Azərbaycan Respublikası Prezidentinin 28.09.2007-ci il tarixli 634 nömrəli müvafiq Fərmanı ilə təsdiq edilmişdir.[1] Adıçəkilən normativ hüquqi aktla təsdiq olunmuş «İnzibati xətalar haqqında işlərə

---

[1] *Bax:* «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 28.09.2007-ci il tarixli 634 nömrəli Fərmanı // AR QT, 2007, № 9, maddə 872.

baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın 2-ci bəndində DİN və onun polis orqanları adından İXM-in ayrı-ayrı maddələri üzrə inzibati xətalar haqqında işlərə baxmaq səlahiyəti olan şəxslərin konkret dairəsi müəyyən edilmişdir.

Polis hüququ subyektlərinin inzibati hüquq məsuliyyəti daşımaları barədə müvafiq normalar polis qanunvericilik aktlarında təsbit olunmuşdur: məsələn, polis əməkdaşı hüquqazidd hərəkətlərinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır (PQ, maddə 33, V hissə); əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanunçuluğun pozulmasına görə məsuliyyət, o cümlədən inzibati məsuliyyət yaranır (ƏFQ, maddə 21, I hissə); dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə cəlb oluna bilərlər (DQQ, maddə 25.5); DİO əməkdaşı törətdiyi müvafiq hüquqpozmalara görə inzibati məsuliyyətə cəlb olunur (DİO-da xidmət keçmə haqqında Əsasnamə, maddə 114-1) və s.

Polis fəaliyyəti sahəsində inzibati məsuliyyətlə əlaqədar yaranan münasibətlərin nizama və qaydaya salınmasında göstərdiyimiz polis-hüquq normaları əhəmiyyətli rol oynayır.

Beləliklə, şərh olunanları nəzərə alaraq, polis fəaliyyəti sahəsində inzibati hüquq məsuliyyəti subinstitutuna aşağıdakı kimi definisiya formulə etmək mümkündür:

**polis hüququnda inzibati hüquq məsuliyyəti subinstitutu** dedikdə polis fəaliyyəti sahəsində hüquqpozmalara görə inzibati xəta törətmiş şəxslərə qarşı səlahiyyətli orqan və ya vəzifəli şəxslər tərəfindən inzibati tənbehlərin tətbiq edilməsini tənzimləyən müvafiq polis-hüquq normalarının məcmusu başa düşülür.

### 6.3.5. Polis hüququnda mülki hüquq məsuliyyəti

Polis fəaliyyəti ilə bağlı hüquq pozuntusunun xarakterindən asılı olaraq, polis hüququnda hüquqi məsuliyyət münasibətlərinin tərkibində müəyyən münasibətlər qrupu fərqləndirilir. Belə ki, əmlak, həyat və sağlamlığa zərər vurulması hallarında mülki hüquq məsuliyyəti yaranır. Polis fəaliyyəti sahəsində bu hüquqi məsuliyyət növü müəyyən hüquq normaları əsasında realizə olunur ki, onların sistemli şəkildə məcmusu polis hüququnda hüquqi məsuliyyət yarıminstitutunun tərkibində ayrıca hüquqi qurum kimi yer alır; onu polis hüquqi məsuliyyət yarıminstitutunun **«mülki hüquq məsuliyyəti subinstitutu»** adlandırmaq mümkündür.

Sozugedən subinstitutun tənzimetmə **predmetinə** polis fəaliyyəti sahəsində mülki məsuliyyətlə əlaqədar yaranan münasibətlər aiddir. Polis fəaliyyəti ilə bağlı hüquq pozuntularının törədilməsində təqsirli olan şəxslərin mülki-hüquqi məsuliyyətinə aid məsələlər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə nizama salınır. Mülki qanunvericilik isə Azərbaycan Respublikasının Konstitusiyasına (1995-ci il) əsaslanır və Azərbaycan Respublikasının 28.12.1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş və 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş MM, MPM, həmçinin PQ, ƏFQ və digər normativ hüquqi aktlardan, onların əsasında qəbul edilmiş və mülki hüquq normaları müəyyənləşdirən başqa hüquqi aktlardan ibarətdir.[1] Bu sıraya 04.11.1999-cu il tarixdə Strasburq şəhərində Avropa Şurası çərçivəsində qəbul edilmiş «Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında» Konvensiya da aiddir.[2]

---

[1] Mülki hüquq məsuliyyətinə aid məsələlər ətraflı şəkildə işıqlandırılmışdır: məsələn, Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. Xüsusi hissə. II nəşr. Bakı, 2009, s. 654-725.

[2] Sözügedən Konvensiya Azərbaycan Respublikasının 30.12.2003-cü il tarixli 571-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir // Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı. Bakı, 2009, s.318-365.

**Mülki hüquq** dedikdə əmlak münasibətlərini, əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini, habelə əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının sistemi və məcmusu başa düşülür.[1] Mülki hüququn **predmetini** üç növ (qrup) ictimai münasibət təşkil edir və onlara aşağıdakılar aiddir:

– əmlak münasibətləri;
– əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri;
– əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri.

**Əmlak münasibətləri** odur ki, həmin münasibətlərin obyekti əmlakdan (əşya, görülən iş, göstərilən xidmət və s.) ibarətdir. İctimai həyatda yaranan əmlak münasibətləri milli hüququn digər sahələri (məsələn, inzibati hüquq və onun yarımsahəsi olan polis hüququ, maliyyə hüququ və s.) ilə də tənzimlənə bilər.

Əmlak münasibətləri ilə **bağlı olan şəxsi qeyri-əmlak münasibətləri** odur ki, bu münasibətlərin obyektini yaradıcılıq fəaliyyətinin nəticələri təşkil edir; onlara əqli mülkiyyət obyektləri və ya mənəvi məhsullar da deyilir; ixtira barədə patent münasibətləri də həmin növ ictimai münasibətlərə aiddir.

Əmlak münasibətləri ilə **bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri** odur ki, bu münasibətlərin obyekti şəxsi qeyri-əmlak (qeyri-maddi) nemətlərdən ibarətdir. Şəxsi qeyri-maddi nemətlər dedikdə həyat, yaşamaq, sağlamlıq, toxunulmazlıq, şərəf və ləyaqət, işgüzar nüfuz və digər nemətlər başa düşülür. Bu o deməkdir ki, hər bir vətəndaşla həyat, yaşamaq, toxunulmazlıq və digər nemətlərlə əlaqədar cəmiyyətin digər üzvləri («hamı və hər kəs») arasında şəxsi qeyri-əmlak münasibətləri yaranır; bunlar əmlak münasibətləri ilə bağlı deyildir.

[1] *Bax:* Alahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s. 212.

Göstərdiyimiz sahədə yaranan mülki hüquq münasibətləri ümumi hüquq münasibətlərinin bir növü olmaqla, həyata keçirilərkən dövlətin məcburetmə qüvvəsi ilə təmin edilir, lazım gəldikdə isə qorunur; belə mülki hüquq münasibətlərin pozulması mülki xəta sayılır.

**Mülki xətalar** (hüquq pozuntuları) odur ki, onlar əmlak münasibətlərinə (məsələn, mülkiyyət münasibətlərinə və s.), habelə şəxsi qeyri-əmlak münasibətlərinə (məsələn, şəxsin həyat və sağlamlığına, şərəf və ləyaqətinə, işgüzar nüfuzuna və s.) qəsd edir.

Mülki hüquq pozuntularının törədilməsinə görə isə, təbii ki, müvafiq mülki hüquqi məsuliyyət yaranır. **Mülki hüquqi məsuliyyət** dedikdə elə bir tədbir başa düşülür ki, bu tədbirin tətbiq olunması nəticəsində mülki hüquq pozuntusu (mülki xəta) törətmiş şəxs üçün əmlak (maddi) xarakterli arzuolunmaz nəticələr, əlavə yük yaranır.

Mülki hüquq pozuntusu törədən şəxs üçün mənfi əmlak nəticəsi müxtəlif formada ifadə oluna bilər; ona mülki hüquq məsuliyyətinin **formaları** deyilir. Zərərin əvəzinin ödənilməsi əsas və universal məsuliyyət formasıdır. Bu formaya görə, təqsirkar şəxs vurduğu zərərin əvəzini ödəməlidir. Zərər iki hissədən ibarətdir: real zərər, əldən çıxmış fayda. Mülki qanunvericiliyin müəyyənləşdirdiyi prinsipə görə, zərərin əvəzi tam həcmdə ödənilməlidir.

Mülki xətalar polis fəaliyyəti ilə əlaqədar baş verdikdə mülki məsuliyyət münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi məsələsi ümumi milli qanunvericilik sisteminin **polis qanunvericiliyi sferasına** daxil olur. Belə ki, polis haqqında qanunvericilik aktları sırasına aid olan PQ-də mülki hüquq məsuliyyətini nizama salan normalar mövcuddur: məsələn, şəxsin hüquqları, azadlıqları və qanuni mənafeləri polis əməkdaşları tərəfindən pozulduqda polis orqanı həmin şəxsin pozulmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin bərpa olunması üçün zəruri tədbirlər görməyə, vurulan ziyanı ödəməyə borcludur. Polis əməkdaşlarının qanunazidd hərəkətləri

nəticəsində vurulmuş ziyan müvafiq qanunvericiliklə müəyyən olunan qaydada ödənilir (PQ, maddə 5).

Digər bir maddədə təsbit olunmuşdur ki, polis əməkdaşı hüquqazidd hərəkətlərinə görə mövcud qanunvericilik ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır (PQ, maddə 33, V hissə). Həmçinin xidməti vəzifələrinin icrası zamanı polis əməkdaşının əmlakına dəyən zərər dövlət büdcəsinin vəsaiti hesabına tam həcmdə ödənilir (PQ, maddə 37, III hissə) və s.

Eyni zamanda ƏFQ-də nəzərdə tutulmuşdur ki, insanın hüquq və azadlıqları, hüquqi şəxslərin qanuni mənafeləri pozulduqda, habelə haqqında əməliyyat-axtarış tədbirləri keçirilmiş şəxsin hüquqpozmaya aidiyyəti təsdiq olunmadıqda əməliyyat-axtarış fəaliyyətinin subyekti[1] pozulmuş hüququ bərpa etməyə və vurulmuş maddi və mənəvi ziyanı ödəməyə borcludur.

Dövlət qulluğu haqqında qanunvericiliyə görə, dövlət qulluqçuları onların təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar. Dövlət qulluqçularının qanunauyğun hərəkətləri nəticəsində dəymiş ziyanın əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir (DQQ, maddə 25.6).

Polis fəaliyyəti sahəsində xəta törədilməsi nəticəsində vurulmuş əmlak zərərinin əvəzinin ödənilməsi ilə bağlı məsələ üzrə qanunvericilikdə xüsusi qayda ehtiva olunur. Belə ki, səlahiyyətli orqan inzibati xəta haqqında işə baxarkən vurulmuş əmlak zərərinin əvəzinin ödənilməsi barədə mübahisə olmadıqda, inzibati tənbeh tətbiq etməklə eyni vaxtda vurulmuş zərərin əvəzinin ödənilməsi barədə məsələyə də baxa bilər. Mübahisə olduqda isə inzibati xəta nəticəsində vurulmuş əmlak zərərinin və ya mənəvi zərərin əvəzinin ödənilməsi məsələsi mövcud qanunvericiliyə uyğun olaraq həll edilir (İXM, maddə 36).

---

[1] *Əməliyyat-axtarış fəaliyyətinin subyektləri və onların səlahiyyət bölgüsü barədə ətraflı bax: məsələn,* Hüseynov Ş.İ., Kazımov İ.Ə. Əməliyyat-axtarış fəaliyyəti. 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı, 2004, s.31-36.

Azərbaycan Respublikasının mülki qanunvericiliyi mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklərə, o cümlədən polis fəaliyyəti ilə əlaqədar mülki xətalara görə mülki hüquq məsuliyyətinə dair məsələləri təfsilatı ilə tənzimləyir. Qanunverici orqan MM-də bu barədə kifayət qədər normalar müəyyənləşdirmişdir: məsələn, dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin vurduqları zərər üçün məsuliyyət (MM, maddə 1100), təhqiqat, ibtidai isintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə vurulmuş zərər üçün məsuliyyət (MM, maddə 1101), polisdə qulluq vəzifələrinin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi (MM, maddə 1117) və s.

Fiziki şəxslərin hüquqlarının və qanuni mənafelərinin, ictimai və dövlət mənafelərinin pozulması hallarının vaxtında aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə əlaqədar fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericiliyin eyni cür və dürüst icrası dövlət tərəfindən təmin olunur. Bu barədə «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının 29.12.1998-ci il tarixli Qanunu olduqca əhəmiyyətlidir və onun müddəaları vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsinə yönəldilmişdir.[1]

Polis hüququnda mülki hüquq məsuliyyətinin **əsasını** mülki xəta (zərər vurulmasına dəlalət edən hüquqi fakt) təşkil edir. Mülki hüquq məsuliyyətinin **şərtləri** isə aşağıdakılardan ibarətdir:

---

[1] *Qanunun mətni və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13.02.1999-cu il tarixli Fərmanı haqqında bax:* Məhkəmə hakimiyyəti… Hakim... Qanun… / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı, 2001, s. 178-187.

– polis fəaliyyəti ilə bağlı xidməti vəzifənin irası zamanı şəxs tərəfindən törədilmiş əməlin hüquqazidd olması;
– həmin şəxsin, yəni mülki xəta törədən şəxsin təqsirli olması;
– hüquqazidd əməllə zərərli nəticə arasında səbəbiyyət əlaqəsinin mövcudluğu.

Polis əməkdaşları onların təqsiri üzündən mülki hüquq pozuntusu nəticəsində vurduqları ziyana görə maddi məsuliyyət də daşıyırlar. Deməli, maddi məsuliyyət xidməti mülki xəta nəticəsində vurulmuş maddi zərər nəticəsində əmələ gəlir və dövlət qulluqçularının (o cümlədən polis işçilərinin) vurduğu maddi zərərin ödənilməs ilə nəticələnir. Zərərin ödənilməsinə eyni zamanda intizam tənbehi kimi baxıla və bu, onunla birlikdə tətbiq edilə bilər.

Maddi məsuliyyət ya inzibati qaydada, ya da məhkəmə qərarı ilə yerinə yetirilir. Polis əməkdaşlarının (dövlət qulluqçularının) maddi məsuliyyəti polis-hüquq normaları ilə nizamlanır; dövlət qulluqçularına aid olmayan mülki şəxslərin maddi məsuliyyəti isə əmək-hüquq normaları ilə müəyyən edilir.

Əmək qanunvericiliyi maddi məsuliyyətin **iki əsas növünü** fərqləndirir:

– məhdud maddi məsuliyyət;
– tam maddi məsuliyyət.

**Məhdud maddi məsuliyyət** işçi tərəfindən zərərin əvəzinin əvvəlcədən müəyyən edilmiş həddə ödənilməsini nəzərdə tutur. Bu məsələ Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə nizama salınır (ƏM, maddə 198).

**Tam maddi məsuliyyətə** görə, işçi hüquqazidd hərəkətləri ilə vurduğu zərərin əvəzini hər hansı məhdudlaşdırma halı olmadan tam həcmdə ödəyir. İşçi yalnız əmək qanunvericiliyində nəzərdə tutulan hallarda tam maddi məsuliyyət daşıyır (ƏM, maddə 199). Məsələn, işçi əmlakı qəsdən korladıqda, məhv etdikdə və ya zərər cinayət əməli nəticəsidə vurulduqda

və yaxud alkoqol, zəhərli (toksik), ya da narkotik maddələrdən sərxoş vəziyyətdə vurulduqda tam maddi məsuliyyət daşıyır.

Qeyd etmək lazımdır ki, polis hüququnda vurulmuş zərərə görə maddi məsuliyyət xidməti fəaliyyətlə əlaqədar olaraq tətbiq edilir. «Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında» Əsasnaməyə[1] əsasən, hərbi qulluqçular və DİO əməkdaşları tərəfindən dövlətə vurulmuş zərər onların həmin zərərə səbəb olmuş hərəkətlərinə (hərəkətsizliklərinə) görə intizam və yaxud cinayət məsuliyyətinə cəlb olunub-olunmamasından asılı olmayaraq ödənilir.

Adıçəkilən Əsasnaməyə görə, vurulmuş zərər hər bir hərbi qulluqçudan, habelə DİO-nun sıravi və rəis heyətindən xidməti vəzifələrini yerinə yetirərkən tutula bilər.

DİN-in 23.02.1998-ci il tarixli 52 saylı əmri ilə təsdiq edilmiş 2 nömrəli əlavədə əmlakın ayrı-ayrı növləri üzrə dəymiş ziyanın bir neçə misli həddində ödənilməsi nəzərdə tutulmuş əmlakın siyahısı göstərilmişdir.

«Rəis və sıravi heyət tərəfindən dövlətə dəymiş ziyanın ödənilməsi qaydaları haqqında» Təlimata (DİN-in 31.10.1995-ci il tarixli 568 nömrəli əmri ilə təsdiq edilmişdir) əsasən, DİO əməkdaşlarının dövlətə vurduqları ziyanın ödənilməsi qaydası müəyyən olunmuşdur.

«Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında» Əsasnaməyə və ona edilmiş əlavə və dəyişikliklərə[2] uyğun olaraq, DİN-in digər orqanlarının rəis

---

[1] Əsasnamə Azərbaycan Respublikasının 20.01.1995-ci il tarixli 947 nömrəli Qanunu ilə təsdiq edilmişdir // AR ASM, 1995, № 8, maddə 158.

[2] «Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında» Əsasnamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 04.11.1997-ci il tarixli 388-IQD nömrəli Qanunu DİN-in 23.02.1998-ci il tarixli 52 nömrəli əmri ilə elan olunmuşdur.

və komandirləri tərəfindən dövlətə vurulmuş ziyanın təqsirkar şəxslərin hesabına ödənilməsi barədə sərəncam verilir.[1]

Qeyd etmək lazımdır ki, mülki hüquq məsuliyyəti **təqsirə** əsaslanır. Lakin bəzən bu qaydadan istisnaya yol verilir. Belə ki, mülki hüquq məsuliyyətinin zəruri şərti kimi təqsir haqqında qayda imperativ deyil, **dispozitiv** xarakterə malikdir. Bu o deməkdir ki, mülki hüquq münasibətlərində təqsirdən asılı olmayan məsuliyyət yarana bilər. Bu cür təqsir sivilistika doktrinasında «təqsirsiz məsuliyyət», «təqsirdən asılı olmayan məsuliyyət» və ya «obyektiv məsuliyyət» adlanır. **Təqsirsiz məsuliyyət** dedikdə şəxsin təqsiri olmadan mülki hüquq məsuliyyətinə cəlb edilməsi başa düşülür. Məsələn, mülki qanunvericilikdə nəzərdə tutulmuşdur ki, dövlət cinayət məsuliyyətinə qanunsuz cəlbetmə, inzibati tənbehin qanunsuz verilməsi və s. əməllər nəticəsində fiziki şəxsə vurulmuş zərərə görə təhqiqat, ibtidai istintaq və digər orqanların vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq məsuliyyət daşıyır (MM, maddə 1101, 1-ci hissə).

Polis hüququnda mülki hüquq məsuliyyəti ilə əlaqədar münasibətlər yuxarıda göstərdiyimiz və digər normativ hüquqi aktların müəyyənləşdirdiyi normalar əsasında nizama salınır; onların məcmusu polis hüququnda hüquqi məsuliyyət yarıminstitutunun xüsusi bir qurumunu – mülki hüquq məsuliyyəti subinstitutunu yaradır. Polis hüququ həmçinin özünün müvafiq polis-hüquq normaları vasitəsilə mülki hüquq məsuliyyəti məsələlərini nizamlayır.

Beləliklə, polis hüququnda **mülki hüquq məsuliyyəti subinstitutu** dedikdə polis fəaliyyəti sahəsində mülki xəta törətmiş şəxslərə qarşı tənbeh tədbirlərinin tətbiq edilməsini tənzimləyən müvafiq polis-hüquq normalarının məcmusu başa düşülür.

---

[1] *Vurulmuş zərərin əvəzinin ödənilməsi qaydaları barədə ətraflı bax:* Abdullayev A., Nağıyev F. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s. 724-729.

### 6.3.6. Polis hüququnda intizam hüquq məsuliyyəti

İctimai münasibətlərə vurulan zərərin xarakterinə və bununla əlaqədar müəyyən edilən məsuliyyət tədbirlərinə görə hüquq pozuntularının bir növü də intizam xətası adlanır.

**İntizam xətaları** dedikdə müəssisə, idarə və təşkilatların daxili fəaliyyət qaydalarının pozulması halları başa düşülür. Xətanın bu növü əmək, təhsil-tədris, qulluq (xidmət) və s. intizam qaydalarını pozur və nəticədə intizam məsuliyyəti məsələsi ortaya çıxır.

Ümumi qaydalara görə, intizam məsuliyyəti hüquqi məsuliyyətin bir növüdür və o, əsasən, əmək qanunvericiliyi (əmək hüququ), habelə ayrı-ayrı hallarda qulluqçuların (xidmətçilərin) hüquqi statusunu müəyyən edən normativ hüquqi aktlarla tənzimlənir.

**Əmək hüququ** milli hüququn elə bir müstəqil sahəsidir ki, bu sahə özündə iş prosesində işçi ilə işəgötürən arasında yaranan əmək münasibətlərini, eləcə də bu münasibətlərlə çıx surətdə bağlı olan digər ictimai münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir.[1]

Əmək və icra intizamı əmək hüququnun əsas anlayışları sırasına daxildir. İntizam əmək münasibətlərinin başlıca elementidir; o, insanlar arasında birgə kollektiv əmək prosesində yaranır. Birgə kollektiv əmək prosesində vəzifələrin (öhdəliklərin) yerinə yetirilmə səviyyəsi məhz intizam məsuliyyətindən çox asılıdır. **Əmək və icra intizamı** dedikdə birgə kollektiv əmək prosesi iştirakçılarının üzərinə düşən əmək vəzifələrini yerinə yetirmə dərəcəsi başa düşülür. İştirakçıların davranışının müəyyən olunmuş zəruri qaydası əmək və icra intizamının mahiyyətini təşkil edir.

---

[1] *Ətraflı bax: məsələn,* Наумов М.Ф., Касумов А.М. Трудовое право России. М., 1998, с.3; Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı, 1991, s.163-165; Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011, s.282-312 və b.

Əmək və icra intizami ilə bağlı əmək münasibəti iştirakçıları arasında müəyyən əlaqələr yaranır ki, həmin əlaqələrə **intizam münasibətləri** deyilir. Bu münasibətlər, əsasən, işəgöTÜrənlə işçi, habelə əmək kollektivi ilə işçi arasında əmələ gəlir.

İntizam münasibətlərini təmin etmək üçün müəssisədaxili **intizam qaydaları** qəbul edilir, müvafiq vəzifə və hüquqlar müəyyənləşdirilir, xüsusi idarəetmə metodları tətbiq olunur. Əmək hüququnda üç əsas **metod** fərqləndirilir:

– inandırma metodu;

– həvəsləndirmə metodu;

– məcburiyyət metodu.

**İnandırma metodu** əmək hüququnda başlıca metod hesab edilir. Bu metodun mahiyyəti tərbiyə etmək, işçilərə faydalı fəaliyyətlə məşğul olmaq və ya arzuolunmaz əməllərdən çəkinmək üçün onların şüuruna təsir etməkdən ibarətdir.

**Həvəsləndirmə metodu** dedikdə müxtəlif həvəsləndirmə vasitələri ilə işçilərin mükafatlandırılması başa düşülür. Belə ki, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilər müxtəlif həvəsləndirmə vasitələri ilə mükafatlandırıla bilər.

**Məcburiyyət metodunun** mahiyyətini isə əmək və icra intizamının pozulmasına görə işçinin intizam məsuliyyətinə cəlb edilməsi və ona intizam tənbehinin tətbiq olunması təşkil edir. Belə ki, işçi əmək funksiyasını tam və ya qismən yerinə yetirmədikdə və yaxud keyfiyyətsiz yerinə yetirdikdə, üzərinə düşən vəzifələri icra etmədikdə, intizam qaydalarını pozduqda, bir sözlə, intizam xətası törətdikdə ona müəyyən intizam tənbehi verilir.

Əmək hüququnun əsas anlayışlarından biri də əmək münasibətləri prosesində yaranan **maddi məsuliyyət** sayılır. Maddi məsuliyyətin **əsasını** vurulmuş zərər təşkil edir. **Zərər** isə işəgötürən və işçinin öz öhdəliklərini yerinə yetirmədikləri zaman vurulur.

Maddi məsuliyyətin **şərtləri,** əvvəllərdə göstərdiyimiz kimi, aşağıdakılardan ibarətdir: hüquqazidd əməl, təqsir, hüquqazidd əməllə zərərli nəticə arasında səbəbiyyət əlaqəsi.

İntizam xətası göstərilən əsas və şərtlər daxilində baş verdikdə müvafiq inizam hüquq məsuliyyəti məsələsi ortaya çıxır.

İntizam xətaları polis fəaliyyəti sahəsində törədildikdə polis əməkdaşının intizam hüquq məsuliyyəti ilə əlaqədar münasibətlər əmək qanunvericiliyi ilə yanaşı, həm də polis qanunvericilik aktları əsasında tənzimlənir; törədilmiş intizam xətalarına görə dövlət intizam məcburetmə tədbirlərinin görülməsi zərurətə çevrilir.

**İntizam məcburetməsi** icraedici, sərəncamverici fəaliyyətin bir növü olmaqla, dövlət təşkilatlarında çalışan şəxslərə münasibətdə məhkəmədənkənar qaydada tətbiq edilir; belə tədbirlər əmək hüququ normaları əsasında təşkilatlar tərəfindən öz səlahiyyətləri hüdudunda (məsələn, DİN-in aktları çərçivəsində) tətbiq olunur və fərdiləşdirilmişdir. İntizam hakimiyyət subyektləri (DİN və onun orqanları) tərəfindən intizam məcburetmə tədbirlərinin həyata keçirilməsi, mahiyyətcə, törədilmiş intizam xətasına görə şəxsin intizam hüquq məsuliyyətinə cəlb edilməsi deməkdir.

Polis fəaliyyəti sahəsində **intizam məsuliyyəti** dedikdə intizam hakimiyyəti subyektləri tərəfindən tabeçiliklərində olan sabit kollektiv üzvlərinə intizam xətalarının və digər hüquq pozuntularının törədilməsinə görə polis-hüquq normaları əsasında intizam təsir tədbirlərinin tətbiq edilməsi başa düşülür.

DİO-da xidmət edən əməkdaşlara, o cümlədən polis əməkdaşlarına qarşı intizam məcburetmə tədbirlərinin tətbiq edilməsinin **normativ hüquqi əsasını** PQ, ƏFQ, DQQ, «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının 31.05.2007-ci il tarixli Qanunu, Azərbaycan Respublikasının 29.06.2001-ci il tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə», «Daxili qoşunların statusu haqqında» Azərbaycan Respublikası-

nın 08.02.1994-cü il tarixli Qanunu, Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə», DİN-in 08.04.2005-ci il tarixli 130 nömrəli əmri ilə təsdiq edilmiş «Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi», DİN-in 16.06.2009-cu il tarixli 330 nömrəli əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası daxili işlər orqanlarının İntizam Nizamnaməsi» və s. aktlar təşkil edir.

Polis fəaliyyəti ilə əlaqədar intizam xətalarının törədilməsinə görə təqsirli şəxslərə tətbiq edilən intizam hüquq məsuliyyəti tədbirləri **polis haqqında qanunvericilik aktları** ilə müəyyənləşdirilmişdir.

Lakin, ilk növbədə, qeyd etmək lazımdır ki, polis əməkdaşı öz vəzifələrinin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə edilən yüksək nəticələrə görə həvəsləndirilir (PQ, maddə 31). Polis əməkdaşlarına aşağıdakı həvəsləndirmə növləri tətbiq edilir: təşəkkür, pul mükafatı, qiymətli hədiyyə ilə mükafatlandırma, fəxri fərman ilə təltif edilmə və s. Polis əməkdaşları həmçinin «Dövlət mükafatı» ilə təltif olunmağa təqdim edilə bilər.

Polis qanunvericiliyi polisdə xidmətlə bir araya sığmayan fəaliyyət növlərini konkretləşdirir və həmin fəaliyyətlə məşğul olmağı qadağan edir. Belə ki, polis əməkdaşı heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz,əmək haqqından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldıqları vəsaitdən başqa məvacib ala bilməz; həmçinin polis əməkdaşı siyasi fəaliyyətlə məşğul və siyasi partiyanın üzvü ola bilməz (PQ, maddə 32).

Polis haqqında qanunvericiliyə əsasən (PQ, maddə 33), polis əməkdaşı aşağıdakı **intizam xətalarına** görə intizam hüquq məsuliyyətinə cəlb edilir:

– xidmət apararkən hüquqazidd hərəkət etdikdə;

– xidmət və icra intizamını pozduqda;
– polis əməkdaşı adına ləkə gətirən ləyaqətsiz hərəkət etdikdə;
– korrupsiyaya qarşı mübarizə haqqında qanunvericilikdə göstərilən və inzibati (və ya cinayət) məsuliyyəti yaratmayan hüquqpozmaları törətdikdə.

İntizam xətası törətdiyinə görə polis əməkdaşına hüquqi məsuliyyət tədbirləri kimi aşağıda göstərilən **intizam tənbeh növləri** tətbiq edilə bilər:

– məzəmmət, töhmət, şiddətli töhmət;
– xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;
– xüsusi rütbənin bir pillə aşağı salınması;
– xidmətdən xaric edilmə və s.

Polis təhsil müəssisələrində göstərilən intizam tənbeh növlərindən başqa, növbədənkənar xidmət naryadını təyinetmə və polis təhsil müəssisəsindən xaricetmə tənbeh növləri də tətbiq oluna bilər.

İntizam tənbeh növü müəyyən edilərkən intizam xətasının xarakteri, törədildiyi şərait, təqsirkarın şəxsiyyəti, kollektivdə nüfuzu, əvvəlki davranışı, xidmətə münasibəti, xidmət müddəti, peşəkarlıq və digər xüsusiyyətlər nəzərə alınır.

Xidməti intizam qaydalarını pozmağa (intizam xətası törətməyə) görə DİO əməkdaşlarının, hərbi qulluqçularının (o cümlədən polis əməkdaşlarının) intizam hüquq məsuliyyətinə cəlb edilməsi qaydaları, xüsusiyyətləri, şərtləri və digər məsələlər polis haqqında qanunvericilik aktlarında təsbit olumuş polis-hüquq normaları ilə nizama salınır: məsələn, PQ (IV fəsil), ƏFQ (maddə 21), DQQ (maddə 25), Dövlət qulluqçularının etik davranış Qaydaları (maddə 23), Daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə (VII fəsi), Daxili İşlər Nazirliyi haqqında Əsasnamə (maddə 5), DİO əməkdaşlarının

etik davranış Kodeksi (maddə 22), DİO-nun İntizam Nizamnaməsi (III fəsil) və s.

Yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd etmək olar ki, polis hüququnda inzitam hüquq məsuliyyətini nizama salan polis-hüquq normaları cəmləşərək, polis hüququnda hüquqi məsuliyyət yarıminstitutunun tərkibində ayrıca bir qurum yaradır; həmin hüquqi qurumu «intizam hüquq məsuliyyəti subinstitutu» adlandırmaq mümükündür.

Beləliklə, **polis hüququnda intizam hüquq məsuliyyəti subinstitutu** dedikdə pois fəaliyyəti ilə əlaqədar DİO-da törədilmiş intizam xətalarına görə tətbiq edilən tənbeh tədbirlərini və onlarla bağlı münasibətləri tənzimləyən polis-hüquq normalarının məcmusu başa düşülür.

## VI FƏSİL ÜZRƏ SXEM



# II BÖLMƏ. XÜSUSİ HİSSƏ.
# POLİS HÜQUQUNUN İNSTİTUTLARI

## VII FƏSİL. İCTİMAİ TƏHLÜKƏSİZLİK HÜQUQU

### 7.1. İctimai təhlükəsizlik hüququnun anlayışı, nizamasalma predmeti və polis hüququnda yeri

#### 7.1.1. İctimai təhlükəsizlik hüququ anlayışı

Polis hüququnun sistemi iki hissədən ibarətdir ki, bunlardan biri ümumi, digəri isə xüsusi hissə adlanır. Polis hüququnun xüsusi hissəsi ictimai təhlükəsizlik hüququndan başlayır. Belə ki, ictimai təhlükəsizlik hüququ inzibati hüququnun yarımsahəsi olan polis hüququnun struktur elementlərindən (tərkib hissələrindən) biridir. Bəs, ictimai təhlükəsizlik hüququ dedikdə nə başa düşülür?

Qeyd etməliyik ki, cəmiyyətdə insan haqları, mülkiyyət, iqtisadi fəaliyyət, ətraf mühit, dövlətin konstitusiya quruluşu ilə yanaşı, ictimai qayda və ictimai təhlükəsizlik də cinayətkar qəsdlərdən qorunmalıdır; bu da aktual məsələlərdən biri hesab edilir. Aydındır ki, həm şəxsiyyətin, həm cəmiyyətin, həm də dövlətin mövcud olması və normal fəaliyyət göstərməsi məhz ictimai asayişin nə dərəcədə qorunmasından və ictimai təhlükəsizliyin effektiv təmin edilməsi səviyyəsindən çox asılıdır. Buna görə də, hüquq-mühafizə orqanlarından biri olan polis öz fəaliyyətində ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə xüsusi diqqət yetirir və bu sahədə mühüm rol oynayır.

Təsadüfi deyil ki, PQ-nin 4-cü maddəsi ictimai qaydanın qorunmasını və ictimai təhlükəsizliyin təmin edilməsini polisin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirir. Belə ki, həmin maddənin II hissəsində polis fəaliyyətinin əsas istiqamətləri sadalanır ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi onlardan

biridir. PQ-nin 3-cü maddəsinin II hissəsi isə ictimai qaydanı qorumağı və ictimai təhlükəsizliyi təmin etməyi polisin əsas vəzifələrindən biri kimi nəzərdə tutur. Başqa sözlə, polisin üzərinə düşən əsas vəzifələrdən biri bundan ibarətdir ki, o, ictimai qaydanı qorumalı və ictimai təhlükəsizliyi təmin etməlidir. Bundan ötrü, hər şeydən əvvəl, polis əməkdaşı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində müvafiq vəzifələri yerinə yetirməlidir (məsələn, hər bir şəxsin təhlükəsizliyini təmin etmək, təhqiqat, istintaq və məhkəmə orqanlarının qərarlarını icra etmək, tutulan şəxsi müvafiq orqanlara təhvil verilənədək saxlamaq, fövqəladə və ya hərbi vəziyyət rejimini təmin emək, epidemiya və ya epizootiya zamanı karantin tədbirlərinin həyata keçirilməsində iştirak etmək, kütləvi tədbirlər zamanı ictimai asayişi təmin etmək və s. vəzifələr). Bu kimi vəzifələrin yerinə yetirilməsi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi kimi vacib məsələnin həllindən ötrüdür.

Şübhəsiz, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı müvafiq ictimai münasibətlər yaranır və həmin münasibətlər polis haqqında qanunvericilikdə öz rəsmi ifadəsini tapan müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir. Məhz belə spesifik polis-hüquq normalarının sistemi ictimai təhlükəsizlik hüququ adlanır. Polis haqqında qanunvericilik isə Azərbaycan Respublikasının Konstitusiyasından, «Polis haqqında» Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Beləliklə, **ictimai təhlükəsizlik hüququ** dedikdə polis tərəfindən ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu normalar, hər şeydən əvvəl, hüquq-mühafizə orqanı kimi polisin ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi istiqamətinə yönələn fəaliyyətini nizama salmaq məq-

sədinə xidmət edir. İctimai təhlükəsizlik isə kifayət dərəcədə çoxaspektli anlayış olan təhlükəsizlik növlərindən biridir.

Təhlükəsizliyin təmin olunması müasir dövrün ən aktual problemlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Bu problem son zamanlar nəinki dövlətdaxili (milli), həmçinin transmilli, hətta qlobal xarakter almışdır. Təsadüfi deyildir ki, beynəlxalq birlik daha təkid, israr və inadla təhlükəsizliyin təmin olunması probleminin həlli yollarını axtarır; XX əsrin sonu və XXI əsrin başlanğıcı dünyada təhlükəsizlik probleminə marağın və diqqətin artması ilə müşayiət edilir.

**Təhlükəsizlik** dedikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətə malik olan vacib mənafelərinin daxili və xarici təhlükələrdən müdafiə olunması vəziyyəti başa düşülür. Həyati əhəmiyyətə malik olan vacib mənafelər dedikdə isə ehtiyacların məcmusu anlaşılır ki, onların ödənilməsi şəxsiyyətin, cəmiyyətin və dövlətin mövcud olmasını və inkişafını təmin edir. Təhlükəsizliyin müxtəlif növləri mövcuddur: fiziki (şəxsi) təhlükəsizlik, dövlət təhlükəsizliyi, iqtisadi təhlükəsizlik, ekoloji təhlükəsizlik, maliyyə təhlükəsizliyi, ərzaq təhlükəsizliyi, mədəni təhlükəsizlik, yol hərəkəti təhlükəsizliyi, yanğın təhlükəsizliyi, texniki təhlükəsizlik və s.[1] Təhlükəsizliyin çoxsaylı növlərindən biri də məhz ictimai təhlükəsizlik sayılır.

Təhlükəsizliyin bütün növləri (aspektləri) insan təhlükəsizliyinin təmin olunması məqsədinə xidmət edir. Axı, insanın və onun həyatının (hüquq və azadlıqlarının) digər dəyərlər üzərində prioritetə malik olması konsepsiyası mövcuddur. Məhz bu konsepsiyaya görə, sözün geniş və əsl mənasında, təhlükəsizliyin bütün növləri insan təhlükəsizliyinin təmin olunması, eləcə də insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçündür.

[1] *Həyat fəaliyyəti təhlükəsizliyi, onun struktur səviyyələri, növləri və sistemi barədə ətraflı bax: məsələn,* Безопасность жизнедеятельности. Учебник / Под ред. Л.А.Михайлова. СПб., 2012, 461 с.; Безопасность жизнедеятельности. Учебник / Отв. ред. А.А.Бирюков, В.К.Кузнецов. М, 2014, 400 с.

«BMT-nin İnkişaf Proqramı» adlı sənəddə (1994-cü il) insan təhlükəsizliyi konsepsiyasının əsas müddəaları formulə edilmişdir. Bu sənəddə çoxaspektli anlayış olan təhlükəsizliyin əsas növləri (aspektləri) sadalanır ki, ictimai təhlükəsizlik də onlardan biridir.[1]

İctimai təhlükəsizlik hüququna daxil olan hüquq normalarının əsas funksiyası, hər şeydən əvvəl, icitami təhlükəsizliyin təmin edilməsi kimi vacib məsələni tənzimləməkdən ibarətdir. Lakin ictimai təhlükəsizlik-hüquq normalarının yerinə yetirdiyi əsas funksiya təkcə bununla məhdudlaşmır; həmin normalar həm də ictimai qaydanın qorunması kimi vacib funksiyanı həyata keçirir. Deməli, ictimai təhlükəsizlik-hüquq normaları vasitəsi ilə iki əsas məsələnin hüquqi tənzimlənməsi həyata keçirilir ki, bu məsələlərdən biri də ictimai təhlükəsizliyin təmin olunması, digəri isə ictimai qaydanın qorunmasıdır.[2] Bu kimi iki mühüm məsələni tənzimlədiyinə görə ictimai təhlükəsizlik hüququ polis hüququnun böyük əhəmiyyətə malik olan tərkib hissəsi kimi tanınır.

### 7.1.2. İctimai təhlükəsizlik hüququnun nizamasalma predmeti

Bildiyimiz kimi, hər bir hüquqi qurumun özünün ayrıca nizamasalma predmeti vardır. Bu sözləri ictimai təhlükəsizlik hüququ haqqında da söyləmək olar. Hüquqi qurumun nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, hüquq nəzəriyyəsindən bəlli olduğu kimi, ayrı-ayrı hüquq sahələri, hüquq sa-

---

[1] Современные проблемы и стратегия борьбы с преступностью / Науч. ред. В.Н. Бурлаков, Б.В. Волженкин. СПб. М., 2005, с.215. //URL: http//www. lawlibrary.ru

[2] İctimai qayda və ictimai təhlükəsizlik anlayışları beynəlxalq-hüquqi sənədlərdə də işlədilir. *Bu barədə bax: məsələn,* BMT Baş Assambleyasının 17.12.1979-cu il tarixli 34/169 saylı qətnaməsi // Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı / Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı, 2009, s.118-130.

hələrinin yarımsahələri və yarımsahələrin ibarət olduğu hüquq institutları hüquqi qurum hesab edilir. Deməli, hüquqi qurum dedikdə müstəqil hüquq sahələri, yarımsahələr və institutlar başa düşülür. Şübhəsiz, həm müstəqil hüquq sahəsi, həm hüquq sahəsinin yarımsahəsi, həm də yarımsahənin hüquq institutları özünəməxsus nizamasalma predmetinə malikdir. Məsələn, müstəqil hüquq sahələrindən biri olan mülki hüququn nizamasalma predmetini əmlak və şəxsi qeyri-əmlak münasibətləri təşkil edir; müstəqil hüquq sahəsi kimi tanınan cinayət hüququnun nizamasalma predmeti cinayət münasibətlərindən ibarətdir ki, həmin münasibətlər də ictimai təhlükəli kriminal əməlin baş verməsi ilə cinayət törədən şəxs və dövlət arasında əmələ gəlir; maliyyə hüququnun yarımsahələrindən biri olan büdcə hüququnun nizamasalma predmetini büdcə münasibətləri təşkil edir; inzibati hüququn yarımsahəsi kimi tanınan polis hüququnun nizamasalma predmeti polis fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan münasibətlərdən ibarətdir; mülki hüquq sahəsinin əşya hüququ adlı yarımsahəsinin institutlarından biri olan mülkiyyət hüququnun nizamasalma predmetini mülkiyyət münasibətləri təşkil edir və s. Bəs, ictimai təhlükəsizlik hüququnun nizamasalma predmeti nədən ibarətdir?

İctimai təhlükəsizlik hüququnun **nizamasalma predmeti** dedikdə onunla tənzimlənən konkret ictimai münasibətlər qrupu başa düşülür. Deməli, ictimai təhlükəsizlik hüququ ilə hansı növ ictimai münasibətlər tənzimlənirsə, o münasibətlər də ictimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edir. Buna görə də, ictimai təhlükəsizlik hüququnun nizamasalma predmeti belə bir suala cavab verir: ictimai təhlükəsizlik hüququ hansı növ ictimai münasibətləri tənzimləyir?

Məlum olduğu kimi, Azərbaycan Respublikasında icra hakimiyyətinin həyata keçirilməsində iştirak edən və vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanı kimi tanınan polis çoxşaxəli fəaliyyət göstərir. Belə ki, polis öz fəaliyyətini müxtəlif sahələrdə həyata keçirir: insanların ən dəyərli neməti olan

həyat və sağlamlığın qorunması sahəsində, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində, mülkiyyətin qorunması sahəsində, fiziki və hüquqi şəxslərin və dövlətin qanuni mənafelərinin qorunması sahəsində və s. Polis fəaliyyətinin həyata keçirildiyi sahələrdən biri ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsidir. Təbii ki, bu sahədə polis fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlər ictimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edir. Deməli, polis hüququnun tərkib hissələrindən biri olan ictimai təhlükəsizlik hüququnun nizamasalma predmeti **ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlərdən** ibarətdir. Bu münasibətlər polis hüququnun öz nizamasalma predmetinə daxil olan və aid edilən ictimai münasibətlərin bir növüdür.[1] Məhz bu münasibətlərin yaranması və mövcud olması sayəsində polis hüququnun tərkibində «ictimai təhlükəsizlik hüququ» kimi ayrıca hüquqi qurum fərqləndirilir.

İctimai təhlükəsizlik hüququnun nizamasalma predmetinə hansı növ ictimai münasibətlərin daxil olmasını həm də ictimai təhlükəsizlik hüququna verdiyimiz elmi (doktrinal) anlayış əsasında müəyyənləşdirə bilərik. Həmin anlayışdan aydın olur ki, ictimai təhlükəsizlik hüququ ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzim edir; həmin münasibətlər də ictimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edir.

İctimai təhlükəsizlik hüququnun nizamasalma predmeti **iki elementdən** (komponentdən) ibarətdir:

– ictimai qaydanın qorunması;
– ictimai təhlükəsizliyin təmin olunması.

---

[1] Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.120.

İctimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər göstərilən elementlərə uyğun olaraq iki növə bölünür ki, həmin növlərdən biri ictimai qaydanın qorunması, digəri isə ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı münasibətlərdir. Lakin PQ-də nə ictimai qaydanın qorunması, nə də ictimai təhlükəsizliyin təmin edilməsi sualına konkret cavab verilir. Odur ki, həmin məsələlərin mahiyyətinə polis hüquq elmi (doktrina) tərəfindən aydınlıq gətirilməlidir. Bu, polis hüquq elminin, eləcə də polis hüququ üzrə mütəxəssis alimlərin və polis fəaliyyəti ilə məşğul olan praktik işçilərin üzərinə düşən vəzifələrdən biri hesab edilir.

### 7.1.3. Polis hüquq sistemində ictimai təhlükəsizlik hüququnun yeri

İctimai təhlükəsizlik hüququ polis hüququnun ayrılmaz tərkib hissələrindən (struktur elementlərindən) biridir. Bəs, tərkib hissəsi kimi ictimai təhlükəsizlik hüququ hansı «statusla» polis hüququnun strukturuna daxil olur?

Bildiyimiz kimi, polis hüququ inzibati hüququn yarımsahələrindən biridir. İstənilən yarımsahə, o cümlədən polis hüququ ayrı-ayrı hüquq institutlarından ibarətdir. Polis hüququnun ibarət olduğu hüquq institutlarından biri məhz ictimai təhlükəsizlik hüququ adlanır. Polis hüququnun tərkibində ictimai təhlükəsizlik hüququnun institut kimi fərqləndirilməsini nə ilə izah etmək olar?

Qeyd etməliyik ki, polis hüququnun tərkibində ictimai təhlükəsizlik hüququ kimi hüquq institutunun ayrılması üçün kifayət qədər yetərli, lazımi və tələb olunan əsaslar mövcuddur. Hər şeydən əvvəl qeyd etməliyik ki, hər bir hüquqi qurumun özünəməxsus nizamasalma predmeti olmalıdır. Məhz **özünəməxsus nizamasalma predmetinə malik olması** istənilən hüquq sahəsinin, yarımsahənin və hüquq institutunun ayrılmasını şərtləndirən əsas meyar hesab edilir. İctimai təhlükəsizlik hüququ tələb olunan bu meyara cavab verdiyinə görə polis

hüququnun institutu hesab edilir. Bir daha təkrar edərək göstəririk ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı münasibətlər ictimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edir. Unutmaq olmaz ki, hüquq nəzəriyyəsindən məlum olduğu kimi, hüquq institutu bu və ya digər hüquq sahəsinin nizamasalma predmetini təşkil edən müəyyən növ ictimai münasibətlərin yalnız eynicins qrupunu tənzimləyir; ictimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edən münasibətlər polis hüququ ilə tənzimlənən ictimai münasibətlərin yalnız müəyyən hissəsi olub, onların bir növü sayılır.

Digər tərəfdən, hüquq sahəsinin bu və ya digər yarımsahəsinin tərkibində **qrup halında həmcins hüquq normaları ayrılmalıdır**. Məhz həmin normalar vasitəsi ilə müəyyən növ ictimai münasibətlərin müvafiq hissəsinin hüquqi tənzimlənməsi həyata keçirilir. Polis hüququnun tərkibində belə hüquq normaları qrup halında mövcuddur və həm də kifayət qədərdir. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlər məhz polis hüququnun tərkibində formalaşmış polis-hüquq normaları vasitəsi ilə tənzimlənir. İctimai təhlükəsizlik hüququ bu tələbə də, yəni müvafiq hüquq normalarının kifayət qədər olması kimi meyara da cavab verir. Belə ki, ictimai təhlükəsizlik hüququnun nizamasalma predmetini təşkil edən münasibətləri tənzimləməkdən ötrü zəruri hüquq normalarının sayı müəyyən dərəcədədir. Bu normalar öz rəsmi normativ ifadəsini ayrı-ayrı normativ aktlarda, hər şeydən əvvəl, PQ-də tapmışdır. Həm də qeyd etməliyik ki, cəmiyyətdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlər mühüm əhəmiyyət kəsb edir. Məhz belə münasibətlərin cəmiyyət üçün vacib və aktual olması hüquq institutu kimi ictimai təhlükəsizlik hüququnun ayrılmasını şərtləndirir.

Bunlardan başqa, hər bir hüquq institutunun özünəxas prinsipləri olmalıdır. İctimai təhlükəsizlik hüququ da **özünəməxsus prinsiplərə** malikdir; onlar sahədaxili prinsiplər hesab

edilir. Hüquq elmindən məlum olduğu kimi, bu və ya digər hüquq institutuna xas olan prinsiplər sahədaxili prinsiplər hesab edilir. Məhz sahədaxili prinsiplər sayəsində ictimai təhlükəsizlik hüququ polis hüququnun institutlarından biri kimi tanınır.

İctimai təhlükəsizlik hüququ polis hüququnun institutu kimi həm də ona görə tanınır ki, onun ibarət olduğu hüquq normaları zahirən bu və ya digər mənbə növündə – **polis qanunvericilik aktlarında** ifadə olunur. Söhbət ictimai təhlükəsizlik hüququnun mənbələrindən gedir.

Beləliklə, ictimai təhlükəsizlik hüququ polis hüquq sisteminin **xüsusi hissəsinin** tərkibində **hüquq institutu statusuna** malikdir.

## 7.2. İctimai təhlükəsizlik hüququnun funksiyaları, prinsipləri və mənbələri

### 7.2.1. İctimai təhlükəsizlik hüququnun funksiyaları

Hüquq institutu kimi ictimai təhlükəsizlik hüququnun üzərinə müəyyən vəzifələr düşür. Həmin vəzifələri yerinə yetirmək üçün ictimai təhlükəsizlik hüququ bu və ya digər funksiyanı həyata keçirir. İctimai təhlükəsizlik hüququ öz funksiyalarını həm də ona görə həyata keçirir ki, qarşısında duran məqsədlərə nail ola bilsin.

İctimai təhlükəsizlik hüququnun **funksiyaları** dedikdə onun öz nizamasalma predmetinə daxil olan ictimai münasibətlərə göstərdiyi normativ-hüquqi təsirin əsas istiqamətləri başa düşülür. Onların iki növü fərqləndirilir:

– tənzimləyici funksiya;

– mühafizəedici funksiya.

İctimai təhlükəsizlik hüququnun **tənzimləyici funksiyası** onun öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri hüquqi cəhətdən nizamlamaq və qaydaya salmaq kimi

rolu yerinə yetirməsində ifadə olunur. Doğrudan da, ictimai təhlükəsizlik hüququ ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir. İctimai təhlükəsizlik hüququnun tənzimləyici funksiyasının mahiyyəti də məhz bundan ibarətdir. Əgər ictimai təhlükəsizlik hüququ ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan ictimai münasibətləri tənzimləməzsə, nizamlamazsa, onda, təbii ki, yaşadığımız həyatda və cəmiyyətdə xaos, anarxiya, hərc-mərclik və qarmaqarışıqlıq yaranar və mövcud olardı. Bu isə ictimai təhlükəsizlik hüququnun həyata keçirdiyi tənzimləyici funksiyasının heç də az olmayan əhəmiyyət kəsb etməsini göstərir.

İctimai təhlükəsizlik hüququnun tənzimləyici funksiyası müvafiq münasibətləri hüquqi cəhətdən nizamlamaq və qaydaya salmaqla həyata keçirilir; bu səbəbdən o, **hüquqi tənzimetmə funksiyası** adlanır. Hüquqi tənzimetmə funksiyası ictimai münasibətlərin faktiki cəhətdən nizamlanmasını və qaydaya salınmasını nəzərdə tutur.

İctimai təhlükəsizlik hüququnun **mühafizəedici funksiyası** isə onun öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri hüquqi cəhətdən qorumaq kimi rol oynamasında ifadə edilir. Əgər ictimai təhlükəsizlik hüququ ictimai qaydaya əməl olunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində yaranan ictimai münasibətləri hüquqi cəhətdən qoruyarsa, bu, onun öz mühafizəedici funksiyasını yerinə yetirməsini ifadə edir. Buna görə də, ictimai təhlükəsizlik hüququnun bu funksiyası **qoruyucu funksiya** adlanır.

İctimai təhlükəsizlik hüququnun mühafizəedici funksiyası müvafiq münasibətləri hüquqi cəhətdən qorumaqla yerinə yetirilir. Odur ki, həmin funksiya **hüquqi mühafizəetmə funksiyası** adlanır. Hüquqi mühafizəetmə funksiyası ictimai münasibətlərin faktiki cəhətdən qorunmasını nəzərdə tutur.

Beləliklə, qeyd edə bilərik ki, ictimai təhlükəsizlik hüququ öz vəzifələrini iki əsas funksiya vasitəsilə yerinə yetirir. Bu

funksiyalardan biri hüquqi tənzimetmə, digəri isə hüquqi mühafizəetmə funksiyası sayılır.

### 7.2.2. İctimai təhlükəsizlik hüququnun prinsipləri

Hüququn bu və ya digər sahəsinə aid olan istənilən hüquq institutunun mahiyyəti, eləcə də onun sosial təyinatı, ilk növbədə, həmin institutun yerinə yetirdiyi funksiyalarda ifadə olunur. Bununla yanaşı, hüquq institutunun mahiyyəti və sosial istiqaməti həm də onun prinsiplərində təzahür edir.

Hər bir hüquq institutunun özünəxas prinsipləri mövcuddur. Məsələn, mülkiyyət hüququ mülki hüququn institutlarından biridir ki, bu institut mülkiyyətin toxunuzmazlığı prinsipindən çıxış edir; seçki azadlığı konstitusiya hüququnun seçki hüququ kimi institutunun malik olduğu prinsiplərdən biridir; hüququn müstəqil sahələrindən biri olan cinayət hüququnun cinayət məsuliyyəti institutu məsuliyyətin labüdlüyü kimi vacib prinsip müəyyənləşdirir və s. Sözsüz, polis hüququnun institutlarından biri olan ictimai təhlükəsizlik hüququ da özünəməxsus prinsiplərə malikdir.

İctimai təhlükəsizlik hüququnun **prinsipləri** dedikdə onun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin hüquqi tənzimlənməsində istifadə edilən əsas ideyalar və rəhbər başlanğıclar başa düşülür. Həmin ideya və başlanğıclar ya polis-hüquq normalarında birbaşa formulə olunur, ya da polis-hüquq normalarının mahiyyətindən irəli gəlir. Buna görə də ictimai təhlükəsizlik hüququnun prinsipləri normativ əhəmiyyətə malik olub, hüquqi-tənzimetmə həyata keçirilən zaman rəhbər tutulur; onların polis-hüquq praktikasında tətbiqi və istifadəsi mütləq xarakter daşıyır. Polis fəaliyyətinin subyektləri ictimai təhlükəsizlik hüququnun prinsiplərini məcburi surətdə həyata keçirməlidir.

İctimai təhlükəsizlik hüququ, hər şeydən əvvəl, **ictimai təhlükəsizliyin təmin olunması kimi prinsipdən** çıxış edir. Bu

prinsip, ilk növbədə, polisin üzərinə ictimai təhlükəsizliyi təmin etmək kimi vəzifə qoyan polis-hüquq normasının mahiyyətindən irəli gəlir ki, bu norma PQ-nin 3-cü maddəsinin II hissəsində ifadə edilmişdir. Burada polisin əsas vəzifələri sadalanır ki, bu sıraya həm də ictimai təhlükəsizliyi təmin etmək kimi vəzifə daxildir. İctimai təhlükəsizliyin təmin olunması prinsipi həm də PQ-nin 4-cü maddəsinin II hissəsində ifadə olunan polis-hüquq normasının mahiyyətindən irəli gəlir ki, burada polisin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətləri göstərilir; həyata keçirilən polis fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz ictimai təhlükəsizliyin təmin edilməsidir.

Göründüyü kimi, polis haqqında qanunvericilik həyata keçirilən fəaliyyətin bu istiqamətini prinsip səviyyəsində tanıyır. Həmin prinsipə görə, polis həm də ictimai təhlükəsizliyin təmin olunması istiqamətində fəaliyyət göstərir. İctimai təhlükəsizliyin nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, ictimai təhlükəsizlik ictimai inkişafın dağıdıcı, məhvedici və pozucu meyillərdən müdafiə olunması vəziyyətidir. Bu cəhəti ilə ictimai təhlükəsizlik digər təhlükəsizlik növlərindən (aspektlərindən) fərqlənir: iqtisadi təhlükəsizlik elə bir vəziyyətdir ki, bu vəziyyətdə əsas və ümdə ehtiyacların ödənilməsi üçün kifayət edən gəlirə təminat verilir; ərzaq təhlükəsizliyi ərzaq-qida məhsullarının kifayət qədər olması və əhalinin normal alıcılıq qabiliyyətinə malik olmasıdır; sağlamlıq təhlükəsizliyi insanların xəstələnmə risklərindən müdafiə olunmaq və tibbi xidmətlərdən effektiv istifadə etmək vəziyyətidir; ekoloji təhlükəsizlik ekoloji çirklənmə təhlükəsindən azad və müdafiə olunmaq, sağlamlıq və həyat üçün təhlükəli olmayan şəraitdə yaşamaq vəziyyətidir; şəxsi təhlükəsizlik insanların zorakılıq təhlükəsindən azad olmaq və müdafiə edilmək vəziyyətidir; siyasi təhlükəsizlik əsas insan hüquqlarının tanındığı cəmiyyətdə yaşamaq vəziyyətidir və s. İctimai təhlükəsizlik isə ictimai münasibətlərin elə məcmusudur ki, həmin münasibətlər cəmiyyətin

həyat şəraiti səviyyəsini, onun maddi və qeyri-maddi (mənəvi) nemətlərini təmin edir, tənzimləyir.[1]

İctimai təhlükəsizlik hüququnun barəsində danışdığımız prinsipinə görə, polis hamının və hər kəsin təhlükəsizliyini təmin etməlidir. Hətta hər bir şəxsin təhlükəsizliyinin təmin edilməsi PQ-də polis əməkdaşının üzərinə düşən vəzifə kimi müəyyənləşdirilir (maddə 14). Həmin norma ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis əməkdaşının vəzifələrini təsbit edir; hər bir şəxsin təhlükəsizliyini təmin etmək həmin vəzifələrdən biridir.

İctimai təhlükəsizlik hüququ həm də **ictimai qaydanın qorunması prinsipindən** çıxış edir. Bu prinsip də polis əməkdaşının vəzifələri barədə (PQ, maddə 14) və polis fəaliyyətinin istiqamətləri haqqında (PQ, maddə 4) hüquq normalarının mahiyyətindən irəli gəlir. Həmin prinsipə görə, polis fəaliyyəti vasitəsi ilə ictimai qayda hüquqazidd əməllərdən qorunur. Nəzərdən qaçırmaq olmaz ki, polisin həyata keçirdiyi əsas fəaliyyət istiqamətlərinə həm də ictimai qaydanın qorunması aiddir. Digər tərəfdən, ictimai qaydanı qorumaq polisin üzərinə düşən əsas vəzifələrdən biri hesab edilir ki, bu vəzifə prinsip səviyyəsində tanınır.

İctimai qaydanın qorunması polis tərəfindən profilaktik (qabaqlayıcı) tədbirlərin görülməsini tələb edir. Əlbəttə, əgər polis tərəfindən profilaktik tədbirlər görülərsə, ictimai qayda pozulmaz; polis tərəfindən qabaqlayıcı tədbirlər görülmədiyi hallarda isə ictimai qayda pozulur ki, bu da, öz növbəsində, hüquqi məsuliyyətə səbəb olur. Söhbət, hər şeydən əvvəl, **cinayət-hüquq məsuliyyətindən** gedir ki, cinayət-hüquq məsuliyyəti hüquqi məsuliyyətin bir növüdür. Şəxs o halda cinayət-hüquq məsuliyyətinə cəlb olunur ki, o, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər törətsin. Azərbaycan Respublikasında hal-hazırda qüvvədə olan CM-in X bölməsi belə cinayətlərə görə məsuliyyət nəzərdə tutur. Həmin cinayətlərin iki növü fərqləndirilir:

---

[1] Уголовное право. Учебник /Под ред. В.Ю.Малаховой. М., 2011, с.530.

1) ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər (cəmiyyətin ictimai həyatının istənilən sahəsində törədilən, cəmiyyətin və insanlığın əsas mənafelərinə toxunan əməllər (məsələn, terrorçuluq, adamları girov götürmə, banditizm, cinayətkar birlik yaratma, kütləvi iğtişaş, dəniz quldurluğu və s.);
2) ictimai qayda əleyhinə olan cinayətlər (məsələn, xuliqanlıq).

İctimai təhlükəsizliyin və ictimai qaydanın pozulması həm də **inzibati-hüquqi məsuliyyətə** cəlb olur. Həm cinayət, həm də inzibati-hüquqi məsuliyyətin yaranmaması üçün ictimai təhlükəsizlik hüququnun ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması prinsipləri realizə edilməli, həyata keçirilməlidir.

İctimai təhlükəsizliyin təmin olunması və ictimai qaydanın qorunması prinsipləri bir-biri ilə qarşılıqlı surətdə bağlı və dialektik əlaqədə olan prinsiplərdir; onlar bir-birini tamamlayır və şərtləndirir. Belə ki, ictimai qaydanın qorunması prinsipi ictimai təhlükəsizliyin təmin olunması prinsipinin həyata keçirilməsində böyük rol oynayır. Digər tərəfdən, ictimai təhlükəsizliyin təmin olunması prinsipi realizə edilərsə, bu, ictimai qaydanın qorunması prinsipinin həyata keçirilməsini ifadə edir. Həmin prinsiplərin, mahiyyətcə, bir-biri ilə əlaqəli olması özünü həm də bunda göstərir və büruzə verir ki, polis haqqında qanunvericilikdə «ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması» kimi ümumi anlayışdan istifadə edilir. Məsələn, PQ-nin 3-cü maddəsinin II hissəsində məhz «ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək» polisin əsas vəzifələri sırasına aid olunur; PQ-nin 4-cü maddəsinin II hissəsində məhz «ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi» polis fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilir. Buna görə də, deyə bilərik ki, ictimai təhlükəsizlik hüququ ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi kimi **ümumiləşdirilmiş prinsipdən** çıxış edir; ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi

prinsipləri isə, əslində, həmin prinsiplərin ayrı-ayrı iki təzahür formalarıdır.

İctimai təhlükəsizlik hüququnun digər prinsipləri haqqında da danışmaq olar. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı **qanunazidd hərəkətlərə yol verilməməsi prinsipi** həmin prinsiplərdən biridir. Bu prinsipə görə, ictimai qaydanı qoruyarkən və ictimai təhlükəsizliyi təmin edərkən polis (daha doğrusu – polis əməkdaşı) hüquqazidd əməllərdən çəkinməli, hüquq pozuntusu törətməməlidir; əgər hüquq pozuntusu törədilərsə, bu, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur. Təbii ki, məsuliyyət polisin (polis əməkdaşının) üzərinə düşür.

İctimai təhlükəsizlik hüququ həm də **zərərin əvəzinin ödənilməsi prinsipindən** çıxış edir. Bu prinsipə görə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı əgər polis əməkdaşının qanunazidd hərəkətləri nəticəsində ziyan vurularsa, vurulmuş ziyanın əvəzi ödənilməlidir; zərərin əvəzi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada ödənilir. Əslində, ictimai təhlükəsizlik hüququnun sözügedən prinsipi «zərərin əvəzini ödəmə» kimi ümumi xarakterə malik olan prinsipin ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində təzahür edən formasıdır.

Şübhəsiz, ictimai qaydanı qoruyarkən və ictimai təhlükəsizliyi təmin edərkən polis öz üzərinə düşən vəzifələri icra edir; məhz öz üzərinə düşən vəzifələri icra etməklə polis ictimai qaydanı qoruyur və ictimai təhlükəsizliyi təmin edir. İctimai qaydanı qoruyan zaman və ictimai təhlükəsizliyi təmin edərkən polisin qanunda nəzərdə tutulmayan vəzifələrin icrasına cəlb olunmasına yol verilmir ki, bunu ictimai təhlükəsizlik hüququnun prinsiplərindən biri kimi tanımaq lazımdır. Söhbət **polisin qanunda nəzərdə tutulmayan vəzifələrin icrasına cəlb edilməsinin yolverilməzliyi prinsipindən** gedir. PQ-nin 3-cü maddəsinin III hissəsində deyilir ki, polisi «Polis haqqında» Qanunla

müəyyən edilməmiş vəzifələrin icrasına cəlb etmək qadağandır; polis yalnız «Polis haqqında» Qanunla müəyyən edilmiş vəzifələrin icrasına cəlb oluna bilər. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polisin üzərinə qanunvericiliklə hansı vəzifələrin qoyulmasına gəldikdə, qeyd etməliyik ki, həmin vəzifələr PQ-nin 14-cü maddəsində göstərilmişdir. Həmin maddə məhz ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələrinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Polisin qanunda nəzərdə tutulmayan vəzifələrin icrasına cəlb edilməsinin yolverilməzliyi prinsipi də elə bu maddənin mahiyyətindən irəli gəlir.

Beləliklə, ictimai təhlükəsizlik hüququnun aşağıdakı prinsiplərini fərqləndirmək olar:

- ictimai təhlükəsizliyin təmin olunması prinsipi;
- ictimai qaydanın qorunması prinsipi;
- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı qanunazidd hərəkətlərə yol verilməməsi prinsipi;
- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı vurulmuş zərərin əvəzinin ödənilməsi prinsipi;
- ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polisin qanunda nəzərdə tutulmayan vəzifələrin icrasına cəlb edilməsinin yolverilməzliyi prinsipi.

Sadaladığımız prinsiplər polis hüququnun sahəvi deyil, sahədaxili prinsipləri sayılır. Bu, məlum məsələdir. Nəzərə almaq lazımdır ki, polis hüququnun ayrı-ayrı institutlarına xas olan prinsiplər polis hüququnun sahədaxili prinsipləri kimi tanınır.[1]

---

[1] *Polis hüququnun sahədaxili prinsipləri barədə daha ətraflı*: Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.133.

İctimai təhlükəsizlik hüququ da polis fəaliyyəti sferasında mövcud olan digər hüquq institutları kimi polis hüququnun xüsusi (sahəvi) prinsiplərinə əsaslanır və söykənir; polis məhz həmin prinsiplər əsasında fəaliyyət göstərir. Söhbət insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, qanunçuluq, humanizm, təkbaşçılıq və s. bu kimi prinsiplərdən gedir. Bu prinsiplərin həm də ictimai təhlükəsizlik hüququ üçün əhəmiyyətli olması şəksizdir. Lakin bu prinsiplər sırasında insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, qanunçuluq və humanizm prinsipləri ictimai təhlükəsizlik hüququ üçün daha böyük əhəmiyyətə malikdir. Unutmaq olmaz ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis öz fəaliyyətini həyata keçirərkən həmin prinsipləri rəhbər tutmalıdır. Təsadüfi deyil ki, onlar PQ-nin 4-cü maddəsində «polisin fəaliyyət prinsipləri» kimi adla təsbit edilmişdir.

Sözügedən **humanizm prinsipi** haqqında xüsusilə danışmaq lazımdır. Belə ki, humanizm prinsipi cəmiyyətdə insanların təhlükəsizliyinin təmin olunmasında ifadə olunur. Axı, ictimai təhlükəsizlik hüququ insanların təhlükəsizliyini təmin edən institutdur. Yaddan çıxarmamalıyıq ki, bu institut hər bir şəxsin təhlükəsizliyinin təmin olunmasını dövlət hakimiyyətinin nümayəndəsi kimi çıxış edən və dövlət qulluqçusu olan polis əməkdaşının üzərinə əsas vəzifələrdən biri kimi qoyur; bu vəzifə ictimai qaydanın qorunması və ictimai təhzlükəsizliyin təmin olunması sahəsində polis əməkdaşının daşıdığı vəzifələr sırasına daxildir.

Polis ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyət göstərərkən hər hansı şəxslə insan ləyaqətini alçaldan şəkildə rəftar etməməlidir. Bu isə humanizm prinsipinin ifadə və təzahür formalarından biridir.

Polis hüququnun **insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək kimi prinsipi** də ictimai təhlükəsizlik hüququ üçün əhəmiyyətlidir. Unutmaq olmaz ki, ictimai qaydanın qo-

runması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis fəaliyyəti həyata keçirilən zaman insan və vətəndaş hüquqlarına (azadlıqlarına) hörmət edilməsinə xüsusi diqqət yetirilməlidir.

Polis hüququnun **qanunçuluq prinsipinin** ictimai təhlükəsizlik hüququ üçün əhəmiyyətli olması özünü bunda göstərir ki, ictimai qayda qorunarkən və ictimai təhlükəsizlik təmin olunan zaman polis fəaliyyəti qanun əsasında həyata keçirilməlidir. Bu kimi hallarda qanunun tələblərinə zidd olan hərəkətlərə yol verilməməlidir. Başqa sözlə, polis fəaliyətinin əsas istiqamətlərindən biri olan ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması qanunauyğun həyata keçirilməlidir.

### 7.2.3. İctimai təhlükəsizlik hüququnun mənbələri

Hər bir hüquqi qurumun, yəni hüquq sahəsinin, yarımsahənin, həmçinin hüquq institutunun öz mənbələri vardır; mənbələrsiz hüquqi qurum nə formalaşa, nə də mövcud ola bilər. Bu sözləri, eyni zamanda, polis hüququnun institutlarından biri olan ictimai təhlükəsizlik hüququ barəsində də söyləmək olar. Belə ki, institut kimi ictimai təhlükəsizlik hüququ ayrı-ayrı müxtəlif çoxsaylı hüquq normalarından ibarətdir. Məhz bu normalar vasitəsi ilə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Həmin normalar zahirən müxtəlif formalarda mövcud olur və ifadə edilir. Belə formalar ictimai təhlükəsizlik hüququnun mənbələri adlanır.

İctimai təhlükəsizlik hüququnun **mənbələri** dedikdə onun ibarət olduğu polis-hüquq normalarının zahirən ifadə edilmə və mövcud olma formaları başa düşülür. Başqa sözlə, ictimai təhlükəsizlik hüququna daxil olan polis-hüquq normaları zahirən hansı formalarda ifadə edilə və mövcud ola bilərsə, həmin formalar ictimai təhlükəsizlik hüququnun mənbələri sayılır. Söhbət, ilk növbədə, **normativ hüquqi akt** kimi formadan

gedir. Normativ hüquqi aktlar polis hüququnun, eləcə də onun institutlarından biri olan ictimai təhlükəsizlik hüququnun əsas və başlıca mənbə növü hesab edilir. **Qanunlar** normativ hüquqi aktlar arasında mühüm və vacib yer tutur. Deməli, ictimai təhlükəsizlik hüququnun əsas mənbə növü qanunlardır.

Qanunlar içərisində **Azərbaycan Respublikasının Konstitusiyasının** adı birinci çəkilməlidir. Bu isə təsadüfi xarakter daşımır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası ictimai təhlükəsizlik hüququnun normativ əsası və bazası hesab edilir. Nəzərdən qaçırmaq olmaz ki, ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına aid hüquqi aktlar məhz dövlətin əsas qanunu sayılan Konstitusiya əsasında və ona uyğun qəbul edilə bilər. Digər tərəfdən, Konstitusiyada nəzərdə tutulan bir sıra maddə bilavasitə ictimai təhlükəsizliyin təmin olunması və ictimai qaydanın qorunması məsələləri ilə bağlıdır. Məsələn, Konstitusiyanın 29-cu maddəsi şəxslərin mülkiyyət hüququnu təsbit edir. Burada göstərilir ki, mülkiyyət hüququ qanunla qorunur, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz; əmlakın tam müsadirəsinə yol verilmir; dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləş-dirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. Söhbət hüquqi və fiziki şəxslərin mülkiyyətinin Konstitusiya səviyyəsində qorunmasından gedir. Hüquqi və fiziki şəxslərin mülkiyyətinin hüquqazidd əməllərdən qorunması isə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması ilə bilavasitə əlaqəli olan məsələdir.

Eyni zamanda Konstitusiyanın 31-ci maddəsi haqqında da danışmaq lazımdır. Şübhəsiz, bu maddə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. Burada deyilir ki, təhlükəsiz yaşamaq hüququna malik olan şəxslərin həyatına, sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, onlara qarşı zor işlətmək qadağandır. Konstitusiyanın aşağıdakı digər maddələ-

rinin də ictimai təhlükəsizlik hüququ üçün əhəmiyyətli olması şəksizdir: bərabərlik hüququ (maddə 25), insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi (maddə 26), yaşamaq hüququ (maddə 27), azadlıq hüququ (maddə 28), şəxsi toxunulmazlıq hüququ (maddə 32), mənzil toxunulmazlığı hüququ (maddə 33) və s.

Həmçinin qeyd etmək lazımdır ki, Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə görə, insan (vətəndaş) hüquq və azadlıqlarının, eləcə də layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi sayılır. Dövlətin öz ali məqsədinə nail olması isə ictimai təhlükəsizlik hüququnun öz funksiyasını necə yerinə yetirməsindən bilavasitə asılıdır. Belə ki, ölkədə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi işi lazımi səviyyədə olarsa, təbii ki, dövlətin öz ali məqsədinə çatması çətin məsələyə çevrilməz.

Qanunlar arasında «**Polis haqqında**» **Azərbaycan Respublikasının Qanunu** da (PQ, 1999-cu il) ictimai təhlükəsizlik hüququ üçün mühüm əhəmiyyətə malikdir; həm də bu Qanun ictimai təhlükəsizlik hüququnun vacib mənbəyi hesab edilir. Nəzərdən qaçırmaq olmaz ki, sözügedən Qanun polis haqqında qanunvericiliyə daxil olan əsas normativ hüquqi aktlardan biri sayılır. PQ-nin müəyyənləşdirdiyi bir sıra hüquq norması ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsinə həsr olunmuşdur. Onun 3-cü maddəsinin II hissəsində nəzərdə tutulan hüquq normaları polisin vəzifələrini müəyyən edir ki, ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək həmin vəzifələrdən biridir.

PQ-nin 4-cü maddəsi də ictimai təhlükəsizlik hüququ üçün mühüm əhəmiyyət kəsb edir; bu maddənin II hissəsində ifadə olunan hüquq norması polisin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirir. Məhz ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması həyata keçirilən polis fəaliyyətinin əsas istiqamətlərindən biridir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar yaranan münasibətlərin hüquqi tənzimlənməsində PQ mühüm rol oynayır. Belə ki, adıçəkilən Qanun ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan münasibətləri hüquqi tənzimetmənin vacib mənbəyi sayılır. Xüsusilə də həmin Qanunun iki maddəsi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsinin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Söhbət PQ-nin 14 və 18-ci maddələrindən gedir: 14-cü maddə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələrini müəyyənləşdirir; 18-ci maddə isə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının malik olduğu hüquqlara aiddir. Deməli, PQ ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis əməkdaşının hüquq və vəzifələrini müəyyən edir. Hüquq və vəzifələri müəyyənləşdirmək isə tənzimetmə deməkdir.[1] Odur ki, PQ ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində yaranan münasibətləri hüquqi tənzimləmənin mənbəyidir.

İctimai təhlükəsizlik hüququnun mənbəyi olan qanunlar sırasına həm də **«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu** (ƏFQ, 1999-cu il) aid edilir. Bu Qanun əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi isə həm də bunu tələb edir ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması üçün bütün zəruri qanuni tədbirlər görülməlidir. ƏFQ-nin 6-cı maddəsi əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələrini sadalayır ki, ictimai qayda və ictimai təhlükəsizliyin qorunması üçün bütün qanuni tədbirləri görmək bu vəzifələrdən biridir. Həmin vəzifəyə görə, əməliyyat-axtarış fəaliyyəti subyektləri ictimai qayda və ictimai təhlükəsizliyin qorunması üçün öz səlahiyyət-

---

[1] Иоффе О.С. Избранные труды. М., 2001, с.45.

ləri daxilində bütün qanuni tədbirləri görməlidirlər. Öz səlahiyyətlərini icra edən zaman onlar insanların həyatını, sağlamlığını, əmlakını və qanuni mənafelərini təhlükə altına alan hərəkətlərə yol verməməli, şəxsləri hüquq pozuntuları törədilməsinə təhrik etməməli, zor işlətməkdən, hədələməkdən və şantaj etməkdən çəkinməli, habelə insan hüquqlarını və onların qanunla müdafiə olunan mənafelərini məhdudlaşdıran digər qanunsuz tədbirlərə əl atmamalıdırlar; əməliyyat-axtarış fəaliyyəti subyektləri həmçinin öz səlahiyyətindən kənara çıxan tədbirləri həyata keçirməməlidirlər (ƏFQ, maddə 8). Bunların isə, təbii ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üçün vacib əhəmiyyəti vardır. Deyilənlər kifayət edər ki, ƏFQ ictimai təhlükəsizlik hüququnun mənbəyi kimi sayılsın. Yaddan çıxarmaq olmaz ki, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi müəyyən hallarda ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı olur.

**Məcəllə formasında qəbul olunan qanunlar** da ictimai təhlükəsizlik hüququnun mənbəyi hesab edilir. Belə ki, bu cür qanunlar ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin, eləcə də bu sahədə həyata keçirilən polis fəaliyyətinin hüquqi tənzimlənməsində vacib rol oynayır. Söhbət, hər şeydən əvvəl, **Azərbaycan Respublikasının Mülki Məcəlləsindən** (MM, 1999-cu il) gedir. Unutmamalıyıq ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsiziyin təmin olunması ilə bağlı bir sıra məsələ məhz MM əsasında həll edilir. Məsələn, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üçün tələb edilir ki, müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə, yaxud qanuni sahiblərinə təhvil verilənədək polis əməkdaşı sahibsiz əmlakın, dəfinənin və tapılmış əmlakın saxlanılmasını və mühafizəsini təmin etməlidir. Sahibsiz əmlakın, dəfinənin və tapıntının nə demək olduğu sualına isə MM-də cavab verilir.[1] Belə ki, onun

---

[1] *Bu barədə ətraflı bax: məsələn,* Allahverdiyev C.C. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II nəşr. II cild. Bakı, 2009, s.66.

184-cü maddəsi sahibsiz əmlaka, 186-cı maddəsi tapıntının və 187-ci maddəsi dəfinənin hüquqi rejiminin müəyyənləşdirilməsinə həsr olunmuşdur.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üçün həm də hüquqi və fiziki şəxslərin mülkiyyəti (əmlakı) hüquqazidd əməllərdən qorunmalıdır; mülkiyyətin qorunması isə MM ilə tənzimlənir. Bundan başqa, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması istiqamətində polis fəaliyyəti həyata keçirilən zaman zərər vurula bilər. Belə hallarda delikt-hüquq münasibəti yaranır ki, həmin münasibətə görə, vurulmuş zərərin əvəzi ödənilməlidir. Bu kimi məsələlər isə sözügedən Məcəllə ilə tənzimlənir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən polis fəaliyyətinin tənzimlənməsində həm də **Azərbaycan Respublikasının Cinayət Məcəlləsi** (CM, 1999-cu il) vacib rol oynayır. Odur ki, onu ictimai təhlükəsizlik hüququnun mənbəyi kimi tanısaq, yanılmarıq. Məsələ burasındadır ki, CM vasitəsi ilə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin cinayət-hüquqi tənzimlənməsi həyata keçirilir. Belə ki, ayrı-ayrı şəxslərin əməlləri ilə ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə cinayətlər törədilə bilər. Həmin cinayətlərə görə məsuliyyət məsələsi göstərilən Məcəllə əsasında həll olunur.

CM-in X bölməsi ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərə (məsələn, terrorçuluq, adamları girov götürmə, banditizm, dəniz quldurluğu, kütləvi iğtişaş, xuliqanlıq, özbaşına tikinti işləri aparma, qanunsuz olaraq silah hazırlama və s.) görə məsuliyyət nəzərdə tutur.

İctimai qayda və ictimai təhlükəsizlik əleyhinə nəinki cinayətlər, həmçinin inzibati xətalar da törədilə bilər. İnzibati xətalara görə isə təqsirkar şəxs inzibati-hüquq məsuliyyətinə cəlb olunur. Belə ki, ictimai qayda və ictimai təhlükəsizlik əleyhinə törədilən inzibati xətalara görə **Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin** (İXM, 2015-ci il) XXXVIII

fəsli (maddə 510-525) inzibati məsuliyyət nəzərdə tutur. Bu o deməkdir ki, İXM də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin tənzimlənməsində vacib rol oynayır. Bu səbəbdən onu ictimai təhlükəsizlik hüququnun mənbəyi hesab edirik. Nəzərə almaq lazımdır ki, İXM ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən polis fəaliyyətini tənzimləyən qanunlardan biridir. Təsadüfi deyil ki, MM və CM ilə yanaşı, İXM də polis hüququnun mənbəyi kimi tanınır.[1] Bu məcəlləşdirilmiş aktlar ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin tənzimlənməsində mühüm yer tutur; MM ilə həmin münasibətlərin mülki-hüquqi tənzimlənməsi, CM ilə cinayət-hüquqi nizamlanması, İXM ilə isə inzibati-hüquqi qaydaya salınması həyata keçirilir.

Kütləvi tədbirlər zamanı ictimai asayiş təmin olunmalıdır. PQ-nin 14-cü maddəsinin 7-ci bəndinə görə, bu, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının daşıdığı vəzifələrdən biri hesab edilir. Kütləvi tədbirlər, adətən, toplantıların (yığıncaq, mitinq, nümayiş, piket və s. tədbirlərin) keçirilməsi ilə bağlı olur. Toplantıların keçirilməsi isə **«Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu** ilə (1998-ci il) tənzimlənir. Buna görə göstərilən Qanun da ictimai təhlükəsizlik hüququnun mənbəyi sayılır.

PQ-nin 14-cü maddəsinə görə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri sırasına həm də bu daxildir ki, polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda qeydiyyat və uçot işlərini aparmalıdır. Söhbət şəxslərin (Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) Azərbaycan Respublikasında yaşayış yeri və olduğu yer üzrə qeydiyyata

[1] Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s. 221.

alınmasından gedir. Şəxsin qeydiyyata alınması ilə bağlı məsələlər **«Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu** (1996-cı il) ilə tənzimlənir ki, həmin Qanun ictimai təhlükəsizlik hüququnun mənbəyi hesab olunur. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmaq üçün şəxs bu Qanunda göstərilən sənədləri qeydiyyat orqanına təqdim etməlidir; həmin Qanunda göstərilənlərdən başqa sənədlərin tələb edilməsinə yol verilmir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin tənzimlənməsində həm də **qanunqüvvəli aktlar** vacib yer tutur ki, onlar normativ hüquqi aktların digər növü sayılır. Qanunqüvvəli aktlara, ilk növbədə, **Azərbaycan Respublikası Prezidentinin fərmanları** aiddir. Əgər Azərbaycan Respublikası Prezidenti ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis fəaliyyətinin təşkili barədə fərman qəbul edərsə, əlbəttə, bu, ictimai təhlükəsizlik hüququnun mənbəyi olacaqdır. Məsələn, «**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə**» onlardan biridir ki, bu normativ hüquqi akt Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Əsasnamə Nazirliyi ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, habelə cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunla müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı hesab edir.[1] Burada Nazirliyin yerinə yetirdiyi funksiyalar müəyyən olunur ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkili həmin funksiyalardan biridir. Əsasnamə həm də Nazirliyin üzərinə belə bir vəzifə qoyur ki, o, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması məqsədilə daxili işlər orqanlarının fəaliyyətlərini müəyyənləşdirməlidir. Əsasnamədə həmçinin müəyyən olunur ki, ictimai qaydanın və ictimai

[1] Əsasnamənin mətni verilmişdir: Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı. I cild. Bakı, DİN, 2011, s.3-13.

təhlükəsizliyin təmin edilməsi sahəsində Nazirlik qanunda nəzərdə tutulmuş müvafiq hüquqları həyata keçirə bilər.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 02 mart tarixli 813 nömrəli Fərmanı ilə qəbul edilmiş «**İctimai asayişin qorunmasında vətəndaşların iştirakı Qaydası**» da ictimai təhlükəsizlik hüququnun mənbəyi sayılır.[1] Burada vətəndaşların ictimai asayişin qorunmasında iştirakı, habelə polis orqanları tərəfindən könüllülük əsasında ictimai asayişin təmin olunması işinə cəlb edilməsi qaydaları müəyyən edilir, polis orqanları ilə əməkdaşlığı, belə əməkdaşlığın xüsusiyyətləri və s. məsələlər tənzimlənir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə təsdiq edilmiş «Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları» (2002-ci il), «Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları» (2002-ci il), «Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları» (2002-ci il), «Xidməti silahın xidməti vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar tətbiq edilməsi Qaydaları» (2002-ci il) və s. **aktlar**[2] ictimai təhlükəsizlik hüququnun mənbəyidir.

Qanunqüvvəli aktlara **Nazirlər Kabinetinin qərarları** da aiddir. Əgər belə qərarlar ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkilinin nizamlanmasına həsr olunarsa, onlar ictimai təhlükəsizlik hüququnun mənbəyidir. Məsələn, NK-nın 07.02.2008-ci il tarixli 32 nömrəli qərarı ilə «Dövlət orqanları tərəfindən mühafizə olunan obyektlərin Siyahısı» təsdiq olunmuşdur ki, həmin akt ictimai təhlükəsizlik hüququnun mənbəyidir.[3]

---

[1] *Qaydanın mətni üçün bax:* AR QT. Bakı, 2016, № 3, maddə 434, s. 900-902.

[2] Göstərilən qaydaların mətni verilmişdir: Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013, s.235-259.

[3] *Bax:* Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013, s. 417.

Qanunvericilik sisteminə həm də **mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları** aiddir. Söhbət, hər şeydən əvvəl, mərkəzi icra hakimiyyəti orqanlarından biri olan **Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarından** gedir. Bildiyimiz kimi, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işini təşkil etmək bu orqanın yerinə yetirdiyi funksiyalardan biridir. Bu funksiyanın həyata keçirilməsi üçün Nazirlik öz səlahiyyətləri çərçivəsində müvafiq normativ hüquqi aktlar qəbul edə bilər. Belə aktlar ictimai təhlükəsizlik hüququnun mənbəyi kimi çıxış edir.

DİN-in normativ hüquqi aktları, ilk növbədə, **əsasnamə** formasında qəbul olunur. Əsasnamə, adətən, müəyyən sahələrdə polis orqanlarının hüquqi vəziyyətini müəyyənləşdirmək məqsədi ilə qəbul edilir. Məsələn, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin hüquqi statusunu müəyyənləşdirən müvafiq Əsasnamə DİN-in 03.11.2012-ci il tarixli Q53-001-12 nömrəli qərarı ilə qəbul olunmuşdur.

**Təlimat və inzibati reqlament** DİN tərəfindən qəbul edilən normativ hüquqi aktların formalarından biridir. Əgər bu cür normativ hüquqi akt ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına aid hüquq normalarını müəyyənləşdirərsə, o, ictimai təhlükəsizlik hüququnun mənbəyi sayılır. Məsələn, DİN-in 25.06.2009-cu il tarixli 358 nömrəli əmri ilə təsdiq edilmiş «Polis sahə məntəqəsi haqqında» Təlimat buna misal ola bilər və həmin aktda ictimai təhlükəsizliyin təmin edilməsinə aid hüquq normaları ehtiva olunur; həmçinin DİN-in Kollegiyasının 30.11.2012-ci il tarixli Q68-001-12 nömrəli qərarı ilə təsdiq edilmiş «Ümumvətəndaş pasportunun dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə» İnzibati Reqlament ictimai təhlükəsizlik hüququnun mənbəyidir və s.

DİN-in normativ hüquqi aktları **qayda və ya nizamnamə formasında** da qəbul edilə bilər. Biz onları polis hüququnun

mənbəyi kimi tanıyır və qəbul edirik.[1] Deməli, qayda və ya nizamnamə polis hüququnun institutlarından biri olan ictimai təhlükəsizlik hüququnun da mənbəyi ola bilər. Belə ki, ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına aid normativ hüquqi aktın həm qayda, həm də nizamnamə formasında qəbul edilməsi mümkündür. Məsələn, DİN-in 06.11.2001-ci il tarixli 428 nömrəli əmri ilə «Polis orqanlarının müvəqqəti saxlama təcridxanalarında daxili nizam Qaydaları» qəbul olunmuşdur; həmçinin DİN-in 30.05.2001-ci il tarixli 212 nömrəli əmri ilə «Polisin post-patrul xidmətinin Nizamnaməsi» təsdiq edilmişdir ki, bu aktlar, əlbəttə, ictimai təhlükəsizlik hüququnun mənbəyi qismində çıxış edir.

İctimai təhlükəsizlik hüququnun mənbəyinə daxil olan **«Polisin post-patrul xidmətinin Nizamnaməsi»** kimi normativ xarakterli hüquqi akt haqqında xüsusilə danışmaq lazımdır. Bu, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində qəbul olunan hüquqi sənədlərdən biridir.[2] Normativ əhəmiyyətə malik olan bu Nizamnamə polisin post-patrul xidmətinin vəzifələrini, təşkil olunma və xidmət etmə qaydalarını, habelə xidmətin idarə olunması ilə bağlı vəzifəli şəxslərin, eləcə də naryadların vəzifə və hüquqlarını müəyyən edir. XI fəsildən ibarət olan sözügedən Nizamnamə ayrı-ayrı müxtəlif məsələləri tənzimləyir: ümumi müddəalar (I fəsil), post-patrul xidmətinə rəhbərlik edən vəzifəli şəxslər və onların vəzifələri (II fəsil), hissə və naryadların idarə olunmasının əsasları (III fəsil), post-patrul xidmətinin vahid dislokasiya üzrə tərkibi (IV fəsil), polis naryadlarının vəzifələri (V fəsil), polis naryadlarının hüquqları (VI fəsil), post-patrul xidmətinin aparılması (VII fəsil), fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi (VIII fəsil), kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin edilməsi (IX fəsil), xüsusi şəraitdə polis xidməti (X fəsil), müqaviləyə

[1] Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.222-223.

[2] *«Polisin post-patrul xidmətinin Nizamnaməsi»nin tam mətni ilə tanış olmaq üçün bax:* Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı. II cild. Bakı, 2011, s.51-172.

əsasən obyektlərin mühafizəsini təmin edən polis orqanlarının xidməti (XI fəsil).

**Lokal xarakterli normativ aktlar** da mövcuddur ki, bu növ aktlar polis hüququnun mənbəyidir. Belə aktlar həm də polis hüququnun institutlarından biri sayılan ictimai təhlükəsizlik hüququnun mənbəyi hesab edilir. Məsələn, «Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında» Əsasnamə [1] lokal xarakterli normativ aktlardan biridir. Həmin Əsasnamə DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir. Burada polis orqanının funksiyaları sadalanır ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması həmin funksiyalardan biridir. Belə ki, polis orqanı həm də ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması funksiyasını həyata keçirir. Əsasnamədə müəyyən edilir ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis orqanı hansı vəzifələri daşıyır. Burada həmçinin göstərilir ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis orqanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək hüququna malikdir.

Lokal xarakterli aktlara həm də yerli orqanların (yerli özünüidarə, yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasına dair normativ xarakterli qərarları aiddir.

İctimai təhlükəsizlik hüququnun mənbəyi qismində həm də **beynəlxalq polis müqavilələri** çıxış edə bilər. Belə ki, əgər beynəlxalq müqavilələrin predmeti ictimai qaydanın qorunmasından və ictimai təhlükəsizliyin təmin olunmasından ibarət olarsa, onlar ictimai təhlükəsizlik hüququnun mənbəyi kimi tanınır. Belə müqavilələr ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən beynəlxalq dövlətlərarası əməkdaşlığı tənzimləyir.

---

[1] *Əsasnamənin mətni ilə tanış olmaq üçün bax:* Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı. I cild. Bakı, DİN, 2011, s. 21-27.

Nəzərdən qaçırmaq olmaz ki, PQ-nin 2-ci maddəsi polis qanunvericiliyinə daxil olan normativ hüquqi aktları sadalayır; Azərbaycan Respublikasının tərəfdar çıxdığı, qoşulduğu və ya imzaladığı beynəlxalq müqavilələr həmin aktlardan biridir. Buna misal olaraq, Azərbaycan Respublikası və Küveyt arasında bağlanmış hökumətlərarası Sazişi göstərmək olar. Bu Saziş təhlükəsizlik və cinayətkarlıqla mübarizə haqqındadır. 2013-cü il fevralın 14-də Bakı şəhərində imzalanmış həmin Saziş müxtəlif sahələrdə Azərbaycan Respublikasının və Küveytin əməkdaşlıq etmələrini nəzərdə tutur; ictimai asayişin təmin olunmasının və bərpa edilməsinin üsul və vasitələrinin təkmilləşdirilməsi, eləcə də böhran vəziyyətinin müəyyən edilməsi həmin sahələrdən biridir. Sazişdə göstərilir ki, tərəflər ictimai asayişin təmin olunması ilə bağlı digər sahələrdə də əməkdaşlıq edə bilərlər.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarlarını** biz, polis hüququnun mənbəyi kimi tanımırıq və qəbul etmirik. Odur ki, belə qərarlar polis hüququnun institutlarından biri olan ictimai təhlükəsizlik hüququnun da mənbəyi ola bilməz. Məsələ burasındadır ki, Azərbaycan Respublikasının Ali Məhkəməsi qanunvericilik hakimiyyətini həyata keçirən orqan (qanunverici orqan) deyildir. Bu səbəbdən onun hüquq normaları müəyyənləşdirmək və yaratmaq (qanun yaratmaq) səlahiyyəti yoxdur. Odur ki, Ali Məhkəmənin Plenum qərarları nə hüququn, nə polis hüququnun, nə də ictimai təhlükəsizlik hüququnun mənbəyi kimi tanına bilər. Lakin belə qərarlar ictimai təhlükəsizlik hüququ üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, Ali Məhkəmənin Plenum qərarları ictimai təhlükəsizlik hüququnun mənbəyi olmasa da, onlar ictimai təhlükəsizlik hüququna aid olan məsələlərin məzmununa aydınlıq gətirir, ictimai təhlükəsizlik hüququnun ibarət olduğu hüquq normalarını təfsir edir və ayrı-ayrı terminlərə anlayış verir. Məsələn, «Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 nömrəli qərarında ictimai qaydaya

anlayış verilir; icimai qayda isə ictimai təhlükəsizlik hüququnun əsas anlayışlarından biridir.[1]

Alim və hüquqşünasların elmi (doktrinal) fikirləri nə qədər əhəmiyyətli olsa da, biz hüquq elmini (doktrinanı) nə polis hüququnun, nə də ictimai təhlükəsizlik hüququnun mənbəyi kimi qəbul edirik. Belə ki, alimlərin elmi fikirləri subyektiv xarakter daşımaqla məcburi qüvvəyə malik deyil və onlar hüquq normaları müəyyənləşdirmir. Lakin, buna baxmayaraq, ictimai təhzlükəsizlik hüququna aid bəzi məsələlərə anlayış məhz alimlər tərəfindən verilir. Axı, polis haqqında qanunvericilik bütün anlayışların normativ (leqal) tərifini vermir. Bu, hüquq elminin (doktrinanın) üzərinə düşən vəzifə hesab edilir. Məsələn, ictimai təhlükəsizlik hüququ «ictimai təhlükəsizlik nədir?» sualına cavab vermir. Başqa sözlə, ictimai təhlükəsizlik hüququ özünün əsas anlayışlarından biri olan ictimai təhlükəsizliyə qanunvericilik səviyyəsində, normativ (leqal) tərif vermir; bu iş məhz hüquq elmi (doktrina) tərəfindən görülmüşdür. Belə ki, hüquq ədəbiyyatı səhifələrində alimlər tərəfindən ictimai təhlükəsizliyə elmi (doktrinal) anlayış verilməsinə rast gəlirik; ictimai təhlükəsizlik hüququnun anlayışını da məhz alimlər vermişlər və s.

Beləliklə, qeyd edə bilərik ki, polis hüququnun mənbələri elə bütövlükdə onun institutlarından biri olan ictimai təhlükəsizlik hüququnun mənbələrini əhatə edir.

## 7.3. İctimai təhlükəsizlik hüququnun subyektləri

### 7.3.1. İctimai təhlükəsizlik hüququnun subyektləri anlayışı

İctimai təhlükəsizlik hüququnun subyektləri ilə bağlı məsələyə toxunarkən, hər şeydən əvvəl, hüquq subyektlərinə verilən doktrinal anlayışla tanış olmağa təşəbbüs göstərək. Hüquq nəzəriyyəsində hüququn subyektləri dedikdə «hüquq subyekt-

---

[1] *Qərar barədə bax:* Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013, s.1002.

liyi» kimi xüsusi hüquqi əlamətə malik olan şəxslər və ya təşkilatlar başa düşülür ki, bu əlamət onlara başqa şəxslər və təşkilatlarla birlikdə müxtəlif hüquq münasibətlərində iştirak etmək imkanı verir.[1] Müəlliflərdən S.S.Alekseyev qeyd edir ki, hüququn subyekti hüquq subyektliyinə malik olan, yəni hüquq münasibətinin potensial iştirakçısı olmaq qabiliyyətli şəxsdir.[2] Hüquq subyektliyi isə «hüquq qabiliyyəti» kimi anlayış vasitəsi ilə açıqlanır. Hüquq qabiliyyəti şəxslərin müvafiq hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanıdır; əgər hər hansı şəxs hüquqlara malik olmaq və vəzifələr daşımaq qabiliyyətli olarsa, o, hüququn subyekti hesab edilir.

İctimai təhlükəsizlik hüququnun subyektinə gəldikdə isə, qeyd etməliyik ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması kimi polis fəaliyyəti sahəsində müvafiq hüquqlara malik olan və vəzifələr daşıyan istənilən şəxs ictimai təhlükəsizlik hüququnun subyektidir. Başqa sözlə, hansı şəxs ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması kimi polis fəaliyyəti sahəsində hüquqlara malik ola və vəzifələr daşıya bilərsə, o, ictimai təhlükəsizlik hüququnun subyekti hesab edilir.

Beləliklə, ictimai təhlükəsizlik hüququnun **subyektləri** dedikdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması kimi polis fəaliyyəti sahəsində yaranan münasibətlərin potensial (mümkün) iştirakçıları başa düşülür ki, onlar müvafiq hüquqlara malik olub, vəzifələr daşıyırlar. Hüquqlara malik olmaq və vəzifələr daşımaq məhz ondan ötrüdür ki, polis fəaliyyətini həyata keçirən şəxs (qrup) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin iştirakçısı olsunlar. Deməli, ictimai təhlükəsizlik hüququnun subyektləri ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması kimi polis fəaliyyəti sahəsində yaranan münasibətlərin elə mümkün iş-

---

[1] Теория государства и права. Учебник / Под ред. А.С.Пиголкина. М., 2003, гл. XVIII, § 2.

[2] Алексеев С.С. Общая теория права. Том 2. М., 1982, с. 140.

tirakçılarıdır ki, bunun üçün onlar müvafiq hüquqlara malik olmaqla müəyyən vəzifələr daşıyırlar.

İctimai təhlükəsizlik hüququnun subyektləri ictimai təhlükəsizlik hüququnun əsas anlayışlarından biridir. Belə ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis fəaliyyəti lazımi qaydada, necə deyərlər, normal şəkildə həyata keçirilməlidir. Bu işi isə ictimai təhlükəsizlik hüququnun subyektləri görürlər. Başqa sözlə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis fəaliyyəti subyektlər tərəfindən həyata keçirilir; onlar həmin sahədə polis fəaliyyətinin həyata keçirilməsində mühüm rol oynayırlar. İctimai təhlükəsizlik hüququnun subyektlərinin əhəmiyyəti də məhz bundan ibarətdir.

İctimai təhlükəsizlik hüququ subyektlərinin **hüquqi statusu** eyni deyildir. Belə ki, onlar müxtəlif hüquqi statusa malikdirlər. Subyektlər arasında elələri vardır ki, onların hakimiyyət səlahiyyətlərini həyata keçirmək hüququna malkdirlər. Söhbət ictimai təhlükəsizlik hüququnun **hakimiyyət xarakterli subyektlərindən** gedir. Məsələn, polis orqanları belə subyektlərə misal ola bilər.

İctimai təhlükəsizlik hüququnun subyektləri arasında hakimiyyət səlahiyyəti olmayanlara da rast gəlinir. Söhbət ictimai təhlükəsizlik hüququnun **qeyri-hakimiyyət xarakterli subyektlərindən** gedir. Məsələn, ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edilən şəxslər ictimai təhlükəsizlik hüququnun qeyri-hakimiyyət xarakterli subyektlərinə misal ola bilər. Belə şəxslər ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına yönələn fəaliyyətin həyata keçirilməsində iştirak edirlər.

İctimai təhlükəsizlik hüququnun subyektləri arasında ümumi və ixtisaslaşmış subyektlər fərqləndirilir. İctimai təhlükəsizlik hüququnun **ümumi subyektləri** odur ki, onlar təkcə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində malik olduğu səlahiyyətləri həyata keçirmir; belə subyektlərin həm də digər sahələrdə öz səlahiyyətləri-

ni həyata keçirmək hüququ vardır. Məsələn, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi belə subyektlərə misal ola bilər. DİN haqqında Əsasnamədə göstərilir ki, Nazirlik həm ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, həm cinayətlərin qarşısının alınması, həm də cinayətlərin açılması sahəsində öz səlahiyyətlərini həyata keçirən orqandır.

İctimai təhlükəsizlik hüququnun **ixtisaslaşmış subyektləri** elə subyektlərdir ki, onlar xüsusilə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması məsələləri ilə məşğul olur. Məsələn, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi ictimai təhlükəsizlik hüququnun ixtisaslaşmış subyektlərinə misal ola bilər. Belə subyekt həm də ictimai təhlükəsizlik hüququnun **xüsusi subyekti** adlanır.

İctimai təhlükəsizlik hüququnun subyektlərini həm də əsas və qeyri-əsas subyektlərə bölmək olar. Əgər subyektin yerinə yetirdiyi əsas funksiyalardan biri ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi olarsa, belə subyekt ictimai təhlükəsizlik hüququnun **əsas subyekti** sayılır. Məsələn, polis orqanı ictimai təhlükəsizlik hüququnun əsas subyektlərinə misal ola bilər. Belə ki, «Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnamə»nin 2-ci bəndində polis orqanının həyata keçirdiyi əsas funksiyalar sadalanır; bu funksiyalardan biri ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasıdır (yarımbənd 2.1.1.). Odur ki, polis orqanı ictimai təhlükəsizlik hüququnun əsas subyektlərindən biri sayılır. Bu növ subyektlər ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə yönələn fəaliyyətin həyata keçirilməsində mühüm rol oynayır.

Əgər ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasına yönələn fəaliyyətin həyata keçirilməsində subyekt yardımçı (köməkçi) rol oynayarsa, belə subyekt ictimai təhlükəsizlik hüququnun **qeyri-əsas subyekti** sayılır. Məsələn, ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edilmiş şəxslər ictimai təhlükəsizlik hüququnun qeyri-əsas subyektləri sırasına aiddir.

İctimai təhlükəsizlik hüququnun subyektlərini digər əlamətlər üzrə də fərqləndirmək olar. Lakin göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, ictimai təhlükəsizlik hüququnun subyektləri elə bütövlükdə polis hüququnun subyektləri qrupuna daxildir.

### 7.3.2. İctimai təhlükəsizlik hüququnun ayrı-ayrı subyektləri

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi** (bundan sonra – DİN və ya Nazirlik) ictimai təhlükəsizlik hüququnun subyektlərindən biridir. Qeyd etməliyik ki, Nazirlik ictimai təhlükəsizlik hüququnun hakimiyyət xarakterli subyekti sayılır; çünki Nazirlik hakimiyyət səlahiyyətlərinə malik olan orqandır. Digər tərəfdən, Nazirlik ictimai təhlükəsizlik hüququnun ümumi subyekti kimi tanınır. Ona görə ki, Nazirliyin fəaliyyətini tənzimləmək üçün əsasnamə formasında müvafiq normativ hüquqi akt qəbul olunmuşdur; DİN-in Əsasnaməsi onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsası sayılır. Burada Nazirliyin funksiyaları göstərilir; ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkili Nazirliyin həyata keçirdiyi funksiyalardan biridir; Nazirlik digər funksiyalar da yerinə yetirir. Başqa sözlə, Nazirlik ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkilindən başqa, digər funksiyalar da həyata keçirir; bu səbəbdən onu ictimai təhlükəsizlik hüququnun xüsusi (ixtisaslaşmış) deyil, ümumi (qeyri-ixtisaslaşmış) subyekti hesab edirik.

DİN haqqında Əsasnamənin 1.1-ci yarımbəndində deyilir ki, Nazirlik Azərbaycan Respublikasında ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Məhz ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində öz səlahiyyətlərini həyata keçirdiyinə görə bu orqan ictimai

təhlükəsizlik hüququnun subyekti sayılır. Digər tərəfdən, Əsasnamədə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində Nazirliyin müvafiq vəzifələr yerinə yetirməsi, habelə öz hüquqlarını həyata keçirməsi göstərilir. Hansı orqan ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində müvafiq hüquqlara malikdirsə və vəzifələr daşıyırsa, deməli, o, ictimai təhlükəsizlik hüququnun subyektidir. Əsasnamədə xüsusilə qeyd edilir ki, Nazirlik digər vəzifələrlə yanaşı, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması məqsədilə DİO-nun fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmək vəzifəsini yerinə yetirir (Əsasnamənin 3.1.1-ci yarımbəndi). Söhbət ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində DİO-nun fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmək kimi mühüm vəzifədən gedir ki, bu, Nazirliyin üzərinə qoyulan əsas məsələlərdən biridir.

Əsasnamədə həm də göstərilir ki, Nazirlik öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün ayrı-ayrı sahələrdə malik olduğu hüquqları həyata keçirir; onlardan biri məhz ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsidir (Əsasnamənin 4.1.1-ci yarımbəndi). Deməli, Nazirlik ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində həm vəzifələr daşıyır, həm də hüquqlara malikdir. Odur ki, o, ictimai təhlükəsizlik hüququnun subyektləri sırasına daxildir.

Nazirlik ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində subyekt qismində fəaliyyət göstərərkən Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanmalı və ona uyğun hərəkət etməlidir. Belə ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirdiyi fəaliyyətində Nazirlik aşağıda göstərilənləri rəhbər tutur: 1) Azərbaycan Respublikasının Konstitusiyası; 2) Azərbaycan Respublikası-nın qanunları; 3) Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları; 4) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar-

ları; 5) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beyn-əl-xalq müqavilələr; 6) Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə;7) Nazirliyin normativ hüquqi aktları və s. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması istiqamətində fəaliyyətini Nazirlik bilavasitə özü həyata keçirir. Belə ki, Nazirlik ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində ona həvalə edilmiş vəzifələri bilavasitə yerinə yetirir.

Bununla yanaşı, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması istiqamətində öz fəaliyyətini Nazirlik tabeliyində olan müvafiq orqanlar vasitəsi ilə də həyata keçirir. Söhbət, ilk növbədə, **Baş İctimai Təhlükəsizlik İdarəsindən** gedir. Bu qurum Nazirliyin strukturuna daxil olan orqanlardan biridir; ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində Nazirlik ona həvalə edilmiş vəzifələri məhz həmin orqan vasitəsi ilə yerinə yetirir.

Baş İctimai Təhlükəsizlik İdarəsi ictimai təhlükəsizlik hüququnun subyektlərindən biridir; həm də o, ictimai təhlükəsizlik hüququnun ixtisaslaşmış subyekti sayılır. Belə ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması Baş İctimai Təhlükəsizlik İdarəsinin əsas funksiyası hesab edilir.

### 7.3.3. Polis orqanı ictimai təhlükəsizlik hüququnun subyekti kimi

Qeyd etdik ki, DİN ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına yönələn fəaliyyətini həm də tabeliyində olan orqanlar vasitəsi ilə həyata keçirir; **polis orqanı** belə orqanlardan biridir. DİN ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində ona həvalə edilmiş vəzifələri məhz polis orqanları vasitəsi ilə yerinə yetirir. Unutmaq olmaz ki, polis orqanı DİN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanıdır. Söhbət **şəhər, rayon və nəqliyyatda polis orqanlarından** gedir.

Polis orqanlarının fəaliyyətinin hüquqi tənzimlənməsi müvafiq normativ hüquqi aktla (lokal xarakterli normativ aktla) həyata keçirilir. Həmin akt **Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnamə** adlanır ki, əvvəllərdə qeyd olunduğu kimi, bu Əsasnamə DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir. Sözügedən Əsasnamə şəhər, rayon və nəqliyyatda polis orqanlarının fəaliyyətinin hüquqi əsası sayılır.

Adıçəkilən Əsasnaməyə görə, polis orqanlarının fəaliyyəti müxtəlif cəhətli və çoxşaxəlidir. Belə ki, bir tərəfdən, polis orqanları insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qoruyur, digər tərəfdən, cinayətlərin qarşısının alınması və açılması sahəsində fəaliyyət göstərir. Bunlardan başqa, polis orqanları həm də ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Əsasnamədə qeyd olunur ki, polis orqanları müxtəlif, ayrı-ayrı sahələrdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirir; ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi həmin sahələrdən biridir (Əsasnamənin 1.1-ci yarımbəndi). Belə halda polis orqanları ictimai təhlükəsizlik hüququnun subyekti kimi tanınır. Yaddan çıxarmamalıyıq ki, polis orqanları həm də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə yönələn fəaliyyətlə məşğul olur. Heç də sirr deyil ki, polis orqanları rayonlarda, şəhərlərdə və nəqliyyatda ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi işində mühüm rol oynayır; bu zaman onlar ictimai təhlükəsizlik hüququnun kollektiv subyekti qismində çıxış edirlər.

Polis orqanları bir neçə vacib funksiya yerinə yetirir və həyata keçirir; məhz ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması polis orqanlarının həyata keçirdiyi funksiyalardan biridir. Əsasnamənin 2.1.1-ci yarımbəndində deyilir ki, polis orqanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində həm də

**ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması kimi funksiyanı** həyata keçirir. Özünün bu kimi funksiyasını həyata keçirdiyi hallarda polis orqanı ictimai təhlükəsizlik hüququnun hakimiyyət xarakterli subyekti olur.

İctimai təhlükəsizlik hüququnun subyekti kimi polis orqanları ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində müvafiq **vəzifələr** yerinə yetirir. Həmin vəzifələr isə Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnamədə sadalanır (Əsasnamənin 3.1-ci yarımbəndi). Əsasnaməyə uyğun olaraq, polis orqanları ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini sahəsində aşağıdakı vəzifələri icra edirlər:

- hər bir şəxsin təhlükəsizliyini təmin etmək;
- qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxmaq;
- xüsusi icazələr (lisenziyalar) vermək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada təhqiqat və ibtidai istintaq orqanlarının, habelə məhkəmələrin qərarlarını icra etmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada tutulan şəxsləri müvafiq orqanlara təhvil verilənədək saxlamaq;
- ərazidə tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təminində, fövqəladə halların qarşısının alınması və onların aradan qaldırılması üzrə vahid dövlət tədbirlərinin, həmçinin karantin tədbirlərinin həyata keçirilməsində iştirak etmək;
- kütləvi tədbirlər zamanı asayiş və hüquq qaydasını təmin etmək;
- digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birlikdə yetkinlik yaşına çatmayanların baxımsızlığının

və hüquq pozuntularının profilaktikasını həyata keçirmək;

– müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə, yaxud qanuni sahiblərinə təhvil verilənədək sahibsiz əmlakın və dəfinələrin, habelə tapılmış və polisə təhvil verilmiş sənədlərin, əşyaların və digər əmlakın saxlanmasını və mühafizəsini təmin etmək;

– hüquqi və fiziki şəxslərin əmlakını hüquqazidd əməllərdən qorumaq;

– verilmiş səlahiyyətlər daxilində vətəndaşlara şəxsiyyət vəsiqələri vermək, dəyişdirmək, onların yaşayış və olduğu yer üzrə qeydiyyatını aparmaq;

– səlahiyyətləri çərçivəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə hüquqi vəziyyətini təmin etmək.

Sadalanan vəzifələr bunu deməyə əsas verir ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis orqanlarının həyata keçirdiyi fəaliyyət çoxcəhətli olub, hüquqi əhəmiyyətli müxtəlif hərəkətlərin edilməsini nəzərdə tutur. Məhz həmin hərəkətlərin edilməsi sayəsində rayonlarda, şəhərlərdə və nəqliyyat sahəsində ictimai qayda və ictimai təhlükəsizlik təmin olunur. Polis orqanları həm hər bir şəxsin təhlükəsizliyini təmin edir, inzibati xətalar haqqında işlərə baxır, icazələr (lisenziyalar) verir, təhqiqat, ibtidai istintaq orqanlarının və məhkəmələrin qərarlarını icra edir, tutulan şəxsləri müvafiq orqanlara təhvil verilənədək saxlayır, həm də kütləvi tədbirlər zamanı asayişin qorunmasını və hüquq qaydasını təmin edir və s. Deməli, polis orqanları ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində əhatə dairəsi kifayət dərəcədə geniş olan vacib işlər görür. Bu da, öz növbəsində, polis orqanlarının ictimai təhlükəsizlik hüququnun əsas subyektlərindən biri olmasından xəbər verir.

Polis orqanları ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində təkcə vəzifələr daşımırlar; onlar hə-

min sahədə həmçinin müvafiq **hüquqlarla** təmin edilmişdir. Əsasnamədə deyilir ki, polis orqanları ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində müvafiq səlahiyyətləri həyata keçirmək hüququna malikdir (Əsasnamənin 4.1.1-ci yarımbəndi).

İctimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis orqanının müvafiq vəzifələr yerinə yetirməsi və müəyyən hüquqlara malik olması bunu göstərir ki, polis orqanı ictimai təhlükəsizlik hüququnun subyektidir. Polis orqanlarının belə səlahiyyətləri (vəzifə və hüquqlar) onların məhz ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlərin potensial (mümkün) iştirakçısı, yəni ictimai təhlükəsizlik hüququnun subyekti olması üçündür. Nəzərə almalıyıq ki, göstərilən sahədə müvafiq vəzifələri yerinə yetirməsi və hüquqları həyata keçirməsi polis orqanını ictimai təhlükəsizlik hüququnun subyekti kimi xarakterizə etməyə imkan verən cəhətdir. Məhz bu cəhət polis orqanlarını ictimai təhlükəsizlik hüququnun subyekti kimi tanımaq zərurətini şərtləndirir.

### 7.3.4. Polis əməkdaşı ictimai təhlükəsizlik hüququnun subyekti kimi

Polis əməkdaşı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı münasibətlərin potensial (mümkün) iştirakçılarından biridir. Məhz bu səbəbdən polis əməkdaşı ictimai təhlükəsizlik hüququnun subyekti sayılır. Qeyd etməliyik ki, polis əməkdaşı ictimai təhlükəsizlik hüququnun fərdi subyektləri sırasına aiddir; çünki o, fiziki şəxs kimi insan kateqoriyasına aiddir. Fiziki şəxslər isə hüququn fərdi subyekti hesab edilir. Bu cəhəti ilə polis əməkdaşı ictimai təhlükəsizlik hüququnun subyekti kimi polis orqanından fərqlənir. Belə ki, öz Əsasnaməsinə görə (2009-cu il), polis orqanı hüquqi şəxs statusuna malikdir (yarımbənd 1.4.). Hüquqi şəxs isə hüququn kollektiv subyekti sayılır. Deməli, polis orqan ic-

timai təhlükəsizlik hüququnun kollektiv subyekti, polis əməkdaşı isə fərdi subyekt kimi tanınır.

**Polis əməkdaşı** dedikdə polis orqanlarında müəyyən vəzifə tutan və müvafiq səlahiyyətləri həyata keçirən dövlət qulluqçusu başa düşülür. Həmin səlahiyyətlər isə PQ ilə müəyyənləşdirilir. Polis əməkdaşı əgər malik olduğu səlahiyyətləri ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirərsə, belə hallarda o, ictimai təhlükəsizlik hüququnun subyekti qismində çıxış edir. İctimai təhlükəsizlik hüququnun subyekti kimi polis əməkdaşı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində, məzmun etibarilə, həm müvafiq vəzifələri yerinə yetirir, həm də müəyyən hüquqları həyata keçirir. Bu səlahiyyətlər məhz ondan ötrüdür ki, polis əməkdaşı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin mümkün (potensial) iştirakçısına çevrilsin, yəni ictimai təhlükəsizlik hüququnun subyekti olsun.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının daşıdığı **vəzifələr** polis haqqında qanunvericiliklə müəyyən edilir. Belə ki, PQ-nin 14-cü maddəsi göstərdiyimiz sahədə polis əməkdaşının üzərinə aşağıdakı vəzifələri qoyur ki, həmin vəzifələrin yerinə yetirilməsi ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir (bu vəzifələr, demək olar ki, polis orqanlarının daşıdığı vəzifələrin eynidir):

- hər bir şəxsin təhlükəsizliyini təmin etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə səlahiyyətlərinə aid edilmiş inzibati xətalara dair işlər üzrə icraat aparmaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda təhqiqat, istintaq orqanlarının və məhkəmələrin qərarlarını icra etmək;

- qanunla müəyyənləşdirilmiş qaydada tutulan şəxsi müvafiq orqanlara təhvil verilənədək saxlamaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əşyaların, o cümlədən odlu silahın, döyüş sursatının, zəhərli maddələrin və sair zərərli materialların əldə edilməsi, saxlanılması, gəzdirilməsi və daşınması üçün müəyyənləşdirilmiş qaydada icazə vermək, dövriyyəsinə nəzarət etmək, çoxaldıcı rəngli-ksero qurğuların qeydiyyatını aparmaq;
- Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərdə tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejimini təmin etmək, epidemiya və ya epizootiya zamanı karantin tədbirlərinin həyata keçirilməsində iştirak etmək;
- kütləvi tədbirlər zamanı ictimai asayişi təmin etmək;
- müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə, yaxud qanuni sahiblərinə təhvil verilənədək sahibsiz əmlakın və dəfinələrin, habelə tapılmış və polisə təhvil verilmiş sənədlərin, əşyaların və digər əmlakın saxlanılmasını və mühafizəsini təmin etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda qeydiyyat və uçot işlərini aparmaq;
- digər dövlət orqanları və ictimai təşkilatlarla birlikdə azyaşlılar arasında hüquq qaydasının pozulmasının və nəzarətsizliyin qarşısının alınmasında iştirak etmək;
- cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsini təmin etmək;
- hüquqi və fiziki şəxslərin əmlakını hüquqazidd əməllərdən qorumaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Göründüyü kimi, qanunvericiliklə polis əməkdaşının üzərinə ictimai əhəmiyyəti olan çox vacib vəzifələr qoyulmuşdur. Bu vəzifələrin polis əməkdaşı tərəfindən yerinə yetirilməsi buna yönəlmişdir ki, ictimai qayda və ictimai təhlükəsizlik təmin edilsin. İctimai qaydanın və ictimai təhlükəsizliyin effektiv təminolunma səviyyəsindən isə cəmiyyətdə ictimai sabitlik bilavasitə asılıdır. Odur ki, hamı və hər kəs ictimai təhlükəsizlik hüququnun subyekti kimi polis əməkdaşlarına borclu və minnətdar olmalıdır.

İctimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşı təkcə vəzifə daşımır; o, bu sahədə həm də müvafiq **hüquqlara** malikdir; onun malik olduğu hüquqlar PQ-nin 18-ci maddəsində göstərilmişdir. Bu maddəyə görə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

- inzibati xətalara dair işlər üzrə qanunvericilikdə nəzərdə tutulan tədbirləri görmək;
- ictimai qayda və ya insanların təhlükəsizliyi üçün təhlükə yarandıqda ərazilərə və binalara girişi və orada olmağı məhdudlaşdırmaq, aparılan işləri dayandırmaq, nəqliyyatın hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək;
- inzibati xəta törətmiş şəxs barəsində protokol tərtib etmək, şəxsi baxış keçirmək, əşyalarını yoxlamaq, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və müddətdə onu polisdə saxlamaq;
- cinayət və ya inzibati xəta törətməkdə şübhələnilən hərbi qulluqçuları tutub hərbi patrullara, hərbi komendanta, qoşun hissələrinin komandirlərinə və ya hərbi komissarlara təhvil vermək;
- ictimai yerlərdə sərxoş vəziyyətdə olan və müstəqil hərəkət etmək qabiliyyətini itirən, özünə və ya ətrafdakılara zərər yetirə bilən şəxsi xüsusi tibb müəssisələrinə gətirmək;

- inzibati qaydada həbs edilmiş, inzibati nəzarətdə olan, habelə polisdə profilaktika uçotunda olan şəxslərin fotoşəklini çəkmək və qanunla müəyyən edilmiş hallarda barmaq izlərini götürmək;
- avaralıqla və ya dilənçiliklə məşğul olan şəxsi qanunvericiliklə müəyyənləşdirilmiş hallarda və qaydada qəbul-etmə-bölüşdürmə məntəqəsinə gətirmək;
- ictimai təhlükəli əməllərə görə məhkəmənin qərarı ilə təyin olunmuş tibbi xarakterli məcburi tədbirlərdən yayınan ruhi xəstələri, xroniki alkoqolikləri, narkomanları tutmaq və xüsusi tibb müəssisələrinə gətirmək;
- hüquqi və fiziki şəxslər tərəfindən odlu silahın, döyüş sursatının, zəhərli maddələrin və digər zərərli materialların saxlandığı və istifadə olunduğu yerlərə, habelə onların dövriyyədə olduğu obyektlərə (hərbi obyektlər istisna olmaqla) baxış keçirmək, bü cür əşyaların, maddələrin və materialların istifadəsi barədə müəyyənləşdirilmiş qaydaların pozulduğu aşkar edildikdə qüsurların aradan qaldırılması haqqında icrası məcburi olan yazılı göstərişlər vermək və qanunvericilikdə nəzərdə tutulan digər tədbirləri görmək və s.

Polis əməkdaşının sadaladığımız hüquqları ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə yönəlmişdir. Buna görə də, hər bir polis əməkdaşı malik olduğu belə hüquqları həyata keçirməlidir. Bunun isə, öz növbəsində, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üçün vacib əhəmiyyəti vardır.

Polis əməkdaşı ictimai təhlükəsizlik hüququnun hakimiyyət xarakterli subyekti hesab edilir. Belə ki, polis əməkdaşı polis fəaliyyəti sahəsində dövlətin adından çıxış edən, hakimiyyət səlahiyyətlərinə malik olan və polis orqanlarında müəyyən vəzifə tutan şəxsdir; odur ki, onun özü hakimiyyət səlahiyyətlərinə malikdir. İctimai təhlükəsizliyin qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis əməkdaşı

subyekt qismində çıxış edərkən ona verilmiş müvafiq hakimiyyət səlahiyyətlərindən istifadə edir.

### 7.3.5. DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi ictimai təhlükəsizlik hüququnun subyekti kimi

Qeyd etdiyimiz kimi, DİN-in həyata keçirdiyi fəaliyyətin normativ-hüquqi bazası onun Əsasnaməsi hesab edilir; həmin akt vasitəsi ilə bir çox məsələlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Əsasnaməyə görə, DİN-in strukturuna müxtəlif qurumlar daxildir ki, Baş İctimai Təhlükəsizlik İdarəsi onlardan biri hesab edilir.

Baş İctimai Təhlükəsizlik İdarəsi (bundan sonra – BİTİ və ya Baş İdarə) ictimai təhlükəsizlik hüququnun əsas və başlıca subyekti hesab edilir. Qeyd etdiyimiz kimi, DİN bir neçə vacib və mühüm funksiya həyata keçirir ki, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işini təşkil etmək onlardan biridir; o, bu funksiyanı məhz BİTİ vasitəsi ilə yerinə yetirir. Axı, sözügedən Baş İdarə DİN-in struktur hissəsi sayılır və onun strukturuna «müstəqil statusla» daxil olur. Belə ki, BİTİ-nin fəaliyyəti müvafiq normativ hüquqi aktla tənzimlənir. «**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi haqqında Əsasnamə**» adlanan həmin akt, əvvəllərdə qeyd etdiyimiz kimi, DİN-in 03.11.2012-ci il tarixli Q 53-001-12 nömrəli qərarı ilə təsdiq olunmuşdur. Bu Əsasnamənin 1-ci bəndində göstərilir ki, Baş İdarə DİN-in müstəqil struktur hissəsidir. Buna görə də, ictimai təhlükəsizlik hüququnun subyekti kimi Baş İdarənin ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində etdiyi hərəkətlər DİN-in özünün həmin sahədə həyata keçirdiyi fəaliyyəti ifadə edir. Unutmaq olmaz ki, DİN öz funksiyalarını, hüquq və vəzifələrini həm bilavasitə, həm də öz struktur və tabeliyində olan orqanlar vasitəsi ilə həyata keçirir.

İctimai təhlükəsizlik hüququnun ixtisaslaşmış subyekti kimi Baş İdarə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin

olunması sahəsində bir neçə vacib istiqamətdə fəaliyyət göstərir. Baş İdarənin göstərilən sahədə **fəaliyyət istiqamətləri** onun Əsasnaməsinin 1.1-ci yarımbəndində sadalanır. Belə ki, Baş İdarə: 1) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi işini təşkil edir; 2) cinayət-hüquq pozuntularının (cinayətlərin) və inzibati-hüquq pozuntularının (inzibati xətaların) qarşısının alınması üçün müvafiq tədbirlər görür; 3) tutulmuş və ya həbs edilmiş şəxslərin mühafizəsi və müşayiəti ilə bağlı polis orqanları qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsini təşkil edir; 4) diplomatik nümayəndəliklərin mühafizəsi ilə bağlı işləri təşkil edir; 5) ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması ilə bağlı polis orqanlarının qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsini təşkil edir; 6) milli-dini məsələlər üzrə polis orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsini təşkil edir; 7) karantin tədbirlərinin həyata keçirilməsi ilə bağlı polis orqanlarının qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsini təşkil edir və s.

Göstərilənlərlə yanaşı, Baş İdarə aşağıdakı işləri də təşkil edir: ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması üçün profilaktik tədbirlərin görülməsi işi; polis sahə inspektorlarının işi; post-patrul xidmətinin gördüyü iş; müvəqqəti saxlama yerlərində xidmət işi; icazələrin verilməsi işi; yetkinlik yaşına çatmayanlarla (azyaşlılarla) profilaktik iş. Baş İdarənin bu cür işlərin görülməsini təşkil etməsi təsadüfi xarakter daşımır. Axı, sadaladığımız işlərin görülməsi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üçün mühüm əhəmiyyətə malik olan hərəkətlərdir. Həmin hərəkətlər ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə yönələn fəaliyyətdə vacib rol oynayır.

İctimai təhlükəsizlik hüququnun subyekti kimi Baş İdarənin fəaliyyəti həm də buna yönəlmişdir ki, təbiəti-mühafizə və sanitar-epidemioloji xidmətlər ilə əlaqəli olan iş təşkil olunsun. Bunun isə, şübhəsiz, ictimai qaydanın qorunması və insanların təhlükəsizliyinin təmin edilməsi üçün heç də az olma-

yan əhəmiyyəti vardır. Deyilənlər onu göstərir ki, BİTİ ictimai təhlükəsizlik hüququnun çoxcəhətli fəaliyyət göstərən subyektidir. Onun göstərdiyi fəaliyyət isə, təbii ki, ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyn təmin olunmasına yönəlmişdir.

Baş İdarənin ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində subyekt kimi çoxcəhətli fəaliyyəti onun strukturuna daxil olan ayrı-ayrı idarə, şöbə və bölmələr tərəfindən həyata keçirilir. Belə ki, BİTİ-nin **strukturuna** aşağıdakı orqanlar daxildir:

– Profilaktik İşin Təşkili İdarəsi;
– Polis Sahə İnspektorlarının İşinin Təşkili Şöbəsi;
– Milli-Dini Məsələlər üzrə Şöbə;
– Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşin Təşkili Şöbəsi;
– Post-Patrul Xidmətinin Təşkili Şöbəsi;
– İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi Şöbəsi;
– Müvəqqəti Saxlama Yerlərində Xidmətin Təşkilinə Nəzarət Şöbəsi;
– İcazə Sistemi Bölməsi;
– Təbiəti Mühafizə və Sanitar-Epidemioloji Xidmətlər ilə Əlaqəli İşin Təşkili Bölməsi.

Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə və karantin tədbirlərini təmin edən **Əlahiddə Polis Taborları** haqqında ayrıca danışmaq lazımdır. Konkret növ fəaliyyəti həyata keçirən və Baş İdarəyə bilavasitə tabe olan həmin qurumlar, əsasən, iki cür olur: 1) Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taboru; 2) Karantin tədbirlərinin mühafizəsini təmin edən Əlahiddə Polis Taboru. Baş İdarənin tərkibinə daxil olan birinci Əlahiddə Polis Taboru diplomatik nümayəndəlikləri mühafizə etmək fəaliyyəti ilə məşğul olur. İkinci Əlahiddə Polis Taboruna gəldikdə isə, qeyd etməliyik ki, bu

Tabor karantin tədbirlərinin həyata keçirilməsini və mühafizəsini təmin edir.

Baş İdarənin həyata keçirdiyi fəaliyyət onun yerinə yetirdiyi **funksiyalarda** ifadə olunur. Belə ki, BİTİ-nin yerinə yetirdiyi funksiyalara əsasən, onun hansı istiqamətlərdə fəaliyyət göstərməsini məyyənləşdirmək mümkündür. Axı, istənilən qurumun, o cümlədən Baş İdarənin funksiyaları dedikdə həmin təşkilatın əsas fəaliyyət istiqamətləri başa düşülür; Baş İdarənin funksiyaları isə onun Əsasnaməsi ilə müəyyən edilir. Əsasnamənin 3-cü bəndi məhz Baş İdarənin həyata keçirdiyi funksiyaların müəyyənləşdirilməsinə və tənzimlənməsinə həsr olunmuşdur. Həmin maddədən məlum olur ki, **təşkiletmə** Baş İdarənin yerinə yetirdiyi əsas və başlıca funksiya hesab edilir.

Təşkiletmə funksiyası, birinci, **ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işi** sahəsində həyata keçirilir. Belə ki, Baş İdarə ictimai qaydanı və ictimai təhlükəsizliyi bilavasitə özü təmin etmir; o, bu işi yalnız təşkil edir. Məlum olduğu kimi, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi işini polis orqanları görürlər. Bu, nəzərdən qaçırmaq olmaz ki, polis orqanlarının yerinə yetirdiyi funksiyalardan biri hesab edilir.[1] BİTİ də məhz polis orqanlarının öz funksiyalarını yerinə yetirməsini təşkil edir.

İkinci, təşkiletmə funksiyası **profilaktik işin** görülməsinə aiddir. Belə ki, cinayətlərin və inzibati xətaların, kütləvi iğtişaşların, milli-dini zəmində baş verə biləcək hadisələrin, habelə qrup şəklində ictimai qaydanın pozulması hallarının qarşısının alınması məqsədi ilə müvafiq qabaqlayıcı (profilaktik) iş həyata keçirilməlidir. Belə işin təşkili isə Baş İdarənin yerinə yetirdiyi funksiya sayılır. Baş İdarə özünün bu funksiyasına görə, sadaladığımız hüquq pozuntularının, eləcə də mənfi və arzuolunmaz hadisələrin qarşısının alınması ilə əlaqədar profilaktik işi təşkil etməlidir. Baş İdarə xüsusən də milli-dini zəmində baş verə biləcək hadisələrin, ölkə qanunvericiliyinə zidd

[1] Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnamənin 2-ci bəndinin 1-ci yarımbəndi.

olan fəaliyyətin qarşısının alınması işinin təşkilinə lazımi diqqət yetirməlidir; hər şeydən əvvəl, separatçı-ekstremist meyilli şəxslərin və təşkilatların fəaliyyət göstərmələrinin qarşısı alınmalıdır.

Üçüncü, təşkiletmə funksiyası **icazə sisteminin həyata keçirilməsinə** aiddir. Belə ki, Baş İdarə polis orqanlarında icazə sisteminin həyata keçirilməsi işini təşkil etməlidir. Bəs, icazə sistemi dedikdə nə başa düşülür?

Qeyd etməliyik ki, **icazə sistemi** polis orqanlarının ictimai təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərindən biridir. Belə fəaliyyət istiqaməti xidməti və mülki silahın, döyüş sursatının dövsiyyəsinə xüsusi icazənin, müxtəlif növ möhür və ştampların hazırlanmasına, özəl (qeyri-dövlət) mühafizə fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılığın (lisenziyanın) verilməsi və onlara nəzarət edilməsi, çoxaldıcı rəngli qurğuların (kseroksların) qeydiyyatının aparılması, habelə göstərilən əşya və maddələrin itməsi, oğurlanması, təyinatdankənar istifadə hallarının qarşısının alınması üzrə həyata keçirilən tədbirlərdən ibarətdir. İcazə sistemi üzrə tədbirlər ictimai təhlükəsizlik hüququnun iki subyekti tərəfindən həyata keçirilir ki, onlardan biri Baş İdarə, digəri isə ərazi polis orqanlarıdır. Baş İdarə xidməti və mülki silahın qeydiyyata alınması (qeydiyyatın dəyişdirilməsi), uçotu, onların alınmasına və saxlanılmasına xüsusi icazənin və şəhadətnamənin verilməsinə, dövriyyəsinə nəzarət edir, müxtəlif növ möhür və ştampların hazırlanmasına xüsusi razılıq verir, qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə verilmiş xüsusi razılığın (lisenziyanın) uçotunu aparır, silah və xüsusi vasitələr saxlanılan yerlərə baxış keçirir, icazə sisteminin təşkili ilə bağlı ərazi polis orqanlarının fəaliyyətinə nəzarət edir. Bu kimi məsələlərlə bağlı ictimai münasibətlər ayrıca normativ hüquqi aktla tənzimlənir. Həmin akt «**Azərbaycan Respublikasının daxili işlər orqanlarında icazə sisteminin təşkilinə dair Təlimat**» adlanır ki,

sözugedən sənəd DİN-in 03.09.2012-ci il tarixli Q 21-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir.[1]

Dördüncü, təşkiletmə funksiyası **ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması sahəsində** həyata keçirilir. Belə ki, Baş İdarə ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması sahəsində polis orqanlarının gördüyü işi təşkil edir. Həmin sahədə görülən tədbirlərin istiqamətləndirilməsi, əlaqələndirilməsi və bu yöndə polis orqanlarında işin təşkil olunması məhz BİTİ tərəfindən həyata keçirilir. Baş İdarə göstərilən sahədə həm də yerli polis orqanlarının gördüyü işlərin istiqamətləndirilməsinə, əlaqələndirilməsinə və bu kontekstdə fəaliyyətinə nəzarət edir. Baş İdarə həmçinin cinayət-hüquq pozuntularının aşkar olunması, onların qarşısının alınması üçün zəruri tədbirlər görür, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və onun regional hissələri ilə qarşılıqlı informasiya mübadiləsi aparır.

Beşinci, təşkiletmə funksiyası **diplomatik nümayəndəliklərin təhlükəsizliyinin təmin olunması sahəsində** həyata keçirilir. Belə ki, Baş İdarə dilomatik nümayəndəliklərin təhlükəsizliyinin təmin olunması sahəsində işləri, zəruri olan tədbirləri təşkil edir və əlaqələndirir, bu sahədə ərazi polis orqanları ilə qarşılıqlı əlaqəni təmin edir. Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə Əlahiddə Polis Taborunun göstərdiyi xidmətin təşkil olunmasına və onun fəaliyyətinə nəzarət edilməsinə Baş İdarə xüsusi diqqət yetirməlidir. Baş İdarə həm də qabaqlayıcı tədbirlər görməlidir ki, diplomatik nümayəndəliklərin binaları və əraziləri mühafizə edilsin, eləcə də ictimai qaydanın qorunması təmin olunsun, baş verə biləcək terror-təxribat aktlarının və s. əməllərin qarşısı alınsın.

Nəhayət, altıncı, təşkiletmə funksiyası **baytar-sanitar ekspertizanın, profilaktik baytarlıq-karantin tədbirlərinin həyata keçirilməsi və epizodik xəstəliklərə qarşı mübarizə sahəsində** həyata keçirilir. Baş İdarə həmin sahədə əlaqəli fəaliyyəti təş-

---

[1] *Təlimatın mətni ilə tanış olmaq üçün bax:* Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013, s.757-802.

kil etməlidir; bu, BİTİ-nin yerinə yetirdiyi funksiyalardan biridir. Baş İdarə karantin tədbilərinin mühafizəsini təmin edən Əlahiddə Polis Taborunun göstərdiyi xidməti təşkil etməli və onun fəaliyyətinə nəzarət yetirməlidir. Baş İdarə həmçinin belə iş təşkil etməlidir ki, baytarlıq, təbiəti mühafizə, sanitar-epidemioloji və digər aidiyyəti xidmətlərlə qarşılıqlı əlaqə yaradılsın.

Baş İdarə **polis orqanlarının müvəqqəti saxlama yerlərinin fəaliyyətini** təşkil etməlidir. Bu, BİTİ-nin üzərinə düşən vəzifələrdən biridir. Müvəqqəti saxlama yerlərində Azərbaycan Respublikasının cinayət-prosessual qanun-vericiliyi (CPM), eləcə də Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətlərdə tutulmuş və ya həbs edilmiş şəxslər saxlanılır. Belə şəxslərin mühafizə edilməsi və müşayiət edilməsi ilə bağlı münasibətlər ayrıca normativ hüquqi akla tənzimlənir. Söhbət «**Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat**» kimi aktdan gedir ki, həmin sənəd DİN-in Kollegiyası tərəfindən 14.01.2013-cü il tarixli Q 1-001-13 nömrəli qərar ilə təsdiq edilmişdir. Təlimat cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxs qismində tutulan şəxslərin müvəqqəti saxlama təcridxanasında saxlanması, mühafizə edilməsi və müşayiət olunması qaydalarını müəyyən edir. Belə ki, müvəqqəti saxlama yerlərinin fəaliyyətini təşkil etmək BİTİ-nin üzərinə qoyulmuş vəzifə hesab edilir. Baş İdarə həm də inzibati həbs olunanların saxlanılma məntəqələrinin fəaliyyətini təşkil etmək vəzifəsini yerinə yetirir. Bunlardan başqa, Baş İdarə cinayət törətdiklərinə görə barələrində həbs qətimkan tədbiri seçilmiş şübhəli və təqsirləndirilən, habelə inzibati qaydada həbs olunmuş şəxslərin mühafizəsini və müşayiət olunmasını təşkil etmək və s. vəzifələri daşıyır.

Baş İdarənin üzərinə həmçinin **nəzarətetmə vəzifəsi** qoyulmuşdur. Belə ki, BİTİ polis orqanlarında icazə sisteminin həyata keçirilməsinə, özəl (qeyri-dövlət) mühafizə fəaliyyətinə,

müxtəlif növ möhür və ştampların hazırlanmasına xüsusi razılıq (lisenziya), habelə xidməti və mülki silahların alınmasına, saxlanılmasına, gəzdirilməsinə icazələrin verilməsinə, onların uçotunun aparılmasına və dövriyyəsinə nəzarət etməlidir. Baş İdarə tərəfindən nəzarətetmə işi həm də əlahiddə polis taborlarının fəaliyyəti üzərində həyata keçirilməlidir. Belə taborlardan biri, yuxarıda göstərdiyimiz kimi, diplomatik nümayəndəlikləri mühafizə edir; digəri isə karantin tədbirlərinin həyata keçirilməsini təmin edir.

### 7.3.6. İctimai təhlükəsizlik hüququnun qeyri-hakimiyyət xarakterli subyektləri

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyətlə könüllülük əsasında ayrı-ayrı şəxslər də məşğul ola bilərlər. Söhbət polis əməkdaşı olmayan şəxslərdən gedir ki, onlar da ictimai təhlükəsizlik hüququnun subyektləri sırasına daxildir. Belə ki, ərazi üzrə ictimai asayişin və ictimai təhlükəsizliyin qorunması ilə əlaqədar sosial məsələlərin həlli üçün polis orqanları fərdi şəxslərin imkanlarından yararlana bilər. Bu zaman həmin şəxslər (daha doğrusu – vətəndaşlar) ictimai təhlükəsizlik hüququnun subyekti qismində çıxış edərək, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polisin funksiyasını yerinə yetirir. Vətəndaşlar tərəfindən polis funksiyasının yerinə yetirilməsi tarixən qədim dövrlərə təsadüf edir. Məlum olduğu kimi, Qədim Afinada, Qədim Romada və s. Vətəndaşlar müəyyən hallarda polis funksiyasını yerinə yetirirdilər.[1]

Müasir dövrdə də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması işində vətəndaşların iştirak etmələri hallarına rast gəlmək mümkündür; buna polis haqqın-

[1] Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s. 162.

da qanunvericilik yol verir. Belə ki, PQ-də polis orqanları tərəfindən ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə vətəndaşların cəlb edilə bilmələrinin mümkünlüyü barədə birbaşa göstəriş vardır (maddə 10, V hissə). Burada deyilir ki, yaşayış yeri üzrə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan sosial problemlərin birgə həlli üçün ayrı-ayrı şəxslər könüllülük əsasında polis orqanları tərəfindən bu işə cəlb edilə bilərlər. Bu kontekstdə Azərbaycan Respublikası Prezidentinin 02.03.2016-cı il tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş «**İctimai asayişin qorunmasında vətəndaşların iştirakı Qaydası**» xüsusi əhəmiyyət kəsb edir.[1] Qaydanın 1.3-cü bəndində göstərilir ki, ictimai asayişin qorunmasında vətəndaşların iştirakı könüllülük, qanunçuluq, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin üstünlüyü, insanların şərəf və ləyaqətinə hörmət, müvafiq dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq və polis orqanlarının səlahiyyətlərinin əvəzlənməsinin yolverilməzliyi prinsiplərinə əsaslanır. Polis orqanları ilə əməkdaşlığa şəxsi və işgüzar keyfiyyətlərinə görə fərqlənən, müddətli həqiqi hərbi xidmət keçmiş (qadınlar istisna olmaqla), yaşı 20-dən az və 24-dən çox olmayan Azərbaycan Respublikası vətəndaşları cəlb edilir. İctimai asayişin və təhlükəsizliyin təmin olunması işinə vətəndaşların bu cür cəlb edilmələri polis orqanlarının işində ictimaiyyətin iştirak formalarından biridir. Bu, mahiyyətcə, ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə **könüllü ictimai fəaliyyət** deməkdir. Belə fəaliyyətə vətəndaşlar polis orqanları tərəfindən cəlb olunurlar. Digər tərəfdən, ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə vətəndaşların ictimai fəaliyyəti könüllülük əsasında həyata keçirilir. Buna görə də, vətəndaşlar ictimai asayiş və təhlükəsizliyin təmin olunması üzrə ictimai fəaliyyətə könüllülük olmadan polis orqanları tərəfindən cəlb edilə bilməzlər.

Vətəndaşların ictimai asayişin qorunması ilə bağlı fəaliyyəti PQ-nin 10-cu maddəsinin V hissəsinə və adıçəkilən Qay-

---

[1] AR QT. Bakı, 2016, № 3, maddə 434.

danın müddəalarına müvafiq olaraq, aşağıdakı **üç əsas istiqamət** üzrə həyata keçirilir:

- hüquqazidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısının alınması məqsədilə maarifləndirmə və təbliğat işinin aparılması;
- narkomaniyanın, alkoqolizmin, yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası;
- cinayətlərin və digər hüquqpozmaların qarşısının alınmasını və araşdırılmasını təmin etmək üçün zəruri məlumatların polis orqanlarına verilməsi.

Bunlar ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyətin ayrı-ayrı istiqamətləridir. Əlbəttə, ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyətə bütün vətəndaşlar cəlb oluna bilməzlər. Belə ki, polis haqqında qanunvericilik bəzi kateqoriya vətəndaşların ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyətə cəlb edilə bilmələrinə yol vermir, onu qadağan edir. Həmin kateqoriya vətəndaşlar PQ-nin 10-cu maddəsinin V hissəsində və sözügedən Qaydanın 3.3-cü yarımbəndində göstərilmişdir:

- cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş şəxslər;
- psixi xəstəliklə, narkomanlıqla və alkoqolizmlə bağlı müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan şəxslər;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətsizliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş şəxslər;
- inzibati xəta törətdiyinə görə barəsində son bir il ərzində inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslər.

Aydın məsələdir ki, belə kateqoriya şəxslərin ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai

fəaliyyətə cəlb edilmələrinin yasaqlanması təbii olub, təsadüfi xarakter daşımır.

Vətəndaşlar ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edildikdə onlar bu sahədə polisin vəzifələrini yerinə yetirirlər. Bununla vətəndaşlar ictimai asayişin və təhlükəsizliyin təmin olunması sahəsində polisin vəzifələrinin yerinə yetirilməsində iştirak etmiş olurlar. Axı, unutmaq olmaz ki, qanunvericilik (PQ, maddə 10) polisin vəzifələrinin yerinə yetirilməsində ayrı-ayrı şəxslərin iştirak etmələrinə yol verir. Nəzərə almaq lazımdır ki, polis ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunması sahəsində öz üzərinə düşən vəzifələri yerinə yetirmək üçün heç kəsi əməkdaşlığa məcburi cəlb edə bilməz; bu cür iştiraketmə, qeyd etdiyimiz kimi, könüllü olmalıdır.

Şübhəsiz, ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunmasında könüllü iştirak edən şəxslərin həyata keçirdikləri fəaliyyətin əlaqələndirilməsi tələb edilir. Bundan ötrü yerli polis orqanlarının yanında **ictimai şuralar** təsis olunur; qanunvericilik buna yol verir. PQ-nin 10-cu maddəsinin V hissəsində deyilir ki, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində könüllü olaraq iştirak edən şəxslərin fəaliyyətinin əlaqələndirilməsi üçün yerli polis orqanlarının yanında ictimai şuralar yaradıla bilər. Qeyd etməliyik ki, ictimai şura yaratmaq yerli polis orqanlarının vəzifəsi deyil, hüququdur.

İctimai şura ilə bağlı münasibətlər **Hüquq qaydasının təmini üzrə İctimai Şura haqqında Əsasnamə** ilə tənzimlənir; həmin sənəd DİN-in 25.06.2009-cu il tarixli 357 nömrəli əmri ilə təsdiq edilmişdir. Sözügedən Əsasnamə Hüquq qaydasının təmini üzrə İctimai Şuranın (bundan sonra – İctimai Şura) hüquqi əsaslarını, vəzifələrini və funksiyalarını müəyyən edir.

Əsasnaməsinə görə, İctimai Şura yerli polis orqanının **inzibati sahəsində** yaradılır. Onun yaradılması **iki əsas məqsədə** xidmət edir ki, bu məqsədlərdən biri polis ilə əhali arasında qarşılıqlı əlaqəni möhkəmləndirməkdən, digəri isə ictimai təhlükəsizliyin təmin olunması və ictimai qaydanın qorunması

işində vətəndaşların iştirak səviyyəsini yüksəltməkdən ibarətdir.

Azərbaycan Respublikasının 18 yaşı tamam olan vətəndaşları İctimai Şuranın üzvü ola bilərlər; bu quruma qəbul olunmuş vətəndaşlar İctimai Şuranın üzvü hesab edilirlər; üzv kimi onlar könüllülük əsasında ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyn təmin olunması işində polis orqanları ilə əməkdaşlıq edirlər.

Qeyd etməliyik ki, hüquq qaydasını təmin etmək İctimai Şuranın əsas və başlıca işi sayılır. Məlum olduğu kimi, bu işdə polis orqanları müxtəlif istiqamətlərdə fəaliyyət göstərir. İctimai Şuranın üzvü olan vətəndaşlar da məhz polis orqanlarının fəaliyyət istiqamətlərində iştirak edirlər; bu fəaliyyət istiqamətlərindən biri ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsidir. Deməli, İctimai Şuranın üzvü qismində vətəndaşlar həm də polis orqanlarının ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsinə yönələn fəaliyyətində iştirak edirlər.

Polis orqanından fərqli olaraq, İctimai Şuranın hüquqi şəxs statusu yoxdur; İctimai Şura həm də hakimiyyət səlahiyyətinə malik deyildir. Bu səbəbdən onu hakimiyyət xarakterli qurum hesab etmək olmaz. İctimai Şura vətəndaşların elə birliyidir ki, bu birlik yalnız könüllülük əsasında ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işində polis orqanı ilə əməkdaşlıq edir, ictimai fəaliyyətlə məşğul olur.

## 7.4. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı ayrı-ayrı məsələlərin hüquqi tənzimlənməsi

### 7.4.1. İctimai qaydanın qorunması sahəsində münasibətlərin hüquqi tənzimlənməsi

Polis hüququnun əsas institutlarından biri olan ictimai təhlükəsizlik hüququ iki əsas məsələni tənzimləyir ki, bu məsə-

lələrdən biri ictimai qaydanın qorunması, digəri isə ictimai təhlükəsizliyin təmin eilməsidir. Birinci məsələ müəyyən hallarda ayrı-ayrı sənədlərdə «ictimai qaydanın təmin edilməsi» kimi nəzərdə tutulur. Məsələn, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamədə (bənd 2, 3 və s.) «ictimai qaydanın qorunması» deyil, məhz «ictimai qaydanın təmin olunması» anlayışı işlədilir. Polis haqqında qanunvericilikdə isə «ictimai qaydanın qorunması» anlayışından istifadə olunmasına təsadüf edilir. Məsələn, PQ-nin ayrı-ayrı maddələrində (3, 4, 14 və s.) «ictimai qaydanın qorunması» anlayışı işlədilir.

Polisə aid sənədlərdə bəzən «ictimai asayişin təmin edilməsi» anlayışından istifadə olunmasına rast gəlirik. Məsələn, PQ-nin 14-cü maddəsində (7-ci bənd) «ictimai asayişi təmin etmək» anlayışı işlədilir. Hətta bəzi beynəlxalq polis müqavilələrində də bu anlayışdan istifadə olunmasına üstünlük verilir (məsələn, Azərbaycan Respublikası və Küveyt arasında bağlanmış hökumətlərarası Saziş, 2013-cü il).

Sual olunur: «ictimai qaydanın qorunması», «ictimai qaydanın təmin edilməsi» və «ictimai asayişin təmin edilməsi» kimi üç anlayış bir-birindən fərqlənirmi?; bu anlayışlar arasında hədd qoymaq mümkündürmü? Verilən suala cavab olaraq, bildiririk ki, barəsində danışdığımız hər üç anlayış eynimənalıdır. Demək olar ki, onlar arasında elə də prinsipial fərq yoxdur. Nəzərə almalıyıq ki, «ictimai qayda» və «ictimai asayiş» məzmun və mənaca üst-üstə düşən anlayışlardır. Əgər ictimai qayda qorunursa, deməli, ictimai qayda təmin olunur; əgər ictimai qayda təmin olunursa, bu, ictimai qaydanın qorunması deməkdir. Odur ki, sözügedən anlayışlar eyni məna kəsb edən sinonim anlayışlardır. Bəs ictimai qayda dedikdə nə başa düşülür?

PQ-də ictimai qaydaya normativ (leqal) anlayış verilməsinə rast gəlinmir; sadəcə olaraq, orada göstərilir ki, ictimai qaydanın qorunması polisin fəaliyyət istiqamətlərindən bi-

ridir. PQ-də ictimai qaydanı qorumaq həm də polisin üzərinə qoyulan əsas vəzifələrdən biri kimi müəyyənləşdirilir.

Hüquq ədəbiyyatı səhifələrində ictimai qayda **iki mənada** işlədilir:[1] 1) sosial mənada; 2) hüquqi mənada.

**Sosial mənada ictimai qayda** dedikdə sosial normalara (əxlaq normalarına, hamılıqla qəbul edilmiş birgə yaşayış qaydalarına, davranış normalarına və s.) əməl olunması nəticəsində formalaşan ictimai münasibətlər sistemi başa düşülür. Bu mənada ictimai qayda toxunulmazdır. Dövlətin və cəmiyyətin siyasi sistemi məhz ictimai qaydanın toxunulmazlığına təminat verir. Sosial mənada ictimai qayda **sosial kateqoriya** hesab edilir.

**Hüquqi mənada ictimai qayda** dedikdə hüquq normalarına əməl olunması nəticəsində formalaşan hüquq münasibətlərinin sistemi başa düşülür. Əgər icimai qaydaya qəsd olunarsa, bu o deməkdir ki, hüquqi mənada ictimai qayda pozulmuşdur. İctimai qaydanın pozulmasına görə isə hüquqi məsuliyyət (cinayət-hüquq məsuliyyəti, inzibati-hüquq məsuliyyəti və s.) nəzərdə tutulur: ictimai qayda əleyhinə cinayət törədiləndə cinayət-hüquq məsuliyyəti yaranır; inzibati-hüquq məsuliyyətindən o halda söhbət gedə bilər ki, ictimai qayda əleyhinə inzibati xəta törədilsin. Hüquqi mənada ictimai qayda **hüquqi kateqoriya** hesab olunur. Ümumilikdə isə, ictimai qayda sosial-hüquqi kateqoriyadır.

Sosial mənada ictimai qayda genişmənalı anlayışdır. Hüquqi mənada ictimai qaydaya isə məhdudmənalı anlayış kimi baxılır. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 mart 2004-cü il tarixli 1 nömrəli qərarında ictimai qaydaya məhz məhdud (hüquqi) mənada anlayış verilmişdir. Söhbət Ali Məhkəmənin «Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında» Plenum qərarından gedir.[2] Bu qərara görə, **ictimai qayda** dedikdə cəmiyyətdə insanlar arasında təşəkkül tap-

---

[1] Abışov V., İsmayılov A., Nəcəfquliyev R. İnzibati məsuliyyət. Dərs vəsaiti. Bakı, 2012, s.294-295.

[2] *Bax:* Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013, s.1002.

mış, adət və ənənələrlə, əxlaq normaları ilə, habelə qüvvəldə olan qanunvericiliklə müəyyən edilmiş qarşılıqlı davranış və birgə yaşayış qaydalarının sistemi başa düşülür.

İctimai qayda tənzimlənməlidir. İctimai qaydanın tənzimlənməsi isə ictimai təhlükəsizlik hüququ vasitəsi ilə həyata keçirilir. Əgər ictimai təhlükəsizlik hüququ ictimai qaydanı təmin edirsə və qoruyursa, deməli, ictimai təhlükəsizlik hüququ ictimai qaydanı tənzimləyir. Tənzimetmə, nəzərə almalıyıq ki, təminetmə (qoruma) formasında həyata keçirilir.

İctimai qaydanın pozulmasına yönələn hərəkətlərə yol verilməməlidir; əgər belə hərəkətlərə yol verilərsə, bu, ictimai qaydanın pozulmasını ifadə edir. İctimai qayda pozulduqda isə ictimai təhlükəsizlik hüququ ictimai qaydanı müdafiə edir. Deməli, ictimai təhlükəsizlik hüququ ictimai qaydanı nəinki qoruyur (təmin edir), həmçinin onu müdafiə edir.

İctimai qayda xüsusilə də kütləvi tədbirlər zamanı təmin edilməli, qorunmalıdır. Bu, yəni kütləvi tədbirlər zamanı ictimai qaydanın təmin olunması qanunla polis əməkdaşının üzərinə düşən əsas vəzifələrdən biri kimi müəyyənləşdirilir.

Kütləvi tədbirlər zamanı ictimai qaydanın qorunmasında DİN-in 06.09.2000-ci il tarixli 356 nömrəli əmri vacib rol oynayır. **Kütləvi tədbirlər zamanı ictimai asayişin təmin edilməsi** barədə olan həmin akt kütləvi tədbirlər zamanı ictimai qaydanın, habelə əhalinin mühafizəsinin və təhlükəsizliyinin təmin olunması məqsədinə xidmət edir; əmr həm də fövqəladə şəraitdə polis orqanlarının və daxili qoşun hissələrinin birgə fəaliyyətini təmin etmək məqsədilə verilmişdir. Bildiyimiz kimi, kütləvi tədbirlər (mitinq, küçə yürüşü və s.) zamanı ictimai asayişin qorunması ilə bağlı müəyyən münasibətlər yaranır və belə münasibətlər məhz sözügedən əmrlə tənzimlənir.

Əmrə 4 Əlavə (1, 2, 3 və 4 nömrəli əlavələr) edilmişdir ki, onlar əmrin tərkib hissəsi sayılır. Əlavələr kütləvi tədbirlər zamanı ictimai asayişin təmin edilməsinin ayrı-ayrı aspektlərinin tənzimlənməsinə həsr olunmuşdur. **1 nömrəli Əlavənin** əhəmiyyəti daha böyükdür. Belə ki, həmin Əlavə DİN-in əməliy-

yat qərargahının tərkibi və vəzifələri barədədir; **2 nömrəli Əlavə** xüsusi əməliyyatın bölgüsü üzrə polis orqanlarının zona bölgüsünü müəyyənləşdirir; **3 nömrəli Əlavə** polis orqanlarının əməliyyat qərargahlarının tərkib və vəzifələrinə aiddir; **4 nömrəli Əlavə** isə kütləvi tədbirlər zamanı ictimai asayişin təmin edilməsinə dair nümunəvi tədbirlər planı haqqındadır.[1]

### 7.4.2. İctimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi

İctimai təhlükəsizlik hüququ ilə həm də ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı müxtəlif münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. İctimai təhlükəsizlik ümumilikdə təhlükəsizlik növlərindən biridir. Təhlükəsizliyin növləri «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası» adlı sənəddə göstərilir ki, həmin sənəd Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.[2] Burada təhlükəsizliyin müxtəlif növləri göstərilir: daxili təhlükəsizlik, sərhəd təhlükəsizliyi, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, informasiya təhlükəsizliyi və s. Təhlükəsizliyin növlərindən biri olan ictimai təhlükəsizlik cəmiyyətdə ictimai sabitliyin təmin edilməsinə yönəlmişdir. Unutmaq olmaq ki, insan haqlarının (hüquq və azadlıqların) təmin edilməsi təhlükəsizliyin bu növündən daha çox asılıdır. Bəs, ictimai təhlükəsizlik dedikdə nə başa düşülür?

Polis haqqında qanunvericilikdə, ictimai qayda kimi, ictimai təhlükəsizliyə də normativ (leqal) anlayış verilmir. Hüquq doktrinasına gəldikdə isə, qeyd etməliyik ki, hüquq elmində ictimai təhlükəsizliyə müxtəlif doktrinal (elmi) anlayışlar verilməsinə rast gəlirik. Belə ki, hüquq ədəbiyyatı səhifələrində ayrı-ayrı alimlər tərəfindən ictimai təhlükəsizliyə bir-birindən

---

[1] *Bax:* Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı. II cild. Bakı, DİN, 2011, s.180.

[2] Təhlükəsizlik xidməti. Normativ hüquqi aktlar toplusu. Bakı, 2009, s.4-43.

fərqli anlayışlar verilir. Bu anlayışlar barədə diskussiya açmaq niyyətində deyilik. Lakin, buna baxmayaraq, bəzi müəlliflər tərəfindən ictimai təhlükəsizliyə verilən anlayışlarla tanış olmağı zəruri sayırıq. Məsələn, cinayət-hüquq ədəbiyyatında ictimai təhlükəsizliyə belə anlayış verilir: ictimai təhlükəsizlik dedikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyatına aid vacib mənafelərin daxili və xarici təhlükələrdən müdafiə olunmaq vəziyyəti başa düşülür.[1]

İnzibati-hüquq ədəbiyyatı səhifələrində isə ictimai təhlükəsizliyə verilən anlayış belədir: ictimai təhlükəsizlik dedikdə vətəndaşların və vəzifəli şəxslərin fəaliyyəti nəticəsində baş verə bilən və ətrafdakılar üçün yüksək təhlükə olan hadisə və vəziyyətlərdən digər insanların həyat və sağlamlığının mühafizə edilməsi, binaların və qurğuların dağıdılmasının və ya zədələnməsinin qarşısının alınması məqsədi ilə dövlət tərəfindən müəyyən edilmiş xüsusi təşkilati-texniki qaydalara ciddi riayət edilməsinə əsaslanan münasibətlər sistemi başa düşülür.[2]

Əvvəllərdə qeyd etdiyimiz kimi, «BMT-nin İnkişaf Proqramı» adlı beynəlxalq sənəddə (1994-cü il) də insan təhlükəsizliyi konsepsiyasının təməl müddəalarına toxunulur və həmin sənədə görə, ictimai təhlükəsizlik ictimai inkişafın dağıdıcı tendensiyalardan müdafiə olunmasıdır.[3]

Zənnimizcə, **ictimai təhlükəsizlik** dedikdə ictimai həyat, yəni fiziki şəxslərin, dövlətin və cəmiyyətin həyatı üçün yaranan və ya yarana biləcək təhlükələrin qarşısının alınması və ya belə təhlükələrin aradan qaldırılması ilə bağlı olan ictimai münasibətlərin təminolunma səviyyəsi (tənzimlənmə vəziyyəti) başa düşülür. Güman edirik ki, tərəfimizdən ictimai təhlükəsizliyə verilən bu anlayış daha əhatəlidir.

---

[1] Комментарии к Уголовному кодексу Российский Федерации / Отв. ред. А.И.Рарог. М., 2010, с.4010.

[2] Abışov V., İsmayılov A., Nəcəfquliyev R. İnzibati məsuliyyət. Dərs vəsaiti. Bakı, 2012, s.295.

[3] Современные проблемы и стратегия борьбы с преступностью / Науч. ред. В.Н. Бурлаков, Б.В. Волженкин. СПб., 2005, с.215.

İctimai təhlükəsizlik ictimai qayda ilə sıx surətdə bağlıdır. İctimai həyatın ayrı-ayrı sahələri olsalar da, onlar bir-birinə yaxın anlayışlardır. Bir-birinə son dərəcə yaxın olduqlarına görə polis haqqında qanunvericilikdə «ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi» kimi vahid anlayış işlədilir; onlar, hər şeydən əvvəl, bir-birini şərtləndirir və tamamlayır. Belə ki, ictimai qaydanın qorunması ictimai təhlükəsizliyi təmin etmək məqsədinə xidmət edir; əgər ictimai təhlükəsizlik təmin edilərsə, bu, ictimai qaydanın qorunması üçün mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, PQ-nin 3-cü maddəsinin II hissəsi məhz ictimai qaydanı qorumağı və ictimai təhlükəsizliyi təmin etməyi polisin daşıdığı əsas vəzifələr sırasına aid edir; həmin Qanunun 4-cü maddəsi məhz ictimai qaydanın qorunmasını və ictimai təhlükəsizliyin təmin olunmasını polisin fəaliyyət istiqmətlərindən biri kimi müəyyənləşdirir.

İctimai təhlükəsizliyin təmin edilməsi bir sıra məsələ ilə bağlıdır. Tutulmuş və ya həbs edilmiş şəxsləri **müvəqqəti saxlama yerində saxlamaq** həmin məsələlərdən biridir. Bu məsələ ilə bağlı yaranan münasibətlər ictimai təhlükəsizlik hüququ ilə tənzimlənir.

Bildiyimiz kimi, CPM, eləcə də Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ilə (2012-ci il) müəyyən edilmiş hallarda və müddətlərdə tutulmuş və ya həbs edilmiş şəxslər müvəqqəti saxlama yerində saxlanılır.[1] Bu, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polisin üzərinə düşən vəzifələrdən biridir. **Tutulmuş şəxslər** dedikdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada azadlığı qısa müddətə məhdudlaşdırılan və müvəqqəti saxlama yerində saxlanılan şəxslər başa düşülür. Belə şəxslər barəsində tutulma kimi akt həyata keçirilir. **Tutulma** azadlığı

---

[1] *Qanunun mətni qismən verilmişdir:* Əliyev N., Eyvazov N. Polisin məlumat kitabı. Bakı, 2013, s. 1158-1161.

qısa müddətə məhdudlaşdırılmaqla şəxslərin müvəqqəti saxlama yerində saxlanılmasıdır.

**Həbs edilmiş şəxslər** dedikdə inzibati xətanın törədilməsinə görə inzibati tənbeh kimi və ya qətimkan tədbiri qismində CPM-də nəzərdə tutulmuş hallarda və qaydada azadlığı müvəqqəti məhdudlaşdırılan və müvəqqəti həbsdə saxlama yerində saxlanılan şəxslər başa düşülür. **Həbs** isə azadlığı müvəqqəti məhdudlaşdırılmış şəxslərin müvafiq həbsdə saxlama yerində saxlanılmasıdır.

Tutulmuş və ya həbs edilmiş şəxslər polis orqanlarının müvəqqəti saxlama yerlərində, əlbəttə, mühafizə edilməlidir. Əgər belə şəxslər mühafizə olunmazlarsa, təbii ki, bu, ictimai təhlükəsizliyin təmin olunması ilə ziddiyyət təşkil edərdi. Heç də sirr deyil ki, həm tutulmuş, həm də həbs edilmiş şəxslərin mühafizə olunmaması ictimai təhlükəsizlik üçün, necə deyərlər, təhlükə törədərdi. Odur ki, polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizə olunmasına xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, DİN-in Kollegiyası tərəfindən «**Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat**» kimi normativ hüquqi akt qəbul edilmişdir (14.01.2013-cü il tarixli Q1-001-13 nömrəli qərar); həmin akt polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi, habelə göstərilən xidmətin təşkili qaydalarını müəyyənləşdirir.

Qeyd etməliyik ki, müvəqqəti saxlama yerləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada daxili işlər nazirinin əmrinə əsasən yaradılır və ləğv olunur. Polis orqanlarına tabe olan müvəqqəti saxlama yerləri dövlət büdcəsi hesabına maliyyələşdirilir. Belə ki, tutulmuş və ya həbs edilmiş şəxslərin mühafizəsini təmin etmək məqsədilə polis orqanlarında **mühafizə-müşayiət hissələri** yaradılır. Məhz mühafizə-müşayiət hissələri vasitəsi ilə tutulmuş və ya həbs edilmiş şəxslər mühafizə olunur. Təsadüfi deyil ki, müvəqqəti saxlama yerlərində saxanılan şəxsləri mühafizə etmək onların

üzərinə düşən əsas vəzifə hesab edilir. Tutulmuş və ya həbs edilmiş şəxslər həm də istintaq təcridxanalarına, səhiyyə müəssisələrinə, məhkəməyə, dəyişdirmə məntəqələrinə hərəkət edən zaman mühafizə-müşayiət hissələri tərəfindən həm mühafizə olunur, həm də müşayiət edilirlər; istintaq hərəkətləri zamanı da onların mühafizə və müşayiət olunması həyata keçirilir.

Bəs tutulmuş və ya həbs edilmiş şəxslərin mühafizə olunması dedikdə nə başa düşülür? Verdiyimiz suala cavab olaraq bildiririk ki, tutulmuş və ya həbs edilmiş şəxslər əgər etibarlı şəkildə təcrid oluna və müşayiət edilərlərsə, bu, onların mühafizə olunması deməkdir. Tutulmuş və ya həbs edilmiş şəxslər müvəqqəti saxlama yerinin ərazisində hərəkət zamanı və təyin olunmuş yerə çatdırılarkən mühafizə ilə təmin olunarlarsa, bu da, onların həmçinin mühafizə olunmasını ifadə edir.

Tutulmuş və ya həbs edilmiş şəxlərin mühafizə və müşayiəti ilə bağlı polis orqanları müvafiq vəzifələr yerinə yetirirlər. Həmin vəzifələrin yerinə yetirilməsi işi BİTİ tərəfindən təşkil olunur.

İctimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlər həm də **azyaşlılar arasında hüquq qaydasının pozulmasının və nəzarətsizliyin (baxımsızlığın) qarşısının alınması** ilə bağlı olaraq yaranır ki, bunun, şübhəsiz, ictimai təhlükəsizliyin təmin olunmasında heç də az olmayan əhəmiyyəti vardır. Unutmaq olmaz ki, azyaşlıların baxımsızlığının (nəzarətsizliyinin) və hüquq pozuntularının qarşısının alınmaması ictimai təhlükəsizliyin təmin olunmasına mənfi təsir göstərir. Odur ki, polis orqanları azyaşlılar arasında hüquq qaydasının pozulmasının və nəzarətsizliyin qarşısının alınmasında iştirak etməlidir. Bu, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində polis orqanının üzərinə düşən vəzifələrdən biri hesab edilir.

Azyaşlılar arasında hüquq qaydasının pozulmasının və nəzarətsizliyin qarşısının alınması ilə bağlı yaranan münasibətlər Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Res-

publikasının Qanunu ilə (2005-ci il) tənzimlənir. Bu Qanuna görə, azyaşlıların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını bir neçə orqan həyata keçirir ki, **daxili işlər orqanları** həmin onlardan biridir.[1] DİO azyaşlılarla profilaktik işi öz səlahiyyətləri daxilində həyata keçirir; baxımsızlığın və hüquq pozuntularının profilaktikası üçün DİO-nun tərkibində **xüsusi polis qurumu** mövcuddur. Bundan başqa, yetkinlik yaşına çatmayanlar üçün DİO-da **müvəqqəti təcridetmə mərkəzləri** kimi qurum da fəaliyyət göstərir. Belə mərkəzlər azyaşlıların həyat və sağlamlığının qorunması, təkrar hüquq pozuntusu törətməməsi üçün onların sutka ərzində qəbulunu və müvəqqəti saxlanmasını təmin edir, habelə mərkəzlərə gətirilmiş azyaşlılarla fərdi profilaktik iş aparır.

Azyaşlılarla aidiyyəti üzrə müvafiq profilaktik iş həyata keçirilməlidir. Bu iş BİTİ tərəfindən təşkil edilir; bundan ötrü həmin Baş İdarənin tərkibində Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşin Təşkili Şöbəsi yaradılmışdır.

İctimai təhlükəsizliyin təmin edilməsi sahəsində yaranan münasibətlər həm də **icazə sistemi** ilə bağlı olaraq yaranır. Nəzərə almalıyıq ki, icazə sistemi ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis orlanlarının fəaliyyətinin əsas istiqamətlərindən biridir. Əvvəllərdə qeyd etdiyimiz kimi, icazə sisteminin tətbiqi ilə əlaqədar yaranan münasibətlər «**Azərbaycan Respublikasının daxili işlər orqanlarında icazə sisteminin təşkilinə dair Təlimat**» kimi hüquqi sənədlə tənzimlənir ki, normativ hüquqi aktlarından biri olan həmin sənəd DİN-in 03.09.2012-ci il tarixli Q 21-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir.

İcazə sistemi, hər şeydən əvvəl, **xidməti və mülki silahın əldə edilməsinə xüsusi icazənin verilməsini** nəzərdə tutur. Xidməti və mülki silahın dövriyyəsi ilə bağlı yaranan münasibətlər «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (1998-ci il) tənzimlənir.

---

[1] Əliyev N., Eyvazov N. Polisin məlumat kitabı. Bakı, 2013, s.1141.

**Xidməti silah** dedikdə ayrı-ayrı şəxslər tərəfindən istifadə olunması üçün nəzərdə tutulmuş elə bir silah başa düşülür ki, həmin şəxslər insanların həyat və sağlamlığının qorunması, təbiətin, təbii ehtiyatların, mülkiyyətin, qiymətli və təhlükəli yüklərin, xüsusi göndərişlərin mühafizəsi ilə bağlı vəzifələri yerinə yetirirlər. **Mülki silah** isə özünümüdafiə, ov və idmanla məşğul olma üçün nəzərdə tutulan silahdır.

Xidməti silah DİN-in xüsusi icazəsi əsasında yalnız xüsusi nizamnamə vəzifələrini yerinə yetirən dövlət orqanları və hüquqi şəxslər tərəfindən əldə edilir. Bunlardan əlavə, aşağıdakılar da xidməti silaha malik ola bilərlər: 1) xidməti və mülki silahın işlənib hazırlanması, sınaqdan keçirilməsi, istehsalı və ya satışı ilə məşğul olan müəssisələr; 2) idman və ovçuluq cəmiyyətləri, təhsil müəssisələri (Təlimatın 7.1.1.–7.1.3-cü bəndləri). Deputatlar və vəzifəli şəxslər öz səlahiyyətlərini icra etdikləri bütün müddət ərzində xidməti silahı saxlamaq və gəzdirmək hüququna malikdirlər; səlahiyyətləri başa çatdıqda onlar silahı DİN-in Təchizat İdarəsinə təhvil verirlər; həmin şəxlərə xidməti silahın saxlanılmasına və gəzdirilməsinə verilmiş şəhadətnamə etibarsız sayılır.

Mülki silahın əldə edilməsinə gəldikdə, qeyd etməliyik ki, Azərbaycan Respublikasının 18 yaşına çatmış hər bir vətəndaşı mülki silah əldə etmək hüququna malikdir. Bu hüququ həyata keçirmək üçün vətəndaşlar ərazi polis orqanına və ya BİTİ-yə müraciət etməlidirlər; onlar həmçinin müvafiq sənədlər (ərizə, şəxsiyyət vəsiqəsi, tibbi arayış və s.) təqdim etməyə borcludurlar.

İcazə sistemi BİTİ tərəfindən təşkil olunur. Bundan ötrü Baş İdarənin tərkibində İcazə Sistemi Bölməsi kimi struktur hissə yaradılmışdır. İcazə sisteminin təşkili ilə bağlı həm də ərazi polis orqanları fəaliyyət göstərirlər ki, ərazi polis orqanlarının bu fəaliyyətinə BİTİ nəzarət edir.

İcazə sistemi təkcə xidməti və mülki silahın dövriyyəsinə xüsusi icazənin verilməsini nəzərdə tutmur. İcazə sistemi həm də aşağıdakılar üzrə həyata keçirilən tədbirlərdən ibarətdir: 1)

müxtəlif növ möhür və ştampların hazırlanmasına xüsusi razılığın verilməsi; 2) özəl (qeyri-dövlət) mühafizə fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılıq (lisenziya) verilməsi; 3) çoxaldıcı rəngli qurğuların (kseroksların) qeydiyyatının apırılması; 4) qanunvericilikdə nəzərdə tutulmuş əşyaların, o cümlədən odlu silahın, döyüş sursatının, zəhərli maddələrin və digər zərərli materialların əldə edilməsi, saxlanılması, gəzdirilməsi, daşınması üçün müəyyənləşdirilmiş qaydada icazə verilməsi; 5) sair tədbirlər.

Cinayət prosesində iştirak edən şəxslər **dövlət müdafiəsi** ilə təmin edilməlidir. Bu məsələ ilə bağlı ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlər də ictimai təhlükəsizlik hüququ ilə tənzimlənir. Yaddan çıxarmaq olmaz ki, həmin münasibətlər ictimai təhlükəsizliyin təmin olunması sahəsində yaranan münasibətlərin aspektlərindən (tərəflərindən) biridir. Tam əminliklə deyə bilərik ki, cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi ilə bağlı yaranan münasibətlər icimai təhlükəsizliyin təmin olunması sahəsində əmələ gələn münasibətlər sferasına aiddir. Təsadüfi deyil ki, PQ-də cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi ilə təmin olunması məsələsi ictimai təhlükəsizliyin qorunması sahəsində polisin üzərinə qoyulan vəzifələrdən biri kimi müəyyən edilir (maddə 14, bənd 11). Digər tərəfdən, ictimai təhlükəsizlik nəinki dövlətin və cəmiyyətin, həmçinin fiziki şəxslərin (şəxsiyyətin) həyati əhəmiyyətə malik olan vacib mənafelərinin müdafiə olunması vəziyyətidir.

Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi ilə təmin olunması ilə bağlı yaranan münasibətləri tənzimləməkdən ötrü ayrıca qanun da qəbul edilmişdir. Söhbət **«Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunundan** gedir ki, 1998-ci ildə qəbul olunan həmin Qanun 1999-cu ildə qüvvəyə minmişdir. Bu Qanun cinayət prosesində iştirak edən şəxslərin (şahidlərin, cinayət işi üzrə zərərçəkən şəxslərin və digər şəxslərin) təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirləri müəyyən-

ləşdirir. Sözügedən Qanuna görə, təhlükəsizlik tədbirləri həm də müdafiə olunan şəxslərin yaxın qohumları barəsində tətbiq edilə bilər. Bəs, kimlər «dövlət tərəfindən müdafiə olunan şəxslər» adlanır?

Qeyd etmək vacibdir ki, səlahiyyətli bu və ya digər dövlət orqanı müəyyən şəxslər barəsində təhlükəsizlik tədbirlərinin tətbiq olunması haqqında müvafiq qərar qəbul edə bilər. Məhz belə şəxslər müdafiə olunan şəxslər adlanırlar. Deməli, **müdafiə olunan şəxslər** dedikdə elə şəxslər başa düşülür ki, onlar barəsində səlahiyyətli dövlət orqanları tərəfindən təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında müvafiq qərar qəbul edilir. Belə şəxslərə, əsasən, **cinayət prosesində iştirak edənlər** daxildir: 1) şübhəli və ya təqsirləndirilən şəxs, onların müdafiəçiləri və qanuni nümayəndələri; 2) cinayət işi üzrə zərər çəkmiş şəxs, onun qanuni nümayəndəsi və təmsilçisi, xüsusi ittiham və onun nümayəndəsi; 3) mülki iddiaçı, mülki cavabdeh, onların nümayəndələri; 4) şahidlər; 5) ekspert, mütəxəssis, tərcüməçi və hal şahidləri.[1]

Elə şəxslər də vardır ki, onlar cinayət prosesində iştirak etməyə bilərlər. Söhbət hüquq-mühafizə orqanlarına cinayət haqqında məlumat vermiş və ya cinayətin aşkar edilməsində, qarşısının alınmasında və ya açılmasında iştirak etmiş şəxslərdən gedir. Şübhəsiz, bu kateqoriya şəxslər barəsində də təhlükəsizlik tədbirləri görülür. Odur ki, cinayət prosesində iştirak etməmələrinə baxmayaraq, onlar müdafiə olunan şəxslər sırasına aid edilir.

Yuxarıda adıçəkilən Qanuna görə (maddə 7), müdafiə olunan şəxslər barəsində aşağıdakı növlərdə təhlükəsizlik tədbirləri tətbiq edilə bilər: 1) müdafiə olunan şəxsi, onun mənzilini və əmlakını mühafizə etmə; 2) müdafiə olunan şəxsə xüsusi fərdi müdafiə vasitələri vermə, onu mövcud təhlükə barədə xəbərdar etmə; 3) müdafiə olunan şəxsi müvəqqəti olaraq təhlükəsiz yerdə yerləşdirmə; 4) müdafiə olunan şəxs barəsində olan

---

[1] *Cinayət prosesində iştirak edən şəxslər barədə bax:* Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı, 2008, s. 172.

məlumatların məxfiliyini qoruma; 5) müdafiə olunan şəxsi başqa işə keçirmə, onun iş və ya təhsil yerini dəyişdirmə, onu başqa yaşayış yerinə köçürmə; 6) müdafiə olunan şəxsin sənədlərini və onun xarici görkəmini dəyişdirmə; 7) müdafiə olunan şəxsin iştirak etdiyi hallarda məhkəmə baxışını qapalı keçirmə.

Qeyd etməliyik ki, müdafiə olunan şəxslər barəsində təhlükəsizlik tədbirlərinin tətbiqi haqqında müvafiq qərar qəbul olunmalıdır. Qərar cinayət prosesini həyata keçirən orqan tərəfindən cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada çıxarılır. Qəbul edilmiş qərarda göstərilir ki, müdafiə olunan şəxs barəsində hansı növ təhlükəsizlik tədbiri görülməlidir. Təhlükəsizlik tədbirlərini isə öz səlahiyyətləri hüdudlarında müvafiq mərkəzi icra hakimiyyəti orqanları (DİN, DTX və s.) həyata keçirir.

İctimai təhlükəsizliyin təmin edilməsi sahəsində münasibətlər həmçinin **polis sahə inspektorlarının** fəaliyyəti ilə bağlı yaranır. Polis sahə inspektorlarının fəaliyyəti həm də ictimai təhlükəsizliyin təmin edilməsinə yönəlmişdir; onlar öz fəaliyyətini polis sahə məntəqəsində həyata keçirirlər. Polis sahə məntəqəsi müxtəlif məqsədlərə xidmət edir ki, bunlardan biri ictimai təhlükəsizliyin təmin olunması işinə ictimaiyyəti cəlb etməkdən ibarətdir.

Polis sahə məntəqəsi ilə bağlı yaranan münasibətləri tənzimləmək üçün DİN tərəfindən ayrıca normativ hüquqi akt qəbul edilmişdir. «**Polis sahə məntəqəsi haqqında Təlimat**» adlanan həmin akt DİN-in 25.06.2009-cu il tarixli 358 nömrəli əmri ilə təsdiq edilmişdir. Bu akta görə, **polis sahə məntəqəsi** polis sahə rəisinə və polis sahə inspektoruna təhkim edilmiş bina və ya otaqdır. Burada fəaliyyət göstərən polis sahə inspektorları həm də ictimai təhlükəsizliyin təmin olunması istiqamətində işləyirlər. Təsadüfi deyil ki, polis sahə inspektorlarının işini təşkil etmək vəzifəsi BİTİ-yə həvalə olunmuşdur. Bundan ötrü Baş İdarənin tərkibində Polis Sahə İnspektorlarının İşinin Təşkili Şöbəsi fəaliyyət göstərir.

İctimai təhlükəsizlik hüququnun tənzimlədiyi münasibətlərə həm də **pasport-qeydiyyat və uçot işləri aparılması ilə bağlı münasibətlər** aid olunur. Nəzərdən qaçırmaq olmaz ki, pasport-qeydiyyat və uçot işlərinin aparılması polisin üzərinə düşən vəzifələrdən biridir. Bu vəzifənin icra edilməsinin həm ictimai qaydanın qorunması, həm də ictimai təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyəti vardır.

Pasport-qeydiyyat münasibətinə görə, şəxslər yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmalıdır ki, qeydiyyatın məqsədi Azərbaycan Respublikasında yaşayan şəxslərin uçota alınması, onların başqa şəxslər, dövlət və cəmiyyət qarşısında vəzifələrinin icra edilməsi, insan və vətəndaş hüquqlarının (azadlıqlarının) həyata keçirilməsi (sosial müdafiə, pensiya təminatı, hərbi xidmətə çağırış, məhkəmə qərarlarının icrası və s.) üçün zəruri şərait yaratmaqdır.

Pasport-qeydiyyat münasibətlərinin hüquqi tənzimlənməsinə gəldikdə, qeyd etməliyik ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il) vasitəsilə həyata keçirilir. Həmin Qanunda yaşayış yeri və olduğu yerə anlayış verilir. **Yaşayış yeri** bu və ya digər əsasa görə şəxsin daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evləri, xüsusi təhsil müəssisələri və digər bu kimi yaşayış yerləri başa düşülür. **Şəxsin olduğu yer** dedikdə isə onun yaşayış yeri sayılmayan müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və digər belə ictimai yerlər, habelə yaşayış binası (özünün, qohumunun, tanışının və b.) başa düşülür.

Çoxaspektli məzmuna malik olan ictimai təhlükəsizlik münasibətləri həm də **polisin post-patrul xidməti** ilə bağlı olaraq yaranır. Nəzərdən qaçırmaq olmaz ki, polisin həyata keçirdiyi post-patrul xidməti ictimai təhlükəsizliyin təmin edil-

məsinə və ictimai qaydanın qorunmasına yönəlmişdir. Bəs, post-patrul xidməti dedikdə nə başa düşülür?

Heç də sirr deyil ki, yaşadığımız şəhərlərin və məntəqələrin küçələrində, meydanlarında, parklarında, avtomobil yollarında, vağzallarında, limanlarında, aeroportlarında və digər ictimai yerlərdə həm ictimai təhlükəsizlik təmin edilməli, həm də ictimai qayda qorunmalıdır. Bunu, yəni ictimai təhlükəsizliyi təmin etmənin və ictimai qaydanı qorumağın ən vacib vasitəsi məhz polisin həyata keçirdiyi post-patrul xidmətidir. Post-patrul xidməti həm də cinayətkarlıqla mübarizə işinin təmin edilməsinə yönəlmişdir. Deyilənlər post-patrul xidmətinə anlayış verməyimiz üçün kifayətdir.

**Polisin post-patrul xidməti** dedikdə elə bir vasitə başa düşülür ki, bu vasitənin köməyi ilə ictimai yerlərdə (küçələrdə, meydanlarda, parklarda, avtomobil yollarında, vağzallarda, limanlarda, aeroportlarda və digər ictimai yerlərdə), eləcə də müxtəlif kütləvi tədbirlər zamanı ictimai təhlükəsizlik və cinayətkarlıqla mübarizə işi təmin edilir.

# VII FƏSİL ÜZRƏ SXEM



# VIII FƏSİL. CİNAYƏT-AXTARIŞ HÜQUQU

## 8.1. Cinayət-axtarış hüququ polis hüququnun institutu kimi

### 8.1.1. Cinayət-axtarış hüququ anlayışı

Polis hüququnun tərkib hissələrindən biri cinayət-axtarış hüququ hesab edilir. Belə ki, polis hüququnun xüsusi hissəsinin tərkibində həm də cinayət-axtarış hüququ fərqləndirilir.[1] Bu cür fikir söyləmək üçün tutarlı arqument və kifayət qədər yetərli əsaslar mövcuddur. Bildiyimiz kimi, polis hüququ iki hissədən – ümumi və xüsusi hissələrdən ibarətdir. Polis hüququnun xüsusi hissəsi özündə ayrı-ayrı hüquqi qurumları – bir neçə struktur elementi birləşdirir. Bu hüquqi qurumlardan (elementlərdən) biri də məhz cinayət-axtarış hüququdur.

Cinayət-axtarış hüququnun nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanı sayılan polisin üzərinə qanunla bir sıra əsas vəzifə qoyulmuşdur. Polis haqqında qanunvericilik (PQ, maddə 3, II hissə) polisin əsas vəzifələrini müəyyənləşdirir ki, bu vəzifələrdən bir qismi cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər görmək, törədilmiş cinayətləri açmaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək və s. tədbirlərdən ibarətdir. Bu isə təsadüfi xarakter daşımır. Belə ki, polis tərəfinndən həyata keçirilən cinayət-axtarış fəaliyyəti insanların həyat və sağlamlığını, hüquq və azadlıqlarını və s. mənafeləri, eləcə də milli təhlükəsizliyi cinayətkar qəsdlərdən qorumağa və müdafiə etməyə yönəlmişdir. Cinayət-axtarış fəaliyyəti ilə həm də Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş digər subyektlər məşğul olurlar.

---

[1] *Bax:* Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.124.

Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi nəticəsində, şübhəsiz, müxtəlif hüquq-mühafizə və əməliyyat-axtarış tədbirləri görülür. Təbii ki, belə tədbirlərin görülməsi ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Həmin münasibətlər isə müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir ki, bu normalar polis hüququnun tərkibinə daxil olub, onun bir hissəsini təşkil edir. Məhz belə normaların sistemi polis hüququnda cinayət-axtarış hüququ adlanır. Deməli, polis orqanlarında cinayət-axtarış fəaliyyətinin mövcudluğu və həyata keçirilməsi polis hüququnun tərkibində cinayət-axtarış hüququnun formalaşması üçün zəmin rolunu oynayır, onun əmələgəlmə əlaməti sayılır. Lakin, qeyd etməliyik ki, bəzən, hüquq ədəbiyyatı səhifələrində və tədris praktikasında «cinayət-axtarış hüququ» anlayışı ilə yanaşı, «əməliyyat-axtarış hüququ» termini də işlədilir.[1] Ancaq elmi dövriyyədə «cinayət-axtarış hüququ» ifadəsinin işlədilməsinə daha çox üstünlük verilir.[2] Nəzərə almaq lazımdır ki, cinayət-axtarış hüququ (fəaliyyəti) daha genişmənalı anlayış olub, özündə əməliyyat-axtarış fəaliyyəti sahəsində mövcud olan ictimai münasibətlərlə yanaşı, həm də cinayət-prosessual münasibətlərin, yaxud cinayət-cəza münasibətlərinin bəzi detallarını tənzimləyir;[3] məhdud mənada cinayət-axtarış fəaliyyəti isə əməliyyat-axtarış fəaliyyətini

---

[1] *Məsələn, bax:* Bayramzadə X.Ə. Əməliyyat-axtarış fəaliyyətinə nəzarət. Dərs vəsaiti. Bakı, 2007; Hüseynov Ş.İ., Səlimov K.N., Əliyev B.Ə. Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti (Ümumi və Xüsusi hissə). Dərs vəsaiti. Bakı, 2011; Чувилёв А.А. Оперативно-розыскное право. М., 2000 və s.

[2] *Bax:* Məmmədov F., Mustafayev M. Cinayət-axtarış hüququnun əsasları (dərs vəsaiti). Bakı, 2011; Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012; Muradov F., Salmanzadə N. Cinayət-axtarış hüququnun əsasları fənni üzrə Tədris Proqramı. Bakı, 2015; Шумилов А.Ю. Начало углоловно-розыскного права. М., 1998; Шумилов А.Ю. Оперативно-розыскная энциклопедия. М., 2004, с. 316 – «cinayət-axtarış hüququ» termini işlədilir və ona anlayış verilir və s.

[3] Məmmədov F., Mustafayev M. Cinayət-axtarış hüququnun əsasları (dərs vəsaiti). Bakı, 2011, s.16.

ehtiva edir.[1] Eyni zamanda cinayətlərin və digər xətaların qarşısının alınması və açılması üzrə inzibati funksiyaları DİN öz struktur tərkibinə daxil olan Baş Cinayət Axtarışı İdarəsi vasitəsilə yerinə yetirir. Göründüyü kimi, burada «əməliyyat-axtarış» deyil, «cinayət-axtarış»[2] ifadəsi işlədilir; həm də əməliyyat-axtarış fəaliyyəti mahiyyət etibarı ilə cinayətlə bağlı anlayışdır və onun qarşısının alınmasına xidmət edir. Fikrimizcə, belə yanaşma, yəni «cinayət-axtarış hüququ» ifadəsinin işlədilməsi həm məntiqi, həm də hüquqi kontekstdə ağlabatan olub həqiqətə uyğundur.

Beləliklə, **cinayət-axtarış hüququ** dedikdə polis hüququnun elə bir tərkib hissəsi başa düşülür ki, bu hissə özündə polis tərəfindən cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən ayrı-ayrı polis-hüquq normalarını birləşdirir. Cinayət-axtarış hüququ da məhz həmin hüquq normalarının məcmusundan ibarətdir.

Qeyd etməliyik ki, cinayət-axtarış hüququ polis hüququnun böyük əhəmiyyətə malik olan tərkib hissələrindən biridir. Belə ki, cinayət-axtarış hüququnun əsas «işi» cinayət-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsini həyata keçirməkdən ibarətdir. Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsində isə aşağıdakı işlərin görülməsi mümkün olur:

hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

- törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;
- cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;
- məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması, naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi və s.

---

[1] Шумилов А.Ю. Оперативно-розыскная энциклопедия. М., 2004, с. 315.

[2] *«Cinayət-axtarış» anlayışı barədə ətraflı bax:* Юридическая энЦИКлопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.881.

Bunların hamısı cinayət-axtarış fəaliyyətinin **vəzifələridir**. Bu vəzifələrin yerinə yetirilməsi, təbii ki, həm cəmiyyət, həm dövlət, həm də şəxslərin həyatı, ümumiyyətlə, ictimai münasibətlər sistemi üçün mühüm əhəmiyyətə malikdir. Bu isə, öz növbəsində, cinayət-axtarış fəaliyyətinin, eləcə də bu fəaliyyətin hüquqi tənzimlənməsini həyata keçirən cinayət-axtarış hüququnun özünün nə qədər aktual və əhəmiyyətli olmasını göstərir, şərtləndirir.

Cinayət-axtarış hüququnun əhəmiyyəti və rolu həm də cinayət-axtarış fəaliyyətinin hansı **məqsədlə** həyata keçirilməsi ilə müəyyən edilir. Belə ki, cinayət-axtarış fəaliyyəti bütövlükdə insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən qorumaq məqsədi ilə həyata keçirilir.

### 8.1.2. Cinayət-axtarış hüququnun nizamasalma predmeti

Cinayət-axtarış hüququna verdiyimiz elmi (doktrinal) anlayışdan məlum olur ki, cinayət-axtarış hüququ polis orqanlarında cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar ictimai münasibətləri hüquqi cəhətdən tənzimləyir. Məhz həmin münasibətlər cinayət-axtarış hüququnun nizamasalma predmetini təşkil edir. Nəzərdən qaçırmaq olmaz ki, bu və ya digər hüquqi qurum hansı növ ictimai münasibətləri tənzimləyirsə, həmin münasibətlər də onun nizamasalma predmeti sayılır. Deməli, cinayət-axtarış hüququnun **nizamasalma predmeti** dedikdə onun tənzimlədiyi cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlər başa düşülür; həmin ictimai münasibətlər cinayət-axtarış hüquq münasibətləri adlanır.[1]

---

[1] *Bax:* Шумилов А.Ю. Оперативно-розыскная энциклопедия. М., 2004, с. 319.

Göründüyü kimi, cinayət-axtarış hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər polis orqanları tərəfindən cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranır. Bu zaman, təbii ki, ortaya belə bir sual çıxır: cinayət-axtarış fəaliyyəti dedikdə nə başa düşülür?

Qeyd etmək lazımdır ki, 1999-cu il 28 oktyabr tarixdə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi olaraq cinayət-axtarış fəaliyyətinə həsr edilən ayrıca qanun qəbul etmişdir. Söhbət «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunundan (ƏFQ) gedir ki, o, dərc olunduğu gündən qüvvəyə minmişdir (11.11.1999-cu il). ƏFQ-nin 1-ci maddəsində əməliyyat-axtarış fəaliyyətinə normativ (leqal), yəni qanunvericilik səviyyəsində anlayış verilmişdir. Bu maddədə ehtiva olunan müddəalara əsaslanaraq qeyd edə bilərik ki, **cinayət-axtarış fəaliyyəti** dedikdə qanunla müəyyən edilmiş cinayət-axtarış tədbirlərinin görülməsi başa düşülür və bu tədbirlər səlahiyyətli müvafiq dövlət orqanları tərəfindən aşkar (açıq) və qeyri-aşkar (gizli) üsullarla tətbiq edilir. Tətbiq edilən cinayət-axtarış tədbirlərinin dairəsi isə kifayət qədər genişdir. Məsələn, telefon danışıqlarına qulaqasma, poçt, teleqraf və digər göndərişləri yoxlama, məhkumların məktublarını yoxlama, fiziki şəxsləri (insanları) güdmə, şəxsiyyətin eyniləşdirilməsi və s. hərəkətlər cinayət-axtarış tədbirləri hesab edilir ki, bu tədbirlər səlahiyyətli müvafiq dövlət orqanları tərəfinndən həyata keçirilir. Həmin tədbirlərin siyahısı ƏFQ-nin 10-cu maddəsində verilmişdir. Cinayət-axtarış tədbirinin nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, qanunvericilikdə ona normativ (leqal) anlayış verilmir. Buna görə də, cinayət-axtarış tədbirlərinə definisiya (tərif) vermək polis hüquq elminin vəzifəsi hesab edilir.

**Cinayət-axtarış tədbirləri** dedikdə cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsinə yönələn elə hərəkətlər başa düşülür ki, bu hərəkətlər səlahiyyətli dövlət orqanları tərəfindən yerinə yetirilir. Belə hərəkətlər isə ƏFQ-də müəyyənləşdirilmişdir (maddə 10). Məhz həmin hərəkətlərin edilməsi ilə bağlı yara-

nan ictimai münasibətlər cinayət-axtarış hüququnun nizamasalma predmetini təşkil edir.

Cinayət-axtarış hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir. Bu, onunla izah edilir ki, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsinə yönələn hərəkətlər, yəni görülən əməliyyat-axtarış və digər tədbirlər olduqca müxtəlif olub, ayrı-ayrı növlərə bölünür. Hətta, aydın olmaq üçün onlara çoxlu misallar da çəkə bilərik: məsələn, ayrı-ayrı şəxslərə məxsus olan nəqliyyat vasitələrinə baxış keçirilir; səlahiyyətli dövlət orqanı yaşayış binasını müşahidə edir; törədilmiş cinayətin müəyyən edilməsi və açılması üçün səlahiyyətli dövlət orqanı hər hansı şəxsi güdür; səlahiyyətli dövlət orqanı istintaq eksperimenti keçirir, yəni cinayətkar fəaliyyəti təqlid edən (yamsılayan) davranış modeli hazırlayır; bu və ya digər şəxsin yaşayış evinə daxilolma və baxış həyata keçirilir və s. Yuxarıda sadaladığımız cinayət-axtarış tədbirlərinin görülməsi ilə bağlı müəyyən növ ictimai münasibətlər yaranır ki, həmin münasibətlər cinayət-axtarış hüququnun nizamasalma predmetinə daxildir.

### 8.1.3. Polis hüquq sistemində cinayət-axtarış hüququnun yeri

Qeyd etdik ki, cinayət-axtarış hüququ polis hüququnun tərkib hissəsi (struktur elementi) hesab edilir. Bu zaman tərkib hissə (struktur element) kimi cinayət-axtarış hüququ polis hüquq sitemində hansı statusa malikdir və hansı yeri tutur?

Verilən suala cavab olaraq bildiririk ki, hər bir ayrıca hüquqi qurumun, o cümlədən cinayət-axtarış hüququnun özünəməxsus nizamasalma predmeti vardır. Məhz özünəməxsus nizamasalma predmetinə malik olması imkan (əsas) verir ki, cinayət-axtarış hüququ polis hüququnda ayrıca hüquqi qurum – tərkib hissəsi (struktur element) kimi fərqləndirilsin. Həm də nəzərdən qaçırmaq olmaz ki, cinayət-axtarış hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər eyni-

növlü olub, məzmunca bir-birinə oxşayır, yəni oxşar ictimai münasibətlərdir. Eyninövlü (oxşar) münasibətləri tənzimləyən hüquq normalarının sistemi (məmusu) isə hüquq institutu adlanır ki, bu, hüquq elmində (doktrinada) hamılıqla qəbul edilmiş elmi-nəzəri fikirdir. Bu fikrə görə, cinayət-axtarış hüququ ayrıca hüquq institutudur; polis hüququnun tərkibinə cinayət-axtarış hüququ məhz belə statusla, yəni **hüquq institutu** statusu ilə daxil olur; polis hüquq sistemində onun tutduğu yeri belə müəyyənləşdirmək ağlabatan olub, həqiqətə uyğundur. Daha dəqiq və konkret söyləsək, cinayət-axtarış hüququ polis hüququnun **xüsusi hissəsinin** ayrıca müstəqil institutlarından biri sayılır; həm də ona görə ki, cinayət-axtarış hüququnun özünəməxsus prinsipləri vardır. Digər tərəfdən, cinayət-axtarış hüququ öz subyektləri vasitəsi ilə malik olduğu funksiyaları həyata keçirir, qarşıya qoyduğu məqsədə nail olur və üzərinə düşən vəzifələri yerinə yetirir. Unutmaq olmaz ki, prinsiplərsiz və subyektlərsiz heç bir hüquq institutu mövcud ola, müstəqil hüquqi qurum kimi ayrıla bilməz.

## 8.2. Cinayət-axtarış hüququnun mənbələri, prinsipləri və subyektləri

### 8.2.1. Cinayət-axtarış hüququnun mənbələri

Cinayət-axtarış hüququ iki əsas mənada işlədilir: 1) subyektiv mənada; 2) obyektiv mənada. **Subyektiv mənada cinayət-axtarış hüququ** dedikdə cinayət-axtarış fəaliyyəti subyektlərinə qanunla verilən hüquqi imkanlar başa düşülür ki, onlar bu imkandan istifadə etməklə cinayət-axtarış tədbirlərini həyata keçirirlər. Deməli, subyektiv mənada cinayət-axtarış hüququ cinayət-axtarış tədbirlərinin həyata keçirilməsində subyektlərin malik olduqları hüquqi imkandır. Bu baxımdan, subyektiv mənada cinayət-axtarış hüququ subyektiv hüquq kimi çıxış edir və «subyektiv cinayət-axtarış hüququ» kimi anlayışla əhatə olunur.

Qeyd etməliyik ki, cinayət-axtarış fəaliyyətinin subyektləri öz səlahiyyətlərini yerinə yetirərkən subyektiv cinayət-axtarış hüquqlarına malik olur, onlardan istifadə edirlər. Belə hüquqların əhatə dairəsi kifayət qədər genişdir: cinayət-axtarış tədbirlərini həyata keçirmək hüququ, cinayət-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq hüququ, informasiya sistemindən istifadə etmək hüququ, cinayət-axtarış fəaliyyəti həyata keçirilən zaman ayrı-ayrı şəxslərə məxsus olan yaşayış binasından istifadə etmək hüququ və s.

**Obyektiv mənada cinayət-axtarış hüququ** dedikdə cinayət-axtarış tədbirlərinin görülməsi ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarının sistemi (məcmusu) başa düşülür ki, bu mənada cinayət-axtarış hüququ polis hüququnun institutlarından biri kimi tanınır. Əvvəlki paraqraflarda cinayət-axtarış hüququna verdiyimiz elmi (doktrinal) anlayış da obyektiv mənada – hüquq institutu mənasında cinayət-axtarış hüququna verilən anlayışdır.

Obyektiv mənada (hüquq institutu mənasında) cinayət-axtarış hüququ kifayət sayda ayrı-ayrı hüquq normalarından ibarətdir. Bu normalar zahirən öz əksini cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilikdə tapır, mövcud olur və ifadələnir. Cinayət-axtarış hüququnun ibarət olduğu hüquq normalarının zahirən əks edildiyi, mövcud olduğu və ifadələndiyi belə qanunvericilik **cinayət-axtarış hüququnun mənbəyi** adlanır. Cinayət-axtarış haqqında qanunvericiliyə isə ayrı-ayrı normativ hüquqi aktlar daxildir. **Normativ hüquqi aktlar** cinayət-axtarış hüququnun əsas mənbəyi hesab edilir. Söhbət, hər şeydən əvvəl, **qanunlardan** gedir. Hüquq nəzəriyyəsindən məlum olduğu kimi, normativ hüquqi aktlar iki yerə bölünür ki, onlardan biri qanunlar, digəri isə qanunqüvvəli aktlardır.

Qanunlar cinayət-axtarış hüququnun mənbəyi kimi mühüm əhəmiyyətə və rola malikdir; onlar cinayət-axtarış hüququnun mənbəyi olan normativ hüquqi aktlar içərisində xüsusi yer tutur. Söhbət, ilk növbədə, dövlətin əsas qanunu olan **Konstitusiyadan** gedir. Konstitusiya bütün hüquq sahələrinin,

eləcə də hüquq institutlarının, o cümlədən cinayət-axtarış hüququnun normativ-hüquqi əsası və bazası sayılır. Nəzərdən qaçırmaq olmaz ki, cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tərkib hissələrindən biri məhz Konstitusiyadır. Belə ki, cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilik Konstitusiyadan və digər aktlardan ibarətdir. Konstitusiya cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliyin əsası sayılır. Burada ifadə edilən bir sıra hüquqi göstəriş (müddəa) cinayət-axtarış hüququ üçün vacib əhəmiyyətə malikdir; həm də cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilik Konstitusiyaya uyğun olmalı, onunla ziddiyyət təşkil etməməlidir.

Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliyə Konstitusiyadan başqa, digər qanunlar da daxildir. Cinayət-axtarış hüququnun mənbəyi qismində, ilk növbədə, **ƏFQ-nin** adı çəkilməlidir. O, cinayət-axtarış hüququnun mənbəyi olan normativ hüquqi aktlar içərisində xüsusi əhəmiyyətə və rola malikdir. Bu isə təsadüfi xarakter daşımır. Belə ki, ƏFQ əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ictimai münasibətləri tənzimləyir və cinayət-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir; 3 fəsil və 21 maddədən ibarət olan ƏFQ əməliyyat-axtarış fəaliyyətinin anlayışı, məqsəd və vəzifələri, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik, əməliyyat-axtarış fəaliyyətinin prinsipləri, əməliyyat-axtarış fəaliyyətinin subyektləri, onların hüquq və vəzifələri, əməliyyat-axtarış tədbirləri və belə tədbirlərin həyata keçirilməsi üçün səbəblər (əsaslar), tətbiqi şərtləri və həyata keçirilməsi, habelə digər məsələlər barədə müvafiq hüquq normaları nəzərdə tutur.

ƏFQ-nin I fəsli «Ümumi müddəalar» adlanır. Onun II fəsli əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə və əməliyyat-axtarış tədbirlərinin tətbiqinə həsr edilmişdir. Qanunun III fəsli isə yekun müddəalar müəyyənləşdirir; həmin fəsil «Yekun müddəalar» adlanır.

Cinayət-axtarış hüququnun mənbəyi kimi **PQ** haqqında da danışmaq lazımdır. O, cinayət-axtarış hüququnun mənbəyi

olan normativ hüquqi aktlar arasında heç də az rol oynamır. Belə ki, PQ-də müəyyən edilən bir sıra hüquq norması cinayət-axtarış hüququ üçün vacib əhəmiyyətə malikdir. Buna görə də, həmin akt cinayət-axtarış hüququnun mənbəyi olan qanunlar sırasına aiddir. PQ-nin 3-cü maddəsinin II hissəsi polisin əsas vəzifələrini müəyyənləşdirir ki, cinayətlərin qarşısının alınması üçün tədbirlər görmək, törədilmiş cinayətləri açmaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək, kriminalistik və digər tədqiqatların aparılmasını təmin etmək həmin vəzifələr sırasına aiddir; PQ həm də istintaq təcridxanalarında əməliyyat-axtarış fəaliyyətinin müvafiq icra hakimiyyəti orqanı (Ədliyyə Nazirliyi) ilə birgə həyata keçirilməsini polisin əsas vəzifələrindən biri kimi müəyyən edir (PQ, maddə 3, II hissə, bənd 12).

Polisin daşıdığı əsas vəzifələr sırasına həm də cinayət törətmiş şəxsləri (cinayətkarları) müəyyən və aşkar etmək daxildir (PQ, maddə 3, II hissə, bənd 7). Bu, yəni cinayət törətmiş şəxslərin (cinayətkarların) müəyyən edilməsi isə cinayət-axtarış fəaliyyətinin vəzifələrindən biridir.

Cinayət-axtarış hüququnun mənbəyi olsa da, PQ-də cinayət-axtarış fəaliyyəti sahəsinə aid müəyyən hüquqi boşluq və çatışmazlıq mövcuddur. Hər şeydən əvvəl, qeyd etməliyik ki, PQ-nin 4-cü maddəsinin II hissəsi cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsini polisin əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən etmir. Axı, heç də sirr deyil ki, polis orqanları da de-fakto cinayət-axtarış tədbirləri görmək və tətbiq etmək istiqamətində əhəmiyyətli dərəcədə fəaliyyət göstərirlər. Hesab edirik ki, bu, qanunvericilik səviyyəsində nəzərə alınmalı və PQ-də rəsmi surətdə öz normativ ifadəsini tapmalıdır. Bundan ötrü sözügedən Qanunun 4-cü maddəsinə «cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi» kimi hüquqi göstəriş daxil edilməlidir ki, həmin maddə həm də polisin əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Belə göstərişin PQ-yə daxil edilməsi həm elmi-nəzəri, həm də praktik baxımdan məntiqəuyğun olardı. Məsələ burasındadır ki, ƏFQ cinayətlərin qarşısının alınmasını əməliyyat-axtarış fəaliyyətinin vəzifə-

lərindən biri kimi müəyyən edir (maddə 1, III hissə). Bu vəzifənin yerinə yetirilməsi üçün polis əməkdaşı cinayətlərin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər görməlidir ki, bu, polis əməkdaşının ümumi vəzifələrindən biridir (PQ, maddə 13, I hissə, bənd 1). Digər tərəfdən, PQ-nin 15-ci maddəsi cinayətlərin qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələrini müəyyənləşdirir ki, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi həmin vəzifələrdən biridir. Bu o deməkdir ki, polis həm də cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir.

Cinayət-axtarış hüququnun mənbəyi olan qanunlar sırasına **Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi** (CPM, 2000-ci il) də daxildir. Belə ki, cinayət-axtarış fəaliyyətini təhqiqat orqanları da həyata keçirirlər. Təhqiqat orqanlarının səlahiyyətləri isə CPM ilə müəyyən edilir.

Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilik həm də digər qanunlardan ibarətdir. Həmin qanunlar cinayət-axtarış fəaliyyətinin mənbəyi hesab edilir. Məsələn, **«Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu** (1999-cu il) belə aktlardan biridir. Bu Qanun dövlət tərəfindən müdafiə olunan şəxslərin həyatının, sağlamlığının, mənzilinin və əmlakının dövlət müdafiəsi üzrə tədbirlər sistemini müəyyənləşdirir. Qanunda dövlət tərəfindən müdafiə olunan şəxslər sadalanır ki, cinayət-axtarış fəaliyyətini həyata keçirən təhqiqat orqanları, eləcə də cinayət-axtarış tədbirləri tətbiq edən şəxslər onların sırasına daxildir. Qanunda dövlət tərəfindən müdafiə olunan şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirlərinin ayrı-ayrı növləri göstərilir.

**«Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununu** da (1998-ci il) cinayət-axtarış hüququnun mənbəyi hesab etmək olar. Belə ki, hər bir şəxs cinayət-axtarış fəaliyyətinin subyektlərinə kömək göstərməklə cinayətin aşkar edilməsində, qarşısının alınmasında və ya açılmasında iştirak edə bilər. Sözügedən Qanun

belə şəxsləri dövlət tərəfindən müdafiə olunan şəxslər sırasına aid edir və bu kateqoriyadan olan şəxslərin təhlükəsizliyinin təmin edilməsini, habelə onların sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemi müəyyənləşdirir.

Cinayət-axtarış hüququnun mənbəyi olan normativ hüquqi aktlara qanunlardan başqa, həm də **qanunqüvvəli aktlar** daxildir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 19.06.2001-ci il tarixli 507 nömrəli Fərmanı ilə təsdiq edilmiş **«Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət Bölgüsü»** qanunqüvvəli aktlara misaldır;[1] həmçinin Azərbaycan Respublikası Prezidentinin 30.06.2001-ci il tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş «**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə**» də qanunqüvvəli akt kimi cinayət-axtarış hüququnun mənbəyidir. Əsasnamədə təsbit edilən bəzi hüquq normaları bilavasitə cinayət-axtarış fəaliyyətinə aiddir. Belə ki, Əsasnamənin 2-ci bəndi cinayətlərin qarşısının alınması və açılması işinin təşkil olunmasını DİN-in yerinə yetirdiyi funksiyalardan biri hesab edir. Hazırlanan və törədilən cinayətlərin qarşısının alınması, habelə törədilmiş cinayətlərin aşkar edilməsi və açılması isə cinayət-axtarış fəaliyyətinin vəzifələrindən biridir. Əsasnamənin 3-cü bəndi DİN-in üzərinə düşən vəzifələri müəyyənləşdirir ki, cinayət-axtarış fəaliyyəti, eləcə də DİO-nun səlahiyyətlərinə aid olan işlər üzrə təhqiqatın aparılması bu vəzifələrdən biridir. Belə vəzifənin yerinə yetirilməsi isə cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Əsasnamədə cinayət-axtarış fəaliyyətinə aid olan digər normalar da nəzərdə tutulmuşdur.

Qanunqüvvəli aktlar sırasına Prezident fərmanları və Nazirlər Kabinetinin qərarları ilə yanaşı, həm də mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları aiddir (Konstitusiyanın 148-ci maddəsinin I hissəsi). Belə aktlar Azərbaycan Res-

---

[1] *Fərmanın mətni verilmişdir:* Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013, s.215-216.

publikasının qanunvericilik sisteminə daxil olan aktlardır. Öz Əsasnaməsinin (2001-ci il) 1-ci maddəsinə görə, DİN də mərkəzi icra hakimiyyəti orqanı hesab edilir. Deməli, DİN tərəfinndən qəbul edilən normativ hüquqi aktlar qanunqüvvəli aktlara (qanunvericilik sisteminə) daxildir.

DİN-in qəbul etdiyi **normativ hüquqi aktlar** cinayət-axtarış hüququnun mənbəyidir. Söhbət «**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsi haqqında Əsasnamə**»dən (2014-cü il) gedir. Əsasnamə DİN-in Baş Cinayət Axtarışı İdarəsinin hüquqi statusunu müəyyənləşdirir, onun fəaliyyəti və funksiyaları ilə bağlı məsələləri tənzimləyir.

DİN-in aşağıdakı **digər aktları** da cinayət-axtarış hüququnun mənbəyi hesab edilir ki, onlar cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı bu və ya digər məsələni tənzimləyir: «Qaçırılmış, oğurlanmış nəqliyyat vasitələrinin və yol-nəqliyyat hadisəsi yerindən qaçmış sürücülərin axtarışının təşkili haqqında Təlimat» (DİN-in 26 avqust 2002-ci il tarixli 317 nömrəli əmri ilə təsdiq edilmişdir); «Törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı, baxılması qaydaları haqqında Təlimat» (DİN-in 03 noyabr 2011-ci il tarixli 680 nömrəli qərarı ilə təsdiq edilmişdir); «Axtarışda olanların, naməlum meyitlərin, səhhətinə və ya yaşına görə özləri haqqında məlumat verə bilməyən şəxslərin vahid uçotunun təşkili və aparılması qaydaları haqqında Təlimat» (DİN-in Kollegiyasının 04 oktyabr 2012-ci il tarixli Q52-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir); «İtirilmiş əşyaların tapılmaması barədə arayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə İnzibati Reqlament» (DİN-in Kollegiyasının 30 noyabr 2012-ci il tarixli Q58-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir); «Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları haqqında Təlimat» (DİN-in Kollegiyasının 04 oktyabr 2012-ci il tarixli Q51-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir)[1] və s.

---

[1] *Bu sənədlərin mətni ilə tanış olmaq üçün bax:* Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013 (VII bölmə), s. 436–982.

Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliyə həm də **beynəlxalq müqavilələr** daxildir. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr cinayət-axtarış fəaliyyəti sahəsində bağlanarsa, onlar cinayət-axtarış hüququnun mənbəyi hesab edilir. Məsələn, «Kibercinayətkarlıq haqqında» Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 30.09.2009-cu il tarixli 874-IIIQ nömrəli Qanunu (DİN-in 23.11.2009-cu il tarixli 693 nömrəli əmri ilə elan olunmuşdur); «Müstəqil Dövlətlər birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında» Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 22.06.2010-cu il tarixli 1050-IIIQ nömrəli Qanunu (DİN-in 30.08.2010-cu il tarixli 541 nömrəli əmri ilə elan olunmuşdur); Avropa Şurasının «İnsan alverinə qarşı mübarizə haqqında» Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 11.05.2010-cu il tarixli 1002-IIIQ nömrəli Qanunu (DİN-in 11.06.2010-cu il tarixli 359 nömrəli əmri ilə elan olunmuşdur) və s. Unutmaq olmaz ki, Konstitusiyanın 148-ci maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik (hüquq) sisteminin ayrılmaz tərkib hissəsidir. Buna görə də, beynəlxalq müqavilələr polis hüququnun, o cümlədən onun institutlarından biri olan cinayət-axtarış hüququnun mənbəyi sayılır.

Həmçinin cinayətkarlığa qarşı mübarizə sahəsində bağlanmış ikitərəfli **polis sazişləri** cinayət-axtarış hüququnun mənbələri sırasına daxildir. Məsələn, «Azərbaycan Respublikası Hökuməti və Ruminiya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Azərbaycan Respublikasının 26.11.2009-cu il tarixli 916-IIIQ nömrəl Qanunu ilə təsdiq edilmiş və DİN-in 18.01.2010-cu il tarixli 39 nömrəli əmri ilə elan olunmuşdur); «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında» Saziş (Azərbaycan Res-

publikası Prezidentinin 26.10.2011-ci il tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş və DİN-in 12.11.2011-ci il tarixli 701 nömrəli əmri ilə elan olunmuşdur); «Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Azərbaycan Respublikasının 29.06.2012-ci il tarixli 396-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş və DİN-in 01.08.2012-ci il tarixli Ə 487-001-12 nömrəli əmri ilə elan olunmuşdur) və s.

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan sahələrdən (qanunvericilik massivlərindən) biri **polis haqqında qanunvericilikdir**. Polis haqqında qanunvericiliyin tərkib hissələrindən biri cinayət-axtarış haqqında qanunvericilik hesab edilir. Cinayət-axtarış haqqında qanunvericilik isə Azərbaycan Respublikasının Konstitusiyası, ƏFQ, PQ, CPM və digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Konstitusiya Məhkəməsinin qərarları** cinayət-axtarış hüququnun mənbəyi hesab edilir. Belə ki, Konstitusiya Məhkəməsi CPM-in bu və ya digər maddəsinin şərhinə dair müvafiq qərarlar qəbul edə bilər. Əgər həmin maddələr cinayət-axtarış tədbirləri barədə olarsa, Konstitusiya Məhkəməsi tərəfindən onların şərh olunmasına dair qəbul edilən qərarlar cinayət-axtarış hüququnun mənbəyi kimi tanınır.[1]

Eyni zamanda qeyd etməliyik ki, nə Ali Məhkəmə qərarları, nə polis hüquq elmi (doktrina), nə də məhkəmə təcrübəsi cinayət-axtarış hüququnun mənbəyi hesab edilir. Bldiyimiz kimi, onlar, ümumiyyətlə, hüququn, o cümlədən polis hüququnun mənbəyi kimi qəbul olunmur.

---

[1] *Konstitusiya Məhkəməsinin qərarları barədə bax*: Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı, 2013 (VIII bölmə), s. 983–994.

### 8.2.2. Cinayət-axtarış hüququnun prinsipləri

Hər bir hüquq institutu özünəməxsus prinsiplərə malikdir. Belə prinsiplər sahədaxili prinsiplər hesab edilir. Polis hüququnun institutlarından biri olan cinayət-axtarış hüququnun da özünəməxsus prinsipləri vardır. Cinayət-axtarış hüququ məhz öz prinsiplərinə əsaslanır; onlar polis hüququnun sahədaxili prinsipləri sırasına aiddir.

Cinayət-axtarış hüququnun prinsipləri ƏFQ-də sadalanır. Bu isə o deməkdir ki, cinayət-axtarış hüququnun özünəməxsus prinsipləri qanunvericilik səviyyəsində təsbit edilmiş, qanunda öz normativ ifadəsini tapmışdır Buna görə də, onlar məcburi hüquqi qüvvəyə malik olub normativ əhəmiyyətə malikdir; cinayət-axtarış hüququnun subyektləri müvafiq axtarış tədbirləri tətbiq edərkən onları öz işində rəhbər tutmalı, məcburi olaraq yerinə yetirməlidirlər. Düzdür, ƏFQ-də «cinayət-axtarış hüququnun prinsipləri» deyil, «əməliyyat-axtarış fəaliyyətinin prinsipləri» kimi termin işlədilir. Hesab edirik ki, həmin prinsiplər arasında fərq qoyulmasına zərurət yoxdur; onları eynimənalı (sinonim) anlayışlar kimi qəbul edirik. Belə ki, cinayət-axtarış hüququnun prinsipləri dedikdə əməliyyat-axtarış fəaliyyətinin prinsipləri başa düşülür və əksinə, əməliyyat-axtarış fəaliyyətinin prinsipləri mahiyyətcə cinayət-axtarış hüququnun prinsipləri anlayışının məna yükünə daxildir. Nəzərə almalıyıq ki, cinayət-axtarış hüququnun özünəməxsus prinsipləri müvafiq subyektlər tərəfindən cinayət-axtarış fəaliyyəti həyata keçirilən zaman rəhbər tutulan və onların əsaslandıqları normativ xarakterli ideyalardır.

Beləliklə, **cinayət-axtarış hüququnun prinsipləri** dedikdə qanunvericilik səviyyəsində təsbit edilən və buna görə də, subyektlər üçün məcburi olan normativ xarakterli elə əsas ideeyalar başa düşülür ki, subyektlər cinayət-axtarış tədbirləri tətbiq edən zaman bu ideyaları rəhbər tutur və onlara əsaslanırlar. Həmin prinsiplər bunlardan ibarətdir ki, cinayət-axtarış fəaliyyəti onların əsasında həyata keçirilir: 1) qanunçuluq prinsi-

pi; 2) humanizm prinsipi; 3) insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi; 4) konspirasiya prinsipi; 5) aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsipi və s.

**Qanunçuluq prinsipinə** görə, cinayət-axtarış hüququnun subyektləri cinayət-axtarış tədbirlərini yalnız qanuni tələblərə uyğun tətbiq edə bilərlər; onlar tərəfindən cinayət-axtarış fəaliyyəti yalnız qanun əsasında həyata keçirilməlidir.

Qanunçuluq prinsipi həm də bunda ifadə olunur ki, **cinayət-axtarış tədbirlərinin siyahısı** qanunla müəyyənləşdirilir. Cinayət-axtarış hüququnun subyektləri yalnız bu siyahıya daxil olan cinayət-axtarış tədbirlərini tətbiq edə bilər; həmin siyahıya daxil olmayan, yəni qanunda nəzərdə tutulmayan cinayət-axtarış tədbirlərini onların tətbiq etmək hüququ yoxdur. Cinayət-axtarış hüququnun subyektləri həm də cinayət-axtarış tədbirlərinin siyahısını dəyişdirmək hüququna malik deyildir; ƏFQ-nin 10-cu maddəsinin II hissəsinə görə, bu tədbirlərin siyahısı yalnız **qanunla dəyişdirilə bilər**; həmin siyahı isə ƏFQ-nin 10-cu maddəsinin I hissəsində göstərilmişdir.

Qanunçuluq prinsipi öz ifadəsini həm də bunda tapır ki, cinayət-axtarış fəaliyyətini qanunda nəzərdə tutulmuş **təhqiqat orqanları** həyata keçirir. Belə orqanlar isə cinayət-prosessual qanunvericiliyində müəyyən edilmiş, nəzərdə tutulmuşdur. Həmin orqanlar öz vəzifə və funksiyalarını qanunla onlara verilmiş səlahiyyətlər çərçivəsində həyata keçirirlər ki, bu, qanunçuluq prinsipinin təzahür formalarından biridir.

**Humanizm prinsipi** bunda ifadə edilir ki, cinayət-axtarış tədbirlərini tətbiq edən və cinayət-axtarış fəaliyyətini həyata keçirən subyektlər humanist davranış nümayiş etdirməlidirlər; onlar öz səlahiyyətlərini icra edərkən insanların təhlükəsizliyini təmin etməlidirlər. ƏFQ-nin 8-ci maddəsində göstərilir ki, subyektlər öz səlahiyyətlərinin icra edilməsi zamanı insanların həyat və sağlamlığını, habelə əmlakını və qanunla qorunan mənafelərini təhlükə altına alan hərəkətlərə yol verməməlidirlər; onlar həmçinin cinayət-axtarış tədbirlərinin tətbiq edilməsi zamanı insan ləyaqətini alçaldan hərəkətlərdən çəkin-

məlidirlər. Bir sözlə, cinayət-axtarış fəaliyyətini həyata keçirən zaman subyektlər humanist yanaşma və münasibət nümayiş etdirməlidirlər.

**İnsan hüquq və azadlıqlarına hörmət etmək prinsipinə** görə, cinayət-axtarış fəaliyyəti həyata keçirilərkən insan hüquq və azadlıqları, yəni insan haqları təmin edilməlidir. Söhbət Konstitusiyada nəzərdə tutulmuş həm insan, həm də vətəndaş hüquq və azadlıqlarının təmin edilməsindən gedir. ƏFQ-nin 4-cü maddəsinin II hissəsinə əsasən, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan və vətəndaş hüquq və azadlıqlarını pozmaq qadağandır. Bu göstəriş, birinci, onu ifadə edir ki, Konstitusiyada nəzərdə tutulmuş həm insan, həm də vətəndaş hüquq və azadlıqları pozulmamalı, onlara hörmətlə yanaşılmalıdır. Əgər insan (vətəndaş) hüquq və azadlıqları pozulmursa və onlara hörmətlə yanaşılırsa, bu o deməkdir ki, insan haqları təmin edilmişdir. Deməli, insan haqlarına hörmət etmək elə onların təmin edilməsini bildirir. Buna görə də, insan hüquq və azadlıqlarına hörmət etmək prinsipini **insan hüquq və azadlıqlarının təmin edilməsi prinsipi** də adlandırmaq olar.[1]

İkinci, insan hüquq və azadlıqlarına hörmət edilməsi məhdud deyil, geniş mənada başa düşülməlidir. Belə ki, insan hüquq və azadlıqlarına hörmət edilməsi həm də vətəndaş hüquq və azadlıqlarına hörmət olunmasını bildirir, ifadə edir. Buna görə də, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı həm insan, həm də vətəndaş hüquq və azadlıqlarına hörmətlə yanaşılmalıdır.

İnsan hüquq və azadlıqlarına hörmət etmək prinsipi mütləq xarakter daşımır. Belə ki, insan hüquq və azadlıqları bəzi hallarda cinayət-axtarış tədbirlərinin tətbiqi ilə bağlı **müvəqqəti məhdudlaşdırıla bilər**. Qeyd etməliyik ki, müvəqqəti məhdudlaşdırmaya yalnız qanunvericiliklə müəyyən edilmiş qay-

[1] *İnsan hüquq və azadlıqları barədə ətraflı bax:* Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013, 506 s.

dada cinayətlərin qarşısının alınması, onların açılması, məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər (ƏFQ, maddə 4, II hissə).

İnsan hüquq və azadlıqlarına hörmət edilməməsi onların pozulması ilə nəticələnir. Belə halda hər bir şəxs cinayət-axtarış fəaliyyəti subyektinin tabe olduğu yuxarı orqanın rəhbərinə, prokurorluğa və ya məhkəməyə şikayət edə bilər. Odur ki, cinayət-axtarış fəaliyyətinin subyektləri insan hüquq və azadlıqlarının pozulmasına yönələn hərəkətlərə yol verməməlidirlər. Axı, belə hərəkətlər nəticəsində insan hüquq və azadlıqları pozula bilər; bu isə öz növbəsində hüquqi məsuliyyətə səbəb olur.

**Konspirasiya prinsipinə** görə, cinayət-axtarış fəaliyyətinin subyektləri cinayət-axtarış tədbirləri gördükdə gizli (konspirativ) üsullardan istifadə edirlər; cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı konspirativlik (gizlilik) saxlanılmalıdır.

Konspirasiya prinsipi həm də bunda ifadə edilir ki, cinayət-axtarış fəaliyyətinin subyektləri tətbiq etdikləri cinayət-axtarış tədbirlərini bildirməmək üçün müvafiq üsullar işlədirlər; onlar cinayət-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görməlidirlər. Cinayət-axtarış fəaliyyəti subyektlərinin hüququ vardır ki, onlar konspirasiya məqsədi ilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratsınlar. Unutmaq olmaz ki, uydurma hüquqi şəxs yaradılması cinayət-axtarış tədbirlərinin bir növüdür.

**Aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsipinə** görə, səlahiyyətli dövlət orqanları (təhqiqat orqanları) cinayət-axtarış fəaliyyətini aşkar və gizli iş üsullarını uyğunlaşdırmaqla həyata keçirirlər. Belə ki, cinayət-axtarış fəaliyyətinin subyektləri qanunda nəzərdə tutulmuş cinayət-axtarış tədbirlərini tətbiq edərkən həm aşkar, həm də gizli üsullarından istifadə edirlər. **Aşkar iş üsulları** dedikdə hamıya və hər kəsə məlum

olan açıq (gizli olmayan) iş üsulları başa düşülür. **Gizli iş üsulları** isə qeyri-aşkar iş üsullarıdır. Cinayət-axtarış fəaliyyəti subyektləri öz səlahiyyətlərini icra edərkən aşkar və gizli iş üsullarını uyğunlaşdırmalıdırlar. Cinayət-axtarış fəaliyyəti də məhz aşkar və gizli (qeyri-aşkar) iş üsulları ilə qanunda nəzərdə tutulmuş cinayət-axtarış tədbirlərinin həyata keçirilməsidir.

Bunlardan başqa, cinayət-axtarış hüququ **qanun qarşısında bərabərlik prinsipindən** çıxış edir. Qeyd etdiyimiz kimi, cinayət-axtarış fəaliyyətinin prinsipləri ƏFQ-nin 3-cü maddəsinin I hissəsində sadalanır ki, burada qanun qarşısında bərabərlik prinsipinə təsadüf olunmur. Lakin, buna baxmayaraq, ƏFQ-nin 3-cü maddəsinin II hissəsində belə prinsip dolayı yolla təsbit edilmişdir.

Qanun qarşısında bərabərlik prinsipinə görə, barəsində cinayət-axtarış tədbirləri tətbiq edilən şəxslər qanun qarşısında bərabərdirlər. Hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti, dinə münasibəti və siyasi baxışları cinayət-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz, bu şərtlə ki, qanunda başqa hal nəzərdə tutulmasın. Deməli, zəruri olduqda və lazım gəldikdə cinayət-axtarış tədbirləri bu və ya digər şəxsin irqindən, milliyyətindən, mənşəyindən, qulluq mövqeyindən, əqidəsindən, baxışlarından, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən və s. amillərdən asılı olmayaraq həyata keçirilir.

### 8.2.3. Cinayət-axtarış hüququnun subyektləri

Cinayət-axtarış hüququ polis orqanları tərəfindən cinayət-axtarış fəaliyyətinin həyata keçirlməsi ilə bağlı münasibətləri tənzimləyir ki, bu, onun yerinə yetirdiyi əsas funksiya hesab olunur. Cinayət-axtarış hüququnun subyektləri dedikdə də məhz həmin münasibətlərin potensial (mümkün) iştirakçıları başa düşülür.

Cinayət-axtarış hüququnun **subyektləri** anlayışının məna yükü cinayət-axtarış fəaliyyətini həyata keçirən subyektləri əhatə edir. Belə ki, cinayət-axtarış fəaliyyətini hansı subyektlər həyata keçirirsə, onlar da cinayət-axtarış hüququnun subyekti kimi tanınırlar. Deməli, cinayət-axtarış hüququnun subyektləri elə cinayət-axtarış fəaliyyəti subyektlərinin özləridir. Odur ki, «cinayət-axtarış hüququnun subyektləri» və «cinayət-axtarış fəaliyyətinin subyektləri» məzmunca üst-üstə düşən eynimənalı (sinonim) anlayışlar hesab edilir.

ƏFQ-də «cinayət-axtarış hüququnun və ya cinayət-axtarış fəaliyyətinin subyektləri» anlayışından istifadə olunmasına rast gəlinmir; burada «əməliyyat-axtarış fəaliyyətinin subyektləri» kimi termin işlədilir. Həmin Qanunun 5-ci maddəsi məhz əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə həsr olunmuşdur. Bu maddənin I hissəsində göstərilir ki, əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları həyata keçirirlər. Deməli, cinayət-axtarış hüququnun subyektləri dedikdə **təhqiqat orqanları** başa düşülür. Cinayət-axtarış tədbirlərini bu orqanlarda işləyən şəxslər həyata keçirirlər ki, onlara **təhqiqatçı** deyilir. Azərbaycan Respublikasında hal-hazırda qüvvədə olan CPM-də göstərilir ki, təhqiqatçı əməliyyat-axtarış tədbirləri həyata keçirmək hüququna malikdir. Lakin o, öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri həyata keçirə bilməz (CPM, maddə 86.5). Bunu da qeyd etməliyik ki, cinayət işi prokuror və ya müstəntiq tərəfindən icraata qəbul olunduqdan sonra təhqiqatçı müvafiq əməliyyat-axtarış tədbirlərini yalnız prokurorun və ya müstəntiqin göstərişi ilə onun işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir (CPM, maddə 86.6). Təhqiqatçı cinayət-axtarış orqanının – təhqiqat orqanının əməkdaşıdır.

Cinayət-axtarış tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən həyata keçirilməsini Azərbaycan Respublikasının Pre-

zidenti müəyyən edir və cinayət-axtarış tədbirlərinin hansı həcmdə tətbiqinin mümkünlüyünü müəyyənləşdirir.

Cinayət-axtarış tədbirlərini həyata keçirən təhqiqat orqanları müxtəlifdir. Onlara aiddir: 1) DİN-in təhqiqat orqanı; 2) Dövlət Təhlükəsizliyi Xidmətinin təhqiqat orqanı; 3) Ədliyyə Nazirliyinin təhqiqat orqanı; 4) Xüsusi Dövlət Mühafizə Xidmətinin təhqiqat orqanı; 5) Dövlət Gömrük Komitəsinin təhqiqat orqanı və s.

Müəyyən hallarda cinayət-axtarış fəaliyyəti subyektlərinin vəzifələrini təhqiqat orqanlarının özləri deyil, onların müvəkkil olunmuş şəxsləri həyata keçirirlər. **Təhqiqat orqanlarının müvəkkil olunmuş şəxsləri** öz vəzifələrini yalnız bu orqanların səlahiyyətləri daxilində həyata keçirirlər; onlar cinayət-axtarış fəaliyyətinin subyektləri sırasına aid olunurlar.

Bəzi hərəkətlərlə bağlı cinayət-axtarış tədbirləri öz səlahiyyətləri daxilində Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində – Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), Fövqəladə Hallar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Gömrük Komitəsi və s. orqanlar tərəfindən tətbiq edilir. Söhbət aşağıdakı hərəkətlərdən gedir: poçt göndərişlərinin, teleqraf və digər məlumatların yoxlanılması, şəxslərin stansiya avadanlığına qoşulmaqla telefon danışıqlarına qulaqasma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması. Belə hərəkətlərlə bağlı cinayət-axtarış tədbirlərini öz səlahiyyətləri daxilində sadaladığımız orqanlar həyata keçirirlər.

Qeyd etməliyik ki, müəyyən şəxslər cinayət-axtarış tədbirlərinin həyata keçirilməsində cinayət-axtarış fəaliyyəti subyektlərinə kömək göstərirlər. Söhbət dövlət, bələdiyyə və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxslərindən gedir; onlar yardımçı funksiya yerinə yetirdiklərinə görə cinayət-axtarış fəaliyyətinin subyekti hesab edilmirlər. Nəzərdən qaçırmaq olmaz ki, cinayət-axtarış fəaliyyəti subyektlərinə kömək göstər-

mək belə şəxslərin borcudur, yəni onların üzərinə düşən vəzifədir.

Vurğulamaq vacibdir ki, hər bir şəxs cinayət-axtarış fəaliyyəti subyektlərinə onların səlahiyyətlərinin yerinə yetirilməsində kömək göstərə bilər. Bu, onların malik olduqları hüquqdur. Lakin belə hüquqa malik olmaq heç də əsas vermir ki, kömək göstərən şəxslər (köməkçi şəxslər) cinayət-axtarış fəaliyyətinin subyekti kimi tanınsınlar. Onlar yardımçı funksiya yerinə yetirdiklərinə və cinayət-axtarış tədbirlərini bilavasitə həyata keçirmədiklərinə görə cinayət-axtarış hüququnun subyekti hesab edilmirlər. Belə şəxslər cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi sahəsində nə vəzifə daşıyır, nə də hüquqlara malikdirlər. Cinayət-axtarış fəaliyyəti subyektləri isə həmin sahədə müəyyən hüquqlara malik olub, müvafiq vəzifələr daşıyırlar.

Cinayət-axtarış hüququnun subyektləri sırasına hə də DİN-in **Baş Cinayət Axtarışı İdarəsi** (bundan sonra – BCAİ və ya Baş İdarə) daxildir. Bu, təbii olub, heç də təsadüfi xarakter daşımır. Belə ki, Baş İdarə cinayət axtarışı ilə bağlı ictimai münasibətlərin potensial iştirakçılarından biridir. Baş İdarə həm də cinayət-axtarış hüququnun **xüsusi subyekti** kimi tanınır. Nəzərdən qaçırmaq olmaz ki, Baş İdarə cinayətlərin qarşısının alınması və açılması, cinayət-axtarış fəaliyyətinin təşkili sahəsində səlahiyyətlərə malik olan qurumdur. O, DİN-in aparatının müstəqil struktur hissəsidir. Digər tərəfdən, Baş İdarə hazırlanan və törədilən cinayətlərin qarşısının alınması işini, törədilmiş cinayətlərin aşkar edilməsi və açılması sahəsində fəaliyyəti, eləcə də cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən olunması işini təşkil edir. BCAİ həmçinin qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada cinayət-axtarış fəaliyyətini həyata keçirir. Odur ki, Baş İdarə cinayət-axtarış hüququnun xüsusi subyekti sayılır.

Baş İdarənin həyata keçirdiyi fəaliyyətin hüquqi əsası rolunda müvafiq akt – «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsi haqqında Əsasna-

mə» çıxış edir. Sözügedən Baş İdarənin fəaliyyətinin hüquqi tənzimlənməsi məhz həmin Əsasnamə vasitəsilə həyata keçirilir. Əsasnamə DİN-in Q20-001-14 nömrəli 27.06.2014-cü il tarixli qərarı ilə qəbul edilmişdir.

Əsasnamədə göstərilir ki, Baş İdarənin üzərinə hansı **vəzifələr** düşür: hazırlanan və törədilən cinayətlərin qarşısının alınması işini təşkil etmək; törədilmiş cinayətlərin aşkar edilməsi və açılması sahəsində fəaliyyəti təşkil etmək; məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin, oğurlanmış əmlakın axtarışı, habelə naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi işini təşkil etmək və s.

Əsasnamədə həm də Baş İdarənin yerinə yetirdiyi **funksiyalar** göstərilir. Cinayətlərin qarşısının alınması və açılması üzrə xüsusi əməliyyatların və əməliyyat-profilaktiki tədbirlərin hazırlanıb həyata keçirilməsi, ağır və xüsusilə ağır, transmilli xarakter daşıyan və ictimai rezonans doğuran cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılması işini təşkil etmək və s. onun yerinə yetirdiyi funksiyalar sırasına daxildir.

## 8.3. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə səlahiyyətləri

### 8.3.1. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə vəzifələri

Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bağlı münasibətlərin iştirakçısı olmaq üçün cinayət-axtarış fəaliyyəti subyektləri müəyyən **vəzifələr** daşımalıdır. Söhbət cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı vəzifələrdən gedir; həmin vəzifələrin yerinə yetirilməsi cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsinə yönəlir. Belə ki, cinayət-axtarış fəaliyyətinin subyektləri öz üzərinə düşən vəzifələri icra etməklə səlahiyyətlərini həyata keçirir, fəaliyyət göstərirlər.

Cinayət-axtarış fəaliyyəti subyektlərinin daşıdığı vəzifələr müxtəlifdir; onlar ƏFQ-nin 6-cı maddəsində göstərilmişdir.

Subyektlər, ilk növbədə, insan və vətəndaş hüquq və azadlıqlarının, eləcə də şəxslərin (həm fiziki, həm də hüquqi şəxslərin) qanunla müdafiə olunan **mənafelərinin qorunması üçün zəruri olan bütün tədbirləri görməlidirlər.** Görülən tədbirlər qanuni (hüquqauyğun) olmalıdır; qanunsuz (hüquqazidd) tədbirlərin görülməsinə yol verilmir. Həm də subyektlər gördükləri qanuni (hüquqauyğun) tədbirləri öz **səlahiyyətləri daxilində** həyata keçirirlər; onlar öz səlahiyyət həddini aşa bilməzlər. Məsələn, şəxslərin qanunla müdafiə olunan mənafelərinin qorunması üçün tədbirlər görərkən subyektlər belə mənafeləri təhlükə altına alan hərəkətlərə yol verməməlidirlər.

Subyektlər öz səlahiyyətləri daxilində bütün qanuni tədbirləri həm də **ictimai və dövlət təhlükəsizliyi** üçün görməlidir. Belə tədbirlərin görülməsi həm dövlətin, həm şəxslərin, həm də cəmiyyətin həyatı üçün əhəmiyyətlidir.

Subyektlər cinayət-axtarış tədbirlərinin həyata keçirilməsinə dair **hüquqi sənədləri yerinə yetirmək vəzifəsi** daşıyırlar. Söhbət aşağıdakı sənədlərdən gedir: məhkəmə qərarları, istintaq orqanlarının qərarları, cinayət işləri üzrə yazılı tapşırıqlar, cinayət-axtarış fəaliyyəti üzrə səlahiyyətli subyektlərin qərarları. Subyektlər bu kimi sənədləri icra etməlidir; həmin sənədlər məhz cinayət-axtarış tədbirlərinin həyata keçirilməsinə yönəlmişdir.

Cinayət-axtarış fəaliyyəti subyektləri cinayət-axtarış prosesi nəticəsində müəyyən məlumatlar əldə edirlər. Onlar əldə olunmuş **məlumatları konkret cinayət işi üzrə təhqiqat və ya istintaq aparan şəxsə və yaxud məhkəməyə verirlər** ki, bu da həmin subyektlərin daşıdığı vəzifələr sırasına daxildir. Bu zaman əldə edilmiş məlumatların mənbələri və onların alınma üsulları məxfi (gizli) saxlanılmalı, yayılmamalıdır.

Sözügedən subyektlər **xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatların sorğularına cavab vermək** kimi vəzifə də daşıyır. Belə ki, həm xarici dövlətlərin (məsələn, Türkiyə, Rusiya Federasiyası və s.) hüquq-mühafizə orqanları, həm də beynəlxalq polis təşkilatları (məsələn,

İnterpol, Avropol və s.) hər hansı məsələ barəsində Azərbaycan Respublikasının cinayət-axtarış fəaliyyəti subyektlərinə müvafiq sorğular göndərə bilərlər; onların vəzifəsidir ki, göndərilmiş sorğulara cavab versinlər. Adıçəkilən subyektlər belə sorğulara o halda cavab verirlər ki, bu, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə (konvensiya, saziş və s.) nəzərdə tutulsun. Söhbət, hər şeydən əvvəl, hüquqi yardım haqqında beynəlxalq müqavilələrdən gedir; əgər Azərbaycan Respublikası bu kimi beynəlxalq müqavilələrin iştirakçısı olmazsa, onda cinayət-axtarış fəaliyyəti subyektləri xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatların göndərdiyi sorğulara cavab verməyə borclu deyildir. Deməli, xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatların sorğularına cinayət-axtarış fəaliyyəti subyektləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən cavab verirlər.

Göstərilənlərdən başqa, cinayət-axtarış fəaliyyəti subyektləri qanunvericilikdə nəzərdə tutulan aşağıdakı digər vəzifələri də yerinə yetirirlər: 1) Azərbaycan Respublikasının ərazisində cinayət-axtarış fəaliyyəti üzrə digər subyektlərin səlahiyyətinə aid olan faktlar aşkar edildiyi hallarda təxirəsalınmaz tədbirlər görməklə onları xəbərdar etmək və lazımi kömək göstərmək; 2) cinayət-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək; 3) öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri yoxlamaq; 4) öz əməkdaşlarının, onların yaxın qohumlarının, cinayət-axtarış fəaliyyəti subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının, habelə cinayət-prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyinin və əmlakının hüquqazidd qəsdlərdən qorunmasını təmin etmək; 5) hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək; 6) hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq.

### 8.3.2. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə hüquqları

Cinayət-axtarış fəaliyyəti subyektləri təkcə vəzifələr daşımır. Sözügedən subyektlər həm də müəyyən **hüquqlara** malikdir ki, onlar bu hüquqlardan öz səlahiyyətlərini bilavasitə yerinə yetirərkən istifadə edirlər. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə malik olduqları və istifadə etdikləri hüquqlar onların öz səlahiyyətlərini həyata keçirməsi üçündür; onların daşıdıqları vəzifələr isə qarşıya qoyulan məqsədlərə nail olmaqdan ötrüdür. Unutmaq olmaz ki, cinayət-axtarış fəaliyyəti insanların həyat və sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir. Onların hər ikisi, yəni cinayət-axtarış fəaliyyəti subyektlərinin daşıdıqları vəzifələr və malik olduqları hüquqlar eyni təyinata – cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsinə yönəlmişdir.

Cinayət-axtarış fəaliyyəti subyektlərinin malik olduqları hüquqlar ƏFQ-də sadalanır; onun 7-ci maddəsi məhz cinayət-axtarış fəaliyyəti subyektlərinin hüquqlarının müəyyənləşdirilməsinə həsr olunmuşdur. **Cinayət-axtarış tədbirlərini həyata keçirmək** onların malik olduqları hüquqlardan biridir. Cinayət-axtarış tədbirləri isə iki üsulla həyata keçirilir: 1) aşkar üsul, 2) qeyri-aşkar üsul. **Aşkar üsul** açıq, hamıya məlum olan, qeyri-gizli üsuldur. Bu üsulda məxfilik kimi elementə təsadüf olunmur. Bundan fərqli olaraq, **qeyri-aşkar üsul** isə gizli üsuldur.

Cinayət-axtarış tədbirləri həyata keçirilən zaman həm aşkar, həm də qeyri-aşkar üsullardan istifadə oluna bilər. Gizli üsuldan istifadə etməklə cinayət-axtarış fəaliyyəti həyata keçirilərkən məxfilik təmin edilməlidir.

Cinayət-axtarış fəaliyyəti subyektləri onlara **kömək etməyə razılıq vermiş şəxslərlə əməkdaşlıq edə bilərlər** ki, bu da onların malik olduqları hüquqlardan biridir. Belə ki, istənilən şəxs cinayət-axtarış fəaliyyəti subyektlərinə onların səlahiyyət-

lərinin yerinə yetirilməsində kömək göstərə bilər. Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilik buna, yəni müəyyən şəxsin cinayət-axtarış fəaliyyəti subyektlərinə kömək göstərməsinə yol verir. Söhbət bu və ya digər şəxsin cinayət-axtarış fəaliyyətində könüllü iştiraka cəlb edilməsindən gedir. Məhz belə şəxslərlə cinayət-axtarış fəaliyyəti subyektləri əməkdaşlıq edirlər; əməkdaşlıq məxfilik əsasında həyata keçirilir. Əməkdaşlıq etmə razılaşmanın şərtlərindən asılı olaraq, həm əvəzli, həm də əvəzsiz ola bilər. Lakin şəxslərin cinayət-axtarış fəaliyyəti subyektlərinə kömək göstərmələrinə məcbur edilməsinə yol verilmir; başqa sözlə, heç kəs cinayət-axtarış fəaliyyətində məcburi qaydada iştiraka cəlb edilə bilməz.

Cinayət-axtarış fəaliyyəti subyektləri **informasiya sistemi yaratmaq və ondan istifadə etmək hüququna** malikdirlər. Belə sistemin yaradılması cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsində mühüm rol oynayır. Axı, informasiya sistemi cinayət-axtarış fəaliyyətini təmin edir. Belə sistemin yaradılmasında gizli qaydada informasiya alınması vacib əhəmiyyətə malikdir. Gizli qaydada informasiya alınması zamanı texniki vasitələrdən də istifadə edilir. Söhbət gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən gedir. **Texniki vasitələr** xüsusi olaraq yaradılmış, işlənib hazırlanmış, istehsal olunmuş, proqramlaşdırılmış, təkmilləşdirilmiş avadanlıqlar, cihazlar, qurğular, ləvazimatlar və digər alətlərdir ki, onların təyinatı cinayət-axtarış tədbirləri çərçəvəsində gizli yolla informasiya alınmasından ibarətdir. Bu kimi texniki vasitələr nəinki gizli yolla informasiya alınması, həmçinin cinayət-axtarış tədbirlərinin aparılması üçündür. Yalnız qanunla müvəkkil edilmiş şəxslər (fiziki və hüquqi şəxslər) gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edə bilərlər; müvəkkil edilməmiş şəxslərin isə belə vasitələrdən istifadə etmələri qadağandır.

Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin növləri isə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.

Cinayət-axtarış fəaliyyəti subyektlərinin malik olduqları hüquqlar sırasına **cinayət-axtarış fəaliyyəti zamanı şəxslərin əmlakından istifadə etmək hüququ** da daxildir. Şəxslər dedikdə həm fiziki, həm də hüquqi şəxslər başa düşülür. Onların malik olduqları əmlak qismində yaşayış yerləri, qeyri-yaşayış binaları, nəqliyyat vasitələri və s. çıxış edir. Cinayət-axtarış fəaliyyəti subyektləri həyata keçirdikləri cinayət-axtarış fəaliyyəti zamanı bu kimi əmlak növlərindən istifadə edə bilərlər; onlar ayrı-ayrı şəxslərin əmlakından istifadə etmək hüququnu, bir qayda olaraq, **müqavilə** əsasında həyata keçirirlər. Məsələn, hər hansı şəxsi güdmək üçün cinayət-axtarış fəaliyyəti subyekti vətəndaşın yaşayış evindən istifadə edir ki, onlar arasında yazılı formada müqavilə bağlanılır. Bununla yanaşı, ayrı-ayrı şəxslərin əmlakından şifahi razılığa əsasən də istifadə edilə bilər ki, belə halda yazılı formada müqavilə bağlanması tələb olunmur.

Cinayət-axtarış fəaliyyəti subyektləri həmçinin **konspirasiya məqsədilə uydurma hüquqi şəxs yaratmaq hüququna** malikdirlər. Yaddan çıxarmamalıyıq ki, hüquqi şəxs yaradılması cinayət-axtarış tədbirlərindən biridir. Hüquqi şəxs dedikdə idarə, müəssisə və təşkilat başa düşülür. Uydurma hüquqi şəxs isə həqiqətdə mövcud olmayan idarə, müəssisə və təşkilatdır. Cinayət-axtarış fəaliyyəti subyektləri konspirasiya məqsədilə pərdələndirilən aşağıdakı sənədlərdən istifadə edə bilərlər:

1) cinayət-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxlərinin şəxsiyyətini;
2) bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini;
3) bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini.

Sadalananlar cinayət-axtarış fəaliyyəti subyektlərinin malik olduqları hüquqların qəti və dəqiq siyahısı deyildir. Belə ki, cinayət-axtarış fəaliyyətinin subyektləri ƏFQ-də (maddə 7) adı çəkilməyən hüquqları da həyata keçirə bilərlər. Məsələn, cinayət-axtarış tərbirinin bu və ya digər növünü tətbiq etmək,

cinayət-axtarış tədbirlərinin görülməsi üçün rəsmi sorğu göndərmək, hər hansı şəxsi cinayət-axtarış fəaliyyətində könüllü iştiraka cəlb etmək və s. belə hüquqlardandır.

Beləliklə, cinayət-axtarış fəaliyyəti subyektləri qanunvericilikdə nəzərdə tutulmuş geniş hüquqlarla təmin edilmişdir. Onların malik olduqları hüquqlar imkan verir ki, cinayətkarlıqla maksimum effektiv mübarizə aparılsın.[1]

## 8.4. Cinayət-axtarış tədbirləri

### 8.4.1. Cinayət-axtarış tədbirlərinin anlayışı və əsas əlamətləri

Əgər səlahiyyətli dövlət orqanları və cinayət-axtarış fəaliyyətinin subyektləri qanunda müəyyən edilmiş cinayət-axtarış tədbirlərini tətbiq edərlərsə, bu, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsini ifadə edir. Belə ki, ƏFQ-nin 1-ci maddəsinin I hissəsinə görə, cinayət-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən aşkar və ya qeyri-aşkar üsullarla cinayət-axtarış tədbirlərinin görülməsidir. Deməli, cinayət-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən qanunvericiliklə müəyyən edilmiş cinayət-axtarış tədbirlərinin həyata keçirilməsidir. Bəs, cinayət-axtarış tədbirləri dedikdə nə başa düşülür?

Qeyd etmək lazımdır ki, ƏFQ cinayət-axtarış tədbirlərinə normativ (leqal) anlayış vermir. Bu Qanun yalnız «əməliyyat-axtarış tədbirləri» termini işlətməklə kifayətlənir.

Hüquq doktrinasına gəldikdə isə, qeyd etməliyik ki, elmi ədəbiyyat səhifələrində ayrı-ayrı müəlliflər tərəfindən cinayət-axtarış tədbirlərinə müxtəlif və bir-birindən fərqli anlayışlar verilir. Ən uğurlu və əhatəli anlayış odur ki, həmin anlayış

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 67.

özündə cinayət-axtarış tədbirlərini xarakterizə edən əsas əlamətləri əks etdirsin.

**Cinayət-axtarış tədbirləri** dedikdə cinayət-axtarış fəaliyyətinin elementi olan və cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliklə müəyyənləşdirilən elə hərəkətlər başa düşülür ki, bu hərəkətlər cinayətkarlıqla mübarizə və ictimai qaydanın möhkəmləndirilməsi məqsədilə normativ aktların tələblərinə uyğun olaraq yerinə yetirilir, bu şərtlə ki, cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifələri başqa yollarla həll etmək mümkün olmasın və ya olduqca çətin olsun. Cinayət-axtarış tədbirlərinə verdiyimiz bu elmi (doktrinal) anlayışda həmin tədbirləri xarakterizə edən əsas əlamətlər öz əksini tapmışdır. Başqa sözlə, cinayət-axtarış tədbirləri bir neçə əsas əlamətlə xarakterizə olunur.

Birinci əlamət bundan ibarətdir ki, **cinayət-axtarış tədbirləri cinayət-axtarış fəaliyyətinin elementidir**. Belə ki, cinayət-axtarış fəaliyyəti ayrı-ayrı bir neçə əsas struktur elementdən ibarətdir. Bu elementlərdən biri məhz cinayət-axtarış tədbirləri hesab edilir.[1] Nəzərə almalıyıq ki, ƏFQ-nın 1-ci maddəsinin I hissəsində təsbit edilmiş müddəalara əsasən, cinayət-axtarış fəaliyyəti cinayət-axtarış tədbirlərinin həyata keçirilməsidir.

İkinci, **cinayət-axtarış tədbirləri qanunvericiliklə** müəyyənləşdirilir. Söhbət cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilikdən gedir. Sözügedən qanunvericiliyə isə, hər şeydən əvvəl, ƏFQ daxildir. Bu Qanunun 10-cu maddəsi məhz cinayət-axtarış tədbirlərinə həsr edilmişdir. Burada cinayət-axtarış tədbirlərinin qəti və dəqiq siyahısı verilmişdir ki, bu siyahı yalnız qanunla dəyişdirilə bilər.

Üçüncü, cinayət-axtarış tədbirləri **normativ aktların tələblərinə** uyğun olaraq tətbiq edilir. Söhbət cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanların normativ hüquqi aktlarından

---

[1] Hüseynov Ş.İ., Nəsirov R.M., Muradov E.Q. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2008, s. 106.

gedir. Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi belə aktların tələblərinə zidd ola bilməz.

Dördüncü, cinayət-axtarış tədbirləri **ayrı-ayrı müxtəlif hərəkətlərdən** ibarətdir. Bu hərəkətlər bir-biri ilə qarşılıqlı əlaqədə olub, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsinə və onun qarşısında duran vəzifələrin həll olunmasına yönəlmişdir.

Beşinci, cinayət-axtarış tədbirləri **cinayətkarlıqla mübarizə aparılması və ictimai qaydanın möhkəmləndirilməsi** məqsədilə həyata keçirilir. Belə tədbirlər ondan ötrü görülür ki, cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən olunması, törədilmiş cinayətlərin aşkar edilməsi və açılması, habelə cinayətlə bağlı digər hallar haqqında məlumatlar əldə edilsin. Təbii ki, belə məlumatların əldə edilməsi cinayətkarlıqla mübarizə aparmaq və ictimai qaydanı möhkəmləndirmək məqsədinə xidmət edir.[1]

Altıncı, cinayət-axtarış tədbirləri **müstəsna xarakterə malikdir**. Cinayət-axtarış tədbirləri yalnız o hallarda tətbiq olunur ki, cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin həll edilməsi başqa yollarla mümkün olmasın və ya olduqca çətin olsun.[2] Belə ki, bu və ya digər səbəbə görə cinayət-axtarış fəaliyyətinə dair vəzifələrin yerinə yetirilməsinə digər yollarla nail olmaq mümkün olmur (və ya olduqca çətin olur). Odur ki, belə halda müvafiq cinayət-axtarış tədbirləri görülür. Xatırlatmaq istərdik ki, cinayət-axtarış fəaliyyətinin vəzifələri ƏFQ-nin 1-ci maddəsinin III hissəsində göstərilmişdir.

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 81.

[2] *Cinayət-axtarış fəaliyyətinə nəzarətin həyata keçirilməsi barədə ətraflı bax: məsələn,* Bayramzadə X.Ə. Əməliyyat-axtarış fəaliyyətinə nəzarət. Dərs vəsaiti. Bakı, 2007, 144 s.

### 8.4.2. Cinayət-axtarış tədbirlərinin təsnifi

Hüquq ədəbiyyatı səhifələrində cinayət-axtarış tədbirləri müxtəlif meyarlara görə təsnif edilir. **Cinayət-axtarış tədbirlərinin təsnifi** dedikdə onların ayrı-ayrı əsaslara görə müxtəlif növlərə bölünməsi başa düşülür.

**Tətbiq edilmə müddəti** kimi əsasa (meyara) görə cinayət-axtarış tədbirlərinin iki növü fərqləndirilir: 1) **birdəfəlik tədbirlər** (məsələn, əməliyyat eksperimenti, şəxsiyyətin eyniləşdirilməsi, vətəndaşların sorğusu və s.); 2) **uzanan-davamlı tədbirlər** (məsələn, poçt-teleqraf və digər göndərişlərin yoxlanılması, telefon danışıqlarına qulaqasma, məhkumların məktublarının yoxlanılması və s.).

**Şəxslərin konstitusion hüquqlarını məhdudlaşdırmaq** kimi əsasa (meyara) görə cinayət-axtarış tədbirləri iki növə bölünür: 1) **şəxslərin konstitusion hüquqlarını məhdudlaşdıran tədbirlər** (məsələn, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə daxilolma və baxış keçirilməsi, insanların güdülməsi və s.); 2) **şəxslərin konstitusion hüquqlarını məhdudlaşdırmayan tədbirlər** (məsələn, müqayisəli tədqiqetmə üçün nümunələrin toplanması, nəzarət qaydasında mal alınması, cinayətkar qurumlara və ya kriminogen obyektlərə daxil edilməsi, soraqlaşma, nəzarətli göndəriş və s.).

**Sanksiya (icazə) alma** kimi əsasa (meyara) görə cinayət-axtarış tədbirlərinin üç növü mövcuddur: 1) **həyata keçirilməsi üçün sanksiya tələb etməyən tədbirlər** (məsələn, şəxsiyyətin eyniləşdirilməsi, müqayisəli tədqiqetmə üçün nümunələrin toplanması, sorğu, binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi və s.); 2) **həyata keçirilməsi üçün cinayət-axtarış fəaliyyəti orqanı rəhbərinin sanksiyasını tələb edən tədbirlər** (məsələn, əməliyyat eksperimenti, nəzarət qaydasında mal alınması, nəzarətli göndəriş və s.); 3) **həyata keçirilməsi üçün məhkəmə qərarının**

**olmasını tələb edən tədbirlər** (məsələn, telefon danışıqlarına qulaqasma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması və s.).

Bunlardan başqa, cinayət-axtarış tədbirlərini digər əsaslara (meyarlara) görə də təsnif etmək olar. Hüquq ədəbiyyatı səhifələrində bunun üçün müxtəlif təsnifat meyarları göstərilir. Məsələn, cinayət-axtarış tədbirlərini tətbiq edən orqan təsnifat meyarlarından biridir. Bu meyara görə, cinayət-axtarış tədbirlərinin iki növü fərqləndirilir. Bunlardan biri cinayət-axtarış fəaliyyəti orqanının ayrıca olaraq həyata keçirdiyi cinayət-axtarış tədbiridir. İkinci növ cinayət-axtarış tədbiri isə cinayət-axtarış qurumları və bölmələri ilə birlikdə və qarşılıqlı əlaqədə tətbiq edilir.

Bəzi cinayət-axtarış tədbirləri isə kompleks şəkildə həyata keçirilir. Bu baxımdan, cinayət-axtarış tədbirlərinin iki növü fərqləndirilir:[1] ayrıca həyata keçirilən cinayət-axtarış tədbirləri, kompleks şəkildə tətbiq edilən cinayət-axtarış tədbirləri.

Təsnifat meyarından asılı olaraq, cinayət-axtarış tədbirlərindən hər biri bu və ya digər növə aid edilə bilər. Məsələn, həyata keçirilmə müddətinə görə əməliyyat-eksperimenti birdəfəlik cinayət-axtarış tədbiri hesab edilir; konstitusion hüquqları məhdudlaşdırma kimi meyardan asılı olaraq isə əməliyyat eksperimenti başqa növ tədbir, yəni konstitusion hüquqları məhdudlaşdırmayan tədbir sayılır. Həyata keçirilmə müddətinə görə telefon danışıqlarına qulaqasma davamlı və uzanan tədbirlər növünə aid edilir; konstitusion hüquqları məhdudlaşdırma kimi meyara görə isə telefon danışıqlarına qulaqasma başqa növə, yəni konstitusion hüquqları məhdudlaşdırma növünə aid olunur və s.

Cinayət-axtarış tədbirlərinin hüquqi təsnifinin həm nəzəri, həm də praktik əhəmiyyəti vardır. Onun nəzəri əhəmiyyəti bununla şərtlənir ki, hüquqi təsnif cinayət-axtarış tədbirlərinin

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 88.

ayrı-ayrı növlərinin xarakterik cəhətlərinin müəyyənləşdirilməsinə imkan verir. Cinayət-axtarış tədbirlərinin hüquqi təsnifinin praktik əhəmiyyəti isə bundan ibarətdir ki, hüquqi təsnif cinayət-axtarış tədbirlərinin bu və ya digər növünün praktikada tətbiqolunma xüsusiyyətini müəyyən edir və üzə çıxarır.

### 8.4.3. Cinayət-axtarış tədbirlərinin siyahısı

Vətəndaşların qanunla qorunan mənafelərini müdafiə etmək vacib əhəmiyyətə malik olan məsələdir. Bu məsələnin həlli, ilk növbədə, cinayət-axtarış tədbirlərinin həyata keçirilməsini tələb edir. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu olmadan, yəni cinayət-axtarış tədbirləri həyata keçirilmədən vətəndaşların mənafelərini nə qorumaq, nə də müdafiə etmək mümkündür. Bunu nəzərə alaraq, ƏFQ Azərbaycan Respublikasında həyata keçirilən cinayət-axtarış tədbirlərini sadalayır. Belə ki, həmin Qanunun 10-cu maddəsinin I hissəsi cinayət-axtarış tədbirlərinin siyahısını verir. Qanunun verdiyi bu siyahıya aşağıdakı cinayət-axtarış tədbirləri daxildir:[1]

- vətəndaşların sorğusu;
- soraqlaşma;
- telefon danışıqlarına qulaqasma;
- poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;
- texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;
- məhkumların məktublarının yoxlanılması;
- nəqliyyat vasitələrinə baxış keçirilməsi;
- binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara, torpaq sahələrinə daxilolma və baxış kesirmə;

[1] *Bu tədbirlərdən hər birinin xarakteristikası verilmişdir: məsələn*, Шумилов А.Ю. Оперативно-розыскная энциклопедия. М., 2004, 364 с.

– binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;
– insanların güdülməsi;
– şəxsiyyətin eyniləşdirilməsi;
– nəzarət qaydasında mal alınması;
– əşya və sənədlərin tədqiqi;
– müqayisəli tədqiq üçün nümunələrin toplanılması;
– nəzarətli göndəriş;
– cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;
– hüquqi şəxsin yaradılması;
– əməliyyat eksperimenti.

Bu, cinayət-axtarış tədbirlərinin tam, dəqiq və qəti siyahısıdır. Odur ki, cinayət-axtarış tədbirlərinin siyahısını nə dəyişdirmək, nə də ona əlavələr etmək olar. Cinayət-axtarış tədbirlərinin subyektləri yalnız bu siyahıda sadalanan və göstərilən cinayət-axtarış tədbirlərini tətbiq edə bilərlər. Məhz bu səbəbdən onlar həmin siyahıda adı çəkilməyən cinayət-axtarış tədbirlərini həyata keçirə bilməzlər.

Bununla yanaşı, qeyd etməliyik ki, cinayət-axtarış praktikasında tətbiq edilən bəzi tədbirlərin sözügedən siyahıda adı çəkilmir. Məsələn, pusqu, tələ, «cinayət başında» yaxalama, şübhəli şəxsin yazışmalarına nəzarət və s. belə tədbirlərdəndir. Onlar cinayət-axtarış tədbirlərinin siyahısında göstərilmir. Bu kimi tədbirlərin həmin siyahıya salınmasını zəruri sayırıq.

Azərbaycan Respublikasında hal-hazırda qüvvədə olan CPM-in 445.1.5-ci maddəsində göstərilən cinayət-axtarış tədbirinin adına da cinayət-axtarış tədbirlərinin siyahısında rast gəlmirik. Xatırlatmaq istərdik ki, burada nəzərdə tutulan və göstərilən cinayət-axtarış tədbiri texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino çəkilişi cihazlarının

quraşdırılması yolu ilə yaşayış yerinin müşahidə edilməsidir (bu tədbirlər məhkəmə qərarı əsasında həyata keçirilir).

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, CPM-in 445-ci maddəsində məhkəmənin qərarı əsasında həyata keçirilən cinayət-axtarış tədbirləri sadalanır. Belə ki, həmin maddəyə görə, məhkəmənin qərarı əsasında aşağıdakı cinayət-axtarış tədbirləri tətbiq edilir:

- telefon danışıqlarına qulaqasma (maddə 445.1.1);
- poçt, teleqraf və digər göndərişlərin yoxlanılması (maddə 445.1.2);
- texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması (maddə 445.1.3);
- binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxilolma və onlara baxış keçirilməsi (maddə 445.1.4);
- insanların güdülməsi (maddə 445.1.6) və s.

Müəyyən hallarda CPM-in 445-ci maddəsində göstərilən cinayət-axtarış tədbirləri məhkəmənin qərarı olmadan da həyata keçirilə bilər. Bu zaman cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi tərəfindən əsaslandırılmış qərar qəbul edilməsi tələb olunur. CPM-in 445.1-ci maddəsində göstərilən cinayət-axtarış tədbirləri məhz həmin qərar əsasında həyata keçirilir; əsaslandırılmış qərar müvafiq cinayət-axtarış tədbirinin aparılması barədə qəbul olunur. Cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi həmin qərarı məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir; təqdimetmə müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində həyata keçirilir.

CPM-in 445.1-ci maddəsində göstərilən cinayət-axtarış tədbirlərinin hansı hallarda məhkəmənin qərarı olmadan cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin qərarı ilə həyata keçirilməsinə gəldikdə, qeyd etməliyik ki, həmin hallar ƏFQ-nın 10-cu maddəsinin IV hissəsində

nəzərdə tutulmuşdur: 1) şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaqasma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, habelə insanların güdülməsi kimi tədbir tətbiq olunur; 2) cinayəti hazırlayan, törədən, törətmiş, cəzaçəkmə müəssisələrindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış yerlərinə, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə baxış keçirilə bilər.

Cinayət-axtarış tədbirlərinin siyahısının tam, dəqiq və qəti xarakterə malik olması heç də o demək deyildir ki, cinayət-axtarış tədbirlərinin siyahısını dəyişdirmək və ya ona əlavələr edilməsinə yol verilmir. Qeyd etməliyik ki, cinayət-axtarış tədbirlərinin siyahısı yalnız qanunla dəyişdirilə və ya ona əlavələr oluna bilər.

### 8.4.4. Ayrı-ayrı cinayət-axtarış tədbirlərinin xarakteristikası

Mövcud qanunvericilikdə cinayət-axtarış tədbirlərinin yalnız siyahısı verilir və 18 növ cinayət-axtarış tədbiri müəyyənləşdirilir; söhbət ƏFQ-dən gedir. Lakin adıçəkilən Qanunda cinayət-axtarış tədbirlərinin məzmunu açıqlanmır və onlara xarakteristika verilmir. Cinayət-axtarış tədbirlərinə xarakteristika verilməsinə cinayət-axtarış orqanlarının idarədaxili normativ aklarında rast gəlinir.[1]

**Vətəndaşların sorğusu** cinayət-axtarış tədbirlərindən biridir. Bu tədbir əməliyyat orqanlarına lazım olan zəruri mə-

[1] *Cinayət-axtarış fəaliyyətinin bəzi xarakterik cəhətləri barədə bax: məsələn,* Hüseynov Ş.İ., Kazımov İ.Ə. Əməliyyat-axtarış fəaliyyəti. 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı, 2004, s. 36-65.

lumatların əldə edilməsi üçün aparılan xüsusi söhbətdir. Belə söhbət zəruri məlumatlara malik olan şəxslərlə aparılır. Xüsusi söhbət cinayət, cinayəti törədən şəxslər, mütəşəkkil cinayətkar dəstənin üzvləri, cinayətkarın yeri, habelə belə şəxslərin qaçıb gizləndiyi məkan və digər məsələlər barədə ola bilər.[1]

Söhbəti, bir qayda olaraq, cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın vəzifəli şəxsi aparır; söhbət həm də cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın vəzifəli şəxsinin tapşırığı ilə başqa şəxs tərəfindən də apara bilər. Həmin şəxslərin apardığı söhbət zamanı zəruri məlumatlar əldə edilir ki, belə məlumatlar cinayət-axtarış fəaliyyətinin məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün vacib əhəmiyyətə malikdir. Digər tərəfdən, əldə olunmuş məlumatlar tədqiq olunan və öyrənilən hadisənin bütün təfərrüatlarını müəyyənləşdirməyə imkan verir. Bu səbəbdən sözügedən cinayət-axtarış tədbirini əməliyyat sorğusu adlandırırlar. Cinayət-axtarış praktikasında və nəzəriyyəsində həmin tədbir «kəşfiyyat sorğusu» adı ilə tanınır; bəzi mənbələrdə də məhz belə anlayış işlədilir.[2]

Əməliyyat sorğusunu **dindirmə** kimi hərəkətdən fərqləndirmək lazımdır. Dindirmə rəsmi xarakterə malikdir. Rəsmi xarakterə malik olan bu hərəkət cinayət təqibi üzrə məhkəməyədək icraata kimi yerinə yetirilir.

Dindirmə istintaq orqanının nümayəndəsi (müstəntiq) tərəfindən həyata keçirilir. Belə ki, şahid, zərər çəkmiş, şübhəli, təqsirləndirilən şəxs və başqa şəxslər müstəntiqin yanına şəxsən çağırış vərəqəsi ilə çağırılırlar; onlar həmçinin teleqram, telefonoqram, faksoqram vasitəsilə də çağırıla bilərlər. Sonra isə həmin şəxslər dindirilir. Belə şəxslərin dindirilməsi cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikasında hal-hazırda qüvvədə

---

[1] *Sorğu keçirilməsinin ümumi hüquqi və etik məsələləri barədə bax:* Чуфаровский Ю.В. Психология оперативно-розыскной и следственной деятельности. Учебное пособие. М., 2016, с.130.

[2] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 90.

olan CPM-in XXVIII fəsli məhz dindirmə ilə bağlı münasibətlərin tənzimlənməsinə həsr edilmişdir.

Vətəndaşların sorğusuna gəldikdə, qeyd etməliyik ki, bu növ cinayət-axtarış tədbiri qeyri-rəsmi xarakterə malikdir; həm də vətəndaşların sorğusu CPM-in tələblərinə uyğun həyata keçirilmir. Bu, onunla izah olunur ki, vətəndaşların sorğusu prosessual hərəkət hesab edilmir.

Vətəndaşların sorğusu vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan cinayət-axtarış tədbirlərinə aid olunur. Belə ki, bu cinayət-axtarış tədbirlərinin tətbiqi vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına və pozulmasına gətirib çıxarmır.

Vətəndaşların sorğusu kimi cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi müəyyən nəticələrə səbəb olur; əldə olunmuş nəticələr müxtəlif sənədlərlə rəsmiləşdirilir. Sənəd dedikdə raport, arayış, şifahi ərizə protokolları və izahatlar başa düşülür.

Cinayət-axtarış tədbirlərindən biri soraqlaşma adlanır. **Soraqlaşma** dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirin həyata keçirilməsi nəticəsində cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün lazım olan zəruri məlumatlar toplanır. Bu zaman, yəni lazımi məlumatlar toplanarkən iki əsas üsuldan istifadə olunur. Həmin üsullardan biri müvafiq sənədlərin bilavasitə öyrənilməsi, təhlil edilməsi və araşdırılmasıdır. Sənəd dedikdə qeydiyyat, mühasibat, kadr və s. sənədlər başa düşülür. Cinayət-axtarış praktikasında daimi və müvəqqəti yaşayış yerlərinə dair (məsələn, mehmanxana, sanatoriya, xəstəxana və digər yerlərə aid) sənədlərin təhlil olunması hallarına rast gəlmək mümkündür. Müəssisələrin təsərrüfat fəaliyyətini xarakterizə edən sənədlərin öyrənilməsi xüsusilə də geniş yayılmışdır; bəzən, arxiv sənədləri araşdırılır. Hansı sənədlərin təhlil edilməsi məlumat toplamağın və əldə etməyin məqsəd və şərtlərindən asılıdır.[1]

---

[1] Hüseynov Ş.İ., Nəsirov R.M., Muradov E.Q. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2008, s. 114.

Soraqlaşma kimi cinayət-axtarış tədbirləri nə vətəndaşların konstitusion hüquqlarını pozur, nə də belə hüquqlara qəsd edir. Odur ki, soraqlaşma vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan cinayət-axtarış tədbirlərinə aid edilir.

**Telefon danışıqlarına qulaqasma** cinayət-axtarış tədbirlərindən biridir. Telefon danışıqlarına qulaqasma cinayət-axtarış orqanları tərəfindən həyata keçirilən elə bir cinayət-axtarış tədbiridir ki, bu tədbir xüsusi texniki vasitələrdən istifadə etməklə tətbiq olunur və bu yolla cinayət-axtarış fəaliyyətinin vəzifələrinin həlli üçün maraqlı olan fiziki şəxslərin telefon danışıqlarına nəzarət edilir. Bu növ cinayət-axtarış tədbirinin mahiyyəti təkcə telefon danışıqlarına nəzarət etməkdən ibarət deyildir; həmin cinayət-axtarış tədbiri həyata keçirilən zaman həm də telefon danışıqları yazılır. Beləliklə, telefon danışıqlarına qulaqasma kimi cinayət-axtarış tədbirinin mahiyyəti həm də telefon danışınlarını yazmaqdan ibarətdir. Nəticədə şübhəli şəxslər tərəfindən ötürülən məlumatlar gizli surətdə qəbul edilir ki, bunun da, öz növbəsində, cinayət-axtarış fəaliyyətinin vəzifələrinin həlli üçün vacib əhəmiyyəti vardır.

«Rabitə haqqında» Azərbaycan Respublikasının Qanununa (1997-ci il) görə, bütün rabitə müəssisələri cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün şərait yaratmalı, bu məqsədlə rabitə şəbəkələrini əlavə texniki vasitələrlə təchiz etməli və həmin tədbirlərin tətbiq olunmasında istifadə edilən üsulları gizli saxlamalıdır. Bütün bunlar rabitə müəssisələrinin üzərinə düşən vəzifələr sırasına daxildir.

Telefon danışıqlarına qulaqasma kimi cinayət-axtarış tədbiri tətbiq olunarkən üç şərtə əməl olunmalıdır ki, bu, məcbüri xarakter daşıyır. Hər şeydən əvvəl, qeyd etməliyik ki, cinayət-axtarış vəzifələrinin həlli üçün maraq doğuran fiziki şəxslərin telefon danışıqlarına **fasiləsiz** qulaq asılmalıdır; bu zaman fasiləyə yol verməkolmaz. Digər tərəfdən, fiziki şəxsin telefon danışıqlarının hamısına qulaq asmaq lazımdır. Başqa sözlə, həyata keçirilən qulaqasma kimi cinayət-axtarış tədbiri fiziki

şəxsin **bütün telefon danışıqlarını** əhatə etməlidir. Bunlardan başqa, telefon danışıqlarına qulaqasma kimi cinayət-axtarış tədbiri tətbiq olunan zaman **konspirasiya qaydalarına riayət edilməlidir**. Belə ki, fiziki şəxsin telefon danışıqlarına gizli qulaq asılmalıdır.

Telefon danışıqlarına qulaqasma kimi cinayət-axtarış tədbirləri yalnız **məhkəmə qərarı** əsasında tətbiq olunur. ƏFQ-nin 10-cu maddəsinin III hissəsinə görə, telefon danışıqlarına məhkəmənin (hakimin) qərarı əsasında qulaq asıla bilər. Bu baxımdan, telefon danışıqlarına qulaqasma məhkəmə qərarı əsasında həyata keçirilən cinayət-axtarış tədbirləri növünə aid olunur.

Telefon danışıqlarına qulaqasma vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırır. Odur ki, telefon danışıqlarına qulaqasma vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran cinayət-axtarış tədbirləri növünə aid edilir.[1]

Cinayət-axtarış tədbirlərinin siyahısına **poçt, teleqraf və digər göndərişləri yoxlamaq** kimi hərəkət də daxildir. Poçt, teleqraf və digər göndərişləri yoxlamaq cinayət-axtarış orqanları tərəfindən həyata keçirilən elə bir cinayət-axtarış tədbiridir ki, bu tədbirin həyata keçirilməsi zamanı göndərişlərdə olan məlumatlar öyrənilir və təhlil edilir. Alınmış məlumatlar isə, öz növbəsində, cinayət-axtarış vəzifələrinin həlli üçün maraq doğurur. Söhbət cinayət-axtarış vəzifələrinin həlli üçün əhəmiyyəti olan məlumatların əldə edilməsindən gedir. Belə məlumatlar teleqraf və digər elektrik şəbəkəsi, habelə poçt vasitəsilə ötürülür.

Poçt, teleqraf və digər göndərişlərin yoxlanılması kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsi bir sıra xüsusiyyətlərə malikdir. Belə ki, birinci, göndərişlər gizli yoxlanılır. Başqa sözlə, poçt, teleqraf və s. vasitəsilə göndərilən (ötürülən)

---

[1] *Telefon danışıqlarına qulaqasma barədə daha ətraflı:* Шумилов А.Ю. Оперативно-розыскная энциклопедия. М., 2004, с.245. Bayramzadə X.Ə. Telefon danışıqlarının qulaq asılmasına konstitusiya zəmanəti. Bakı, 2011, 108 s.

məlumatların yoxlanılması gizli həyata keçirilir, yəni göndərişlərin yoxlanılması faktı gizli saxlanılır. İkinci xüsusiyyət bundan ibarətdir ki, göndərişlərdə olan məlumatlar xüsusi texniki vasitələrdən istifadə etməklə əldə edilir. Söhbət gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməsindən gedir. Məhz belə vasitələrdən istifadə etməklə poçt, teleqraf və digər gödərişlərdə olan məlumatlar əldə edilir. Əldə edilmiş məlumatlar isə şübhəli şəxslərin cinayətkar fəaliyyəti haqqında və cinayət-axtarış vəzifələrinin həlli üçün vacib olan digər məsələlər barədədir. Bu səbəbdən göndərişlərdə olan məlumatın gizli saxlanılması təmin edilməlidir.

ƏFQ-nin 10-cu maddəsinin III hissəsinə görə, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilir. Odur ki, göndərişlərin yoxlanılması məhkəmə qərarı əsasında tətbiq edilən cinayət-axtarış tədbirlərinə aid edilir.

Göndərişlərin yoxlanılması vətəndaşların konstitusion hüquqlarına toxunur. Belə ki, həmin tədbir şəxsi həyatın toxunulmazlıq hüququnu pozur. Odur ki, göndərişlərin yoxlanılması vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran cinayət-axtarış tədbiri hesab edilir.

Göndərişləri yoxlama obyektinə gəldikdə, qeyd etməliyik ki, nələr yoxlana bilərsə, onlar da göndərişlərin yoxlama obyektidir. Deməli, yoxlamanın obyekti göndərişlərdən ibarətdir. Göndərişlərin siyahısı isə cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilir. Belə ki, CPM-in 255-ci maddəsi göndərişlərin siyahısını verir. Verilmiş siyahıya daxildir:

- bütün növlərdən olan məktublar;
- teleqramlar;
- radioqramlar;
- banderollar;
- sovqatlar;

– poçt konteynerləri

– pul baratları.

Sadalananlar üzərinə həbs qoyula bilən göndərişlərdir. CPM-in 255-ci maddəsi də məhz üzərinə həbs qoyula bilən poçt, teleqraf və digər göndərişlərin siyahısını verir.

**Texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması** da cinayət-axtarış tədbirləri sırasına daxildir. Söhbət texniki vasitələrdən informasiyanın çıxarılmasından gedir. Texniki vasitələrdən informasiyanın çıxarılması dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirin həyata keçirilməsi sayəsində yoxlanılan və nəzarət olunan şəxs tərəfindən texniki vasitələrlə, o cümlədən texniki rabitə kanalları ilə ötürülən (verilən) operativ məlumatın ələ keçirilməsi mümkün olur. Operativ məlumatı ələ keçirməkdən ötrü xüsusi texniki vasitələrdən istifadə edilir. Texniki vasitələrdən informasiyanı çıxarma kimi cinayət-axtarış tədbirini həyata keçirmək üçün həm də məhkəmənin (hakimin) qərarı tələb edilir. ƏFQ-nin 10-cu maddəsinin III hissəsinə görə, texniki vasitələrdən informasiyanı çıxarma məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər. Odur ki, texniki vasitələrdən informasiyanı çıxarma məhkəmə qərarı əsasında həyata keçirilən cinayət-axtarış tədbirləri növünə aid edilir.

Operativ məlumatın ötürülməsinə (verilməsinə) imkan verən texniki vasitələrə, hər şeydən əvvəl, texniki rabitə kanalları aiddir. **Texniki rabitə kanallarına** isə aşağıdakılar aid olunur:[1] 1) selektor rabitəsi; 2) radiorele rabitəsi; 3) teleks; 4) faksimile; 5) abunəçilər arasında peycinq informasiya mübadilə kanalları; 6) kompyuter şəbəkələri; 7) radio və elektrorabitənin digər növləri.

Texniki vasitələrdən informasiyanı çıxarma vətəndaşların konstitusiya hüquqlarını məhdudlaşdıran cinayət-axtarış təd-

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 111.

birləri növünə daxildir. Belə ki, bu tədbirin həyata keçirilməsi vətəndaşların konstitusion hüquqlarını pozur.

Texniki vasitələrdən informasiyanı çıxarma iki metodla həyata keçirilə bilər: 1) açıq metod; 2) gizli metod. Məhz bu metodlardan istifadə etməklə texniki vasitələrdən informasiya çıxarma mümkün olur.

İnformasiya çıxarmanın nəticəsi isə müxtəlif sənədlər vasitəsi ilə rəsmiləşdirilir. Sənəd dedikdə arayış, raport və ya akt başa düşülür. Zəruri olduqda və lazım gəldikdə, bu kimi sənədlər istintaq orqanlarına verilə bilər. Nəzərdən qaçırmaq olmaz ki, istintaq orqanları onlardan sübut kimi istifadə edir.

**Məhkumların məktublarının yoxlanılması** cinayət-axtarış tədbirlərindən biridir. Qeyd etməliyik ki, cinayət-axtarış tədbirlərinin bu növü əvvəlcə əməliyyat-axtarış praktikasında tətbiq edilmiş, sonra isə qanunvericilikdə öz rəsmi ifadəsini tapmışdır. Belə ki, məhkumların məktublarının yoxlanılması qanunvericilik səviyyəsində cinayət-axtarış tədbirlərinin siyahısına daxil edilmişdir.[1] Belə tədbirin həmin siyahıya daxil edilməsi isə təsadüfi xarakter daşımır. Unutmaq olmaz ki, məhkəmə tərəfindən məhkum olunmuş şəxslər (məhkumlar) cəza çəkməkdən boyun qaçıra bilərlər. Belə şəxslərin axtarılması cinayət-axtarış fəaliyyətinin üzərinə düşən vəzifələr sırasına aiddir. Bu kimi vəzifənin həlli üçün, əlbəttə, məhkumların məktublarının yoxlanılması mühüm əhəmiyyət kəsb edir.

Məhkumların məktublarının yoxlanılması dedikdə cinayət-axtarış orqanları tərəfindən həyata keçirilən elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirin görülməsi nəticəsində cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifənin həlli üçün vacib əhəmiyyəti olan operativ məlumat əldə edilir. Həmin tədbirin həyata keçirilməsi üçün məhkəmənin (hakimin) qərarı tələb edilmir. Bundan ötrü, sadəcə olaraq, cinayət-axtarış orqanlarının sanksiyası (icazəsi) kifayətdir. Odur ki, məhkumların məktublarının yoxlanması məhkəmə

[1] Hüseynov Ş.İ., Nəsirov R.M., Muradov E.Q. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2008, s. 111.

(hakim) qərarı ilə deyil, cinayət-axtarış orqanlarının sanksiyası əsasında həyata keçirilən cinayət-axtarış tədbirlərinə aid olunur. Nəzərə almaq lazımdır ki, ƏFQ-nin10-cu maddəsinin III hissəsinə görə, məhkumların məktublarının yoxlanılması kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsi üçün məhkəmə (hakim) qərarı tələb olunmur.

Təbii ki, məhkumların məktublarının yoxlanılması vətəndaşların konstitusion hüquqlarına toxunur. Bu səbəbədən həmin tədbir vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran cinayət-axtarış tədbirləri sırasına aid edilir.

Cinayət-axtarış tədbirlərindən biri **nəqliyyat vasitələrinə baxış keçirilməsi** adlanır. Nəqliyyat vasitələrinə baxış keçirilməsi əməliyyat işçisi tərəfindən həyata keçirilən elə cinayət-axtarış tədbiridir ki, bu tədbirin görülməsi nəticəsində nəqliyyat vasitələrində qeyri-prosessual formada cinayət-axtarış yoxlaması aparılır. Bu cür yoxlama ondan ötrü aparılır ki, cinayətin izləri və cinayət alətləri (predmetləri) aşkar edilsin, cinayət yolu ilə əldə edilmiş əmlakı (pul, qiymətli kağızlar, xarici valyuta və s.) müəyyənləşdirmək mümkün olsun. Digər tərəfdən, nəqliyyat vasitələrinin yoxlanılması zəruri məlumatların əldə edilməsi məqsədi ilə həyata keçirilir. Belə məlumatların, əlbəttə, cinayət-axtarış fəaliyyətinin vəzifələrinin həlli üçün vacib əhəmiyyəti vardır.

Baxış (yoxlama) obyekti nəqliyyat vasitələridir. Nəqliyyat vasitələrinə aşağıdakılar aiddir: avtomobillər, traktorlar, tramvaylar, trolleybuslar, texnoloji nəqliyyat vasitələri, nəqliyyat vasitələrinin qoşquları, motosikletlər və s.[1]

Nəqliyyat vasitələrinə baxış, adətən, əməliyyat işçisi tərəfindən həyata keçirilir. Əməliyyat işçisinin tapşırığı ilə hüquq-mühafizə orqanlarına kömək edən şəxs də nəqliyyat vasitələrinə baxış keçirə bilər. Baxış keçirilən zaman bu prosesə müəy-

---

[1] Nəqliyyat vasitələrinin təsnifatı verilmişdir: məsələn, Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, 2016, s. 40-41.

yən hallarda müvafiq mütəxəssislərin cəlb edilməsi də mümkündür.

Baxış həm də **binalara,** o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara, torpaq sahələrinə keçirilə bilər ki, bu, ayrıca olaraq, cinayət-axtarış tədbirləri siyahısına daxildir. **Baxış keçirmə** dedikdə əməliyyat işçisi tərəfindən qeyri-prosessual formada tətbiq olunan elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, binaların, yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin yoxlanılmasına yönələn bu tədbir cinayət yolu ilə əldə edilmiş əmlakın (pul, xarici valyuta, qiymətli kağızlar və s.), cinayət predmeti, aləti və izlərinin aşkar edilməsinə, həmçinin cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan məlumatların əldə edilməsi məqsədilə həyata keçirilir. **Baxış (yoxlama) obyekti** aşağıdakılardan ibarətdir: 1) yaşayış yerləri; 2) qeyri-yaşayış yerləri; 3) digər hasarlanmış tikililər; 4) qurğular; 5) torpaq sahələri. Baxış keçirilməsi prosesində həm də cinayət-axtarış yoxlamasının aparıldığı obyektlərin içərisindəki predmetlər və sənədlər yoxlanıla bilər.

Aparılan cinayət-axtarış yoxlaması bu kimi məqsədlərə xidmət edir: 1) cinayətin predmet və alətlərinin olduğu yeri müəyyənləşdirmək; 2) cinayətin izlərini aşkar etmək; 3) cinayət yolu ilə əldə edilmiş əmlakın olduğu yeri müəyyən etmək; 4) axtarılan şəxsin olduğu yeri müəyyən etmək; 5) yoxlanılan şəxsin kriminal fəaliyyətinə aid sənədləri tapıb üzə çıxarmaq; 6) digər məlumatları əldə etmək və s.

Baxış keçirmə kimi cinayət-axtarış tədbirinin tətbiqi üçün məhkəmənin (hakimin) müvafiq qərar qəbul etməsi tələb olunur. Belə ki, sözügedən cinayət-axtarış tədbiri ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 8-ci bəndində nəzərdə tutulmuşdur; bu maddənin III hissəsində deyilir ki, 8-ci bənddə nəzərdə tutulmuş cinayət-axtarış tədbiri məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər.

Cinayət-axtarış tədbirlərindən biri olan baxış keçirməni prosessual baxış keçirmədən fərqləndirmək lazımdır. Cinayət-axtarış tədbiri kimi baxış keçirmə qeyri-prosessual formada tətbiq olunur. Prosessual baxış isə, bundan fərqli olaraq, prosessual formada müstəntiq tərəfindən həyata keçirilir; bununla bağlı məsələlər CPM-in 236-cı maddəsi ilə tənzimlənir. Həmin maddənin 1-ci hissəsində göstərilir ki, cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə müstəntiq hadisə yerinin, binaların, sənədlərin, əşyaların, insan meyitinin və heyvan cəsədinin baxışını keçirir. Yaşayış yerinə, xidməti və ya istehsalat binalarına və orada görünən obyektlərə baxış CMP-in 243-cü maddəsinin 3-cü hissəsində göstərilən əsaslara uyğun keçirilir.

**Müşahidə** cinayət-axtarış tədbirlərindən biridir. Bu cinayət-axtarış tədbiri ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 9-cu bəndində nəzərdə tutulmuşdur. Həmin bəndə görə, cinayət-axtarış fəaliyyətinin subyektləri binaları, o cümlədən yaşayış yerlərini, hasarlanmış tikililəri, qurğuları, torpaq sahələrini, nəqliyyat vasitələrini və digər obyektləri müşahidə edə bilərlər.

Müşahidə dedikdə əməliyyat işçisi tərəfindən tətbiq edilən elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbir cinayət hadisəsinin törədilməsi və cinayətkar fəaliyyətlə bağlı məsələlər haqqında məlumat almaq məqsədilə həyata keçirilir. Cinayət hadisəsinin törədilməsi və cinayətkar fəaliyyətlə bağlı məsələlər isə müxtəlif ola bilər: məsələn, cinayətin hazırlanması, cinayət hadisəsinin mümkün iştirakçıları, cinayətin predmeti, cinayət alətləri, cinayətin izləri, cinayətin törədilmə yeri və s.

**Müşahidə obyekti** aşağıdakılardan ibarətdir: 1) binalar (yaşayış və qeyri-yaşayış yerləri); 2) digər hasarlanmış tikililər; 3) qurğular; 4) torpaq sahələri; 5) nəqliyyat vasitələri; 6) digər obyektlər. Nəzərə almaq lazımdır ki, ƏFQ-də müşahidə obyektlərinin dəqiq və qəti deyil, təxmini siyahısı verilir. Belə ki,

sadalananlardan əlavə, digər yerlər də muşahidə obyekti ola bilər.

Müşahidə iki metodla həyata keçirilir: 1) gizli; 2) aşkar (qeyri-gizli). **Gizli metod** müşahidə etməyin əsas və başlıca metodudur. Təsadüfi deyildir ki, müşahidə, bir qayda olaraq, gizli aparılır. Bununla bərabər, müşahidə həm də **qeyri-gizli**, yəni açıq metodla həyata keçirilə bilər. Belə ki, əgər müşahidə olunan şəxsi müşahidə etmək zəruri olarsa, onun təhlükəsizliyini təmin etmək məqsədilə qeyri-gizli (açıq-aşkar) müşahidə aparılır.

Müşahidə prosesində cinayət-axtarış orqanları tərəfindən, adətən, cinayətin törədilməsi ilə bağlı olan faktlar aşkar edilir ki, bu faktlar operativ əhəmiyyətə malikdir. Bununla yanaşı, müşahidə prosesində həm də cinayətin qarşısı alına bilər.

Binaların, torpaq sahələrinin və digər obyektlərin müşahidəsi məhkəmə (hakim) qərarı əsasında həyata keçirilmir. Bundan ötrü cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın qərarı (sanksiyası) kifayətdir.

Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilikdə müşahidənin məhkəmə (hakim) qərarı əsasında həyata keçirilməsi (ƏFQ, maddə 10, III hissə) müəyyən edilməmişdir Odur ki, müşahidə məhkəmə qərarı olmadan, cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə aparılır; həmin qərar 48 saat müddətində məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edilməlidir (CPM, maddə 445.2; ƏFQ, maddə 10, V hissə).

Müşahidə, adətən, **vizual nəzarət** qaydasında həyata keçirilir. Vizual nəzarət isə gözlə müşahidə aparmağa əsaslanır. Odur ki, vizual nəzarətə **fiziki nəzarət** də deyilir.

Müşahidə həm də texniki (elektron) nəzarət qaydasında həyata keçirilə bilər. Bu zaman texniki (elektron) vasitələrdən istifadə edilir. Texniki (elektron) vasitələr dedikdə telesistem, səsyazan, video, kino və digər çəkiliş çihazları və s. başa düşülür. Unutmaq olmaz ki, qüvvədə olan qanunvericilik texniki

vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin (digər obyektlərin) müşahidə edilməsinə yol verir (CPM, maddə 445).

Cinayət-axtarış tədbirlərinin siyahısında **insanların güdülməsi** kimi tədbirin də adı çəkilir. ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 10-cu bəndi, habelə CPM-in 445-ci maddəsi onu cinayət-axtarış tədbirlərindən biri kimi nəzərdə tutur.

İnsanların güdülməsi dedikdə əməliyyat işçisi tərəfindən həyata keçirilən elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbir cinayət törədilməsi ilə əlaqəsi olan şəxsin gizli surətdə izlənilməsinə və müşahidə olunmasına yönəlir. Əgər müşahidənin obyekti fiziki şəxslər olarsa, belə cinayət-axtarış tədbiri insanların güdülməsi adlanır. Buna görə də, insanların güdülməsi və müşahidə kimi cinayət-axtarış tədbirləri olduqca bir-birinə oxşayır. Daha dəqiq söyləsək, insanların güdülməsi kimi cinayət-axtarış tədbiri müşahidə növlərindən biridir. Belə ki, obyektinə görə, müşahidə kimi cinayət-axtarış tədbiri bir neçə növə bölünür: binaların müşahidə olunması, mənzilin müşahidə olunması, nəqliyyat vasitələrinin müşahidə olunması və s. Obyekt baxımından, müşahidə növlərindən biri məhz insanların güdülməsi adlanır.

İnsanların güdülməsi cinayət-axtarış tədbirləri arasında xüsusi yer tutur. Cinayətkarlıqla mübarizə aparmaq vəzifəsini həll etmək çox vaxt bu və ya digər şəxsin hərəkətlərinə müəyyən müddət ərzində nəzarət olunmasını tələb edir. Bu kimi hallarda cinayət-axtarış praktikasında insanların güdülməsi kimi tədbir həyata keçirilir.

Bir qayda olaraq, cinayətkar fəaliyyətin həyata keçirilməsində əsaslı olaraq şübhələnilən şəxslər güdülür. Söhbət cinayətin törədilməsində şübhəli bilinən şəxslərin güdülməsindən gedir. Bununla yanaşı, cinayətin törədilməsində iştirak edən şəxslər, yəni cinayətin iştirakçıları da (təhrikçi, cinayətin təşkilatçısı və s.) güdülə bilər; həm də cinayətkar fəaliyyətlə bağlı olan şəxsin əlaqələrinin müşahidə edilməsi və izlənilməsi müm-

kündür. Başqa sözlə, güdmə kimi cinayət-axtarış tədbiri cinayətin törədilməsi ilə əlaqəsi olan şəxslər barəsində həyata keçirilir. Güdmə, adətən, göz yetirməklə həyata keçirilir ki, belə güdmə **vizual güdmə** adlanır; bu cür güdməyə həm də **fiziki güdmə** deyilir.

Güdmə kimi cinayət-axtarış tədbiri həyata keçirilərkən həm də texniki (elekron) vasitələrdən (məsələn, müşahidə kameraları, səsyazan, video, kino və digər çəkiliş aparatları, fotokamera və s.) istifadə edilə bilər; belə güdmə isə **texniki (elektron) güdmə** adlanır. Bu cür güdmə binalarda, mənzillərdə, nəqliyyat vasitələrində və digər yerlərdə şübhəli şəxsin hərəkətlərini izləmək (müşahidə etmək) üçün xüsusi texniki (elektron) vasitələrin tətbiqinə əsaslanır.

İnsanların güdülməsi kimi cinayət-axtarış tədbiri həyata keçirilərkən, ilk növbədə, operativ əhəmiyyətə malik olan faktlar müəyyən edilir və aşkar olunur; həm də belə faktlar qeydə alınır. Lakin güdmə kimi cinayət-axtarış tədbirinin tətbiq olunması təkcə bunlarla məhdudlaşmır. Belə ki, əgər güdmənin həyata keçirilməsi prosesində güdülən şəxsin bu və ya digər cinayət əməlini törətmək niyyəti müəyyən olunarsa, əməliyyat işçisi hadisəyə müdaxilə edərək baş verə biləcək cinayətin qarşısı almalıdır. Yaddan çıxarmaq olmaz ki, güdmə prosesində cinayət-axtarış orqanlarının qarşısında təkcə cinayət faktını üzə çıxarmaq vəzifəsi durmur; güdmə kimi cinayət-axtarış tədbirini həyata keçirən zaman bu orqan həm də cinayətin qarşısını almaq vəzifəsi daşıyır.

Güdmə kimi cinayət-axtarış tədbiri başa çatdıqdan sonra müvafiq sənədlər tərtib olunur; söhbət əməliyyat xidməti sənədlərindən (məsələn, raport, arayış və s.) gedir. Güdmənin nəticələri məhz bu sənədlərlə rəsmiləşdirilir. Həmin sənədlər foto və video çəkilişlərlə birlikdə məhkəmə, istintaq və təhqiqat orqanlarına verilə bilər; bu orqanlar işin hallarını sübut edən zaman onlardan istifadə edirlər. Nəzərdən qaçırmaq olmaz ki, cinayət-mühakimə icraatında güdmənin nəticələrini

rəsmiləşdirən sənədlərə sübutetmə mənbəyi kimi əhəmiyyət və qiymət verilir.[1]

Güdmənin həyata keçirilməsi üçün cinayət-axtarış orqanının müvafiq qərar qəbul etməsi tələb olunur. Həmin qərar güdmə həyata keçirildikdən sonra 48 saat müddətində məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edilməlidir (CPM, maddə 445.2). ƏFQ-nin 10-cu maddəsinin III hissəsinə görə, əgər cinayət-axtarış fəaliyyətinin məqsədlərinə başqa yolla nail olmaq mümkün olmazsa, güdmə kimi cinayət-axtarış tədbiri məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilir.

**Şəxsiyyətin eyniləşdirilməsi** cinayət-axtarış tədbirlərindən biridir. Bu tədbir ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 11-ci bəndində nəzərdə tutulmuşdur.

Şəxsiyyətin eyniləşdirilməsi dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirin həyata keçirilməsi cinayətin törədilməsində iştirak edən subyektlərin, axtarılan və ya cinayət-axtarış və istintaq orqanları üçün maraq doğuran başqa şəxslərin müəyyən əlamətlərə görə tanınmasına (müəyyən edilməsinə) səbəb olur. Aşağıda göstərilən dörd əsas halda həmin tədbir tətbiq olunur, yəni şəxsiyyət eyniləşdirilir: 1) cinayətin törədilməsində iştirak edən şəxs öz zahiri görkəmini dəyişdirdikdə; 2) cinayət fəaliyyəti ilə əlaqəsi olan şəxs öz pasport məlumatlarını dəyişdirdikdə; 3) cinayət fəaliyyəti ilə əlaqəsi olan şəxs məhkəmə, istintaq və ya təhqiqat orqanlarından qaçıb gizləndikdə; 4) cinayət fəaliyyəti ilə əlaqəsi olan şəxs öz yaşayış yerini dəyişdikdə. Bununla bərabər, şəxsiyyətin eyniləşdirilməsi kimi cinayət-axtarış tədbirinin tətbiqi bütün hallarda cinayət hadisəsi ilə bağlı olmur. Belə ki, cinayət-axtarış fəaliyyəti praktikasında cinayətlə bağlı olmayan bəzi məsələləri həll etmək zəruri olduqda da şəxsiyyətin eyniləşdirilməsi kimi tədbir həyata keçirilir. Məsələn, huşsuz vəziyyətdə olan, yaddaşını itirən və bu səbəbdən özü barədə məlumat verə bilməyən,

[1] Hüseynov Ş.İ., Nəsirov R. M., Muradov E.Q. Əməliyyat-axtarış fəaliyyətinin əsasları (mühazirələr toplusu). Dərs vəsaiti. Bakı, 2008, s. 123.

eləcə də digər şəxslərin (nəzarətdə olan uşaqların, psixi-ruhi xəstəxanaya düşən yeniyetmələrin və s.) tanınmasına zərurət yarandıqda, əlbəttə, şəxsiyyətin eyniləşdirilməsi (tanınması) kimi cinayət-axtarış tədbirləri həyata keçirilir.

Cinayət-axtarış tədbiri kimi şəxsiyyətin eyniləşdirilməsi xarici əlamətlərə görə şəxsin tanınmasıdır; belə tanınma qeyri-prosessual formada həyata keçirilir.[1] Onu cinayət-prosessual mənada şəxsin tanınmasından – **prosessual tanınmadan** fərqləndirmək lazımdır. Cinayət-prosessual mənada şəxsin tanınması cinayət təqibi üzrə məhkəməyədək icraata aid anlayışlardan biri olub, cinayət-prosessual qanunvericiliklə tənzimlənir. CPM-in 239-cu maddəsi məhz şəxsin tanınması ilə bağlı məsələlərin tənzimlənməsinə həsr edilmişdir. Bu maddədə göstərilir ki, hər hansı şəxsi şahidə, zərərçəkən, şübhəli və təqsirləndirilən şəxsə tanınma üçün təqdimetmə zərurəti yarandıqda müstəntiq əvvəlcədən onları həmin şəxsin xarici görkəmi və əlamətləri barədə, habelə tanıyanı gördüyü hallar barədə dindirir və müvafiq protokol tərtib edir. Cinayət-axtarış tədbiri kimi tanınma isə, qeyd etdiyimiz kimi, qeyri-prosessual formada həyata keçirilir; odur ki, belə tanınma **operativ tanınma** adlanır. Operativ tanınma həyata keçirilən zaman belə cinayət-axtarış tədbirlərinin nəticələri cinayət prosesində istifadə oluna bilər. Lakin sübut kimi həmin nəticələr cinayət işi üzrə tətbiq olunmur; onlar cinayət-mühakimə icraatında yalnız istiqamətləndirici əhəmiyyətə malikdir, yəni cinayət-mühakimə icaatının istiqamətini müəyyən edir.

Operativ eyniləşdirmənin (tanınmanın) iki növü fərqləndirilir: 1) bilavasitə eyniləşdirmə; 2) dolayı eyniləşdirmə. **Bilavasitə eyniləşdirmə** tanınmalı olan şəxsi əvvəllər görən, həmin şəxsin zahiri görkəmini və onun xüsusi əlamətlərini yadda saxlayan şəxs vasitəsi ilə həyata keçirilir. **Dolayı eyniləşdirmə** isə şifahi təsviretmə, çəkilmiş portret, fotoşəkil, fotorobot, barmaq izləri və s. ilə şəxsin tanınmasını nəzərdə tutur.

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с.101.

Operativ eyniləşdirmə kimi tədbir həyata keçirildikdən sonra müvafiq sənədlər tərtib edilir; məhz bu sənədlər vasitəsilə eyniləşdirmənin nəticələri rəsmiləşdirilir. Söhbət, hər şeydən əvvəl, əməliyyat işçisinin raportundan gedir; eyniləşdirmənin nəticələri həm də arayışla rəsmiləşdirilə bilər. Bu zaman şəxsin tanınması üçün təqdim olunmuş fotoşəkil və süjetlərin videoyazısı arayışa əlavə olunur.

Şəxsiyyətin eyniləşdirilməsi elə bir cinayət-axtarış tədbiridir ki, onun həyata keçirilməsi, hər hansı sanksiya tələb etmir. Belə ki, şəxsiyyətin eyniləşdirilməsi cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanın sanksiyası olmadan həyata keçirilir; digər tərəfdən, həmin cinayət-axtarış tədbirinin tətbiq olunması məhkəmə qərarını da tələb etmir.

ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 12-ci bəndi **nəzarət qaydasında mal alınmasına** həsr edilmişdir; nəzarət qaydasında mal alınması isə cinayət-axtarış tədbirlərindən biridir. Belə ki, müəyyən hallarda bu və ya digər satıcının (mal satan şəxsin) qanunsuz (hüquqazidd) əməllər törətməsi güman edilir, necə deyərlər, ehtimal olunur. Başqa sözlə, bəzən, hər hansı satıcının cinayət əməli törətməsi şübhə edilir. Bəs, cinayətin törədilməsini necə aşkar etmək, qarşısını almaq, aradan qalldırmaq və ya açmaq olar? Bu məqsədlə satıcıdan cinayət-axtarış orqanının əməkdaşı və ya onun tapşırığı ilə digər şəxs malı alır. Məhz belə tədbir cinayət-axtarış praktikasında və qanunvericilikdə nəzarət qaydasında mal alınması adlanır; bu cür tədbirə həm də **yoxlama mal alınması** deyilir.

Nəzarət qaydasında mal alınması dedikdə cinayət-axtarış orqanının əməkdaşı və ya onun tapşırığı ilə digər şəxs tərəfindən həyata keçirilən elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirin görülməsi nəticəsində cinayəti aşkar etmək, qarşısını almaq və aradan qaldırmaq, eləcə də cinayəti açmaq məqsədilə qanunsuz əməllər törətməsi şübhə (güman) edilən satıcıdan haqqı ilə, əvəzli şəkildə mal və ya digər maddi obyekt alınır. Məsələn, şəxs qanunsuz olaraq narkotik vasitələr satır ki, bu cür əməl CM-in 234-cü maddəsi ilə cinayət sayılır.

Cinayəti aşkar etmək üçün cinayət-axtarış orqanının tapşırığı ilə hər hansı şəxs həmin satıcıdan haqqı ilə narkotik vasitə alır; bu, nəzarət qaydasında mal alınması tədbiridir. Başqa bir misalda şəxs qanunsuz olaraq odlu silah satır ki, bu, CM-in 228-ci maddəsi ilə cinayət hesab edilir. Cinayəti aşkar etmək üçün cinayət-axtarış orqanı əməkdaşının tapşırığı ilə hər hansı şəxs (belə şəxsə cinayət-axtarış praktikasında «şərti alıcı» deyilir) həmin satıcıdan odlu silah alır; bu tədbir də nəzarət qaydasında mal alınması adlanır.

Nəzarət qaydasında mal alınması kimi cinayət-axtarış tədbiri belə mallar barəsində həyata keçirilir: 1) dövriyyəsi (satışı) qadağan edilmiş mallar (məsələn, cinayət yolu ilə əldə edilmiş əmlak və s.); dövriyyəsi (satışı) məhdudlaşdırılmış mallar (məsələn, silah, narkotik vasitələr, psixotrop maddələr və s.); 3) dövriyyəsinə (satışına) icazə verilmiş mallar (məsələn, paltar, minik avtomobilləri, ərzaq məhsulları və s.). Əgər nəzarət qaydasında mal alınması kimi tədbir dövriyyəsi qadağan edilmiş və ya dövriyyəsi məhdudlaşdırılmış mallar barəsində həyata keçirilərsə, onda cinayət-axtarış orqanının rəhbəri tərəfindən sanksiya (qərar) verilməsi tələb olunur ki, sanksiya (qərar) həmin cinayət-axtarış tədbirinin tətbiqinə icazə verilməsi haqqındadır. Dövriyyəsinə icazə verilmiş mallar barəsində həyata keçirilən cinayət-axtarış tədbiri üçün isə sanksiya (qərar) tələb olunmur.

Sözügedən cinayət-axtarış tədbiri iki üsulla həyata keçirilir: 1) aşkar (qeyri-gizli) üsul; 2) gizli üsul. Əgər nəzarət qaydasında mal alınması kimi cinayət-axtarış tədbirini həyata keçirən şəxs həmin tədbirin tətbiq olunmasını rəsmi surətdə elan edərsə və onun nəticələrini müvafiq aktda qeyd edərsə, bu, **aşkar üsulu** ifadə edir; bu zaman hal şahidlərinin iştirakı təmin edilməlidir.

Əgər göstərilən cinayət-axtarış tədbirini həyata keçirən əməliyyat işçisi əldə etdiyi və aldığı malı özü ilə götürərsə, bu, həmin tədbirin **gizli üsulla** həyata keçirilməsini ifadə edir; əməliyyat işçisinin özü ilə götürdüyü mal sonradan yoxlanılır.

Nəzarət qaydasında mal alınması kimi cinayət-axtarış tədbirinin nəticələri üç əsas sənədlə rəsmiləşdirilir. Söhbət nəzarət qaydasında mal alınması haqqında aktdan, raportdan və ya arayışdan gedir.

Nəzarət qaydasında mal alınması kimi cinayət-axtarış tədbirinin nəticələri, hər şeydən əvvəl, cinayət işi başlamaq üçün əsas ola bilər. Digər tərəfdən, həmin nəticələr əsasında alınmış predmetlərin (malların) ekspertizası keçirilə bilər. Belə nəticələrdən həm də cinayət-mühakimə icraatında cinayət işinin materialları üzrə sübut kimi istifadə edilməsi də mümkündür.[1]

Cinayət-axtarış tədbirlərinin siyahısında növbəti yeri **əşya və sənədlərin tədqiqi** tutur. Bu, cinayət-axtarış tədbirlərindən biri olub, ƏFQ-nın 10-cu maddəsinin I hissəsinin 13-cü bəndində nəzərdə tutulmuşdur.

Hər şeydən əvvəl, qeyd edək ki, əşya və sənədlərin tədqiqi cinayət-axtarış tədbiri nəticəsində əldə edilmiş obyektlərin kriminalistik yoxlanılmasıdır; belə yoxlamanı müvafiq mütəxəssislər həyata keçirirlər. Məqsəd törədilmiş cinayətin əlamətlərini, cinayətlə bilavasitə əlaqəsi olan şəxsləri, yəni cinayətdə iştirak edən və əli olan şəxsləri və digər halları müəyyən etməkdən ibarətdir. Məhz bu kimi xüsusiyyətlər əşya və sənədlərin tədqiqi kimi cinayət-axtarış tədbirinə elmi (doktrinal) anlayış verilməsi üçün kifayət edir.

Əşya və sənədlərin tədqiqi dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbir nəticəsində cinayətin əlamətlərini, cinayətlə bilavasitə əlaqəsi olan şəxsləri və digər halları müəyyən etmək məqsədilə müvafiq mütəxəssislər tərəfindən əşya və sənədlərin kriminalistik yoxlanılması həyata keçirilir. Söhbət bu və ya digər cinayət-axtarış tədbiri nəticəsində əldə edilən əşya və sənədlərin yoxlanmasından gedir; bu kimi cinayət-axtarış tədbiri aşağıdakıları ehtiva edir: 1) müqayisəli təd-

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с.97.

qiq üçün nümunələrin toplanması; 2) nəzarət qaydasında mal alınması; 3) nəzarətli göndəriş. Sadalanan cinayət-axtarış tədbirləri şübhə yaradan şəxsdən əşya və sənədlər əldə etmək və bunları sonradan yoxlamaq məqsədilə aparılır. Lakin bu, heç də o deməkdeyildir ki, əşya və sənədlərin tədqiqi müstəqil cinayət-axtarış tədbiri hesab edilmir; əksinə, əşya və sənədlərin tədqiqi müstəqil əhəmiyyətə malik olan cinayət-axtarış tədbirlərindən biridir. Belə ki, bu tədbir, birinci, özünəməxsus formada tətbiq edilir; ikinci, həmin tədbir özünün həyata keçirilmə taktikasına malikdir. Deyilənlər onu göstərir ki, əşya və sənədlərin tədqiqi müstəqil cinayət-axtarış tədbiridir.

Əşya və sənədlərin tədqiqi kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsinin təşəbbüskarı əməliyyat işçisidir. Belə ki, həmin tədbiri əməliyyat işçisinin özü həyata keçirmir, yəni əşya və sənədlər əməliyyat işçisinin özü tərəfindən yoxlanılmır, tədqiq olunmur. Yoxlanma (tədqiqolunma) hüquq-mühafizə orqanlarının (məsələn, DİN və s.) ekspert-kriminalist xidməti, habelə elmi-tədqiqat institutları və idarələrinin mütəxəssisləri tərəfindən həyata keçirilir. Bundan ötrü cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanların yazılı tapşırıq verməsi tələb olunur.

Tədqiqolunmanın (yoxlanılmanın) obyekti, hər şeydən əvvəl, əşyalardır; əşyaların tədqiq olunması nəticəsində lazımi və zəruri məlumatlar alınır. Alınmış məlumatlar əşyanın keyfiyyət xarakteristikasına (əşyanın təyinatına, hazırlanma vaxtı və yerinə, kimyəvi və bioloji tərkibinə, eyniləşdirmə əlamətlərinə, mənşəyinə və s.) aid ola bilər. Tədqiqolunma nəticəsində həm də barmaq izləri, qan, insanın saçı, insanın səsi və digər əlamətlər haqqında məlumatlar əldə edilə bilər. Dövriyyəsi qadağan olunmuş əşyaların və qarşıya qoyulmuş operativ vəzifələrin həlli üçün yoxlanılması əhəmiyyətli olan digər obyektlərin də tədqiq olunması mümkündür.

Tədqiqolunma obyekti qismində həm də sənədlər çıxış edə bilər. Bu zaman sənədlərin məzmunu, xətt, imza, şrift, mö-

hür və ştamp yoxlanılır ki, bunun nəticəsində saxtalaşdırma əlamətlərini aşkar etmək mümkün olur.

Əşya və sənədlərin tədqiqi elə bir cinayət-axtarış tədbiridir ki, bu tədbirin həyata keçirilməsi hər hansı sanksiyanın (icazənin) olmasını tələb etmir; sözügedən tədbir həm də məhkəmə qərarı olmadan həyata keçirilir.

Əşya və sənədlərin tədqiq olunmasının nəticələri arayış, raport və digər sənədlərlə rəsmiləşdirilir; bu sənədlər əsasında cinayət işi qaldırıla bilər. Digər tərəfdən, həmin sənədlər sonrakı prosessual tədbirlərin həyata keçirilməsi üçün əsas ola bilər. Bunlardan əlavə, tədqiqolunmanın nəticələrini rəsmiləşdirən sənədlər əsasında cinayət prosesi çərçivəsində şübhəli şəxsin təqsiri sübut olunur.

Cinayət-axtarış tədbirlərindən biri **müqayisəli tədqiq üçün nümunələrin toplanılmasıdır**. Bu tədbir ƏFQ-nın 10-cu maddəsinin I hissəsinin 14-cü bəndində nəzərdə tutulmuşdur. Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericilikdə bu cinayət-axtarış tədbirinə də leqal (normativ) anlayış verilmir. Buna görə də, həmin tədbir növünə elmi (doktrinal) anlayış verilməsi zəruridir ki, bu vəzifəni hüquq elmi yerinə yetirir.

Müqayisəli tədqiq üçün nümunələrin toplanılması dedikdə hər hansı sanksiya (icazə) olmadan həyata keçirilən elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirə görə, maddi predmetlər sonradan onların mövcud oxşarları ilə müqayisə edilmək və tədqiq olunmaq məqsədilə, cinayətkar fəaliyyətin əlamətlərini müəyyən etmək üçün aşkara çıxarılır və götürülür. Nümunə kimi maddi predmetlərin götürülməsi akt, raport, arayış və digər əməliyyat sənədləri ilə rəsmiləşdirilir. Nümunələrin götürülməsi həm də daktiloskopiya ilə rəsmiləşdirilə bilər (məsələn, barmaq izləri götürüləndə daktiloskopiyadan istifadə edilir).

Nümunə kimi götürülən maddi predmetlərin dairəsi kifayət qədər genişdir. Bu sıraya müxtəlif obyektlər (predmetlər) daxildir ki, həmin obyektlərdən cinayəti aşkar etmək və onu açmaq üçün istifadə edilir: nəqliyyat vasitələrinin izləri, hazır

məhsul, xammal və yarımfabrikatlar, əl, ayaq və barmaq izləri, tük, səs, qan, xətt və s. Dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış əşyaların[1] (predmetlərin) nümunələrinin əməliyyat orqanı tərəfindən toplanılması xüsusi əhəmiyyətə malikdir. Söhbət narkotik vasitələrdən, psixotrop maddələrdən, silahdan, döyüş sursatından, partlayıcı və radioaktiv maddələrdən və digər predmetlərdən gedir. Müqayisəli tədqiq üçün nümunələrin toplanılması iki məqsədə xidmət edir: birinci, nümunələr oxşarları ilə müqayisə olunmaq məqsədilə toplanır; ikinci, nümunələrin toplanılmasında məqsəd onları tədqiq etməkdən ibarətdir. Beləliklə, nümunələrin toplanması həm oxşarları ilə müqayisə olunmaq, həm də tədqiq edilmək məqsədinə xidmət edir ki, bunların cinayətkar fəaliyyətin əlamətlərini üzə çıxarmaq, aşkar etmək və müəyyənləşdirmək üçün vacib əhəmiyyəti vardır. Belə ki, toplanılan nümunələr cinayətkar fəaliyyətlə əlaqəsi olan predmetlərdir.

Müqayisəli tədqiq üçün nümunələrin toplanılması kimi cinayət-axtarış tədbiri cinayət işi üzrə sübut rolunu oynaya bilər. Hər şeydən əvvəl, qeyd etməliyik ki, tədqiqatın müvafiq nəticələri əsasında cinayət işi qaldırılır; cinayət işi qalldırıldıqdan sonra götürülmüş nümunələrdən qalanları ekspertiza üçün göndərilir və maddi sübut kimi cinayət işinə əlavə olunur. Tədqiqatın nəticələri əsasında həm də istintaq tədbirləri həyata keçirilir. Bunlardan başqa, tədqiqatın nəticələrindən məhkəmə baxışında da istifadə oluna bilər.

Müqayisəli tədqiq üçün nümunələrin toplanılması kimi tədbir həyata keçirilən zaman hər hansı sanksiya (icazə) tələb olunmur; bu tədbir həm də məhkəmə qərarı olmadan həyata keçirilir.

**Nəzarətli göndəriş** də cinayət-axtarış tədbiri hesab olunur. Bu tədbir ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 15-ci bəndində nəzərdə tutulmuşdur. Cinayət-axtarış fəaliyyəti haqqın-

[1] *Dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış əşyadar barədə bax:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. II nəşr. Bakı, 2009, 736 s.

da qanunvericilik aktlarında bu tədbirə leqal (normativ) anlayış verilir.

Bəzən cinayət-axtarış orqanının icazəsi və nəzarəti altında hər hansı predmet və mal, habelə cinayətin törədilməsi ilə əlaqəsi olan maddə öz yerini dəyişir, daşınır. Məhz belə tədbir cinayət-axtarış praktikasında və qanunvericilikdə nəzarətli göndəriş adlanır.

Nəzarətli göndəriş dedikdə cinayət-axtarış orqanının icazəsi və nəzarəti altında həyata keçirilən elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbir cinayətkar fəaliyyətin əlamətləri haqqında məlumatların öyrənilməsinə və tədqiq edilməsinə yönəlmişdir. Məlumatların öyrənilməsi və tədqiq edilməsi isə mal və predmetlərin yerdəyişməsi (daşınması) yolu ilə mümkün olur ki, bu da cinayət-axtarış orqanının icazəsi və nəzarəti altında həyata keçirilir. Məqsəd cinayətin qarşısını almaqdan, cinayəti aradan qaldırmaqdan, cinayətin üstünü açmaqdan, habelə cinayətin törədilməsi ilə əlaqəsi olan şəxsləri müəyyən etməkdən ibarətdir.

Nəzarətli göndəriş kimi cinayət-axtarış tədbiri, əsasən, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq və mütəşəkkil transmilli cinayətlərlə mübarizə aparılması sahəsində tətbiq olunur. Bu tədbirin obyektini yerdəyişməsi (daşınması) nəzarət edilə bilən mal və predmetlər təşkil edir ki, onlara aid olunur:[1] 1) sərbəst satışı qadağan olunmuş və ya məhdudlaşdırılmış mal, maddə və predmetlər (məsələn, narkotik maddələr, döyüş sursatı, qiymətli metallar və s.); 2) cinayət yolu ilə əldə olunmuş və ya üzərində cinayətin izi qalmış predmetlər; 3) cinayətin törədilməsində istifadə olunan alət və vasitələr (pul, sənəd, silah və s.).

Nəzarətli göndəriş kimi cinayət-axtarış tədbiri, hər şeydən əvvəl, Azərbaycan Respublikasının ərazisində həyata keçirilir.

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 114.

Belə tədbir **daxili nəzarətli göndəriş** adlanır. Əgər nəzarətli göndəriş bir neçə dövlətin ərazisində beynəlxalq hüquq normalarına uyğun həyata keçirilərsə, bu tədbirə **beynəlxalq nəzarətli göndəriş** deyilir. Bu növ tədbiri ifadə etmək üçün bəzi mənbələrdə **«xarici nəzarətli göndəriş»** termini işlədir.

Sözügedən cinayət-axtarış tədbirinin həm də tranzit nəzarətli göndəriş kimi ayrıca növü fərqləndirilir. **Tranzit nəzarətli göndəriş** dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbir Azərbaycan Respublikasının ərazisi vasitəsilə iki və daha çox dövlət arasında həyata keçirilir. Beləliklə, həyata keçirildiyi məkandan asılı olaraq, nəzarətli göndəriş kimi cinayət-axtarış tədbirinin üç növü fərqləndirilir: 1) daxili nəzarətli göndəriş; 2) beynəlxalq nəzarətli göndəriş; 3) tranzit nəzarətli göndəriş.

Nəzarətli göndəriş zamanı, ilk növbədə, kriminal fəaliyyətlə əlaqəsi olan predmet və maddələrin (malların) izlənməsi və müşayiət olunması həyata keçirilir. Bununla yanaşı, nəzarətli göndəriş tətbiq olunarkən həm də digər cinayət-axtarış tədbirləri (məsələn, soraqlaşma, müşahidə, telefon danışıqlarına qulaqasma, texniki rabitə kanallarından informasiyanın çıxarılması və s.) həyata keçirilir.

Nəzarətli göndəriş hüquqi əhəmiyyətə malik olan müəyyən nəticələrə səbəb olur; bu nəticələr əsasında cinayət işi qalldırılır. İstintaq orqanlarına verilmiş həmin nəticələr cinayət işinin materiallarına əlavə olunur ki, onlardan sübut kimi istifadə edilir. Nəzarətli göndərişin nəticələrinin qeyd edilməsinə gəldikdə isə, deməliyik ki, onun nəticələri raport, arayış və aktla rəsmiləşdirilir. Bu sənədlərə həm foto və kino, həm də videoçəkilişlərin materialları əlavə edilir.

Cinayət-axtarış praktikasında tətbiq olunan cinayət-axtarış tədbirlərindən biri **cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi** adlanır. Bu tədbir ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 16-cı bəndində nəzərdə tutulmuşdur. Həmin tədbirin mahiyyəti bundan ibarətdir ki, xüsusi hazırlığa malik olan təcrübəli əməliyyat işçisi gizli (məxfi) kəşfiyyatçı

qismində uydurulmuş yolla kriminal aləmə (cinayətkar qrupplara) daxil olur. Kriminal aləmə əməliyyat işçisinin göstərişi və tapşırığı ilə həm də cinayətkarlar arasında (cinayət aləmində) böyük nüfuza malik olan şəxslər daxil ola bilər ki, belə şəxslər konfident (sirdaş) adlanır. Daxilolma təkcə kriminal aləmlə (cinayətkar qruplarla) məhdudlaşmır. Belə ki, cinayət-axtarış orqanının əməkdaşı həm də kriminogen obyektlərə daxil olur; belə obyektlər əməliyyat əhəmiyyətinə malik olub, operativ maraq doğurur. Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxilolmanın məqsədi kəşfiyyat məlumatları toplamaqdan ibarətdir ki, bu məlumatlar cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün istifadə edilir.

Yuxarıda deyilənlərə əsaslanaraq cinayətkar qruplara və ya kriminogen obyektlərə daxilolma kimi cinayət-axtarış tədbirinə elmi (doktrinal) anlayış verək. Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxilolma dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirə görə, cinayət-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan məlumatların əldə edilməsi məqsədi ilə cinayət-axtarış orqanının əməkdaşı və ya onun tapşırığı ilə konfident (sirdaş) uydurulmuş yolla kriminal aləmə və ya operativ maraq doğuran kriminogen obyektlərə girir. Bu tədbir mütəşəkkil cinayətkarlıqla, narkotik vasitələrin qanunsuz (qeyri-leqal) dövriyyəsi və dövlət orqanları sistemində korrupsiya ilə mübarizədə tətbiq olunur.

Sözügedən cinayət-axtarış tədbirinin tətbiqi məhdud xarakter daşıyır. Belə ki, cinayət-axtarış praktikasında həmin tədbir qanunvericilikdə nəzərdə tutulan hallarda həyata keçirilir; belə hallar ƏFQ-də göstərilmişdir. Adıçəkilən Qanunun 10-cu maddəsinin VII hissəsində deyilir ki, cinayətkar qrupplara və ya kriminogen obyektlərə daxilolma kimi cinayət-axtarış tədbirinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması, hə-

min cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir. Məsələn, barəsində danışdığımız cinayət-axtarış tədbirinin tətbiqinə ən bariz misal çoxlarının izlədiyi «Görüş yerini dəyişmək olmaz» filmindən bir süjetdir. Həmin süjetə görə, filmin əsas qəhrəmanı olan «Şarapov» cinayətkar qrupa daxil olur və cinayətin açılması üçün lazımi məlumatları əldə edir.

Sözügedən cinayət-axtarış tədbirinin həyata keçirilməsi bu tədbirdə iştirak edənlərin həyat və sağlamlığı üçün təhlükə törədir; buna görə də, həmin tədbir məxfi (gizli) şəkildə həyata keçirilir. Unutmaq olmaz ki, konspirativlik cinayətkar qrupplara və ya kriminogen obyektlərə daxilolma kimi tədbirin əsas cəhətlərindən biridir. Son dərəcə mürəkkəb xarakterə malik olan bu tədbirin həyata keçirilməsi məxfiləşdirilmişdir.

**Hüquqi şəxsin yaradılması** qanunvericilikdə nəzərdə tutulan cinayət-axtarış tədbirlərindən biridir. ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 17-ci bəndi məhz bu cinayət-axtarış tədbirinə həsr edilmişdir. Lakin burada hüquqi şəxsin yaradılması kimi cinayət-axtarış tədbirinə leqal (normativ) anlayış verilmir.

Hüquqi şəxsin yaradılması dedikdə elə bir cinayət-axtarış tədbiri başa düşülür ki, bu tədbirin həyata keçirilməsi nəticəsində konspirasiya məqsədi ilə uydurma idarə, təşkilat və ya müəssisə təsis olunur. Bu zaman, yəni uydurma idarə, müəssisə və ya təşkilat yaradılanda cinayət-axtarış fəaliyyəti subyektlərinin (orqanlarının) müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfiçilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələyən sənədlərdən istifadə olunur.

Hüquqi şəxsin yaradılması kimi cinayət-axtarış tətbirinin həyata keçirilməsi məhdud xarakterə malikdir. Belə ki, həmin tədbirin həyata keçirilməsinə məhdudiyyət qoyulduğuna görə, onun tətbiqinə nadir hallarda rast gəlinir. ƏFQ-nin 10-cu maddəsinin VII hissəsində göstərilir ki, hüquqi şəxsin yara-

dılması kimi cinayət-axtarış tədbirinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

Cinayət-axtarış tədbirləri sırasına qanunvericiliklə həm də **əməliyyat eksperimenti** daxil edilmişdir. Bu tədbir ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 18-ci bəndində nəzərdə tutulmuşdur; həmin bəndə görə, əməliyyat eksperimenti cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqidir.

Əməliyyat eksperimenti elə bir cinayət-axtarış tədbiridir ki, bu tədbirin həyata keçirilməsi nəticəsində əməliyyat işçisi tərəfindən konkret hüquqazidd əməl və ya hadisə təqlid olunur. Əməliyyat eksperimentindən cinayət-axtarış praktikasında tez-tez istifadə edilir. Buna görə də, həmin tədbirin tətbiqi geniş yayılmışdır. Digər tərəfdən, əməliyyat eksperimenti cinayətin törədilməsində təqsiri olan şəxsləri aşkar və ifşa etməyin effektiv üsuludur. Yaddan çıxarmaq olmaz ki, əməliyyat eksperimenti, hər şeydən əvvəl, cinayəti törədən və ya cinayəti hazırlayan şəxsləri aşkar etmək üçün həyata keçirilir. Əməliyyat eksperimenti həm də müəyyən hüquqazidd əməllər törədilməsinin mümkünlüyü haqqında məlumat toplamaq üçün tətbiq olunur.

Əməliyyat eksperimenti aşağıdakı hallarda geniş tətbiq edilir: 1) rüşvət verən şəxsin tutulması; 2) rüşvət alan şəxsin tutulması; 3) hədə-qorxu ilə tələb etmə; 4) narkotik vasitələrin qanunsuz dövriyyəsi və s.

Əməliyyat eksperimentinin həyata keçirilməsi müvafiq arayış və aktla rəsmiləşdirilir. Həmin tədbirin həyata keçirilməsi hüquqi əhəmiyyətə malik nəticələrə səbəb olur. Belə ki, əməliyyat eksperimentinin həyata keçirilməsi nəticəsində cinayətin əlamətləri aşkar edilə bilər. Əgər cinayət işi açılarsa, əməliyyat eksperimentinin nəticələri istintaq orqanları tərəfinndən hadisə yerinin müayinəsi, axtarış və s. tədbirlər zama-

nı protokolda qeyd edilir. Digər tərəfdən, əməliyyat eksperimentinin materialları tam leqallaşdırıla və ibtidai istintaq orqanlarına verilə bilər ki, onlardan cinayət prosesində istifadə edilir.

### 8.5. Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və əsaslar

#### 8.5.1. Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər

Qeyd etmək lazımdır ki, cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün bu və digər səbəb olmalıdır; əgər müvafiq səbəb yoxdursa, təbii ki, cinayət-axtarış tədbirlərinin həyata keçirilməsindən söhbət gedə bilməz. Məhz tələb edilən səbəb hər hansı müvafiq cinayət-axtarış tədbirinin tətbiqini zəruri edir.

Bildiyimiz kimi, cinayət-axtarış fəaliyyətinin obyektini bu və ya digər hüquqazidd əməl (məsələn, cinayət hadisəsi və s.) təşkil edir. Əlbəttə, cinayət-axtarış fəaliyyətinin obyekti sayılan hüquqazidd əməl haqqında məlumat veriləndə, bu, cinayət-axtarış tədbirlərinin həyata keçirilməsinə səbəb olur. Deməli, **cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər** dedikdə cinayət-axtarış fəaliyyətinin obyektinə aid olan hüquqazidd əməl barədə məlumatlar verilməsi başa düşülür ki, bu məlumatlara görə, cinayət-axtarış fəaliyyəti subyektləri müvafiq cinayət-axtarış tədbirlərini həyata keçirir. Məlumatlar isə müxtəlif formalarda verilə bilər: ərizə verməklə, sorğular göndərməklə, müraciət etməklə, tapşırıq verməklə və s. Məsələn, hər hansı vətəndaş ərizə ilə müraciət edir ki, törədilmiş cinayət hadisəsi ilə bağlı şübhəli şəxsin telefon danışıqlarına qulaq asılsın. Verilmiş ərizə telefon danışıqlarına qulaqasma kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsi üçün səbəbdir. Başqa bir misalda, müstəntiq tapşırıq verir ki, cinayət vasitəsi olan nəqliyyat vasitəsinə baxış keçirilsin. Ve-

rilən tapşırıq nəqliyyat vasitəsinə baxış keçirmə kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsi üçün səbəbdir.

Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün səbəblər cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliklə müəyyənləşdirilmişdir. ƏFQ-nin 11-ci maddəsinin I hissəsində göstərilir ki, cinayət-axtarış tədbirinin həyata keçirilməsi üçün cinayət-axtarış fəaliyyətinin subyektlərində qanunda nəzərə tutulan səbəblər olmalıdır. Belə səbəblər aşağıdakılardan ibarətdir (ƏFQ, maddə 11, II hissə):

– fiziki şəxslərin ərizələri;
– müəssisə, idarə, təşkilatların vəzifəli şəxslərinin müraciətləri;
– kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;
– cinayət-axtarış fəaliyyəti subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar;
– cinayət-axtarış fəaliyyətinin digər subyektlərinin yazılı sorğuları;
– Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanlarını və xüsusi obyektlərini mühafizə edən orqanların yazılı sorğuları;
– cinayət işləri üzrə təhqiqat və ya istintaq aparan şəxslərin yazılı tapşırıqları;
– xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatların rəsmi sorğuları;
– kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin yazılı sorğuları.

– Bunlar, yəni göstərilən səbəblər faktiki xarakterə malikdir. Odur ki, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün səbəblər faktiki əsaslar hesab edilir. Söhbət cinayət-

axtarış fəaliyyətinin həyata keçirilməsi üçün faktiki əsaslardan gedir.[1]

### 8.5.2. Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün əsaslar

Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün təkcə qanunvericilikdə nəzərdə tutulan səbəblər özlüyündə kifayət etmir; bundan ötrü həm də zəruri və lazımi əsaslar olmalıdır. Nəzərdən qaçırmaq olmaz ki, ƏFQ-nin 11-ci maddəsinə görə, cinayət-axtarış fəaliyyətini həyata keçirmək üçün cinayət-axtarış fəaliyyəti subyektlərində həm səbəblər, həm də əsaslar olmalıdır. Söhbət cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan səbəblərdən, eləcə də əsaslardan gedir.

**Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün əsaslar** dedikdə elə hüquqi sənədlər başa düşülür ki, bu sənədlər cinayət-axtarış fəaliyyəti subyektlərinə bu və ya digər cinayət-axtarış tədbirinin tətbiq olunmasına imkan (əsas) verir. Hüquqi sənədlər dedikdə qərarlar başa düşülür; söhbət qərar formasında qəbul olunan sənədlərdən gedir. Məhz belə qərarlar cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün əsas olur. ƏFQ-nin 11-ci maddəsinin III hissəsinə görə, həmin qərarlar üç cür olur: 1) məhkəmənin (hakimin) qərarları; 2) istintaq orqanlarının qərarları; 3) cinayət-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarları. Bu kimi qərarlar cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün əsas rol oynayır.

«Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər» və «cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsaslar» kimi iki anlayışı bir-birindən fərqləndirmək lazımdır. Bu anlayışlar bir-birilə qarşılıqlı əlaqəli və bağlı olmasına baxmayaraq, eynimənalı deyillər. Məsələ burasındadır ki, cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər **faktiki əsaslardır**. Cinayət-axtarış tədbirlərinin həyata

---

[1] Məmmədov F., Mustafayev M. Cinayət-axtarış hüququnun əsasları. Dərs vəsaiti. Bakı, 2011, s. 172.

keçirilməsi üçün əsaslara gəldikdə isə, qeyd etməliyik ki, onlar hüquqi sənədlərdir. Həmin sənədlər cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün hüquqi əsas rolunu oynayır; söhbət **hüquqi əsaslardan** gedir. Belə əsaslar o halda yaranır ki, cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün müəyyən səbəb mövcud olsun.[1] Məsələn, əməliyyat işçisinə hüquqazidd əməlin əlamətləri haqqında məlumat daxil olduqda cinayət-axtarış fəaliyyətinin səlahiyyətli subyekti daxil olmuş məlumatı nəzərə alaraq, insanların güdülməsi kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsi haqqında qərar qəbul edir. Bu halda daxil olmuş məlumat güdmə kimi cinayət-axtarış tədbirinin həyata keçirilməsi üçün səbəbdir; cinayət-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı isə həmin tədbirin həyata keçirilməsi üçün əsasdır.

Əvvəlcə cinayət-axtarış tədbirlərinin həyata keçirilməsini zəruri edən bu və ya digər səbəb mövcud olur; sonra isə cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsaslar yaranır.

Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi haqqında məhkəmənin (hakimin), istintaq orqanının və ya cinayət-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı yalnız bir neçə halda qəbul oluna bilər. Həmin hallar ƏFQ-nin 11-ci maddəsinin IV hissəsində göstərilmişdir. Başlanmış cinayət işinin mövcud olması bu hallardan biridir. Cinayət işi bu və ya digər orqan (istintaq, təhqiqat və s.) tərəfindən başlana (qaldırıla) bilər.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində (CPM, maddə 210, I hissə) göstərilir ki, təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz səlahiyyətləri daxilində cinayət işinin başlanması barədə qərar qəbul edir; qərar qəbul edilməsi ilə cinayət işi başlanılır. Hər şeydən əvvəl, cinayət törədilməsində təqsiri olan şəxslər axtarılır. Belə ki, bəzən cinayət törədən şəxsi aşkar etmək və müəyyənləşdirmək mümkün olmur; bun-

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 120.

dan ötrü təhqiqat orqanı müvafiq cinayət-axtarış tədbiri həyata keçirir.

Cinayət törədən şəxsin müəyyən edilməsi heç də müvafiq cinayət-axtarış tədbirlərinin həyata keçirilməsini məhdudlaşdırmır. Belə ki, cinayətin digər iştirakçılarını müəyyən etmək üçün cinayət-axtarış tədbirləri həyata keçirilir; həm də əməliyyat-yoxlama həyata keçirilə bilər. Məqsəd cinayət törətmiş şəxsin başqa cinayətlərdə iştirak etməsini müəyyənləşdirməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, əgər iş müstəntiq tərəfindən qəbul edilərsə, cinayət-axtarış tədbiri yalnız müstəntiqin tapşırığı ilə həyata keçirilə bilər; əgər müstəntiq tapşırıq verməzsə, onda cinayət-axtarış tədbirləri həyata keçirilmir. İstintaq zamanı, ilk növbədə, sübutlar toplanılır; sübut toplamağın əsas üsulu isə istintaq hərəkətləridir. İstintaq hərəkətləri cinayət-prosessual qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

ƏFQ-də nəzərdə tutulan digər hallara aşağıdakılar aiddir: cinayət işinin başlanması üçün kifayət qədər əsaslar olmasa da, cinayət hazırlayan, törədən və ya törətmiş şəxslər barəsində müvafiq məlumatın daxil olması; dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisənin baş verməsi, yaxud onun qarşısının alınması; şəxsin məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənməsi, cəza çəkməkdən boyun qaçırması, yaxud itkin düşməsi; naməlum meyit aşkar edilməsi. Bu kimi hallarda da məhkəmə (hakim), istintaq orqanı və ya cinayət-axtarış fəaliyyətinin səlahiyyətli subyekti zəruri cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi barədə müvafiq qərar çıxarır.

Naməlum meyit aşkar edilməsi kimi hal barəsində xüsusi olaraq, ayrıca danışmaq lazımdır. Əgər naməlum meyit aşkar edilərsə, cinayət-axtarış orqanı zəruri hərəkətlər edir. Bu zaman zorakılıqla ölüm hadisəsinin əlamətləri müəyyən edilməzsə, meyitin şəxsiyyətinin müəyyən edilməsi istiqamətində müvafiq tədbirlər görülür; həm də meyiti aşkar edilmiş şəxsin yaxın qohumlarının müəyyən edilməsi istiqamətində hərəkətlər edilir.

# VIII FƏSİL ÜZRƏ SXEM



# IX FƏSİL. İSTİNTAQ VƏ TƏHQİQAT HÜQUQU

## 9.1. İstintaq və təhqiqat hüququ polis hüququnun institutu kimi

### 9.1.1. İstintaq və təhqiqat hüququ anlayışı

Polis hüququ vasitəsi ilə müxtəlif növ ictimai münasibətlər tənzimlənir. Axı, unutmamalıyıq ki, polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir. Məsələn, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlər, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində yaranan münasibətlər, cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlər və s.

Polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin növlərindən biri də ayrı-ayrı işlər üzrə təhqiqat və istintaq aparılması ilə əlaqədar olan münasibətlərdir. Məhz bu növ münasibətləri tənzimləyən polis-hüquq normalarının məcmusu istintaq və təhqiqat hüququ adlanır. Polis fəaliyyətində həmin münasibətlərin, yəni istintaq və təhqiqat aparılması ilə bağlı münasibətlərin yaranması təbii olub, heç də təsadüfi xarakter daşımır. Belə ki, təhqiqat və istintaq aparmaq polisin üzərinə qoyulan əsas vəzifələr sırasına daxildir. PQ-nin 3-cü maddəsinin II hissəsinin 8-ci bəndinə görə, polis təhqiqat və istintaq aparmaq kimi məsuliyyətli və vacib vəzifə daşıyır. Qeyd etməliyik ki, polis bütün işlər üzrə deyil, yalnız öz səlahiyyətlərinə aid edilmiş işlər üzrə təhqiqat və istintaq aparmalıdır; bu, onun əsas vəzifələri sırasına aid edilmişdir.

**İstintaq və təhqiqat hüququ** dedikdə səlahiyyətlərinə aid edilmiş işlər üzrə polisin təhqiqat və istintaq aparması ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Həmin münasibətlərin hüquqi tənzimlənməsi polis

hüququnun tərkib hissəsi olan istintaq və təhqiqat hüququ vasitəsi ilə həyata keçirilir ki, bu, təsadüfi xarakter daşımır. Yaddan çıxarmaq olmaz ki, polis bu və ya digər iş üzrə təhqiqat aparmaq səlahiyyətinə malikdir. Bu baxımdan, polis **təhqiqat orqanı** kimi tanınır.[1] Digər tərəfdən, polis öz səlahiyyət sferasına daxil edilmiş işlərə dair istintaq aparır. Bu baxımdan da polis **istintaq orqanlarından** biridir.[2] İstintaq və təhqiqat orqanı kimi polisin həyata keçirdiyi fəaliyyət ilə bağlı münasibətlər, təbii ki, polis hüququ ilə tənzimlənməlidir. Bundan ötrü polis hüququnun tərkibində ayrıca müstəqil hüquq institutu formalaşmışdır ki, həmin institut istintaq və təhqiqat hüququ sayılır. Təhqiqat və istintaq aparılması ilə bağlı münasibətləri hüquqi tənzimləmək funksiyasını polis hüququ məhz istintaq və təhqiqat hüququ vasitəsilə həyata keçirir; bu münasibətlərin mövcudluğu sözügedən hüquq institutunun formalaşması üçün zəmin yaradır, onun əmələgəlmə əlaməti sayılır.

### 9.1.2. İstintaq və təhqiqat hüququnun nizamasalma predmeti

Hər bir hüquq institutunun, o cümlədən polis hüququnun tərkibində formalaşmış istintaq və təhqiqat hüququnun özünəməxsus nizamasalma predmeti vardır. İstintaq və təhqiqat hüququnun **nizamasalma predmeti** dedikdə onun tənzimlədiyi ictimai münasibətlər başa düşülür. Buna görə də, deyə bilərik ki, hansı növ ictimai münasibətlər istintaq və təhqiqat hüququ ilə tənzimlənirsə, o münasibətlər də məhz istintaq və təhqiqat hüququnun nizamasalma predmetini təşkil edir. Odur ki, ilk növbədə, istintaq və təhqiqat hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin dairəsi müəyyənləşdirilməlidir. Həmin münasibətlərin dairəsini isə istintaq və təh-

---

[1] *Polis əsas təhqiqat orqanıdır: bax,* Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. М., 2008, с.313.
[2] Правоохранительные органы России. Учебник / Под ред. В.П.Божьева. М., 2010, с.273.

qiqat hüququna verilən elmi (doktrinal) anlayış əsasında müəyyən etmək mümkün olur. Verdiyimiz bu anlayışdan məlum olur ki, istintaq və təhqiqat hüququ öz səlahiyyətlərinə aid edilmiş işlər üzrə **polisin təhqiqat və istintaq aparması ilə bağlı münasibətləri** tənzimləyir; məhz bu münasibətlər istintaq və təhqiqat hüququnun nizamasalma predmetini təşkil edir. Deməli, istintaq və təhqiqat hüququnun nizamasalma predmeti polisin təhqiqat və istintaq aparması ilə bağlı münasibətlərdən ibarətdir. Həmin münasibətlərin yaranması və mövcud olması sayəsində istintaq və təhqiqat hüququ polis hüququnun ayrıca və müstəqil institutlarından biri kimi tanınır; bu həm də onunla bağlıdır ki, istintaq və təhqiqat aparmaq polisin həyata keçirdiyi fəaliyyət istiqamətlərindən biridir. Düzdür, PQ-də polis fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirən 4-cü maddənin II hissəsində bu, yəni istintaq və təhqiqatın aparılması konkret olaraq birbaşa göstərilmir. Burada qeyd olunur ki, cinayətlərin açılması polis fəaliyyətinin əsas istiqamətlərindən biri hesab edilir. Buna baxmayaraq, cinayətlərin açılması kimi fəaliyyət istiqaməti təhqiqat və istintaq aparılması ilə bilavasitə bağlıdır. Belə ki, cinayətlərin açılması təhqiqat və istintaq aparılmasını zəruriləşdirir. Axı, nəzərdən qaçırmaq olmaz ki, təhqiqat cinayətlərin açılması, cinayətin izlərinin müəyyən edilməsi və cinayət törədənlərin aşkar edilməsi üçün həyata keçirilən fəaliyyətdir.[1] İstintaq da həmçinin cinayətin qısa müddətə və bütünlüklə açılmasına, habelə digər məsələlərin həllinə yönələn fəaliyyət hesab edilir.[2] Odur ki, cinayətləri açmaqdan ötrü həm təhqiqat, həm də istintaq aparılmalıdır.

Deyilənlər belə bir nəticəyə gəlməyə imkan verir ki, PQ-nin 4-cü maddəsinin II hissəsində konkret olaraq göstərilməməsinə baxmayaraq, təhqiqat və istintaq aparılması polis fəaliyyətinin əsas istiqamətlərindən biridir. Belə ki, polis həm də təhqiqat və istintaq aparılması istiqamətində fəaliyyət göstərir.

---

[1] Cəfərquliyev M. Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı, 2008, s.388.
[2] Mövsümov C. H. İbtidai istintaq. Bakı, 1973, s. 5.

Bu istiqamət isə cinayətlərin açılması kimi fəaliyyət istiqamətindən irəli gəlir. Unutmaq olmaz ki, polis hüquq doktrinasında irəli sürülən elmi-nəzəri fikrə görə, polis hüququnun ibarət olduğu hüquq institutları polis fəaliyyətinin əsas istiqamətləri ilə müəyyən edilir, formalaşır və ayrılır. Bu institutların nizamasalma predmetini təşkil edən ictimai münasibətlər də həmçinin polis fəaliyyətinin əsas istiqamətləri üzrə bir-birindən fərqləndirilir.[1] İstintaq və təhqiqat hüququ isə polisin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərindən biridir. Polis fəaliyyətinin bu kimi əsas fəaliyyət istiqamətinə uyğun olaraq, təbii ki, polis hüququ tərkibində istintaq və təhqiqat hüquq institutu ayrılır.

İstintaq və təhqiqat hüquq institutunun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər, əsasən, iki qrupa (növə) bölünür: 1) təhqiqat aparılması ilə bağlı münasibətlər; 2) istintaq aparılması ilə bağlı münasibətlər. Birinci növ (qrup), yəni təhqiqat aparılması ilə bağlı ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu **təhqiqat hüququ** adlanır. Təhqiqat hüququ istintaq və təhqiqat hüquq institutunun ibarət olduğu subinstitutlardan biridir. Bu institut həm də istintaq hüququ kimi subinstitutdan ibarətdir. **İstintaq hüququ** subinstitutu vasitəsilə isə ikinci növ (qrup), yəni istintaq aparılması ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir.

Beləliklə, istintaq və təhqiqat hüquq institutu özündə iki subinstitutu birləşdirir: 1) təhqiqat hüququ; 2) istintaq hüququ. Təhqiqat hüququnun nizamasalma predmetinə təhqiqat aparılması ilə bağlı münasibətlər daxildir. İstintaq hüququnun nizamasalma predmeti isə istintaq aparılması ilə bağlı münasibətlərdən ibarətdir. Bu subinstitutların eyni bir hüquq institutunda – istintaq və təhqiqat hüquq institutunda birləşməsini bununla izah etmək olar ki, təhqiqat və istintaq ibtidai araşdırmanın iki müxtəlif növü (forması) hesab edilir. Söhbət cina-

[1] Əliyev E. Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s. 120.

yət işlərinin araşdırılması kimi fəaliyyətin iki növündən (formasından) gedir. Cinayət işlərinin araşdırılması üzrə fəaliyyət cinayət-prosessual qanunvericilikdə ibtidai və ya ilkin araşdırma adlanır. İbtidai araşdırma fəaliyyəti məhkəmələrdə cinayət işlərinə baxılmasından əvvəl həyata keçirilir ki, həmin fəaliyyət ilkin nəticələrin əldə edilməsinə imkan verir.

**İbtidai araşdırma** dedikdə səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyətin həyata keçirilməsi cinayət hadisəsinin törədilmə faktını müəyyənləşdirmək, konkret şəxsin cinayətdə iştirakını və təqsirini təsdiqləyən sübutları toplamaq, cinayətlə əlaqəsi olan şəxslərin (şahid, zərərçəkən, təqsirləndirilən və s. şəxslərin) məhkəmədə iştirakını təmin etmək məqsədi güdür.[1] Cinayət-prosessual qanunvericiliyi bu fəaliyyətin, yəni ibtidai araşdırmanın iki növünü (formasını) fərqləndirir: 1) təhqiqat; 2) ibtidai istintaq. CPM-nin 217-ci maddəsinin birinci hissəsində göstərilir ki, ibtidai araşdırma təhqiqat və ya ibtidai istintaq şəklində aparılır.

Qeyd etmək lazımdır ki, ibtidai araşdırma ədalət mühakiməsinin həyata keçirilməsində böyük rol oynayır. Nəzərə almaq lazımdır ki, məhkəmə hökmünün qanuni, əsaslı və ədalətli olması xeyli dərəcədə ibtidai araşdırmadan asılıdır. Odur ki, ibtidai araşdırma operativ, vaxtında, düzgün, obyektiv, yüksək keyfiyyətli və bacarıqla aparılmalıdır. Bu kimi xüsusiyyətlərə uyğun olaraq, aparılan ibtidai araşdırma, şübhəsiz, törədilmiş cinayətin mahiyyətini, şəxsin cinayətin törədilməsində təqsirli olub-olmadığını düzgün müəyyənləşdirməyə, ədalətli cəza tədbirinin seçilməsinə, eləcə də hökmlə bağlı digər məsələləri həll etməyə imkan verir.

İbtidai araşdırma cinayət təqibi üzrə məhkəməyədək icraat hesab edilir. Belə ki, qeyd etdiyimiz kimi, ibtidai araşdırma məhkəmələrdə cinayət işlərinə baxılmasından əvvəl aparılır.

---

[1] Правоохранительные органы России. Учебник/ Под ред. В.П.Божьева. М., 2010, с.211.

İbtidai araşdırma qanunvericiliklə xüsusi səlahiyyət verilmiş müvafiq dövlət orqanları tərəfindən aparılır. Söhbət ibtidai araşdırma orqanlarından gedir. İbtidai araşdırma orqanları isə bunlardan ibarətdir: 1) təhqiqat orqanları; 2) ibtidai istintaq orqanları. Bu orqanların fəaliyyəti sayəsində zəruri məlumatlar əldə edilir ki, həmin məlumatlar nəticədə məhkəmə sübutları kimi qiymətləndirilir.

### 9.2. İstintaq və təhqiqat hüququnun mənbələri, subyektləri və prinsipləri

#### 9.2.1. İstintaq və təhqiqat hüququnun mənbələri

İstintaq və təhqiqat hüququnun əsas mənbəyi **normativ hüquqi aktlar** sayılır. Söhbət, hər şeydən əvvəl, **Azərbaycan Respublikasının qanunlarından** gedir ki, onlar normativ hüquqi aktların əsas növü kimi tanınır. Qanunlar içərisində **Azərbaycan Respublikasının Konstitusiyası** xüsusi yer tutur. Konstitusiyanın xüsusilə də ikinci bölməsi istintaq və təhqiqat hüququ üçün mühüm əhəmiyyətə malikdir. Bu bölməyə daxil olan maddələr əsas insan və vətəndaş hüquq və azadlıqlarını (insan haqlarını) təsbit edir. Əsas insan haqlarının pozulmaması, yəni təmin edilməsi hüquq-mühafizə orqanlarının fəaliyyətində vacib yer tutur. Hüquq-mühafizə orqanı olan polis müxtəlif vəzifələr yerinə yetirir ki, insan hüquq və azadlıqlarını hüquqazidd əməllərdən qorumaq bu vəzifələrdən biridir. (PQ-nin 3-cü maddəsinin II hissəsinə görə, belə hüquq və azadlıqları qorumaq polisin əsas vəzifələri sırasına daxildir).

Deməli, polis öz fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində də həyata keçirir (PQ, maddə 5). Təhqiqat və ibtidai istintaq orqanı olan polis vətəndaşların azadlıq hüququnu pozmamalıdır. Əsas insan hüquqlarından biri olan azadlıq hüququ Konstitusiyanın 28-ci maddəsində təsbit edilmişdir. Bu maddəyə görə, azadlıq hüququ

yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

İstintaq və təhqiqat hüququ üçün həm də Konstitusiyanın bir sıra maddələri vacib əhəmiyyətə malikdir. Belə ki, Konstitusiyanın 31-ci maddəsi təhlükəsiz yaşamaq hüququnu, 32-ci maddəsi şəxsi toxunulmazlıq hüququnu, 33-cü maddəsi mənzil toxunulmazlığı hüququnu, 63-cü maddəsi təqsirsizlik prezumpsiyasını, 67-ci maddəsi tutulan, həbsə alınan və cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqlarını müəyyənləşdirir. Konstitusiyanın 63 və 68-ci maddələri haqqında isə ayrıca danışmaq lazımdır ki, bu maddələrin istintaq və təhqiqat hüququ üçün xüsusi əhəmiyyəti vardır. Nəzərə almaq lazımdır ki, ibtidai araşdırma orqanlarının (təhqiqat və ibtidai istintaq orqanlarının) fəaliyyəti, ilk növbədə, cinayətin törədilməsində şübhəli bilinən şəxsin təqsirli və ya təqsirsiz olmasını müəyyənləşdirən sübutların toplanmasından ibarətdir.[1] Konstitusiyanın 63-cü maddəsi məhz təqsirsizlik prezumpsiyası müəyyənləşdirir və sübutlar əldə olunması kimi vacib məsələlərə həsr edilmişdir. Bu maddəyə görə, cinayətin törədilməsində təqsirləndirilən şəxsin təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməlidir; qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz; şəxsin cinayətin törədilməsində təqsiri olduğuna əsaslı şübhələr varsa, həmin şəxsin təqsirli bilinməsinə yol verilmir və s.

İbtidai araşdırma (təhqiqat və ibtidai istintaq) həm də cinayət nəticəsində vurulan zərərin əvəzinin ödənilməsi məqsədi ilə aparılır. Konstitusiyanın 68-ci maddəsi məhz vətəndaşların zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu təsbit edir. Bu maddəyə görə, şəxsin cinayət nəticəsində ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

İstintaq və təhqiqat hüququnun mənbəyi olan normativ hüquqi aktlar sırasına **PQ** də daxildir; onun 3-cü maddəsinin II hissəsi polisin əsas vəzifələrini sadalayır ki, səlahiyyətlərinə

---

[1] Qəfərov M. S., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı, 2012, s. 221.

aid edilmiş işlər üzrə təhqiqat və istintaq aparmaq bu vəzifələrdən biridir. Belə vəzifə daşımasına görə polis təhqiqat və ibtidai istintaq orqanı sayılır.

PQ-nin 15-ci maddəsi istintaq və təhqiqat hüququ üçün aktual əhəmiyyət kəsb edir. Bu maddə cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələrini müəyyənləşdirir. Bu maddədə həm də göstərilir ki, polis əməkdaşının üzərinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada cinayət işlərini başlamaq, təhqiqat və istintaq aparmaq vəzifəsi düşür. Polis əməkdaşı eyni zamanda müstəntiqin və ya təhqiqatçının qərarlarını və yazılı tapşırıqlarını icra etməlidir ki, bunun təhqiqat və ibtidai istintaq hüququ üçün vacib əhəmiyyəti vardır.

Cinayət-axtarış fəaliyyəti haqqında qanunvericiliyə görə, törədilmiş cinayətlərin aşkar edilməsi və açılması cinayət-axtarış fəaliyyətinin üzərinə qoyulmuş vəzifələrdən biridir (ƏFQ, maddə 1, III hissə). Cinayətlərin aşkar edilməsində və açılmasında isə, təbii ki, ibtidai araşdırma (təhqiqat və ibtidai istintaq) üzrə fəaliyyət mühüm rol oynayır. Bu baxımdan, ƏFQ-ni istintaq və təhqiqat hüququnun mənbəyi hesab etmək olar. Adıçəkilən Qanunun müəyyən etdiyi cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi sayəsində zəruri məlumatlar əldə edilir ki, həmin məlumatlar da ibtidai araşdırma orqanları (təhqiqat və ibtidai istintaq orqanları) tərəfindən şəxsin təqsirli olması barədə sübutlar toplanmasına imkan verir. Sonradan onlar cinayət işinin materialları üzrə sübut kimi qiymətləndirilir.[1]

İstintaq və təhqiqat hüququnun mənbəyi olan qanunlar içərisində **CPM-in** adını xüsusilə çəkmək lazımdır. Burada ibtidai araşdırmaya və ibtidai araşdırmanı aparan şəxslərə (təhqiqatçı və müstəntiqə) anlayış verilir. CPM-in VII bölməsi cinayət təqibi üzrə məhkəməyədək icraatla bağlı məsələləri tənzimləyir. Həmin bölmənin XXV fəsli cinayət işinin başlanma-

---

[1] Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов-на-Дону, 2014, с. 97.

sına, XXVI fəsli isə ibtidai araşdırmanın ümumi şərtlərinə həsr olunmuşdur. Bu bölmədə həmçinin cinayət işləri üzrə ibtidai istintaqın aparılmasına və istintaq hərəkətlərinə (dindirmə, üzləşdirmə, hadisə yerinin müayinəsi, axtarış, götürmə və s.) aid normalar nəzərdə tutulmuşdur.

İstintaq və təhqiqat hüququnun mənbəyi kimi **qanunqüvvəli normativ aktların** da rolu qeyd edilməlidir. Söhbət, hər şeydən əvvəl, **Prezident fərmanlarından** gedir. Onların arasında Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanının adını xüsusilə çəkmək lazımdır. Belə ki, həmin Fərmanla «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə» təsdiq edilmişdir. Adıçəkilən Əsasnamədə təhqiqata və ibtidai istintaqa aid müvafiq normalar nəzərdə tutulmuşdur. Burada göstərilir ki, daxili işlər orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə təhqiqatın və ibtidai istintaqın aparılması, eləcə də cinayətlərin açılması işinin təşkili DİN-in funksiyasıdır.

İstintaq və təhqiqat hüququnun mənbəyinə həm də **lokal xarakterli normativ hüquqi aktlar** daxildir. Söhbət, ilk növbədə, «Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnamə»dən gedir ki, lokal xarakterli həmin normativ hüquqi akt DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmişdir. Bu aktda deyilir ki, qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada təhqiqat və istintaqın aparılması polis orqanının yerinə yetirməli olduğu vəzifələr sırasına aid edilir.

**DİN-in normativ xarakterli aktları** da istintaq və təhqiqat hüququnun mənbəyi kimi tanınır. Biz belə aktları polis hüququnun mənbəyi hesab edirik.[1] Təbii ki, həmin aktlar polis hüququnun tərkib hissələrindən biri olan istintaq və təhqiqat hüququnun da mənbəyi sayılmalıdır. İstintaq və təhqiqat hüququnun mənbəyi olan bu cür normativ xarakterli aktlara, hər şeydən əvvəl, «**Təhqiqat işinin təşkilinə dair» Təlimat** aiddir;

---

[1] Əliyev E. Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.242.

həmin Təlimat DİN-in 30.08.2011-ci il tarixli 560 nömrəli əmri ilə təsdiq olunmuşdur. DİN-in 22.04.2002-ci il tarixli 155 nömrəli əmri ilə **«Cinayətlərin qarşısının alınması, istintaqı və açılmasında daxili işlər orqanlarının struktur xidmət sahələrinin qarşılıqlı əlaqələrinin təşkilinə dair» Təlimat** qəbul edilmişdir ki, bu sənəd də istintaq və təhqiqat hüququnun mənbəyi olan normativ hüquqi aktlar sırasına aiddir.[1] Sözügedən Təlimat cinayətlərin qarşısının alınması, istintaqı və açılmasında DİO-nun struktur xidmət sahələri arasında qarşılıqlı əlaqələrin təşkili qaydalarını müəyyən edir.

Bildiyimiz kimi, DİN-in strukturu, ayrı-ayrı baş idarə, idarə və şöbələrdən ibarətdir. Baş İstintaq və Təhqiqat İdarəsi DİN-in struktur hissələrindən biridir ki, müvafiq Əsasnamə onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsası sayılır. Həmin **Əsasnamə** də istintaq və təhqiqat hüququnun mənbəyi hesab olunur; Əsasnamə DİN-in 26.08.2011-ci il tarixli 555 nömrəli əmri ilə təsdiq olunmuşdur.

İstintaq və tədqiqat hüququnun mənbələri sırasına həm də **beynəlxalq polis müqavilələri** daxildir. Əgər bu qəbildən olan sənədlər (konvensiya, saziş və s.) istintaq və təhqiqat məsələlərinə toxunarsa, onlar polis hüququnun tərkib hissəsi olan istintaq və təhqiqat hüququnun mənbəyi sayılır.

### 9.2.2. İstintaq və təhqiqat hüququnun subyektləri

Polis hüququnun institutlarından biri olan istintaq və təhqiqat hüququnun nizamasalma predmetini ibtidai araşdırma, yəni təhqiqat və ibtidai istintaq aparılması ilə bağlı ictimai münasibətlər təşkil edir. İbtidai araşdırmanın aparılması ilə bağlı ictimai münasibətlərin mümkün (potensial) iştirakçılarına **istintaq və təhqiqat hüququnun subyektləri** deyilir. İbtidai araşdırmanı isə müvafiq qurumlar aparır və onlara ibtidai

---

[1] Təlimatın tam mətni ilə tanış olmaq üçün bax: Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı. I cild. Bakı, 2011, s. 102-113.

araşdırma orqanları deyilir; həmin orqanlara, əvvəllərdə qeyd etdiyimiz kimi, ibtidai istintaq və təhqiqat orqanları aiddir. İstintaq və təhqiqat hüququnun subyekti rolunda ibtidai araşdırma orqanları, yəni təhqiqat və ibtidai istintaq orqanları çıxış edir. Odur ki, istintaq və təhqiqat hüququnun subyekti kimi təhqiqat və ibtidai istintaq orqanları tanınır.

Təhqiqat orqanının funksiyası təhqiqatçı tərəfindən yerinə yetirilir. CPM-in 7-ci maddəsində təhqiqatçıya leqal (normativ) anlayış verilir. **Təhqiqatçı** dedikdə öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxs başa düşülür. Bu şəxs öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri yerinə yetirir. Təhqiqatçı müəyyən edilmiş vəzifələrlə yanaşı, müxtəlif hüquqları da həyata keçirir; həmin hüquq və vəzifələr CPM-in 86-cı maddəsi ilə müəyyənləşdirilmişdir.

Təhqiqatçı geniş anlayışdır. Belə ki, təhqiqatçı dedikdə təkcə DİO-nun təhqiqatçıları başa düşülmür. Təhqiqatçı anlayışına həm də təhlükəsizlik, sərhəd xidməti, fövqəladə hallar, miqrasiya, vergi, gömrük və digər orqanların təhqiqatçıları aiddir; onlar CPM-in 214-cü maddəsinə uyğun olaraq, müvafiq cinayət işləri üzrə təhqiqat aparırlar. Həmin maddənin ikinci hissəsində cinayət işləri üzrə təhqiqatı aparan təhqiqat orqanlarının və şəxslərin siyahısı verilmişdir.

İbtidai istintaq orqanının funksiyası isə müstəntiq tərəfindən həyata keçirilir. Müstəntiq müvafiq hüquq-mühafizə orqanının elə bir vəzifəli şəxsidir ki, həmin şəxs cinayət işləri üzrə ibtidai istintaq aparır.[1] CPM-nin 7-ci maddəsi ona leqal (normativ) anlayış verir. Həmin maddəyə görə, **müstəntiq** dedikdə öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxs başa düşülür.

---

[1] Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. М., 2008, с. 316.

Müstəntiq cinayət təqibini həyata keçirən şəxsdir. Bu şəxs cinayət təqibi həyata keçirərkən zəruri prosessual qərarlar qəbul edir, istintaq və ya digər prosessual hərəkətlər edir.

Müstəntiq həm müxtəlif vəzifələr yerinə yetirir, həm də ayrı-ayrı hüquqları həyata keçirir; onun hüquq və vəzifələri CPM-in 85-ci maddəsi ilə müəyyən edilir.

Müstəntiq istintaq hüququ subinstitutunun yeganə subyektidir. Belə ki, cinayət-prosessual qanunvericiliyi ibtidai istintaq aparmaq vəzifəsini yalnız müstəntiqlərin üzərinə qoyur, onlara həvalə edir. Müstəntiq isə geniş anlayışdır. Belə ki, cinayət işləri üzrə ibtidai istintaq təkcə DİO-nun müstəntiqləri tərəfindən aparılmır. Cinayət işləri üzrə ibtidai istintaq CPM-nin 215-ci maddəsinə görə, həm də prokurorluq, təhlükəsizlik, fövqəladə hallar, ədliyyə, vergi, gömrük, sərhəd xidməti orqanlarının, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və digər qurumların müstəniqləri tərəfindən aparılır. İbtidai istintaq hansı nazirlik, orqan və xidmətin müstəntiqləri tərəfindən aparılmasına baxmayaraq, onlar eyni hüquqi statusa malikdirlər. Belə ki, ibtidai istintaqı hansı qurumun müstəntiqləri aparmasından asılı olmayaraq, bütün müstəntiqlər eyni prosessual səlahiyyətlərə malikdirlər; digər tərəfdən, onlar eyni funksiya yerinə yetirirlər. Nəzərdən qaçırmaq olmaz ki, yerinə yetirdikləri funksiya və malik olduqları səlahiyyət baxımından müstəntiqlər bir-birindən fərqlənmir, onlar arasında hər hansı hədd qoyulmur. Polis hüququnun tərkib hissəsi olan istintaq hüququ subinstitutunun subyekti qismində söhbət bütün müstəntiqlərdən deyil, yalnız DİO-nun müstəntiqlərindən gedir. Unutmaq olmaz ki, DİN ibtidai istintaq aparan qurumlardan biridir. Məlum olduğu kimi, 1963-cü ildə DİN sistemində istintaq orqanları təşkil edildi. Bu, cinayət işləri üzrə istintaqın aparılmasının Prokurorluq və DİN müstəntiqləri arasında ayrılmasına səbəb oldu; həmin vaxtdan etibarən cinayət işləri üzrə istintaq həm Prokurorluq, həm də DİN müstəntiqləri tərəfindən aparılmağa başlandı. DİN sistemində cinayətlərin ibtidai araşdırması, yəni təhqiqat və ibtidai istin-

taq aparılması üçün DİN strukturunda müvafiq qurum yaradılmışdır və həmin qurum **Baş İstintaq və Təhqiqat İdarəsi** (bundan sonra – Baş İdarə) adlanır. DİN-in aparatının müstəqil struktur hissəsi olan Baş İdarə öz Əsasnaməsinə uyğun fəaliyyət göstərir; Əsasnamə onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsası sayılır.[1]

DİN-in Baş İstintaq və Təhqiqat İdarəsi tabeliyindəki istintaq və təhqiqat qurumlarının işini təşkil edir, cinayətlərin tam, hərtərəfli və obyektiv araşdırılmasını təmin etmək məqsədi ilə onların fəaliyyətinə müvafiq nəzarəti və təşkilati-metodiki rəhbərliyi həyata keçirir. Sözügedən Baş İdarə xüsusilə də nəzarət və rəhbərliyi həyata keçirmə funksiyasını yerinə yetirir. Belə ki, o, sahəvi-bölgə prinsipi ilə Naxçıvan MR DİN, Bakı şəhər Baş Polis İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi və respublikanın ərazi polis orqanlarının istintaq və təhqiqat aparatları, habelə digər istintaq və təhqiqat qurumlarının fəaliyyəti üzərində nəzarəti həyata keçirir, təşkilati metodik rəhbərliyi təmin edir. Lakin, buna baxmayaraq, Baş İdarə özü bilavasitə cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparmaq səlahiyyətinə malikdir. Nəzərdən qaçırmaq olmaz ki, onun strukturunda ayrıca olaraq Təhqiqat İdarəsi və Ağır Cinayətlərin İstintaqı Şöbəsi fəaliyyət göstərir; məhz həmin idarə və şöbə təhqiqat aparır, ibtidai istintaqı həyata keçirir. Odur ki, Baş İdarə istintaq və təhqiqat hüququnun subyekti hesab edilir. Bunlardan başqa, Baş İdarənin strukturuna həm də daxildir: 1) Nəzarət-Metodiki Şöbə; 2) Katiblik.

Beləliklə, polis hüququnun institutlarından biri olan istintaq və təhqiqat hüququnun subyektlərinə aşağıdakılar aiddir:

– DİN-in təhqiqat orqanları;

– DİN-in ibtidai istintaq orqanları;

– DİN-in Baş İstintaq və Təhqiqat İdarəsi.

---

[1] Sözügedən Əsasnamə DİN-in 26.08.2011-ci il tarixli 555 nömrəli əmri ilə qəbul edilmişdir.

Prokurorluğa gəldikdə, qeyd etməliyik ki, Prokurorluq hüquq-mühafizə orqanları sistemində xüsusi yer tutur. Bu orqan DİO-da ibtidai araşdırmanın qanunauyğun aparılması üzərində müvafiq nəzarət həyata keçirir, eyni zamanda, ibtidai araşdırmaya prosessual qaydada rəhbərlik edir. İbtidai araşdırmaya nəzarəti və prosessual rəhbərliyi müvafiq olaraq şəhər və rayon prokurorları, Baş Prokurorluğun Daxili işlər orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət İdarəsi həyata keçirir. Nəzarət və rəhbərlik funksiyasını həyata keçirməsinə görə Prokurorluq təhqiqat və istintaq hüququnun subyekti sayılır. Lakin, buna baxmayaraq, prokuror kifayət qədər səbəblər və əsaslar olduqla cinayət işini başlaya və bu halda müstəntiqin səlahiyyətlərindən istifadə edərək, onun ibtidai istintaqını apara bilər. Prokurorun üzərinə düşən vəzifələr sırasına cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmək daxildir (CPM, maddə 84.2.1, 84.2.2). Lakin, yaddan çıxarmamalıyıq ki, prokurorun bu kimi vəzifələr yerinə yetirməsi heç də onu polis hüququnun institutu olan istintaq və təhqiqat hüququnun subyekti kimi tanınmasına əsas vermir.

Polis fəaliyyəti üzərində müxtəlif formalarda (növlərdə) nəzarət həyata keçirilir. Prokuror nəzarəti onlardan biridir.[1]

### 9.2.3. İstintaq və təhqiqat hüququnun prinsipləri

Polis hüququnun institutu kimi istintaq və təhqiqat hüququ özünəməxsus prinsiplərə əsaslanır. Bu prinsiplər istintaq və təhqiqat hüququnun məzmununu müəyyənləşdirir.

**İstintaq və təhqiqat hüququnun prinsipləri** dedikdə təhqiqat və ibtidai istintaq aparılması ilə bağlı münasibətləri hüquqi tənzimetmənin əsas ideyaları və rəhbər başlanğıcları başa

---

[1] *Ətraflı bax:* Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.793; Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.295-302.

düşülür. Bu ideya və başlanğıclarda istintaq və təhqiqat hüququnun mahiyyəti ifadə edilir.

İstintaq və təhqiqat hüququnun özünəməxsus prinsiplərinə, hər şeydən əvvəl, **müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək prinsipi** aiddir. Bu prinsip CPM-in 85-ci və 86-cı maddələrində formulə edilmişdir. CPM-in 85-ci maddəsinin ikinci hissəsinin üçüncü bəndində göstərilir ki, şəxsin tutulduğu, ittiham elan olunduğu və ya həbsə alındığı andan müstəntiq müdafiəçinin yardımından istifadə hüququnu təmin etməlidir. CPM-in 86-cı maddəsinin ikinci hissəsinin üçüncü bəndində həmçinin deyilir ki, şəxsin tutulduğu andan təhqiqatçı müdafiəçinin yardımından istifadə hüququnu təmin etməlidir. Müdafiəçinin yardımından istifadə hüququnun təmin edilməsi CPM-in 153.2.5–153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olmalıdır. CPM-in sözügedən 153-cü maddəsi tutulmuş şəxsin hüquqlarının təmin edilməsinə həsr olunmuşdur.

İstintaq və təhqiqat hüququ həm də belə bir özünəməxsus prinsipdən çıxış edir ki, **ibtidai araşdırma müəyyən edilmiş müddətdə** başa çatmalıdır. İbtidai araşdırmanın müddətləri CPM-in 218-ci maddəsi ilə tənzimlənir. Bu maddənin birinci hissəsində göstərilir ki, təhqiqat növündə ibtidai araşdırma hər bir halda cinayət işinin başlanmasından ən geci **on gündən artıq olmayan müddətdə** başa çatır. Həmin maddənin ikinci hissəsində isə ibtidai araşdırmanın müddəti göstərilmişdir. Burada deyilir ki, cinayət işi üzrə ibtidai istintaq aşağıdakı müddətdə başa çatmalıdır:

- böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə–cinayət işinin başlanmasından **ən geci iki ay keçdikdən sonra** ;
- az ağır cinayətlər üzrə – cinayət işinin başlanmasından ən geci **üç ay keçdikdən sonra**;
- ağır cinayətlər üzrə – cinayət işinin başlanmasından **ən geci dörd ay keçdikdən sonra**;

– xüsusilə ağır cinayətlər üzrə – cinayət işinin başlanmasından **ən geci dörd ay keçdikdən sonra**. [1]

Sadaladığımız vaxt dövrləri (2, 3 və 4 ay) ibtidai istintaq müddəti hesab olunur. İbtidai istintaq müddəti isə cinayət işinin başlandığı gündən hesablanır. İbtidai istintaq müddətinin başa çatmasına gəldikdə, qeyd etməliyik ki, ibtidai istintaq müddəti işin məhkəməyə göndərilməsi və ya icraatına xitam verilməsi haqqında qərarın çıxarıldığı gün bitir (CPM, maddə 218.3).

Beləliklə, ibtidai araşdırma müddəti iki növə bölünür: 1) təhqiqat müddəti; 2) ibtidai istintaq müddəti. Həm təhqiqat, həm də ibtidai istintaq müddətinə əməl olunmalıdır. Əgər həmin müddətlərə əməl olunarsa, bu o deməkdir ki, ibtidai araşdırma vaxtında aparılmışdır. İbtidai araşdırmanın vaxtında aparılması isə qanuni, əsaslı və ədalətli məhkəmə hökmünün çıxarılmasını təmin edir.

**Prosessual hərəkətləri qanuni və vaxtında aparmaq** istintaq və təhqiqat hüququnun özünəməxsus prinsiplərindən biridir. Bu prinsip öz normativ ifadəsini CPM-in 85 və 86-cı maddələrində tapmışdır; onun 85-ci maddəsinin üçüncü hissəsində göstərilir ki, cinayət işi üzrə ibtidai istintaq aparan müstəntiq istintaqı və ya digər prosessual hərəkətləri qanuni və vaxtında aparmağa borcludur. Cinayət təqibini həyata keçirən təhqiqatçı da həmçinin öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri qanuni və vaxtında aparmalıdır (CPM, maddə 86.3).

İstintaq və təhqiqat hüququnun özünəməxsus prinsipləri sırasına həm də belə bir prinsip daxildir ki, ibtidai araşdırma fəaliyyəti nəticəsində əldə edilən məlumatlar məhkəmə sübutları kimi qiymətləndirilir – **məhkəmə sübutları kimi qiymətləndirilmək prinsipi**. Həm təhqiqat, həm də ibtidai istintaq fəaliy-

---

[1] Böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlər ayrı-ayrı cinayət növləridir. Cinayətlərin təsnifatına CM-in 15-ci maddəsində leqal anlayış verilir. Bu barədə bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. 7-ci nəşr. Dərslik. Bakı, 2011, s. 172-173.

yəti həmçinin sübut kimi qiymətləndirilən məlumatların əldə olunmasına yönəlmişdir; həmin məlumatlar əsasında şəxsin təqsirli olması müəyyən edilir. Belə ki, ibtidai araşdırma orqanları (təhqiqat və ibtidai istintaq orqanları) təhqiqat və ibtidai istintaq fəaliyyəti nəticəsində əldə etdikləri məlumatları ittiham aktında əks etdirirlər. Bundan sonra onlar işin bütün materiallarını ibtidai araşdırmaya prosessual rəhbərlik edən prokuror vasitəsilə məhkəməyə göndərirlər. Məhkəmə isə təhqiqat və ibtidai istintaq fəaliyyəti nəticəsində əldə olunmuş məlumatları sübut kimi qiymətləndirir.[1] Bunun əsasında məhkəmə şəxsin cinayət törədilməsində təqsirli olub-olmadığı məsələsini həll edir və müvafiq tədbirlər müəyyənləşdirir. Söhbət, faktiki olaraq, ibtidai araşdırma orqanlarının təhqiqat və ibtidai istintaq fəaliyyəti nəticəsində sübutlar toplanmasından gedir ki, həmin sübutlar əsasında şəxsin cinayət törədilməsində təqsirli bilinməsini müəyyənləşdirmək mümkün olur.[2]

**İbtidai araşdırmanın operativ, obyektiv və keyfiyyətli aparılması prinsipi** istintaq və təhqiqat hüququnun özünəməxsus prinsiplərindən biridir. Belə ki, əgər ibtidai araşdırma mümkün olan dərəcədə tez bir zamanda aparılarsa, bu, ibtidai araşdırmanın operativliyini ifadə edir; əgər ibtidai araşdırma bütövlükdə işin bütün hallarına və həqiqətə uyğun həyata keçirilərsə, bu, ibtidai araşdırmanın obyektiv aparılması deməkdir; əgər ibtidai araşdırma lazımınca və düzgün aparılarsa, bu, ibtidai araşdırmanın keyfiyyətli aparılmasını bildirir və əks etdirir.

Sözügedən prinsip ədalət mühakiməsinin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, məhkəmənin qanuni, əsaslı və ədalətli hökm çıxarması xeyli dərəcədə məhz ibtidai araşdırmanın operativ, obyektiv və keyfiyyətli aparılmasından asılıdır.

---

[1] Piriyev Ə. S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.310.

[2] Правоохранительные органы России. Учебник /Под ред. В.П.Божьева. М., 2010, с.272.

**Təhqiqat və ibtidai istintaqın yalnız ibtidai araşdırma orqanları tərəfindən aparılması prinsipi** istintaq və təhqiqat hüququnun özünəməxsus prinsiplərindən biri kimi tanınır. Bu prinsipə görə, təhqiqat və ibtidai istintaq fəaliyyətini hər hansı bir digər orqan həyata keçirə bilməz. İbtidai araşdırma orqanları iki yerə bölünür: 1) təhqiqat orqanları; 2) ibtidai istintaq orqanları. Belə orqanlar sırasına, ilk növbədə, polis daxildir. Lakin polis yeganə ibtidai araşdırma orqanı deyildir; həmin orqanlar sırasına həmçinin digər orqanlar da (məsələn, prokurorluq və s.) aiddir.

İstintaq və təhqiqat hüququna həm də **bütün cinayət işləri üzrə ibtidai istintaqın məcburiliyi prinsipi** xasdır. Bu prinsip CPM-in 215-ci maddəsinin birinci hissəsində ifadə edilmişdir. Həmin prinsipə görə, bütün cinayət işləri üzrə ibtidai istintaq hökmən və mütləq aparılmalıdır. Lakin böyük ictimai təhlükə törətməyən cinayətlər istisna olunur, çünki belə cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat aparılır; həmin cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburi deyildir.

Bunlardan başqa, digər prinsiplər haqqında da danışmaq olar. Məsələn, cinayət işi üzrə ibtidai istintaqın hərtərəfli, tam və düzgün aparılması prinsipi onlardan biridir. Bu prinsipə görə, ibtidai istintaq hərtərəfli, tam və obyektiv araşdırılmalı və həyata keçirilməlidir.

## 9.3. İstintaq və təhqiqat hüququnda ibtidai araşdırma fəaliyyəti

### 9.3.1. İbtidai araşdırma fəaliyyəti və onun növləri

İctimai təhlükəli əməl olan cinayət həm cəmiyyətə, həm dövlətə, həm də ayrı-ayrı fiziki və hüquqi şəxslərə zərər vurur. Cəmiyyətə, dövlətə və şəxslərə zərər vuran ictimai təhlükəli əməllər sırasına adam öldürmə, terrorçuluq, oğurluq, zorlama, kütləvi iğtişaş, dələduzluq, xuliqanlıq və digər cinayətlər aid-

dir. Təbii ki, törədilmiş bu kimi cinayət faktları müəyyən edilməli, cinayətin törədilməsində konkret şəxsin iştirakını və təqsirli olmasını təsdiqləyən sübutlar toplanmalı, cinayətkar şəxs aşkar və ifşa edilməli, cinayət nəticəsində vurulan zərərin əvəzi ödənilməli, cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait aradan qaldırılmalı, cinayətin izlərinin müəyyən edilməsi və cinayətin açılması üçün təxirəsalınmaz cinayət-axtarış tədbirləri həyata keçirilməlidir. Bu kimi məsələləri həll etməkdən ötrü səlahiyyətli dövlət orqanları başlanılmış cinayət işlərinin araşdırılmasına yönələn fəaliyyətlə məşğul olurlar. Belə fəaliyyət, yəni başlanılmış cinayət işlərinin araşdırılması cinayət-prosessual qanunvericilikdə ibtidai araşdırma adlanır. Bəs, ibtidai araşdırma dedikdə nə başa düşülür?

İbtidai araşdırmaya leqal anlayış CPM-in 7-ci maddəsində verilmişdir. Həmin maddəyə görə, **ibtidai araşdırma** dedikdə cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraat başa düşülür.

İbtidai araşdırma həm də fəaliyyət mənasında başa düşülür və işlədilir. Söhbət ibtidai araşdırma fəaliyyətindən gedir. **İbtidai araşdırma fəaliyyəti** dedikdə səlahiyyətli xüsusi dövlət orqanları tərəfindən həyata keçirilən elə bir fəaliyyət növü başa düşülür ki, bu fəaliyyət cinayət faktının müəyyən edilməsinə, məhkəmə tərəfindən sübut kimi qiymətləndirilən məlumatların əldə olunmasına, cinayətin açılmasına, cinayət törədən şəxsin təqsirli bilinməsinə və digər məsələlərin həllinə yönəlmişdir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ibtidai araşdırma, əsasən, iki mənada işlədilir. Birinci mənada ibtidai araşdırma dedikdə məhkəməyədək icraat başa düşülür. Məhkəməyədək icraat iki növdə həyata keçirilir ki, bu növlərdən biri təhqiqat, digəri isə ibtidai istintaq adlanır.

İkinci mənada ibtidai araşdırma dedikdə isə fəaliyyət başa düşülür ki, bu fəaliyyətin də iki növü fərqləndirilir; onlardan biri təhqiqat, digəri isə ibtidai istintaq fəaliyyəti anlayışı ilə əhatə olunur.

İbtidai araşdırma fəaliyyəti müəyyən məqsədlər üçün həyata keçirilir. Şübhəsiz, məqsəd olmadan səlahiyyətli dövlət orqanı hər hansı fəaliyyət, o cümlədən ibtidai araşdırma fəaliyyəti ilə məşğul ola bilməz. Hüquq ədəbiyyatı səhifələrində ibtidai araşdırmanın aparılmasının və həyata keçirilməsinin müxtəlif məqsədləri göstərilir.[1] İbtidai araşdırma aparılmasının güddüyü məqsədlər aşağıdakılardan ibarətdir:

– cinayət törətmiş şəxsi (şəxsləri) müəyyən etmək;
– cinayət faktını müəyyənləşdirmək;
– cinayətin törədilməsində təqsiri olan şəxsi (şəxsləri) ifşa etmək;
– cinayətin hansı şəraitdə törədildiyini müəyyən etmək;
– sübutlar toplamaq;
– cinayət törədən şəxsin təqsirini sübut etmək;
– cinayətin törədilməsi ilə əlaqəsi olan şəxsin (şəxslərin) məhkəmədə iştirakını təmin etmək;
– cinayətin törədilməsinə imkan yaradan səbəb və şəraiti müəyyən etmək və aradan qaldırmaq;
– törədilə biləcək cinayətin qarşısını almaq;
– cinayət nəticəsində vurulan zərərin əvəzini ödəmək və s.

İbtidai araşdırmanın aparılması ilə bağlı məsələlər CPM-in XXVI fəsli ilə tənzimlənir. «İbtidai araşdırmanın ümumi şərtləri» adlanan həmin fəsil özündə CPM-in 214 – 222-ci maddələrini birləşdirir. Bu maddələrdə cinayət işləri üzrə təhqiqatın və ibtidai istintaqın aparılmasına, ibtidai araşdırmanın aparıldığı yerə, ibtidai araşdırmanın başlanmasına, ibtidai araşdırmanın müddətlərinə, ibtidai araşdırmanın qurtarmasına və digər məsələlərə aid cinayət-prosessual normalar nəzərdə tutulur.

---

[1] *Məsələn, bax:* Qəfərov M.S., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı, 2012, s.221; Правоохранительные органы России. Учебник / Под ред. В.П.Божьева. М., 2010, с.271-272.

Cinayət-prosessual qanunvericilik ibtidai araşdırmanın iki növünü (formasını) fərqləndirir. CPM-in 217-ci maddəsinin birinci hissəsində göstərilir ki, ibtidai araşdırma təhqiqat və ya ibtidai istintaq şəklində aparılır. Deməli, cinayət-prosessual qanunvericiliyə görə, təhqiqat və ibtidai istintaq ibtidai araşdırmanın ayrı-ayrı növləridir.

### 9.3.2. Təhqiqat

Təhqiqat ibtidai araşdırmanın növlərindən biridir; ona həm də ibtidai araşdırmanın formalarından biri kimi baxılır.[1] Deməli, təhqiqat ibtidai araşdırmanın növlərindən (formalarından) biri hesab edilir.

Təhqiqat cinayət mühakimə icraatının tərkib hissəsidir. **Cinayət mühakimə icraatı** dedikdə CPM-də nəzərdə tutulmuş qaydada məhkəməyədək, habelə birinci, apellyasiya və kasssasiya instansiyası məhkəmələrində aparılan icraat başa düşülür. **Məhkəməyədək aparılan icraat** isə cinayət işi üzrə təhqiqat və ibtidai istintaq növündə həyata keçirilən ibtidai araşdırmadır. Bəs, təhqiqat dedikdə nə başa düşülür?

Qeyd etmək lazımdır ki, cinayət-prosessual qanunvericiliyi cinayət mühakimə icraatının tərkib hissəsi olan təhqiqata leqal (normativ) anlayış vermir. Odur ki, təhqiqata elmi (doktrinal) anlayış verilməsinə zərurət yaranır. Ayrı-ayrı məsələlərə elmi anlayış vermək məsələsini isə hüquq doktrinası həll edir. Həmin məsələni həll etməkdən ötrü, hər şeydən əvvəl, təhqiqatı xarakterizə edən əlamətləri müəyyənləşdirmək lazımdır.

Birinci, təhqiqat **fəaliyyət** deməkdir. Bu onunla izah edilir ki, ibtidai araşdırmanın özü fəaliyyətdir. İbtidai araşdırmanın növlərindən biri olan təhqiqat da fəaliyyət mənasını ifadə edir.

---

[1] *Ətraflı bax: məsələn,* Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. М., 2008, с. 312.

İkinci, təhqiqat müvafiq səlahiyyəti olan dövlət orqanları tərəfindən aparılır ki, həmin orqanlara da **təhqiqat orqanları** deyilir. Həmin orqanların dairəsi cinayət-prosessual qanunvericiliklə müəyyən edilir. CPM-in 214-cü maddəsinin ikinci hissəsi cinayət işləri üzrə təhqiqat aparan təhqiqat orqanlarını sadalayır. Hüquq ədəbiyyatı səhifəsində göstərilir ki, əsas təhqiqat orqanı polis hesab edilir.[1]

Təhqiqat həm də **vəzifəli şəxslər** tərəfindən aparılır. Belə şəxslərin də dairəsi cinayət-prosessual qanunvericiliklə müəyyən edilir. Təhqiqat aparan vəzifəli şəxslər CPM-in 214-cü maddəsinin ikinci hissəsində göstərilir və onların arasında DİO-nun təhqiqatçılarının da adı çəkilir.

Üçüncü, təhqiqat təxirəsalınmaz cinayət-axtarış tədbirlərinin görülməsi məqsədi ilə aparılır. Belə tədbirlər cinayət izlərini müəyyənləşdirmək və qeyd etmək, habelə cinayətin açılması və onu törədən şəxsi aşkar etmək üçündür. Unutmaq olmaz ki, təhqiqat orlanları cinayət-axtarış tədbirləri də həyata keçirə bilərlər.[2]

Deyilənlər təhqiqata elmi anlayış verməyimiz üçün kifayət edər. **Təhqiqat** dedikdə əhatə dairəsi cinayət-prosessual qanunvericiliklə müəyyən edilən təhqiqat orqanları və ya vəzifəli şəxslər tərəfindən həyata keçirilən elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət cinayətin izlərinin müəyyənləşdirilməsi və qeyd olunması, cinayətin açılması və cinayət törədən şəxsin aşkar edilməsi üçün təxirəsalınmaz cinayət-axtarış tədbirlərinin görülməsinə yönəlmişdir.[3]

---

[1] Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. М., 2008, с. 313; Правоохранительные органы России. Учебник / Под ред. В.П.Божьева. М., 2010, с.275.

[2] Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.311.

[3] Cinayət prosesi dərsliklərində də təhqiqata mahiyyətcə buna oxşar anlayış verilir. *Məsələn, bax:* Cəfərquluyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı, 2008,s. 434.

İbtidai araşdırmanın növü olan təhqiqat ibtidai araşdırmanın digər növü olan ibtidai istintaqı cinayət işi üzrə toplanmış, araşdırılmış və qeydə alınmış ilkin materiallarla təmin edir. Bunun isə, öz növbəsində, ibtidai istintaqın qarşısında duran vəzifələrin lazımınca yerinə yetirilməsi üçün vacib əhəmiyyəti vardır. Bu baxımdan, təhqiqat cinayət işləri üzrə ibtidai istintaqın ilkin mərhələsi hesab edilir.

Təhqiqat iki formada aparılır (CPM, maddə 214, birinci hissə): 1) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı forması; 2) böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat forması. Birinci formada, yəni **təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı formasında** təhqiqatı apararkən təhqiqatçı cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdımaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir. Təhqiqatçı eyni zamanda şübhəli şəxsi tutmaq, onun, zərərçəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi istintaq hərəkətləri aparır. Bunlardan əlavə, təhqiqatçı cinayət işinin başlanmasından sonra 10 gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir.

İkinci formada, yəni **məhkəməyədək sadələşdirilmiş icraat formasında** təhqiqat böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır.[1] Bu növ cinayətlər üzrə şikayət verilməlidir; şikayət zərərçəkən şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi tərəfindən verilir. Verilmiş ərizə, adətən, yazılı formada olur. Bununla yanaşı, ərizənin şifahi formada verilməsi də mümkündür ki, cinayət-prosessual qanunvericiliyi buna yol verir. Şifahi formada verilmiş ərizə protokola daxil edilir; protokol şikayət vermiş və protokolu tərtib etmiş şəxslər tərəfindən imzalanır. Yazılı və şifahi formada ərizə təhqiqat-

---

[1] Böyük ictimai təhlükə törətməyən cinayətlər barədə bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. 7-ci nəşr. Dərslik. Bakı, 2011, s.172-173.

çıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir.

Qeyd etmək lazımdır ki, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat zamanı istintaq hərəkətləri aparılır. İstintaq hərəkətləri aparılarkən təhqiqatçı müvafiq istintaq hərəkətlərinin aparılma qaydalarına əməl etməlidir; həmin qaydalar CPM-də (XXVI fəsil) nəzərdə tutulmuşdur.

### 9.3.3. İbtidai istintaq

İbtidai araşdırma həm də ibtidai istintaq növündə (formasında) aparıla bilər. CPM-in 217-ci maddəsinin birinci hissəsində ifadə olunan hüquqi göstərişə görə, ibtidai araşdırma nəinki təhqiqat, həmçinin ibtidai istintaq növündə həyata keçirilir.

Cinayət-prosessual qanunvericiliyi təhqiqat kimi, ibtidai istintaqa da leqal (normativ) anlayış vermir. Cinayət-prosessual qanunvericilikdə (CPM, maddə 7.0.8.) sadəcə olaraq göstərilir ki, cinayət-mühakimə icraatı CPM-də nəzərdə tutulan qaydada məhkəməyədək, habelə birinci, apellyasiya və kasssasiya instansiyası məhkəmələrində aparılan icraatdır. Deməli, cinayət-prosessual qanunvericiliyə görə, məhkəməyədək aparılan icraat cinayət-mühakimə icraatının tərkib hissələrindən biridir. Məhkəməyədək aparılan icraat isə cinayət işi üzrə təhqiqat və ibtidai istintaq növündə həyata keçirilən ibtidai araşdırmadır. Deyilənlərdən belə bir nəticə çıxara bilərik ki, ibtidai istintaq da təhqiqat kimi, cinayət-mühakimə icraatının tərkib hissəsidir.

Cinayət prosesi bir neçə müstəqil mərhələdən ibarətdir. İbtidai istintaq isə cinayət prosesinin müstəqil mərhələlərindən biridir.[1] **Cinayət prosesi** dedikdə cinayət təqibi üzrə həyata

---

[1] Mövsümöv C. H. İbtidai istintaq. Bakı, 1973, s.5; Cəfərquliyev M. Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı, 2008, s.386.

keçirilən prosessual hərəkətlərin və qəbul olunan prosessual qərarların məcmusu başa düşülür. Cinayət təqibinin nə demək olduğuna gəldikdə isə, qeyd etmək lazımdır ki, **cinayət təqibi** həyata keçirilən cinayət-prosessual fəaliyyətdir; bu fəaliyyət cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulan əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədilə həyata keçirilir.

Cinayət-prosessual qanunvericilik leqal (normativ) tərif vermədiyinə görə ibtidai istintaqa dair elmi (doktrinal) anlayışın formulə olunmasına çalışaq. Bundan ötrü, hər şeydən əvvəl, ibtidai istintaqı xarakterizə etməyə imkan verən əlamətlər müəyyən edilməlidir.

Birinci, ibtidai istintaqı **səlahiyyətli dövlət orqanları və vəzifəli şəxslər** aparır. Söhbət istintaq orqanından, müstəntiqdən, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurordan, təhqiqat orqanı və təhqiqatçıdan gedir. İbtidai istintaq məhz bu orqan və vəzifəli şəxslər tərəfindən aparılır.

İkinci, ibtidai istintaq səlahiyyətli dövlət orqanları və vəzifəli şəxslər tərəfindən həyata keçirilən fəaliyyətdir. Bu fəaliyyət CPM-də nəzərdə tutulan cinayət-prosessual hüquq normaları vasitəsilə tənzimlənir. Digər tərəfdən, həmin fəaliyyət CPM-də müəyyən edilən prosessual formalarda həyata keçirilir. Odur ki, ibtidai istintaq fəaliyyəti **prosessual fəaliyyətdir**.

Üçüncü, ibtidai istintaq fəaliyyəti cinayətin tezliklə, yəni qısa müddətdə və bütünlüklə açılmasına, cinayəti törətməkdə təqsiri olan şəxslərin müəyyən edilməsinə və ifşa olunmasına, cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin aydınlaşdırılmasına, həmçinin cinayət nəticəsində vurulan zərərin əvəzinin ödənilməsinə **yönələn fəaliyyətdir**.

Deyilənlərə əsaslanaraq və onları nəzərə alaraq, ibtidai istintaqa elmi (doktrinal) anlayış verək. **İbtidai istintaq** dedikdə səlahiyyətli dövlət orqanları və vəzifəli şəxslər (istintaq orqanı, müstəntiq, təhqiqat orqanı, təhqiqatçı və ibtidai araşdırmaya

prosessual rəhbərliyi həyata keçirən prokuror) tərəfindən həyata keçirilən elə bir prosessual fəaliyyət başa düşülür ki, bu fəaliyyət cinayətin qısa müddətdə və bütünlüklə açılmasına, cinayəti törətməkdə təqsirli olan şəxslərin müəyyən edilməsinə və ifşa olunmasına, cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin aydınlaşdırılmasına, həmçinin cinayət nəticəsində vurulan zərərin əvəzinin ödənilməsinə yönəlir. Yazılmış dərsliklərdə də ibtidai istintaqa bu cür elmi anlayış verilir.[1]

İbtidai istintaqın aparılması ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi CPM vasitəsi ilə həyata keçirilir; onun bir sıra maddələri məhz həmin məsələlərin hüquqi cəhətdən nizama salınmasına həsr olunmuşdur. Məsələn, CPM-in 215-ci maddəsinin ikinci hissəsi cinayət işləri üzrə ibtidai istintaq aparmaq səlahiyyətinə malik olan dövlət orqanlarını müəyyən edir. Burada göstərilir ki, cinayət işləri üzrə ibtidai istintaq prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır. Müvafiq icra hakimiyyət orqanları dedikdə aşağıdakılar başa düşülür: 1) Daxili İşlər Nazirliyi; 2) Dövlət Təhlükəsizliyi Xidməti; 3) Ədliyyə Nazirliyi; 4) Fövqəladə Hallar Nazirliyi 5) Vergilər Nazirliyi; 6) Dövlət Sərhəd Xidməti; 7) Dövlət Gömrük Komitəsi; 8) Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi (bu, yalnız Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərir).

İstintaq orqanı kimi polis orqanları mühüm rol oynayır. PQ-nin 3-cü maddəsinin II hissəsinə görə, öz səlahiyyətlərinə aid edilmiş işlər üzrə istintaq aparmaq polisin əsas vəzifələrindən biridir. İstintaq orqanı kimi polisin daşıdığı bu vəzifəni müstəntiq yerinə yetirir. Söhbət polis müstəntiqlərindən gedir; onlara həm də daxili işlər orqanlarının müstəntiqləri deyilir. Polis müstəntiqləri yalnız öz səlahiyyətlərinə aid edilmiş cinayət işlərinin istintaqını apara bilər. Polis müstəntiqlərindən

---

[1] *Məsələn, bax:* Cəfərquluyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı, 2008, s.387-388; Qəfərov M.S., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı, 2012, s.230; Piriyev Ə.S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s.317.

başqa, ibtidai istintaqı həm də digər orqanların müstəntiqləri aparırlar (məsələn, prokurorluğun müstəntiqləri, Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiqləri və s.). Odur ki, ibtidai istintaq ayrı-ayrı müxtəlif hüquq-mühafizə orqanlarının müstəntiqləri tərəfindən aparıla bilər. Lakin, buna baxmayaraq, bütün müstəntiqlər eyni funksiyanı həyata keçirirlər; onların səlahiyyətləri də eynidir.

**Müstəntiq** dedikdə müvafiq hüquq-mühafizə orqanının elə vəzifəli şəxsi başa düşülür ki, bu şəxs cinayət işləri üzrə ibtidai istintaq aparmaq səlahiyyətini həyata keçirir.[1] Müstəntiqə həm də cinayət-prosessual qanunvericilikdə anlayış verilir. Belə ki, CPM-in 7-ci maddəsinə görə, müstəntiq öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaq aparan şəxsdir.

İbtidai istintaqın hansı hallarda polis müstəntiqləri tərəfindən aparılmasına gəldikdə, qeyd etmək lazımdır ki, bu məsələ CPM vasitəsilə müəyyən edilir və tənzimlənir. Belə ki, CPM-in 215-ci maddəsinə əsasən,[2] CM-in 126.1, 126.2, 127–134, 139–144, 144-1, 144-2, 144-3, 150–153, 169, 170–178, 180–189, 194, 197– 01, 204, 205, 213-2 və s. maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə ibtidai istintaq polis orqanları tərəfindən aparılır. Məhz bu kimi cinayət işləri üzrə ibtidai istintaq aparmaq polisin səlahiyyətlərinə aid olunur.

İbtidai istintaq aparılması fəaliyyət deməkdir. İstənilən fəaliyyət isə müəyyən yerdə başlayır, təyin olunmuş müddətdə həyata keçirilir və qurtarır. Fəaliyyət növlərindən biri olan

---

[1] Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. М., 2008, с.316.

[2] İbtidai istintaq orqanlarının dairəsi və onların səlahiyyətləri təsbit edilmişdir: *bax,* «Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25.08.2000-ci il tarixli 387 nömrəli Fərmanının 3-cü bəndi//AR QT. Bakı, 2000, № 8.

ibtidai istintaq **cinayətin törədildiyi yer** – inzibati ərazi vahidi üzrə aparılır. Məsələn, fərz edək ki, cinayət Azərbaycan Respublikasının inzibati ərazi vahidlərindən biri olan Cəlilabad rayonunda törədilmişdir. Törədilmiş bu cinayət üzrə ibtidai istintaqı Cəlilabad Rayon Polis Şöbəsinin müstəntiqi aparır. İbtidai istintaqın aparıldığı yerlə bağlı məsələlər CPM-in 216-cı maddəsi ilə tənzimlənir.

**Cinayət işi üzrə ibtidai istintaqın başlanmasına** gəldikdə, qeyd etməliyik ki, bu məsələ CPM-in 217-ci maddəsi ilə tənzimlənir. Həmin maddənin birinci hissəsinə görə, ibtidai istintaq (hadisə yerinə baxış keçirilməsindən və ekspertiza təyin edilməsindən başqa bütün istintaq hərəkətləri daxil olmaqla) yalnız cinayət işinin başlanması haqqında qərar çıxarıldıqdan sonra aparılır. Deməli, cinayət işinin başlanması haqqında qərar çıxarılmazsa, ibtidai istintaqın aparılmasına yol verilmir.

Cinayət-prosessual qanunvericiliyi həm də müəyyən edir ki, cinayət işi üzrə ibtidai istintaq nə vaxt başa çatmalıdır. Söhbət cinayət işi üzrə **ibtidai istintaqın başa çatma müddətlərindən** (ibtidai istintaq müddətlərindən) gedir. Cinayət işi üzrə ibtidai istintaq müddətləri isə CPM ilə müəyyən edilir. CPM-in 218-ci maddəsinin ikinci hissəsi məhz ibtidai istintaqın başa çatma müddətlərinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Burada göstərilir ki, 2, 3 və 4 aylıq ibtidai istintaq müddətləri müəyyən edilir. Əvvəllərdə bu barədə danışmışıq və deyilənlərə bunu əlavə etmək istərdik ki, əgər cinayət işi mürəkkəb olarsa, ibtidai istintaq müddəti Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavini tərəfindən 2, 3 və 4 aydan çox olmayan müddətə **uzadıla bilər**. Bundan ötrü, yəni ibtidai istintaq müddətinin uzadılması üçün müstəntiq əsaslandırılmış vəsatət verməli, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqdimat yazmalıdır. Cinayət işi üzrə ibtidai istintaq müddətinin uzadılması ilə bağlı məsələlər

CPM-in 218-ci maddəsinin altıncı, yeddinci və səkkizinci hissələri ilə tənzimlənir.

**Cinayət işi üzrə ibtidai istintaqın** qurtarmasına gəldikdə, qeyd etmək lazımdır ki, bu məsələ CPM-in 219-cu maddəsi ilə tənzimlənir. Həmin maddənin birinci hissəsinə görə, ibtidai istintaq ittiham aktının tərtib edilməsi ilə, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün cinayət işinin məhkəməyə göndərilməsi haqqında və ya cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarla qurtarır. **İttiham aktı** dedikdə müstəntiq tərəfindən tərtib edilən elə bir prosessual sənəd başa düşülür ki, bu sənəd əsasında CPM-də müəyyən edilmiş qaydada şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin müəyyən və israr edilməsi başa düşülür. **Cinayət işi** isə törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların məcmusudur.

İbtidai istintaq elə bir fəaliyyətdir ki, bu fəaliyyət vasitəsi ilə cinayət işinin bütün halları araşdırılır, şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət qazandıran, onun vəziyyətini yüngülləşdirən və ağırlaşdıran hallar obyektiv, tam və hərtərəfli tədqiq edilir. Bununla ibtidai istintaq məhkəmə tərəfindən cinayət işi üzrə qanuni və əsaslı hökm çıxarılması üçün şərait yaratmış olur ki, bu şərait əsasında məhkəmə obyektiv həqiqəti müəyyən edir. İbtidai istintaqın da mühüm və vacib vəzifəsi məhz bundan, yəni məhkəmə tərəfindən qanuni və əsaslı hökm çıxarmaq, obyektiv həqiqəti müəyyənləşdirmək üçün şərait yaratmaqdan ibarətdir. Odur ki, ibtidai istintaq cinayət-mühakimə icraatının vacib hissəsi sayılan ibtidai araşdırmanın ən mürəkkəb və məsuliyyətli forması (növü) hesab olunur.[1]

İbtidai istintaq ibtidai araşdırmanın digər forması (növü) olan təhqiqata oxşayır. Belə ki, onlar arasında **oxşar cəhətlər** çoxdur. Nəzərə almaq lazımdır ki, cinayət prosesində təhqiqat

---

[1] Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации.Учебник. М., 2008, с.316.

və ibtidai istintaq arasında elə də prinsipial fərq qoyulmur. Təhqiqat və ibtidai istintaq arasında mövcud olan oxşar cəhətlər bunlarla müəyyən edilir ki, ibtidai araşdırmanın ayrı-ayrı növləri olan təhqiqat və ibtidai istintaq cinayət prosesinin ümumi prinsiplərinə əsaslanan prosessual fəaliyyətdir; hər iki fəaliyyət növü zəruri və hüquqi əhəmiyyəti olan məlumatların əldə olunmasına yönəlmişdir ki, həmin məlumatlar məhkəmə tərəfindən sübut kimi qiymətləndirilir; həm təhqiqat, həm də ibtidai istintaq cinayət törətməkdə təqsiri olan şəxsin aşkar edilməsi və cinayətin açılması məqsədinə xidmət edir.

Bunlarla yanaşı, təhqiqat və ibtidai istintaq arasında həm də **fərqli cəhətlər** mövcuddur. Belə ki, ayrı-ayrı əlamətlərə görə təhqiqat ibtidai istintaqdan fərqlənir.

Birinci, **aparılma müddəti** əlamətinə görə təhqiqat və ibtidai istintaq arasında fərq mövcuddur. Belə ki, təhqiqat hər bir halda cinayət işinin başlanmasından 10 gündən gec olmayan müddətdə başa çatır (CPM, maddə 218.1). İbtidai istintaq isə 2, 3 və 4 ay keçdikdən sonra başa çatır (CPM, maddə 218.2).

İkinci, təhqiqat və ibtidai istintaq bir-birindən **həyata keçirilmə orqanları** əlamətinə görə fərqlənir. Belə ki, təhqiqatı aparan orqan təhqiqat orqanı (təhqiqatçı) adlanır; ibtidai istintaq isə ibtidai istintaq orqanı (müstəntiq) tərəfindən aparılır.

Üçüncü, **həyata keçirilmə forması** əlamətinə görə təhqiqat ibtidai istintaqdan fərqləndirilir. Belə ki, təhqiqat həm prosessual, həm də qeyri-prosessual formada aparılır. İbtidai istintaq isə yalnız prosessual formada həyata keçirilir; bu zaman məhz prosessual vasitələrdən istifadə olunur.

Dördüncü, **yerinə yetirilən hərəkətlər** əlamətinə görə təhqiqat və ibtidai istintaq arasında fərq qoyulur. Belə ki, istintaq orqanları, adətən, istintaq hərəkətləri (məsələn, dindirmə, üzləşdirmə, axtarış, götürmə və s.) aparırlar. Təhqiqat orqanları isə həm istintaq hərəkətləri edir, həm də cinayət-axtarış tədbirləri görürlər. Belə tədbirlərin görülməsi cinayətin əlamətlərinin və onu törətmiş şəxslərin müəyyən edilməsi üçündür.

İbtidai araşdırmanın növlərini bir-birindən həm də bununla fərqləndirmək olar ki, təhqiqat aparmaq təhqiqat orqanının yeganə vəzifəsi deyildir. Belə ki, təhqiqat orqanının üzərinə təhqiqat aparmaqla yanaşı, digər vəzifələr də düşür. İbtidai istintaqın aparılmasını isə cinayət-prosessual qanunvericiliyi yalnız müstəntiqlərə həvalə edir. Unutmamalıyıq ki, istintaq aparmaq müstəntiqin yeganə və əsas vəzifəsidir.[1]

Hüquq ədəbiyyatı səhifələrində təhqiqat və ibtidai istintaq digər əlamətlərə görə də bir-birindən fərqləndirilir.[2] Ayrı-ayrı müəlliflər tərəfindən bu məsələyə xüsusi diqqət yetirilir.

---

[1] Piriyev Ə. S. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı, 2005, s. 311.

[2] Qəfərov M. S., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı, 2012, s. 222-223.

# IX FƏSİL ÜZRƏ SXEM



# X FƏSİL. YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİ HÜQUQU

## 10.1. Yol hərəkəti təhlükəsizliyi hüququ polis hüququnun institutu kimi

### 10.1.1. Yol hərəkəti təhlükəsizliyi hüququ anlayışı

Polis hüququnun ibarət olduğu hüquq normalarının müəyyən hissəsi yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə bağlı məsələlərin hüquqi tənzimlənməsinə aiddir. Təbii ki, bu da təsadüfi xarakter daşımır. Yaddan çıxarmamalıyıq ki, yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmaması yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur və nəticədə hər il yüzlərlə insan həyatını itirir və ya onların sağlamlığına zərər vurulur; nəqliyyat vasitəsini idarə edən və yol-nəqliyyat hadisəsi törədən təqsirkar şəxs isə pozuntunun nəticəsindən asılı olaraq, inzibati, cinayət və mülkü-hüquqi məsuliyyətə cəlb edilir.

Yol-nəqliyyat hadisələrinin qarşısının alınması və ağırlıq dərəcəsinin azaldılması üçün, hər şeydən əvvəl, yol hərəkəti təhlükəsizliyi təmin edilməlidir. Bu iş, yəni yol hərəkəti təhlükəsizliyinin təmin olunması polisin üzərinə qoyulmuş və ona həvalə edilmiş əsas vəzifələrdən biridir. PQ-nin 3-cü maddəsinin II hissəsinin 16-cı bəndinə görə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək polisin daşıdığı əsas vəzifələr sırasına daxildir. Şübhəsiz, əgər polis tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin olunması üçün vaxtında zəruri tədbirlər görülərsə, onda yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələrinin baş verməsi ehtimalı əhəmiyyətli dərəcədə azalar.

Heç də sirr deyil ki, vətəndaşların ölümünə və onların sağlamlığına zərər vurulmasına səbəb olan yol-nəqliyyat hadisələrinin baş verməsi hallarının qarşısının alınması və ya onların

sayının azaldılması yol hərəkəti təhlükəsizliyinin təmin olunması amilindən daha çox asılıdır. Nəzərdən qaçırmaq olmaz ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması kimi məsələ yol-nəqliyyat hadisələrinin baş verməsi hallarının qarşısının alınmasında vacib əhəmiyyətə malik olub, mühüm rol oynayır. Odur ki, polis hüququ bu məsələnin hüquqi tənzimlənməsinə xüsusi diqqət yetirir. Bu məsələnin hüquqi tənzimlənməsi isə müvafiq polis-hüquq normaları vasitəsi ilə həyata keçirilir.[1] Unutmaq olmaz ki, kifayət qədər polis-hüquq normaları yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələnin hüquqi tənzimlənməsinə həsr olunmuşdur; məhz belə normaların sistemi polis hüquq elmində (doktrinada) yol hərəkəti təhlükəsizliyi hüququ adlanır.

**Yol hərəkəti təhlükəsizliyi hüququ** dedikdə polis-hüquq normalarının elə məcmusu başa düşülür ki, həmin normalar vasitəsi ilə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ictimai münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə əlaqədar ictimai münasibətləri tənzimləyən polis-hüquq normaları öz normativ-hüquqi ifadəsini müxtəlif səviyyəli aktlarda (qanunlarda, Prezident fərmanlarında, DİN-in hüquqi sənədlərində və s.) tapır; onları «yol hərəkəti təhlükəsizliyi-hüquq normaları» kimi anlayışla əhatə etsək, yanılmarıq. Yol hərəkəti təhlükəsizliyi-hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin ayrıca növlərindən biridir. Belə münasibətlərin polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin ayrıca növü kimi tanınması isə təsadüfi xarakter daşımır. Polis hüquq elmində (doktrinada) irəli sürülmüş və əsaslandırılmış elmi-nəzəri fikrə görə, polis hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin ayrı-ayrı növlərə (qruplara) bölünməsi polis fəaliyyətinin əsas is-

---

[1] *Polis-hüquq normaları barədə daha ətraflı:* Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.62-74.

tiqamələri ilə şərtlənir və müəyyən olunur.[1] Unutmaq olmaz ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi polis fəaliyyətinin əsas istiqamətlərindən biridir. Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, PQ-nin 4-cü maddəsinin II hissəsində polis fəaliyyətinin əsas istiqamətləri göstərilir. Burada ifadə olunan göstərişə görə, polis həm də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Polis məhz bu istiqamətdə fəaliyyəti həyata keçirən zaman yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə bağlı ictimai münasibətlər əmələ gəlir. Belə münasibətlər, təbii ki, hüquqi tənzimlənməni tələb edir, onların mövcudluğu isə yol hərəkəti təhlükəsizliyi hüququnun ayrıca qurum kimi formalaşmasını və fərqləndirilməsini şərtləndirir.

### 10.1.2. Yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmeti

Qeyd etdik ki, yol hərəkəti təhlükəsizliyi hüququnun ibarət olduğu polis-hüquq normaları vasitəsi ilə yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində yaranan ictimai münasibətlər tənzimlənir; məhz həmin münasibətlər yol hərəkəti təhlükəsizliyi hüququnun **nizamasalma predmetini** təşkil edir. Özünəməxsus nizamasalma predmetinə malik olması isə, öz növbəsində, istənilən hüquqi struktur elementin, o cümlədən yol hərəkəti təhlükəsizliyi hüququnun ayrıca hüquqi qurum kimi formalaşmasına, necə deyərlər, müstəqil status əldə etməsinə səbəb olur. Doğrudan da yol hərəkəti təhlükəsizliyi hüququ polis hüququnun tərkibində formalaşmış ayrıca hüquqi qurumdur və onun tərkib hissələrindən biridir; bu, onun özünəməxsus nizamasalma predmetinə malik olması səbəbindən mümkün sayılır. Digər tərəfdən, yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətləri – yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə bağlı

[1] Əliyev E. Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.120.

münasibətləri tənzimləyən polis-hüquq normaları kifayət qədərdir.

Polis hüququnun tərkibində ayrıca hüquqi qurum kimi formalaşmış yol hərəkəti təhlükəsizliyi hüququ tələb olunan şərtlərə (özünəməxsus nizamasalma predmetini təşkil edən ictimai münasibətlərin və bu münasibətləri tənzimləyən hüquq normalarının kifayət qədər olması kimi şərtlərə) cavab verir. Odur ki, yol hərəkəti təhlükəsizliyi hüququ polis hüququnun institutu hesab olunur. Belə fikir söyləmək üçün tutarlı arqumentlər və kifayət dərəcədə əsaslar vardır. Digər tərəfdən, PQ-nin 4-cü maddəsinin II hissəsinə görə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi polisin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərindən biridir. Polis fəaliyyətinin bu istiqamətinə uyğun olaraq, təbii ki, polis hüququnun tərkibində yol hərəkəti təhlükəsizliyi hüququ kimi ayrıca hüquq institutu formalaşmışdır. Axı, polis hüquq elmində (doktrinada) əsaslandırılmış ağlabatan və həqiqətə uyğun elmi-nəzəri fikrə görə, polis hüququnun institutları polis fəaliyyətinin əsas istiqamətlərindən asılı olaraq ayrılır və bir-birindən fərqləndirilir.[1] Nəticədə polis hüququnun xüsusi hissəsi beş instituta ayrılmış və bölünmüşdür ki, onlardan biri məhz yol hərəkəti təhlükəsizliyi hüququ adlanır.

Yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir. Belə ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə bağlı ictimai münasibətlər ayrı-ayrı müxtəlif növlərə bölünür. Həmin növlərdən biri olan nəzarət münasibətlərindən xüsusilə ayrıca danışmaq lazımdır. Polis yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində müvafiq tədbirlər görməklə yanaşı, həm də yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət edir. Nəzərdən qaçırmaq olmaz ki, PQ-nin 3-cü maddəsinin II hissəsinin 15-ci bəndinə görə, yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizli-

---

[1] Əliyev E. Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s.124.

yinə riayət olunmasına nəzarət etmək polisin üzərinə düşən əsas vəzifələrdən biridir. Belə nəzarətin həyata keçirilməsi ilə bağlı müəyyən növ ictimai münasibətlər yaranır ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi yol hərəkəti təhlükəsizliyi hüququ vasitəsi ilə həyata keçirilir. Yol hərəkəti təhlükəsizliyi hüququ müəyyən edir ki, sürücülər və piyadalar tərəfindən yol hərəkəti qaydaları gözlənilməlidir. Polisin də daşıdığı vəzifələrdən biri bundan ibarətdir ki, yol hərəkəti qaydalarının gözlənilməsinə nəzarət etsin; polis həm də hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət edir.

Polis tərəfindən nəzarət həm də aşağıdakı sahələrdə həyata keçirilir: yolların təmiri, tikintisi, layihələndirilməsi, istismarı və onlara xidmət zamanı yol hərəkəti təhlükəsizliyi ilə bağlı qaydalara, normativlərə və standartlara əməl olunması, nəqliyyat vasitələrinin texniki vəziyyəti, avtonəqliyyat vasitələrinin zərərli tullantılarından ətraf mühitin qorunmasına aid qaydalara, normativlərə və standartlara riayət edilməsi və digər sahələrdə.

Qeyd etmək lazımdır ki, yol hərəkəti qaydaları və sürücülük vərdişləri üzrə imtahanlarla bağlı münasiətlər yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində vacib əhəmiyyətə malikdir. Həmin münasibətlər də yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetinə daxildir. Yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetinə həm də sürücülük vəsiqələrinin verilməsinə dair münasibətlər aiddir. Həmin münasibətlərin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynaması şəksizdir. Axı, sürücülük vəsiqəsi nəqliyyat vasitələrini idarəetmə hüququ verən rəsmi sənəddir; sözsüz, belə sənəd olmadan nəqliyyat vasitələrini idarə etmək yolverilməzdir. Bundan başqa, həm də aşağıdakı münasibətlərin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində vacib əhəmiyyəti vardır ki, həmin münasibətlər də həmçinin yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetinə daxildir: nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması ilə bağlı mü-

nasibətlər, nəqliyyat vasitələrinə dövlət qeydiyyat nişanlarının verilməsi ilə bağlı münasibətlər və s.

Yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər yol hərəkəti təhlükəsizliyi barədə və onunla bağlı olaraq yaranır. Söhbət yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə əlaqədar yaranan ictimai münasibətlərdən gedir (yol hərəkəti qaydalarına nəzarət olunması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, avtomobil yollarından istifadə qaydaları və s.). Bu zaman ortaya, təbii ki, belə bir sual çıxır: yol hərəkəti təhlükəsizliyi dedikdə nə başa düşülür?

Qeyd etmək lazımdır ki, 3 iyul 1998-ci ildə qəbul edilmiş YHQ-nin 1-ci maddəsində yol hərəkəti təhlükəsizliyinə anlayış verilir. Bu anlayışa görə, **yol hərəkətinin təhlükəsizliyi** yol hərəkəti iştirakçılarının və cəmiyyətin yol-nəqliyyat hadisələrindən və onların nəticələrindən müdafiə olunma dərəcəsini göstərən yol hərəkəti vəziyyətidir.

## 10.2. Yol hərəkəti təhlükəsizliyi hüququnun prinsipləri, mənbələri və subyektləri

### 10.2.1. Yol hərəkəti təhlükəsizliyi hüququnun prinsipləri

Yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə bağlı ictimai münasibətlərin hüquqi tənzimlənməsinin əsas ideyaları və rəhbər başlanğıcları yol hərəkəti təhlükəsizliyi hüququnun özünəməxsus prinsipləri adlanır. Bu prinsiplər yol hərəkəti təhlükəsizliyi hüquq institutunun məzmun və mahiyyətini müəyyən edir. Öz ifadəsini bu və ya digər polis-hüquq normasında tapdığına görə onlar normativ əhəmiyyətə malikdir. Sözügedən prinsiplər həm də polis hüququnun institutu kimi yol hərəkəti təhlükəsizliyi hüququnun öz mahiyyətindən irəli gəlir. Bu institutun mahiyyətindən, hər şeydən əvvəl, belə bir prinsip irəli gəlir ki, yol hərəkəti qaydalarına əməl olunmalıdır; söhbət **yol hərəkəti qaydalarına əməl olunması prinsipindən** gedir. Bu

prinsipə görə, yol hərəkəti iştirakçıları (sürücü, piyada və s.) tərəfindən yol hərəkəti qaydaları gözlənilməli, polis buna nəzarət etməlidir. Deməli, polis tərəfindən müvafiq nəzarət həyata keçirilməlidir ki, yol hərəkəti qaydalarına riayət olunsun, həmin qaydalar pozulmasın.

Yol hərəkəti təhlükəsizliyi hüquq institutunun mahiyyətindən həm də belə bir prinsip irəli gəlir ki, yol hərəkəti təhlükəsizliyi təmin olunmalıdır; söhbət **yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi prinsipindən** gedir. Bu prinsipə görə, polis nəqliyyat vasitələrinin və piyadaların hərəkətini nizama salmalı, yol hərəkəti təhlükəsizliyinə riayət olunmasına nəzarət etməli və hərəkət təhlükəsizliyinə əməl edilməsi üçün zəruri tədbirlər görməlidir.

Göstərilən hər iki prinsip yol hərəkəti sahəsində mühüm əhəmiyyətə malikdir. Belə ki, həmin prinsiplər vasitəsi ilə yollarda nəqliyyatın və piyadaların rahat və təhlükəsiz hərəkəti təmin olunur, yol hərəkəti ilə bağlı əhalinin həyat və sağlamlığı qorunur, yol-nəqliyyat hadisələrinin qarşısı alınır və belə hadisələrin ağırlıq dərəcəsi aşağı salınır, eləcə də ətraf mühit və mülkiyyət (əmlak) zərər vurulmasından mühafizə olunur. Odur ki, sözügedən prinsiplər realizə olunmalıdır.

**Yol hərəkəti qaydalarının pozulmasına görə hüquqi məsuliyyət prinsipi** də yol hərəkəti təhlükəsizliyi hüququnun özünəməxsus prinsipləri sırasına aiddir. Bu prinsipə görə, əgər yol hərəkəti qaydaları pozularsa və hərəkət təhlükəsizliyinə riayət olunmazsa, təqsirkar şəxslər hüquq məsuliyyətinə cəlb olunurlar. Hüquqi məsuliyyət isə pozuntunun nəticəsindən asılı olaraq müxtəlif formalarda ola bilər: inzibati hüquq məsuliyyəti, cinayət hüquq məsuliyyəti, mülki hüquq məsuliyyəti və intizam hüquq məsuliyyəti. Nəqliyyat vasitələrinin istismarı və avtomobil yollarından istifadə qaydalarının pozulması da hüquqi məsuliyyətə səbəb olur.

**Vurulmuş zərərin əvəzinin ödənilməsi prinsipi** yol hərəkəti təhlükəsizliyi hüququnun özünəməxsus prinsiplərindən biri hesab edilir. Yol hərəkəti qaydalarının pozulması və hərəkət təh-

lükəsizliyinə riayət olunmaması, eləcə də nəqliyyatın istismar qaydalarının pozulması, adətən, zərər vurulmasına səbəb olur. Vurulmuş zərərin əvəzi ödənilməlidir ki, barəsində danışdığımız prinsip də məhz bunda ifadə olunur. Zərər vətəndaşların əmlakına (məsələn, yaşayış yerlərinə, nəqliyyat vasitələrinə və digər əmlak növlərinə), sağlamlığına (məsələn, baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində vətəndaşın bədəninə xəsarət yetirilir və s.) və digər nemətlərə vurula bilər.

Zərər təkcə maddi (əmlak) ziyan formasında olmur. Vətəndaş həm də yol hərəkəti qaydalarının və hərəkət təhlükəsizliyinin pozulması nəticəsində ona vurulmuş mənəvi ziyanın əvəzinin ödənilməsini tələb edə bilər.[1] Nəzərə almaq lazımdır ki, şəxsə mənəvi zərərin vurulması mənəvi sarsıntı və iztirablara səbəb olan istənilən xarakterli qeyri-hüquqi hərəkət və ya hərəkətsizlikdə (mülki, cinayət, inzibati və digər hüquq pozuntularında) ifadə olunur.

Yol hərəkəti təhlükəsizliyi hüququnun vurulmuş zərərin əvəzinin ödənilməsi prinsipindən çıxış etməsi təsadüfi xarakter daşımır. Çünki, Konstitusiyanın 68-ci maddəsinin I hissəsində ifadə olunan göstərişə görə, vətəndaşlara vurulmuş zərərin əvəzi ödənilməlidir. Konstitusiyanın həmin maddəsi vətəndaşların zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu təsbit edir.

Yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunması müxtəlif məqsədlərə xidmət edir ki, onların arasında iki məqsədə nail olunması xüsusi yer tutur. Həmin məqsədlərdən biri yol hərəkəti ilə bağlı insanların həyat və sağlamlığının qorunması, digəri isə mülkiyyətin və ətraf mühitin mühafizə edilməsidir. Bunlara uyğun olaraq, yol hərəkəti təhlükəsizliyi hüququnun daha iki özünəməxsus prinsipi fərqləndirilir:

---

[1] Zərərin (ziyanın) iki forması mövcuddur: maddi (əmlak) zərər; qeyri-maddi (qeyri-əmlak) zərər, yəni mənəvi zərər. *Bu barədə ətraflı bax:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. III cild. II nəşr. Bakı, 2008, «XLIV fəsil. Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər», §10, 11.

1) yol hərəkəti ilə bağlı insanların həyat və sağlamlığının qorunması prinsipi; 2) mülkiyyət və ətraf mühitin mühafizəsi prinsipi. Doğrudan da, yol hərəkət qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunması, əsasən, əhalinin həyat və sağlamlığının qorunması, mülkiyyət və ətraf mühitin mühafizə edilməsi məqsədinə xidmət edir.

Bunlardan başqa, yol hərəkəti təhlükəsizliyi hüququnun aşağıda göstərilən özünəməxsus prinsiplərinin də adını çəkmək lazımdır ki, onlar YHQ-nin 7-ci maddəsində birbaşa təsbit olunmuşdur: yol hərəkətində iştirak edən insanların həyat və sağlamlığının təsərrüfat fəaliyyətinin iqtisadi nəticələrindən üstünlüyü prinsipi; dövlətin məsuliyyətinin insanların məsuliyyətindən üstünlüyü prinsipi; yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətə məqsədyönlü və kompleks yanaşma prinsipi[1].

### 10.2.2. Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbələri

Yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına aid hüquq normaları zahirən öz ifadəsini normaiv hüquqi aktlarda tapır. Məhz belə aktlar yol hərəkəti təhlükəsizliyi hüququnun **mənbəyi** hesab edilir.

Normativ hüquqi aktlar içərisində yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi olan qanunlar xüsusi yer tutur. Söhbət, ilk növbədə, dövlətin Əsas qanunu sayılan **Azərbaycan Respublikasının Konstitusiyasından** (1995-ci il) gedir. Konstitusiya nəinki bütün hüquq sahələrinin və onlardan biri olan inzibati hüququn, həmçinin inzibati hüququn yarımsahəsi kimi tanınan polis hüququnun və onun institutu sayılan yol hərəkəti təhlükəsizliyi hüququnun normativ əsası və bazasıdır. Burada ifadə olunan ümumi xarakterli müddəaların yol hərəkəti təhlükəsizliyi hüququ üçün mühüm əhəmiyyəti vardır.

---

[1] *Ətraflı bax:* Əliyev E. Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s. 46.

Məsələn, Konstitusiyanın 31-ci maddəsinə görə, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.[1] Nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkət etmək imkanı isə bu hüququn elementlərindən biri olub, yol hərəkəti təhlükəsizliyi hüququ vasitəsi ilə təmin olunur.

Konstitusiyanın 31-ci maddəsinin II hissəsində ifadə olunan belə bir hüquqi göstərişin də həmçinin yol hərəkəti təhlükəsizliyi hüququ üçün mühüm əhəmiyyəti vardır ki, şəxsin həyatına, sağlamlığına, mülkiyyətinə və mənzilinə qəsd etmək qadağandır. Belə ki, şəxsin həyat və sağlamlığına, onun mülkiyyətinə və mənzilinə müəyyən hallarda yol-nəqliyyat hadisəsi nəticəsində qəsd olunur. Yaddan çıxarmamalıyıq ki, yol-nəqliyyat hadisəsi yollarda, küçələrdə, meydanlarda, dəmiryol keçidlərində nəqliyyat vasitələrinin hərəkət prosesində baş verən və adamların həlak olmasına və ya müxtəlif dərəcəli bədən xəsarəti almasına, nəqliyyat vasitələri tərəfindən yolların, tikililərin, qurğuların və ya yaşayış yerlərinin zədələnməsinə səbəb olan hadisədir.

Yol-nəqliyyat hadisələri, bəzən, ətraf mühitə zərər vurulmasına gətirib çıxarır. Konstitusiyanın 39-cu maddəsinə görə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır ki, bu hüququn həyata keçirilməsi yol hərəkəti təhlükəsiziyi hüququ üçün mühüm əhəmiyyətə malikdir.

Qanunlar içərisində yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi kimi **YHQ-nin** (1998-ci il) rolu xüsusilə qeyd edilməlidir. Sözügedən Qanun yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz-rahat hərəkətini təşkil etmək məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyat və sağlamlığının qorunması, mülkiyyət və ətraf mühitin mühafizə edilməsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsaslarını müəyyən edir. Həm də adıçəkilən Qanunla yol hərəkəti sahəsində dövlətin

[1] *Bu barədə bax:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. 7-ci nəşr. Dərslik. Bakı, 2011 s. 38.

hansı vəzifələri yerinə yetirməli olduğu müəyyənləşdirilir; burada həmçinin yol hərəkəti iştirakçılarının hüquq və vəzifələri müəyyənləşdirilir. Yol hərəkəti sahəsində əsas anlayışların mahiyyətinə aydınlıq gətirən həmin Qanun yol hərəkəti ilə bağlı vacib məsələləri tənzimləyir.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi olan qanunlar sırasına həm də **PQ** (1999-cu il) daxildir. Bu Qanunda polisin üzərinə düşən əsas vəzifələr müəyyən edilir ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək, eləcə də yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət etmək həmin vəzifələrdən biridir. PQ-nin 16-cı maddəsində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının daşıdığı vəzifələr müəyyənləşdirilir. Bunlardan başqa, PQ-nin 4-cü maddəsinin II hissəsi polisin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərini müəyyən edir və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi həmin istiqamətlərdən biridir. Bir sözlə, PQ yol hərəkəti təhlükəsizliyinə aid kifayət qədər hüquq normaları nəzərdə tutan normativ hüquqi aktdır.

**«Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu** da (1999-cu il) yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi hesab edilir. Adıçəkilən Qanunda nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyinə aid normalar nəzərdə tutulmuşdur və həmin normaların yol hərəkəti təhlükəsizliyi hüququ üçün əhəmiyyəti vardır. Belə ki, yol hərəkəti təhlükəsizliyi hüququna uyğun olaraq, yollarda nəqliyyat vasitələrinin hərəkəti zamanı təhlükəsizlik təmin edilməlidir.

Yol hərəkəti təhlükəsizliyi hüququna görə, yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunması avtomobil nəqliyyatına da aiddir. Bu baxımdan, **«Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikasının Qanunu** (2008-ci il) yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi sayılır. Həmin Qanuna görə, avtomobil nəqliyyat vasitələri yollarda hərəkət edən zaman müəyyən edilən qaydaları pozmamalı, təhlükəsizliyə əməl etməlidirlər.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi olan qanunlar içərisində **«Avtomobil yolları haqqında» Azərbaycan Respublikası Qanununun** (1999-cu il) adı çəkilməlidir. Belə ki, bu Qanunda nəqliyyat təhlükəsizliyinin təmin olunmasına aid normalar nəzərdə tutulmuşdur. Burada ifadə olunan belə bir norma yol hərəkəti təhlükəsizliyi hüququ üçün xüsusi əhəmiyyətə malikdir ki, avtomobil yolları nəqliyyat vasitələrinin və istifadəçilərin təhlükəsiz hərəkətini təmin etmək vəziyyətində saxlanılmalıdır; yol fəaliyyəti zamanı ətraf mühit qorunmalıdır və s.

Bəzən nəqliyyat vasitələrinin hərəkəti zamanı yol-nəqliyyat hadisəsi törədilir ki, belə hadisə vətəndaşların ölümünə, insanların müxtəlif dərəcəli bədən xəsarəti almasına və onların sağlamlığının pozulmasına, habelə şəxslərin əmlakına zərər vurulmasına səbəb olur. Belə hallarda müqavilədənkənar öhdəlik yaranır ki, bu öhdəliyə görə, vurulmuş zərərin əvəzi ödənilməlidir. Müqavilədənkənar öhdəliklərə görə delikt məsuliyyəti nəzərdə tutulur[1]. Müqavilədənkənar öhdəliklər və delikt məsuliyyəti ilə bağlı məsələlər isə **MM** (1999-cu il) ilə tənzimlənir; odur ki, MM yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi hesab edilir; onun IX bölməsi məhz delikt məsuliyyətinin və müqavilədənkənar (delikt) öhdəliklərin hüquqi tənzimlənməsinə həsr edilmişdir.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi qismində həm də **CM** (1999-cu il) çıxış edir. Belə ki, CM bir sıra ictimai təhlükəli əmələ görə cinayət məsuliyyəti nəzərdə tutur: yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (CM, maddə 263), yol-nəqliyyat hadisəsi yerindən qaçma (CM, maddə 264), nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma (CM, maddə 265), nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma (CM, maddə 266) və s. Bu kimi cinayətlər yol

---

[1] *Bu barədə daha ətraflı bax:* Allahverdiyev S.S. Azərbaycan RespublikAsının mülki hüquq kursu. Dərslik. IIIcild. II nəşr. Bakı, 2009, XLIV fəsil, §11.

hərəkəti qaydalarının, hərəkət təhlükəsizliyinin, nəqliyyat vasitələrinin istismarı qaydalarının və yol-nəqliyyat hadisələrinin törədilməsi ilə bağlıdır.

**İXM** (2015-ci il) də yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyidir. Bu Məcəllədə yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar nəzərdə tutulmuşdur (XXIX və XXX fəsillər). Məsələn, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması (İXM, maddə 327), nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması (İXM, maddə 342), yol hərəkətinin təşkili zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməməsi (İXM, maddə 349), avtomobil yollarında yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması (İXM, maddə 354) və digər inzibati xətalar. PQ-nin 16-cı maddəsinə görə, polis əməkdaşı yol hərəkəti qaydalarının pozulması və ya yol-nəqliyyat hadisələri üzrə təhqiqat aparır, öz səlahiyyətləri çərçivəsində inzibati tənbeh tədbirləri tətbiq edir.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbələrinə həm də **qanunqüvvəli normativ hüquqi aktlar** daxildir. Söhbət, ilk növbədə, **Prezident fərmanlarından (sərəncamlarından)** gedir. Məsələn, «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (30.06.2001-ci il), Azərbaycan Respublikası Prezidentinin «Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında» Sərəncamı (26. 12. 2012-ci il) və s. aktlar. DİN haqqında Əsasnamədə göstərilir ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işini təşkil etmək DİN-in yerinə yetirdiyi funksiyalardan biridir. Bundan əlavə, həmin Əsasnaməyə görə, DİN yol hərəkəti təhlükəsizliyinə aid qaydaların, standartların və texniki normaların işlənib hazırlanmasında iştirak edir, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirir. Əsasnamədə həmçi-

nin göstərilir ki, DİN yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə inzibati icraatın həyata keçirilməsini və tənbehlərin tətbiqini təşkil edir və s.

Qanunqüvvəli normativ hüquqi aktlar içərisində **Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarları** da yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi sayılır. Belə qərarlar yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə toxunur və digər məsələləri tənzimləyir. Məsələn, Nazirlər Kabinetinin 06. 04. 1999-cu il tarixli 60 nömrəli qərarı «Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında»dır. Bu qərarla «Nəqliyyat vasitələrinin duracaqları və qarajları haqqında nümunəvi Əsasnamə», «Yol hərəkətinin təhlükəsizliyi göstəricilərinin siyahısı, uçot və hesabat Qaydası» və s. normativ hüquqi aktlar təsdiq edilmişdir ki, onlar yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi sayılır.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbələri sırasına **DİN-in normativ aktları** da daxildir. Bu aktlar sırasında yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi kimi aşağıdakıları göstərmək olar:

- Yol hərəkətinin təhlükəsizliyi tədbirlərinin tətbiqinə dair Dövlət Yol Polisinin fəaliyyəti haqqında Təlimat (2003-cü il);
- Nəqliyyat vasitələrinin texniki vəziyyətinə və onların təhlükəsiz hərəkətinin təmin edilməsinə Dövlət Yol Polisinin nəzarət Qaydaları (2012-ci il);
- Nəqliyyat vasitələri sürücülərinin hazırlanması, sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi, sürücülük vəsiqələrinin verilməsi, dəyişdirilməsi və qaytarılması qaydaları haqqında Təlimat (2012-ci il);
- Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması, müraciətin və sənədlərin qəbulu üzrə İnzibati Reqlament (2012-ci il) və s.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi kimi **«Azərbaycan Respublikası DİN-in Baş Dövlət Yol Polisi İda-**

**rəsi haqqında» Əsasnamə** (2001-ci il) haqqında xüsusiə danışmaq lazımdır. DİN tərəfindən 06.12.2001-ci il tarixli 474 nömrəli əmr ilə təsdiq edilmiş sözügedən Əsasnamədə başlıca məqsəd Baş İdarənin, onun tabe hissələrinin xidməti fəaliyyətinin tənzimlənməsi, təkmilləşdirilməsi və daha da məqsədyönlü həyata keçirilməsindən ibarətdir. Yol hərəkəti təhlükəsizliyi sahəsində dövlət nəzarət orqanı olmaq etibarı ilə DYP xidmətinə aşağıda göstərilən işlərin yerinə yetirilməsi həvalə edilmişdir:

- xidmət üzrə idarəetmənin təşkili;
- yol hərəkətinin təşkili üzrə fəaliyyət;
- yol hərəkətinə inzibati nəzarətin həyata keçirilməsi;
- avtomotonəqliyyat vasitələrinin uçotu, qeydiyyatı və sürücü kadrlarının hazırlanması sahəsində fəaliyyət;
- avtomotonəqliyyat vasitələrinə texniki nəzarət sahəsində fəaliyyət;
- yol hərəkəti təhlükəsizliyinin təbliği və s.

DİN-in 13.07.2009-cu il tarixli əmri ilə təsdiq olunmuş **«Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında» Əsasnamə** də yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyidir. Lokal xarakterli bu normativ hüquqi aktda yol hərəkəti təhlükəsizliyinə aid müvafiq hüquq normaları nəzərdə tutulmuşdur. Həmin Əsasnamədə ifadə edilmiş hüquq normasına görə, polis orqanının yerinə yetirdiyi funksiyalardan biri yol hərəkəti təhlükəsizliyinin təmin edilməsidir. Əsasnaməyə görə, polis orqanı yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində bir sıra vəzifə daşıyır; burada polis orqanının daşıdığı vəzifələr sadalanır. Əsasnamədə həmçinin polis orqanının malik olduğu hüquqlar müəyyən edilir ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunmasını həyata keçirmək hüququ da onlardan biridir. Əsasnaməyə görə, polis orqanı yol hərəkəti təhlükəsizliyinin təmin olunmasını həyata keçirmək hüququna malikdir.

Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbə növlərindən biri **beynəlxalq müqavilələr** hesab olunur. Əgər Azərbaycan

Respublikası hər hansı beynəlxalq müqaviləyə tərəfdar çıxarsa, həmin müqavilə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olur və dövlətdaxili hüquq sahələrinin, hüquq yarımsahələrinin və hüquq institutlarının mənbəyi kimi tanınır. Məsələn, Azərbaycan Respublikası 1997-ci ildən «Yol hərəkəti haqqında» Konvensiyanın (Vyana, 1968-ci il), 2000-ci ildən «Avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunmanın beynəlxalq nəticələri haqqında» Avropa Konvensiyasının (Brüssel, 1976-cı il), 2010-cu ildən «Yol nişanları və siqnalları haqqında» Konvensiyanın (Vyana, 1968-ci il) və s. beynəlxalq-hüquqi aktların iştirakçısıdır. Odur ki, adıçəkilən beynəlxalq müqavilələr yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyidir.

Dövlətlər öz aralarında sürücülük vəsiqələrinin tanınması haqqında beynəlxalq müqavilə bağlayırlar ki, həmin müqavilələr də yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi kimi tanınır. Hal-hazırda dövlətlərin bu növ beynəlxalq müqavilələr bağlamaq praktikasından istifadə etmələrinə rast gəlmək mümkündür: məsələn, «Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında» Saziş (Bakı, 2013-cü il), «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında» Saziş (Ankara, 2016-cı il) və s.

Əgər beynəlxalq müqavilələr nəqliyyat-daşıma prosesində təhlükəsizliyin təmin olunması sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsinə yönələrsə, bu cür müqavilələr də yol hərəkəti təhlükəsizliyi hüququnun mənbəyi sayılır. Belə müqavilələr bağlamaq praktikasından dövlətlərin istifadə etmələri geniş yayılmışdır. Nəzərə almalıyıq ki, beynəlxalq müqavilələr yol hərəkətini hüquqi tənzimetmə mənbəyidir.[1]

---

[1] *Bu barədə ətraflı:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.69-84.

### 10.2.3. Yol hərəkəti təhlükəsizliyi hüququnun subyektləri

Yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər iki tərəf arasında əmələ gəlir. Həmin münasibətlərin potensial (mümkün) iştirakçıları yol hərəkəti təhlükəsizliyi hüququnun **subyektləri** adlanır; onlar yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında müəyyən hüquqlara malik olub, zəruri vəzifələr daşıyırlar.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində başlıca vəzifələr polis orqanının üzərinə düşür. Odur ki, yol hərəkəti təhlükəsizliyi hüququnun əsas subyekti **polis orqanı** hesab edilir. Söhbət, hər şeydən əvvəl, şəhər və rayon polis orqanlarından gedir. Bu orqanların tərkibində **DYP qurumları** fəaliyyət göstərir ki, onlar da yol hərəkəti təhlükəsizliyinin təmin olunması üçün lazımi tədbirlər görürlər. DYP orqanları isə ayrı-ayrı polis əməkdaşlarından ibarətdir. **Polis əməkdaşları** yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində bir sıra vəzifələr daşıyırlar: məsələn, nəqliyyatın və piyadaların hərəkətinin tənzimlənərək nizama salınması; sürücülər və piyadalar tərəfindən yol hərəkəti qaydalarının gözlənilməsinə nəzarətin həyata keçirilməsi; yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına yönələn tədbirlərin görülməsi; öz səlahiyyətləri çərçivəsində inzibati tənbeh tədbirlərinin tətbiq edilməsi və s.

DYP əməkdaşları bunlardan başqa, nəqliyyat vasitələrini idarəetmə hüququna dair sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən müvafiq imtahanları qəbul edir və onlara sürücülük vəsiqəsi verirlər; onlar həmçinin nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparır, onlara qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları verirlər. Buna görə polis əməkdaşları yol hərəkəti təhlükəsizliyi hüququnun fərdi subyekti sayılır. Polis orqanı isə yol hərəkəti təhlükəsizliyi hüququnun kollektiv subyekti kimi tanınır.

Polis orqanları və onların əməkdaşları (polis əməkdaşları) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə yönələn vacib iş görürlər. Əlbəttə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işi təşkil olunmalıdır. Bu işi təşkil etmək funksiyası DİN tərə-

fındən yerinə yetirilir; onun Əsasnaməsində göstərilir ki, DİN həm də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin təşkili funksiyasını yerinə yetirir. Nazirliyin bu kimi funksiyası onun tərkibinə daxil olan müstəqil struktur qurum – **Baş Dövlət Yol Polisi İdarəsi** (BDYPİ) tərəfindən həyata keçirilir. Əgər DİN yol hərəkəti təhlükəsizliyi hüququnun ümumi subyektidirsə, BDYPİ xüsusi subyekti kimi tanınır. Sözügedən İdarə DYP xidmət sisteminə başçılıq edir və onun strukturuna aşağıdakılar daxildir:[1] 1) Təşkilati-İnspektor Şöbəsi; 2) Avtotexniki Müfəttişlik Şöbəsi; 3) Yol-Patul Xidməti Şöbəsi; 4) Yol Müfəttişliyi və Hərəkətin Təşkili Şöbəsi; 5) Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla Əlaqə Şöbəsi; 6) İstismar və Texniki Təminat Şöbəsi; 7) Katiblik və s.

Baş İdarəyə bilavasitə tabe olan digər qurumlar da fəaliyyət göstərir ki, həmin qurumlar da yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi vəzifələrinin yerinə yetirilməsi məqsədinə xidmət edir: Yol Polisi Alayı, Qeydiyyat-İmtahan Şöbəsi, «SİQNAL» İxtisaslaşdırılmış Layihə İstehsalat İdarəsi, Müayinə Mərkəzi, Regional Qeydiyyat-İmtahan və Texniki Baxış Şöbələri və s.

Yol hərəkəti təhlükəsizliyinin təmin olunması ilə bağlı ictimai münasibətlərdə **yol hərəkəti iştirakçıları** da çıxış edirlər. Buna görə də yol hərəkəti təhlükəsizliyi hüququnun subyektləri sırasına həm də yol hərəkəti iştirakçıları aiddir. YHQ-nin 2-ci maddəsinə görə, yol hərəkəti iştirakçıları yol hərəkəti sahəsində həm müəyyən hüquqlara malikdir, həm də müvafiq vəzifələr daşıyırlar; onların malik olduqları hüquqlar və daşıdıqları vəzifələr isə YHQ ilə müəyyən edilir. Əgər hər hansı iştirakçı (şəxs) yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində hüquqlara malik ola və vəzifələr daşıya bilərsə, o, yol hərəkəti təhlükəsizliyi hüququnun subyekti sayılır. Deməli, yol

---

[1] *Bax:* «Azərbaycan Respublikası DİN-in Baş Dövlət Yol Polisi İdarəsi haqqında» Əsasnamənin 1.4-cü bəndi. Bu Əsasnamə Baş İdarənin fəaliyyətinin hüquqi əsasıdır və DİN-in 06.12.2001-ci il tarixli 474 nömrəli əmri ilə qəbul edilmişdir.

hərəkəti iştirakçısı yol hərəkəti təhlükəsizliyi hüququnun subyektidir.

Yol hərəkəti iştirakçısı dedikdə yol hərəkəti prosesində piyada, nəqliyyat vasitəsinin sürücüsü, sərnişin, velosipedçi, mal-qara ötürən qismində iştirak edən, habelə avtomobil yollarından, küçələrdən, dəmiryol keçidlərindən və ya nəqliyyat vasitələri ilə adamların və yüklərin daşınması üçün nəzərdə tutulmuş digər yerlərdən istifadə edən şəxs başa düşülür (YHQ-nin 1-ci maddəsində yol hərəkəti iştirakçısına belə anlayış verilir). Bu, geniş və ümumiləşdirilmiş anlayışdır. Belə ki, bu anlayışa həm sərnişin, həm sürücü, həm piyada, həm velosipedçi, həm də mal-qara ötürən şəxs daxildir. YHQ-də bunlara da anlayış verilir, onların mahiyyətinə aydınlıq gətirilir. **Sürücü** dedikdə hər hansı növ nəqliyyat vasitəsini idarə edən şəxs başa düşülür. **Sərnişin** elə bir şəxsdir ki, həmin şəxs nəqliyyat vasitəsində hərəkətdə olur, lakin onun idarə edilməsində iştirak etmir. **Piyada** dedikdə nəqliyyat vasitələrindən kənarda yol hərəkətində iştirak edən və yolda hər hansı iş görməyən şəxs başa düşülür. **Velosipedçi** velosiped kimi nəqliyyat vasitəsini idarə edən şəxsdir; həmin şəxs velosiped sürücüsüdür. Mal-qaranı, yük və ya minik heyvanlarını yoldan keçirən şəxs isə **mal-qara ötürən** adlanır. Bunlar yol hərəkəti təhlükəsizliyi hüququnun hakimiyyət səlahiyyətlərinə malik olmayan subyektləridir. Yol hərəkəti təhlükəsizliyi hüququnun hakimiyyət xarakterli (hakimiyyət səlahiyyətli) subyektlərinə isə polis orqanı və polis əməkdaşı aiddir.

## 10.3. Dövlət Yol Polisi yol hərəkəti təhlükəsizliyi hüququnun əsas subyekti kimi

### 10.3.1. Yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində Dövlət Yol Polisinin rolu və yerinə yetirdiyi funksiyalar

Müasir dövrdə istənilən dövlətdə təhlükəsizliyin təmin edilməsi sahəsində müxtəlif problemlər mövcuddur. Heç də

sirr deyil ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması belə problemlərdən biri sayılır. Etiraf etməliyik ki, bu, yəni yol hərəkəti təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi vacib dövlət əhəmiyyətli məsələ kimi tanınır. Ön plana çəkilən hər bir məsələnin həllinə dövlət, o cümlədən Azərbaycan Respublikasının Hökuməti xüsusi diqqət yetirir. Dövlət tərəfindən yol hərəkəti idarə olunur, yol hərəkəti sahəsində təhlükəsizlik təmin edilir, yol hərəkəti iştirakçılarının normal fəaliyyəti üçün təhlükəsiz, rahat və əlverişli şərait yaradılır, kompleks xarakterli tədbirlər görülür və s. Bu kimi tədbirlər, sözsüz, bilavasitə dövlət tərəfindən deyil, onun səlahiyyətli idarəetmə (icra) orqanları tərəfindən həyata keçirilir ki, BDYPİ də məhz belə orqanlardan biridir. O, polis hüququnun institutlarından biri olan yol hərəkəti təhlükəsizliyi hüququnun əsas və başlıca subyektidir.

Yol hərəkəti və onun təhlükəsizliyinin təmin edilməsi işi sistemli şəkildə idarə olunur; həm də bu sahədə mövcud olan qurumların fəaliyyətinin hüquqi tənzimlənməsi və koordinasiyası sistemli formada həyata keçirilir. Söhbət Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət şirkətləri, baş idarələri və yerli icra hakimiyyəti orqanlarından gedir ki, yol-nəqliyyat hadisələrinin qarşısın alınması və onların nəticələrinin ağırlıq dərəcəsinin azaldılması məqsədi ilə bu kimi orqanların fəaliyyəti kompleks şəkildə əlaqələndirilir. Bu sistemdə BDYPİ özünəməxsus yer tutur. Yol hərəkəti sahəsində müvafiq səlahiyyətlərə malik olan və müxtəlif funksiyalar yerinə yetirən BDYPİ mühüm vəzifələr daşıyır.

Yol hərəkəti prosesində insanların həyat və sağlamlığının qorunması, yol-nəqliyyat hadisələrinin və onların zərərli nəticələrinin qarşısının alınması, yol hərəkəti təhlükəsizliyi ilə bağlı digər perspektiv tədbirlərin və proqnozların reallaşdırılması BDYPİ-nin fəaliyyətinin prioritet istiqamətidir. «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında» Əsasnaməyə müvafiq olaraq, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işinin təşkili sahəsində DİN-in funksiyalarını BDYPİ yerinə

yetirir; o, DİN-in tabeliyində olan xidmət sahələrindən biri olub, onun stukturuna daxildir. Bu qurumun fəaliyyəti «Azərbaycan Respublikası DİN-in Baş Dövlət Yol Polisi İdarəsi haqqında» Əsasnamə ilə tənzimlənir ki, həmin Əsasnamə, əvvəllərdə qeyd etdiyimiz kimi, DİN-in 06.12.2001-ci il tarixli 474 nömrəli əmri ilə təsdiq edilmişdir.

BDYPİ təkcə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işini təşkil etmək funksiyasını həyata keçirmir; o, həm də yol hərəkəti təhlükəsizliyi sahəsində dövlət nəzarət orqanı kimi tanınır. Bu orqan, hər şeydən əvvəl, yol hərəkətinə inzibati nəzarəti həyata keçirir, həm də avtomotonəqliyyat vasitələrinə texniki nəzarət sahəsində fəaliyyət göstərir. Yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət də BDYPİ tərəfindən həyata keçirilir. Bunlardan əlavə, Baş İdarə xidmət üzrə idarəetməni təşkil edir, yol hərəkətinin təşkili üzrə fəaliyyət göstərir, avtomotonəqlyyat vasitələrinin uçot və qeydiyyatını aparır, sürücü kadrlarının hazırlanması işinə nəzarət edir, avtomotonəqliyyat vasitələrinin axtarışı işini həyata keçirir, yol hərəkəti təhlükəsizliyini təbliğ edir və digər işlərlə məşğul olur; o, həm də yol hərəkəti iştirakçılarının malik olduqları hüquqların həyata keçirilməsinə, eləcə də onların daşıdıqları vəzifələrin yerinə yetirilməsinə nəzarət edir. Bir sözlə, BDYPİ-nin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyəti çoxaspektlidir. Bu qurum öz fəaliyyətini DİN-in digər struktur hissələri, hərbi avtomobil müfəttişliyi, dövlət hakimiyyət və yerli özünüidarə orqanları, idarə, müəssisə, əmək kollektivləri, qeyri-hökumət təşkilatları və vətəndaşlarla qarşılıqlı əlaqə şəraitində həyata keçirir.

BDYPİ yol hərəkəti prosesini lazımınca tənzimləməlidir. Söhbət nəqliyyat və piyadaların hərəkətinin lazımi qaydada nizama salınmasından gedir ki, bunun nəticəsində normal yol hərəkəti mühiti və vəziyyəti yaradılır. Bu, yol hərəkətinin təhlükəsizliyini şərtləndirən amillərdən biridir.

Digər tərəfdən, BDYPİ yol hərəkəti ilə bağlı münasibətlərin subyekti qismində çıxış edən yol hərəkəti iştirakçılarına

(sürücü, piyada, sərnişin və s.) yol hərəkəti üzrə zəruri hüquqi bilik aşılamalı, bu sahədə onların müvafiq şüur səviyyəsinə malik olmasını təmin etməlidir. Bu, yol hərəkəti təhlükəsizliyini şərtləndirən digər amildir. Unutmaq olmaz ki, yol hərəkəti iştirakçılarında yol mədəniyyətinin formalaşması, əhaliyə yol hərəkəti qaydalarının öyrədilməsi və yol hərəkəti təhlükəsizliyinin təbliği kimi məsələlərin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyəti vardır. Belə məsələləri həll etmək yol hərəkəti sahəsində dövlətin üzərinə düşən əsas vəzifələr sırasına daxildir.[1]

Yol hərəkəti prosesində istifadə edilən nəqliyyat vasitələrinin texniki sazlıq səviyyəsi artırılmalı, onların vəziyyəti texniki təhlükəsizlik tələblərinə və normalarına uyğun olmalıdır. Bu, yol hərəkəti təhlükəsizliyinin təmin olunmasını şərtləndirən digər amildir; DYP orqanları bu məsələyə də lazımi diqqət yetirir.[2]

### 10.3.2. Dövlət Yol Polisinin əsas fəaliyyət istiqamətləri

Yol hərəkəti təhlükəsizliyi hüququnun əsas subyekti olan BDYPİ yol hərəkəti təhlükəsizliyinin təmin olunması üçün bir neçə istiqamətdə fəaliyyət göstərir. Avtomobil yollarında, küçələrdə və digər yerlərdə yol hərəkəti üçün rahat, münasib, əlverişli və təhlükəsiz şərait yaradılması bu istiqamətlərdən biridir. Hər şeydən əvvəl, avtomobil yollarının layihələndirilməsi, tikintisi, yenidən qurulması, təmiri, saxlanılması və abadlaşdırılması zamanı yol hərəkəti təhlükəsizliyi təmin edilməlidir. Bu kimi vəzifənin yerinə yetirilməsi ilə bağlı məsələlər YHQ-nin 9-cu maddəsi ilə tənzimlənir; həmin Qanunun 10-cu maddəsi ilə avtomobil yollarının saxlanılması və abadlaşdırılması zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar

---

[1] *Ətraflı bax:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.174.

[2] YHQ, maddə 14.

münasibətlərin hüquqi nizama salınması həyata keçirilir; onun 11-ci maddəsi isə avtomobil yollarından istifadə olunması zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələlərin tənzimlənməsinə həsr edilmişdir.

Göstərilən sahələrdə bütün işlərin görülməsində müxtəlif dövlət qurumları (Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Standartlaşdırılma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və digər qurumlar) iştirak edirlər. DİN həmin qurumlaran biridir və onun sözügedən sahədə səlahiyyətlərini Baş DYP İdarəsi həyata keçirir. Bundan ötrü, yəni **yol müfəttişliyi və hərəkətin təşkili** xidmət sahəsi istiqamətində fəaliyyətin həyata keçirilməsi məqsədilə Baş DYP İdarəsinin strukturunda Yol Müfəttişliyi və Hərəkətin Təşkili Şöbəsi yaradılmışdır. Həmin şöbə PQ, YHQ və «Avtomobil yolları haqqında» Qanuna uyğun olaraq, DİN-in müvafiq normativ xarakterli aktı əsasında fəaliyyət göstərir. «Dövlət Yol Polisinin yol müfəttişliyi və hərəkətin təşkili xidməti haqqında Təlimat» adlanan həmin akt DİN-in 22.06.2000-ci il tarixli 238 nömrəli əmri ilə təsdiq edilmişdir. Təlimat, əsasən, küçə-yol şəbəkəsinə aid mühəndis-texniki məsələləri tənzimləyir.

Şöbənin hansı məqsədə xidmət etməsinə gəldikdə, qeyd etməliyik ki, şöbənin əsas məqsədi küçə və yolların işlək vəziyyətdə saxlanılması, hərəkəti texniki idarəetmə vasitələri üzərində nəzarətin həyata keçirilməsi, habelə yol-təmir işləri zamanı yol hərəkəti təhlükəsizliyinin təmin olunması tədbirlərinin təşkilindən ibarətdir.

Qeyd etmək lazımdır ki, yol müfəttişliyi və hərəkətin təşkili xidmət sahələrindən biridir. Şübhəsiz, bu xidmət sahəsi müəyyən vəzifələr yerinə yetirir. Onun əsas vəzifəsi yol hərəkətinin təşkili və yol hərəkəti təhlükəsizliyinə birbaşa təsir göstərən küçə-yol, yol qurğuları, dəmir yolu keçidləri və digər ob-

yektlərin layihələndirilməsi, tikintisi, təmiri və istismarı prosesində dövlət nəzarətini həyata keçirməkdən ibarətdir.

**Yol hərəkəti prosesinə inzibati keşik nəzarəti** BDYPİ-nin əsas fəaliyyət istiqamətlərindən biridir. Həmin fəaliyyət istiqamətinə görə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə inzibati nəzarət həyata keçirilməlidir. Bununla bağlı məsələlər PQ-nin II fəsli ilə tənzimlənir; YHQ-nin VII fəslində də həmin məsələnin tənzimlənməsinə aid normalar nəzərdə tutulmuşdur. Qeyd etməliyik ki, qanunvericiliyə görə, yollarda hərəkət təhlükəsizliyinə nəzarəti yalnız DYP xidmət sahəsi həyata keçirir. Bu zaman, yəni nəzarəti həyata keçirərkən DYP müxtəlif üsullardan istifadə edir ki, belə üsullara aid olunur:

- yol hərəkəti prosesinin müşahidə edilməsi;
- yol hərəkəti şəraitinə nəzarət edilməsi;
- yol hərəkəti iştirakçılarının davranışına və nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsi;
- yol hərəkəti sahəsində inzibati xətaların aşkar edilməsi, qarşısının alınması və inzibati tənbeh tədbirlərinin götürülməsi məqsədi ilə keşik çəkilməsi;
- yol hərəkətinin nizama salınma tərzi.

İnzibati nəzarət, əsasən, üç məsələ barəsində həyata keçirilir. Həmin məsələlər bunlardan ibarətdir: 1) yol hərəkəti iştirakçılarının davranışı; 2) nəqliyyat vasitələrinin texniki vəziyyəti; 3) yol hərəkəti şəraiti. Deməli, yol hərəkəti iştirakçılarının davranışına, nəqliyyat vasitələrinin texniki vəziyyətinə və yol hərəkəti şəraitinə DYP orqanları tərəfindən nəzarət həyata keçirilir. İnzibati nəzarət dedikdə müvafiq informasiyaların toplanması və işlənilməsi, yol şəraitinin dəyişilməsinə, habelə sürücü, piyada və digər yol hərəkəti iştirakçılarının hüquqazidd əməllərinə operativ reaksiya verilməsi başa düşülür.

**Yol-nəqliyyat hadisələrinin uçotu və təhlili** BDYPİ orqanlarının həyata keçirdiyi əsas fəaliyyət istiqamətlərindən biridir. Cəmiyyət üçün təhlükəli olan və zərərli nəticələrə gətirib çıxaran belə hadisələr tez-tez törədilir.

YHQ-nin 24-cü maddəsinə görə, Azərbaycan Respublikasının ərazisində yol hərəkəti təhlükəsizliyi vəziyyətinin əsas göstəricilərinin dövlət uçotu aparılır. Bu maddə yol hərəkəti təhlükəsizliyi vəziyyətinin əsas göstəricilərinin dövlət uçotunun təşkilinə həsr olunmuşdur. Burada dövlət uçotu aparılan əsas göstəricilər sadalanır ki, yol-nəqliyyat hadisələri həmin göstəricilərdən biridir. Digər göstəricilərin də dövlət uçotu aparılır: 1) yol-nəqliyyat hadisələrində zərər çəkmiş şəxslər; 2) nəqliyyat vasitəsi sürücüləri; 3) yol hərəkəti qaydalarını pozmuş şəxslər; 4) yol hərəkəti sahəsində inzibati xətaların və cinayətlərin sayı; 5) yol hərəkəti təhlükəsizliyi vəziyyətini əks etdirən göstəricilər və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə dair fəaliyyətin nəticələrinin göstəriciləri.

Sadalananlar Azərbaycan Respublikası ərazisində yol hərəkəti təhlükəsizliyi vəziyyətinin əsas göstəriciləridir ki, yol-nəqliyyat hadisələri onlardan biridir. Yol-nəqliyyat hadisələri, şübhəsiz, bu və ya digər şəxsə ziyan yetirilməsinə səbəb olur; Söhbət yol-nəqliyyat hadisələrində zərərçəkən şəxslərdən gedir. YHQ-nin 24-cü maddəsinin II hissəsi yol-nəqliyyat hadisələrində zərərçəkən şəxslərə aid edir: 1) yaralılar – yol-nəqliyyat hadisəsi nəticəsində səhhətinin müəyyən müddətə pozulmasına səbəb olan şəxslər; 2) həlak olanlar – yol-nəqliyyat hadisəsi yerində həlak olmuş və ya bu cür hadisə nəticəsində sonrakı 7 gün ərzində ölmüş şəxslər.

Azərbaycan Respublikasında yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin dövlət uçotu aparılır. Bu işi təşkil etmək vəzifəsi Baş DYP İdarəsinin üzərinə düşür. Həmin işin öz mahiyyəti isə DYP orqanlarında yol-nəqliyyat hadisələri barədə məlumatların toplanmasından və onların uçotunun aparılmasından ibarətdir. Bir sözlə, DYP orqanlarında yol-nəqliyyat hadisələri qeydiyyata alınır və onların uçotu aparılır. Bu işlə bağlı məsələlər «Daxili işlər orqanlarında yol-nəqliyyat hadisələrinin qeydiyyatı və uçotu barədə» Təlimatla tənzimlənir ki, həmin normativ xarakterli sənəd DİN-in 27.09.1999-cu il tarixli 326 nömrəli əmri ilə təsdiq edilmişdir. Burada yol-

nəqliyyat hadisələri aşağıdakı növlərə bölünür (Təlimatın 1.2-ci bəndi):

- nəqliyyat vasitələrinin toqquşması;
- nəqliyyat vasitəsinin aşması;
- dayanmış nəqliyyat vasitəsini vurma;
- maneəni vurma;
- piyadanı vurma;
- velosipedçini vurma;
- at-araba nəqliyyatını vurma;
- heyvanları vurma;
- sərnişinin yıxılması.

BDYPİ-nin əsas fəaliyyət istiqamətlərindən biri bundan ibarətdir ki, **nəqliyyat vasitələri dövlət qeydiyyatına alınmalı və onların uçotu** aparılmalıdır. Söhbət nəqliyyat vasitələrinin dövlət qeydiyyatı və uçotu kimi fəaliyyət növündən gedir ki, həmin fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlər aşağıdakı normativ aktlarla tənzimlənir: PQ, YHQ, Nazirlər Kabinetinin 15.03.1999-cu il 15 mart tarixli 39 nömrəli qərarı, DİN tərəfindən 14.06.1999-cu il tarixdə təsdiq edilmiş Təlimat və s. Bu aktlar nəqliyyat vasitələrinin qeydiyyat və uçot işinin hüquqi əsasıdır. Nazirlər Kabineti tərəfindən «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında» Əsasnamə (1999-cu il) qəbul edilmişdir ki, bu Əsasnamə ilə müəyyən edilmiş qaydada mexaniki nəqliyyat vasitələri və onların qoşquları dövlət qeydiyyatından keçirilir və uçota alınır.

Nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması müəyyən məqsədlər güdür. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılmasının məqsədləri YHQ-nin 27-ci maddəsində göstərilmişdir. Məsələn, nəqliyyat vasitələrinin konstruksiyasının, texniki vəziyyətinin və avadanlığının qəbul edilmiş təhlükəsizlik qaydalarına uyğun olması, nəqliyyat vasitələrinin

uçot göstəricilərində müvafiq dəyişikliklərin aparılması, nəqliyyat vasitələrinin sahibləri tərəfindən dövlət rüsumlarının ödənilməsi, nəqliyyat vasitələrinin mərkəzləşdirilmiş qaydada və regionlar üzrə uçota alınması, cinayətkarlığa və digər hüquq pozuntularına qarşı mübarizə aparılması və s.

Mexaniki nəqliyyat vasitələri müxtəlif dövlət orqanları tərəfindən dövlət qeydiyyatına alınır. Hansı dövlət orqanında qeydiyyata alınma məsələsi mexaniki nəqliyyat vasitələrinin təyinatından, konstruktiv xüsusiyyətlərindən və digər amillərdən asılıdır. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan dövlət orqanlarından biri məhz DİN hesab edilir. Bu orqan hüquqi və fiziki şəxslərə məxsus olan (Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və digər birləşmələrdən başqa) və mühərrikinin işçi həcmi 50 kub/santimetr və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyat vasitələri, onların qoşqu və yarımqoşqularının dövlət qeydiyyatını aparır. Fiziki və hüquqi şəxslər nəqliyyat vasitəsini əldə etdiyi vaxtdan 10 gün ərzində dövlət qeydiyyatından keçirərək uçota aldırmalıdır ki, bu, onların üzərinə düşən vəzifə sayılır.

Nəqliyyat vasitəsinin sahibi tələb olunan müvafiq sənədlər təqdim etməlidir ki, həmin sənədlər əsasında nəqliyyat vasitəsinin dövlət qeydiyyatı aparılır. Belə sənədlərə aiddir:

– ərizə;
– Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;
– qanunvericiliklə müəyyən edilmiş rüsumların ödənilməsi barədə qəbz;
– xarici dövlətlərdə alınaraq Azərbaycan RespublikAsının ərazisinə hüquqi və fiziki şəxslər tərəfindən gətirilmiş nəqliyyat vasitəsi üçün gömrük orqanlarının verdiyi icazə sənədi; nəqliyyat vasitəsinin əvvəl qeydə alındığı dövlətin daimi qeydiyyatından çıxarıldığına dair sənədi, onun qeydiyyat və ya tranzit nişanları. Nəqliyyat

vasitəsinin əvvəlki uçot yerindən silinməsi Azərbaycan Respublikası ərazisində yerləşən xarici səfirlik və konsul nümayəndəlikləri tərəfindən həyata keçirildiyi halda – müvafiq konsul şəhadətnaməsi (vəsiqə, arayış, təsdiqləmə və s.) təqdim edilir.[1]

Təbii ki, tələb olunan şərtlərə əməl edildikdə və onlar mövcud olduqda nəqliyyat vasitələri yol hərəkətində iştirak etməyə buraxılır. Tələb edilən şərtlərdən biri bundan ibarətdir ki, nəqliyyat vasitələrini idarə edən şəxslər **sürücülük hüququna** malik olmalıdır. Sürücülük hüququna malik olmaq isə sürücülük vəsiqəsi ilə təsdiqlənir. Sürücülük vəsiqəsi dedikdə hər hansı şəxsin nəqliyyat vasitəsini idarəetmə hüququnu təsdiq edən rəsmi sənəd başa düşülür.

Sürücülük vəsiqəsinin verilməsi işi yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Unutmaq olmaz ki, sürücülük vəsiqəsi olmadan nəqliyyat vasitələrinin idarə edilməsi yol hərəkəti üçün olduqca təhlükəlidir. Odur ki, DYP orqanları həm də vətəndaşlara sürücülük vəsiqəsinin verilməsi fəaliyyəti ilə məşğul olur. Bu, DYP orqanlarının əsas fəaliyyət istiqamətlərindən biridir. PQ-nin 16-cı maddəsinə görə, vətəndaşlara nəqliyyat vasitələrini idarəetmə hüququ verən sürücülük vəsiqələrinin verilməsi yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polisin üzərinə düşən vəzifələrdən biri hesab edilir.

Sürücülük vəsiqələrinin verilməsi ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsinə gəldikdə, qeyd etməliyik ki, bu münasibətlərin hüquqi nizama salınması müxtəlif normativ hüquqi aktlar vasitəsi ilə həyata keçirilir:

– «Yol hərəkəti haqqında» Konvensiya (1968-ci il);
– «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1998-ci il);

[1] *Nəqliyyat vasitələrinin dövlət qeydiyyatı və uçotu barədə daha ətraflı:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s. 242-260.

- «Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında» Əsasnamə (Nazirlər Kabinetinin 15.03.1999-cu il tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmişdir);
- «Nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında» Əsasnamə (Nazirlər Kabinetinin 15.03.1999-cu il tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmişdir);
- DİN-in 04.08.2012-ci il tarixli Q16-001-12 nömrəli qərarı ilə təsdiq olunmuş və Ədliyyə Nazirliyində 09.08.2012-ci il tarixdə Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş müvafiq Təlimat və digər normativ hüquqi aktlar.

«Yol hərəkəti haqqında» Konvensiya barədə xüsusilə danışmaq lazımdır. Bu Konvensiyada «sürücü» (çarvadar) anlayışına aydınlıq gətirilmişdir. Konvensiyaya görə, sürücü dedikdə nəqliyyat vasitəsini, avtomobili, velosipedi və s. idarə edən, yaxud yollarda mal-qaranı, sürüləri, qoşqu-yük və minik heyvanlarını sürüb aparan şəxs başa düşülür.

Konvensiyada göstərilir ki, hərəkətdə olan nəqliyyat vasitəsinin və ya nəqliyyat vasitəsi qatarının sürücüsü olmalıdır. Sürücüdən onun zəruri fiziki və psixi keyfiyyətlərə malik olması tələb edilir; onun fiziki və əqli vəziyyəti nəqliyyat vasitəsini idarə etməyə imkan verməlidir. Bunlarla yanaşı, nəqliyyat vasitəsini idarə etmək üçün şəxs zəruri bilik və vərdişlərə malik olmalı, habelə nəqliyyat vasitəsini idarə etməyə qadir olmalıdır.

Konvensiya sürücülərə dair müəyyən tələblər nəzərdə tutur; onun 8-ci maddəsi məhz belə tələblərin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Hər şeydən əvvəl, sürücü müvafiq kateqoriyalı sürücülük vəsiqəsinə malik olmalıdır. Konvensiyanın 41-ci maddəsinə görə, hər bir avtomobil sürücüsünün

nəqliyyat vasitəsinin dərəcəsinə uyğun sürücülük vəsiqəsi olmalıdır.

Qanunvericiliklə müəyyən edilmiş yaş həddinə çatan, sağlamlıq baxımından sürücülüyə yararlı olan, yol hərəkəti qaydalarını bilən və sürücülük vəsiqəsi olan şəxslər nəqliyyat vasitələrini idarəetmə hüququna malik ola bilərlər. Bu kimi tələblərə cavab verən hər bir fiziki şəxs nəqliyyat vasitəsini idarə edə bilər.

Elə xəstəliklər vardır ki, onlar şəxsin nəqliyyat vasitəsini idarə etməsinə mane olur. Fiziki qüsurlara malik olan şəxs də, təbii ki, nəqliyyat vasitəsini idarə edə bilməz. Nəqliyyat vasitələrinin idarə olunmasına mane olan xəstəliklərin və ya fiziki qüsurların siyahısı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmişdir.[1]

DYP orqanları həm də **nəqliyyat vasitələrinə texniki nəzarət** istiqamətində fəaliyyət göstərir. Bu istiqamətdə həyata keçirilən fəaliyyətin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində vacib əhəmiyyətə malik olması şəksizdir. Nəzərdən qaçırmaq olmaz ki, nəqliyyat vasitələrinə texniki nəzarət yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində BDYPİ-nin əsas fəaliyyət istiqamətlərindən biridir. Bu istiqamətdə həyata keçirilən fəaliyyət tələb edir: birinci, qüvvədə olan beynəlxalq texniki tələb və göstərişlərə əməl olunmasını; ikinci, yol hərəkəti təhlükəsizliyi normativlərinə və standartlarına uyğunluğu; üçüncü, nəqliyyat vasitələrinin dövlət texniki baxışdan keçirilməsini.

**Beynəlxalq texniki tələb və göstərişlər** müvafiq beynəlxalq müqavilələrdə (konvensiya, saziş və s.) nəzərdə tutulmuşdur. Belə sənədlərə aiddir: «Yol hərəkəti haqqında» Konvensiya, «Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında» Avropa Sazişi, «Tez korlanan qida məhsullarının beynəlxalq daşınması və bu daşımalar üçün istifadə olunan

---

[1] *Sürücülük vəsiqəsinin verilməsi ilə bağlı məsələlər barədə daha ətraflı:* Əliyev E. Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s. 261-282.

xüsusi nəqliyyat vasitələri haqqında» Saziş, «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya istifadə olunan avadanlıq və hissələrə dair qlobal texniki qaydaların müəyyənləşdirilməsi haqqında» Müqavilə və s. (Azərbaycan Respublikası göstərilən sənədlərin iştirakçısıdır).

Nəqliyyat vasitələrinin texniki vəziyyəti, onlara texniki baxışın keçirilməsi, nəqliyyat vasitələrinin saxlanılması, onların texniki vəziyyətinə cavabdehlik və digər məsələlər YHQ ilə tənzimlənir; həmin Qanunun 30-cu, 31-ci və digər maddələri bu kimi məsələlərin tənzimlənməsinə həsr edilmişdir.

Barəsində danışılan məsələlərin hüquqi tənzimlənməsində həm də qanunqüvvəli normativ aktlar vacib rol oynayır. Söhbət, hər şeydən əvvəl, Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunan sənədlərdən (əsasnamə, qayda və s.) gedir. Belə sənədlərə aiddir: «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında» nümunəvi Əsasnamə (Nazirlər Kabinetinin 15.03.1999-cu il tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmişdir), «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması» Qaydaları (Nazirlər Kabinetinin 27.01.2000-ci il tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmişdir), «Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət» Qaydaları (Nazirlər Kabinetinin 30.07.2000-ci il tarixli 110 nömrəli qərarı ilə təsdiq edilmişdir) və s.

BDYPİ-nin **mərkəzi informasiya sistemində** məlumat resurslarının formalaşdırılması və istifadəsi də əsas fəaliyyət istiqamətlərindən biridir. «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15.02.2016-cı il tarixli 795 nömrəli Fərmanının 1.1.5-ci bəndinə əsasən hazırlanmış Əsasnamə sözügedən sistemin hüquqi bazası sayılır.

Sistem mövcud nəqliyyat vasitələri, onların mülkiyyətçiləri və nəqliyyat vasitələrindən istifadə etmək hüququ olan şəxslər, müvafiq inzibati xətalar və bu xətalar üzrə qəbul edilmiş qərarlar, dövlət texniki baxışına təqdim edilmiş nəqliyyat

vasitələri barədə məlumatların toplandığı xüsusi təyinatlı dövlət informasiya resursudur.

Mərkəzi informasiya sisteminin əsas təyinatı yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında iştirak edən dövlət orqanlarını səlahiyyətlərinə aid zəruri informasiya ilə təminatdan, avtomatlaşdırılmış sənədləşmə, yoxlama sorğu və təhlil işlərinin həyata keçirilməsindən, hesabatların təqdim edilməsindən, müvafiq sahədə elektron xidmətlərin göstərilməsindən ibarətdir.

**Yol hərəkəti təhlükəsizliyinin təbliği** BDYPİ-nin əsas fəaliyyət istiqamətlərindən biridir. Bu istiqamətdə həyata keçirilən fəaliyyət yol hərəkəti təhlükəsizliyini təmin edilməsində vacib rol oynayır. Belə fəaliyyətin əsas elementləri bunlardan ibarətdir:

– kütləvi informasiya vasitələrindən istifadə etməklə hərəkət təhlükəsizliyi təbliğ olunur;
– yol hərəkəti haqqında qanunvericiliklə bağlı əhalinin maarifləndirilməsi işi görülür;
– tədris proqramları və vəsaitlər hazırlanır ki, onların köməyi ilə məktəbə-qədər müəssisələrdə, məktəblərdə və tədris müəssisələrində yol hərəkəti qaydaları öyrənilir, habelə yol hərəkəti təhlükəsizliyi təmin edilir;
– yol hərəkəti qaydalarının təbliği və nəqliyyat vasitələri sürücülərinin şəxsi məsuliyyətinin artırılması sahəsində ictimai qurumlarla əlaqələr yaradılır;
– dövri mətbuatda, radio və televiziyada yol hərəkəti təhlükəsizliyi, habelə yol hərəkəti qaydaları təbliğ olunur və s.

Sadalanan bu kimi işlər, təbii ki, təşkil olunmalıdır. Təşkil olunmanı isə Baş DYP İdarəsi həyata keçirir; bu, Baş İdarənin yerinə yetirdiyi əsas funksiyalardan biridir.

DYP-də yol hərəkəti təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə xidməti fəaliyyət göstərir. DYP məhz bu xid-

mət vasitəsilə yol hərəkəti təhlükəsizliyinin təbliği sahəsində müxtəlif tədbirlər həyata keçirir. Bununla bağlı məsələlər «Yol hərəkəti təhlükəsizliyi tədbirlərinin təbliğinə dair Dövlət Yol Polisinin fəaliyyəti haqqında» Təlimatla və digər normativ hüquqi aktlarla tənzimlənir. Sözügedən Təlimat vasitəsi ilə yol hərəkəti təhlükəsizliyi tədbirlərinin təbliği ilə əlaqədar münasibətlərin hüquqi nizamlanması həyata keçirilir.[1]

Beləliklə, BDYPİ orqanları yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində konkret istiqamətlərdə fəaliyyət göstərir. Bu fəaliyyət istiqamətlərinə uyğun olaraq, polis hüququnun institutu olan yol hərəkəti təhlükəsizliyi hüququnun tərkibində ayrı-ayrı struktur elementlər (subinstitutlar) formalaşmışdır. Bu elementlər (subinstitutlar) aşağıdakılardan ibarətdir:

– yol müfəttişliyi və hərəkətin təşkili hüququ;
– yol hərəkətinə inzibati nəzarət hüququ;
– yol-nəqliyyat hadisələrinin uçotu və təhlili hüququ;
– nəqliyyat vasitələrinin dövlət qeydiyyatı və uçotu hüququ;
– nəqliyyat vasitələrini idarəetmə hüququ;
– nəqliyyat vasitələrinə texniki nəzarət hüququ;
– yol hərəkəti təhlükəsizliyinin təbliği hüququ[2] və s.

---

[1] *Bu istiqamətdə həyata keçirilən fəaliyyət istiqaməti barədə daha ətraflı:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.314-324.

[2] *Yol hərəkəti təhlükəsizliyi hüquq institutunun sadalanan subinstitutları barədə daha ətraflı:* Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı, 2010, s.200-314.

# X FƏSİL ÜZRƏ SXEM



# XI FƏSİL. POLİS-İNFORMASİYA HÜQUQU

## 11.1. Polis-informasiya hüququ polis hüququnun institutu kimi

### 11.1.1. Polis-informasiya hüququ anlayışı

Bildiyimiz kimi, polis orqanlarının üzərinə müəyyən vəzifələr düşür. Digər tərəfdən, polis orqanlarının qarşısında müvafiq məqsədlər durur. Bunlardan başqa, polis orqanları ayrı-ayrı məsələləri həll etmək üçün fəaliyyət göstərir. Təbii ki, öz üzərinə düşən vəzifələri yerinə yetirmək, qarşısında duran məqsədlərə çatmaq və ayrı-ayrı məsələləri həll etmək üçün polis orqanları polis fəaliyətini həyata keçirir və bu zaman müxtəlif metodlardan istifadə edir. Polis orqanlarının fəaliyyətində istifadə etdiyi metodları aşağıdakı kimi fərqləndirmək olar: inzibati metod, nəzarət metodu, məcburetmə metodu, inandırma metodu, bilavasitə idarəetmə metodu və s.[1] Polis orqanlarında istifadə edilən metodlardan biri də polis informasiyası toplamaq hesab edilir. Polis informasiyası toplamaq polis fəaliyyətinin vacib metodudur.

Polis orqanlarının iş praktikasında informasiya toplamaq onların həyata keçirdikləri əsas fəaliyyət metodlarından biri hesab edilir. Bu metoddan istifadə olunması sayəsində ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və digər məsələlərin həlli üçün zəruri olan əhəmiyyətli məlumatlar əldə olunur. Fəaliyyət metodu dedikdə isə, adətən, üsul və vasitələr başa düşülür ki, onlardan istifadə etməklə də qarşıya qoyulan məqsədlərə nail olunur, yaranmış məsələlər həll edilir.

---

[1] Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.589.

Polis informasiyası toplamaq kimi fəaliyyət metodundan istifadə olunması zamanı, əlbəttə, müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Həmin münasibətlər hüquqi tənzimlənməyi tələb edən əlaqələrdir. Onların hüquqi tənzimlənməsi isə müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir ki, belə normaların sistemi polis-informasiya hüququ adlanır. Polis-informasiya hüququ polis hüququnun tərkib hissələrindən (struktur elementlərindən) biridir.

**Polis-informasiya hüququ** dedikdə polis hüququnun elə bir struktur elementi başa düşülür ki, bu element polis informasiyası toplamaq kimi fəaliyyətin həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən ayrı-ayrı hüquq normalarından ibarətdir. Məhz həmin normaların sistem və məcmu halında birləşməsi polis-informasiya hüququ sayılır.

Polis-informasiya hüququ polis hüququnun mühüm əhəmiyyətə malik olan və vacib rol oynayan struktur elementlərindən biridir. Onun əhəmiyyəti və rolu bununla müəyyən olunur ki, cinayətkarlıqla effektiv mübarizə aparmaq, əhalinin həyat və sağlamlığını cinayətkar qəsdlərdən qorumaq, vətəndaşların hüquq və azadlıqlarını müdafiə etmək, dövlətin, cəmiyyətin və şəxslərin təhlükəsizliyini (ictimai təhlükəsizliyi) təmin etmək və digər məsələləri həll etmək üçün polis orqanları zəruri polis informasiyasına malik olmalıdır. Polis informasiyasının əldə edilməsi ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi isə polis-informasiya hüququ ilə həyata keçirilir. Belə ki, polis-informasiya hüququ ilə polis informasiyasına dair ictimai münasibətlər nizama salınır; belə informasiya ölkənin konstitusiya quruluşu, ictimai qayda, ictimai təhlükəsizlik, vətəndaşların hüquq və azadlıqları üçün təhlükəli olan şəxslər, faktlar, predmetlər və hadisələr haqqında məlumat verir. Polis-informasiya hüququnun əhəmiyyəti və rolu da məhz bununla şərtlənir. Təsadüfi deyil ki, amerikalılar arasında belə bir idarəçilik aforizmi geniş yayılmışdır: informasiya idarəetmənin «çörəyi»dir. Bu aforizmi polis fəaliyyətinə tətbiq və aid etsək yanılmarıq.

### 11.1.2. Polis-informasiya hüququnun nizamasalma predmeti

Polis-informasiya hüququ ilə **polis informasiyasının toplanılması ilə bağlı yaranan ictimai münasibətlər** tənzimlənir. Məhz həmin münasibətlər polis hüququnun struktur elementlərindən biri olan polis-informasiya hüququnun **nizamasalma predmetini** təşkil edir.

Polis-informasiya hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər polis informasiyasının toplanılması barədə və onunla bağlı olaraq yaranır. Polis informasiyası toplamağın nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, polis fəaliyyətinin həyata keçirilməsi mahiyyətcə informasiya-axtarış prosesidir. Kifayət qədər mürəkkəb xarakterə malik olan bu proses özündə bir neçə mərhələni birləşdirir ki, informasiya toplamaq da həmin prosesin ilkin mərhələsidir; həm də informasiya toplamaq informasiya-axtarış prosesinin mühüm mərhələsi sayılır. Belə ki, bu mərhələdən sonra məntiqlə informasiya-axtarış prosesinin digər mərhələləri gəlir. İnformasiya-axtarış prosesinin digər mərhələləri isə bunlardır: informasiyanın təhlili mərhələsi, informasiyanın işlənməsi mərhələsi, polis fəaliyyətində informasiyadan istifadə edilməsi mərhələsi. Beləliklə, mürəkkəb xarakterli informasiya-axtarış prosesi dörd mərhələdən ibarətdir: 1) informasiyanın toplanılması; 2) informasiyanın təhlil edilməsi; 3) informasiyanın emalı; 4) informasiyadan istifadə. İnformasiya-axtarış prosesinin ibarət olduğu bu mərhələlər içərisində informasiyanın toplanılması başlanğıc və əsas mərhələ hesab edilir.[1] Bu səbəbdən informasiya toplamaq polis orqanlarının effektiv fəaliyyət metodlarından biridir. Təsadüfi deyil ki, informasiya toplamaq bir çox xarici ölkələrdə polis orqanlarının mühüm fəaliyyət metodu kimi tanınır. Məsələn, İngiltərə, ABŞ, Fransa, Rusiya Federasiyası və digər xarici dövlətlərdə informasiya toplamaq

[1] Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.726.

metodundan özlərinin iş praktikasında polis orqanlarının istifadə etmələri geniş xarakter daşıyır.

Polis-informasiya hüququnun hansı «statusla» polis hüququnun tərkibinə daxil olmasına gəldikdə, qeyd etməliyik ki, polis-informasiya hüququ polis hüququnun institutlarından biridir.[1] Belə elmi-nəzəri fikir söyləmək üçün əsaslı dəlillər və tutarlı arqumentlər mövcuddur.

Hər şeydən əvvəl, qeyd edək ki, polis hüququ ilə tənzimlənən ictimai münasibətlər ayrı-ayrı növlərə bölünür. Məsələn, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlər, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində yaranan münasibətlər, polisin cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlər və s. Polis hüququ ilə tənzimlənən ictimai münasibətlərin ayrıca növlərindən biri məhz polis informasiyasının toplanılması ilə əlaqədar yaranır. Həmin münasibətlər isə polis hüququnun ayrıca və müstəqil institutu vasitəsi ilə tənzimlənməyi tələb edir. Söhbət polis hüququnun institutlarından biri olan polis-informasiya hüququndan gedir.

Digər tərəfdən, polis hüququnda institutların ayrılması və formalaşması, qeyd etdiyimiz kimi, polis fəaliyyətinin əsas istiqamətləri ilə şərtlənir və müəyyən edilir. Polisin əsas fəaliyyət istiqamətləri isə PQ-nin 4-cü maddəsinin II hissəsində təsbit edilmişdir. Düzdür, burada informasiya toplamağın polis fəaliyyətinin əsas istiqamətlərindən biri olması konkret olaraq göstərilmir. Lakin, unutmamalıyıq ki, polis hüquq elmində (doktrinada) irəli sürülmüş fikrə görə, polis fəaliyyətinin həyata keçirilməsi mahiyyətcə informasiya-axtarış prosesi deməkdir.[2] İnformasiya toplamaq isə bu prosesin mərhələlərindən biridir və polis fəaliyyətinin əsas istiqamətlərinin həyata keçirilməsinə xidmət eir; həm də nəzərə almaq lazımdır ki, informasiyaya malik olmaq polis fəaliyyətinin həyata keçirilməsi-

---

[1] Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı, 2012, s. 124.

[2] Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.725.

nin məcburi şərtidir. Doğurdan da, informasiya olmadan polis fəaliyyətinin həyata keçirilməsi de-fakto qeyri-mümkündür. Heç də sirr deyil ki, qarşıda duran yaxın dövr üçün cinayətkarlığın proqnozlaşdırılması, işin planlaşdırılması, polis qərarlarının qəbul edilməsi və digər tədbirlərin görülməsi yalnız informasiya mövcud olduqda mümkün ola bilər; həm aparatdaxili işlərdə, həm də vətəndaşlarla əlaqə prosesində informasiyanın mühüm və vacib rol oynaması şübhə doğura bilməz. Məhz bunlara görə söyləyə bilərik ki, polis informasiyası toplamaq polis fəaliyyətinin əsas istiqamətlərindən biridir. Bu cür fəaliyyət istiqamətinə uyğun olaraq, təbii ki, polis hüququnun tərkibində polis-informasiya hüququ kimi institutun ayrılması ağlabatan və inandırıcı olub, obyektiv reallığı əks etdirir.

Nəhayət, polis-informasiya hüququ özünəməxsus nizamasalma predmetinə malikdir. Buraya daxil olan münasibətlər **«polis-informasiya hüquq münasibətləri»** kimi ümumi anlayışla əhatə olunur.[1] Məhz bu münasibətlərin yaranması və mövcud olması sayəsində polis-informasiya hüququ polis hüququnun tərkibində ayrıca institut kimi tanınır.

Polis-informasiya münasibətlərinin həm subyekti, həm də obyekti vardır. Həmin münasibətlərin **subyekti** rolunda tərəflər çıxış edir. Tərəflər dedikdə polis orqanları və vətəndaşlar başa düşülür. Axı, istənilən ictimai münasibət, o cümlədən polis-informasiya münasibəti, bir qayda olaraq, iki tərəf arasında yaranır. Polis orqanları informasiyadan istifadə edən şəxsdir; informasiyadan istifadə edənlər istehlakçılar adlanır. Vətəndaşlar isə polisi zəruri informasiya ilə təmin edən və ona lazımi məlumat verən şəxslərdir.

Polis-informasiya münasibətinin **obyekti** informasiyadır. Söhbət istənilən informasiyadan getmir. Belə ki, polis-informasiya münasibətinin obyekti qismində yalnız polis informasiyası çıxış edə bilər. Polis informasiyası informasiyanın spesifik növüdür. Bu növ informasiya polis fəaliyyətinin həyata ke-

[1] *İnformasiya-hüquq münasibətləri barədə ətraflı bax:* Рассолов И.М. Информационное право. Учебник. М., 2012, с.113-123.

çirilməsinin məcburi şərti olduğuna görə dövlət ona yüksək diqqət yetirir. Bəs, polis informasiyası dedikdə nə başa düşülür?

Bundan ötrü, yəni polis informasiyasına anlayış verməyiniz üçün ilk növbədə, informasiyanın mahiyyətinə aydınlıq gətirək. Onun anlayışı «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanununda (2005-ci il) verilmişdir. Həmin Qanunun 3-cü maddəsinə görə, **informasiya** istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və digər məlumatlardır. Əgər məlumatlar polis fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olarsa, belə məlumat polis informasiyası adlanır.

**Polis informasiyası** dedikdə şəxslər, predmetlər, faktlar və hadisələr haqqında elə məlumatlar başa düşülür ki, bu məlumatlar ölkənin konstitusiya quruluşu, vətəndaşların mülkiyyəti, şəxslərin hüquq və azadlıqları, ictimai qayda və təhlükəsizliyin təmin olunması və s. barədə təhlükədən xəbər verir. Məhz həmin məlumatlar əsasında polis öz fəaliyyətini həyata keçirir, üzərinə düşən vəzifələri yerinə yetirir, qarşısında duran məqsədlərə nail olur, ortaya çıxan məsələləri həll edir (məsələn, ictimai qaydanı qoruyur, ictimai təhlükəsizliyi təmin edir, cinayətlərin və digər hüquq pozuntularının qarşısını alır, ictimai təhlükəli əməl törədən şəxsləri müəyyənləşdirir, cinayətlərin üstünü açır və s.). Şübhəsiz, belə məlumatlar olmadan polis öz fəaliyyətini həyata keçirə bilməz. Odur ki, polis informasiyasının əhəmiyyəti daha böyükdür.

## 11.2. Polis-informasiya hüququnun prinsipləri, mənbələri və subyektləri

### 11.2.1. Polis-informasiya hüququnun prinsipləri

Polis hüququnun hər bir institutu kimi polis-informasiya hüququ da özünəməxsus prinsiplərə əsaslanır. Həmin prinsiplər polis-informasiya hüququ ilə tənzimetmənin əsası kimi ta-

nınır; onların vasitəsi ilə polis-informasiya hüququ institut kimi öz funksiyalarını yerinə yetirir, oynadığı rolu nümayiş etdirir.

**Polis informasiyası toplamağın qanuniliyi prinsipi** polis-informasiya hüququnun özünəməxsus prinsiplərindən biridir. Bu prinsip öz ifadəsini bunda tapır ki, polis informasiyası toplamaq metodu qanuni üsullarla tətbiq olunur. Bu zaman, hər şeydən əvvəl, açıq üsuldan istifadə olunur. Məsələn, polis sahə müvəkkillərinin hesabatları açıq üsulla polis informasiyası toplamağa misal ola bilər.

Bununla yanaşı, polis informasiyası toplamaq üçün həm də gizli üsuldan istifadə olunur. Məsələn, telefon danışıqlarına qulaqasma, şübhəli şəxsin hərəkətlərini gizli müşahidə etmə (izləmə, güdmə) və s. bu üsula misal ola bilər.

Sözügedən prinsip yalnız qanuni üsullarla polis informasiyasının toplanılmasını nəzərdə tutur. Həmin prinsipə görə, qanunsuz üsullarla polis informasiyasının toplanılmasına yol verilmir.

Polis-informasiya hüququ həm də belə bir özünəməxsus prinsipdən çıxış edir ki, polis informasiyası vahiddir. Söhbət **polis informasiyasının vahidliyi prinsipindən** gedir. Bu prinsipə görə, müxtəlif növləri olmasına baxmayaraq (məsələn, hazırlanan cinayət barədə informasiya, törədilmiş cinayət barədə məlumat, normativ informasiya, statistik informasiya və s.), polis informasiyası vahiddir. Polis informasiyasının vahidliyi isə bütün iyerarxiya səviyyələrində polis fəaliyyəti prosesini təmin edir. Vahid polis informasiyası həm də polis fəaliyyəti metodlarının bütün detallarından istifadə olunmasına imkan verir.

**Polis informasiyasının etibarlılığı prinsipi** də polis informasiya hüququnun özünəməxsus prinsipləri sırasına aiddir. Bu prinsip öz ifadəsini bunda tapır ki, polis informasiyası doğru, həqiqi, gerçək, dürüst və səhih olur. Söhbət dəqiq və obyektiv məlumatdan gedir.

Etibarlılıq polis informasiyasını xarakterizə edən xüsusiyyətlərdən biridir. Bu xüsusiyyət polis orqanına mövcud şəraitə

(vəziyyətə) uyğun qərar qəbul etmək imkanı verir. Məhz etibarlı informasiya əsasında polis qərarları qəbul olunur ki, həmin qərarlar ictimai qaydanın qorunmasına, ictimai, dövlət, iqtisadi və digər növ təhlükəsizliyin təmin olunmasına yönəlir.

Polis-informasiya hüququ həmçinin belə bir özünəməxsus prinsipdən çıxış edir ki, polis informasiyası müxtəlif mənbələrdən əldə olunur; bu, **polis informasiyası əldə etməyin müxtəlifliyi prinsipi** adlanır. Belə mənbələrə küçələrdə və digər ictimai yerlərdə işləyən polis əməkdaşlarının (polis sahə müvəkkillərinin, post-patrul xidməti əməkdaşlarının və s.) hesabatları, vətəndaşların polis orqanlarına ünvanladığı məktub, ərizə və şikayətlər, qəzet və jurnallar, məhkəmə iclasının materialları, deputatların çıxışları, bank və sığorta təşkilatlarının dövri mətbuatda nəşr olunan sənədləri və s. aiddir.

Polis informasiyasının mənbələrinə həm də vizual müşahidələr aiddir ki, onun barəsində ayrıca danışmaq lazımdır. Vizual müşahidəni polisin post-patrul xidməti əməkdaşları, polis sahə müvəkkilləri həyata keçirirlər. Polis informasiyası müəyyən hallarda vizual əldə olunur. Müşahidə yolu və vətəndaşlarla söhbət etməklə alınmış məlumatlar vizual üsulla əldə olunmuş informasiya hesab edilir.

**Polis informasiyasının əldə olunmasında vətəndaşların iştirakı prinsipi** polis-informasiya hüququnun özünəməxsus prinsipləri sırasına daxildir. Bu prinsipə görə, polis orqanlarının informasiya ilə təmin olunmasında əhali və ictimaiyyət iştirak etməlidir. Bəzən vətəndaşlardan alınan və əldə edilən məlumatların polis fəaliyyətinin həyata keçirilməsində mühüm əhəmiyyəti olur. Təkcə bunu demək kifayətdir ki, müəyyən hallarda vətəndaşların verdikləri məlumat əsasında cinayətin üstünü açmaq və cinayəti törədən şəxsi müəyyən etmək mümkün olur. Unutmaq olmaz ki, polis fəaliyyətinin informasiya təminatında əhali, ictimaiyyət və vətəndaşlar heç də az rol oynamır.[1] Əgər onlar polis fəaliyyətinin informasiya təminatında

---

[1] *Bu barədə daha ətraflı:* Чернявский В.С. Участие населения в информационном обеспечении деятельности милиции. М., 1983, с. 118-119.

fəal iştirak edərsə, təbii ki, polis orqanları tərəfindən bu və ya digər məsələ lazımınca həll edilə bilər.

### 11.2.2. Polis-informasiya hüququnun mənbələri

Polis-informasiya hüququnun ibarət olduğu hüquq normalarının ifadələnmə və mövcudolma formalarına **polis-informasiya hüququnun mənbələri** deyilir. **Normativ hüquqi aktlar** polis hüququnun vacib mənbə növü hesab olunur ki, qanunlar onların arasında xüsusi yer tutur. Söhbət, ilk növbədə, **Azərbaycan Respublikasının Konstitusiyasından** (1995-ci il) gedir. Konstitusiyada elə normalar nəzərdə tutulmuşdur ki, bu normalar polis-informasiya hüququ üçün əhəmiyyətlidir; onun 50-ci maddəsi məlumat azadlığı hüququnu təsbit edir. Burada göstərilir ki, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Bu kimi göstəriş həm də polis orqanlarına imkan verir ki, onlar qanuni yolla məlumat axtarsınlar və əldə etsinlər.

Konstitusiya bütün hüquq institutlarının, o cümlədən polis-informasiya hüququnun normativ bazasıdır. Polis-informasiya hüququnun ibarət olduğu bütün hüquq normalarının əsasını məhz Konstitusiya təşkil edir. Polis-informasiya hüququnun mənbəyi kimi Konstitusiyanın polu və əhəmiyyəti də bununla müəyyən olunur.

**«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanunu** (2005-ci il) polis-informasiya hüququnun mənbəyi kimi mühüm əhəmiyyətə malikdir. İnformasiya hüququnun[1] əsas mənbəyi olan bu Qanun polis informasiyası ilə bağlı məsələlərin hüquqi tənzimlənməsində vacib rol oynayır; həmin Qanunda əsas anlayışların mahiyyətinə aydınlıq gətirilir ki, bunun polis-informasiya hüququ üçün mühüm əhəmiyyəti vardır.

---

[1] Hüquq ədəbiyyatında informasiya hüququ kompleks hüquq sahəsi hesab olunur *(bax:* Рассолов И.М. Информационное право. Учебник. М., 2012, с.68).

Polis-informasiya hüququ polis hüququnun institutlarından biridir. Polis hüququnun mənbəyinə isə, hər şeydən əvvəl, **PQ** aiddir. Deməli, bu Qanun həm də eyni zamanda polis-informasiya hüququnun mənbəyi sayılır. Həmin Qanunda elə hüquq normalarına rast gəlinir ki, bu normalar polis informasiyası ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsində vacib rol oynayır. Məsələn, PQ-nin 10-cu maddəsinin V hissəsində belə bir hüquq norması nəzərdə tutulmuşdur ki, könüllü ictimai fəaliyyət müxtəlif istiqamətlərdə həyata keçirilir: bu istiqamətlərdən biri polis orqanlarına zəruri məlumatların verilməsi hesab edilir ki, bu, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və araşdırılmasını təmin etmək məqsədi güdür (bənd 3). Həmin normada polis fəaliyyətinin informasiya təminatında ictimaiyyətin iştirakı prinsipi formulə edilmişdir.

Polis-informasiya hüququnun mənbəyi olan qanunlar sırasına **ƏFQ** də daxildir. Məsələ burasındadır ki, polis orqanı cinayət-axtarış fəaliyyəti subyektlərindən biridir.[1] Belə ki, polis cinayət-axtarış tədbirləri həyata keçirmək səlahiyyətinə malikdir və həmin tədbirlərin (məsələn, telefon danışıqlarına qulaqasma, insanların güdülməsi, müşahidə və s.) həyata keçirilməsi nəticəsində zəruri məlumatlar əldə edilir. Bu cür məlumatlar, təbii ki, polis fəaliyyətinin həyata keçirilməsi üçün vacib əhəmiyyətə malikdir. Nəzərdən qaçırmaq olmaz ki, axtarış-kəşfiyyat xarakteri daşıyan cinayət-axtarış tədbirləri zəruri məlumatların (məsələn, cinayət törətmək niyyəti olan və ya cinayəti törədən və ya cinayəti törətmiş şəxs və s. barədə informasiyaların) alınmasına yönəlmişdir.[2] Məlumatların olması isə polis fəaliyyətini həyata keçirməyin mühüm və zəruri şərtlərindən biridir. Zəruri məlumatlar cinayət-axtarış tədbirlə-

---

[1] Qəfərov M.S., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı, 2012, s.236.

[2] *Ətraflı bax:* Əməliyyat-axtarış fəaliyyətinin əsasları (I kitab). Dərs vəsaiti / Elmi redaktor: K.Səlimov. Bakı, 2008, 428 s.

rinin həyata keçirilməsi nəticəsində alınır; cinayət-axtarış tədbirləri isə ƏFQ-də nəzərdə tutulmuşdur.

Polis orqanları polis informasiyasının toplanılması metodunu qanunvericilik əsasında tətbiq edir. Həmin metodun tətbiqi ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik aktlarına **«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu** (2004-cü il) da daxildir. Bu Qanun polis-informasiya hüququnun mənbəyidir. Hər şeydən əvvəl, qeyd etməliyik ki, həmin Qanuna görə, polis öz fəaliyyətində dövlət sirri təşkil edən məlumatlardan istifadə edə bilməz.

**«Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının Qanunu** (2010-cu il) da polis-informasiya hüququnun mənbəyi kimi çıxış edir. Bu Qanun fərdi məlumatlarla bağlı məsələlərin tənzimlənməsinə həsr olunmuşdur. Fərdi məlumatlar bəzən polis fəaliyyətinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Polis-informasiya hüququnun mənbəyi həm də **qanunqüvvəli aktlardır**. Söhbət, hər şeydən əvvəl, Prezident tərəfindən qəbul edilən sərəncam və fərmanlarından gedir. Əgər **Prezident sərəncam və fərmanları** polis fəaliyyəti sahəsində informasiya ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsinə aid olarsa, belə aktlar polis-informasiya hüququnun mənbəyi hesab edilir. Nəzərə almalıyıq ki, normativ xarakterə malik olan Prezident fərmanları ayrı-ayrı məsələlərin, o cümlədən informasiya ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsində vacib rol oynayır. Məsələn, Prezidentin 30 iyun 2004-cü il tarixli 291 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair» Dövlət Proqramının (2004–2008-ci illər) 1.6-cı bəndinə müvafiq olaraq Vahid Məlumat-Axtarış Sistemi (Məlumat Portalı) yaradılmışdır; həmçinin Azərbaycan Respublikası Prezidentinin 22.04.2008-ci il tarixli Fərmanı ilə «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında» Əsasnamə, 02.10.2015-ci il tarixli digər Fərmanı ilə «Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirləri-

nin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar» təsdiq edilmişdir və s.

Nazirlər Kabinetinin qərarları da qanunqüvvəli aktlar sırasına aiddir. Məsələn, «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Prezidentin 2005-ci il 9 dekabr tarixli Fərmanının icrasını təmin etmək məqsədi ilə özünün 07.02.2006-cı il tarixli 38 nömrəli qərarı ilə bu sənədləri təsdiq etmişdir: 1) Sənədlərin saxlanılmasına, komplektləşdirilməsinə və mühafizəsinə dair Qaydalar; 2) Sənədlərinin reyestrinin yaradılması, saxlanılması və vaxtaşırı yeniləşdirilməsi Qaydaları; 3) Sənədlərin reyestrindən istifadəyə dair Qaydalar. Həmçinin «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları»nın və «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi»nin təsiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.01.2012-ci il tarixli 5 nömrəli qərarı polis-informasiya hüququnun mənbəyi sayılır və s.

Polis-informasiya hüququnun mənbə növlərinə həm də **DİN-in normativ xarakterli aktları** daxildir. Məsələn, DİN-in 29.04.2010-cu il tarixli 253 nömrəli əmri ilə «DİN-in Vahid Məlumat-Axtarış Sisteminin yaradılması ilə əlaqədar təşkilati tədbirlərə dair» müvafiq Təlimatlar təsdiq edilmişdir və onlar polis orqanlarında Vahid Məlumat-Axtarış Sistemindən istifadə qaydalarını müəyyənləşdirir. Sözügedən Sistem özündə cinayətkarlıqla mübarizə, asayişin mühafizəsi, yol hərəkəti təhlükəsizliyi sahəsində zəruri məlumatları cəmləşdirir; bu Sistemə həm də şəxsiyyəti təsdiq edən sənədlər, axtarışda olan cinayətkarlar, avtonəqliyyat vasitələri, odlu silahlar və s. haqqında informasiyalar daxildir. Vahid Məlumat-Axtarış Sistemi həm də **Məlumat Portalı** adlanır.

Bundan başqa, DİN-in aşağıdakı digər aktları da polis-informasiya hüququ üçün əhəmiyyətlidir: «Azərbaycan Res-

publikası Daxili İşlər Nazirliyi sistemində arxiv işinin təşkili haqqında» Təlimat (DİN-in 19.06.2002-ci il tarixli 235 nömrəli əmri ilə təsdiq edilmişdir); «Cinayət törətmiş, məhkum olunmuş şəxslərin mərkəzləşdirilmiş fərdi uçotu üzrə əməliyyat-sorğu kartotekalarının aparılması və onlara dair məlumatların verilməsi qaydaları barədə» Təlimat (DİN-in 25.11.2002-ci il tarixli 439 nömrəli əmri ilə təsdiq edilmişdir); «Azərbaycan Respublikasında cinayətlərin vahid uçotunun aparılması qaydaları haqqında» Təlimat (DİN-in 16.12.2005-ci il tarixli 575 nömrəli əmri ilə təsdiq edilmişdir); «Axtarışda olanların, naməlum meyitlərin, səhhətinə və ya yaşına görə özləri haqqında məlumat verə bilməyən şəxslərin vahid uçotunun təşkili və aparılması qaydaları barədə» Təlimat (DİN-in 04.10.2012-ci il tarixli kollegiya qərarı ilə təsdiq edilmişdir); «Törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında» Təlimat (DİN-in 03.11.2011-ci il tarixli qərarı ilə təsdiq edilmişdir); «Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları barədə» Təlimat (DİN-in 04.10.2012-ci il tarixli kollegiya qərarı ilə təsdiq edilmişdir); «Cinayət və hadisələr barədə əməliyyat məlumatlarının hazırlanması və təsdiq edilməsi qaydalarına dair» Təlimat (DİN-in 08.01.2015-ci il tarixli qərarı ilə təsdiq edilmişdir); «Azərbaycan RespublikAsının daxili işlər orqanlarında veb saytların işinin təşkili qaydalarına dair» Təlimat (DİN-in 30.12.2008-ci il tarixli əmri ilə təsdiq edilmişdir); «DİN-in Təhlükəsiz Şəhər və «102» xidmətlərinin əsasnamələri» (DİN-in 05.10.2009-cu il tarixli 571 nömrəli əmri ilə təsdiq edilmişdir) və s.

**Beynəlxalq müqavilələr** də polis-informasiya hüququnun mənbəyi hesab edilir. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir. Məsələn, «Cinayətkarlıqla mübarizə sahəsində məlumat mübadiləsi haqqında» Saziş (Astana, 2009-cu il), Azərbaycan Respublikası 07.03.2012-ci il tarixli 309-IVQ nömrəli Qanunla qoşulmuş və DİN-in 17.04.2012-ci il tarixli Ə234-001-12 nömrəli əmri ilə elan olunmuşdur); «Azərbaycan Respublikasının Daxili İşlər

Nazirliyi və Gürcüstanın Daxili İşlər Nazirliyi arasında əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi və cinayətkarlıqla bağlı informasiya mübadiləsi sahəsində əməkdaşlıq haqqında» Saziş (Batumi, 2011-ci il, Azərbaycan Respublikası Prezidentinin 22.12.2011-ci il tarixli 562 nömrəli Fərmanı ilə təsdiq edilmiş və DİN-in 28.12.2011-ci il tarixli 807 nömrəli əmri ilə elan olunmuşdur) və s.

### 11.2.3. Polis-informasiya hüququnun subyektləri

İnformasiyanın olması polis fəaliyyətini həyata keçirməyin məcburi şərtidir. Digər tərəfdən, polis fəaliyyətini həyata keçirmək məntiq etibarı ilə informasiya prosesi deməkdir. Odur ki, polis fəaliyyətini həyata keçirən şəxs, yəni polis orqanı polis-informasiya hüququnun əsas və başlıca subyekti hesab edilir.

Polis-informasiya hüququnun **subyektləri** dedikdə elə şəxslər başa düşülür ki, həmin şəxslər polis-informasiya qanunvericiliyinə uyğun informasiya hüquqlarına malik olur, bu hüquqlara müvafiq informasiya vəzifələri daşıyırlar. Belə subyektlər polis-informasiya hüququ ilə tənzimlənən ictimai münasibətlərin mümkün potensial iştirakçılarıdır. Başqa sözlə, polis-informasiya hüququnun subyektləri polis-informasiya münasibətlərində iştirak edə bilən şəxslərdir; tərəflərin hərəkətləri həmin münasibətlərin obyektidir. İnformasiyanın özü (daha doğrusu – polis-informasiyası) isə polis-informasiya münasibətlərinin predmeti sayılır.

Polis-informasiya münasibətlərinin tərəfləri dedikdə, ilk növbədə, polis orqanı başa düşülür. Polis orqanı informasiya prosesində iştirak edən şəxsdir. Bu prosesdə iştirak etmək isə üç hüquqi imkanı nəzərdə tutur: 1) polis informasiyası toplamaq; 2) polis informasiyasını işləmək (emal etmək); 3) polis informasiyasından istifadə etmək. Deməli, polis-informasiya hüququnun subyekti kimi polis orqanı həm polis-informasi-

yası toplaya, həm polis informasiyasını işləyə, həm də polis informasiyasından istifadə edə bilər.

Polis-informasiya münasibətlərində iştirak edən ikinci tərəf vətəndaşlardır. Həmin münasibətlər məhz polis orqanları ilə vətəndaşlar arasında əmələ gəlir; onlar, yəni polis orqanları və vətəndaşlar polis-informasiya münasibətlərinin tərəfləridir. Vətəndaşlar polis orqanına zəruri məlumat verən şəxslərdir (məsələn, məlumatverən, xəbərçi və s.). Deməli, vətəndaşlar polis-informasiya münasibətlərində iştirak etmək qabiliyyəti olan şəxslərdir. Buna görə də onlar polis-informasiya hüququnun subyekti sayılır.[1]

## 11.3. Polis-informasiya toplama metodunun anlayışı, xüsusiyyətləri və növləri

### 11.3.1. Polis-informasiya toplama metodunun anlayışı

Qeyd etmək lazımdır ki, XXI əsrin başlanğıcı bütün dünyada cinayətkarlığın kəskin surətdə artması ilə müşayiət edilir; xüsusən də mütəşəkkil və terrorçuluq fəaliyyəti ilə bağlı olan cinayətkarlıq artmışdır. Belə vəziyyət isə, təbii ki, polis informasiyasının əhəmiyyətinin və rolunun xeyli dərəcədə yüksəlməsini şərtləndirir. Hal-hazırda istənilən növ cinayətlə, xüsusilə də mütəşəkkil cinayətkarlıqla və terror aktları ilə mübarizə aparılması effektli strategiya və perspektiv plan işlənib hazırlanmasını tələb edir. Bu isə yalnız etibarlı, doğru və həqiqətəuyğun polis informasiyası əsasında həyata keçirilə bilər. Bir sözlə, müasir şəraitdə cinayətkarlıqla mübarizə işində polis informasiyası mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, nəinki cinayətkarlıqla mübarizədə, həmçinin polis fəaliyyətinin həyata keçirilməsində polis informasiyasının rolu böyükdür. Kifayətedici, aktual və dəqiq polis informasiyası polis orqanla-

---

[1] *İnformasiya hüququnun subyektləri barədə ətraflı bax:* Рассолов И.М. Информационное право. Учебник. М., 2012, с.123.

rının öz funksiyasını lazımınca yerinə yetirilmələrini təmin edir. Belə məlumatlar əsasında hazırlanmış hesabatlar isə polis orqanlarına imkan verir ki, onlar daha mürəkkəb məsələləri həll etsinlər. Odur ki, polis orqanları polis informasiyasının toplanılmasına xüsusi diqqət yetirir və prioritet əhəmiyyət verir.

Polis informasiyası toplamaq polis orqanlarının öz qarşısında duran məqsədlərə nail olmaq, üzərinə düşən vəzifələri yerinə yetirmək və vacib məsələləri həll etmək üçün istifadə etdikləri xüsusi metoddur. Metod dedikdə üsul başa düşülür ki, onun vasitəsilə qarşıya qoyulmuş məqsədə nail olmaq, ortaya çıxan məsələləri həll etmək mümkün olur. Təsadüfi deyil ki, metod latınca «methodus» sözündən olub, «üsul» deməkdir. Buna görə də, lüğətlərdə «metod» və «üsul» sinonim (eynimənalı) anlayışlar kimi nəzərdən keçirilir. Nəzərə almalıyıq ki, praktiki baxımdan, metod hərəkət etmək və ya fəaliyyət göstərmək üsuludur. Deməli, polis-informasiya toplama metodu polis informasiyası toplamaq üsuludur. Odur ki, «polis-informasiya toplama metodu» və «polis-informasiya toplama üsulu» mənaca üst-üstə düşən anlayışlardır. Bəs, polis-informasiya toplama metodu dedikdə nə başa düşülür?

Polis informasiyası müxtəlif mənbələrdən alınır. Söhbət polis informasiyasının mənbələrindən gedir. Polis informasiyasının mənbələri isə aşkar olunmalı və müəyyən edilməlidir. Bunun üçün təşkilati-hüquqi üsullardan istifadə olunur. Məhz belə üsulların məcmusuna polis-informasiya toplama metodu deyilir. Bu metodun tətbiqi cinayətkarlıqla mübarizə aparmaqdan, əhalinin həyat və sağlamlığını qorumaqdan, vətəndaşların hüquq və azadlıqlarını müdafiə etməkdən, şəxslərin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etməkdən ötrüdür.

**Polis-informasiya toplama metodu** dedikdə elə təşkilati-hüquqi üsulların məcmusu başa düşülür ki, bu üsullardan istifadə etməklə cinayətkarlıqla mübarizə aparmaq, əhalinin həyat və sağlamlığını qorumaq, vətəndaşların hüquq və azadlıq-

larını müdafiə etmək, şəxslərin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etmək üçün polis informasiyasının mənbələri aşkar və müəyyən edilir. Bu metodun tətbiqi ayrı-ayrı yerlərlə bağlı ola bilər. Başqa sözlə, polis informasiyasının müxtəlif yerlərdə toplanması mümkündür. Polis informasiyasının toplanması xüsusilə kriminal elementlərin yığışdığı yerlərdə (məsələn, vağzal, restoran, kazino və s.) həyata keçirilir.

### 11.3.2. Polis-informasiya toplama metodunun növləri

Polis-informasiya toplama metodunun növləri dedikdə həmin metodun tətbiqolunma üsulları başa düşülür. Başqa sözlə, polis-informasiya toplama metodu hansı üsullar əsasında tətbiq olunarsa, həmin üsullar polis-informasiya toplama **metodunun növləri** hesab edilir. Bu metodun tətbiq edilməsi isə iki əsas üsuldan istifadə olunması ilə bağlıdır:[1] 1) açıq (aşkar) üsul; 2) gizli (qeyri-aşkar) üsul. Məhz həmin üsullar əsasında polis-informasiya toplama metodu tətbiq olunur; onlar polis informasiyasının əldə edilməsinin vasitələridir, yollarıdır.

Əgər polis orqanı polis informasiyası əldə etməyin qeyri-gizli (qeyri-məxfi) mənbələrindən (kanallarından) istifadə edərsə, bu, **açıq üsul** adlanır. Bu üsul gizli olmadan, yəni açıq polis-informasiya mənbələrindən məlumat əldə olunmasını və alınmasını nəzərdə tutur. Məsələn, polis sahə müvəkkilinin hazırladığı hesabat açıq polis-informasiya mənbəyi sayılır. Bu mənbədən məlumat alınması isə açıq üsuldan istifadə edilməsi deməkdir.

Açıq polis-informasiya mənbələri kifayət qədər müxtəlifdir. Belə mənbələrə, hər şeydən əvvəl, ictimai yerlərdə işləyən və fəaliyyət göstərən **polis əməkdaşlarının hazırladığı sənədlər** aiddir. Sənədlər dedikdə hesabat, məruzə və xəbərlər başa düşülür. Bu kimi sənədlərdə polis fəaliyyətinin həyata keçirilməsi üçün lazım olan zəruri məlumatlar öz əksini tapır. İctimai yer-

---

[1] Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.732.

lərdə (küçə, yol, park və s.) işləyən polis əməkdaşlarına, ilk növbədə, polis sahə müvəkkilləri, post və yol-patrul xidməti inspektorları, DYP müfəttişləri və s. aiddir; onlar arasında cinayət-axtarış əməkdaşlarının fəaliyyəti də əhəmiyyətlidir. Polis əməkdaşları müşahidə etmək və vətəndaşlarla söhbət aparmaq yolu ilə zəruri məlumatlar əldə edirlər; əgər yol-nəqliyyat cinayətləri və hadisələri törədilərsə, şahidlər və zərərçəkmiş şəxslərlə müvafiq söhbətlər edilməlidir.

Yol-patrul xidməti inspektorunun fəaliyyəti haqqında ayrıca danışmaq lazımdır. «Yol-patrul xidməti haqqında» Təlimatda (2012-ci il) göstərilir ki, yol-nəqliyyat hadisələri zamanı yol-patrul xidməti inspektoru ona məlum olan yol-nəqliyyat hadisəsi barədə nizami hissənin və ya daxili işlər orqanının növbətçi hissəsinə məlumat verməlidir. Yol-patrul xidməti inspektoru yol-nəqliyyat hadisəsinə dair məlumatı bilavasitə hərəkət iştirakçısından da ala bilər; bu zaman o, hərəkət iştirakçısını diqqətlə dinləməli və zəruri məlumatları (hadisə yeri və vaxtı, xəsarət alanlar və s. haqqında məlumatları) toplamalıdır (Təlimatın 8.1-ci və 8.2-ci bəndləri).

Polis sahə müvəkkilləri xidmət apardıqları inzibati ərazilərə və məhəllələrə (bina, yaşayış yerləri, mənzil və s.) baş çəkərkən vətəndaşlarla söhbətlər edirlər. Bu zaman polis sahə müvəkkilləri vətəndaşlardan onlara lazım olan informasiyanı alırlar. Polis sahə müvəkkilləri zəruri məlumatları vətəndaşları gizli müşahidə etmək prosesində də əldə edə bilərlər.

**Vətəndaşların müraciətləri** də açıq polis-informasiya mənbəyidir. Söhbət vətəndaşların polis orqanlarına ünvanladıqları müraciətlərdən gedir. Vətəndaşlar tərəfindən polis orqanlarına, hər şeydən əvvəl, məktub və şikayət formasında müraciət olunur. Vətəndaşların polis orqanlarına göndərdikləri məktub və şikayətlərdə isə polis fəaliyyətinin həyata keçirilməsi üçün lazım olan zəruri informasiyalar öz əksini tapır.

Vətəndaşların polis orqanlarına etdikləri müraciət həm də ərizə formasında ola bilər; onlar tərəfindən polis orqanlarına göndərilən ərizələr, adətən, yazılı formada olur. Ərizə həm də şifahi formada ola bilər. Məsələn, polis sahə müvəkkilləri və-

təndaşların ev və mənzillərində olarkən onlardan şifahi formada ərizələr qəbul edirlər. Bu zaman polis sahə müvəkkilləri vətəndaşları diqqətlə dinləməli və onların dediklərini qeydə almalıdırlar.

Polis orqanına göndərdiyi yazılı ərizəni vətəndaş, bir qayda olaraq, imzalayır. Belə hallarda ərizə verən vətəndaşın şəxsiyyəti məlum olur; bəzən də ərizə anonim olur. Anonim ərizələrdə onun hansı şəxs tərəfindən göndərilməsi göstərilmir.[1] Lakin belə ərizələr çox vaxt zəruri polis informasiyası əldə etməyin vacib mənbəyi olur. Əgər ərizə verənin şəxsiyyəti polis orqanına məlum olmazsa, belə ərizələrdə ifadə edilən məlumatların etibarlı və doğru olması yoxlanılmalıdır.[2] Unutmaq olmaz ki, anonim ərizələr (məktublar) vasitəsilə verilən məlumatlar müəyyən hallarda ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlıqla mübarizə aparılması, vətəndaşların hüquq və azadlıqlarının müdafiə edilməsi, cinayətlərin üstünün açılması, ictimai təhlükəli əməl törədən şəxsin müəyyən edilməsi və digər məsələlərin həlli üçün vacib əhəmiyyətə malik olur.

Açıq polis-informasiya mənbə növlərindən biri vaxtaşırı nəşr olunan **kütləvi informasiya vasitələridir**. Söhbət qəzet və jurnallardan gedir ki, onlarda ifadə olunan məlumatlar açıq polis-informasiya mənbələrinə aid edilir; dövri mətbuatdakı məlumatlar vacib informasiya mənbəyidir.

**İcazə-qeydiyyat işləri** də açıq polis-informasiya mənbələrindən biri hesab olunur. PQ-nin 3-cü maddəsinin II hissəsinə görə, icazə-qeydiyyat işlərinin aparılması polisin üzərinə düşən əsas vəzifələr sırasına aid edilir (bənd 14). Belə ki, polis bir neçə əsas vəzifə daşıyır: icazə-qeydiyyat işləri aparmaq polisə hə-

---

[1] Vətəndaşların müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi barədə bax: «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının 30.09.2015-ci il tarixli 1308-IVQ nömrəli Qanunu (DİN-in 26.11.2015-ci il tarixli Ə978-001-15 nömrəli əmri ilə elan edilmişdir).

[2] *Ətraflı bax:* Чернявский В.С. Участие населения в информационном обеспечении деятельности милиции. М., 1983, с.113-119.

valə olunmuş əsas vəzifələrdən biridir. Bu işlərə, ilk növbədə, vətəndaşların qeydiyyata alınmaları aiddir; onlar həm yaşayış, həm də olduqları yer üzrə qeydiyyata alınırlar. Qeydiyyata alınmanı şəhər və rayon polis orqanlarının müvafiq hissələri (pasport-qeydiyyat qurumları) həyata keçirirlər. «Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında» Əsasnamənin 3.1-ci bəndində polis orqanının vəzifələri sadalanır ki, vətəndaşların yaşayış və olduğu yer üzrə qeydiyyatını təmin etmək belə vəzifələrdən biridir.

Vətəndaşların yaşayış və olduğu yer üzrə qeydiyyata alınmaları vacib polis-informasiya mənbələri sayılır. Belə mənbə istintaq və məhkəmə orqanlarından gizlənən, hərbi xidmətdən və cəza çəkməkdən boyun qaçıran, aliment ödəməkdən yayınan şəxslərin axtarılması və müəyyən edilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Polis-informasiya mənbəyi kimi tanınan qeydiyyat işləri əsasında həm də öz qohumları ilə əlaqəsi kəsilən vətəndaşlar və itkin düşən şəxslər axtarılır, onların ailə münasibətləri bərpa olunur. Verilmiş səlahiyyətlər daxilində polis orqanı tərəfindən vətəndaşlara şəxsiyyət vəsiqələrinin, nəqliyyat vasitələrini idarəetmə hüququna dair sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi də vacib polis-informasiya mənbəyidir. Həmçinin açıq polis informasiya mənbələrinə bunlar da aiddir: 1) deputatların Milli Məclisdə çıxışları; 2) dövri mətbuatda banklara və sığorta təşkilatlarına aid nəşr olunan sənədlər; 3) vətəndaşların məktubları və s.

Polis-informasiya toplama metodunun tətbiq olunduğu ikinci üsul gizli üsuldur. Əgər polis orqanı polis informasiyası əldə etməyin məxfi mənbələrindən (kanallarından) istifadə edərsə, bu, **gizli üsul** adlanır. Bu üsul zamanı gizli polis-informasiya mənbələrindən istifadə olunur.

Gizli üsul bir neçə cəhətlə xarakterizə edilir. Gizli üsulun birinci cəhəti bundan ibarətdir ki, həmin üsulla polis informasiyası əldə olunması xeyli vaxt tələb edir; söhbət davamlı müddətdən gedir. Məsələn, cinayət törətməkdə şübhəli bilinən şəxs 3 ay güdülür və izlənilir ki, həmin müddət ərzində gizli

olaraq onun cinayət əməli törətməsi barədə məlumat əldə etmək mümkün olur.

Polis informasiyası əldə etməyin gizli üsulunun ikinci cəhəti bundan ibarətdir ki, həmin üsuldan istifadə olunması zamanı məlumat-kəşfiyyat strukturları tərəfindən böyük və ölçülub-biçilmiş səy göstərilir. Həmin üsulun həyata keçirilməsinə xeyli sayda şəxsi heyət cəlb olunur.

Polis informasiyası əldə etməyin gizli üsulları sırasına, hər şeydən əvvəl, **gizli müşahidə** aiddir. Gizli müşahidə dedikdə şübhəli şəxsin güdülməsi və izlənilməsi başa düşülür; bu zaman həmin şəxs güdüldüyünü və izləndiyini bilmir.

Gizli müşahidə sayəsində, ilk növbədə, şübhəli şəxs barədə məlumat əldə edilir. Müşahidə aparmaqla şübhəli şəxsin hansı şəxslərlə əlaqəsi olması barədə də məlumat alına bilər ki, belə məlumat çox vaxt cinayətin iştirakçılarının müəyyən edilməsi və onun qarşısının alınması üçün mühüm əhəmiyyətə malik olur. Gizli müşahidə əməliyyatının həyata keçirilməsində, adətən, bir neçə polis əməkdaşı iştirak edir. Təbii ki, həmin əməliyyatın həyata keçirilməsində yalnız bir polis əməkdaşının iştirak etməsi ağlabatan deyildir.

Polis informasiyası əldə etməyin gizli üsulları sırasına **məktubların yoxlanılması** da aiddir. Bu üsuldan istifadə olunması şübhəli şəxsin və cinayətin törədilməsində əlaqəsi olan digər vətəndaşların məktublarının açılıb oxunmasını nəzərdə tutur; törədilmiş və hazırlanan cinayət əməli barədə məlumat almaq müəyyən hallarda məktubların açılıb oxunması ilə mümkün olur. Bu üsuldan istifadə olunması sayəsində həm də törədilməsi planlaşdırılan cinayətin qarşısı alınır. Təkcə məktublar yoxlanılmır; yoxlanılma obyekti həm də poçt, teleqraf və digər göndərişlər ola bilər.

Polis informasiyası əldə etməyin digər gizli üslu **foto ilə şəklini çəkmə** hesab olunur. Foto gizli üsulla məlumat alınması üçün istifadə olunan texniki vasitələrdən biridir. Bu vasitə ayrı-ayrı hallarda polis fəaliyyətinin həyata keçirilməsinə aid olan bu və ya digər məsələnin həll edilməsində vacib rol oynayır.

**Telefon danışıqlarına qulaqasma** polis informasiyası əldə etməyin gizli üsullarından biridir. Bu üsuldan istifadə edilməsi nəticəsində şübhəli şəxs və hüquqi əhəmiyyətə malik olan digər məsələlər haqqında zəruri məlumat alınır. Şübhəli şəxs bilmir ki, onun telefon danışıqlarına qulaq asılır. Bəzən cinayətin törədilməsində bilavasitə əlaqəsi olan şəxslər onların telefon danışıqlarına qulaqasma sayəsində müəyyən edilir.

Qulaqasma həm də elektron vasitələrin köməyi ilə mümkündür. **Elektron vasitələrin köməyi ilə qulaqasma** isə polis informasiyası əldə etməyin gizli üsulları sırasına aiddir. Bu, həm də əsas və daha effektiv üsul sayılır. Nəzərdən qaçırmaq olmaz ki, müasir dövrdə telefon danışıqlarına xüsusi aparatlar vasitəsilə qulaqasma geniş yayılmışdır. Polis informasiyası toplamağın gizli üsullarından biri olan telefon danışıqlarına qulaqasma Azərbaycan Respublikasında qanunvericilik səviyyəsində tanınır. Belə ki, ƏFQ-də telefon danışıqlarına qulaqasma kimi gizli üsul təsbit olunmuşdur (maddə 10, I hissə, bənd 3). Bu üsulun qanunvericilikdə nəzərdə tutulması iqtisadiyyatın bazar modeli üzərində qurulması, xüsusi mülkiyyətə icazə verilməsi, iqtisadi vəziyyətin köklü surətdə dəyişilməsi, mütəşəkkil cinayətkarlığın, xüsusən də maliyyə sahəsində cinayətkarlığın artması və digər amillərlə bağlıdır. ƏFQ-nin 10-cu maddəsinin IV hissəsinə görə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduğu hallarda cinayət-axtarış fəaliyyətinin subyektləri (polis orqanı bu subyektlərdən biridir) şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa bilər; bu zaman hakimin qərarı tələb olunmur. Hakimin qərarı olmadan polis orqanı həmçinin poçt, teleqraf və digər göndərişləri yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər.

Gizli üsulla polis informasiyası alınması üçün müəyyən hallarda xüsusi texniki vasitələrdən istifadə olunur. Söhbət gizli üsulla informasiya alınması nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən gedir; belə vasitələrin növləri isə Nazirlər Ka-

bineti tərəfindən müəyyən edilir. Xüsusi texniki vasitələr informasiya alınmasının gizli üsullarından biridir; həmin vasitələr məhz gizli üsulla informasiya alınması üçün nəzərdə tutulmuşdur. Gizli üsulla informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə edilməsinin mümkünlüyü isə ƏFQ-nin 10-cu maddəsinin VIII–X hissələrində nəzərdə tutulmuşdur.

Polis-axtarış fəaliyyəti polis üçün vacib və mühüm informasiya kanalıdır. Polis-axtarış fəaliyyəti dedikdə polisin xüsusi bölməsi tərəfindən həyata keçirilən axtarış-kəşfiyyat tədbirlərinin sistemi başa düşülür ki, belə tədbirlər zəruri məlumatların əldə olunması məqsədi güdür. Polis-axtarış fəaliyyəti iki əsas istiqamətdə həyata keçirilir. Bunlardan biri cinayətkarlıqla mübarizə, digəri isə zəruri məlumatların toplanmasıdır.[1]

**Məxfi polis agentlərinin** məlumatları da polis informasiyası əldə etməyin gizli üsullarına aiddir. Məxfi polis agentləri polis orqanlarının ştatda olan əməkdaşlarıdır; onların əsas işi polis əməliyyatının obyekti olan cinayətkar qruplara daxil olmaqdan ibarətdir. Cinayətkar qruplara daxil olan məxfi polis agentləri cinayətkar qrupların fəaliyyəti və planları barədə məlumat toplayırlar.

Məxfi polis agentləri həm də kriminogen obyektlərə daxil olurlar. Onlar bu obyektlər barədə polis orqanlarına müvafiq məlumat verirlər ki, belə məlumat polis fəaliyyətinin həyata keçirilməsinə aid bu və ya digər məsələnin həllində vacib rol oynaya bilər; həm cinayətkar qruplara, həm də kriminogen obyektlərə daxilolma cinayət-axtarış tədbirlərindən biridir (bu, ƏFQ-nin 10-cu maddəsinin I hissəsinin 16-cı bəndində nəzərdə tutulmuşdur).

Polis fəaliyyətinin həyata keçirilməsində həm də **xəbərçilərin** verdikləri məlumatdan istifadə olunur. Xəbərçilər polis fəaliyyəti praktikasında «işverənlər» adı ilə tanınır.[2]

---

[1] *Bu barədə daha ətraflı:* Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с. 738-739.
[2] Rus dilində onlar «stukaç» adlanır.

Xəbərçilər ayrı-ayrı şəxslərin, qrupların və təşkilatların fəalyyəti, həmçinin planları barədə polisə məlumat verirlər. Polis müəyyən şəxslər sırasında ayrı-ayrı vətəndaşları ələ alaraq, «xəbərçi» kimi öz fəaliyyətinin həyata keçirilməsi işinə cəlb edir. Belə vətəndaşlar, adətən, öz fəaliyyət dairəsinə və sferaına görə geniş polis informasiyasına malik olurlar; onların sırasına taksi sürücüləri, tibb bacıları, həkimlər, ev qulluqçuları və digər xidmətçilər aiddir.

Polis informasiyası əldə etməyin üsullarını polis informasiyasının növlərindən fərqləndirmək lazımdır. Polis informasiyası iki növə bölünür: 1) normativ polis informasiyası; 2) ilk polis informasiyası. Polis-hüquq normalarında və fərdi polis göstərişlərində ifadə olunan məlumatlar **normativ polis informasiyası** adlanır. Odur ki, normativ polis informasiyası yalnız polis hüququnu (polis-hüquq normalarını) və fərdi polis göstərişlərini əhatə edir. Polis informasiyasının bu növünə PQ-ni, «Yol-patrul xidməti haqqında» Təlimatı, «Polisin post-patrul xidmətinin» Nizamnaməsini və vətəndaşların inzibati saxlanılması barədə polis əməkdaşının qərarını aid etmək olar.

Qəbul olunmuş polis qərarının əsası sayılan polis-informasiya növünə **ilk polis informasiyası** deyilir. Bu növ informasiyaya vətəndaşların ərizə, məktub və şikayətlərindəki məlumatı aid etmək olar. Polisin post-patrul əməkdaşlarından daxil olan məlumat da ilk polis informasiyasına aid edilir. Unutmaq olmaz ki, ilk polis informasiyasının formaları müxtəlifdir. Bu növ polis informasiyasının tərkibinə öz məzmununa görə fərqlənən operativ, iqtisadi və siyasi xarakterli məlumatlar daxil ola bilər. Polis orqanlarının fəaliyyəti ilə bağlı olan istənilən məlumatın ilk polis informasiyası kateqoriyasına aid edilməsi mümkündür. Polis informasiyasının bu növünə həm də başlanğıc polis informasiyası deyilir.[1]

---

[1] *Polis informasiyasının növləri barədə daha ətraflı* bax: məsələn, Бельский К.С. Полицейское право. Лекционный курс. М., 2004, с.727-728.

# XI FƏSİL ÜZRƏ SXEM



# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## a) azərbaycan dilində

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1 – 46 kitab. / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997-2013.
2. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1–75 kitab. / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2003-2019.
3. İlham Əliyev. Azərbaycan Respublikası daxili işlər orqanlarının şəxsi heyətinə // Azərbaycan polisinin yubileyi. Bakı, 2008, s.21.
4. Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı (2003-2008) / Buraxılışa məsul: Misir Mərdanov. Bakı-İstanbul: «İMAKofset basım yayın» mətbəəsi, 2008, 694 s.
5. Azərbaycan dilinin orfoqrafiya lüğəti / Redaktor və ön sözün müəllifi: Ağamusa Axundov. Bakı: «Lider nəşriyyat», 2004, 728 s.
6. Azərbaycan polisinin tarixi. I hissə. 1900-1930-cu illər (sənədlər, rəqəmlər, faktlar) / R.Usubovun redaktəsi ilə. Bakı, 1999.
7. Azərbaycan polisinin yubileyi / Tərtibçi-redaktor: Abdulla Qurbani. Bakı: «Apostrof» Çap Evi, 2008, 296 s.
8. «Azərbaycan Polisi» jurnalı. Bakı, 2007-2008.
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: Hüquq Yayın Evi, 2016, 416 s.
10. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2012, 692 s.
11. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri. Maddələr 8-36 / Tərtibçi: V.İbayev. Bakı: Qanun, 2004, 770 s.
12. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi. Məlumat Bülleteni. Bakı, 2008-2019.
13. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2009, s.39-56.

14. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarının sistemləşdirilmiş Külliyyatı. I, II cild. Bakı: DİN-in Mətbəəsi, 2011, I cild – 640 s., II cild – 752 s.
15. Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2009, s.1 – 38.
16. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının Elmi Xəbərləri. Elmi hüquq jurnalı. Bakı, 2012, № 1.
17. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Konstitusiya Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı 2009, 16 s.
18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: Hüquq Yayın Evi, 2016, 392 s.
19. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin kommentariyası / Məsul redaktor: Abduləli Abdullayev. Bakı: Qanun, 2012, 928 s.
20. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2011, 98 s.
21. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.
22. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I cild / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2001, 880 s.
23. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı: Azərbaycan, 1996 –2010.
24. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. I xüsusi buraxılış. Bakı, 2000, s.263-412.
25. Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2009, 768 s.
26. Abduləli Abdullayev, Araz Qədiməliyev. İnzibati proses (mühazirə kursu). Dərs vəsaiti. Bakı: Qanun, 2012, 332 s.
27. Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı: Qanun, 2008, 800 s.
28. Abduləli Abdullayev. İnzibati hüquq (I-II hissə). Dərs vəsaiti. Bakı: Qanun, 2005, 376 s.
29. Abduləli Abdullayev, Vüsal Quliyev. Müqayisəli inzibati hüquq. Dərslik. Bakı: «Nərgiz» nəşriyyatı, 2014, 540 s.

30. Abdullayev A., Abdullayev E. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: Qanun, 2007, 288 s.
31. Abdullayev F.S. Azərbaycan Respublikasında Konstitusiya icraatının nəzəri və praktiki problemləri. Bakı: Elm, 2009, 396 s.
32. Abışov V.G., İsmayılov A.V., Eyvazov H.Q. İnzibati hüquq. Dərs vəsaiti. 3 hissədə. I hissə. Bakı: Qanun, 2004, 316 s.
33. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı: Digesta, 2008, 944 s.; II cild, 2009, 736 s.; III cild, 2009, 1048 s.
34. Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik (yenidən işlənmiş və əlavə olunmuş 8-ci nəşr). Bakı: «Hüquq Yayım Evi» nəşriyyatı, 2018, 452 s.
35. Bayramzadə X.Ə. Əməliyyat-axtarış fəaliyyətinə nəzarət. Dərs vəsaiti. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2007, 144 s.
36. Bayramzadə X.Ə. Telefon danışıqlarının qulaq asılmasına konstitusiya zəmanəti. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2011, 108 s.
37. Cəfərli N.H., Xəlilov N.Q., Nəsirov B.R. Xarici ölkələrin dövlət və hüquq tarixi. Dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2004, 240 s.
38. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2010, 724 s.
39. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Azərb. dilində. Bakı: Qanun, 2008, 768 s.
40. Cinayət-axtarış hüququnun əsasları fənni üzrə Tədris Proqramı / Tərtib edənlər: Muradov F., Salmanzadə N. Bakı: Mütərcim, 2015, 32 s.
41. Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi / Azərbaycan Hüquqşünasları Konfederasiyası. Bakı: Aypara – 3 NPM, 2009, 20 s.
42. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2007, s.1 – 49.
43. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2007, s 50-72.

44. Dövlət və hüquq nəzəriyyəsi. 100 suala 100 cavab (tədris-metodik vəsait) / Tərtib edənlər: C.Süleymanov, B.Nəsirov, M.Xalıqov, V.Ələkbərov. Bakı: «İlay» MMC, 2008, 108 s.
45. Eyvazov H.Q. Cinayət mühakimə icraatında ibtidai araşdırma sirri (istintaq sirri). Bakı: Qanun, 2010, 216 s.
46. Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Ümumi və Xüsusi hissə) qısa şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2010, 1016 s.
47. Əfəndiyev E.M. Mülkiyyət əleyhinə olan cinayətlər. Oğurluq (şərhi, tövsifi və mövzu ilə əlaqədar kazuslar). Dərs vəsaiti. Bakı: Hüquq ədəbiyyatı, 2012, 156 s.
48. Əkbərov R.A. Azərbaycanın dövlət və hüquq tarixi (qədim, orta əsrlər və müasir dövrdə). Dərs vəsaiti. Bakı: Qanun, 2009, 604 s.
49. Əliyarlı İ.M., Behbudov T.R. Azərbaycan daxili işlər orqanlarının tarixi. I kitab. Bakı: «Azərbaycan Milli Ensiklopediyası» NPB, 2003, 248 s.
50. Əliyarlı İ.M., Behbudov T.R. Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər). Bakı: «Qismət» nəşriyyatı, 1998, 160 s.
51. Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş 3-cü nəşr. Bakı: UniPrint, 2011, 676 s.
52. Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: təşəkkül tapması və təkamül dövrü // DİRÇƏLİŞ-XXI ƏSR. Bakı, 2010, № 149-150, s. 255-259.
53. Əliyev E.Ə. Azərbaycan Respublikasının polis hüququ: ümumi müddəalar. Bakı: “UniPrint”, 2012, 376 s.
54. Əliyev E.Ə.Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı: «SeNa» MMC, 2009, 868 s.
55. Əliyev E.Ə.Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Dərslik. Bakı: UniPrint, 2010, 368 s.
56. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: "Hüquq ədəbiyyatı", 2013, 506 s.
57. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: «NAT» MMC, 2007, 488 s.
58. Əliyev M.N. Əmək stajı və onun pensiya təminatında hüquqi əhəmiyyəti. Bakı: «Qanun», 2000, 144 s.

59. Əliyev N., Eyvazov H. Polisin məlumat kitabı. Bakı: «Qanun» nəşriyyatı, 2013, 1376 s.
60. Əməliyyat-axtarış fəaliyyətinin əsasları (I kitab). Dərs vəsaiti / Elmi redaktor: K.Səlimov. Bakı: Çaşıoğlu, 2008, 428 s.
61. Əməliyyat-axtarış fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2011, s. 50-84.
62. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2002, 632 s.
63. Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı: Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası, 1991, 544 s.
64. Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı/ Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı: NAT-CO MMC, 2009, 564 s.
65. Hüquqi yardım barədə Minsk Konvensiyası. İnterpolun Nizamnaməsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2000, 52 s.
66. Hüseynov M.H., Əliyev E.E. Polis orqanlarında əməliyyat şəraiti idarəetmənin əsas obyekti kimi // Nəqliyyat hüququ. Bakı, 2011, № 3, s.121-127.
67. Hüseynov Ş.İ., Əliyev B.Ə., İsmayılov E.Y. Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanun sxemlərdə və əməliyyat-axtarış qanunvericiliyi. Dərs vəsaiti. Bakı: Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mətbəəsi, 2008, 256 s.
68. Hüseynov Ş.İ., Kazımov İ.Ə. Əməliyyat-axtarış fəaliyyəti. 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı: Qanun, 2004, 256 s.
69. Hüseynov Ş.İ., Nəsirov R.M., Muradov E.Q. Əməliyyat-axtarış fəaliyyətinin əsasları (mühazirələr toplusu). Dərs vəsaiti. Bakı: Mütərcim, 2008, 372 s.
70. Hüseynov Ş.İ., Səlimov K.N., Əliyev B.Ə. Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti (Ümumi və Xüsusi hissə). Dərs vəsaiti. Bakı: Mütərcim, 2011.
71. Hüseynov Ş.İ., Səlimov K.N., Muradov F.N. Əməliyyat-axtarış fəaliyyəti (mühazirələrin qısa konspekti). Dərs vəsaiti. Bakı: Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mətbəəsi, 2007, 160 s.

72. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu / Nəşrə məsul: Şahbaz Xuduoğlu. Bakı: Qanun, 2006, 44 s.
73. İnsan hüquqları və polis. Dərs vəsaiti / R.İ.Rəsulovun redaktəsi ilə. Bakı: Çaşıoğlu, 2002, 292 s.
74. Korrupsiyaya qarşı mübarizə (Normativ hüquqi aktlar toplusu) / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2005, 48 s.
75. Korrupsiyaya qarşı mübarizəyə dair normativ hüquqi aktlar. Qanunlar, fərmanlar, sərəncamlar, beynəlxalq müqavilələr, qərarlar, əmrlər. Bakı: Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, 2010, 416 s.
76. Qaracayev C.Y. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: "NAT" MMC, 2011, 132 s.
77. Qasımov A.M. Azərbaycan Respublikasının əmək hüququnda qarşılıqlı maddi məsuliyyət. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2002, 312 s.
78. Qəfərov M.S., Eyvazov H.Q. Hüquq-mühafizə orqanları. Dərslik (Əlavə və dəyişikliklərlə 3-cü nəşr). Bakı: «Qanun» nəşriyyatı, 2012, 600 s.
79. Quliyev C.M., Hümbətov M.H., Mustafayev N.İ. Azərbaycan Respublikasının cəza-icra hüququ (anlayışlar, qısa şərhlər və sxemlər). Bakı, «Hüquq» ədəbiyyatı, 2012, 376 s.
80. Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Birinci cild. Bakı: Regionların İnkişafı İctimai Birliyi, 2009, 512 s.
81. Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: CBS POLYGRAPHIC PRODUCTION mətbəəsi, 2006, 584 s.
82. Metodiki tövsiyələr toplusu / Zakir Qaralovun rəhbərliyi ilə. Bakı: Hüquq ədəbiyyatı, 2009, 292 s.
83. Məhkəmə hakimiyyəti ... Hakim ... Qanun ... / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı: Hüquq ədəbiyyatı, 2001, 468 s.
84. Məlikova M.F., Nəbiyev E.Q. Müasir dövlət və hüquq tarixi. Dərslik. Bakı: «Elm və Həyat» nəşriyyatı, 2003, 636 s.
85. Məmmədov E.Ş. Azərbaycan polisi. I kitab. Bakı: «Dünya» nəşriyyatı, 1997, 286 s.

86. Məmmədov F., Mustafayev M. Cinayət-axtarış hüququnun əsasları. Dərs vəsaiti. Bakı, «Hərbi nəşriyyat», 2011, 336 s.
87. Muradov F., Salmanzadə N. Cinayət-axtarış hüququnun əsasları. Dərs vəsaiti. Bakı, 2014, s. 28-46.
88. Muradov F., Salmanzadə N. Cinayət-axtarış hüququnun əsasları. 100 suala 100 savab. Dərs vəsaiti. Bakı, 2014. s. 21-24.
89. Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər. Xarici iqtisadi biliklərə dair azərbaycanca-rusca-ingiliscə lüğət-məlumat kitabı / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı: Hüquq ədəbiyyatı, 2005, 676 s.
90. Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2011, 96 s.
91. Mütəllim Usubov. Terrorçuluğun kriminoloji xarakteristikasının xüsusiyyətləri (Azərbaycan Respublikasının məhkəmə-istintaq təcrübəsi əsasında). Bakı: UniPrint, 2008, 216 s.
92. Narkotik vasitələr, psixotrop maddələr və prekursorlar (Sənədlər toplusu) / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2011, 100 s.
93. Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə / Məsul redaktor: İ.A.İsmayılov. Bakı: Qanun, 1999, 224 s.
94. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2011, 92 s.
95. Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı. I cild. Bakı: Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Katibliyi, 2011, 640 s.; II cild. Bakı: 2011, 752 s.
96. Piriyev Ə.S Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Dərslik. Bakı: «Çıraq» nəşriyyatı, 2005, 608 s.
97. Polis haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2011, s. 1-49.
98. Polis haqqında sənədlər toplusu / Nəşrə məsul: Şahbaz Xuduoğlu. Bakı: Qanun, 2006, 576 s.
99. Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2009, 40 s.

100. Ramil Usubov. Ən böyük azərbaycanlı // Azərbaycan polisinin yubileyi. Bakı, 2008, s.6-15.
101. Ramil Usubov. Azərbaycan polisinin xalqa və dövlətçiliyə sədaqəti sarsılmazdır // Azərbaycan polisinin yubileyi. Bakı, 2008, s. 33-42.
102. Ramil Usubov. İctimai təhlükəsizliyin və hüquq qaydasının etibarlı qorunması daxili işlər orqanları üçün ən mühüm vəzifədir // "Azərbaycan" qəzeti, 28.01.2011-ci il, www.azerbaijan-news.az
103. Səlimov K.N. Əməliyyat-axtarış tədbirləri zamanı informasiyanın əldə edilməsində psixologiyadan istifadə. Monoqrafiya. Bakı, 2006.
104. Səlimov K., Hüseynov Ş. və başq. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. I kitab. Bakı: «Çaşıoğlu» nəşriyyatı, 2008, səh. 43-60.
105. Səməndərov F.Y.Cinayət hüququ. Ümumi hissə. Dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı: Digesta, 2007, 700 s.
106. Svanidze Erik. Pis rəftar hallarının səmərəli araşdırılması. Avropa standartlarına dair rəhbər prinsiplər. Bakı: Avropa Şurası İnsan Haqları və Hüquqi Məsələlər üzrə Baş Direktorluq, 2010, 148 s.
107. Şanlı tarix, qəhrəmanlıq salnaməsi. Azərbaycan polisi – 90 / Baş məsləhətçi – Ramil Usubov. Buraxılışa məsul – Sadiq Gözəlov. Bakı: DİN, 2008, 254 s.
108. Şirinov A. Fərdi və ictimai katarsis // «Xalq» qəzeti, Bakı, 2010, 13.01., s. 5.
109. Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında Beynəlxalq Konvensiya / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2009, 28 s.
110. Vaqif Abışov, Aleksandr İsmayılov, Rafiq Nəcəfquliyev. İnzibati məsuliyyət. Dərs vəsaiti. Bakı: AR DİN Polis Akademiyası, 2012, 330 s.
111. Vətəndaş ... Əcnəbi... Pasport... Qeydiyyat.... (Normativ aktlar toplusu) / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2008, 172 s.
112. Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2009, 236 s.

113. Yol hərəkəti təhlükəsizliyinin hüquqi təminatı. Sənədlər toplusu / Elmi redaktor və tərtib edən: Əliyev E.Ə. Bakı, «Nərgiz» nəşriyyatı, 2015, 604 s.
114. Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında / Azərbaycan Respublikasının Ali Məhkəməsi. Bakı: Hüquq ədəbiyyatı, 2004, 12 s.

**b) rus dilində**

115. Абдуллаев А., Алиев Э. Административный процесс. Учебное пособие. Баку: Издательство «UniPrint», 2012, 272 с.
116. Абдуллаев А., Нагиев Ф. Административное право. Учебник. Баку: Издательство «Чашыоглу», 2008, 464 с.
117. Алексеев С.С. Общая теория права. Том 2. М., 1982, с.139.
118. Алексеев С.С. Философия права. М.: Издательство НОРМА, 1999, 336 с.
119. Безопасность жизнедеятельности. Учебник / Отв. ред. А.А.Бирюков, В.К.Кузнецов. М.: Проспект, 2014, 400 с.
120. Безопасность жизнедеятельности. Учебник для вузов, 2-е изд. / Под ред. Л.А.Михайлова. СПб.: Питер, 2012, 461 с.
121. Бельский К.С. О системе административного права // Государство и право, 1998, № 3, с. 3-11.
122. Бельский К.С. Полицейское право. Лекционный курс / Под ред. канд. юрид. наук А.В.Куракина. М.: Издательство «Дело и Сервис», 2004, 816 с.
123. Бирюков П.Н. Международное право. Учебное пособие. М.: Юристъ, 2006, 685 с.
124. Братусь С.Н.Юридическая ответственность и законность. М., 1976, с. 135.
125. Всегда на страже. Страницы истории Азербайджанской милиции / Под ред. Велиева Дж. Дж. Баку, 1980.
126. Головко В.В., Майоров В.И. Основы безопасности дорожного движения. Учебное пособие. М.: Эксмо, 2008, 176 с.
127. Горбухов В.А. Оперативно-розыскная деятельность. Конспект лекций. Ростов н/Д: Феникс, 2014, 176 с.

128. Гусев А.П. Комментарий к Федеральному закону «О полиции» (научно-практический, постатейный). Ростов-на-Дону: Феникс, 2011, 343 с.
129. Дмитриев Ю.А., Шапкин М.А. Правоохранительные органы Российской Федерации. Учебник. 6-е изд., стер. М.: Издательство «Омега-Л», 2008, 381 с.
130. Закон Российской Федерации «О милиции». Новосибирск: Сибирское университетское издательство, 2006, 44 с.
131. Заплетин Г.П. История Азербайджанской полиции. I Часть. 1900-1930 годы (документы, цифры, факты) / Под ред. Р.Усубова. Баку: ИПО «Азербайджанская Энциклопедия», 1999, 336 с.
132. Коврякова Е.В. Парламентский контроль в зарубежных странах. Автореф. дис. на соискание уч. ст. к.ю.н. М., 2002, с.12 // www.dissercat.com.
133. Манохин В.М., Конин Н.М. Концепция программы курса административного права // Государство и право, 1993, № 5, с. 53.
134. Наумов М.Ф., Касумов А.М. Трудовое право России. Практикум в схемах и таблицах. Законодательные акты. Судебная практика. М.: «Ось-89», 1998, 240 с.
135. Панова И.В. Актуальные проблемы административного процесса в Российской Федерации. Автореферат диссертации на соискание уч.ст. д.ю.н. Екатеринбург, 2000, с.20// www. law.edu.ru/book/bookasp?book ID=93692.
136. Понятия и виды иных мер уголовно-правового характера. Учебное пособие / М.Ф.Костюк, А.Н.Батанов, В.А.Посохова, Т.М.Калинина. Москва: Проспект, 2011, 320 с.
137. Правовые системы стран мира. Энциклопедический справочник / Отв. ред. А.Я.Сухарев. 2-е изд., изм. и доп. М.: Издательство НОРМА (издательская группа НОРМА-ИНФРА. М), 2001, 840 с.
138. Правоохранительные органы России. Учебник / Под ред. В.П.Божьева. 2-е изд., перераб. и доп. М.: Издательство Юрайт, 2010, 336 с.
139. Разгильдыев Б.Т. Задачи уголовного права Российской Федерации и их реализация. Саратов, 1993, с. 55.

140. Рассолов И.М. Информационное право. Учебник для магистров. 2-е издание, исправленное и дополненное. М.: Издательство Юрайт, 2012, 444 с.
141. Рене Давид, Камилла Жоффре-Спинози. Основные правовые системы современности. М., 1999, с.78.
142. Ромашев Ю.С. Международное правоохранительное право. М.: Норма: Инфра-М, 2010, 368 с.
143. Сборник документов Совета Европы в области защиты прав человека и борьбы с преступностью / Сост.: Т.И.Москалькова и др. М., 1998, с. 77-78.
144. Словарь иностранных слов /Под ред. И.В.Лехина, С.М.Локщиной, Ф.Н.Петрова. М., 1985, с.563.
145. Словарь международного права / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. 2-е изд., перераб. и доп. М.: Международные отношения, 1986, 432 с.
146. Советская милиция: история и современность (1917-1987) / Под редакцией А.В.Власова. М.: Юридическая литература, 1987, 336 с.
147. Современные проблемы и стратегия борьб с преступностью /Науч. ред. В.Н.Бурлаков, Б.В.Волженкин. СПб.: Издательский Дом С.-Петерб. Гос.ун-та, Издательство юридического факультета С.-Петерб. Гос. ун-та, 2005, 592 с.
148. Соловьев И.Н. Оперативно-розыскная деятельность в сфере экономики и налогообложения. М.: Проспект, 2012, 208 с.
149. Теория государства и права. Курс лекций / Под ред. Н.И.Матузова, А.В.Малько. М., 2000, с.378-379.
150. Устав патрульно-постовой службы милиции общественной безопасности. Третье издание, стереотипное. М.: КНОРУС, 2010, 80 с.
151. Чуфаровский Ю.В. Психология оперативно-розыскной и следственной деятельности. Учебное пособие. М.: Проспект, 2016, 208 с.
152. Шергин А.П. Проблемы административно-деликтного права // Государство и право. 1994, № 8-9, с. 55.
153. Шумилов А.Ю. Оперативно-розыскная энциклопедия. М.: Изд-ль Шумилова И.И., 2004, 364 с.

154. Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.: Юринформцентр, 2005, 972 с.

**e) elektron informasiya mənbələri - URL**

155.http//www.anl.az.
156.http//www.azstat.org.
157.http//www.cabmin.gov.az.
158.www. coe.int.
159.http//www.constitutional.courtz.org.
160.http//www.constcourt.gov.az.
161.http//www.customs.gov.az.
162.http//www.csl-az.com/
163.www. dissercat.com.
164.www. dyp.gov.az.
165.www. e-qanun.az.
166.http//www.edu.gov.az/view.php?lang=az&menu=0
167.http//www.elibrary.az/
168.http//www.genprosecutor.gov.az.
169. http//www.huquqiaktlar.gov.az
170.http//www.justice.gov.az.
171.www. law.edu.ru.
172.http//www.meclis.gov.az.
173.http//www.mia.gov.az.
174.http//www.pa.edu.az
175.http//www.texas.gov.az.
176.http//www.supremecourt.gov.az/
və s.

# İXTİSARLAR

**AR QK** – Azərbaycan Respublikasının Qanunlar Külliyyatı
**AR QT** – Azərbaycan Respublikasının Qanunvericilik Toplusu
**ASM** – Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı
**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**AVROPOL** – Avropa Polis Təşkilatı
**BCAİ** – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsi
**BDT** – Beynəlxalq Dəniz Təşkilatı
**BDYPİ** – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi
**BİTİ** – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi
**BMAT** – Beynəlxalq Mülki Aviasiya Təşkilatı
**BMT** – Birləşmiş Millətlər Təşkilatı
**BYPNT** – Beynəlxalq Yol Polis və Nəqliyyat Təşkilatı
**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
**CPM** – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi
**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
**DİO** – Daxili işlər orqanları
**DQQ** – «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu
**DTİ** – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Təhlükəsizlik İdarəsi
**DYP** – Dövlət Yol Polisi
**ƏM** – Azərbaycan Respublikasının Əmək Məcəlləsi
**ƏFQ** – «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu

**GUAM** – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova

**XDİK** – Azərbaycan Sovet Sosialist Respublikasının Xalq Daxili İşlər Komissarlığı

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İİQ** – «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanunu

**İNTERPOL** – Beynəlxalq Cinayət Polis Təşkilatı

**İPM** – Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi

**QİƏT** – Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı

**MM** – Azərbaycan Respublikasının Mülki Məcəlləsi

**MDB** – Müstəqil Dövlətlər Birliyi

**MTN** – Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi

**MPM** – Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

**NK** – Azərbaycan Respublikasının Nazirlər Kabineti

**PQ** – «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu

**PPX** – Post-Patrul Xidməti

**SSRİ** – Sovet Sosialist Respublikaları İttifaqı

**ŞƏT** – Şanxay Əməkdaşlıq Təşkilatı

**VVAQ** – Vətəndaşlıq vəziyyəti aktlarının Qeydiyyatı

**YHQ** – «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu

**YPX** – Yol Patrul Xidməti

# MÜNDƏRİCAT

Ön söz ....................................................................................**5**

*I BÖLMƏ.* **ÜMUMİ HİSSƏ. POLİS HÜQUQU HAQQINDA ÜMUMİ MÜDDƏALAR**

*I FƏSİL.* **AZƏRBAYCANDA POLİS HÜQUQUNUN YARANMASI VƏ TARİXİ İNKİŞAFI**

1.1. Azərbaycanda polis hüququnun yaranması və onun tarixi inkişaf mərhələləri ....................................................................**12**

1.2. Azərbaycan ərazisində polis orqanlarının təşəkkül tapmasının ilkin mərhələsi ....................................................................**17**

1.3. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli polis orqanlarının yaranması və inkişaf mərhələsi ....................................**26**

1.4. Azərbaycan polisinin «sovet milis» dövründə fəaliyyəti ..........**35**

1.5. Müstəqil Azərbaycan polisinin müasir inkişaf dövrü ...............**47**

I fəsil üzrə sxem ..........................................................................**61**

*II FƏSİL.* **POLİS HÜQUQU ANLAYIŞI, ONUN PREDMETİ, SİSTEMİ, PRİNSİPLƏRİ VƏ HÜQUQ SİSTEMİNDƏ YERİ**

2.1. Polis hüququ anlayışı və onun predmeti ..................................**62**

2.1.1. Polis hüququ anlayışı ..........................................................**62**

2.1.2. Polis hüququnun nizamasalma predmeti və metodu ............**69**

2.2. Hüquq sistemində polis hüququnun tutduğu yer ....................**77**

2.2.1. Polis hüququ inzibati hüququn yarımsahəsi kimi .................**77**

2.2.2. İnzibati hüququn digər yarımsahələri ilə polis hüququnun qarşılıqlı əlaqəsi ..............................................................**83**

2.3. Polis hüququnun sistemi və prinsipləri ....................................**89**

2.3.1. Polis hüququnun sistemi anlayışı və struktur elementləri .....89
2.3.2. Polis hüququnun ümumi hissəsi ..........................................95
2.3.3. Polis hüququnun xüsusi hissəsi ..........................................96
2.3.4. Polis hüququnun prinsipləri ...............................................101
II fəsil üzrə sxem..........................................................................111

## *III FƏSİL.* POLİS HÜQUQUNUN SUBYEKTLƏRİ

3.1. Polis hüququnun subyektləri anlayışı və ümumi xarakteristikası ...........................................................................................112
3.2. Polis hüququ subyektlərinin növləri .......................................117
3.3. Polis orqanları polis hüququnun əsas subyekti kimi ...............121
3.4. Polis hüququnun fərdi subyektləri .........................................130
3.5. Polis hüququnun kollektiv subyektləri ...................................133
3.6. Dövlət qulluğu xidməti və dövlət qulluqçuları polis hüququnun subyekti qismində ...........................................................139
III fəsil üzrə sxem .........................................................................146

## *IV FƏSİL.* POLİS-HÜQUQ NORMALARI VƏ POLİS-HÜQUQ MÜNASİBƏTLƏRİ

4.1. Polis-hüquq normaları ..........................................................147
4.1.1. Polis-hüquq norması anlayışı və onun əsas cəhətləri ...........147
4.1.2. Polis-hüquq normalarının xüsusiyyətləri .............................149
4.1.3. Polis-hüquq normalarının növləri .......................................152
4.2. Polis-hüquq münasibətləri ....................................................160
4.2.1. Polis-hüquq münasibətləri anlayışı və əlamətləri .................160
4.2.2. Polis-hüquq münasibətlərinin xüsusiyyətləri .......................163
4.2.3. Polis-hüquq münasibətlərinin növləri .................................169
IV fəsil üzrə sxem .........................................................................174

## *V FƏSİL* **POLİS HÜQUQUNUN MƏNBƏLƏRİ**

5.1. Polis hüququnun mənbələri anlayışı və əlamətləri ..................**176**
5.1.1. Polis hüququnun mənbələri anlayışı ....................................**176**
5.1.2. Polis hüququ mənbələrinin əlamətləri .................................**178**
5.2. Polis hüququnun mənbə növləri .............................................**180**
5.2.1. Polis hüququ mənbələrinin təsnifatı ....................................**180**
5.2.2. Polis qanunvericilik aktları polis hüququnun mənbəyi kimi**186**
5.2.3. Beynəlxalq müqavilələr polis hüququnun mənbəyi qismində**199**
V fəsil üzrə sxem .........................................................................**213**

## *VI FƏSİL.* **POLİS HÜQUQUNDA NƏZARƏT VƏ MƏSULİYYƏT**

6.1. Nəzarət və məsuliyyət institutu anlayışı .................................**214**
6.2. Polis hüququnda nəzarət .........................................................**216**
6.2.1. Polis hüququnda nəzarət anlayışı və onun növləri ...............**216**
6.2.2. Polis hüququnda parlament nəzarəti ...................................**219**
6.2.3. Polis hüququnda inzibati nəzarət ........................................**225**
6.2.4. Polis hüququnda məhkəmə nəzarəti ...................................**238**
6.2.5. Polis hüququnda prokuror nəzarəti ....................................**243**
6.3. Polis hüququnda məsuliyyət ..................................................**249**
6.3.1. Polis hüququnda məsuliyyət anlayışı, onun funksiyaları və prinsipləri .........................................................................**249**
6.3.2. Polis hüququnda məsuliyyətin əsası, şərtləri və özünəməxsus xüsusiyyətləri ..................................................................**258**
6.3.3. Polis hüququnda cinayət hüquq məsuliyyəti .......................**267**
6.3.4. Polis hüququnda inzibati hüquq məsuliyyəti ......................**273**
6.3.5. Polis hüququnda mülki hüquq məsuliyyəti ..........................**280**
6.3.6. Polis hüququnda intizam hüquq məsuliyyəti .......................**288**
VI fəsil üzrə sxem .......................................................................**294**

## *II BÖLMƏ.* XÜSUSİ HİSSƏ. POLİS HÜQUQUNUN İNSTİTUTLARI

## *VII FƏSİL.* İCTİMAİ TƏHLÜKƏSİZLİK HÜQUQU


7.1. İctimai təhlükəsizlik hüququnun anlayışı, nizamasalma predmeti və polis hüququnda yeri ................ **295**

7.1.1. İctimai təhlükəsizlik hüququ anlayışı ................ **295**

7.1.2. İctimai təhlükəsizlik hüququnun nizamasalma predmeti ..... **298**

7.1.3. Polis hüquq sistemində ictimai təhlükəsizlik hüququnun yeri ................ **301**

7.2. İctimai təhlükəsizlik hüququnun funksiyaları, prinsipləri və mənbələri ................ **303**

7.2.1. İctimai təhlükəsizlik hüququnun funksiyaları ................ **303**

7.2.2. İctimai təhlükəsizlik hüququnun prinsipləri ................ **305**

7.2.3. İctimai təhlükəsizlik hüququnun mənbələri ................ **312**

7.3. İctimai təhlükəsizlik hüququnun subyektləri ................ **325**

7.3.1. İctimai təhlükəsizlik hüququnun subyektləri anlayışı ........... **325**

7.3.2. İctimai təhlükəsizlik hüququnun ayrı-ayrı subyektləri ......... **329**

7.3.3. Polis orqanı ictimai təhlükəsizlik hüququnun subyekti kimi **331**

7.3.4. Polis əməkdaşı ictimai təhlükəsizlik hüququnun subyekti kimi ................ **335**

7.3.5. DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi ictimai təhlükəsizlik hüququnun subyekti kimi ................ **340**

7.3.6. İctimai təhlükəsizlik hüququnun qeyri-hakimiyyət xarakterli subyektləri ................ **347**

7.4. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı ayrı-ayrı məsələlərin hüquqi tənzimlənməsi **351**

7.4.1. İctimai qaydanın qorunması sahəsində münasibətlərin hüquqi tənzimlənməsi ................ **351**

7.4.2. İctimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi ................ **355**

VII fəsil üzrə sxem ................ **367**

## *VIII FƏSİL.* CİNAYƏT-AXTARIŞ HÜQUQU


8.1. Cinayət-axtarış hüququ polis hüququnun institutu kimi .........**368**
8.1.1. Cinayət-axtarış hüququ anlayışı .........................................**368**
8.1.2. Cinayət-axtarış hüququnun nizamasalma predmeti .............**371**
8.1.3. Polis hüquq sistemində cinayət-axtarış hüququnun yeri .......**373**
8.2. Cinayət-axtarış hüququnun mənbələri, prinsipləri və subyektləri ........................................................................... **374**
8.2.1. Cinayət-axtarış hüququnun mənbələri ................................**374**
8.2.2. Cinayət-axtarış hüququnun prinsipləri ...............................**383**
8.2.3. Cinayət-axtarış hüququnun subyektləri ..............................**387**
8.3. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə səlahiyyətləri ........**391**
8.3.1. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə vəzifələri ...........**391**
8.3.2. Subyektlərin cinayət-axtarış fəaliyyəti üzrə hüquqları ..........**394**
8.4. Cinayət-axtarış tədbirləri .....................................................**397**
8.4.1. Cinayət-axtarış tədbirlərinin anlayışı və əsas əlamətləri .......**397**
8.4.2. Cinayət-axtarış tədbirlərinin təsnifi ....................................**400**
8.4.3. Cinayət-axtarış tədbirlərinin siyahısı ..................................**402**
8.4.4. Ayrı-ayrı cinayət-axtarış tədbirlərinin xarakteristikası ........**405**
8.5. Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və əsaslar ..........................................................................**432**
8.5.1. Cinayət-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər .........................................................................**432**
8.5.2. Cinayət-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün əsaslar ......................................................................... **434**
VIII fəsil üzrə sxem ...................................................................**437**


## *IX FƏSİL.* İSTİNTAQ VƏ TƏHQİQAT HÜQUQU


9.1. İstintaq və təhqiqat hüququ polis hüququnun institutu kimi **438**
9.1.1. İstintaq və təhqiqat hüququnun anlayışı .............................**438**
9.1.2. İstintaq və təhqiqat hüququnun nizamasalma predmeti ......**439**

9.2. İstintaq və təhqiqat hüququnun mənbələri, subyektləri və prinsipləri ........................................................................443
9.2.1. İstintaq və təhqiqat hüququnun mənbələri ............................443
9.2.2. İstintaq və təhqiqat hüququnun subyektləri ..........................447
9.2.3. İstintaq və təhqiqat hüququnun prinsipləri ...........................451
9.3. İstintaq və təhqiqat hüququnda ibtidai araşdırma fəaliyyəti .455
9.3.1. İbtidai araşdırma fəaliyyəti və onun növləri ..........................455
9.3.2. Təhqiqat ...................................................................................458
9.3.3. İbtidai istintaq ..........................................................................461
IX fəsil üzrə sxem ............................................................................469

## *X FƏSİL.* YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİ HÜQUQU

10.1. Yol hərəkəti təhlükəsizliyi hüququ polis hüququnun institutu kimi ....................................................................................470
10.1.1. Yol hərəkəti təhlükəsizliyi hüququ anlayışı .........................470
10.1.2. Yol hərəkəti təhlükəsizliyi hüququnun nizamasalma predmeti ..................................................................................472
10.2. Yol hərəkəti təhlükəsizliyi hüququnun prinsipləri, mənbələri və subyektləri ..........................................................................475
10.2.1. Yol hərəkəti təhlükəsizliyi hüququnun prinsipləri ..............475
10.2.2. Yol hərəkəti təhlükəsizliyi hüququnun mənbələri ...............478
10.2.3. Yol hərəkəti təhlükəsizliyi hüququnun subyektləri .............486
10.3. Dövlət Yol Polisi yol hərəkəti təhlükəsizliyi hüququnun əsas subyekti kimi .........................................................................488
10.3.1. Yol hərəkəti təhlükəsizliyinin təmin olunması sahəsində Dövlət Yol Polisinin rolu və yerinə yetirdiyi funksiyalar ...488
10.3.2. Dövlət Yol Polisinin əsas fəaliyyət istiqamətləri .................491
X fəsil üzrə sxem ............................................................................503

*XI FƏSİL.* **POLİS-İNFORMASİYA HÜQUQU**

11.1. Polis-informasiya hüququ polis hüququnun institutu kimi ........ **504**
11.1.1. Polis-informasiya hüququ anlayışı ........ **504**
11.1.2. Polis-informasiya hüququnun nizamasalma predmeti ........ **506**
11.2. Polis-informasiya hüququnun prinsipləri, mənbələri və subyektləri ........ **509**
11.2.1. Polis-informasiya hüququnun prinsipləri ........ **509**
11.2.2. Polis-informasiya hüququnun mənbələri ........ **512**
11.2.3. Polis-informasiya hüququnun subyektləri ........ **517**
11.3. Polis-informasiya toplama metodunun anlayışı, xüsusiyyətləri və növlər ........ **518**
11.3.1. Polis-informasiya toplama metodunun anlayışı ........ **518**
11.3.2. Polis-informasiya toplama metodunun növləri ........ **520**
XI fəsil üzrə sxem ........ **528**
İstifadə edilmiş ədəbiyyat ........ **529**
İxtisarlar ........ **541**

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR
NAZİRLİYİNİN POLİS AKADEMİYASI

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

**© Əliyev E.Ə. POLİS HÜQUQU**

**DƏRSLİK**

Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr.

**BAKI - 2019**

# QEYD ÜÇÜN

**Əsərin II nəşri «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnalı Redaksiya Heyətinin təşəbbüsü ilə çap olunmuşdur.**


**"Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi**

Yığılmağa verilib: 08.02.2019.
Çapa imzalanıb: 13.02.2019.
Format 60x84 1/16. Ş.ç.v. 34,5.
Kağız əla növ. Tiraj 100 nüsxə.
Qiyməti müqavilə ilə

Əlaqə nömrələri:
050 319 39 75
050 220 24 42